Bəhram İbrahimov
Zərbalı Mirzə

Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası

ATKE

I cild

- 12485-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2012

Redaktor: **Məzahir Alıyev,**
şair, şərqşünas

İbrahimov Bəhram Məhəmməd oğlu, Allahverdiyev Zərbalı Mirzə oğlu.
"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) I cild.
Bakı, "Yeni Poliqrafist", 2012-ci il. 336 səh.

"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" (ATKE) kitabının 1-ci cildində Azərbaycan məmləkətini kərpic-kərpic tikib abadlaşdıran memar və inşaatçılarımızın həyat və ömür yollarından qısa və lakonik dillə oxuculara məlumat verilir. Onların arasında memarı da var, inşaatçısı da, naziri də var, fəhləsi, bənnası da, hamının tanıdığı məhşurları da var, çox az adamın tanıdığı, lakin böyük işlər görən tanınmamışlar da var. Kitabı bu şəkildə tərtib etdik ki, müstəqil Azərbaycanımızın bu günkü qurucularını hamı tanısın və hörmət eləsin.

Kitabda həmçinin milli memarlıq tariximizin inciləri olan qədim və müasir arxitektura tikililərinin, həm də hələ layihə olan gələcək memarlıq nümunələrinin foto-şəkilləri də oxuculara təqdim olunur.

Əminik ki, geniş tikinti ictimaiyyəti üçün nəzərdə tutulan bu ensiklopediya bütün inşaatçılarımızın stolüstü kitabına çevriləcəkdir.

© İbrahimov Bəhram Məhəmməd oğlu, 2012
© Allahverdiyev Zərbalı Mirzə oğlu, 2012

ÖN SÖZ

İnşaat – insan həyatının ən əsas sahəsidir. Bəşər övladı ilk dəfə ayaqları üstündə durub şüurlu məxluq kimi yeriməyə başlayanda, onun ilkin düşüncəsi özünə dalqalanmaq üçün yer tapmaq olub və onu yararlı hala çevirməklə tikinti fəaliyyətinə başlamışdır. Bu gün isə tikinti geniş əhatəli, mürəkkəb bir quruculuq sahəsidir. Ölkəmizdə quruculuq işləri məşğul olan, ölkə tikinti kompleksində müstəsna əməyi olan, sözün əsil mənasında inşaatçıların adlarını əbədiləşdirmək istəyimiz bu kitabın yazılmasına stimul verdi.

Kitabda ömür yollarına bələdçilik etdiyimiz inşaat mühəndislərinin çoxu uzun illərdir ki, ölkə tikintisinin ayrı-ayrı bölmələrinə sərişdə ilə rəhbərlik etmiş, tikinti meydançalarında məhsuldar işləməklə yanaşı dövlətə mənfəət gətirən səmərəli təklifləri, ictimai-siyasi işlərdə fəallıqları ilə də fərqlənmiş, kənd, qəsəbə, şəhər, vilayət, respublika və ümumittifaq ali sovetlərinə deputat seçilmiş, respublikamızın şəhər və kəndlərinin tikilib abadlaşdırılmasında gərgin əmək sərf etmiş insanlardır. Həmin insanlar öz ləyaqətləri, bacarıq və qabiliyyətləri ilə örnək olduqları kimi həm də gənc inşaatçı kadrların yetişdirilməsi, kənd və qəsəbələrimizin gözəlləşdirilməsi, xalq təsərrüfatının bütün sahələri üçün vacib sayılan obyektlərin tikilməsi naminə əllərindən gələni etmişlər və bu gün də öz xeyirxah missiyalarını davam etdirirlər. Onlar fərqli zaman kəsiklərində yaşayıb yaratsalar da, eyni məqsəd və amal naminə çalışmış və bu gün də çalışmaqdadırlar. Dəyərli oxucularımıza müəyyən dəyişiklik və əlavələrlə təqdim etdiyimiz "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının 1-ci cildində belə seçilən insanların şərəfli ömür yolu və qazandıqları möhtəşəm uğurlar qısa və konkret olaraq qələmə alınmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, bir çox obyektiv və subyektiv səbəblər üzündən kitabın 1-ci hissəsində tikinti kompleksində böyük xidmətləri olan məşhur və tanınmış şəxslərin, korifey inşaatçıların bəziləri haqqında heç bir məlumat əldə edə bilmədik və bu səbəbdən də kitabın səhifələrində onlara yer verə bilmədik.

Arxiv materiallarında dəqiq tərcümeyi-halların, şəkillərin olmaması, bir sıra təşkilat və qurumların tamamilə ləğv edilməsi, bir sıra səhmdar cəmiyyətlərin rəhbərliyinin bu məsələyə biganə münasibət göstərməsi və s. səbəblər ucbatından dəyərli insanların bir qismi haqqında "Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının sonrakı cildlərində bəhs etmək məcburiyyətindəyik.

Ancaq təskinliyimiz də var. Biz öz axtarış və tədqiqatlarımızı ardıcıllıqla davam etdirir, bir sıra qurumların, təşkilat və səhmdar cəmiyyətlərin rəhbərləri ilə danışıq aparır, vəfat etmiş dəyərli insanların ailə üzvləri və dost-tanışları ilə əlaqə yaradaraq doğma

Azərbaycanımızın kərpic-kərpic tikilib böyüməsində uzun zaman içərisində fədakar əmək nümayiş etdirmiş inşaatçı-mühəndislərimiz haqqında dolğun məlumatlar əldə etməyə ciddi çalışırıq. İnanırıq ki, yaxın gələcəkdə hörmətli oxucularımıza təqdim edəcəyimiz bu kitabın üçüncü cildində oxucularımızın hərtərəfli dəstəyi və köməyi ilə V.L.Pyatibrat, Ə.Ə.Əliyev, F.Z.Musabəyov, R.M.Abdullayev, A.Ə.Mansurov, R.Səlimsadə, M.B.Kabakov, F.Eyvazov, H.S.Şahsuvarov, R.Ağahüseynov, D.Qayıbov, M.N.Mərdanov, N.Ə.Məmmədov, N.Ə.Məmmədov, Ə.S.Həsənov, O.S.Əsədov, Albert, Borisenko, Taran, S.A.Fətəliyev, İ.Mehdiyev, T.Məmmədov, M.Kasimov, V.A.Petrov, Ş.Musayev, A.İ.Qulamov, S.Bədəlbəyli, O.M.Məmmədov, Ə.Q.Kərimov, Z.Ə.Mustafayev, K.Əliyarzadə, N.A.Sadıxov, S.İ.Qruşetski, Z.İ.Abdullayev, Dağkəsəmənski, R.İ.Rzayev, H.Rzayev, S.S.Sadıxov, X.M. Sadıxov, İ.Şaxverdiyev, Ş.Məmmədov, Z.Bənəniyarlı, Y.Nağıyev, M.Seyidov, M.Gözəlov, N.Z.Bekker, F.A.Qoltsman, D.Muğanlinski, H. Muradxanov, A.Bədəlov, Q.M.Məmmədov, Z.Şabanbəyov, İ.R. Əfəndiyev, A.Qasımov, S. Hüseynov, Ə.R.Topçiyev, O. Zeynalov, O.Z.Hacıyev, O.M.Hüseynov, Ə.M.Əfəndiyev, H.N. Həsənov və Azərbaycanımızın tikinti-quruculuq tarixində iz buraxmış digər yüzlərlə tanınmış inşaat korifeylərinin də həyat yolunu əbədiləşdirməyə nail olacağıq.

Arzu edərdik ki, diqqətli oxucularımız vacib saydıqları və tikintidə əməyi olan ayrı-ayrı dəyərli insanlar-inşaat mühəndisləri haqqında bildikləri məlumatları bizə çatdırsınlar. Bunun üçün onlara əvvəlcədən öz minnətdarlığımızı bildirir və əlaqə telefonlarımızı xatırladırıq:

(050) 506 26 21
(050) 358 91 67

A



Abbasov Məmmədəli Məmməd oğlu

əslən Naxçıvanlı olsa da ailə vəziyyəti ilə əlaqədar 1907-ci ilin yanvar ayının 7-də Viadiqafqazda anadan olmuşdur.

O, 1924-1929-cu illərdə Leninqrad (indiki Sankt Peterbruq) Yol Mühəndisləri İnstitutunun yol tikintisi fakültəsində ali təhsil almış, təyinatla Bakıya göndərilmiş, Dövlət Şosse yolları idarəsində iş ustası, sahə rəisi və iş icraçısı vəzifələrində işləmişdir. Bakıda, Mildə, Muğanda, Naxçıvanda, Dağlıq Qarabağda, Şirvanda, Abşeronda təzə yollar çəkmiş, bir neçə körpü salmışdır. 1932-ci ildə qızıl ordu sıralarına çağrılmışdır. Ordudan tərxis olunduqdan sonra yenicə təşkil olunmuş Azərbaycan Dövlət Tikinti İdarəsinə rəis təyin edilmişdir.

Çox çəkmir ki, Azərneft birliyi tərkibində yeni tikinti bölməsi təşkil olunur və M.M. Abbasovu həmin idarəyə rəis təyin edirlər. Sonralar birliyin tikinti üzrə Baş idarəsi yaradıldıqda o, bu idarədə rəis müavini kimi fəaliyyət göstərir.

M.M. Abbasov 1944-cü ildə Bakını tərk etmək məcburiyyətində qalır. 1957-ci ilə qədər Moskvada yaşayıb, yaradıb, işləyib. Əvvəlcə SSRİ Neft Sənayesi Nazirliyinin Şərq regionları üzrə Baş idarə rəisinin müavini, az sonra isə rəisi olmuşdur. Bu vəzifədə işlədiyi müddətdə Bakı Neft mədənlərinin yenidən qurulmasında, neftçilər üçün inzibati binaların, yaşayış evlərinin tikintisində əl izləri qoymuşdur.

M.M. Abbasov Bakıya qayıdan kimi (1957-ci il) onu "Azərdənizneftikinti" İdarəsinin rəis müavini vəzifəsinə təyin edirlər. Sonra Azərbaycan Xalq Təsərrüfatı Şurasının Tikinti İdarəsinə rəhbərlik edir (1959-cu il).

Ümumittifaq hökumətinin qərarına uyğun olaraq Azərbaycandakı bütün tikinti bölmələri birləşdirilir və yeni bir nazirlik – Azərbaycan SSP Tikinti Nazirliyi yaradılır. O, həmin nazirliyin ilk rəhbəri olur (1960-cı il). Çox çəkmir ki, həmin nazirlik bir neçə təşkilata bölünür. M.M. Abbasov Azərbaycan SSR Sənaye Tikinti Naziri vəzifəsinə təsdiq olunur və 1970-ci ilə qədər həmin vəzifədə çalışır. 1970-ci ildə tutduğu vəzifədən kənarlaşdırılsa da, sonralar Azərbaycanda kurort tikintisinə rəhbərlik edir.

M.M. Abbasov 2000-ci ilin noyabr ayının 22-də Bakı şəhərində vəfat etmişdir.



Abasov
Elşən
Litvin oğlu

02 sentyabr 1963-cü ildə Bakı şəhərində anadan olub. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib, inşaatçı-mühəndis ixtisasına yiyələnib.

O, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını yerli özünüidarəetmə və bələdiyyələrlə iş ixtiasası üzrə bitirmişdir.

E.L. Abasov 1994-2007-ci illərdə Azərbaycan Respublikası Prezident Aparatında Regional İdarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində çalışmışdır.

28 iyun 2007-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Goranboy rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuşdur.

E.L. Abasov 2009-cu ildən "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavinidir.

Ailəlidir, 2 övladı var.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

E.L. Abasovun babası İbiş Vəli oğlu Abasov dövrünün sayılan kişilərindən və nüfuzlu ictimai xadimlərindən biri olub. O, uzun müddət Ermənistanda Vedi rayon partiya Komitəsinin katibi və Qarabağlar rayon Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır. Atası Litvin Abasov isə Respublikanın Əməkdar mühəndisi, bir çağırış respublika Ali Sovetinin deputatı və son 30 ildən çox bir dövrdə kənd tikintisinin rəhbəri, hazırkı vaxtda isə "Azərkəndtikinti" ASC-nin sədridir. Şöhrət ordenlidir. Belə kişilərin ocağında Elşən Abasov kimi övlad dünyaya gəlməliydi.

E.L. Abasov Goranboy rayon icra Hakimiyyətinin başçısı işlədiyi illərdə Goranboy rayonu öz kəndləri ilə birlikdə əsil tikinti-quruculuq meydanına çevrilmiş, rayonda yeni istehsal müəssisələrinin yaradılması, yeni iş yerlərinin açılması istiqamətində aparılan işlər daha da sürətləndirilmişdir.

Bu dövr ərzində "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində ölkə prezidenti cənab İlham Əliyevin göstərişi ilə yerli xammalla işləyən və rayonun Goran ərazisində yerləşən "Gilan&Knauf" gips-korton MMC, "Gilan-Holdinq" gips zavodu, Muzdurlar kənd ərazisində yerləşən "Türk Yapı Sənaye" MMC-nin Gips zavodu tikilib istifadəyə verilmiş, rayonun Qaşaaltı Qaraqoyunlu, Qasımbəyli kəndlərində müalicəvi neftin çıxdığı ərazidə 2 müasir üslublu sanatoriya-müalicə müəssisəsi tikilmiş, eyni zamanda Kürəkçay üzərində yeni qum-çınqıl istehsalı müəssisələrinin tikintisi başa çatdırılmışdır.

Həmçinin müxtəlif adda məişət avadanlıqları, eyni zamanda plastik boru, lambrin istehsal edən "Qalib Qrup" MMC, müxtəlif inşaat materialları, yağlı boya istehsal edən "Cehsan" MMC, müxtəlif çeşiddə üzlük daş istehsal edən "Orxan" MMC fəaliyyətə başlamış və bu hesaba rayon kənd təsərrüfatı ilə paralel surətdə sənaye təməli üzrə də inkişafa qədəm qoymuşdur.

Bundan başqa Goranboy şəhərində şəhid ailələri, Qarabağ müharibəsi, 20 Yanvar və Çernobıl əlilləri üçün 2 mərtəbəli 8 mənzilli və 13 mənzilli yaşayış evləri tikilib istifadəyə verilmiş, Əhalinin Sosial Müdafiəsi Mərkəzi, Əhalinin Sosial Müdafiə Fondu və rayon Prokurorluğu üçün yeni inzibati binaların tikintisi başa çatdırılmışdır.


Həmçinin mərkəzi kolxoz bazarı yenidən tikilmiş, Zeyvə, Səfibəyli və Qaraqucaq kəndlərində Qaraçay üzərində körpülərin, Nadirkənd ərazi icra nümayəndəliyinin inzibati binasının, Todan kəndində sərnişin dayanacağının, Goranboy şəhərinə Goran istiqamətindən girişdə 5,0 hektar ərazidə mehmanxana tipli istirahət kompleksinin, Trikotaj fabrikinin, Heydər Əliyev prospektində müasir üslublu məişət evinin, yeni bank filialının, Dəliməmmədli şəhərində 2 mərtəbəli çoxsahəli müasir məişət evinin və Heydər Əliyev prospektində 2 min kvadrat metrdən artıq piyada yolunun müasir üslubda tikintiləri də başa çatdırılmışdır.

Rayonda əhaliyə göstərilən səhiyyə xidmətini daha da yaxşılaşdırılmaq məqsədi ilə rayon Mərkəzi xəstəxanasının 2 şöbəsində, Qızılhacılı qəsəbə və Xan Qərvənd kənd xəstəxanalarında əsaslı təmir işləri aparılmış, Qarqucaq və Nizami kəndlərində isə müasir tipli 2 mərtəbəli həkim məntəqəsi tikilib istifadəyə verilmişdir.

Bundan başqa müasir tipli 2 mərtəbəli Uşaq İncəsənət məktəbi üçün yeni bina tikilmiş, Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkı tamamilə yenidən qurulmuş, park daxilində Ana və Uşaq Kafesi və Ağsaqqallar evi tikilib istifadəyə verilmiş, yeni Gənclər parkının və park daxilində Rəsm Qalareyası və Gənclər evi üçün yeni inzibati binanın tikintisi başa çatdırılmışdır.

Elşən Abasov 2009-cu ildən "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini təyin olunduqdan sonra isə onun həyatının inşaatla bağlı yeni səhifələri açılmış və o, respublikamızın bir sıra bölgələrində sosial obyektlərin tikintilərinə rəhbərlik etmişdir.

O, bu gün də Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun xətti ilə məcburi köçkün ailələri üçün yeni qəsəbələrin və yaşayış məhəllələrinin salınmasında və sosial yönümlü, müxtəlif təyinatlı infrastruktur layihələrinin həyata keçirilməsində yaxından iştirak edir.



Məcburi köçkün ailələri üçün yeni yaşayış qəsəbəsindən bir görüntü



Abasov
Litvin
İbiş oğlu

06 aprel 1937-ci ildə Qədim Azərbaycan torpağı olan İrəvan şəhərində (indiki Ermənistanın Yerevan şəhəri) anadan olmuşdur. O, 1953-cü ildə Bakıya gəlmiş və "AZİ"-yə (indiki Neft Akademiyası) qəbul olunmuşdur. Azərbaycan Hökumətinin qərarı ilə 1956-cı ildə Litvin Abasovun təhsil aldığı fakültəni Politexnik İnstitutunun inşaat fakültəsinə keçirirlər (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti).

O, 1959-cü ildə institutun sənaye-mülki tikinti fakültəsini bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. O. daha sonra -1982-ci ildə keçmiş SSRİ Nazirlər Sovetinin "Xalq Təsərrüfatı Akademiyası"nı Xalq Təsərrüfatının İdarəetməsi ixtisası üzrə bitirmişdir.

L.İ. Abasov əmək fəaliyyətinə Azərbaycan SSR Sənayetikinti Nazirliyinin 4 nömrəli trestində fəhləlidən başlamışdır. 1959-cu ildə həmin trestin 4 nömrəli Dəmir-Beton Məmulatları zavodunda poliqon rəisi, istehsalat-texniki şöbənin rəisi, Divar Blokları zavodunda baş mühəndis, nəhayət "Dəmir-Beton" trestinin 4 nömrəli "Dəmir-Beton" zavodlarının baş mühəndisi və direktoru vəzifələrində çalışmışdır.

L.İ. Abasov 1970-1979-cu illərdə "Dəmir-Beton" trestinin müdiri, 1979-1980-cı illərdə Sənayetikinti Nazirliyinin Mexanizasiya İdarəsinin rəisi, 1980-1986-cı illərdə Azərbaycan SSR Kəndtikinti nazirinin müavini, 1986-1989-cu illərdə Azərbaycan Dövlət Aqrar Sənaye Komitəsi Əsaslı Tikinti üzrə baş idarə rəisinin birinci müavini, 1989-1993-cu illərdə "Azərkəndtikinti" İstehsalat Birliyinin rəisi, 1993-1999-cu illərdə "Azərkəndtikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsində çalışmışdır.

L.İ. Abasov Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyevin 131 nömrəli Sərəncamı ilə 13 aprel 1999-cu ildə "Azərkəndtikinti" ASC-nin sədri təyin olunmuşdur.

O, 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və "Əmək Şöhrəti" medalı ilə, 1971-ci ildə "Şərəf Nişanı" ordeni ilə təltif olunmuşdur. 1990-1995-ci illərdə Milli Məclisin deputatı olmuşdur.

L.İ. Abasov 1976-cı ildə respublikanın "Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür.

2007-ci ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Sənaye Tikinti Nazirliyinin nəzdində 10 müəssisəni özündə birləşdirən "Dəmir-Beton" trestinə rəhbərlik etdiyi illərdə Litvin müəllim ona göstərilən etimadı şərəflə doğrultmuş, özünü bacarıqlı rəhbər, texniki tərəqqinin tələblərinə cavab verən, istehsalın yenidən qurulmasına səy göstərən səriştəli, peşəkar mühəndis kimi göstərmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının dövlət rəhbərliyinə gəldiyi zaman ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi kənd təsərrüfatının bütün sahələri üzrə də gerilik var idi. Onun təkidi ilə kənd təsərrüfatının inkişafı ilə əlaqədar vaxtı ilə Sovet dövründə bir neçə mühüm qərarlar qəbul edilmişdir.

Belə ki:

- 1970-ci ildə Azərbaycan SSR-nin kənd təsərrü-





1. Vaxtilə Kənd Tikinti Nazirliyinin laboratoriya binası olan bu bina bu gün Əmlak Məsələləri Dövlət Komitəsinə məxsusdur. **2.** Milli Kitabxana kənd tikinti inşaatçılarının əsaslı təmirindən sonra.

fatının inkişafı haqqında tədbirlər;

- 1975-ci ildə Azərbaycan SSR-nin kənd təsərrüfatı məhsullarının intensifikasiyası haqqında tədbirlər;

- 1979-cu ildə Azərbaycan SSR-də kənd təsərrüfatı məhsullarının ixtisaslaşdırılması, üzümçülüyün və şərabçılığın inkişafı və s.

Bu qərarlarda ölkənin kənd təsərrüfatının perspektiv inkişafı nəzərdə tutulmuşdur. Heç də təsadüfi deyil ki, bu 10 il ərzində kənd təsərrüfatında və onun sahələrində köklü dəyişikliklər olmuşdur.

Kənd təsərrüfatının inkişafına 1970-1980-ci illərdə (10 il ərzində) kapital qoyuluşu əvvəlki 10 illə müqayisədə 2.4 dəfə, su təsərrüfatı tikintisinə 3 dəfə, heyvandarlıq komplekslərinin tikintisinə və avadanlıqların alınmasına isə 2.5 dəfə artmışdır. Naxçıvanda, DQMV-də, Lənkəranda möhtəşəm hidrotexniki qurğular tikilmişdir. Kolxoz, sovxoz təsərrüfatlararası müəssisələrdə iri buynuzlu mallar üçün tikilən binaların, mexanikləşdirilmiş anbarların 55 faizi bu illərdə tikilib istifadəyə verilmişdir. Qeyd etmək lazımdır ki, IX və X beşilliklərdə ölkədə 13.8 mln. kv.m mənzil sahəsi istifadəyə verilmişdir ki, bu da IV, V, VI beşilliklərdə birgə tikilmiş mənzil sahələrindən çoxdur. Xüsusən mənzil tikintisi kənd yerlərində vüsət almışdır. Keçmiş 10 il ərzində dövlət, kolxoz və əhalinin vəsaiti hesabına 5.1 mln. kv. m mənzil sahəsi istifadəyə verilmişdir ki, bu da o dövrdə Sumqayıt, Kirovabad, Mingəçevir və Əli Bayramlı şəhərlərini birgə götürsək onların ümumi mənzil fonduna bərabərdir.

1980-ci ildə Kəndtikinti Nazirliyi qarşısında kənd təsərrüfatının inkişafı və onun maddi texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar qarşıda tikinti-quraşdırma işlərinin həcminin artması, tikinti işlərinin sənayeləşməsi kimi böyük vəzifələr dururdu.

1980-cı ildə Litvin İbiş oğlu Abasov bu Nazirliyə nazir müavini vəzifəsinə təyin edilmişdir. O, 1980-1986-cı illərdə bu vəzifədə çalışaraq kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, kənd təsərrüfatına xidmət edən sahələrlə əlaqədar yeni və genişləndirilməsi nəzərdə tutulan sənaye obyektlərinin, eləcə də mülki-yaşayış və digər xidmət obyektlərinin vaxtında tikilib istifadəyə verilməsi üçün bütün tədbirlər görmüşdür.

Bu vəzifədə onun səmərəli idarəçilik üsulu, mühəndis peşəkarlığı, dövlətçiliyə bağlılığı bir daha özünü büruzə vermişdir.

Çətin və zəngin əmək fəaliyyətindən göründüyü kimi, Litvin müəllim 1980-ci ildən bu günə kimi 32 ildən çoxdur ki, öz qüvvəsini, biliyini və təcrübəsini Azərbaycan kəndinin abadlaşdırılmasına, kənd təsərrüfatı məhsullarının artırılması və insanların maddi rifahının yaxşılaşdırılması ilə əlaqədar müəssisələrin, mülki-yaşayış və xidmət binalarının tikilməsinə yönəltmişdir.

1960-1970-ci illərdə korifey inşaatçıların Məmmədəli Abasovun, Əlövsət Əbdülrəhimovun, Qurban Sultanovun və Dadaş Asanovun məktəbini keçmiş Litvin Abasov hal-hazırda tikinti kompleksində çalışan orta və cavan nəsil inşaatçılar üçün korifey, ustad – müəllim inşaatçılardan sayılır.

O, hələ 1976-cı ildə (35 il bundan əvvəl) unudulmaz Heydər Əliyev tərəfindən tikintidə xidmətlərinə görə ən yüksək mühəndislik tituluna – Respublikanın Əməkdar mühəndisi fəxri adına layiq görülmüşdür.

Fərəhlə qeyd etmək lazımdır ki, 50 illik əmək fəaliyyətinin 30 ilindən çoxunu, yəni 80-ci illərin sonlarından bu günə kimi Litvin İbiş oğlu

Kəndtikinti Nazirliyinin sükanını məharətlə idarə edir.

Bu dövr ərzində qaçqın və məcburi köçkünlər üçün yaşayış evlərinin tikintisində, zəlzələdən zərər çəkmiş, eləcə də strateji əhəmiyyət kəsb edən obyektlərin bərpasında, Heydər Əliyev Fondunun vəsaiti ilə "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində respublikamızın ayrı-ayrı regionlarında məktəb binalarının, xəstəxana və digər xidmət obyektlərinin inşasında müasir dövrdə Litvin Abasovun rəhbərlik etdiyi "Azərkəndtikinti" ASC-nin kollektivi fəallıq göstərib və keyfiyyətli işləri ilə seçilib.

Ölkəmizdə kənd tikintisinin əldə edilmiş uğurlarda Litvin müəllimin xidmətləri çox böyükdür. Litvin İbiş oğlunun ağsaqqallığı, inşaatçı-mühəndis peşəkarlığı, böyük təcrübəsi, rəhbərlik etdiyi kollektivi vahid məqsəd ətrafında toplayaraq düzgün istiqamət verməsi onun müstəqil ölkəmizdə korifey inşaatçılarından biri olmasından xəbər verir.

Belə korifey insanların keçdiyi yollar, əldə etdiyi təcrübələri tərifə layiqdir və öyrənilməlidir. Onlardan hər zaman bəhrələnmək lazımdır.



Abasov Şamo Yelmar oğlu

17 iyun 1936-cı ildə Ermənistan SSR Sisian rayonunun Murxuz kəndində anadan olub. İbtidai təhsilini doğulduğu Murxuz kəndində alıb. Orta təhsilini 1953-cü ildə Naxçıvanda – 1 nömrəli oğlanlar məktəbində başa vurub. O, 1953-cü ildə də Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə qəbul olunub və 1958-ci ildə tam kursu bitirərək mühəndis – energetik ixtisasına yiyələnmişdir.

Gənc və savadlı mütəxəssis kimi Şamo Abasov 1958-ci ildə təyinatla "Azərenerji" Baş İdarəsinə göndərilir və 1974-cü ilə kimi o, bu baş idarədə qrup rəhbəri, şöbə müdiri və idarə rəisi vəzifələrində çalışmışdır.

Şamo Abasovun əmək yolu 1974-cü ildən Azərbaycan SSR Kənd Tikinti Nazirliyinə tərəf istiqamətlənir və o, nazirliyin Xaçmazda yerləşən 16 nömrəli ixtisaslaşdırılmış quraşdırma idarəsinin rəisi kimi kənd tikintisində işlə başlayır – 1982-ci ilə kimi bu idarədə böyük əmək qələbələri qazanır.

O, 1982-ci ildə "Azərkəndtikintiquraşdırma" trestinin müdiri təyin olundu və uzun müddət, hardasa 15-16 il bu trestə çox böyük bacarıq və səriştə ilə rəhbərlik edə bildi. Bundan əlavə, o, artıq 1991-ci ildən trest müdiri olmaqla paralel olaraq həm də "Azərkəndtikinti" İstehsalat Birliyinin rəis müavini idi.

1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının sərəncamı ilə digər tikinti yönümlü istehsalat birlikləri ilə yanaşı "Azərkəndtikinti" İstehsalat Birliyi ləğv olundu. Və bu zaman birliyin bir çox idarə və müəssisələri kimi Şamo Abasovun rəhbərlik etdiyi "Azərkəndtikintiquraşdırma" tresti də İqtisadi İnkişaf Nazirliyinin balansına daxil oldu. Şamo Abasov 2006-ildə tresti özəlləşdirmiş və onun bazasında "İxtisaslaşdırılmış kənd tikinti" Açıq Səhmdar Cəmiyyətini yaratmışdı. 2002-ci ilin ortalarına kimi Şamo Abasov bu Səhmdar Cə-

miyyətinin idarə heyətinin sədri idi.

Şamo Abasovun kənd tikinti sistemindəki fəaliyyəti öz spesifikliyi ilə seçilir. Belə ki, Kənd Tikinti Nazirliyinin 1982-ci ildən üzü bu yana tikib – ərsəyə gətirdiyi bütün obyekt və tikililərdə, irili – xırdalı komplekslərdə ixtisaslaşdırılmış quraşdırma işləri onun rəhbərlik etdiyi trestin inşaatçıları tərəfindən həyata keçirilib.

Elektrik xətlərinin çəkilməsi, kanalizasiya, kürəbənd xətlərinin, eləcə də su borularının obyektə çəkilməsi, obyektdaxili su, kanalizasiya, işıq, qaz, santexnika işlərinin həyata keçirilməsi və ən nəhayət, obyektlərdə lazımi avadanlıqları quraşdırmaqla onu təhvilə hazır vəziyyətdə gətirmək kimi işlər "İxtisaslaşdırılmış Kənd Tikinti" Açıq Səhmdar Cəmiyyəti kollektivinin yüksək professionallıqla və səriştə ilə həyata keçirdikləri vəzifələr idi.

Dünyada gördüyün işə, tutduğun əmələ görə zaman – zaman zövq ala bilməkdən gözəl nə ola bilər axı? İnşaatçılar bu mənada çox xoşbəxt zümrədirlər, tikirlər, izləri qalır, tikdikləri həm onları yaşadır, həm də xalqa xidmət göstərir.



Abbasov Məmmədəli Həsən oğlu

5 yanvar 1937-ci ildə Bakı şəhərinin Kürdəxanı qəsəbəsində kolxozçu ailəsində anadan olmuşdur. Əslən İran İslam Respublikasının Təbriz şəhərindədir. Atası Həsən kişi gənc yaşlarında Bakıya köçmüş və Buzovna kəndində yaşamağa başlamışdır. Əvvəlcə Ramana neft mədənlərində işləmiş, ötən əsrin 30-cu illərində isə Kürdəxanı kəndinə köçərək buradakı Orconikidze adına kolxoza daxil olmuşdur.

M.H. Abbasov erkən yaşlarında atasını (1938-ci il), sonra isə anasını (1942-ci il) itirmişdir. Nənəsi Xanım Ələkbər qızının himayəsində böyüyüb boya-başa çatmış, 1944-1954-cü illərdə Kürdəxanıdakı 113 nömrəli orta məktəbdə təhsil almışdır. Orta məktəbi bitirən kimi K.Marks adına Xalq Təsərrüfatı İnstitutunun iqtisad fakültəsinə daxil olmuşdur. Sonralar bu institut S.M.Kirov adına ADU ilə birləşdiyindən M.H. Abbasov 1959-cu ildə universitetin iqtisad fakültəsini bitirmişdir.

M.H. Abbasov təyinatla Suraxanı Neftqazçıxarma İdarəsinə göndərilmiş, 1959-1974-cü illərdə bu idarənin fəhlə təchizatı şöbəsində məsul və rəhbər vəzifələrdə işləmişdir. 1974-1975-ci illərdə Azərneft Kəşfiyyatı FTİ-nin rəisi, 1976-1977-ci illərdə SSRİ Neft Sənayesi Nazirliyinin Xəzərdənizneft İstehsalat Birliyi baş direktorunun müavini, FTİ-nin rəisi vəzifəsində fəaliyyət göstərmişdir. 1978-1988-ci illərdə Bakı şəhəri Oktyabr rayon yeyinti ticarəti idarəsində baş inspektor, 1988-1991-ci illərdə "Azərelektriktikintiquraşdırma" trestində FTİ-nin rəisi, 1991-1994-cü illərdə isə "Neftqazenerjiquraşdırma" trestində FTİ-nin rəisi vəzifələrində çalışmışdır. 1994-cü ildə həmin idarə ləğv olunmuşdur.

M.H. Abbasov harada və hansı vəzifədə işləmişdirsə, həmişə və hər yerdə tikinti kompleksi ilə əlaqədə olmuş, tikinti-quraşdırma və abadlıq işlərində öhdəsinə düşən vəzifələrin öhdəsindən məharətlə gəlmişdir. Bakı və ətraf rayonlarda neftçilər üçün inşa edilən sosial-mədəni obyektlərdə, salınan təzə qəsəbələrdə, quraşdırılan neft buruqlarında çalışan inşaatçılara ticarət və iaşə xidmətinin göstərilməsində, iş paltarları ilə təchizat və s. işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsində bilavasitə və fəal iştirak etmişdir. Buna görə də "İttifaq Neft sənayesinin əlaçısı" döş nişanı almış (1971-ci il), "Sovet ticarəti əlaçısı" (1972-ci il) adına layiq görülmüşdür. Neft sənyesi tikintisi ilə məşğul olan inşaatçı quraşdırıcılara xidmətdə fərqləndiyinə görə 1970-ci ildə "Lenin Yubileyi" medalı ilə təltif olunmuş, 1976-cı ildə isə Ümumittifaq sosializm yarışında qaliblər sırasında olaraq xüsusi döş nişanı almışdır.

M.H. Abbasov "Azərelektriktikintiquraşdırma" və "Neftqazenerjiquraşdırma" trestinin bölmələrində rəis işlədiyi illərdə təkcə Bakıda deyil, həm də Şirvan, Mingəçevir, Sumqayıt, Naxçıvan, Yevlax, Neftçala, Şəki, Gəncə, eləcə də digər rayon və şəhərlərdə aparılan tikinti-quraşdırma işlərində fəal iştirak etmiş, inşaatçı-quraşdırıcılara xidmət edən ticarət və iaşə müəssisələrinin səmərəli fəaliyyətini təşkil etmişdir. Yaraşıqlı mehmanxanaların, abad və səliqəli mədəniyyət evlərinin, məktəb və uşaq bağçalarının, mənzillərin tikintisində onun da öz payı olmuşdur. Buna görə də bir neçə medalla, döş nişanları və fəxri fərmanlarla təltif olunmuşdur.

M.H. Abbasov 1999-2004-cü illərdə Kürdəxanı Bələdiyyəsinin sədri işləmişdir. Hazırda təqaüddədir. 2009-cu ildən Azərbaycan Respublikası Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvüdür.



Abbasov Yafəz Ələkbər oğlu

21 avqust 1932-ci ildə Ermənistanda anadan olmuş, 1953-cü ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur.

Ali məktəbə qəbul edilməmişdən – 1952-ci ilin aprel ayından 1953-cü ilin iyun ayına kimi "Azərelmitexnikineft" axtarışlarının tədqiqi ilə məşğul olan institutda texnik işləmişdir. 1956-1957-ci illərdə Azərbaycan Politexnik İnstitutunda komsomol komitə katibi kimi fəaliyyət göstərmişdir. 1958-1966-cı illərdə "Azdövsutəsərrüfatı" İnstitutunda texnik, mühəndis, böyük mühəndis vəzifələrində çalışmışdır.

Y.Ə. Abbasov 1966-cı ilin sentyabr ayından ömrünün sonunadək (2000-ci ilin iyul ayına kimi) Azərbaycan SSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi (Meliorasiya və Su Təsərrüfatı ASC) nəzdindəki müxtlif bölmələrdə texniki şöbənin baş mühəndisi, Su ehtiyatlarının otlaqlara verilməsi şöbəsinin rəisi, qışlaqların su ilə təminatı şöbəsinin müdiri, sudan istifadə və su ehtiyatlarının yaradılması şöbəsinin müdiri, Samur-Abşeron su kanalı idarəsinin rəis müavini və rəisi, sudan istifadəyə nəzarət idarəsinin rəisi və digər vəzifələrdə fəaliyyət göstərmişdir.

Y.Ə. Abbasov 1969-1970-ci illərdə sovet mütəxəssislərinin tərkibində Yəmən Respublikasında nəhəng su bəndlərinin və qovşaqlarının tikilməsində fəal iştirak edərək Azərbaycan Respublikasını ləyaqətlə təmsil etmişdir.

Qüsursuz işinə, fəal əməyinə görə dəfələrlə pulla mükafatlandırılmış, çox sayda tərifnamələr, fəxri fərmanlar və döş nişanları ilə təltif olunmuşdur.



Abdullayev
Saleh
Nəcəfqulu oğlu

16 yanvar 1946-cı ildə Əli Bayramlı rayonunun Qazı Məmməd şəhərində (indiki Hacıqabul rayonu) anadan olmuşdur. 1953-cü ildə Hacıqabul şəhər orta məktəbinin 10-cu sinfini bitirib, həmin ildə də Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində imtahanları müvəffəqiyyətlə verərək tələbəlik həyatına qədəm qoyur.

S. N. Abdullayev hələ tələbə ikən paralel olaraq, 3 il müddətində tikinti sahələrində fəhlə kimi çalışmışdır. O, 1968-ci ildə Politexnik İnstitutunun inşaat fakültəsini mülki və sənaye tikintisi ixtisası üzrə bitirərək, inşaat mühəndisi ixtisasına yiyələnmişdir. Həmin ilin avqust ayında təyinatla Azərbaycan Respublikası Sənaye Tikinti Nazirliyinin sərəncamına göndərilmişdir. 19 il ərzində həmin nazirliyin Bakı və Sumqayıt şəhərlərində yerləşən müxtəlif təşkilatlarında tikinti ustası vəzifəsindən başlayaraq iş icraçısı, sahə rəisi, 86 nömrəli Tikinti İdarəsində baş mühəndis və idarə rəisi, eləcə də 8 nömrəli trestin baş mühəndisi və trest müdiri əvəzi kimi müxtəlif vəzifələrdə əmək fəaliyyətini davam etdirmişdir. 1982-ci ildən etibarən nazirliyin Sumqayıt şəhərində yerləşən təşkilatlarında, 1 nömrəli trestin 11 nömrəli Tikinti İdarəsinin rəisi, 1 nömrəli Ağac emalı Zavodunun direktoru və Sumqayıt Evtikmə Kombinatında rəis müavini vəzifələrində çalışmışdır.

1987-ci ildən Kənd Tikintisi Nazirliyində Tikinti Materialları Sənayesi trestinin baş mühəndisi və 1988-ci ildən hal-hazıra qədər həmin nazirliyinin 1 nömrəli Ağac Emalı Zavodunun direktoru vəzifəsində çalışır. Müəssisə 2001-ci ildən səhmdar cəmiyyətə çevrildikdən sonra da cəmiyyətin İdarə Heyətinin sədri kimi fəaliyyətini davam etdirir.

S. N. Abdullayev əmək fəaliyyəti dövründə baş podratçı təşkilatın rəhbəri, sahə rəisi kimi bir çox əhəmiyyətli tikintilərin inşasında fəaliyyət göstərmişdir. Bunlardan H.Əliyev adına Dəniz Özülləri Zavodunun tikintisi, Sumqayıt Kimya Kombinatının tikintisi, "Azərnəşr"in yeni binasının tikintisi, bir neçə mikrorayonlar, eləcə də xeyli sosial obyektlərin inşasını göstərmək olar.

S. N. Abdullayev tikinti sənayesi müəssisəsi olan Ağac Emalı Zavodunun rəhbəri kimi 20 ilə yaxın fəaliyyəti zamanı Bakı və Sumqayıt şəhərlərində, eləcə də respublikanın bütün başqa rayonlarında gedən tikinti obyektlərinin komplektləşdirilməsi vaxtında təmin edilmişdir.

O, dəfələrlə rayon Xalq Deputatları Sovetinin deputatı və Bakı şəhər Xalq Deputatları Sovetinin deputatı seçilmişdir.

Hələ 1990-cı ildən rəhbəri olduğu 1 nömrəli Ağac Emalı Zavodu icarə müəssisəsi kimi qeydə alınmış və fəaliyyət göstərmişdir.

S. N. Abdullayev 1991-ci ildən Azərbaycan-Turkiyə "Xəzər" Birgə Müəssisəsini yaratmaqla zavoda müasir avadanlıqların gətirilməsinə nail olmuşdur. Özəlləşmə prosesi başlayandan sonra müəssisəni açıq səhmdar cəmiyyətə çevirmiş və 2001-ci ildən etibarən kollektiv özəlləşdirməni təmin etmişdir. Hal-hazırda müəssisə yüz faizli özəl təşkilatdır.

O, həmin cəmiyyətin əsas səhmdarı olmaqla yanaşı, həm də İdarə Heyətinin sədri kimi əmək fəaliyyətini davam etdirir.

S. N. Abdullayev 2008-ci ildən M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının təsərrüfat işləri üzrə prorektorudur.

2009-cu ildən Azərbaycan Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvüdür.



Abdullayev
Sultan
Kərim oğlu

1936-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun yetirməsidir.

S. K. Abdullayev 1959-cu ildə təyinatla T.Qasımovun rəis olduğu Bakı şəhər tikinti quraşdırma trestinin, O.B.Frenklein rəis olduğu 21 nömrəli (sonralar 48 nömrəli) tikinti-quraşdırma idarəsinə göndərilmişdir. O, sonralar Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 48 nömrəli tikinti idarəsində iş icraçısı, sahə rəisi işləmiş, Sovet Ordusu sıralarında xidmət etmiş, xarici ölkələrdə və Azərbaycanda hərbi obyektlərin tikintisində məsul və rəhbər vəzifələrdə işləmişdir.


S. K. Abdullayev 50 il bundan öncə ali məktəbi bitirib inşaatçı-mühəndis diplomu ilə Bakı şəhər Tikinti-quraşdırma trestinin 21 nömrəli TQİ-yə təyinat almışdır. Trestin müdiri T.Qasımovun tapşırığı ilə tikinti-quraşdırma idarəsinin Badamdar qəsəbəsindəki 2 mərtəbəli binası, ən hündür nöqtədə tikilən radio-televiziya xətti üçün qüllə və texniki tikintisində böyük əmək sərf etmişdir.

Əzizbəyov rayonu ərazisindəki obyektlərdə, o cümlədən Mərdəkan qəsəbəsindəki mədəniyyət sarayının tikintisində, 1961-1967-ci illərdə isə Yeni Bakı Neftayırma Zavodunun tikintisində, neftin krekinq üsulla emalı qurğusunda – şərti olaraq "Qurğu-1A", "Qurğu 2A", Nasos stansiyası, kompressor sexi və texnoloji dairə, su sistemləri-"d-1500 mm", "d-960 mm" və "d-400 mm" qurğularında iş icraçısı, baş iş icraçısı, sahə rəisi kimi fəaliyyət göstərmişdir.

SSRİ Silahlı Qüvvələrində qulluq etdiyi illərdə Semplatinski vilayətindəki hərbi hissə üçün lazım olan ən vacib obyektlərin tikilməsində, Uzaq Şərqdə - Saxalin yarımadası, Kuril adaları və Amur vilayətindəki hərbi əhəmiyyətli tikintilərdə, Bakı qarnizonundakı hərbi şəhərciklərin tikintisində, Azərbaycanın Milli Ordusunun halhazırda yerləşdiyi hərbi şəhərciklərin salınmasında, əsgər yataqxanalarının və kommunal qurğuların inşasında çalışmışdır.

S. K. Abdullayev 1991-1997-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyində, nazirin tikinti və mənzil təminatı üzrə idarə rəisinin müavini, Müdafiə Nazirliyinin mənzil və istismar idarəsinin rəisi vəzifəsində çalışmışdır. 1997-ci ilin may ayından polkovnik rütbəsində istefaya çıxsa da Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsində mühəndis vəzifəsində fəaliyyətini davam etdirir.

S.K. Abdullayevin əməyi bütün zamanlarda rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir. Onun bütün fəaliyyət illəri Azərbaycan xalqına təmənnasız və şərəfli xidmətin bariz nümunəsidir.



Abdullayev
Tahir
Abdulla oğlu

25 avqust 1915-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1933-cü ildə N.Nərimanov adına Sənaye Texnikumunu, 1939-cu ildə isə Azərbaycan Sənaye İnstitutunu bitirərək memarlıq ixtisasını qazanmışdır. Təyinatla Bakı şəhər İcraiyyə Komitəsinin Memarlıq Planlaşdırma İdarəsinə göndərilmiş və bu idarədə 1941-ci ilə qədər işləmişdir.

T.A. Abdullayev 1941-1944-cü illərdə müxtəlif tikinti idarələrində baş mühəndis kimi fəaliyyət göstərmiş, 1944-1951-ci illərdə Şəki şəhərinin Baş memarı işləmişdir. O,1951-ci ildən 1992-ci ilə qədər Azərbaycan Dövlət Layihə İnstitutunun direktoru olmuş, 1992-ci ildən ta ömrünün sonuna kimi (2004) "Bakıdövlətlayihə" İnstitutunda əməkdaşlıq etmişdir.

T.A. Abdullayev Azərbaycanda müasir memarlıq məktəbinin yaranıb inkişaf etməsində mühüm xidmətləri olan sənətkar kimi yaxşı tanınmışdır. Həyatının yarım əsrdən artıq bir dövrünü quruculuq və abadlıq işlərinə həsr etmiş, respublikada milli memarlıq ənənələrinin davam etdirilib zənginləşdirilməsi işində öz bilik və bacarığını əsirgəməmişdir. Bakı, Sumqayıt, Naxçıvan və bir sıra başqa şəhərlərdə onlarca təhsil və mədəniyyət ocaqları, inzibati bina, yaşayış kompleksləri layihələrinin müəllifi olmuşdur. Onun heykəltaraşlarla sıx əməkdaşlığı sayəsində ölkəmizdə görkəmli şəxsiyyətlərimizin möhtəşəm abidələri ucaldılmışdır.

T.A. Abdullayev 1940-cı ildən Azərbaycan Memarlar İttifaqının üzvü kimi uzun illər bu ittifaqın rəhbərliyində təmsil olunmuşdur. O, yüksək insani keyfiyyətlərinə və milli memarlığımızın inkişafındakı xidmətlərinə görə bir sıra orden və medallarla təltif olunmuş, fəxri adlara və mükafatlara layiq görülmüşdür.

T. A. Abdullayevin Azərbaycan memarlığındakı fəaliyyət illəri, onun milli memarlığımızın inkişafına verdiyi töfhələr bu günkü gənc memarlar üçün öyrəniləsi səhifələrdir.



Abdullayev
Zakir
Qulam oğlu

1942-ci ilin 12 oktyabrında Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. O, Ordubad şəhərində orta məktəbi başa vurduqdan sonra Bakıya gəlmiş, Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1966-cı ilin əvvəlində institutu uğurla bitirib inşaatçı-mühəndis diplomu almış və təyinatla Əli Bayramlı şəhərinə göndərilmişdir.

Z.Q. Abdullayev Əli Bayramlı şəhərində fəaliyyət göstərən Kür-Araz Su Tikntisi Qurğuları üzrə Baş İdarənin 16 nömrəli Tikinti İdarəsində iş ustası, iş icraçısı və sahə rəisi vəzifələrində işləmişdir. Sonralar həmin baş idarənin Sabirabad, Əli Bayramlı, Quba rayonlarındakı idarə və trestlərində məsul və rəhbər vəzifələrdə çalışmış, "Cənubmuganstutikinti" trestində baş mühəndis, bir neçə idarədə rəis, "Milkanalsutikinti" trestində müdir və Baş İdarənin Tikilməkdə Olan Müəssisələrin Birləşmiş Müdriyyətinin direktoru kimi çox sanballı vəzifələrdə çalışmışdır.

Z.Q. Abdullayev Quba, Cəlilabad, Əli Bayramlı, Salyan, Biləsuvar, Neftçala, İmişli, Sabirabad, Beyləqan, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın və digər rayonlarda aparılan meliorasiya işlərində, şoran torpqaların duzdan təmizlənməsində, açıq və qapalı drenlərin çəkilişində, iri su qovşaqlarının yaradılmasında, Mil-Muğan kollektorunun, Baş Mil kanalının çəkilişində, bir sıra istehsal bazalarının salınmasında, təzə qəsəbələrin və çoxsaylı sosial təyinatlı obyektlərin tikintisində bacarıqla səmərəli əmək sərf etmişdir.

Z.Q. Abdullayev 1991-2004-cü illərdə respublika Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Tikinti Müəssisələrinin Birləşmiş Müdriyyətinə rəhbərlik etmişdir. 2004-cü ildən Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin Tikilməkdə olan Meliorasiya və İrriqasiya obyektlərinin Birləşmiş Müdriyyətinin direktoru vəzifəsində çalışır.

Z.Q. Abdullayev idarə rəisi və trest müdiri işlədiyi dövrlərdə onlarca səmərələşdirici təkliflər irəli sürmüş və bununla da işlədiyi kollektivə və dövlətə xeyir vermişdir. Bir neçə dəfə Füzuli rayon sovetinə deputat seçilmişdir.



Abdulsəmədov
Abdulsəməd
Əhməd oğlu

1951-ci ilin dekabrında Şəki şəhərində ziyalı ailəsində anadan olub. 1958-1968-ci illərdə Şəki şəhəri 11 nömrəli orta məktəbdə təhsil alıb, oxuduğu bütün illərdə dərs əlaçısı olub, ictimai işlərdə fəallıq göstərib.

A.Ə. Abdulsəmədov 1969-cu ildə Bakıya gəlib sənədlərini Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə verib və qəbul olunub. O, 1974-cü ildə institutun sənaye-mülki tikinti şöbəsini müvəffəq qiymətlərlə bitirib, inşaatçı-mühəndis ixtisasına sahib olub. Orta məktəb illərində həmyaşıdlarından seçilən Abdulsəməd tələbəlik illərində də emlərə münasibəti, ictimai fəallığı və davranışı ilə tələbə dostları arasında seçilib.

A.Ə. Abdulsəmədov 1974-cü ildə institutu müvəffəq qiymətlərlə bitirib təyinatla Kommunal Təsərrüfatı Nazirliyinin təmir-tikinti idarəsinə gəlmiş və burada iş icraçısı kimi inşaatçı-mühəndis sənətində ilk əmək fəaliyyətinə başlamışdır. Bununla da onun qarşısında yeni bir aləm açılmışdır. Onun burada iş icraçılığından başlanan əmək fəaliyyəti sahə rəisi kimi 2 il yarım davam edir. Və 1977-ci ilin fevral ayından o, taleyini Kənd Tikinti Nazirliyinə bağlayır.

A.Ə. Abdulsəmədov 1977-ci ildə Kənd Tikinti Nazirliyinin Şəkidəki 56 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstəsində iş icraçısı kimi yeni işinə başlayır. O, az sonra 56 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstənin tikinti istehsalat şöbəsinin rəisi, baş mühəndisi və 1987-ci ildən 1990-cı ilədək isə rəisi vəzifəsində çalışıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində 56 nömrəli SMD 96 nömrəli SMD-yə çevrildi. Və beləliklə 56

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

nömrəli SMD Mingəçevirdəki 5 nömrəli "Azərkəndtikinti" trestinin tabeçiliyinə, 96 nömrəli SMD isə Zaqatalada 90-cı illərin əvvəllində yenicə təşkil olunmuş 9 nömrəli kənd tikinti trestinin tabeçiliyinə verildi və A.Ə. Abdulsəmədov o vaxtdan bu günə kimi 96 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstənin rəisi vəzifəsini qüsursuz və müvəffəqiyyətlə icra etməkdədir.

Tikdiyi ən xırda bir tikintini belə ömür sarayına hördüyü kərpic bilən Abdulsəməd müəllim doğma Şəki şəhərində tikintisində çalışdığı, eləcə də tikintisinə rəhbərlik etdiyi obyektlərlə yurddaşlarına səadət, xoş gün-güzəran bəxş edib.

A.Ə. Abdulsəmədov 56 nömrəli SMD-nin baş mühəndisi olarkən Şəki pendir zavodunun tikintisini aparıb, Şəki konserv zavodunun tikintisinə baş mühəndis olarkən başlayıb, rəis olduqdan sonra isə inzibati, yardımçı binaların tikintisini aparıb. Bundan başqa A.Ə. Abdulsəmədov doğma Şəkidə uşaq bağçası, tütün anbarları, tütün fermantasiya zavodunun genişləndirilməsinin, eləcə də 40 və 60 mənzilli 5 mərtəbəli onlarca yaşayış evlərini tikərək Şəki camaatına ərmağan etmişdir. Onun tikdiyi obyektlər sırasında Şəki şirə emalı zavodunun və yüzlərlə kənd təsərrüfatı təyinatlı irili-xırdalı obyektlər də vardır.

Ötən əsrin doxsanıncı illərinin sonlarından etibarən kənd tikintisinin inşaat yönümündə dəyişiklik baş verir. Belə ki, dövrün, zamanın tələbinə uyğun olaraq onlar təkcə kənddə deyil, respublikamızın iri şəhərlərində, paytaxtımızda tikinti işləri, bərpa yenidənqurma işləri aparmağa başlamışlar.

A.Ə. Abdulsəmədovun rəhbərlik etdiyi 96 nömrəli SMD-nin inşaatçıları 2002-ci ildən üzü bu yana məktəblərdə, yaşayış evlərində, səhiyyə ocaqlarında bərpa-gücləndirmə işləri aparırlar. Onlar 2001-ci il Bakı zəlzələsi zamanı Xaqani küçəsi 37 nömrəli, 3 mərtəbəli qədim yaşayış binasında bərpa gücləndirmə işlərini həyata keçirmişlər. Onlar 2005-ci ilin sentyabrından isə "Azərkəndtikinti" ATSC-nin tenderdə qalib gələrək qazandığı Hökumət Evinin daxili kürəbənd şəbəkələrinin və sanitariya qovşaqlarının əsaslı yenidən qurulması işlərini həyata keçiriblər.

Həmçinin 2008-ci ildə Qax şəhərində Azərbaycan 150 ünvanında yerləşən binanın bərkitmə gücləndirmə işlərini və Şəki rayonunun Qudula kəndində artezian quyusu hesabına yaranmış və ətrafdakı evləri qəza vəza vəziyyətinə salan gölün qurudulması işlərini icra etmişdir.

Ailəlidir, bir oglu, iki qızı var.

2012-ci ilin fevralında A.Ə. Abdulsəmədovun kənd tikintisindəki əmək fəaliyyətinin 35 ili tamam oldu. Bu 35 ilin hər ili, hər ayı, hər saatı Abdulsəməd müəllimin ömür yoluna yazılmış unudumsuz tarixdir.



Ağamirov
Kamran
Həşim oğlu

15 fevral 1940-cı ildə Ağdam şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1948-ci ildə Ağdam şəhər 5 nömrəli orta məktəbinin I sinfinə daxil olmuş, 1958-ci ildə məktəbi gümüş medalla bitirmişdir. 1963-1965-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

K.H. Ağamirov 1958-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1963-cü ildə həmin institutu bitirmişdir. 1965-ci ildə Sovet Ordusu sıralarından tərxis olunduqdan sonra 1968-ci ilə qədər Bakı şəhəri Elektrik Mərkəzi Tökmə zavodunda texnoloq, baş texnoloq, zavodun mərkəzi laboratoriyasının rəisi, sex rəisinin müavini işləmişdir. O, 1968-ci ilin iyulundan 1971-ci ilədək Sənaye Tikintisi Nazirliyinin 3 nömrəli tikinti trestinin 33 nömrəli tikinti idarəsində baş mexanik işləmiş, 1971-ci ildə Kənd Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestinin 44 nömrəli tikinti idarəsinə baş mexanik vəzifəsinə göndərilmişdir.

K.H. Ağamirov 1974-cü ildə Azərbaycan Kənd Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestinin 43 nömrəli tikinti idarəsində baş mexanik işləmişdir. 1974-cü ildən 1991-ci ilə qədər Bərdə Ərazi Nəqliyyat Kontorunun Ağdam avtokolonunda rəis vəzifəsində çalışmış, 1991-ci ildə isə "Azərkəndtikinti" İstehsalat Birliyinin "Qarabağkəndtikinti" Birliyinin nəqliyyat və mexanizasiya şöbəsinə rəis vəzifəsinə göndərilmişdir. 2007-ci ildən "Qarabağkəndtikinti" Birliyinə rəis təyin olunub. Hazırda həmin vəzifədə işləyir.

K.H. Ağamirovun bilavasitə rəhbərliyi və iştirakı ilə Ağdamda taxıl tədarükü kombinatı, furnitur zavodu, 3 inzibati bina, 2 şərab zavodu, 40-56 mənzilli yaşayış evləri, bir neçə məktəb və uşaq bağçası, Gəncə, Şəmkir, Xanlar və digər rayonlarda sosial-mədəni obyektlər tikilmişdir. Tikintidə irəli sürdüyü bir neçə səmərəli təklif dövlətə xeyli xeyir vermişdir.



Ağazadə
Rüfət
Rüfət oğlu

1979-cu ilin may ayının 3-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1995-ci ildə Nəsimi rayonu 1 saylı ümumtəhsil məktəbini bitirib. Həmin il Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AMİU) memarlıq fakültəsinin əyani şöbəsinə daxil olub, 1999-cu ildə AMİU-nun bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib və magistraturaya qəbul olub. 2001-ci ildə magistraturanı fərqlənmə diplomu ilə başa vurub. 2000-ci ildə AMİU-nun 25 illik və Azərbaycan Respublikası müstəqilliyinin 10 illik yubileyinə həsr edilmiş tələbələrin və magistrantların elmi-praktiki konfransında ən yaxşı çıxışa görə 1-ci dərəcəli diplomla təltif olunub.

Rüfət Ağazadənin "Bakı şəhər aqlomerasiyasının struktur-planlaşdırma təşkili" mövzusunda magistr dissertasiyası 2001-ci ildə Rusiya Federasiyasının Rostov-Don şəhərində keçirilən ən yaxşı diplom layihələri üzrə 10-cu Beynəlxalq baxış müsabiqəsinə göndərilmiş və müsabiqənin 1-ci dərəcəli diplomuna layiq görülmüşdür.

1999-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsində əvvəlcə mühəndis, sonra isə memar vəzifələrində çalışmışdır. Bu müddət ərzində o, Bakı şəhərində bir sıra layihələrin, o cümlədən Xətai rayonunun "Ukrayna" meydanında yerləşən Heydər Əliyev parkının, Binəqədi rayonunda Akademik Zərifə Əliyeva adına parkın, müxtəlif məişət xidməti mərkəzlərinin, ofis və

istehsalat bazalarının, ticarət və iaşə obyektlərinin və digər obyektlərin layihələrinin hazırlanmasında iştirak etmişdir.

Rüfət Ağazadə 2001-ci ildə AMİU-nun aspiranturasına qəbul olub, "Böyük ipək yolu şəhərlərinin memarlıq-şəhərsalma inkişafı xüsusiyyətləri"nə həsr edilmiş dissertasiya işini 2004-cü ildə müdafiə etdikdən sonra ona memarlıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradıcı və istedadlı gənclər üçün təsis etdiyi memarlıq sənəti sahəsində qazanılmış uğurlara görə iki dəfə (2002 və 2004-cü illərdə) "Gənclər mükafatı"na və diploma layiq görülmüdür.

2001-ci ildə Azərbaycan Memarlar İttifaqının üzvlüyünə, 2007-ci ildə isə İttifaqın İdarə Heyətinin üzvü seçilmişdir.

2002-2006-cı illərdə Dövlət Tikinti və Arxitektura Komitəsinin Arxitektura və Şəhərsalma şöbəsində baş məsləhətçi və sektor müdiri vəzifələrində işləmişdir.


2006-cı ildən Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyində baş məsləhətçi, 2010-cu ildən isə sektor müdiri vəzifəsində çalışır.

Eyni zamanda yaradıcılıqla məşqul olmaqda davam edir. Rüfət Ağazadə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun idman kompleksi, 6-cı mikrorayonda yerləşən Akademik Zərifə Əliyeva adına Oftalmologiya Elmi-Tədqiqat İnstitutunun yenidən qurulması, Qazax, Ağstafa, Qəbələ, Oğuz və İmişli rayonlarının baş planları, Nərimanov rayonunda "Saf" Konserv Zavodunun inzibati binası, Cəlilabad rayonunda Olimpiya İdman Kompleksi, ölkənin müxtəlif bölgələrində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin inzibati binaları, Keşlə qəsəbəsində ticarət və biznes mərkəzi və digər obyektlərin layihələndirilməsində iştirak etmişdir.

Rüfət Ağazadə pedaqoji fəaliyyətlə də məşğuldur. 2005-2009-cu illərdə AMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasında əvəzçi baş müəllim, 2009-cu ildən 2011-ci ilə kimi isə dosent əvəzi çalışmışdır. 2011-ci ilin yanvar ayında dosent elmi adına layiq görülmüşdür.

Bir çox beynəlxalq konfrans və seminarların iştirakçısı olmuşdur.

50-dən artıq elmi, 20 publisistik məqalənin, 2 dərs vəsaitinin və dərsliyin müəllifidir.



Axundov
Emil
Bəhlul oğlu

8 avqust 1937-ci il tarixində Bakı şəhərində ziyalı ailəsində anadan olub. Atası Cahangir Ələkbər oğlu neft mühəndisi, anası Kübra xanım Əşrəf qızı həkim-psixoloq, tibb elmləri doktoru olub.

E.B. Axundov 1957-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunur. İnstitutu qurtardıqdan sonra sənaye və mülki tikintilər üzrə inşaatçı-mühəndis ixtisasına yiyələnən E.B. Axundov təyinatla paytaxtımızda mənzil-mülki tikinti sahəsində ixtisaslaşmış "Bakıbaştikinti" İdarəsinin sərəncamına göndərilir.

E.B. Axundov ilk əmək fəaliyyətinə 1962-ci ildə Bakı Baş Tikinti İdarəsinin 1 nömrəli Evtikmə Kombinatında quraşdırma-tamamlama sahəsi üzrə briqadir vəzifəsində başlamışdır.

Bu illərdə Minsk şəhərində Evtikmə Kombinatında uzunmüddətli təcrübə keçən E.B.Axundov tikilməkdə olan 2 nömrəli Evtikmə Kombinatında texnoloji avadanlıqların quraşdırılması sahəsinə göndərilir. Və o, burada ardıcıl olaraq usta, rəis müavini, qəlibləmə sexinin rəisi və baş istehsalat korpusunun rəisi vəzifələrində çalışmışdır.

E.B. Axundov Eksperimental və Birtipli Layihələndirmə üzrə Moskva Elmi Tədqiqat İnstitutunun aspiraturasını (əyani şöbə) bitirib dissertasiya müdafiə etdikdən sonra yenidən Bakı Baş Tikinti İdarəsinin 2 nömrəli Evtikmə Kombinatına qayıdır və kombinatda istehsal üzrə rəis, sonra isə 2 nömrəli ETK-nın direktoru vəzifəsində çalışır.

E.B. Axundov 1987-ci ildə köçürmə yolu ilə Bakı Baş Tikinti İdarəsinin baş mühəndisi vəzifəsinə təyin olunur. Sonra isə Azərbaycan KP MK bürosunun qərarı ilə "Bakı Baş Tikinti" İdarəsinin rəisi vəzifəsinə təyin olunur və 1983-cü ilə kimi burada böyük uğurlara imza atır.

Bu illərdə E.B. Axundovun rəhbərliyi altında respublikamızın paytaxtında Azərbaycan Respublikası Ali Sovetinin inzibati binası, dövlət səviyyəsində qəbul üçün nəzərdə tutulmuş bina komplekslərinin - "Gülüstan" sarayı, "Moskva" mehmanxanası, Azadlıq meydanında yüksək seysmik davamlılığı olan binalar, Xarici Dillər İnstitutunun tədris-labaratoriya korpusu, Azərbaycan Pedaqoji İnstitutunun və Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tədris korpusları, Rabitə Nazirliyinin obyektləri, minlərlə çoxmərtəbəli yaşayış binaları, uşaq bağçaları, məktəblər, polikilinikalar, sağlamlıq obyektləri və digər sosial-mədəni obyektlər və komplekslər tikilmiş və istismara buraxılmışdır.

E.B. Axundov 1984-1988-ci illərdə "Azərsənayetikinti" İstehsalat Birliyinin rəis müavini vəzifəsində çalışmışdır. Və bu illərdə paytaxtımızda və ölkəmizin böyük şəhərlərində sənaye obyektlərinin inşaat işlərinə rəhbərlik etmişdir.

E.B. Axundov Nərimanov rayon sovetinin və Bakı şəhər sovetinin deputatı seçilmişdir. O, həmçinin XI çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir.

E.B. Axundov 1992-ci ildən "Emsa Co. Ltd" ABŞ-Azərbaycan Birgə Müəssisəsinin prezidentidir.

E.B. Axundov 1989-1992-ci illərdə Bakı Mənzil Təsərrüfatı Baş İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

E.B. Axundov 10 aprel 2010-cu ildən bu günə kimi "Şəki şəhərinin mədəni irsinin müdafiəsinə dəstək" QSC-nin sədr müavini vəzifəsində çalışır.

E.B. Axundov ölkə tikinti kompleksində yüksək peşəkar səviyyəsində savadlı inşaat mühəndisi kimi tanınmışdır. O, bir müddət Azərbaycanın hüdudlarından kənar ölkələrdə: Qazaxıstanın Aktau və Astana, Rusiya Federasiyasının Həştərxan, Buynaksk (Dağıstan), İsraildə Aştol və Xayfa, Çexoslovakiyada Zlın şəhərinə bina və qurğuların inşaatında çalışmışdır.

E.B. Axundov hər zaman işində dəqiq, özünə və tabeçiliyində olanlara qarşı tələbkar bir rəhbər olaraq başçılıq etdiyi kollektivi qarşıya qoyulan hər bir tapşırığın öhdəsindən gəlməyə səfərbər edə bilmişdir.

E.B. Axundovun son illərdə rəhbərlik etdiyi və çalışdığı obyektlərin hamısı ölkə Prezidenti İ. H. Əliyev cənablarının "Regionların Sosial-iqtisadi İnkişafı Proqramın"da və "Azərbaycanda Turizmin İnkişafı Proqramı"nda müəyyən olunmuş obyektlərdir. Ha-

zırda bu və Şəkidə müəyyən olunmuş digər işlər "Şəki şəhərinin mədəni irsinin mühafizəsinə dəstək" QSC-in sədr müavini kimi E. B. Axundovun fəaliyyətinin əsas istiqamətidir.

E.B. Axundov nəşr olunmuş 10 elmi işin müəllifidir. Həmçinin 6 səmərələşdirici təklif üzrə müəllif Şəhadətnaməsi vardır.

Onun 500-dən çox analitik məqalə və yazıları, müsahibələri xarici və yerli kütləvi informasiya vasitələrində çap olunmuşdur.

Azərbaycan Respublikasının Əməkdar inşaatçısıdır.

E.B. Axundov Daşkənd, Bunyaksk, Astraxan, zəlzələlərinin aradan qaldırılmasının iştirakçısıdır.

E.B.Axundov Çernobıl Atom Elektrik Stansiyasında baş verən fəlakətin dəhşətli nəticələrinin aradan qaldırması işində Azərbaycandan göndərilən inşaat dəstəsinə rəhbərlik etmiş və burada Slavutiç şəhərinin salınmasında inşaat işlərinə rəhbərlik etmişdir. Ermənistanda baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmaq üçün azərbaycanlıların sıx yaşadıqları Amasiya rayonunda yenə də Azərbaycanın inşaatçı dəstəsinə başçılıq etmişdir.

"Amasiya"dakı xidmətlərinə görə "Xalqlar dostluğu" ordeni ilə, Bakı Baş Tikini İdarəsinin 2 nömrəli Evtikmə Kombinatının yenidənqurulmasına verdiyi töhfəyə görə "Şərəf" ordeni ilə təltif olunmuşdur.

E.B.Axundov Azərbaycan Respublikasının şəhərsalma kodeksinin hazırlanmasının müəllifidir.

Ailəlidir. İki qızı var.



Axundov
Əbülfəz
Nuru oğlu

24 dekabr 1950-ci ildə Şamaxı rayonunun Cəyirli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə kənddəki 8 illik məktəbə getmiş və 1965-ci ildə oranı bitirmişdir. 1965-1967-ci illərdə Şamaxı rayonundakı Nərimankənd orta məktəbində oxuyub kamal atestatı almışdır. 1967-ci ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun hazırlıq şöbəsində oxumuşdur. 1968-1973-cü illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsində təhsil almış və institutu qurtaran kimi təyinatla SSRİ Tikinti Bankının şəhər idarəsində əmək fəaliyyətinə başlamış, kredit müfəttişi vəzifəsində işləmişdir. 1973-cü ilin sonunda hərbi xidmətə çağrılmışdır.

Ə.N. Axundov ordu sıralarından tərxis olunduqdan sonra əvvəlki iş yerinə qayıtmış, 1988-ci ilə qədər SSRİ Tikinti Bankının Azərbaycan Respublikası kontorunda böyük aparıcı, baş icraçı, şöbə müdiri və idarə rəisi vəzifələrində çalışmışdır. Həmin illərdə Bakıda, Sumqayıtda, Əli Bayramlıda, Naxçıvanda və respublikanın əksər rayonlarında inşa edilən sosial-mədəni obyektlərdə, xüsusilə yeni yaşayış evlərinin, şərab zavodlarının, heyvandarlıq binalarının, mehmanxanaların, su qovşaqlarının, dəryaçaların, süd-pendir zavodlarının, neft və maşınqayırma zavodlarının, mineral kübrə anbarlarının, quşçuluq-broyler fabriklərinin, dəyirman kombinatlarının keyfiyyətlə tikilib başa çatdırılmasında Tikinti Bankının dəyərli mütəxəssisi, məsul və rəhbər işçisi kimi fəal iştirak etmişdir.

Ə.N. Axundov 1988-ci ildə ixtisaslaşdırılmış banklar yaradılması ilə əlaqədar SSRİ Mənzil-Kommunal Bankının Azərbaycan Respublikası Bankına köçürülmüş və orada idarə heyətinin sədr müavini və birinci müavini vəzifələrində işləmişdir. 1991-ci ildə həmin bankın fəaliyyətinin dayandırılması ilə əlaqədar SSRİ Pensiya Fondunun Azərbaycan Respublikası şöbəsində müdir müavini vəzifəsində fəaliyyətə başlamışdır. Az sonra SSRİ-nin dağılması ilə əlaqədar həmin fond respublika tabeçiliyinə keçərək Azərbaycan Respublikasının Pensiya Fondu adlandırılmışdır. O, 1992-ci ilin əvvəlindən bu fondun idarə heyətinin birinci müavini təyin edilmişdir. 1992-ci ilin dekabr ayından isə Dövlət Sosial Müdafiə Fondu sədrinin birinci müavini vəzifəsinə köçürülmüşdür. 1994-c ilin martına kimi Azərbaycan Sənaye İnvestisiya Səhmdar Kommersiya Bankı İdarə Heyətinin sədri kimi fəaliyyət göstərmişdir.

Ə.N. Axundov 1994-cü ildən 1995-ci ilin mart ayınadək "Parabank" Səhmdar Kommersiya bankında məsləhətçi işləmişdir. 1995-ci ilin mart ayından Azərbaycan Respublikası Milli Bankında departament direktoru işləmiş, 1996-cı ilin sentyabrından Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədr müavini vəzifəsinə təyin olunmuşdur. Hazırda həmin vəzifədə işləyir.



Allahverdiyev
Əşrəf
Gülməmməd oğlu

1904-cü ildə Tərtər rayonunda anadan olmuşdur. 1911-1912-ci illərdə Bərdə rayonunda təzəcə fəaliyyətə başlamış iki illik rus-tatar məktəbində, daha sonralar isə "rabfakda" təhsil almış, komsomol, partiya orqanlarında müxtəlif məsul vəzifələrdə işləmişdir. Azərbaycan hökumətinin göndərişi ilə Moskvada ali texniki təhsil almış və Moskvada daimi nümayəndə kimi fəaliyyət göstərmişdir. O, ötən əsrin 30-cu illərinin əvvəllərində Azərbaycana dəvət olunmuş və respublika daxilində yeni yaranan Maşın-traktor stansiyalarının yaranmasına rəhbərlik etmişdir (ilk dəfə Kürdəmir rayonunda).

Ə.G. Allahverdiyev 1937-1947-ci illərdə müəyyən fasilələrlə Azərbaycan K(b)P. MK-da kənd təsərrüfatı şöbəsinin müdiri, Azərbaycan SSR Xalq Komisarları Soveti sədrinin müavini kimi yüksək vəzifələrdə işləmiş, Puşkin (indiki Biləsuvar) və Sumqayıt rayonları təşkil olunanda həmin rayonlarda rayon partiya komitəsinin birinci katibi kimi fəaliyyət göstərmişdir. 1948-ci ildən həyatını ölkənin meliorasiya və su təsərrüfatı tikintisinə həsr etmişdir.

Ə.G. Allahverdiyev Azərbaycan hökumətinin qərarı ilə 1945-ci ildə fəaliyyətə başlamış Kür-Araz Su Qurğularının tikintisi ilə məşğul olan baş idarə rəisinin birinci müavini vəzifəsinə göndərilir. O, 30 ildən çox müddətdə bu vəzifədə işləmiş və şoran torpaqların duzdan təmizlənməsində, kompleks meliorasiya işlərinin aparılmasında, Bəhramtəpə su qovşağında, Mil-Muğan kollektorunun çəkilməsində fəal iştirak etmişdir.

O, tikintisinə rəhbərlik etdiyi bütün obyektlərdə işin keyfiyyətlə və məsuliyyətlə yerinə yetirilməsinə, vaxtdan səmərəli istifadə olunmasına və texniki təhlükəsizlik tədbirlərinə ciddi riayət olunmasına hər

zaman xüsusi diqqət yetirmiş və nail olmuşdur.

Uğurlu işlərinə görə orden və medallarla təltif olunmuşdur.



Allahverdiyev
Nəsimi
Ənvər oğlu

12 iyun 1963-cü ildə Gürcüstan Respublikasının Bolnisi rayonu İmirhəsən kəndində müəllim ailəsində anadan olmuşdur. 1970-ci ildə İmirhəsən kənd orta məktəbinin I sinfinə getmiş və 1980-ci ildə həmin məktəbin X sinfini əla qiymətlərlə bitirmişdir.

N. Ə. Allahverdiyev 1980-cı ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) metallurgiya fakültəsinə daxil omuş və 1985-ci ildə oranı uğurla bitirmişdir. Ali məktəbdən təyinatla Azərbaycan SSR Xüsusi Tikinti-Quraşdırma Nazirliyinin 2 nömrəli Sumqayıt Tikinti-Quraşdırma İdarəsinə göndərilmişdir. Həmin idarədə usta, iş icraçısı, sahə rəisi, rəis müavini və baş mühəndis (1990-1992) vəzifələrində işləmidir.

N. Ə. Allahverdiyev "Azqur" Səhmdar Cəmiyyətinin 2 aprel 1992-ci il tarixli əmrilə Sumqayıt Mexaniki Quraşdırma İdarəsinə rəis göndərilmişdir. O, 1998-ci ilin yanvar ayının 5-də respublika Dövlət Əmlak Komitəsinin əmrilə "Azmexqur" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunmuşdur. 6 iyun 2000-ci ildə Azərbaycan Dövlət Əmlak Nazirliyinin əmrilə Tikinti Materialları Müəssisələri Kombinatının baş direktoru vəzifəsinə köçürülmüşdür. Özəlləşmə ilə əlaqədar kombinatın tabeliyində olan müəssisələr buraxılaraq Əmək Nazirliyinin müvafiq strukturuna verilmişdir.

N. Ə. Allahverdiyev 11 may 2004-cü ildə "Bakmexqur" Məhdud Məsuliyyətli Cəmiyyətini təsis edərək xüsusi tikinti-quraşdırma işləri ilə məşğul olmağa başlamışdır. Hazırda həmin müəssisəyə rəhbərlik edir.

N. Ə. Allahverdiyevin əl izləri olan, bilavasitə rəhbərlik və iştirak etdiyi obyektlərdən – Sumqayıt şəhərində: Polimer-120 zavodunda mexaniki quraşdırma işləri, Alkilbenzol – 100% istehsalı, Bakı-Supsa neft kəmərində 5 nömrəli nasos stansiyasının quraşdırılması, Azpetrol Neft Şirkətinin sifarişilə 30 ədəd YDM-nin quraşdırılması, "Aztrans" kompaniyasının 20 min kubmetrlik çənlərinin Sanqaçal bazasında quraşdırılması, Maştağa, Bərdə, Lənkəran, Quba, Zaqatala, Qazax, Şəmkir, İsmayıllı, Şağan, "ABU-Arena" Olimpiya idman komplekslərinin, H.Əliyev Fondunun binasının dam örtüklərinin metal konstruksiya ilə quraşdırılması, Saatlı və Ağcəbədi pambıq zavodlarının quraşdırılması, Göyçay süd kombinatının quraşdırılması və yenidən qurulması, "Azbentonit" texnoloji sexlərinin metal konstruksiya işlərinin görülməsi, "Almalı" ticarət şirkətinin paylaşdırma mərkəzinin tikinti-quraşdırma işləri və s. göstərmək olar.

N. Ə. Allahverdiyevin ictimai-siyasi işlərdə, tədbirlərdə iştirakı və fəaliyyəti: Ali məktəbdə komsomol təşkilatı katibi, Sənaye Tikintisi Nazirliyinin 2 nömrəli Tikinti Trestində komsomol komitə katibi (1987), Sumqayıt şəhər komsomol komitə katibi (1989), Sumqayıt şəhər Bələdiyyəsinin üzvü (1999-2004), Sumqayıt şəhər Yeni Azərbaycan Partiyası təşkilatında şura üzvü.



Allahverdiyev
Nizami
Nüsrət oğlu

1962-ci il iyulun 17-də Ağcabədi şəhərində anadan olub. Onlar ailədə 9 uşaq olublar. Atası Nüsrət kişi Ağcabədiyə Beyləqan rayonunun Xalac kəndindən gəlib. Nüsrət müəllimin atası İman bəy çox hörmətli, xalq adamı kimi tanınmış Xalac bəylərinin nəslindəndir. Dövrünün tanınmış, ziyalı kişilərindən olub. Nüsrət müəllim Ağcabədi rayon Kommunal Təsərrüfatı İdarəsində məsul vəzifələrdə işləyib, mehmanxana müdiri olub. Rayonda hörmətli, sayılan, seçilən kişilərdən olub. Anası Fəridə xanım isə ev xanımı kimi 9 övladın qayğı yükünü çiyinlərində şərəflə daşıyıb.

N. N. Allahverdiyev 1970-1980-ci illərdə Ağcabədi şəhər 11 nömrəli məktəbində orta təhsil alıb. Bir il Ağcabədi Avtomobil Təmiri Zavodunda tikinti briqadiri kimi çalışıb. 1981-1983-cü illərdə isə Sverdlovskda tikinti batalyonunda əsgəri xidmətdə olub. O, xidmət illərində İstehsalat Texniki Komplektləşdirmə İdarəsində fəhlə kimi çalışmış, tikintinin romantikasını yaşamışdır.

Nizami Allahverdiyev ordudan tərxis olunduqdan sonra özəl sektorda qüvvəsini sınamış, iş adamı kimi tikinti materiallarının alqı-satqısı ilə məşğul olmuşdur. Və deyək ki, o, bu sahədə öz şəxsi bacarığı sayəsində böyük uğurlara imza ata bilmişdir. O, inşaat materiallarının satışı üzrə kooperativdə çalışdığı bütün illərdə inşaatçılarla, evtikənlərlə sıx təmasda olmuş və bu ünsiyyət ötən əsrin 98-ci ilində "Xumar-98" firmasının yaranmasıyla nəticələnmişdir. Yəni, "Xumar-98"-n yaranmasına gələn yol 1983-cü ildən başlanır.

O, özəl sektordakı fəaliyyətini saxlamadan 1988-1991-ci illərdə Min-



Mingəçevir şəhərində məcburi köçkünlər üçün 9 mərtəbəli yaşayış evi

gəçevir Politexnik Texnikumunun avtomobil nəqliyyatının istismarı fakültəsində qiyabi təhsil almışdır. Ancaq o, təhsilini başa vurduqdan sonra da özəl bölmədəki fəaliyyətini davam etdirib.

N.N. Allahverdiyev sonrakı illərdə hər zaman ali təhsil almaq barədə düşünmüş və bunun nəticəsi kimi 2003-cü ildə Elm və Təhsil mərkəzi "Təfəkkür" Univetsitetinə qəbul olunmuş və 2009-cu ildə bu ali məktəbi iqtisadiyyat, maliyyə və kredit ixtisası üzrə bitirmişdir. 2012-ci ildə isə o, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə bitirmişdir. Hazırkı vaxtda isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat fakültəsində təhsilini davam etdirir.

N. N. Allahverdiyev 2007-ci ildən YAP Agcabədi rayon təşkilatının üzvüdür. YAP-ın bütün tədbirlərində fəal iştirak edir.

Ailəlidir. Beş övladı -3 oğlu, 2 qızı və 2 oğul nəvəsi var.

N.N. Allahverdiyev 1998-ci ildə Ağdam rayonunda təsis olunmuş "Xumar-98" firmasına rəhbərlik etməyə başlayıb. Artıq 14 ildir ki, bu firma ölkə tikinti kompleksində mətin addımlar atır.

"Xumar-98" firmasının yaradılmasında əsas məqsəd qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə köməklik göstərmək olub. Buna görə də lap əvvəldən firma Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun xətti ilə yeni qəsəbələrin salınmasında iştirak etməyi qarşısına məqsəd qoymuşdu. Və bu məqsədə çatmaq üçün "Xumar – 98" firması yarandığı vaxtdan Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun keçirdiyi tenderlərdə iştirak etmiş və məcburi köçkün qəsəbələrinin salınmasında qüvvəsini sınayaraq bu istiqamətdə böyük uğurlar qazanmışdır.


1


2


3



4

1. Mərdəkan qəsəbəsində Kəlbəcər qaçqınları üçün 4 siniflik məktəb. **2.** Bərdə, 198 şagird yerlik məktəb. **3.** Yevlax, 615 mənzildən ibarət məhəllə. **4.** Şəmkir, 440 şagird yerlik Xanalılar kənd orta məktəbi.

Əl izi olan ilk obyektlər:

Ağdam rayonunun "Baharlı" qəsəbəsində 87 evin tikintisi, Ağdam rayonunun "Dördyol – 1" qəsəbəsində 1011 ailənin su təchizatı sisteminin tikintisi, Heydər Əliyev Fondunun vəsaiti hesabına "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Beyləqan rayonunda 240 şagird yerlik məktəbin tikintisi, Biləsuvar və Sabirabad rayonlarında bir neçə məcburi köçkün qəsəbələrində daxili meliorasiya işləri, Füzuli rayonunun Zövcuq qəsəbəsində 99 yaşayış evinin tikintisi, Qaradağ rayonunda 840 şagird yerlik məktəbin tikintisi və sair.

2005-2012-ci illərdə "Xumar-98" firmasının inşaatçılarının zəhməti ilə hasilə gələn obyektlər artıq onların tikinti kompleksin-


1


2


3


4


5

1. Quzanlıda məcburi köçkün qəsəbəsindən bir görüntü. **2.** Ağcabədi rayonu, məcburi köçkün qəsəbəsindən bir görüntü. **3.** Bərdə rayonu, 25 yerlik uşaq bağçası. **4.** Şəki rayonu 360 şagird yerlik Şorsu kənd orta məktəbi. **5.** Müşfiqabad qəsəbəsində 840 şagird yerlik orta məktəb binası.

kintisi, Ağcabədi rayonu ərazisində məcburi köçkünlər üçün salınan 552 ailəlik yeni qəsəbədə 55 ədəd yaşayış evinin, Ağcabədi rayonu ərazisində 556 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli 5 mərtəbəli yaşayış evinin, Şəki rayonu Şorsu kəndində 360 şagird yerlik orta məktəbin, Şəki rayonu 5 nömrəli orta məktəbin, Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 9 mərtəbəli 54 mənzilli yaşayış binasının, Şəki rayonu ərazisində 423 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində 43 evin, Bərdə rayonu ərazisində 195 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində əkin sahələrinin meliorasya sisteminin, Bakı şəhəri Qaradağ rayonu Müşfiqabad qəsəbəsi yaxınlığındakı ərazidə 1410 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış məhəlləsində 5 mərtəbəli 80 mənzilli binanın tikintilərini, Qaradağ rayonunun Sahil qəsəbəsində 28 nömrəli Musiqi məktəbinin əsaslı təmirini, Ağcabədi rayonunun Şərəfxanlı kəndində 180 şagird yerlik tam orta məktəbin, Bərdə rayonu ərazisində 195 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində 198 şagird yerlik məktəb binasının və 25 yerlik uşaq bağçasının tikintiləri yüksək keyfiyyətlə başa çatdırılaraq sifarişçiyə təhvil verilmişdir.

Qeyd edək ki, "Xumar-98" firmasının tikdiyi bir neçə obyektdə Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev cənabları iştirak etmiş və inşaatçıları əməyini yüksək qiymətləndirmişdir.

Hazırkı vaxtda isə "Xumar-98" firmasının inşaatçıları Agcabədi rayonunda 5 məktəb binasının və 1 bağçanın tikintilərini uğurla davam etdirirlər.

"Xumar-98" firması böyük işlər görmək iddiasındadır. Firmanın direktoru Nizami Allahverdiyevin ən böyük arzusu "Xumar-98" firmasını respublikamızın inşaat sektorunda öz nümunəvi işinə görə seçilən və hər zaman öndə olan tikinti qurumları sırasında görməkdir. Və o, bunun üçün imkan daxilində olan nə varsa edir. Çünki artıq inşaat onun taleyinə çevrilib. O, heç vaxt inşaatçı olmaq istəməsə də inşaat axtarıb özü onu taparaq sehrli aurasına salıb və tikinti ona çox yaxın olub, doğmalaşıb. Tale onu ən xeyirxah bir peşəyə - inşaata gətirdiyi üçün o, özünü xoşbəxt sanır. Çünki, bu gün ölkə inşaatında artıq onun səsi, sədası eşidilir.

N.N. Allahverdiyev sənətini sidq ürəkdən sevən, işində məsuliyyət hiss edən cavan rəhbər kadralardandır. O, çox gərgin zəhmət hesabına "Xumar-98" kimi tapşırılan işi vaxtında və yüksək səviyyədə yerinə yetirməyə qadir olan bir kollektiv formalaşdırmışdır.

N.N. Allahverdiyev kollektivdə gözəl atmosfer formalaşdırıb. O, hər zaman kollektivilə bir yerdədir, onlarla yeri gələndə nahar edir, cari problemlərini yerindəcə həll edir, tikintidə təhlükəsizlik qaydalarına ciddi əməl olunması üçün işçilərilə kollektiv və fərdi söhbətlər aparır, məsləhətlər verir. Və ən başlıcası kollektivi də onu çox sevir.

N.N. Allahverdiyev hələ cavandır, çox xüsusiyyətlərinə görə yaşıdlarından seçilir. Həyata, insanlara özünəməxsus yaradıcı baxışı var, oturub-durduğu insanlarla saf və təmiz ünsiyyətin tərəfdarıdır, dostluqda təmənnasızdır.

N.N. Allahverdiyev Azərbaycan inşaat kompleksinin məsuliyyətli və səriştəli rəhbər kadrlarındandır. Onun ən böyük uğurları hələ qabaqdadır.

Allahverdov
Səyyah
Mikayıl oğlu

1941-ci ildə anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu bitirmiş, ilk əmək fəaliyyətinə Bakı Baş Tikinti İdarəsinin 1 nömrəli evtikmə kombinatında iş ustası kimi başlamışdır. Burada xeyli təcrübə topladıqdan sonra Kür-Araz Su Tikinti Baş İdarəsinə köçürülmüşdür. Baş İdarənin özündə məsul vəzifələrdə çalışmış, inşaat materialları istehsal edən zavodunda direktor və sənaye müəssisələri trestində müdir vəzifələrində işləmişdir.

S. M. Allahverdov tikinti kompleksinin ən iri qollarından biri olan Sənaye Tikintisi Nazirliyi sistemində də dəyərli və sanballı işlərin görülməsində var qüvvəsini sərf etmişdir. Əvvəlcə nazirliyin maddi-texniki təchizat və tikinti sənayesi idarələrinin rəisi işləyib, 6 ildən çox Qırmızı Əmək Bayrağı ordenli 4 nömrəli tikinti trestinə rəhbərlik etmişdir.

S. M. Allahverdov 1989-1994-cü illərdə Sənaye Tikintisi Nazirliyinin sələfi olan "Azərsənayetikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsində işləmişdir. Əldə etdiyi uğurlara, qabiliyyətinə və bacarığına görə yüksək dövlət mükafatlarına layiq görülmüş, fəxri adlar almışdır.



Asanov
Dadaş
Mirzə oğlu

1930-cu il yanvarın 15-də Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1948-ci ildə Bakıdakı 171 saylı orta məktəbi bitirdikdən sonra Moskva Polad İnstitutuna daxil olub və 1952-ci ildə öz arzusuyla Moskva Yeyinti Sənayesinin Texnologiyası İnstitutuna köçürülüb. 1955-ci ildə isə həmin institutun tikinti şöbəsini bitirərək inşaatçı-mühəndis ixtisasına sahib olmuşdur. Azərbaycan Respublikası Kəndtikinti naziri, Avtomobil yollarının tikintisi və istismarı naziri, Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri, respublikanın Nazirlər Soveti sədrinin müavini kimi yüksək vəzifələrdə çalışmışdır. Respublikanın əməkdar mühəndisidir. "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 09 aprel 2010-cu il tarixli Sərəncamı ilə tikinti kompleksinin inkişafındakı xidmətlərinə görə Prezident təqaüdünə layiq görülmüşdür.

Tikinti kompleksində briqadirlikdən nazir vəzifəsinədək yüksəlmiş, uzun illər Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsində qüsursuz çalışmış, xalq elçisi, millət vəkili kimi seçicilərin etimadını doğrultmuş, çoxşaxəli fəaliyyətinə görə "Respublikanın Əməkdar mühəndisi" fəxri adına layiq görülmüş, müxtəlif dövlət mükafatları ilə təltif olunmuş Dadaş Mirzə oğlunun bütün fəaliyyəti Azərbaycan cəmiyyətinin gözü qabağında olmuşdur.

Dadaş Asanov əmək fəaliyyətinə 1955-ci ilin əvvəlindən Bakıda 4 saylı tikinti trestinin 41 nömrəli tikinti idarəsində briqadirlikdən başlayır. O, 4 il ərzində briqadir, iş icraçısı, baş iş icraçısı vəzifəsində çalışaraq 1959-cu ilin martında həmin trestin 4 nömrəli Dəmir-Beton Məmulatları Zavoduna baş mühəndis vəzifəsinə irəli çəkilir.

Və elə ilk illərdən Dadaş Mirzə oğlu üzərinə düşən böyük məsuliyyəti gərəyincə dərk etdiyi üçün hər zaman hamının etimadını doğrulda bilib.

1962-ci ilin yanvar ayında nazir Məmmədəli Abasov Dadaş Asanovu yanına çağırır və onu Dəmir-Beton Məmulatları trestinin baş mühəndisi vəzifəsinə təyin edir.

Bu vəzifədə Dadaş müəllimin böyük biliyi, təşkilatçılığı, işçilərlə gözəl ünsiyyətə malik olması özünü dərhal biruzə vermişdir. 1966-cı ilin iyun ayından 1973-cü ilin noyabr ayına kimi Dadaş Asanov Azərbaycan SSR Kənd Tikinti nazirinin müavini və birinci müavini vəzifələrində işləyib. 1973-cü ilin noyabrında o, Azərbaycan SSR Avtomobil Yollarının Tikintisi və İstismarı naziri vəzifəsinə təyin edilib və 5 il bu vəzifəni şərəflə icra edib.

Onun buradakı fəaliyyəti də çox uğurlu olub. Araz çayı üzərində salınmış körpü, Qəbələ, Oğuz, Şəki, Qazax, Füzuli, Beyləqan, Zaqatala rayonlarında irili-xırdalı 20-dək körpü, Bakı-Salyan, Bakı-Kürdəmir, Yevlax-Qazax və Yevlax-Şəki magistral yollarının asfaltlaşdırılması, o cümlədən respublikamızın ayrı-ayrı bölgələrində yeni qum-çınqıl karxanalarının, dəmir-beton məmulatı zavodlarının və asfalt zavodlarının işə salınması nazir Dadaş Asanovun 5 illik fəaliyyətinin bəhrəsidir.

1978-ci ilin noyabr ayından isə o, kənd tikinti naziri təyin olunub və 4 il bu vəzifədə çalışaraq Azərbaycan kəndinin abadlaşmasında böyük işlər görmüşdür. Dadaş Mirzə oğlu 1982-ci iladək respublika kənd tikinti naziri kimi Azərbaycanda onsuz da böyük olan nüfuzuna, hörmətinə yeni çalarlar əlavə edə bildi.

1982-ci ilin noyabrında Dadaş Mirzə oğlu Asanov Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin olunur və 1989-cu ilə kimi respublikamızın iqtisadi cəhətdən möhkəmləndirilməsi üçün bütün bacarıq və istedadını sərf edir. Dadaş Mirzə oğlu 1989-cu ilin dekabrından 1993-cü ilin mayına kimi Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri vəzifəsində çalışıb.

Dadaş Asanov 1993-cü ilin may ayından 2010-cu ilin aprel ayına kimi uzun illər birgə çiyin-çiyinə çalışdığı, respublikanın görkəmli inşaatçısı Litvin Abasovun rəhbərlik etdiyi Kəndtikinti Nazirliyinin bazasında yaradılmış "Azərkəndtikinti" ASC sədrinin birinci müavini vəzifəsində işləyib.

Ölkə Prezidentinin Fərmanı ilə Prezident təqaüdünə layiq görülməsinə baxmayaraq o, yenə də Səhmdar Cəmiyyətlə sıx əlaqədədir.

D. M. Asanov görkəmli ictimai və dövlət xadimidir. Respublikanın Əməkdar mühəndisidir. Sinəsini "Şərəf nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenləri bəzəyir.

Dadaş Mirzə oğlu haqqında yazdıqca yazmaq olar. Çünki bu insanın bütün həyatı maraqlıdır. 80 illik ömrü, bu günün özündə də çoxşaxəli fəaliyyəti yazmaq üçün yeni mövzular verir. O, ölkə tikinti kompleksində adı qızıl hərflərlə yazılmış bir neçə peşəkar, səriştəli inşaatçı-mühəndislərimizdəndir. Çünki o, Azərbaycanda peşəkar inşaatçı-mühəndis kadrlarının yetişdirilməsindən tutmuş, iri sənaye komplekslərinin, yeni yaşayış qəsəbələrinin salınmasına qədər var-qüvvəsini sərf etmişdir. Və elə öz əməyi, işi ilə də öz adını inşaat tariximizdə əbədiləşdirə bilib.

Bu gün cəsarətlə deyə bilərik ki, 60-70-ci illərdə respublikamızın tikinti kompleksində yetişib ustadlaşan tikinti biliciləri, mütəxəssislər və ləyaqətli alimlər – Məmmədəli Abasov, Əliş Lənbəranski, Teymur Qasımov, Ənvər Hüseynov, Abuzər Əliyev və onlarca başqaları ilə yanaşı Dadaş Mirzə oğlu Asanovun da sanballı yeri vardır.



Aslanov
Rafiq
Sabir oğlu

1962-ci ildə Füzuli şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 3 ixtisas üzrə təhsil almışdır. O. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun mühəndis-hidrotexnik (1984), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi (2003) və Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə-kredit (2006) fakültələrini bitirmidir.

R.S. Aslanov əmək fəaliyyətinə ilk dəfə 1984-cü ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Nazirliyində su kadastr qrupunun mühəndisi kimi başlanmışdır. Az sonra həmin nazirlikdə eyni ixtisas üzrə böyük mühəndis (1985-ci il) və 1988-ci ildən isə su təsərrüfatı şəbəkələrinin istismarı idarəsində aparıcı mühəndis vəzifələrinə köçürülmüşdür. O, 1989-1990-cı illərdə 1-ci kateqoriyalı mühəndis, 1990-1992-ci illərdə meliorativ Oİ və SESİ-də aparıcı mühəndis, 1992-1993-cü illərdə iqtisadiyyat, bazar münasibətləri və əməyin təşkili baş idarəsində baş mütəxəssis, 1993-1994-cü illərdə Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsində iqtisadiyyat, maliyyə və əmək haqqı idarəsində rəis müavini, 1994-1997-ci illərdə bu idarədə və SMİ-də rəis, 1997-2003-cü illərdə iqtisadiyyat, maliyyə və əmək haqqı idarəsində rəis, 2003-2005-ci illərdə bu idarədə şöbə müdiri-dövlət qulluğunun kiçik müşaviri, 2005-ci ilin fevralından 2006-cı iladək Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin iqtisadiyyat şöbəsində müdir işləmişdir.

R.S. Aslanov 2006-cı ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinidir. Asiya İnkişaf Bankının maliyyə dəstəyilə həyata keçirilən "Selə qarşı mübarizə tədbirləri" layihəsinin həyata keçirilməsində (2006-2007) onun əməyi çoxdur. Ağcabədi Yevlax, Tərtər, Qəbələ, Şəmkir, Biləsuvar və bir sıra digər rayonlarda meliorasiya, irriqasiya işləri, su təminatının yaxşılaşdırılması, bir qrup rayonların ərazisində suvarma-paylayıcı sistemlərin tikintisi, bərpası, əsaslı və cari təmiri, Bəhramtəpə hidroqovşağında, Şəmkirçay, Tovuzçay və Göytəpə, Pirsaat su anbarlarında yenidənqurma işlərində və digər mühüm obyektlərdə əl izləri vardır.

R.S. Aslanov meliorasiya və su tikintisi sahəsindəki səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının "Əməkdar inşaatçısı" fəxri adına layiq görülmüşdür.



Aslanov
Şəmsəddin
Həmdulla oğlu

17 mart 1960-cı il tarixdə Lerik rayonunun Anzolu kəndində doğulmuşdur. O, 1967-ci ildə Anzolu kənd 8 illik məktəbinin birinci sinfinə getmiş və 1975-ci ildə həmin məktəbi fərqlənmə ilə bitirmişdir. Şəmsəddin Aslanov həmin il Bakı Politexnik Texnikumunun inşaat fakültəsinə qəbul olunmuşdur. 1979-cu ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirən Ş.H.Aslanov gənc mütə-

xəssis kimi təyinatla Bakı Baş Tikinti İdarəsinə göndərilmiş və 21 nömrəli Tikinti İdarəsində 2-ci dərəcəli bənna kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Ş.H. Aslanov 1979-1981-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1981-ci ildə ordu xidmətindən qayıdaraq 21 nömrəli Tikinti İdarəsində işini davam etdirməklə yanaşı Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunmuş və işləyə-işləyə təhsilini davam etdirmişdir.

Ş.H. Aslanov 1982-ci ildən "Bakıbaştikinti" İdarəsinin "Bakışəhərtikinti" trestinin 21 nömrəli Tikinti İdarəsində tikinti ustası vəzifəsinə irəli çəkilmiş, 1986-cı ildə isə həmin idarədə iş icraçısı vəzifəsinə keçirilmişdir.

1987-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda sənaye və mülki tikinti ixtisası üzrə tam kursu bitirərək ali təhsilli inşaat mühəndisi diplomu alan Şəmsəddin Aslanov həmin idarədə baş iş icraçısı vəzifəsinə təyin olunmuşdur. 1989-cu ildə o, köçürmə yolu ilə "Aqrarsənayetikinti" trestinin Bakı ixtisaslaşdırılmış təsərrüfat hesablı Təmir Tikinti İdarəsinə baş mühəndis vəzifəsinə təyin olunmuşdur.

Ş.H. Aslanov 1993-cü ildə "Bakışəhərtikinti" tresti 22 nömrəli Tikinti İdarəsinə baş mühəndis, 1994-cü ildə isə həmin trestin 22 nömrəli Tikinti İdarəsinə rəis vəzifəsinə təyin olunmuşdur.

1999-cu ildə ölkə başçısı cənab Heydər Əliyevin dövlət özəlləşdirmə proqramı ilə əlaqədar imzaladığı Sərəncama əsasən 22 nömrəli Tikinti İdarəsi də özəlləşdirimiş və onun bazasında "SNT" İnşaat Şirkəti yaradılmışdır. Ş.H.Aslanov həmin vaxtdan bu günə kimi "SNT" İnşaat Şirkətinin direktoru vəzifəsində işləyir.

Ş.H. Aslanov Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2009-cu il tarixli Sərəncamına əsasən "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Ailəlidir. Üç övladı – iki oğlu, bir qızı var. Oğlu Elçin və qızı Könül Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir, oğlu Süleyman isə Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsil alır.

Ölkə inşaat kompleksində pillə-pillə yüksələn Şəmsəddin Aslanov Azərbaycana, onun hər bir qarışına bağlı olan, ölkəmizi kərpic-kərpic tikən mütəxəssislərdəndir. Son illər ərzində yorulmaq bilmədən çalışan Şəmsəddin müəllimin rəhbərliyi ilə respublikamızın müxtəlif rayonlarında 50-dən çox məktəb binası tikilib, əsaslı təmir edilib, yenidən qurulub. Bu tədris müəssisələrində hər il 60-70 min məktəbli təhsil alır.

Şəmsəddin Aslanovu ölkəmizin bir nömrəli probleminə çevrilmiş qaçqın və məcburi köçkünlər problemi çox narahat etdiyi üçün Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun tenderlərində iştirak etməklə məcburi köçkün qəsəbələrinin salınmasında, yaşayış evlərinin və digər infrastruktur layihələrinin həyata keçirilməsində gərgin əmək sərf etmiş və bu gün də bu itstiqamətdə fəaliyyətini uğurla davam etdirməkdədir. Belə ki, "SNT" İnşaat Şirkətinin kollektivinin gücü ilə son dövrlərdə tikilmiş 70-80 min kvadratmetrə yaxın mənzil sahəsi olan yaşayış evlərində qaçqın və məcburi köçkünlər məskunlaşmışdır. Sevindirici odur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "SNT" İnşaat Şirkətinin inşa edib təhvilə hazırladığı Goranboy rayonundakı 60 və 80 mənzilli, Dərnəgül qəsəbəsində 2 nömrəli ETK-nın ərazisində 63 mənzilli, Bakının Ramanı qəsəbəsində 80 və 70 mənzilli yaşayış evlərinin istifadəyə verilməsi mərasimlərində iştirak edib və inşaatçılara xoş arzularını bildirib.

O, tikdiyi hər bir binadan qürur duyur. Onun tikdiyi neçə-neçə sosial və mədəni-məişət obyekti, rabitə evi, inzibati idarə binaları, poliklinika və xəstəxana kompleksləri, zastavalar, reyester xidməti binaları xalqın xidmətindədir.

O, həmçinin sifarişçilərlə - Dövlət Sərhəd Xidmətinin, Dövlət Reyestr Xidmətinin, Dövlət Qaçqınlar Komitəsinin, Təhsil Nazirliyinin və digər sifarişçi təşkilatların mütəxəssisləri ilə əlbir çalışır, sıx anlaşma şəraitində işləyir, göstərilən iradları və mövcud problemləri dərhal aradan qaldırır.

"Azbentonit" MMC

öz fəaliyyətinə 2004-cü ildə dövlət başçısı cənab Prezident İlham Əliyevin də iştirak etdiyi rəsmi açılış mərasimindən sonra başlamışdır. Müəssisənin yaradılmasında əsas məqsəd respublikamızın mineral qeyri-filiz xammal yataqlarının kəşfiyyatını, öyrənilməsini, texnoloji qiymətləndirilməsini həyata keçirmək, sənaye əhəmiyyəti olan yataqların xammalları əsasında müxtəlif təyinatlı materialların istehsalını təşkil etməkdən ibarətdir.

Bu məqsədlə ilk öncə müəssisənin çevik idarəetmə strukturu yaradılmış, bütün aparıcı sahələr üzrə yüksək ixtisaslı kadrlar seçilib yerləşdirilmiş və ən əsası bütün texniki qərarların qəbulu prinsipi əsas götürülmüşdür. Zavodun strukturunda elmi-istehsalat şöbəsi və onun elmi-tədqiqat bazası olaraq güclü müasir və demək olar ki, kifayət qədər universal mərkəzi-sınaq laboratoriyası yaradılmışdır. Azərbaycanda ilk dəfə olaraq müxtəlif təyinatlı bentonit tozunun, daha sonra isə Rusiya klinkeri və yerli mineral aktiv əlavələr əsasında müxtəlif markalı portland sementin, gipsin, kalsitin, 40-dan çox boya məhsullarının, quru inşaat qarışıqlarının, o cümlədən, gips məhsullarının, kafel-metlax yapışdırıcılarının, özüyayılan, hidroizolyasion, istilikizolyasion, hörgü və suvaq qarışıqlarının, dekorativ suvaq qarışıqlarının, əhəngin və söndürülmüş əhəngin, dekstrinin istehsalı və yüksək səviyyədə qablaşdırılması işi təmin olunmuşdur.

Hazırda zavodun məhsuldarlığına, eləcə də təyinatına və prinsipinə görə fərqlənən 15 texnoloji xəttdə əlavə olaraq ən müxtəlif məqsədlər üçün qarışıq tozların, odadavamlı mertel tozlarının, polimer sənayesi üçün mineral toz əlavələrinin istehsalı planlaşdırılır. Yeni iş yerlərinin açılması ilə bağlı dövlət proqramına uyğun olaraq müəssisədə yeni istehsal sahələrinin təşkili işi mütəmadi olaraq davam etdirilir.

Bütün bunlarla yanaşı müəssisədə işləyən işçilərin sosial problemlərinin həlli, istirahətlərinin səmərəli təşkili üçün, eləcə də əməyin təhlükəsizliyi və mühavizəsi, ətraf mühitin qorunması ilə əlaqədar kompleks tədbirlər planı hazırlanıb həyata keçirilir.

Mərkəzi sınaq laboratoriyası bir-biri ilə sıx əlaqədə işləyən qrup və bölmələrdən ibarətdir. Əsas bölmələrə "Texnoloji tədqiqat və sınaq laboratoriyası" "Analitik laboratoriya" və "Mineralogiya laboratoriyası" aiddir. Laboratoriyada süxurların texnoloji xassələri, kimyəvi və mineraloji tərkibi ən müasir cihaz və avadanlıqların köməyi ilə tədqiq edilir. Hazırda laboratoriya Almaniyanın "Herzoq" firmasının nümunə hazırlayan cihazları, "Explorer" rentgenspektral analizatoru, "Advance" avtomatik difraktometri ilə

təmin edilib və onların köməyi ilə maye və bərk halda istənilən nümunənin kimyəvi və mineraloji tərkibi (elementlər B-dan U-a kimi) yüksək dəqiqliklə təyin edilir. Sertifikatlaşdırılmış Mərkəzi sınaq laboratoriyası (Azərbaycan Dövlət Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət agentliyi tərəfindən verilmiş) həmçinin hazır məhsulun keyfiyyətinə nəzarəti həyata keçirir, demək olar ki, əksər inşaat materiallarının keyfiyyətinə sənədləşdirilmiş mütəxəssis rəyi verə bilir, yeni inşaat materiallarının texnologiyasının işlənməsi, kimyəvi-mineraloji tərkibinin, texnoloji xassələrinin tədqiqini professional şəkildə həyata keçirə bilir.

Hazırda Mərkəzi sınaq laboratoriyasında tədqiqat işləri Respublikamızın və Rusiya Federasiyasının nüfuzlu ali məktəblərini bitirmiş yüksək ixtisaslı mütəxəsisləri tərəfindən həyata keçirilir.

Qeyd edək ki, hazırda zavodun məhsuldarlığına, eləcə də təyinatına və prinsipinə görə fərqlənən 15 texnoloji xətdə əlavə olaraq ən müxtəlif məqsədlər üçün qarışıq tozların, oda-davamlı mertel tozlarının, polimer sənayesi üçün mineral toz əlavələrinin istehsalı planlaşdırılır.

"Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti

50 ilə yaxındır ki, fəaliyyət göstərir və o, 1961-ci ildə qeyri-dövlət mülkiyyəti əsasında yaradılmış "Başkolxozlararasıtikinti" İdarəsinin hüquqi varisidir. Sonradan onun tərkibinə müxtəlif dövlət təşkilatları verilməklə adı bir neçə dəfə dəyişdirilərək "Başkolxozsovxoztikinti" İdarəsi, "Azəraqrarsənayetikinti" Birliyi, "Azəraqrartikinti" İstehsalat Birliyi, "Azəraqrartikinti" Dövlət Şirkəti adlandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Tikinti kompleksinin inhisarsızlaşdırılması və özəlləşdirilməsi haqqında" 1997-ci il 02 dekabr tarixli 646 nömrəli Fərmanı ilə "Azəraqrartikinti" Dövlət Şirkəti ləğv edilmiş və şirkətin qeyri-dövlət mülkiyyətinə məxsus əmlakının bazasında "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti yaradılaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 11 mart 1998-ci il tarixdə 01 nömrəli şəhadətnamə ilə qeydiyyata alınmışdır. Cəmiyyətin mülkiyyəti 100 faiz onun səhmdarlarının xüsusi mülkiyyətidir.

Fəaliyyət göstərdiyi illər ərzində "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti tərəfindən respublikamızın bütün bölgələrində - şəhər və rayonlarında, əksər kəndlərində müxtlif təyinatlı kənd təsərrüfatı obyektləri, təhsil, səhiyyə və sosial obyektlər, yaşayış evləri, ictimai binalar və sair obyektlər inşa olunmuşdur.

"Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti icra etdiyi müqavilələrin həcminə və mürəkkəbliyinə görə respublikada ön sıralarda olan tikinti təşkilatlarından biridir. Cəmiyyətdə yüksək ixtisaslı kadr potensialı birləşmişdir. Onun aparatında və filiallarında öz peşəsinin vurğunu olan yüzlərlə yüksək ixtisaslı mühəndislər, memarlar və digər peşə sahibləri çalışırlar. Məhz onların gərgin əmək və səylərinin nəticəsidir ki, son illər "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin fəaliyyət dairəsi xeyli genişlənmişdir – artıq kollektiv daha mürəkkəb və daha unikal obyektlər üzrə müxtəlif növ işlər yerinə yetirir və bu sahədə uğurlar davam etməkdədir.

"Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti respublikanın tikinti kompleksində öz dəsti-xətti və xüsusi çəkisi olan respublika əhəmiyyətli təşkilatlardan biridir. Səhmdar Cəmiyyət respublikada aparılan geniş miqyaslı tikinti, quraşdırma, yenidənqurma işlərində yaxından iştirak edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev və Ölkə Prezidenti cənab İlham Əliyev dəfələrlə "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin inşa etdiyi obyektlərdə olmuş, inşaatçılarla görüşlərdə onların əməyini yüksək qiymətləndirərək öz tövsiyələrini vermişlər. Son bir neçə ildə "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Heydər Əliyev Fondunun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidənqurulması üzrə Agentliyin, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin və digər sifarişçilərin xətti ilə xeyli sayda müqavilələr icra olunaraq başa çatdırılmış, yaxud icra olunmaqdadır.

Səhmdar Cəmiyyətin əsas məqsədi inşaat sahəsi üzrə dünyanın qabaqcıl ölkələrini ən mütərəqqi və qabaqcıl texnologiyalarını, daha müasir material və avadanlıqlarını iş prosesində tətbiq etmək, milli memarlıq ənənələrini qorumaqla estetik cəhətdən daha gözəl və baxımlı layihələri həyata keçirmək, bununla da müstəqil Azərbaycanımızın günü-gündən daha da gözəlləşməsinə öz layiqli töhfəsini verməkdir.

Son illər "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti bir sıra layihələrin icrasını müştərək şəkildə - İtaliyanın "Eleca", "İmpronta", Fransanın OTV şirkəti, Türkiyənin Metabronz, Turan Xəzinədaroğlu, PİM PROJE, ŞUKO, QRANİTAŞ şirkətləri, Rusiyanın "FOTON" firması ilə, Almaniyanın Rayzinq, PERİ, VİRTGEN şirkətləri ilə və digər ölkələrin başqa tanınmış şirkətləri ilə birlikdə yerinə yetirmişdir. Dünyanın öndə gedən şirkətlərinin ən müasir və qabaqcıl texnologiyaları, inşaat konstruksiyaları və materialları artıq "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti kollektivinin iş apardığı obyektlərdə geniş tətbiq olunur.

Səhmdar Cəmiyyətdə kadrların öz bilik və bacarıqlarını təkmilləşdirmələrinə xüsusi fakir verilir. Bu məqsədlə vaxtaşırı seminarlar təşkil olunur, kollektivin üzvləri dünyanın qabaqcıl şirkətlərinin keçirdiyi treninqlərdə, inşaat sərgilərində fəal iştirak edirlər. Hal-hazırda Səhmdar Cəmiyyətin ən iri və mürəkkəb tikini layihələrini reallaşdırmaq üçün güclü maddi-texniki bazası və kadr potensialı vardır.

"Azərtunelmetrotikinti" Açıq Səhmdar Cəmiyyəti

Keçmiş SSRİ Nazirlər Sovetinin 20 yanvar 1949-cu il tarixli 228-72 ss nömrəli qərarı ilə həmin ilin dekabrında xüsusiləşdirilmiş "Bakımetrotikinti" İdarəsi təşkil olunmuş və Bakı şəhərində metropolitenin inşasına başlanmışdır.

"Bakı Soveti", "Sahil", "28 May", "Gənclik", "Nəriman Nərimanov", "28 May" stansiyasından "Xətai" stansiyasına ayrılan xətt, eyni vaxtda 23 qatar üçün təmir sexi və çoxlu sayda köməkçi binaları olan "Depo" ilə birlikdə 6 noyabr 1967-ci ildə istifadəyə verildi və Azərbaycan paytaxtında keçmiş SSRİ-nin beşinci Metropoliteni işə düşdü.

1970-ci ildə "Ulduz", 1972-ci ilin noyabr ayında "Əzizbəyov", "Qara Qara-

yev" və "Neftçilər", 1985-ci ildə "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar" və "Memar Əcəmi", 1989-cu ildə "Xalqlar Dostluğu" və "Əhmədli" stansiyaları, 2002 – ci ildə "Həzi Aslanov" stansiyasının tikintisi başa çatdırıldı.

2008-ci ildə "Nəsimi" stansiyası, 2009-cu ildə "Azadlıq prospekti" stansiyası, 2011-ci ildə isə "Dərnəgül" stansiyası istifadəyə verildi. Qeyd edək ki, hər üç stansiyanın açılış mərasimlərində Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev cənabları iştirak etmişdir.

Arxada qalan illər ərzində "Bakımetrotikinti" İdarəsinin kollektivi Azərbaycan Respublikasının inkişafında fəal iştirak etmiş və əsasən Bakı Metropoliteninin tikintisini həyata keçirmiş, həmçinin Azərbaycan Respublikasının ərazisində çoxsaylı yeraltı keçidlər, xalq təsərrüfatının müxtəlif sahələrində çox vacib olan onlarca obyektləri tikərək istismara vermişlər. Eyni zamanda xarici ölkələrin ərazisində də bir neçə unikal və iri istehsalat və sosial təyinatlı obyektlər tikilmişdir.

Belə ki, kollektivin gücü ilə, Azərbaycan dəmiryolunun Bakı-Naxçıvan xəttində uzunluğu 413 və 1545 metr olan iki tunel tikilmişdir. Şamaxı rayonunda diametri 8,5 m olan tunel tipli nəhəng Şərab anbarı, öz aralarında birləşən və hər birinin uzunluğu 500 metr olan iki paralel tunel də tikilmişdir.

Şəhərimizin küçələrinin kəsişmələrində piyadalar üçün böyük yeraltı keçid şəbəkəsi yaradılmışdır, Dənizkənarı bulvar, mədəniyyət və istirahət parkını Dağüstü parkla (indi Şəhidlər xiyabanı) birləşdirən funikulyor tikilmişdir.

Metro inşaatçıları həmçinin respublika xalq təsərrüfatı kompleksinin inkişafında da böyük işlər görmüşlər:

- Ağdam rayonunda uzunluğu 359 m olan Xanıçay su anbarı;
- Tovuz rayonunda uzunluğu 322 m olan Axincaçay su anbarı və piyadalar və avtomobillər üçün dəmir yolunun altından keçən iki keçid;
- Naxçıvan Muxtar Respublikasında uzunluğu 3900 m olan sol sahil hidrotexniki qurğu;
- Kəlbəcər rayonunda uzunluğu 550 m olan avtomobil və piyadalar üçün tunel də tikmişlər.

Kollektivin keçmiş SSRİ Elmlər Akademiyası Atom Tədqiqatları İnstitutunun sifarişi ilə Kabardin-Balkar Muxtar Respublikasının Elbrus rayonu ərazisində nəhəng yeraltı obyektin tikintisindəki əməyini xüsusi qeyd etmək istərdik.

Dövlət qarşısındakı xidmətlərinə görə kollektivin üzvləri yüksək dövlət mükafatları ilə, ordenlərlə, medallarla təltif olunmuşlar. "Bakımetrotikinti" İdarəsi isə dəfələrlə keçici qırmızı bayraqlarla və o vaxt ən yüksək mükafat he-



Bakı Metropoliteninin inzibati binası



1



2

1. "İnşaatçılar" stansiyası. **2.** "Qara Qarayev" stansiyası

sab olunan "Lenin" ordeni ilə təltif edilmişdir.

Bakı Metropoliteninin tikintisi və sonrakı inkişafı görkəmli dövlət xadimi, xalqımızın şanlı oğlu, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

H.Əliyev Azərbaycan KP.MK-nın birinci katibi seçildiyi zaman Bakı Metropoliteni ilk kövrək addımlarını atırdı. O, uzaqgörən rəhbər kimi ilk gündən Bakı Metropoliteninin inkişafına – tikintisinə və yeni metro stansiyalarının istifadəyə verilməsinə xüsusi diqqət ayırdı və metropoliten tikintisində böyük canlanma başlandı. Çünki tikintinin bu çətin və mürəkkəb sahəsi burada işləyənlərdən böyük zəka, bilik, peşəkarlıq, səbr və zəhmət tələb edir.

O böyük insan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə də Bakı Metropoliteninin yeni xətlərinin tikintisinə köməyini bir an əsirgəmədi.

Ulu öndər Azərbaycan rəhbərliyinə ikinci qayıdışında da metro tikintisinə xüsusi diqqət yetirdi. Beləliklə, bu gün fəxrlə deyə bilərik ki, Bakı Metropoliteni xətlərinin 22,3 kilometri məhz Heydər Əliyevin rəhbərliyi sayəsində tikilmişdir.

2009-cu ilin dekabrında "Bakımetrotikinti" İdarəsinin 60 yaşı tamam oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 dekabr 2009-cu il tarixli Sərəncamı ilə "Azərtunelmetrotikinti" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının 60 illik yubileyi münasibətilə və Bakı metrosunun tikintisində xidmətlərinə görə kollektivin 3 əməkdaşı "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş, 3 əməkdaşı "Şöhrət" ordeni ilə, 15 əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bu, dövlət tərəfindən kollektivin əməyinə verilən çox böyük qiymətdir.

...Son illərdə Bakı şəhərində əhalinin artımı metropolitendə də özünü qabarıq şəkildə göstərir, metropoltenin xidmətlərindən istifadə edən sərnişinlərin sayı ilbəil artır və yaxın illərdə daha da artacağı proqnozlaşdırılır.

Buna görə də Bakı şəhərinin əhalisinin nəqliyyat tələbatının ödənilməsi, avtomobil nəqliyyatı vasitələrinin intensivliyinin azaldılması və metroplitenin mövcud xətlərinin ifrat yüklənməsinin qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının sərəncamı ilə Bakı Metropoliteni xətlərinin perspektiv inkişaf proqramı işlənib hazırlanmış və artıq bu istiqamətdə bir sıra addımlar atılmışdır.

Son bir neçə ildə tikilib istifadəyə verilən metro stansiyaları – "Həzi Aslanov", "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül" "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin çağdaş günümüzdəki mövcud potensial imkanlarından xəbər verir. Səhmdar Cəmiyyət bu gün də metro tikintisi sahəsində uğurla fəaliyyət göstərir və yaxın illərdə yeni metro stansiyalarını tikib istifadəyə vermək əzmindədir.

Metro inşaatının son 25 ildəki bütün uğurları Şaiq Kərim oğlunun adı ilə bağlıdır. Bu onilliklərdə həmçinin Şaiq Əfəndiyevin rəhbərliyi altında metro tikintisində bacarıqlı metro inşaatçıları nəsli yetişib.

"Azərtunelmetrotikinti" ASC bu gün güclü tikinti qurumu kimi metropoliten tikintisi sahəsində dominantlığını qoruyub saxlayır və daha böyük tikinti işləri görmək imkanına, gücünə malikdir. Və təbii ki, qazanılan bütün uğurlar bilavasitə Şaiq Əfəndiyevin mühəndislik, rəhbərlik fəaliyyəti ilə sıx bağlıdır. Ancaq Şaiq müəllim bu gün

Səhmdar Cəmiyyətin maddi-texniki bazasının daha sürətli və böyük imkanlara malik müasir avadanlıqlarla, maşın-mexanizmlərlə modernləşdirilməsinin vacibliyini bilir və bütün fəaliyyətini bu istiqamətə yönəldərək yeni texnologiyaların metro inşaatına cəlb olunmasına çalışır.

Ölkənin iqtisadiyyatını dirçəltmək, xalqın həyat səviyyəsini yüksəltmək məsələlərini həll edərkən respublikamızın rəhbərliyi bütün zamanlarda daim yeraltı nəqliyyatın inkişafına diqqət ayırır. Onun şanlı keçmişi və böyük gələcəyi vardır.

Bu gün "Azərtunelmetrotikinti" ASC ildə ən azı 1 stansiya tikib təhvil vermək gücündədir. Bu yeni inkişaf proqramında da öz əksini tapıb.

Statistikaya nəzər salsaq görərik ki, 1989-cü ildə 1 milyon manat, 2006-cı ildə 15 milyon manat, 2007-ci ildə 46 milyon manat, 2008-ci ildə isə 88 milyon manat tikinti quraşdırma işləri yerinə yetirilmişdir. Bu isə o deməkdir ki, 1999-cu ildən bu günəcən tikinti quraşdırma işlərinin həcmi 80 dəfə artmışdır. Deməli, ASC-nin böyük potensialı vardır və lazımı dövlət vəsaiti ayrılarsa bütün tapşırıqların öhdəsindən gəlmək olar. Ötən il və cari ilin arxada qalan aylarında görülən işlər belə deməyə əsas verir.

Potensial böyükdür, əlbəttə vəsait ayrılması çoxaldıqca əlavə işçi qüvvəsi cəlb etmək lazım gələcəkdir. Və əminik ki, gələcəkdə Bakı Metropoliteninin inkişaf proqramı "Azərtunelmetrotikinti" ASC-nin gücü ilə reallaşacaqdır.

"Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyəti

1965-ci ilin noyabrın 19-unda respublika hökumətinin qərarı ilə Azərbaycan SSR Kənd Tikinti Nazirliyi yaradıldı. Tofiq Cahangir oğlu Əhmədov respublikanın ilk kənd tikinti naziri oldu.Yarandığı ilk 3 il ərzində nazirlik üzrə 60 milyon manatlıqdan çox tikinti-quraşdırma işləri yerinə yetirilmişdi.

Kənd Tikinti Nazirliyi yarandığı ilk gündən respublika hökuməti bu yeni qurumun inkişafı üçün geniş tədbirlər planı həyata keçirdi. Geridə qalmış aqrar ölkə olan Azərbaycanda kəndin dirçəlişi üçün kənd tikinti inşaatçılarının qarşısında mühüm vəzifələr qoyulmuşdu. Bu vəzifələrin öhdəsindən gəlmək üçün ilk növbədə nazirliyin möhkəm maddi texniki bazası yaradılmalı idi. Odur ki, o vaxtlar fəaliyyət göstərən Kənd Təsərrüfatı Nazirliyinin və Üzümçülük və Şərabçılıq Komitəsinin müvafiq olaraq "Azərkəndtikintiquraşdırma" və "Azərşərabxüsusitikinti" trestləri yeni nazirliyin ixtiyarına verildi. Nazirlər Sovetinin sərəncamı ilə 1968-ci ilin əvvəlindən Tikinti Nazirliyinin Mingəçevirdəki 5 nömrəli tresti, Xaçmazdakı bölməsi, Mingəçevirdəki mexanizasiya və ərazi nəqliyyat idarələri, Meyvəçilik və Tərəvəzçilik Komitəsinin tikinti sahəsi, Kür Araz Su Tikinti Baş Idarəsinin SMD-si, tikinti-quraşdırma idarəsi, Port-İliç qəsəbəsindəki ərazi nəqliyyat kontoru və digər təşkilatlar da yeni yaradılmış Kənd Tikinti Nazirliyinin tabeçiliyinə verildi. Eyni zamanda bir sıra sənaye müəssisələri, o cümlədən Tikinti Nazirliyinin Mingəçevirdəki və Bakıdakı 5 və 7 nömrəli dəmir beton məmulatları zavodları, 2 ağac emalı zavodu, Kür-Araz Su Tikinti Baş İdarəsinin Bərdədəki 11 nömrəli DBM zavodu da Kənd Tikinti Nazirliyinə verildi.

1966-cı ildə Kənd Tikinti Nazirliyinin strukturu Bakı şəhərində fəaliyyət göstərən 1 və 2 nömrəli "Azərkəndtikinti" trestlərindən, Naxçıvan və Xankəndindəki 3 və 4 nömrəli,

Mingəçevirdəki 5 nömrəli "Azərkəndtikinti" trestlərindən, Material Texniki Təchizat İdarəsindən, "Tikintimateriallarısənaye" trestindən, tədris kombinatından və işin keyfiyyəti üzrə mərkəzi labaratoriyadan ibarət idi.

Əgər 1965-cii ildə kənddə tikinti işlərinin həcmi 21 milyon manat olmuşdursa, 1966-cıildə bu rəqəm 31 milyon manatdan artıq idi. Bir il ərzində kənd rayonlarında 40 min kvadratmetrdən artıq mənzil sahəsi, 6.600 yerlik məktəb binaları tikilmişdi. Şuşada, Şəkidə, Lənkəranda, Xaçmazda, Quba rayonunun kəndlərində iri məktəb binaları tikilib istifadəyə verilmişdi. DQMV-dəki ipəkçilik kombinatında istehsal gücləri artırılmış, Lənkəranda çay fabriki, Sabirabadda süd zavodu, Naxçıvanda şərab zavodu tikilib istifadəyə verilmişdi.

1967-1970-ci illərdə kənd inşaatçıları respublikamızın şəhər və rayonlarında 10696 şagird yerlik 18 orta məktəb binası, 4 yataqxana internatı, 9 uşaq bağçası və körpələr evi, Şəki İpək Kombinatının yenidən qurulması, 43 min kvadratmetrlik yaşayış binaları, 5910 şagird yerlik məktəb binaları, 570 yerlik texniki peşə məktəbləri, 8000 başlıq maldarlıq binaları, 44 min ton kənd təsərrüfatı məhsulları tutan anbarlar, Şəkidə, Şamaxıda və Salyanda avtomobil qarajları və təsərrüfatları və 50 yerlik uşaq bağçası və körpələr evi, respublikamızın kəndlərində 50 min kvadratmetrə yaxın mənzil sahəsi, Biləsuvar Quşçuluq fabriki, Xaçmaz konserv zavodu, Füzuli rayonunda 125 yerlik xəstəxana kompleksi, Kürdəmirdə mədəniyyət evi, Qubadlıda klub, Tərtərdə texniki peşə məktəbi və digər çoxlu sayda kənd təsərrüfatı obyektlərini tikərək istifadəyə vermişlər.

Kənd Tikinti Nazirliyinin kollektivi 1971-1980-ci illərdə də Azərbaycan kəndinin tikilib abadlaşmasında fəallıq göstərmişdir. Belə ki, bu 10 il ərzində 85 min kvadrat metr mənzil sahəsi, şərab zavodlarında 60 min ton üzüm emal edən güclər, Ağdamda metal məmulatı-furnitur zavodu, Puşkində quşçuluq fabriki, Mingəçevirdə yol maşınları zavodu, Xirdalanda baza və bir sıra digər obyektlər, 24954 şagird yerlik məktəblər, xəstəxanalar, inzibati binalar, ümumi sahəsi 2600 kvadratmetrdən çox anbar binaları, Salyanda plastik kütlələr zavodunun birinci növbəsi, Füzulidə yağpendir zavodu, 60 min ton mineral kübrə saxlama anbarları, Qubada qanköçürmə stansiyası, qəsəbə sovetləri üçün 6 inzibati bina, Tovuzda 2 şərab zavodu, Xaçmaz, Şəki, Salyan və bir sıra rayonlarda sosial-məişət obyektləri, Xudatda konserv zavodu, Zaqatalada tütün-fermantasiya zavodu, Bakıda və Cəlilabadda broyler fabrikləri, 505 çarpayılıq xəstəxana kompleksi, 250 yerlik poliklinia, 5 aptek, Lənkəran konserv zavodu, Giləzi yem zavodu, 8 şərab zavodu, 52418 kvadratmetr mənzil sahəsi, 305 çarpayılıq xəstəxana kompleksi,19349 yerlik məktəblər, 430 yerlik uşaq bağçaları, 30 min tonluq şərab zavodları, Şəki tütün fermantasiya zavodu, Salyan dəyirman kombinatı, Lənkəran çay fabriki, Kəlbəcər "İstisu" zavodu, Masallıda illik istehsal gücü 100000 kubmetr olan keramzit çınqıl zavodunun, Mingəçevirdə illik istehsal gücü 25 min kubmter olan perlit sexinin yenidən qurulması, Masallıda iripanelli evtikmə zavodu, Cəlilabadda 40 min kubmetr gücündə daha bir dəmir beton məmulatı zavodu, Füzulidə mədəniyyət sarayı, Lənkəranda və

Masallıda süd-əmtəə fermaları, Füzuli rayonunda şərab zavodu, Tovuz rayonunda 1176 şagird yerlik məktəb binası, Dəlimənmədli qəsəbəsində 10 min tonluq yeni kübrə anbarı, 30 min ton üzüm emal edən zavodlar, 65 min ton kimyəvi maddələr saxlamaq üçün mineral kübrə anbarları, 5600 başlıq heyvandarlıq kompleksi, Şəkidə pendir zavodu, ümumi sahəsi 75 min kvadratmer olan yaşayış evləri, 22 min şagird yerlik məktəblər, 18 min yerlik texniki peşə məktəbləri və bir sıra digər vacib obyektlər tikilərək kənd sakinlərinin istifadəsinə verilmişdir.

1981-ci ildə kənd inşaatçıları 254 obyektdə işləmişlər. Bunlardan 74 obyektin tikintisinə başlanılmış, 153 obyekt isə il ərzində istifadəyə verilmişdir. 1983-cü ildə isə Kənd Tikinti Nazirliyinin əmək adamları 269 obyektdə iş aparmışdır ki, bunun 139-u yeni tikintilər olub. Həmçinin 1984-cü ildə kənd inşaatçıları ilin tapşırıqlarını yerinə yetirməyə müvəffəq olmuşlar.

1985-ci il də kənd inşaatçıları il ərzində 50 min kvadratmetrdən çox mənzil sahəsi, 7 min şagird yerlik məktəb binaaları, uşaq bağçaları və xəstəxanalar tikərək rayon əhalisinin istifadəsinə vermişlər.

Həmçinin 1985-1990-cı illərdə respublikanın kənd rayonlarında 860 min kvadratmetrdən çox yaşayış evləri, 82 min yerlik məktəblər, 5210 yerlik məktəbəqədər uşaq müəssisələri, 850 çarpayılıq xəstəxanalar və növbə ərzində 2280 nəfər xəstə qəbul edən ambulatoriya və poliklinikalar, 3 çörək zavodu, 6 süd zavodu, Göyçay və Bərdə rayonlarında kərpic zavodları, Masallıda çay fabriki, Dəvəçidə dəyirman kombinatı, Siyəzəndə poçt kompleksi, Zaqatala, Ucar və Saatlıda mətbəələr, Lənkəranda tikiş fabriki, Kürdəmirdə dəyirman kombinatı və sair obyektlər tikilərək istifadəyə verilmişdir.

1965-ci ildə Azərbaycan SSR Kənd Tikinti Nazirliyi yaradıldığı zaman Tofiq Cahangir oğlu Əhmədov respublikanın ilk kənd tikinti naziri təyin olundu və o, 1971-ci ilin sonuna kimi bu vəzifədə qüsursuz çalışaraq böyük uğurlara imza atdı. Sonrakı illərdə isə Kənd Tikinti Nazirliyinə Saleh Hilal oğlu Hacıyev (1971-1974), Əlimuxtar Ağaqulu oğlu Hüseynzadə (1974-1978), Dadaş Mirzə oğlu Asanov (1978-1982), Şair Nəcməddin oğlu Həsənov (1983-1986) rəhbərlik etmişlər. 1989-cu ildən bu günədək isə Litvin İbiş oğlu Abasov kənd tikintisinə sərişdə və bacarıqla rəhbərlik edir. Kənd tikintisinin son 20 ildən çox bir dövrdə qazandığı bütün nailiyyətlər Litvin müəllimin adı ilə bağlıdır.

Sovetlər Birliyində yenidənqurma başlananda Kənd Tikinti Nazirliyi ilə Baş Kolzəzlararası Tikinti İdarəsi əvvəlcə birləşdirilərək Aqrar Sənaye Komitəsinin tərkibinə qatıldı.

Respublika Nazirlər Sovetinin 3 aprel 1989-cu il tarixli 150 nömrəli qərarı ilə "Azərkəndtikinti" İstehsalat Birliyi yaradıldı. Və tanınmış inşaatçı-mühəndis L.İ. Abasov "Azərkəndtikinti" İstehsalat Birliyinin rəisi vəzifəsinə təyin olundu. O. 1989-1993-cu illərdə "Azərkəndtikinti" İstehsalat Birliyinin rəisi vəzifəsində qüsursuz çalışaraq kənd tikintisində yeni uğurlara imza atdı.

Yarandığı ilk günlərdən "Azərkəndtikinti" İstehsalat Birliyinin yığcam tikinti xəritəsinə respublikanın 42 rayonu, Bakı, Lənkəran, Əli Bayramlı şəhərləri və DQMV daxil idi. Və 1989-1999-cu illər arasında 161.9 min kvadratmetr yaşayış sahəsi, 12548 yerlik

məktəb, 1830 yerlik uşaq bağçası, 151 min kvadratmetr mənzil sahəsi, 243 çarpayılıq xəstəxana, Qusarda kərpic zavodu, Şəkidə və Qubada konserv zavodları və s. tikilib istifadəyə verilmişdir.

1993-cü ildə "Azərkəndtikinti" Dövlət Şirkəti yaradıldı və L.İ. Abasov 1993-1999-cu illərdə "Azərkəndtikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsində çalışmışdır.

Ölkə tikintisindəki real vəziyyəti düzgün qiymətləndirərək 13 aprel 1999-cu il tarixdə ölkə Prezidenti möhtərəm Heydər Əliyev cənabları "Azərkəndtikinti" ATSC-nin və digər səhmdar cəmiyyətlərinin yaradılması barədə sərəncam imzaladı və kənd tikintisində yeni bir dönəm başladı. Və L.İ. Abasov Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyevin 131 saylı Sərəncamı ilə 13 aprel 1999-cu ildə "Azərkəndtikinti" ASC-nin sədri təyin olundu.

Və bu gün də Litvin Abasov kənd tikintisinin sükanı arxasındadır.

"Azərkəndtikinti" ASC yarandığı vaxtdan bu günə kimi 2000-ci il 25 noyabr Bakı zəlzələsi nəticəsində dəymiş ziyanın aradan qaldırılmasında yaxından iştirak etmiş, Ağdam, Füzuli və Goranboy rayonlarının ərazisində məcburi köçkün qəsəbələrinin salınmasında, Səhiyyə Nazirliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin sifarişləri əsasında təmir, bərpa və yenidənqurma işləri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə start götürmüş "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə respublikanın əksər bölgələrində məktəb binaları və digər sosial-mədəni obyektlər tikilərək istifadəyə verilmişdir.

"Azərkörpü" Açıq Səhmdar Cəmiyyəti

Ölkənin tikinti kompleksində özünəməxsus payı olan şirkətlərdən olan "Azərkörpü" ASC 1968-ci ildə SSRİ Nəqliyyat Tikinti Nazirliyinin tərkibində 100 nömrəli Körpü Tikinti Dəstəsi kimi Bakı şəhərində yaradılmışdır. Ölkədə həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu şirkət 1997-ci ildə səhmdar cəmiyyət statusu almışdır.

Öz çoxillik fəaliyyəti dövründə müəssisə Azərbaycanda və onun hüdudlarından kənarda müxtəlif profilli mürəkkəb obyektlərin tikintisi sahəsində böyük və şərəfli yol keçmişdir.

"Azərkörpü" ASC bu gün tikintidə ən müasir texnoloji üsullardan istifadə edən, dünyanın ən qabaqcıl şirkətlərinin istehsal etdiyi maşın və mexanizm parkına sahib olan, işini tanınmış İsveçrə şirkəti "SGS" tərəfindən verilmiş İSO 9001:2008 EKO sertifikatı, İSO 14001:2004 Təhlükəsizlik texnikası və sağlamlığın qorunması sertifikatı, OHSAS 18001:2007 ekologiya tələbləri sertifikatına uyğun qurmuş dinamik inkişaf edən bir şirkətdir.

Səhmdar Cəmiyyətin bazasında 1500 addan artıq texnika vardır ki, onların vasitəsilə ən çətin tikinti işləri kompleks şəkildə yerinə yetirilir.

"Azərkörpü" ASC-nin 4000 nəfərlik kollektivi ən yüksək ixtisaslı mütəxəssislərdən ibarətdir və onların peşəkarlıq səviyyəsi ən çətin sayılan hər hansı bir işi, qlobal layihəni yüksək səviyyədə yerinə yetirməyə imkan verir.


"Azərkörpü" Açıq Səhmdar Cəmiyyətinin Rusiyada, Qazaxıstanda, Ukraynada və Türkiyədə filialları vardır.

"Azərkörpü" ASC-nin çağdaş nüfuz və şöhrəti onun dünyanın tanınmış maliyyə institutları – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Komissiyası, İslam İnkişaf Bankı, TACİS Proqramı və bu kimi digər nüfuzlu beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilən qlobal layihələrin həyata keçirilməsində iştirakını təmin etmişdir.

Səhmdar Cəmiyyət bütün işlərini dunyanın qabaqcıl texniki standartlarına və təhlükəsizlik normalarına uyğun həyata keçirir. Təkcə bu üstün dəyərlər "Azərkörpü" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycanda və onun hüdudlarından kənarda keçirilən müxtəlif tenderlərdə qələbə qazanmasına imkan verir. Başqa sözlə desək, səhmdar cəmiyyətin sifarişçiləri arasında yerli şirkətlərlə yanaşı, tanınmış xarici firmalar da çoxluq təşkil edir.

Səhmdar Cəmiyyətin sifarişçiləri arasında yerli şirkətlərdən Nəqliyyat Nazirliyi, "Azəryolservis" ASC, Meliorasiya və Su Təsərrüfatı ASC, Azərbaycan Dəmir Yolları QSC, Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyi (AYBA), Dövlət Sərhəd Xidməti və s. ilə yanaşı, xarici şirkətlərdən BTC, "Tekfen", "Petrofak", Washington İnternational İnc, Keppel/Kazakhstan, Aktau Dəniz Limanı, Ukravtayol, Kazan şəhəri Əsaslı Tikinti İdarəsi, Qazaxıstan Avtomobil Yolları Komitəsi Departamentləri və digər şirkətlər vardır.

"Azərkörpü" ASC "Bakı-Tbilisi-Ceyhan" neft kəməri, "Bakı-Supsa" kəməri, Xəzər hövzəsində liman və yanalma körpülərinin (Aktau-Qazaxıstan, Bakı-Azərbaycan) layihələrinin reallaşmasında aktiv iştirak etmiş, Bakı-Samur av-



1-2. Türkan qəsəbəsində Azərbaycanın Sərhəd Qoşunlarının gəmiləri üçün yanalmanın tikintisi
3. Aktau limanının şimal istiqamətində genişləndirilməsi.
4.Mövcud Leninskaya bəndinin və Kazanka çayı üzərindəki körpünün bərpası, Kazan.






1. Taxtakörpü su anbarı. **2.** Bakı şəhərində, "Koroğlu" metro stansiyasının yaxınlığında yerləşən nəqliyyat qovşağı. **3.** Bakı Metropoliteninin "Avtovağzal" stansiyasının tikintisi.
4. Qax rayonu İlisu kəndinin mühafizəsi tədbirləri. İlisu kəndində Hamam çayı üzərində körpü keçidi.

tomobil yolunun 28-65 km sahəsində çoxsaylı körpü və yol ötürücülərinin, Bakı-Şamaxı avtomobil yolunda körpülərin və yeraltı keçidlərin, Tovuz dolama yolunda Tovuzçayı üzərində orijinal körpünün tikintisini başa çatdırmış və digər çoxlu sayda böyük layihələri reallaşdırmışdır.

Şirkət mülki tikinti sahəsində də öz töhfəsini vermişdir. Bakı şəhərinin H. Seyidbəyli küçəsində böyük yaşayış kompleksi tikilib başa çatmışdır.

Respublikamızdan kənarda Qazaxstanın Aktau şəhərində Aktau limanının genişləndirilməsi və Ukraynada Kiyev-Çop avtomobil yolunun 322-348 km sahəsinin tikintisi başa çatmışdır.

Bunlardan başqa "Azərkörpü" ASC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakının nəqliyyat sistemini təkmilləşdirmək barədə imzaladığı Fərmanlara uyğun olaraq şəhərdə böyük yolötürücülərinin, körpülərin tikintisini icra etmişdir.

2007-ci ildə metronun "20 Yanvar" stansiayasında böyük yolötürücüsü istifadəyə verildi. Metronun "Koroğlu" stansiyası rayonunda, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişdiyi yerdə inşa olunan nəhəng yol qovşağının tikintisinin ikinci və üçüncü kompleksləri istifadəyə verildi. Bu işlərin hamısı insanlara xidmət edir və onların rahatlığını təmin edir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolötürücülərinin açılış mərasimlərində iştirak etmişdir.

Səhmdar Cəmiyyət son illərdə respublikamızın xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edən

onlarla nəhəng layihələri həyata keçirmiş və bu gün də həyata keçirir.

"Azərkörpü" Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadasının su təchizatı üçün strateji əhəmiyyət kəsb edən Samur-Abşeron kanalı suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində "Taxtakörpü" su anbarının, uzunluğu 30 km olan "Vəlvələçay-Taxtakörpü" kanalının və uzunluğu 110 km olan "Taxtakörpü-Ceyranbatan" kanalının tikintilərini həyata keçirir.

Qeyd etmək lazımdır ki, "Azərkörpü" ASC tərəfindən aparılan tikinti-quraşdırma işləri öz mürəkkəbliyi ilə yüksək mühəndisi hazırlıq və məsuliyyət tələb edir. Demək olar ki, tikilən obyektlərin böyük əksəriyyəti Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Bu çətin və məsuliyyətli işin öhdəsindən kollektiv məharətlə gəlir.

"Azərkörpü" ASC tikinti fəaliyyəti sahəsində qazandığı böyük uğurlara görə 2006, 2007, 2008, 2009-cu illərdə MDB dövlətləri üzrə keçirilən II, III və IV Beynəlxalq Dövlətlərarası Müsabiqələrin "Ən yaxşı tikinti təşkilatı" nominasiyası üzrə qalibi diplomlarını almış və "Azərkörpü"nün sədri Ə.İsmiyev tikinti kompleksinin ən yaxşı tikinti rəhbəri sertifikatını almışdır. Səhmdar Cəmiyyət həmçinin 2005-2006-2007- ci illər üzrə ölkə infrastrukturunun inkişafına görə "Uğur" mükafatının laureatı adını qazanıb.

Səhmdar Cəmiyyətin kollektivi Əfəndi İsmiyevin rəhbərliyi altında sabaha böyük ümidlərlə baxır. Kollektiv Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsi və müstəqil Azərbaycanın iqtisadi cəhətdən çiçəklənməsinə xidmət edən ən çətin və mürəkkəb tikinti layihələrini yerinə yetirməyə hər an hazırdır.

"Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti

SSRİ dövründə respublikanın daxili avtomobil yolları SSRİ avtomobil yolları şəbəkəsinin tərkibində idi. Yolların saxlanmasından tutmuş tikintisinə qədər bütün görüləcək işlər Sovet dövlətinin normativ sənədləri əsasında hazırlanan cari və perspektiv planlar çərçivəsində maliyyələşdirilirdi. Mərkəzin razılığı olmadan hər hansı böyük körpü keçidinin və ya yüksək kateqoriyalı avtomobil yolunun tikintisinə icazə verilmirdi. Avtomobil yollarının idarəetmə strukturu yalnız SSRİ Nazirlər Sovetinin razılığından sonra Respublika Nazirlər Sovetinin qərarı ilə mşəyyənləşdirilirdi. Planda olmayan, lakin tikintisi zəruri olan hər hansı bir obyektin tikintisini müstəqil aparmaq qeyri-mümkün idi. Ümumiyyətlə, yol təsərrüfatının maliyyələşdirilməsi SSRİ Plan Komitəsinin təsdiq etdiyi proqram əsasında aparılırdı.

Respublikamız müstəqillik əldə etdikdən sonra avtomobil yollarının tikintisi, təmiri və saxlanması işlərinin maliyyələşdirilməsi bütünlüklə respublika büdcəsinin üzərinə düşdü. Müstəqilliyimizin ilk illərində "Azəravtoyol" İstehsalat Birliyində avtomobil yollarının tikintisi, təmiri və saxlanmasını yaxşılaşdırmaq istiqamətində bir neçə quruluş dəyişikliyi aparılırdı. Məsələn, "Azəravtoyol" İB-nin daxili əmri ilə 1991-ci ildə Yol Təmir Tikinti Trestləri (YTTT) və İstismar Yol İdarələri (İYİ) ləğv olundu, onların bazasında Avtomobil Yolları İdarələri (AYİ) yaradıldı. Avtomobil Yolları İdarələri ölkənin ayrı-ayrı regionlarında yerləşdirilməklə həmin idarələrin hər birinin tabeçiliyində Yol Tikinti Sahələri, Yol İstismar Sahələri, Mexaniki Sahələr, Körpü

Tikinti Sahələri, Yaşıllaşdırma Sahələri, Təmir-Tikinti Sahələri fəaliyyət göstərirdi.

Şərqlə Qərb arasında körpü rolunu öz üzərinə götürmüş respublikamızın iqtisadi cəhətdən daha asılı olan dünya dövlətlərindən birinə çevrilməsi üçün vahid nəqliyyat sisteminin əsas qollarından biri kimi avtomobil yollarının dünya standartlarına uyğun yeniləşdirilməsi günün ən aktual vəzifələrindən idi. Qarşıda duran bu aktual vəzifəni yerinə yetirmək üçün ilk növbədə yol təsərrüfatında idarəetmə quruluşunu bazar iqtisadiyyatına uyğun yeniləşdirmək tələb olunurdu. Bu məqsədlə Azərbaycan Respublikası Ali Sovetinin 1993-cü il yanvar tarixli fərmanı ilə "Azəravtoyol" İB ləğv olundu və onun bazasında "Azəravtoyol" Dövlət şirkəti (Dş) yaradıldı. Cavid Qənbər oğlu Qurbanov "Azəravtoyol" Dövlət şirkətinin prezidenti təyin olundu.

"Azəravtoyol" DŞ respublika ərazisindəki ümumi uzunluğu 25013 km olan avtomobil yoluna xidmət edirdi. 1991-ci ildən başlayaraq avtomobil yollarının tikintisi. Təmiri, saxlanması istiqamətində aparılan işlər əsasən mövcud yolların orta və cari təmirindən ibarət idi. əksər magistral yollarda yol örtüyünün təmirarası müddəti keçdiyindən həmin yolların əsaslı təmirinə böyük ehtiyac duyulurdu. 1993-cü ildə tikinti-təmir işlərini yaxşılaşdırmaq məqsədilə Yol Təmir Tikinti trestləri, Mexaniki İdarələr. Körpü tikinti idarələri yaradıldı və tikinti, mexaniki, körpü tikinti sahələri AYI-lərin



"Azəryolservis" ASC kollektivinin əməyi ilə hasilə gələn körpü və yol ötürücülərindən görüntülər

tərkibindən çıxarılaraq, bu idarələrin sərəncamına verildi. Beləliklə, hər rayonun ərazisində Yol Istismar Sahələri ilə yanaşı, Yol Tikinti Sahəsi və ixtisaslaşdırılmış köməkçi sahələr də mövcud idi. Bu idarələrin üzərinə yolların saxlanması ilə yanaşı, eyni yolların salınmasından tutmuş, qurğuların təmiri və tikintisi, yolların yaşıllaşdırılması, yol servislərinin tikintisi kimi məsul vəzifələr də qoyulmuşdu.

Respublikada avtomobil yollarının tikintisi, təmiri, istismarı sahəsində idarəetməni təkmilləşdirmək və bunun əsasında görülən işlərə çəkilən maliyyə xərclərinin səmərəsini artırmaq məqsədi ilə, habelə avtomobil yolları sahəsində mövcud beynəlxalq təcrübəni nəzərə alaraq, Respublika Nazirlər Kabinetinin 24 yanvar 2000-ci il tarixli 8 saylı qərarına əsasən "Azəravtoyol" Dş-nin yeni quruluşu təsdiq olundu. Bununla da üçpilləli idarəetmə sistemi ləğv olundu. Yeni quruluşa görə "Azəravtoyol" Dş-nin tabeçiliyində olan baş idarələrin, həmçinin 218 ədəd idarə və müəssisələrin əvəzinə birbaşa şirkətin tabeçiliyində olan 73 struktur vahidi təsdiq olunmuşdur. 2000-ci il avqust ayının 10-da Respublika Prezidenti tərəfindən təsdiq edilmiş "Dövlət əmlakının özəlləşdirilməsinin İkinci dövlət proqramı"na uyğun olaraq sabiq Dövlət Əmlak Komitəsinin 3 noyabr 2000-ci il tarixli 197 nömrəli əmri ilə şirkətin 19 idarə və müəssisəsi özəlləşməyə açıq elan edildi.

"Azəravtoyol" DŞ-nin yeni quruluş layihəsi həyata keçirildikdən sonra yol təsərrüfatının idarəetmə sistemində çox sadə bir mexanizm yaranmışdı. Yeni təşkil olunmuş quruluşa görə yol və körpü tikinti idarələri, sənaye müəssisələri, yerli əhəmiyyətli yollara xidmət edən Istehsalat Sahələri açıq elan olunmuş, Yerli Avtomobil Yolları Istehsalat Sahələri özəlləşməyə açıq elan olunmuş, Yerli Avtomobil Yolları Idarəsinin öhdəliyində olan Yerli əhəmiyyətli avtomobil yolları isə Yol Istismar Idarələrinin balansına verilmişdi.

Quruluş islahatı ilə əlaqədar "Azəravtoyol" Dş-nin ləğv olunan idarələrinin, idarə və sahələrinin balansındakı yollar, körpülər, avadanlıq, maşın-mexanizmlər, bina, qurğular, qalıq vəsaitləri həmin ərazidə yeni yaradılmış Yol Istismar Idarələrinin balansına verildi.

Azərbaycan Respublikası Prezidentinin 10 mart 2000-ci il tarixli 299 saylı fərmanı ilə "Azərbaycan Respublikasının avtomobil yolları haqqında" qanun qüvvəyə mindi. Bu qanun avtomobil yol təsərrüfatı ilə bağlı ictimai münasibətləri nizamlayan əsas normativ hüquqi sənəd olmaqla yollarımızın yeniləşdirilməsi və müasir tələblər səviyyəsində qurulması sahəsində böyük əhəmiyyət kəsb edirdi.

Hələ 1995-ci ildən Traseka-Tasis proqramının yerinə yetirilməsi üçün Azərbaycana uzunmüddətli kreditlərin verilməsinə bir neçə Beynəlxalq maliyyə təşkilatları cəlb olunmuşdu. Islam Inkişaf Bankı və Küveyt Fondu tərəfindən ayrılan kredit hesabına uzunluğu 45.6 km olan Ələt-Qazıməmməd avtomobil yolunun və texniki dərəcəyə uyğun yenidən qurulması başa çatdırılmışdır.

"Böyük İpək Yolu"nun Bakı-Ələt hissəsi (22-69-cu km-lər) əsaslı təmir olundu.

Vahid nəqliyyat sisteminin ölkə iqtisadiyyatının inkişafındakı əvəzedilməz rolunu nəzərə alan dünya şöhrətli siyasətçi, mərhum

prezidentimiz Heydər Əliyevin 5 avqust 1998-ci il tarixli 743 nömrəli fərmanı ilə Azərbaycan Respublikasında Nəqliyyat Nazirliyi yaradıldı. Bu nazirliyin tərkibinə dəmir yolu, su, mülki hava və avtomobil nəqliyyatı ilə yanaşı, avtomobil yolları da daxil edildi.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin əsasnaməsi Respublika Prezidentinin 10 iyun 2003-cü il tarixli fərmanı ilə təsdiq edildi.

Respublika yol təsərrüfatının idarəetmə quruluşunda aparılan islahatlara əsasən yol təsərrüfatının beynəlxalq standartlara uyğun yenidən qurulmasına xidmət edirdi. Son illərdə yol təsərrüfatının qarşılaşdığı maliyyə çətinliyini aradan qaldırmaq, yolların vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə respublika Nəqliyyat Nazirliyi və "Yolnəqliyyatservis" Departamenti tərəfindən, əlverişli kredit şərtləri ilə xarici sərmayəçilərin yol tikintisinə cəlb olunması istiqamətində Maliyyə Institutları və Dünya Bankı ilə məqsədyönlü danışıqlar aparılırdı.

TransQafqaz avtomobil dəhlizinin bərpası ilə bağlı Avropa-Qafqaz-Asiya "Böyük Ipək Yolu"nun Respublika ərazisindən keçən hissəsinin Bakı-Ələt-Hacıqabul-Yevlax-Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun tikintisi üçün Azərbaycan hökumətinin köməkliyi ilə Nəqliyyat Nazirliyi "Yolnəqliyyatservis" Departamenti tərəfindən xarici sərmayəçilər, maliyyə institutları və dünya bankları ilə aparılan səmərəli danışıqlar tədricən öz nəticəsini göstərirdi.

Belə ki, 2004-cü ilin fevral ayında Respublika Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 45 km uzunluğunda Ələt-Hacıqabul avtomobil yolu və texniki dərəcə altında təntənəli surətdə istifadəyə verildi. Bu yolun tikintisi Küveyt Fondu və Islam Inkişaf Bankının krediti hesabına türk podratçıları tərəfindən aparılmışdır. Bu yolun tikintisində respublikamızın yol və körpü tikinti təşkilatları subpodratçı təşkilat kimi iştirak etmişdir.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2007-ci il 22 fevral tarixli əmri ilə "Yolnəqliyyatservis" Departamenti ləğv edildi və onun bazasında "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti yaradıldı. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin balansında ümumi istifadədə olan 18823 km uzunluqda avtomobil yolu var idi ki, onun da 4577 km-i Respublika əhəmiyyətli, 14246 km-i isə Yerli əhəmiyyətli avtomobil yollarından ibarət idi. "Azəryolservis" ASC ümumi istifadədə olan avtomobil yollarının saxlanması və istismarı işlərini icra etməklə sifarişçi funksiyasını yerinə yetirirdi. Avtomobil yollarının və yol qurğularının tikintisi işlərini müsabiqə yolu ilə beynəlxalq tenderlə qalib edilmiş ixtisaslaşdırılmış təşkilatlar, firma və səhmdar cəmiyyətləri tərəfindən icra olunurdu.

Avtomobil yollarının Avropa standartlarına uyğun yenidən qurulması və yeni yolların, yol keçidlərinin, körpülərin salınması, ilk illər əsasən xaricdən qoyulan investisiyalar hesabına aparılırdı. Sonralar respublikada əsas istiqamətlərdə salınan bəzi yolların maliyyələşdirilməsinin daxili investisiya hesabına aparılmasına başlanıldı.

Son dövrlərdə salınan yeni yolların, körpülərin, mövcud yollarda aparılan yenidənqurma işlərinin yüksək keyfiyyətli tikinti işlərinin müqavilə müddətində qüsursuz başa çatdırılması deməyə əsas verir ki, tender üsulu bütün sahələrdə olduğu kimi, yol təsərrüfatı sistemində də ən müasir və ən səmərəli üsullardan biridir. Bu üsul sifarişçi ilə baş podratçı arasında olan bütün münasibətləri əvvəlcədən müəyyən etməyə imkan yaradır, podratçının müqavilə şərtlərinə necə əməl etməsi və gördüyü işin keyfiyyəti onun gələcək fəaliyyətinin əsasını təşkil etdiyindən podratçının işə məsuliyyətini daha da artırırdı.

Son vaxtlar aparılan yol-tikinti, təmir və yenidənqurma işlərinin sürəti, yüksək keyfiyyət göstəricisi respublikada avtomobil yolları şəbəkəsinin Avropa standartları səviyyəsinə qalxmasına güclü təkan vermişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə Nəqliyyat Nazirliyinin həyata keçirdiyi tədbirlərin miqyası olduqca geniş, çoxşaxəli və səmərəlidir. Son 5 ildə yalnız Abşeron rayonu ərazisində 110,2 km artıq yol təmir olunmuşdur. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi, Bakı-Şamaxı-Yevlax, Xocasən-Lökbatan və respublikamızın digər avtomobil yollarında təmir bərpa işləri aparılmış və yeni yollar salınmışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində həyata keçirilmiş qlobal layihələrdən biri də Yevlax-Gəncə, Gəncə-Qazax-Gürcüstan sərhədinədək avtomobil yolunun yenidən qurulması olmuşdur.- Yevlax-Gəncə avtomobil yolunun maliyyələşdirilməsi ilə əlaqədar Səudiyyə Ərəbistanının Inkişaf Fondu, eləcə də Islam Inkişaf Bankı, Asiya Inkişaf Bankı ilə sazişlər imzalanmışdır.Hacıqabul (Qazıməmməd)-Kürdəmir yolunun 75 km hissəsi 24 dekabr 2007-ci ildə Azərbaycan Prezidenti Ilham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir.

Dövlət başçısı cənab Ilham Əliyevin bu baxımdan 2 fevral 2006-cı il tarixli "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında" sərəncamı xüsusi əhəmiyyət kəsb etmişdir. Həmin plana müvafiq olaraq 2006-2007-ci illər ərzində paytaxtda 9 yol qovşağı - körpü və 13 piyada keçidi tikilmişdir.

Hazırda Bakının mərkəzindən – Heydər Əliyev prospektindən keçməklə hava limanına qədər yolun yenidən qurulması istiqamətində son tamamlanma işləri başa çatdırılmış və yol yüksək keyfiyyətlə istifadəyə verilmişdir. Körpülərin tikintisinə də xüsusi diqqət yetirilmişdir. Son beş ildə Azərbaycan Respublikasının müxtəlif avtomobil yollarında, rayon və kənd yaşayış məntəqələrində 45-ə qədər yeni körpü inşa olunmuşdur. Azərbaycanın yol tarixində birinci dəfə Zaqatala şəhərində Talaçay üzərindəki asma körpünün tikintisi 2003-2008-ci illərdə reallaşdırılıb. Son beş il ərzində 2000-dən yuxarı müxtəlif təyinatlı yol texnikası, maşın və mexanizmlər alınmış və yeni asfalt-beton zavodları quraşdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı"na əsasən Bakı şəhərində əlavə olaraq 17 ədəd yol qovşağının, 75 ədəd piyada keçidinin, yeni çoxcərgəli avtomobil yollarının tikintisi və digər irihəcmli layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

"Azərsutəchizattikinti" Açıq Səhmdar Cəmiyyəti 1997-ci ildə ləğv edilmiş "Azərkəndsutəchizattikinti" Konserinin hüquqi varisidir. Təşkilat 1976-cı ildə Sabirabad-Saatlı Qrup su kəmərinin tikintisini həyata keçirmək məqsədi ilə yaranmışdır. 1980-ci ildə tikintisi başa çatmış obyektin açılışını şəxsən Ulu Öndər Heydər Əliyev etmişdir. O, vaxt həmin qurğu SSRİ Nazirlər Sovetinin mükafatına layiq görülmüşdür.

18 noyabr 1991-ci ildə "Azərkəndsutəchizattikinti" İB ləğv olunaraq "Azərkəndsutəchizattikinti" Konserni yaradılmışdır. 1997-ci il 2 dekabr tarixində Konsern ləğv edilmiş və tabeliyində olan təşkilatlar səhmdar cəmiyyətlərə çevrilmişdir.

M.M. Xəlilov 1998-ci il 8 sentyabr tarixindən yeni yaranan "Sabirabad-Su-Təchizat-Tikinti" ATSC-nin sədri vəzifəsini icra etmişdir. Mülkiyyət formasının dəyişməsi ilə əlaqədar 15 avqust 2003-cü ildə "Azərsutəchizattikinti" ASC yaradılmış və Mirzəcan Xəlilov Cəmiyyətin İdarə Heyətinin sədri seçilmişdir.

Sonralar "Azərsutəchizattikinti" ASC –nin kollektivi M. Xəlilovun rəhbərliyi ilə respublikanın bütün bölgələrində su təchizatı obyektlərinin tikintisini həyata keçirmişdir.

Həmçinin "Azərsutəchizattikinti" ASC kollektivinin gücü ilə 1988-90-cı illərdə Ermənistandan gələn qaçqınların Abşeron rayonu ərazisində və eyni zamanda indiki Xızı rayonunda məskunlaşması üçün infrastruktur layihələri, 1991-92-ci illərdə xüsusi Dövlət Proqramı olan Dağlıq Qarabağ ərazisində yaşayan Azərbaycanlı kəndlərində və Ermənistanla sərhəd rayonların kəndlərində tikinti-quraşdırma işləri, 1993-94-cü illərdə məcburi köçkunlərin qarşılanması, çadır düşərgələrinin və Fin qəsəbələrinin salınması infrastruktur layihələri, 1997-ci ildən Ərazilərin Bərpası Agentliyinin sifarişi ilə Füzuli rayonunun işğaldan azad olunmuş 22 kəndinin su təchizatının tikintisi başa çatdırılıb. Sonra bu proses bütün sərhəd rayonlarında həyata keçirilib.

2002-ci ildən hal-hazıra kimi isə təşkilat məcburi köçkünlər üçün yeni qəsəbələrin tikintisini həyata keçirir.

"Azərsutəchizattikinti" ASC-nin baş podratçı kimi 2003-2011-ci illərdə həyata keçirdyi tikinti layihələri yüzlərlədir. Bunlardan Goranboy rayonu Yuxarı Ağcakənd məntəqəsinin su təchizatı sisteminin bərpası, Füzuli rayonunun 5 kəndinin su təchizatının yenidən qurulması, Füzuli rayonu 1,3,5 saylı yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi, Füzuli rayonunun Haramı ərazisində məcburi köçkünlər üçün salınacaq 10 yeni yaşayış qəsbəsinin və Qayıdış qəsəbələrinin xarici icməli su təchizatı sisteminin (baş suqəbuledici qurğuların) tikintisi, Biləsuvar rayonu ərazisində 13 yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi, Füzuli rayonunun Haramı düzündə 6 ədəd qəsəbələr ücün irriqasiya sistemi obyektlərinin tikintisi, Goranboy rayonunun şərq hissəsində 42 ədəd subartezian quyusunun bərpası, Xanlar şəhərinə Zurnabad kəndi ərazisindən su kəmərinin çəkilişi, Xanlar rayonunda 70 ədəd subartezian quyusunun bərpası, Ağdaş, Göycay və İsmayıllı rayonlarında sahil bərkitmə işləri, Zaqatala, Balakən və Qax rayonlarında içməli su sistemlərinin tikintisi, Qusar rayonunda və Qobustan rayonunun Mərəzə qəsəbəsində su sistemlərinitn tikintisi, Ağdam rayonu ərazisində 836 evdən ibarət "Baharlı" yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi,

Ağdam rayonu ərazisində "Təzəkənd" yeni yaşayış qəsəbəsinin su təchizatı, Əli Bayramlı şəhərində yanğına qarşı su hovuzlarının təmiri və tikintisi, Ağsu şəhərinin su təchizatının yenidən qurulması, Qobustan rayonunun Mərəzə qəsəbəsinin və digər yaşayış məntəqələrinin su təchizatı, Sabirabad şəhərinin kanalizasiya sisteminin yaxşılaşdırılması, Astara rayonunun su təchizatının yaxşılaşdırılması, Qusar rayonu Ləzə su qəbul edicisindən yeni su kəmərinin tikintisi, Qax şəhərinin Qumçay su qəbul edicisindən yeni su kəmərinin tikintisi, Füzuli rayonu ərazisində 2104 ailəlik yeni yaşayış qəsəbələrinin xarici və daxili içməli su təchizatı sisteminin tikintisi, Füzuli rayonu ərazisində yeni qəsəbələrə köçürüləcək əhalinin həyətyanı sahələrinin suvarma şəbəkəsinin tikintisi, Goranboy rayonu ərazisində 500 ailəlik yeni yaşayış qəsəbələrinin xarici içməli su təchizatı sisteminin tikintisi, Beyləqan rayonu ərazisində 500 məcburi köçkün ailəsi üçün ayrılmış əkin sahələrinin irriqasiya şəbəkəsinin tikintisi, Goranboy rayonu ərazisində məcburi köçkünlər üçün salınan 596 ailəlik yeni qəsəbənin içməli su təchizatı sisteminin tikintisi, Yevlax şəhəri ərazisində 612 məcburi köçkün ailəsi üçün salınan məhəllənin içməli su təchizatı və kanalizasiya sisteminin tikintisi, II Acıq Kommunal İnfrastruktur Proqramı-Mərhələ1, Şəki, Müqavilə 1, Kiş sugötürücü qurgusu, Magistral boru xətti və su anbarının bərpası, Ağcəbədi rayonu ərazisində 552 məcburi köçkün ailəsi üçün tikilən qəsəbənin su təchizatı sisteminin tikintisi, Oğuz-Qəbələ-Bakı su kəmərinin təkmilləşdirilməsi ilə əlaqədar Bakı şəhərində və qəsəbələrində su-kanalizasiya şəbəkəsinin təkmilləşdirilməsi. Xətai rayonu Babək pr-dən Cavanşir küçəsinə qədər su xəttinin çəkilişi, Nizami rayonu E. Süleymanov küçəsi boyu su xəttinin çəkilişi (Kür xətti), Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin 2 nömrəli pansionatında mövcud kanalizasiya xətlərinin layihələndirilməsi və yenidən qurulması, M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialının tikilən tədris kompleksinin xarici təsərrüfat-məişət və yağış kanalizasiya kollektorlarının tikintisi, Ağcəbədi rayonu ərazisində 556 məcburi köçkün ailəsi üçün salınan məhəllənin içməli su təchizatı və kanalizasiya sisteminin tikintisi, Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə su təchizatı və kanalizasiya sistemlərinin tikintisi, II Acıq Kommunal İnfrastruktur Proqramı-Mərhələ 2, Gəncə şəhəri ərazisində Qızılqaya sugötürücü qurğusu, iki mövcud su anbarının bərpası, xlorlama sisteminin, bir yeni su anbarının və qidalandırıcı boru xətlərinin tikintisi, Şəki rayonu ərazisidə 423 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində su təchizatı sisteminin tikintisi, kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi çərçivəsəndə - Xaçmaz, Qusar və Xızı şəhərlərinin su təchizatı sistemlərinin bir hissəsinin yenidən qurulması layihələrini və digər infrastruktur obyektlərini göstərmək olar.

"Azərsutəchizattikinti" ASC həmçinin 2005-ci ildə Heydər Əliyev Fondunun vəsaiti hesabına 6 məktəbin tikintisini başa çatdırıb, 2010-cu ildə isə Kür çayının daşması zamanı yaranan təbii fəlakətin aradan qaldırılmasında kollektiv yaxından iştirak etmişdir.

"Azərsutəchizattikinti" ASC ölkənin tikinti sektorunda hər zaman keyfiyyətli işi ilə seçilmiş, yerinə yetirdiyi layihələrlə özünü təsdiq edə bilmişdir.

"Azkommunlayihə" Kommunal Layihə İnstitutu

1961-ci ildə Mənzil Kommunal Təsərrüfatı Nazirliyinin nəzdində yaradılmışdır. 1996-cı ildə Nazirlik Komitə ilə əvəz olunmuş və 2001-ci ilin mart ayında Mənzil Kommunal Təsərrüfatı Komitəsi Respublika Prezidentinin sərəncamı ilə ləğv olunmuşdur. İnstitut həmin dövrdən 2006-cı ilə kimi Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin nəzdində fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azkommunlayihə" Kommunal Layihə İnstitutu Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin tərkibinə verilmiş və o vaxtdan bu günə kimi bu Agentliyin nəzdində fəaliyyət göstərir.

"Azkommunlayihə" Layihə İnstitutu fəaliyyət göstərdiyi 51 il ərzində yüksək maddi təchizatı və yuksək ixtisaslı mütəxəssislərlə formalaşmış güclü bir müəssisəyə çevrilmişdir.

İnstitut bu müddət ərzində irili-xırdalı 15000-dən artıq obyekt üzrə layihə-smeta sənədləri işləyib hazırlamış və yerlərdə tikinti obyektlərinə nəzarət aparmışdır.

Bu obyektlərdən aşağıdakıları qısa şəkildə misal gətirə bilərik.

2 mərtəbəli 16 mənzilli, 4 mərtəbəli 32 mənzilli, 4 mərtəbəli 48 mənzilli, 5 mərtəbəli və 60 mənzilli yaşayış evlərini, 12-dən artıq rayon mərkəzlərində hal-hazırda fəaliyyət göstərən mehmanxanaları, məktəb binalarını, klubları, uşaq bağçalarını, əksər rayonların su və kanalizasiya sistemlərini, əmanət banklarını, hamam və camaşırxanaları, zibil yandırma stansiyalarını, bir neçə rayonda istilik təchizatı sistemlərini, Naxçıvan və Mingəçevirdə trolleybus parkları və xətlərini, Ağdaş və İsmayıllı rayonlarında İdman Komplekslərini, əlil və şəhid ailələri üçün respublikanın 14 raonunda 2 və 4 mərtəbəli yaşayış evlərini, 38-dən artıq rayonda DSMF-nin inzibati binalarını, Səhiyyə Nazirliyinin xətti ilə 14 rayonda xəstəxana və ambulator binalarını, 11 rayonda telemetrik seysmoloji stansiyaları və s. layihələndirilmişdir.

İnstitut həmçinin Bakı şəhərində və respublikanın rayonlarında müxtəlif layihə işlərini yerinə yetirmişdir. Bunlara misal olaraq Füzuli rayinunun Horadiz qəsəbəsində 650-dən artıq fərdi yaşayış evi, 2 məktəb binası və 2 mərtəbəli 8 mənzilli yaşayış evləri, Füzuli rayonunun 6 kəndinin su təchizatı sistemləri, 20 kəndində məktəb binası və feldşer-mama məntəqəsi, ambulatoriya, Şəmkir rayonunda 126 ailəlik yaşayış qəsəbəsi, Bakının Mehdiabad kəndində 108 ailəlik yaşayış qəsəbəsi, İsmayıllı rayonunda 70 fərdi yaşayış evi, Yevlax şəhərində 65 ailəlik yaşayış qəsəbəsi, Bakı şəhərində və respublikanın rayonlarında 30-dan artıq yeni məktəb binası və əlavə tikililər, Qazax və Tovuz rayonlarında məktəblər, Gədəbəy rayonunda fərdi yaşayış evləri, Göyçay, Zaqatala, Qobustan, Xanlar, Tərtər, Naftalan və s. rayonların su təchizatı sistemləri, Bakı şəhərində Zağulba-Bilgəh zonalarının kanalizasiya sistemləri və s. obyektlərin layihə-smeta sənədlərinin hazırlanmasını qeyd edə bilərik.

Həmçinin 2001-2002-ci illərdə qaçqınlar və məcburi köçkünlər üçün Yevlax və Biləsuvar rayonlarında bütün infrastruktur obyektləri ilə birlikdə yaşayış qəsəbələrinin layihə-smeta sənədləri tərtib edilmişdir.

"Azkommunlayihə" İnstitutu Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin tərkibinə verildikdən sonra isə institutun həyata keçirdiyi işlər həm kəmiyyətcə, həm də keyfiyyətcə yüksəlmişdir.

Son illərdə görülən işlər barədə bir neçə kəlmə.

Qobustan rayonu Ximilli kəndində içməli su təchizatı şəbəkəsinin tikintisi, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospektində Biznes mərkəzi, Nizami rayonunun Məşhəti küçəsində məişət xidməti obyektinin işçi layihəsi, Lənkəran şəhərində Avtovağzal ərazisində mehmanxa-





Azərbaycan memarlığının milli koloritini özündə əks etdirən bu layihələr
"Azkommunlayihə" İnstitutunda çalışan mütəxəssislərin yaradıcı əməyinin bəhrəsidir.









"Azkommunlayihə" İnstitutunda hazırlanan bütün layihələr
sifarişçiləri hər zaman razı salır.

na binası üçün cizgilər, Sumqayıt şəhər İcra Hakimiyyəti binasının qarşısındakı ərazidə təmir-abadlıq işləri və "Dədə-Qorqud meydanında su hovuzunun və nasosxananın təmiri layihələri, İsmayıllı rayonunda Olimpiya İdman Kompleksinin texniki müayinəsi, Gəncə şəhərində 100 min ton istehsal gücü olan aliminum zavodunun layihə tapşırığının, izahat toplu vərəqinin, tikintinin təşkili layihəsinin hazırlanması, Saatli, Göyçay və Hacıqabul rayonlarında tikiləcək 2000 (iki min) tonluq soyuducu anbarların layihələri, Xaçmaz rayonu Yergüc kəndində tikiləcək 2000 (iki min) tonluq soyuducu anbarın layihə smeta sənədləri, Dövlət Sosial Müdafiə Fondunun Qax rayon söbəsinin inzibati binası üçün layihə smeta sənədləri, Zığ dairəsi Heydər Əliyev Beynəlxalq Hava Limanı avtomobil yolunun Suraxanı rayonunun ərazisindən keçən hissəsinin 3,0 km-də layihələndirilən "saat qulləsi"nin təqdim olunan eskiz memarlıq layihəsinə uyğun qurğunun yerləşdiyi sahədə topoqrafiya, geologiya aparılmaqla konstruksiya hesabatı əsasında cizgiləri, Bakı-Salyan şossesinin 51-ci km-də inşafısı nəzərdə tutulan Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin elevatoru üçün su təchizatı sisteminin layihə-smeta sənədləri, İmişli şəhərində inşa ediləcək inzibati binanın eskiz layihəsi, Dövlət Sosial Müdafiə Fondunun mərkəzi aparatının inzibati binasının dam örtüyünün təmiri smeta sənədlərinin hazırlanması, Dövlət Sosial Müdafiə Fondunun mərkəzi aparatının Arxiv binasının girişinin layihə smeta sənədləri, Xətai rayonu Neapol küçəsində inşa edilən çoxmərtəbəli yaşayış binalarına texniki rəy, Bakı-Sumqayıt şossesinin sağ tərəfində 19 ədəd yüksək mərtəbəli (cəmi 48 giriş) yaşayış binalarının müayinəsi və texniki rəy, Hacıqabul rayonunun Qarasu kəndində 640 ş/y məktəb binası, Akademik M. Ə. Mirqasımov adına Respublika Klinik Xəstəxanasının təmiri, avadanlıqları və inventarlarla təchiz olunması layihə smeta sənədləri, 1 saylı Respublika Psixiatriya Xəstəxasının təmiri, avadanlıqlarla və inventarlarla təchiz olunması layihə smeta sənədləri, Dövlət Sosial Müdafiə Fondunun Səbail rayon söbəsinin inzibati binası üçün layihə smeta sənədləri, Zərdab rayonunda H. Əliyev mərkəzinin tikintisi üçün layihə sənədləri, Bakı şəhəri, Yeni Yasamal-2 yaşayış massivinin 7-ci Alatava küçəsində inşa olunan 6 girişli 12 mərtəbəli yaşayış binasının 2 (iki) girişinin (C-bloku)-nun müayinəsi və texniki rəy, Haçıqabul rayonunun Talış kəndi ərazisində yerləşən I-ci Kür su kəməri obyektinin Kür çayı üzərində olan I pillə üzən nasos stansiyalarının mühafizəsi üçün sahil bərkitmə işlərinin layihə-smeta sənədlərinin hazırlanması, Respublika Narkaloji Dispanserinin yeni binasının tikintisi üçün layihə smeta sənədləri, Mərdəkən qəsəbəsində 2 nömrəli Vərəm sanatoriyasının tikintisi üçün layihə smeta sənədləri, Salyan şəhərində küçə və məhəllələrdə səth və yeraltı suların kənarlaşdırılması üçün tikiləcək drenaj şəbəkələrinin qurğularının layihə smeta sənədləri, Mingəçevir şəhər və Sumqayıt şəhər statistika idarələrinin inzibati binasının tikintisi üçün layihə smeta sənədləri, Ağstafa, Tovuz, Qazax, Tərtər, Ağdam və Gədəbəy rayonlarının münaqişədən zərər çəkmiş və təmas xəttindən 3 km məsafədə yerləşən yaşayış məntəqələrində aparılacaq işlərin qüsur aktları və layihə smeta sənədləri, Salyan raonlararası Ağ Ciyər Xəstəxanasının tikintisi üçün layihə smeta sənədləri və digər işlər son bir neçə il ərzində "Azkommunlayihə" Layihə İnstitutunun kollektivi tərəfindən həyata keçirimiş işlərin müəyyən bir qismidir.

İnstitututda bu gün yüksək yaradıcı atmosfer var. Kollektiv ən mürəkkəb layihələri yüksək professionallıqla reallaşdırmaq gücündədir.

İnstitutda memarlıq, inşaat-konstruktor, texnoloji, texniki, mühəndis təchizatı və smeta şöbələri fəaliyyət göstərir. Bu şöbələrdə texnoloji proseslərin avtomatlaşdırılması, su və kanalizasiya, yanğından mühafizə, siqnalizasiya və s. üzrə 22-yə qədər mütəxəssis cəmləşdirilmişdir.

Bu mütəxəssislərin qüvvəsi ilə layihənin bütün bölmələrinin tərtib edilməsi üçün institutun bütün imkanları vardır.

Mühəndis-geodeziya və mühəndis-geoloji işlərin lazımi səviyyədə aparılması üçün institut geodeziya alətləri və qazma aqreqatları ilə, eləcə də lazımi cihazlarla təmin edilmiş laboratoriyaya malikdir. Bu işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsini təmin edə biləcək mütəxəssislər institutda çalışırlar.

"Azərsu"
Açıq Səhmdar Cəmiyyəti
"Sukanal"
Elmi-Tədqiqat və
Layihə İnstitutu

Keçmiş SSRİ Nazirlər Sovetinin 22.04.1961-ci il 425 nömrəli qərarı SSRİ-də "Suyun istifadəsinin nizama salınması və su sərvətlərinin qorunması tədbirləri haqqında" və Azərbaycan Respublikası Nazirlər Sovetinin 20.07.1961-ci il tarixli 636 nömrəli qərarına əsasən "VODQEO" Ümumittifaq Elmi-Tədqiqat İnstitutunun Bakı filialı yaradılmışdır. Sonralar SSRİ Dövlət Tikinti Komitəsinin 12.05.1990-cı il tarixli qərarına və Azərbaycan Respublikası Nazirlər Sovetinin 06.08.1990-cı il tarixli 340 nömrəli qərarına əsasən bu filialın bazasında "AzərbSuGeo" ETİ yaradılmışdır. 16.11.1990-cı il tarixli 270 nömrəli Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarına əsasən və Azərbaycan Respublikası Mənzil Kommunnal Təsərrüfatı Nazirliyinin 30.11.1990-cı il tarixli 303 nömrəli qərarına əsasən 1991-ci ildə "AzərbSETLİ" yaradılmışdır. Abşeron Regional Səhmdar Su Cəmiyyətinin 06.07.1997-ci il tarixli 130 nömrəli əmri və Azərbaycan Respublikası Milli Məclisin 12.05.1995-ci il tarixli 1038 nömrəli qərarı ilə təşkil olunmuş Abşeron Regional Səhmdar Su Cəmiyyətinin tərkibində "AzərbSuGeo" ETİ-nin və "AzərbSETLİ"-nin bazası əsasında "Sukanal" Elmi-Tədqiqat və Layihə Törəmə Müəssisəsi yaradılmışdır.

2005-ci ildə "Sukanal" Elmi-Tədqiqat və Layihə Törəmə Müəssisəsinin adının dəyişdirilməsi nəticəsində "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu yaradılmışdır.

Keçən illər ərzində yuxarıda qeyd olunan elmi təşkilatlara ayrı-ayrı vaxtlarda Ağalarov Murad Salman oğlu, İbadzadə Yusif Əliqulu oğlu, Cəlilov Rasim Qulu oğlu, Məlikməmmədov Azər Eldar oğlu, Məmmədov Nəsrəddin Nəsrəddin oğlu, Rzayev Nizaməddin İsmayıl oğlu, Əbilov Fazil Adil oğlu, Heybətov Oqtay Məmməd oğlu rəhbərlik etmişlər.

2012-ci ilin iyulundan isə "Azərsu" ASC-nin "Sukanal" Elmi-Təqdiqat və Layihə İnstitutunun direktoru vəzifəsinə böyük idarəetmə və rəhbərlik təcrübəsinə malik istedadlı mühəndis Əliyev Məhəmməd Mirağa oğlu təyin olunmuş və hazırda instituta uğurla rəhbərlik edir.

"Azərtunelmetrotikinti" Açıq Səhmdar Cəmiyyəti "Bakımetrolayihə" İnstitutu

SSRİ Nazirlər Sovetinin 10 aprel 1949-cu il tarixli qərarı ilə yaradılmışdır. Layihə İnstitutu 60 ildən çoxdur ki, Bakı şəhərində metropolitenin tikintisi üçün layihə işləri ilə məşğuldur. "Bakımetrolayihə" İnstitutu yaradıldığı dövrdə metropolitenin tikintisi üçün bazanın qurulması ilə bərabər həm də metro xətlərinin növbələri üzrə texniki layihələri hazırlamışdır.

1970-1980-cı illərdə bu layihə institutu əsasən Bakı şəhərində metropolitenin ikinci və üçüncü növbəsi üzrə layihə işlərini hazırlayıb başa çatdırmışdır. 1991-ci ildən Sovetlər İttifaqı dağıldıqdan sonra "Bakımetrolayihə" İnstitutu "Azərtunelmetrotikinti" Açıq Səhmdar Cəmiyyətinin tərkibinə daxil edilmişdir.

1993-cü ildən bu institutа Abdullayev Davud Məmmədxan oğlu rəhbərlik edir. Bakı Metropolitenin tikilib başa çatdırılmasında bu kollektivin böyük zəhməti vardır.

Qeyd etmək lazımdır ki, institutun kollektivi metro ilə əlaqədar layihə işlərindən əlavə, zərurət yarandığı hallarda respublika daxilində başqa sosial obyektlərin də layihələndirilməsi ilə məşğul olur. Belə ki, 2003-cü ildən başlayaraq respublikada vüsət almış yeni məktəb binalarının tikintisi ilə əlaqədar olaraq, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Biləsuvar, Göyçay, Ağsu və Ucar rayonlarında əsas məktəb binalarının və əlavə sinif otaqlarının layihə işlərini göstərmək olar.

Bakı şəhərinə xüsusi gözəllik verən və onun sakinlərinə rahatlıq gətirən, Bülbül prospekti ilə Füzuli küçəsinin, R.Behbudov prospekti ilə Füzuli küçəsinin, S.Vurğun küçəsi ilə Nizami küçəsinin, Bülbül prospekti ilə Nizami küçəsinin kəsişmələrində, eyni zamanda "Təzə Bazar"ın qarşısında yeraltı piyada keçidlərinin layihə işləri bu kollektivin gərgin əməyinin nəticəsidir.

50 ildən artıq bir dövrdə fəaliyyət göstərmiş "Bakımetrolayihə" İnstitutu bir çox iri mühəndis qurğularının- metropoliten və metropoliten obyektlərinin, yeraltı keçidlərin, körpülərin, avtomobil, dəmir yolu, hidrotexniki, kommunikasiya və. s. məqsədli tunellərin, sənaye, mülki, inzibati, sosial – məişət binalarının və digər obyektlərin layihə - smeta sənədləri ilə məşğul olmuşdur.

"Bakımetrolayihə" İnstitutu hələ SSRİ dövründə Azərbaycanın hüdudlarından kənarda bir çox mühüm obyektlərin layihəsinin baş layihə təşkilatı funksiyalarını yerinə yetirib. Bundan əlavə institutun kadrları Moskva, Sankt-Peterburq, Minsk, Xarkov, Kiyev və Daşkənd metro layihəçiləri ilə birgə buraxılış kompleksləri ərəfəsində bu institutların plan yerinə yetirmələrində yaxından iştirak etmişlər.

"Bakımetrolayihə"nin fəaliyyəti dövründə öz yüksək iş keyfiyyətlərinə və təşkilatı işlərinə görə institutun 14 nəfər yüksək ixtisaslı mühəndisləri keçmiş SSRİ-nin müxtəlif yüksək dövlət orden və medalları, Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları ilə mükafatlandırılmış və 5 nəfər "Azərbaycan Respublikasının əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür.

Layihə işlərini həyata keçirmək üçün "Bakımetrolayihə" İnstitutunda halhazırda kifayət qədər yüksək ixtisaslı, bacarıqlı mühəndislər çalışır.

"Azərkörpü" ASC "Texnomost" Layihə-İstehsalat Müəssisəsi

Müəssisənin əsası 1989-cu ildə körpü mühəndisi İsmiyev Əfəndi Hacımurad oğlu tərəfindən qoyulmuşdur. İlk fəaliyyətindən başlayaraq müəssisə hər bir körpü layihəsi üzrə fərdi qərarın qəbul olunması prinsipini rəhbər tuturdu. Müasir konstruksiya və materialların, müasir texnologiyaların təhlili və layihələrdə tətbiqi, fərqli şəkildə layihələndirmə və sifarişçi ilə birlikdə son qərarın qəbulu, konstruksiyaların texnolojiliyi və istismar möhkəmliyi müəssisənin mühəndisləri üçün əsas prinsip olub və olaraq qalır. "Texnomost" şirkəti qısa zaman ərzində böyük miqyaslı layihələri ilə özünü ciddi layihə qurumu kimi təsdiqləyə bildi. Və artıq 21 ildir ki, fəaliyyət fəlsəfəsi keyfiyyət, təhlükəsizlik, iqtisadi səmərə və operativlik olan "Texnomost" öz maraqlı layihələri ilə respublikamızın tikinti-layihə sektoruna öz töhfələrini verməkdədir. Bakı şəhərinin nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün "Tədbirlər planına" uyğun olaraq "Texnomost" tərəfindən 10 nəqliyyat yol qovşağının, həmçinin bir sıra yeraltı keçidlərin layihələndirilməsi üzrə işlər yerinə yetirilib. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-nin sifarişi ilə son illərdə tikilən və Böyük İpək Yolunun tərkib hissəsi olan Ələt-Qazıməmməd avtomobil yolunda körpü və yolötürücülərin layihələrini, Şəmkir-Qazax avtomobil yolunun bir hissəsinin yenidən qurulması layihəsini, Göyçay və Yevlax şəhərlərində körpülərin layihələrini, həmçinin Qax rayonunda Kürmük çayı üzərində və Samux rayonunda Kür çayı üzərində böyük körpülərin layihələrini "Texnomost" un kollektivi hazırlamışdır.

"Texnomost" şirkəti dəniz layihələrindən Səngəçal neft terminalı üçün bərə keçidinin layihəsini, Bakı limanının bərə terminalının bərpası layihəsini, Astarada və Türkan qəsəbəsində sərhəd xidməti üçün limanların və digər iri obyektlərin layihələrini yerinə yetirmişdir.

"Texnomost" şirkəti bir sıra yeni yerli və beynəlxalq layihələrin yaxından iştirakçısıdır. Qax rayonunda Kürmük çayı üzərində və Samux rayonunda Kür çayı üzərində böyük körpülərin, Poyluda Kür çayı üzərində II yeni dəmir yolu körpüsünün, Bəhrəmtəpə Baş Hidroqovşağının bərpasının, Samur-Abşeron kanalı suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində "Taxtakörpü" su anbarının tikintisində köməkçi qurğuların, uzunluğu 30 km olan "Vəlvələçay-Taxtakörpü" kanalının və uzunluğu 110 km olan "Taxtakörpü-Ceyranbatan" kanalının, Aktau şəhərində dəniz yanalmasının bərpası və gəmiqayırma zavodunda dəniz hidrotexniki qurğularının, Aktau Beynəlxalq Dəniz Ticarət Limanının şimal istiqamətində genişləndirilməsinin və Ukraynada Kiyev-Çop avtomobil yolunun 321-348 km hissəsinin yenidən qurulmasını qeyd etmək olar. Hal-hazırda "Texnomost" şirkəti Puta qəsəbəsində böyük limanın, Tatarıstan MR-nın paytaxtı Kazan şəhərində 6 ədəd yol qovşağının, Türkiyənin "Mimko" A.Ş. şirkəti ilə birgə Gəncə şəhərinin su təchizatı və kanalizasiyası sistemlərinin yenidənqurulması layihəsinin və Araz çayının yeni məcrasının açılması ilə əlaqədar 2 ədəd körpünün layihələri üzərində çalışır. "Texnomost" un həyata keçirdiyi layihələr qabaqcıl mühəndis fikri, qurğuların yüksək

dayanıqlılığı, etibarlılığı, keyfiyyət göstəriciləri və estetik gözəlliyi ilə seçilir. Heç də təsadüfi deyildir ki, əldə edilmiş müvəfəqiyyətlərə görə "Texnomost" şirkəti: -2006-cı ildə ölkənin nəqliyyat infrastrukturunun inkişafına görə "Uğur" Milli Mükafatına; -MDB dövlətləri arasında tikinti fəaliyyəti sahəsində 2006-2007-2008-ci illərdə qazandığı böyük uğurlara görə "Ən yaxşı tikinti və layihə təşkilatı" adına layiq görülmüşdür. Şirkət həmçinin II, III və IV Beynəlxalq müsabiqələrin qalibi diplomlarını almış və müəssisənin direktoru Natiq Əliyev tikinti kompleksinin ən yaxşı rəhbəri sertifikatını almışdır. 2009-cu ildə "Texnomost" "İlin layihə şirkəti" nominasiyası üzrə "Business Consulting" jurnalının təsis etdiyi "İlin şirkəti" Milli Mukafatına layiq görülmüşdür. Bu uğurların əldə olunmasında müxtəlif illərdə bu müəssisəyə rəhbərlik etmiş şəxslərin və eləcə də böyük potensiala malik olan mühəndis layihəçilərin düşünülmüş, səriştəli insanların əvəzedilməz xidmətləri olmuşdur.

B



Babayev
Bahadur
Camal oğlu

1937-ci ildə Bakı şəhərində anadan olmuşdur. Bakı Politexnik Texnikumunu bitirdikdən sonra 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikintisi fakültəsini bitirmiş, ali təhsilli inşaatçı-mühəndisdir.

B.C. Babayev 1956-cı ildən həyatını ölkə tikinti kompleksinə bağlamış və yarım əsrə bərabər bir müddətdə bu kompleksin ən iri qollarında bir sıra məsul və rəhbər vəzifələrdə çalışmışdır.

Bakı Baş Tikinti İdarəsinin 7 nömrəli tikinti idarəsində iş icraçısı vəzifəsindən BBTİ-nin Hündür Binalar Tikintisi trestinin müdiri vəzifəsinədək çox mənalı və ibrətamiz bir əmək yolu keçmişdir.

B.C. Babayev Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyində işlədiyi illərdə – 1966-1971-ci illər ərzində 8 nömrəli Dəmir Beton Zavodunun direktoru vəzifəsində böyük təcrübə toplamış və mühüm buraxılış obyektlərinin vaxtında və keyfiyyətli dəmir beton məmulatları ilə təmin olunmasında gərgin əmək sərf etmişdir.

1971-1980-cı illərin axırı "Bakıbaştikinti" İdarəsinin yüksəliş illəri idi. Respublikanın rəhbərliyi "Bakıbaştikinti" İdarəsinin kollektivi qarşısında 1980-cı ilin axırına Bakı şəhərində ümumi sahəsi ildə bir milyon kv. metr olan yaşayış evlərinin tikilib istifadəyə verilməsi tələbini qoymuşdu. Bununla əlaqədar mənzil tikintisini aparmaq üçün xüsusiləşdirilmiş idarələr yaradılırdı. Tikinti-quraşdırma işləri iki və bəzən üç növbədə aparılırdı. Kollektivlər arasında böyük ruh yüksəkliyi var idi, peşəkar mühəndislər, yüksək idarəetmə qabiliyyətinə malik kadrlar yetişdirilirdi.

Belə bir yüksək işgüzar, tələbkarlıq, işin məsuliyyətini dərk etmək şəraitində Bahadur Camal oğlu Babayev 1971-1977-ci illərdə "Bakıbaştikinti" İdarəsinin "Hündür binalar tikintisi" ("Vısotjilstroy") trestinin kollektivinə yeddi ildən artıq rəhbərlik etmiş və çox böyük uğurlara imza atmışdır.

Bu illər ərzində paytaxtımızda çoxlu sayda yaraşıqlı 9 və yuxarı mərtəbəli karkas binalar (kubik daşı ilə doldurmaq şərti ilə) tikilmişdir. Bu binalar Bakının mərkəzi olan Ü.Hacıbəyli, Nizami, H.Mehdi,

Z.Bünyatov, H.Əliyev və Azadlıq prospektinin kəsişməsində, Atatürk prospekti və digər yerlərdə inşa edilmişdir.

B.C. Babayev 1977-1980-ci illərdə "Azneftikinti" trestinin baş mühəndisi, 1980-1984-cü illərdə Respublika Kolxozlararası Baş İdarəsinin Sənaye Müəssisələri İdarəsinin müdiri, 1984-1987-ci illərdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Tikinti-Quraşdırma trestinin müdiri, 1987-1993-cü illərdə Azərbaycan Respublikası Dövlət "Aqrarsənayebirliyi"ndə trest müdiri, 1994-1996-cı illərdə isə "Azəraqrartikinti" Dövlət Şirkətinin "Yerlitikintimaterialları" Birliyinin rəisi vəzifələrində çalışmışdır.

Ölkənin tikinti kompleksinin bazar iqtisadiyyatına keçid dövründə 1990-cı illərin ortalarında B.C. Babayev "Azəraqrartikinti" Dövlət Şirkətinin "Xüsusi Aqrarsənayetikinti" trestinə rəhbərlik etmiş və sonra təqaüdə çıxmışdır.

Təqaüdə çıxana qədər həmin vəzifədə uzun illər işləyərək respublikanın kolxoz və sovxozlarında, iri sənaye şəhərlərində fəhlə qəsəbələrinin salınmasında, mənzil, məktəb, uşaq bağçası, xəstəxana kompleksləri, iri heyvandarlıq müəssisələri və digər çox vacib obyektlərdə dəyərli və yaddaqalan əl izləri qoymuşdur.

Bahadur Babayevin əməyi çalışdığı bütün təşkilatlarda hansı vəzifədə işləməsindən asılı olmayaraq hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.

B.C. Babayev tikinti kompleksində xidmətlərinə görə "Şərəf" nişanı, "Qırmızı Əmək Bayrağı" ordenləri ilə və Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Kamil bir insan olan Bahadur Camal oğlu Babayev ömrünün 50 ilindən çoxunu tikinti kömpleksinin inkişafına həsr etmişdir. Peşəkar mühəndis, tələbkar, yüksək idarəçilik və təşkilatçılıq qabiliyyətinə malik olan bir insan kimi Bahadur müəllim eyni zamanda insanları özünə cəlb etmək, səbrlə dinləmək və məsləhət vermək qabiliyyətinə malik bir şəxsiyyət kimi də yadda qalmışdır.

B.C. Babayev indi də öz təcrübəsini inşaatçılarla bölüşür, onlara dəyərli məsləhətlər verir.

Belə insanların varlığı cəmiyyətimizin saflığı, millətimizin varlığı üçün vacibdir.



Babayev
Ədalət
İsrafil oğlu

1942-ci ilin yanvar ayının 15-də Lənkəran şəhərində müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi (rus bölməsi) qızıl medalla bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1963-cü ildə oranın inşaat fakültəsinin 6 nömrəli tikinti idarəsində ilk əmək fəaliyyətinə başlamışdır.

Ə.İ. Babayev sonralar Azərittifaqın "Azkoopinşaat" trestində, Daxili İşlər Nazirliyinin tikinti-quraşdırma trestində çox məsul və rəhbər vəzifədə çalışmışdır.

Sonra onu Bakı Baş Tikinti İdarəsinə dəvət edirlər. Bir qərinədən çoxdur ki, həyatını Bakı Baş Tikinti İdarəsinə başlamışdır.

Baş İdarənin 11 nömrəli İctimai-Mədəni Tikinti Tresti yaradılanda onu trestin baş mühəndisi təyin

edirlər. Az sonra trestdə müdir işləməyə başlayır. Daha sonralar isə onu Bakı Şəhər Tikintilərinin Mexanikləşdirilməsi Trestinə müdir təyin olunmuş və uzun müddət bu trestə rəhbərlik etmişdir. Son 15 ildə Bakıda tikilmiş əksər obyektlərdə Ə.İ. Babayevin əl izləri vardır.

Erməni quldurlarının törətdikləri faciədən sonra Ə.İ. Babayev neçə-neçə qaçqına, məcburi köçkün ailəsinə əl tutub, öz şəxsi qazancından və kollektivin ümumi gəlirindən maddi yardım göstərmişdir. 90-cı illərdə Müdafiə Fonduna, şəhid ailələrinə kömək əli uzatmışdır. Başçılıq etdiyi trest 8 qaçqın ailəsini hamiliyə götürmüşdür. Bir neçə qaçqın işlə təmin olunmuşdur. Trestin buldozerçisi (204 nömrəli İMİ) Dünyamin Bağırov Ağdam uğrunda döyüşlərdə şəhid olmuşdur. Onun körpə balasına 18 yaşına çatana qədər orta aylıq əmək haqqı verilmişdir. Trestin 8 nömrəli İMİ-nin işçisi Əli Cavadov döyüşdə ağır yaralanmış və əlil olumşdur. Trest müdiri ona lazım olan dava-dərmanın alınmasında və msddi yardım göstərilməsində qayğısını heç vaxt əsirgəməmişdir.

Ə.İ. Babayevin rəhbərliyi altında çox qısa vaxtda Beyləqan istiqamətində 30 km, Ağdam, Bərdə, Tərtər bölgəsində Soğanverdi kəndindən keçən istiqamətdə dərinliyi 3m, uzunluğu 15 km olan tank əleyhinə müdafiə səddi çəkilmişdir. Yeni Yaşma və Sitalçayda tikilən yaşayış evlərində də əl izləri qoymuşdur. Teleteatrın binası, hündür mərtəbəli yaşayış evləri, Heydər Əliyev sarayı, Göz xəstəxanası kompleksi, Dövlət Yol Polisinin İnzibati binası, Gülüstan Sarayı, Dövlət Sirkinin binası, respublika Velotreki, çoxlu məktəb və uşaq bağçaları, Azərbaycanın müxtəlif rayonlarındakı konserv kombinatları, çörək zavodu, otellər, univermaq və universamlar, ticarət və peşə müəssisələri və .s. obyektlər də onun əmək bioqrafiyasının parlaq səhifələridir.

Ə.İ. Babayev bütövlükdə götürsək, Bakı Baş Tikinti İdarəsinin yetişdirdiyi kamil mütəxəssislərdəndir və o, BBTİ-də işlədiyi bütün illərdə bu baş idarənin uğurlar qazanması üçün əlindən gələni etmişdir. "Növbə-86" və "Mənzil-2000" Dövlət Proqramlarının yerinə yetirilməsi istiqamətində onun rəhbərlik etdiyi kollektivin gərgin və vacib əməyi olmuşdur.



Babayev
Qeybulla
Ağakişi oğlu

1953-cü ildə İmişli rayonunda anadan olmuşdur. 1975-87-ci illərdə Azərbaycanda xüsusi Tikinti və Quraşdırma Nazirliyinin tabe təşkilatlarında müxtəlif vəzifələrdə işləmişdir (səmələşdirici mühəndis, mühəndis-elektrik, iş icraçısı, baş icraçısı, elektrik quraşdırma idarəsinin rəisi).

Q.A. Babayev 1987-1989-cu illərdə Sumqayıt şəhər peşə təhsili idarəsinin rəisi olmuşdur. O, 1989-2002-ci illərdə Dəmir Beton Məmulatları zavodunun direktoru vəzifəsində çalışmışdır.

Q.A. Babayev hazırda Sumqayıt Elektrik Quraşdırma ATSC-nin İdarə Heyətinin sədridir. Üç çağırış Sumqayıt şəhər Xalq Deputatları Sovetinə deputat və Sumqayıt şəhər XDS İcraiyyə Komitəsinə üzv seçilmişdir. Tikinti kompleksində işlədiyi illərdə Bakı,

Sumqayıt və digər yerlərdə tikilən ağır metallurgiya, yüngül sənaye, kimya sənayesi zavodlarının və yaşayış komplekslərinin tikintisində əl izləri vardır.



Bağırlı Yaşar Qurban oğlu

29 iyul 1940-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhərindəki 199 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin memarlıq şöbəsinə daxil olmuş və 1963-cü ildə oranı bitirərək memar ixtisasına yiyələnmişdir. Hələ institutda oxuyarkən bir neçə layihələrin müəllifi olmuşdur. Bu illərdə o, Ağsu rayonunun "Telman" kolxozu üçün kəndin mərkəzinin baş planını işləmiş, keçmiş "Lenin" (indiki "Azadlıq") meydanının ətrafının tikilməsi üçün keçirilmiş respublika müsabiqəsində Politexnik İnstitutun seçmə tələbə kollektivinin tərkibində iştirak edərək müsabiqənin həvəsləndirici mükafatına layiq görülmüşdür.

Y.Q. Bağırlı sonralar müxtəlif layihə təşkilatlarında işləyərək bir sıra layihələrin müəllifi olmuşdur. Onun layihələri əsasında Bakı şəhərində Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq labaratoriya kompleksi, "Spartak" stadionunda idmançılar üçün realibitasiya binası, Qəbələ şəhərində avtovağzal binası tikilib istifadəyə verilmişdir.

Y.Q. Bağırlı əmək fəaliyyətinin böyük bir hissəsini sosial obyektlərin tikintisinə həsr etmişdir. Onun iştirakı ilə bir sıra yaşayış evləri və səhiyyə obyektləri tikilib istifadəyə verilmişdir.

1986-1997-ci illərdə Səhiyyə Nazirliyində tikinti işləri üzrə nazir müavini işlədiyi dövrdə onun iştirakı və rəhbərliyi altında rayon və şəhərlərdə bir sıra xəstəxanalar, doğum evləri, uşaq xəstəxanaları, kənd həkim ambulatoriyaları, aptek binaları, xüsusiləşdirilmiş tibb mərkəzləri, respublika Diaqnostika Mərkəzi, respublika Doğum evi, respublika Ailə Sağlamlıq Mərkəzi, respublika Stomotoloji Mərkəzi və bir sıra digər obyektlər müasir tələblərə uyğun səviyyədə tikilib istifadəyə verilmişdir.

Y.Q. Bağırlı 1980-1990-cı illərdə Azərbaycan Memarlıq və İnşaat İnstitutunda arxitektura konstruksiyaları kafedrası üzrə dövlət imtahan komissiyasının sədri olmuşdur.

Y.Q. Bağırlı 1997-2002-ci illərdə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində memarlıq və şəhərsalma işləri üzrə sədr müavini vəzifəsində çalışmışdır. 2002-ci ilin mart ayından isə komitənin yeni əsasnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin şəhərsalma və arxitektura idarəsinin rəisi vəzifəsinə keçirilmişdir.

Y.Q. Bağırlı bu dövrdə Memarlar İttifaqı ilə ilə birlikdə "Arxitektura fəaliyyəti haqqında" və "Şəhərsalmanın əsasları haqqında" qanunlarının hazırlanmasında və respublikanın Milli Məclisində müzakirələrində fəal iştirak etmişdir. Bundan əlavə onun iştirakı və təşəbbüsü ilə şəhərsalma fəaliyyətinə aid olan bir sıra normativ sənədlər hazırlanmışdır.

Y.Q. Bağırlı müxtəlif illərdə şəhərsalma və arxitektura məsələlərinə həsr olunmuş beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumlarda iştirak etmiş və məruzələrlə çıxış etmişdir. Uğurlu əmək fəaliyyətinə görə 1976-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Y.Q. Bağırlı 1997-2005-ci illərdə Dövlət Tikinti və Arxitektura Komitəsinin nəzdində fəaliyyət göstərən Şəhərsalma və Arxitektura Şurasının sədri olmuşdur.



Bağırov Bəhruz Göyüş oğlu

29 avqust 1950-ci ildə Tərtər rayonunun İsmayılbəyli kəndində anadan olmuşdur. 1957-ci ildə İsmayılbəyli kənd 8 illik məktəbin 1-ci sinfinə daxil olub, 1957-ci ildə həmin rayonun Eloğlu kənd orta məktəbini bitirmişdir.

B.G. Bağırov 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin mülkü tikinti ixtisasının axşam-qiyabi şöbəsinə daxil olub və 1973-cü ildə həmin ali məktəbi bitirmişdir. O, 1968-ci ildə Bakı Elektrik Maşınqayırma zavodunun 5-ci sexində köməkçi fəhlə vəzifəsində çalışmışdır. 1971-ci ildə Sənaye Tikinti Nazirliyinin 88 nömrəli Tikinti İdarəsində 2-ci dərəcəli fəhlə qəbul olunmuşdur. 1973-1974-cü illərdə Sovet Ordusu sıralarında qulluq etmişdir. 1974-cü ildə Sənaye Tikinti Nazirliyinin 8 nömrəli trestinin 87 nömrəli tikinti idarəsində 3-cü dərəcəli bənna işləmişdir. 1977-ci ildən həmin idarədə tikinti ustasından başlayaraq iş icraçısı və sahə rəisi vəzifələrində çalışmışdır.

B.G. Bağırov 1985-ci ildən Sənaye Tikinti Nazirliyinin 8 nömrəli trestinin 86 nömrəli tikinti idarəsinə rəis təyin olunmuşdur. 1995-ci ildə 86 nömrəli tikinti idarəsi ləğv olunduqdan sonra onun hüquqi varisi kimi yeni yaranmış "Mülkitikinti" İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

B.G. Bağırov öz xahişilə 2001-ci ildə işdən azad olunaraq "Azərsənayetikinti" SC-nin Tikinti Mexanizasiya Törəmə Müəssisəsinin baş mühəndisi vəzifəsinə köçürülmüşdür. 2007-ci ildə "Azərsənayetikinti" ASC-nin 5 nömrəli müəssisəsinə rəis vəzifəsinə təyin olunub və hal-hazırda da həmin vəzifədə çalışır.

Qobu Quşçuluq fabriki, Pirəküşkül Quşçuluq fabriki, Makaron fabriki, Tütün kombinatı, Bakı şəhərlərarası danışıq məntəqəsinin binası, "AqroBank"ın 10 mərtəbəli yaşayış evi, "Kommunist" nəşriyyatı, PPL-9Q liniyası, Rabitə evi, "Azərburtorq", "Azərbakaleya", Bakı aeraportunda İsrail firması ilə 25 km uzunluğunda siqnalizasiyalı hasarın çəkilməsi, müxtəlif yerlərdə məktəb binalarının tikintisi və s. obyektlərdə dəyərli əl izləri qoyub.

O, tikintisinə rəhbərlik etdiyi bütün obyektlərdə işin keyfiyyətlə və məsuliyyətlə yerinə yetirilməsinə, vaxtdan səmərəli istifadə olunmasına və texniki təhlükəsizlik tədbirlərinə ciddi riayət olunmasına hər zaman xüsusi diqqət yetirmiş və nail olmuşdur.

B.G. Bağırov bir çox səmərələşririci təkliflərin müəllifidir. Səmərəli işinə və qüsursuz əməyinə görə dəfələrlə fəxri fərmanlar, tərifnamələr almışdır.



Bagırov
Kamran
Məmməd oglu

31 yanvar 1933-cü ildə Şuşada anadan olmuşdur. 1957-ci ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. 1957-1963-cü illərdə Azərbaycan Politexnik İnstitutunda müəllim, inşaat fakültəsinin dekan müavini işləmişdir. Sonra Ali Partiya Məktəbində təhsilini davam etdirib.

K.M. Bağırov 1963-cü ildən Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin Tikintidə yeni texnologiyanın tətbiqi trestində baş layihə mühəndisi kimi fəaliyyət göstərmişdir. Az sonra o, respublika Sənaye Tikinti Nazirliyinin Sənaye müəssisələri tikintisinin Mexanikləşdirmə Trestində müdir müavini vəzifəsinə irəli çəkilmişdir. 1968-1971-ci illərdə isə Azərbaycan SSR Nazirlər Sovetində Tikinti və Kommunal Təsərrüfatı şöbəsinin müdir müavini işləmişdir.

K.M. Bağırov 1971-ci ildən Azərbaycan KP MK-nın tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə irəli çəkilib. 1974-1978-ci illərdə Sumqayıt şəhər partiya komitəsinin birinci katibi, 1978-1982-ci illərdə Azərbaycan KP MK katibi işləyib.

K.M. Bağırov 1982-1988-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi olub. 1988-ci ildə Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət Komitəsinə sədr təyin edilib və o, bir müddət bu vəzifədə işləyib.

Azərbaycan iqtisadiyyatının inkişafında, tikinti kompleksinin yüksəlməsində zəhmət payı vardır.

K.M. Bağırov 25 oktyabr 2000-ci ildə 67 yaşında vəfat edib.

K.M. Bağırov Sov.İKP XXV və XXVII qurultaylarının nümayəndəsi olmuş, Sov.İKP MK-nın, Azərbaycan KP XXIX, XXX və XXXI qurultaylarında AKP MK-nın üzvü seçilmişdir. 1978-ci ildən 1989-cu ilədək Azərbaycan KP MK-nın bürosunun üzvü olmuşdur. SSRİ Ali Soveti Rəyasət Heyyətinin üzvü olmuşdur. Lenin ordeni, "Oktyabr inqilabı" ordeni, "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.



Bayramov
Süleyman
Məmməd oğlu

1958-ci ilin martın 3-də Gürcüstan SSR Bolnisi rayonunun Kəpənəkçi (Kv-Bolnisi) kəndində ziyalı ailəsində anadan olub. Atası Məmməd Süleyman oğlu Bolnisi rayonunun ilk azərbaycanlı komsomol komitə katibi olmuş, sonrakı illərdə Bolnisi rayonunda kolxoz sədri, sovxoz direktoru, kənd sovetinin sədri və digər məsul vəzifələrdə çalışaraq, dövrünün sayılıb-seçilən kişilərindən biri kimi, el ağsaqqalı kimi şərəfli ömür sürmüşdür.

S. M. Bayramov 1975-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib Azərbaycana gəlmişdir. O, 1976-cı ildə sənədlərini Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsinin axşam şöbəsinə verərək qəbul olunmuş və elə həmin ildə də ordu sıralarına çağrılmış və 2 il müddətində Sibir vilayətində hərbi xidmətdə olmuşdur. O, ordudan tərxis olunduqdan sonra instituta bərpa olunub təhsilini axşam şöbəsində davam etdirmişdir. Oxuduğu müddət ərzində o, gündüz əmək fəaliyyəti ilə məşğul olmuşdur.

S. M. Bayramov 1983-cü ildə institutu müvəffəq qiymətlərlə başa vurduqdan sonra 1984-1985-ci illərdə Moskvada Plexanov adına Xalq Təsərrüfatı İnstitutunda tikintinin proqnoz və planlaşdırılması fakültəsini bitirmişdir.

O, əmək fəaliyyətinə başladığı vaxtdan bir sıra təşkilatlarda tikintinin müxtəlif sahələrində çalışaraq aşağıdan yuxarıyacan müxtəlif vəzifə pillələrini adlamışdır.

Belə ki, ilk əmək fəaliyyətinə Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 41 nömrəli Tikinti İdarəsində başlamış və 3 nömrəli Evtikmə Kombinatının tikintisində fəhlə kimi çalışmışdır. Gənc və enerjili Süleyman əmək fəaliyyətini Azərbaycan SSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin "Azərsutəmirtikinti" trestində mühəndis vəzifəsində davam etdirmişdir. O, daha sonra texniki şöbənin rəisi və həmin trestin baş mühəndisi vəzifəsinə qədər yüksələ bilmişdir. O, burada işlədiyi illərdə Cəlilabadda, Zərdabda və digər rayonlarda 4-5 mərtəbəli yaşayış binalarının tikintisinə rəhbərlik etmiş, həmçinin rayonlarda suvarma kanallarının, kollektorların, drenaj sistemlərinin bərpa və təmiri ilə məşğul olmuşdur.

SSRİ süqut etdikdən sonra müstəqil Azərbaycan



1. Nəsirəddin Tusi küçəsi 62 ünvanında inşa olunan 4 bloklu 16 mərtəbəli yaşayış binası.
2. "Kosmos" qapalı yaşayış kompleksi **3.** "Abşeron Gənclər Şəhərciyi" **4.** "Etalon" yaşayış kompleksi.

Respublikasının müxtəlif tikinti idarələrində çalışmış və həmçinin "Azərdəniz" Sulardan Mühafizə Elm İstehsalat Birliyində əsaslı tikinti şöbəsinin rəisi vəzifəsində 1993-cü ilə kimi qüsursuz işləyərək bu illərdə rayonlarda hidrotexniki qurğuların tikintisi və bərpası, kanalların və kollektorların, suvarma sistemləri qurğularının tikinti və təmiri işləri ilə məşğul olmuşdur.

O, 1993-cü ildən "Fidan" özəl kiçik müəssisəsini təsis etmiş və 2007-ci ilə kimi paytaxtımızda çoxlu sayda sosial obyektlərdə təmir-tikinti işlərini yüksək professionallıqla yerinə yetirmişdir. O, bu zaman xeyriyyəçilik işləri ilə məşğul olmuşdur.

S. M. Bayramovun əmək bioqrafiyasının son illəri əsasən "Akkord" Şirkətlər Qrupu ilə bağlıdır. Belə ki, o, 2007- 2009-cu illərdə "Akkord-İnşaat Sənaye" MMC-nin Mülki Tikinti Departmentinin direktoru vəzifəsində çalışmışdır. Və o, bu arada qısa bir müddətdə "Akkord"dan uzaqlaşmış və yenidən "Fidan" kiçik müəssisəsində təmir-tikinti yönümündə fəaliyyətini davam etdirmişdir.

S. M. Bayramovun "Akkord"dakı fəaliyyəti çox uğurlu olub. Belə ki, "Akkord"un Nəsirəddin Tusi küçəsi 62 ünvanında inşa olunan ilk yaşayış binası S. Bayramovun rəhbərliyi altında tikilib istifadəyə verilib.

2010-cu ildə S. M. Bayramov yenidən "Akkord" Sənaye Tikinti İnvestisiya Korporasiyasına qayıtmış və bu günə kimi Mülki Tikinti Departamentinin direktoru vəzifəsində fəaliyyətini davam etdirməkdədir.

S. M. Bayramov əmək fəaliyyətini davam etdirərək Xırdalan qəsəbəsində 3 bloklu yaşayış binasını və paytaxtın Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Yaşar Əliyev küçəsi, 2595 ünvanında "Bakıxanov Yaşayış Kompleksi"nin tikinti-quraşdırma işlərini də yüksək keyfiyyətlə başa çatdıraraq 2011-ci ildə təhvil verib.



"Bakıxanov Yaşayış Kompleksi"

Bakının Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 1937-ci məhəllə ünvanında özünəməxsus memarlıq layihəsinə, gözəl görünüşə malik 22 mərtəbəli, 908 mənzildən ibarət "Kosmos" qapalı yaşayış kompleksinin tikintisini isə Ümummilli Lider Heydər Əliyevin doğum günündə istifadəyə verdilər. Həmçinin 6 bloklu 20 mərtəbəli "Etalon" yaşayış kompleksinin tikinti quraşdırma işləri də başa çatdırılaraq istifadəyə verildi.

Bundan başqa Xırdalan qəsəbəsində "Abşeron Gənclər Şəhərciyi"nin tikintisində də iş bir an dayanmayıb. 2005-ci ildən tikintisinə start verilən bu gənclər şəhərciyində bu gün yüksək inşa tempi vardır.

Həmçinin Xətai rayonunda uşaq bağçası, Nərimanov rayonunda gimnastika mərkəzi və bir sıra digər sosial təyinatlı infrastruktur layihələrinin reallaşdırılması da həyata keçiriləcək layihələr sırasındadır. Bundan başqa Nərimanov rayonu ərazisində "Akkord" şirkətinə məxsus ofis binasının təmir-bərpa işləri də S. M. Bayramovun rəhbərliyi altında uğurla davam etdirilir.

Süleyman müəllim ailəlidir. 3 övladı, 2 nəvəsi var. Övladlarından 2-si qız, 1-i oğuldur. Böyük qızı İqtisadiyyat Universitetini, ortancıl qızı isə Xarici Dillər Universitetini ingilis-alman dilləri üzrə tərcümə fakültəsini bitirmişdir. Hər ikisi ailəlidir, 2 qız nəvəsi var. Oğlu Fərid isə Azərbaycan Kooperasiya Universitetini bitirib, hazırda hərbi xidmətdədir.

S.M. Bayramov 35 ildir ki, ölkə tikintisindədir. Müxtəlif tikinti qurumlarında fəhləlikdən başlayaraq ən yüksək vəzifələrə qədər yüksəlib və harda, hansı vəzifədə işləməsindən asılı olmayaraq hər zaman işinə yüksək məsuliyyət hisssi ilə yanaşıb, taleyini bağladığı peşədən, inşaatçı-mühəndis fəaliyyətindən qürur duyub.

O, bu gün də tikib-qurmaqdan qürur duyur və illər ötdükcə o öz sənətinə daha çox bağlanır.

S.M. Bayramov ölkə tikinti kompleksindəki səmərəli fəaliyyətinə görə Azərbaycan İnşaat Kompleksi İşçilərinin Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Onun ən böyük uğurları hələ qabaqdadır.



Bayramov
İsmayıl
Abdulla oğlu

1959-cu ildə Ermənistanın Krasnoselsk rayonunun Ardaniş kəndində anadan olmuşdur. 1976-cı ildə orta məktəbi bitirib Rusiyaya getmişdir. Samara şəhərində ali təhsil almış, bu şəhərdəki tikinti idarəsində texniki istehsalat şöbəsində mühəndis, baş mühəndis, şöbə rəisi işləmişdir. Azərbaycana qayıtdıqdan sonra Sumqayıtdakı tikinti idarəsinə rəis təyin edilmişdir (1990-cı il).

Sumqayıtda tikilən sosial-mədəni obyektlərdə, Hövsan təmizləyici qurğusunun tikintisində, "Bakı-Novorossiysk" və "Bakı-Supsa" neft kəmərlərinin çəkilişində, Goranboy rayonunda su təchizatının yaxşılaşdırılmasında, Quba rayonundakı rota məktəbinin yenidən quraşdırılmasında və digər mühüm obyektlərdə bilavasitə iştirak etmiş, əl izləri qoymuşdur.



Bayramov
Şıxbala
Nəsrəddin oğlu

1948-ci ilin iyulun 1-də Şamaxı rayonunun Təklə kəndində anadan olub. 1955-ci ildə Təklə kənd orta məktəbinə getmiş, 1966-cı ildə Şamaxı şəhər 1 nömrəli orta məktəbini bitirmişdir. Gənc Şıxbala elə həmin il Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunmuş və 1971-ci ildə inşaat mühəndisi ixtisası üzrə institutu bitirmiş və elə həmin il Şərqi Abşeron Qaz İstismar İdarəsində sahə rəisi kimi ilk əmək fəaliyyətinə başlayaraq, bir il orda işlədikdən sonra doğma Şamaxı rayonuna qayıtmış və 1972-ci ildə təmir-tikinti sahəsində baş mühəndis, 1974-cü ildə 2 nömrəli yol-istismar sahəsində baş mühəndis,1980-1986-cı illərdə isə həmin idarənin rəisi vəzifələrində çalışmışdır.

Bundan sonra Şıxbala Bayramovun əmək bioqrafiyasında yeni bir səhifə açılır. O, 1986-1988-ci illərdə Şamaxı Şəhər XDS İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyib. Sonra isə o, İstehlak Cəmiyyəti idarə heyəti sədrinin tikinti işləri üzrə müavini (1988-1990-cı illər) işləmişdir.

1990-cı ildə Qobustan rayonu təsis olunanda Şamaxı rayon Partiya Komitəsinin təqdimatıyla Şıxbala Bayramov Qobustan rayon İcraiyyə Komitəsi sədrinin müavini vəzifəsinə təyin olunmuşdur. 1992-ci ildə rayon icra hakimiyyətləri yarandıqdan sonra isə o, Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində 2 il qüsursuz çalışır. Sonra isə ölkədə hərc-mərclik başlayıb. Cəbhə hakmiyyətə gəldikdən sonra ona müavin postunu tərk etməyi məsləhət görürlər və onu Qobustan Rayon İcra Hakimiyyətində memarlıq və tikinti bölməsinin rəisi vəzifəsinə təyin edirlər. Şıxbala müəllim 2005-ci ilə kimi bu vəzifədə yüksək professionallıqla çalışaraq Qobustanın inkişafına öz töhfələrini verir.

2005-ci ildən bu günə kimi isə Qobustan Rayon İcra Hakimiyyətində mükli-müdafiə qərargahının rəisi vəzifəsində çalışır.

Bu gün Şıxbala müəllim dönüb yaşadığı ömrün dünəninə boylananda yaşadığı ömürdən zövq alır, bu xalqa xidmət edə bildiyi üçün özünü xoşbəxt sayır.

Şamaxıda yollar boyunca kişik memarlıq formalarının əksəriyyəti o,işlədiyi illərin yadigarlarıdır. Bundan başqa Padarçöl-Çöl-Göylər-Pirqulu yolu bilavasitə onun 2 nömrəli yol-istismar sahəsinin rəisi olduğu illərdə çəkilib. 12 il bu idarədə işləyib. O illərdə çoxlu yolüstü qurğular inşa olunub. Məsələn, Pirssat çay və Zoğalçay çayları üzərindəki körpülər, Ağsu çyı üzərində şəhərin mərkəzindəki körpü, Muğanlı-İsmayıllı yolunda Ağsu şayı üzərində körpü, Muğanlı qəsəbəsindəki yolayrıcı bilavasitə onun rəhbərliyi altında tikilmişdir. Bundan başqa, Şamaxı şəhər XDS İK-nin sədri işlədiyi vaxt Şamaxıda Mirzə Ələkbər Sabirin bürünc heykəlini qoyulmasına nail olub. Hazırda İmaməddin Nəsiminin büstü olan bağ da onun dövründə salınıb. Bundan başqa Şamaxının girəcəyində Şamaxı tarixini əks etdirən istinad divarını da o, inşa elətdirib.

Bundan başqa Seyid Əzim Şirvaninin və Mirzə Ələkbər Sabirin məzarlarının ətraflarının abadlaşdırılmasında və eləcə də oradan gedən yolların asfaltlaşdırılmasında illərlə xidmətləri olub. Şamaxı rayonunun girişindəki simvol - Şamaxı yazılan göstərici-1974-cü ildə Şıxbala Bayramovun sifarişilə Qorxmaz Sücətdinov tərəfindən hazırlanmışdır.

Şıxbala Bayramovun 1992-2005-ci illər arasında Qobustan Rayon İcra Hakimiyyətində memarlıq və tikinti şöbəsinin müdiri vəzifəsində çalışarkən yeni yaradılmış rayonda sərasər 13 il rayonun tikinti abadlıq yönümünə rəhbərlik etməsi onun Qobustan rayonunda həyata keçirdiyi böyük quruculuq işlərindən xəbər verrir. Ümumiyyətlə götürdükdə Şıxbala Bayramov harda işləyibsə həmişə tikinti-quruculuq işləri ilə sıx bağlı olub. Öz sahəsinin gözəl mütəxəssisi olması onu həmişə inşaatın mərkəzinə çəkib. Və o bu gün də belədir, öz köhnə ampulasındadır.

Şıxbala Bayramov rayon tikinti və memarlıq şöbəsinin müdiri işlədiyi illərdə Qobustan rayoonu rayon kimi formalaşmışdır və bu prosesdə Şıxbala müəllimin xidmətləri böyükdür Notariat kontoru üçün, poçt üçün inzibati binalar tikildi. Rayon İcra Hakimiyyətinin yerləşdiyi bina da həmin illərin məhsuludur. Sonra kənd yollarını bərpa edildi və ən başlıca məsələ su probleminin həlli idi. Çay Qurbançıdan-13 km-lik məsafədən, Qozluçaydan Mərəzə qəsəbəsinə su çəkilişi həyata keçirildi. İkipilləli nasoslar qurmaqla suyu 500 metr dərinlikdən dağın səviyyəsinə qaldıraraq oradan öz axını ilə Mərəzə qəsəbəsinə verdilər. Sonra Təklə kəndində 25 çarpayılıq xəstəxana tikildi.

Şıxbala Bayramov 2005-ci ildən Qobustan Rayon İcra Hakimiyyətində mülki-müdafiə qərərgahının rəisi vəzifəsində çalışır. Rayonda olan mülki-müdafiə qüvvələrinin, xilasedici qrupların formalaşması, mülki-müdafiə ilə əlaqədar bütün məsələlər onun tərəfindən həyata keçirilir.

Şıxbala Bayramov bu gün 64 yaşındadır. Bu 64 yaşlı ağsaçlı, nurani insan, bu gün də işindən zövq alır. Həvəslə işləyir, bir qayda olaraq bütün zamanlarda olduğu kimi, ona tapşırılan bütün vəzifələrə bir sanbal, nüfuz gətirə bilir. Bu isə onun daxili zənginliyinin, sadə və əqidəli insan olmağının təzahürüdür.

Şıxbala Bayramov belə bir maraqlı ömür yaşayır. Heç vaxt gənclik şövqündən, yaradıcılıq axtarışlarından əl çəkməyən zəhmətkeş bir insan kimi onun bütün ömrü və əməlləri alqışa, tərifə layiqdir.



Bədəlov
Bədəl
Məhəmməd oğlu

13 fevral 1937-ci ildə Gürcüstan Respublikasının Bolnisi rayonundakı Saraclı kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1955-ci ildə Arxalı kənd orta məktəbini bitirən kimi Azərbaycan Politexnik İnstitutunun hidrotexniki tikintilər və su elektrik stansiyaları şöbəsinə daxil olmuş və 1960-cı ildə həmin şöbəni fərqlənmə diplomu ilə bitirib inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

B.M. Bədəlov təyinatla Azərbaycan SSR Tikinti Nazirliyinin sərəncamına göndərilmiş və 1960-1965-ci illərdə həmin nazirliyin tikinti idarələrində iş ustası, iş icraçısı, mühəndis vəzifələrində işləmişdir. O, 1965-ci ildən həyatını Bakının metro tikintisinə bağlamışdır. Əvvəlcə 771 saylı tikinti idarəsində sahə rəisi, sonralar rəis vəzifəsində çalışmışdır. Bakı Metropo-

liteninin "Nərimanov" və "Neftçilər" satnsiyalarının tikintisinə bilavasitə rəhbərlik etmişdir. Metro tikintisindəki uğurlarına görə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuş, "SSRİ Nəqliyyat Nazirliyinin əlaçısı" döş nişanına və SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Qızıl medalına layiq görülmüşdür.

B.M. Bədəlov 1975-ci ilin 18 aprelindən Azərbaycan Baş Meliorasiya və Su Qurğuları Tikintisi İdarəsinə işə köçürülmüşdür. 1983-cü il aprelindən bu baş idarənin tikinti idarəsində rəis və tikinti trestində baş mühəndis kimi fəaliyyət göstərmişdir. 1983-1988-ci illərdə Kənd Tikintisi Nazirliyi sistemində tikinti idarəsinin rəisi, tikinti trestinin müdiri vəzifələrində işləmişdir.

O, sonrakı illərdə "Azərnəqliyyattikinti" trestində sahə rəisi, idarə müdiri işləmiş, bir sıra özəl təşkilatlarda məsul vəzifələrdə çalışmışdır. Əmək fəaliyyəti dövründə irili-xırdalı 20-dək səmərəli təkliflər irəli sürmüş və onların həyata keçirilməsi sayəsində dövlətə xeyli xeyir vermişdir. Qüsursuz əməyinə, fəal işinə görə dövlət mükafatlarına layiq görülmüşdür. Hal-hazırda təqaüdçüdür.



Bədəlov
İlyas
Bayram oğlu

21 fevral 1944-cü ildə indiki Füzuli rayonunun Dilağarda kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Orta məktəbi bitirən vaxtdan – 1962-ci ildən həyatını Bakı şəhərinə bağlamışdır. Həmin ildən Sənaye Tikintisi Nazirliyinin Qırmızı Əmək Bayrağı Ordenli 4 nömrəli Tikinti Trestinin 49 nömrəli Tikinti İdarəsində fəhlə kimi ilk əmək fəaliyyətinə başlamışdır. Dövrün tələbinə uyğun olaraq istehsalatdan ayrılmadan Politexnik İnstitutunun axşam şöbəsinə daxil olmiş və bu elm ocağının sənaye və mülki tikinti fakültəsini uğurla bitirərək inşaatçı-mühəndis adını qazanmışdır. Sonralar Azərbaycan KP MK yanında Marksizm Leninizm Universitetinin axşam şöbəsini də bitirmişdir.


İ.B. Bədəlov Qırmızı Əmək Bayrağı ordenli 4 nömrəli Tikinti Trestinin müxtəlif idarələrində mühəndis, idarə rəisi, Bakı Baş Tikinti İdarəsində rəis müavini, Sənaye Tikinti nazirinin müavini, "Azərsənayetikinti" Dövlət Şirkətinin vitse-prezidenti və s. məsul və rəhbər vəzifədə işləmiş, Bakı və Bakı ətrafı rayonlarda sosial-mədəni obyektlərin tikintisində, iri neft və neft maşınqayırma zavodlarının yenidənqurulması və bərpasında, Dövlət Sirki, Bakı Kondisionerlər zavodu, Gülüstan sarayı, Bakı Şin zavodu, Heydər Əliyev sarayı, Heydər Əliyev adına Dərin Dəniz Özülləri zavodu, Bakı Televiziya Qülləsi və digər mühüm obyektlərdə, Sumqayıt, Naxçıvan, Neftçala, Əli Bayramlı, Qazax, Gəncə, Dağlıq Qarabağ, Yevlax kimi rayon və şəhərlərimizdəki sosial-mədəni obyektlərdə, iri sənaye müəssisələrinin vaxtında və vaxtından əvvəl inşa olunub istismara buraxılmasında dəyərli əl izləri qoymuşdur.

İ.B. Bədəlov respublika prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə yaradılmış "ANAMA"-nın (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik) ilk baş direktoru olmuş və bu sahədə dövlət başçısı tərəfindən qarşıya qoyulan vacib məsələləri uğurla yerinə yetirmişdir.

Ölkə tikinti kompleksində gənc kadrların yetişdirilməsi və tərbiyə olunmasında, tikinti istehsalat bazasının yaradılmasında, inşaat meydançalarında ən yeni texnikanın tətbiq edilməsində, baş podratçı, sifarişçi, təchizatçı və layihəçi təşkilatlar arasında möhkəm və sıx əlaqənin yaradılmasında, Rusiyanın Tümen vilayətində Azərbaycan inşaatçılarına başçılıq etmiş, Dağlıq Qarabağ uğrunda gedən savaşda döyüşçülərin ruhlandırılmasında çox böyük zəhmət çəkmişdir.

İ.B. Bədəlov yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik olmasına və peşəsinə vurğunluğuna görə dəfələrlə fəxri fərmanlarla, tərifnamələrlə təltif olunmuş və istehsalatdakı uğurlarına görə respublikanın "Əməkdar İnşaatçısı" fəxri adına layiq görülmüşdür.

O, bu gün də özəl sektorda tikinti yönümündə fəaliyyətini uğurla davam etdirir və həm də zəngin inşaatçı-mühəndis təcrübəsini və biliklərini gənc inşaatçı kadrlara həvəslə, yorulmadan öyrədir.



Behbudov
Qənbər
Əliş oğlu

1913-cü il fevral ayının 13-də Şuşada sənətkar ailəsində anadan olmuşdur. 1929-cu ildə Bakı İnşaat Texnikumuna daxil olmuş və inşaatçı texnik ixtisasını almışdır. Texnikumu bitirən kimi təyinatla Füzuli rayonuna göndərilmişdir. Bu rayon mərkəzində və Böyük Bəhmənli, Əhmədallar, Kənd Horadiz, Seyidəhmədli və digər kəndlərdə məktəblərin və inzibati binaların tikilməsində, yolların çəkilməsi və s. işlərdə səmərəli işləmişdir.

Q.Ə. Behbudov 1932-ci ildə istehsalatdan ayrılmadan M.Əzizbəyov adına Sənaye İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur. Ali təhsilini başa vurana qədər Maarif Nazirliyi sistemində və mədəni-maarif ocaqlarında, rayon icraiyyə komitəsində iş icraçısı, tikinti şöbəsinin müdiri kimi fəaliyyət göstərmiş, 1938-1942-ci illərdə ordu sıralarında xidmət etmiş, Ukraynada, Azərbaycanda hərbi əhəmiyyətli obyektlərin inşasında çalışmışdır. 1942-ci ildə Bakı tikintisində idarə rəisi, az sonra tikinti trestində müdir işləmişdir.

Q.Ə. Behbudov Böyük Vətən müharibəsindən sonra Yeyinti Sənaye Nazirliyinin əsaslı tikinti şöbəsinin rəisi vəzifəsində çalışır, Naxçıvanda mineral suların sənaye üsulu ilə istehsalını həyata keçirir. Respublika soyuducular zavodunun və ət-süd kombinatının tikintisi də onun adı ilə bağlıdır.

Q.Ə. Behbudov 1957-ci ildə Sənaye Tikintisi Nazirinin müavini vəzifəsinə irəli çəkilmiş və bu vəzifədə 23 il işləmişdir. Qazax, Tovuz, Şamaxı, Ağdərə rayonlarında tikilən şərab zavodlarında, Gəncə çini qablar zavodunda, Mingəçevirdəki yaşayış evlərinin inşasında, Bakıdakı Neftayırma zavodunda, kondisioner zavodunda onun əl izləri vardır.

Q.Ə. Behbudov 1960-cı ildə Azərbaycan SSR "Əməkdar İnşaatçısı" fəxri adına layiq görülmüş, 1966-cı ildə isə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur. Bir neçə dəfə respublika Ali Sovetinin fəxri fərmanını almışdır. 2008-ci ildə vəfat etmişdir.



Bəndəliyev
Allahverdi
Şıxverdi oğlu

12 dekabr 1935-ci ildə Kəlbəcər rayonunun Əli Bayramlı kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1952-ci ildə Kəlbəcər orta məktəbini bitirib Bakı Hidromeiorasiya Texnikumuna daxil olub. 1954-cu ildə həmin texnikumu bitirərək hidrotexnik ixtisasını qazanmışdır. O, texnikumu qurtarıb Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1959-cu ildə institutun sənaye mülkü tikinti fakültəsini qurtararaq inşaat mühəndisi ixtisasına yiyələnmişdir. Təyinatla Kəlbəcərə göndərilmişdir.

Kəlbəcərdəki İstisu sanatoriyasının tikintisi A.Ş. Bəndəliyevin adı ilə bağlıdır. O, bu sağlamlıq ocağında 1959-1968-ci illərdə iş ustası, ic icraçısı, sahə rəisi, baş mühəndis kimi məsul işlərdə çalışaraq onun tikintisinə bilavasitə rəhbərlik etmişdir. Uğurlu işinə görə rayon, partiya, sovet təşkilatlarından, Azərbaycan Həmkarlar İttifaqı Şurasından, respublika Kurortlar İdarəsindən dəfələrlə müxtəlif mükafatlar, fəxri fərmanlar almışdır.

A.Ş. Bəndəliyev 1968-ci ildən həyatını Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinə bağlamışdır. 1971-ci ilədək nazirliyin Mingəçevirdəki 5 nömrəli tikinti trestində şöbə müdiri, 1971-1974-cü illərdə Zaqataladakı 51 nömrəli tikinti idarəsində rəis, 1974-1978-ci illərdə 5 nömrəli tikinti trestində şöbə müdiri, 1978-1988-ci illərdə 54 nömrəli tikinti idarəsində rəis, 1988-1995-ci illərdə "Azərkəntikintimaterialları" trestində baş mühəndis, 1995-2009-cu illərdə "Azərkəndtikinti" Səhmdar Cəmiyyətində baş menecer vəzifəsində işləmişdir.

Tikinti kompleksində yarım əsrə qədər müxtəlif və məsul vəzifələrdə işlədiyi dövrlərdə Zaqatala, Qəbələ rayonlarındakı tütün fermentasiya zavodlarında, müxtəlif rayonlarda tikilib istismara buraxılmış 14 məktəb, 8 uşaq bağçası, 4 mineral kübrə anbarı, 8 mehmanxana, 2 bazar, 2 pambıq zavodu, 6 süd-əmtəə fermaası, 2 yağ-pendir zavodu, 22 şərab emalı zavodu, 2 peşə məktəbi, 3 univermaq binası, 2 rabitə evi, 8 mədəniyyət evi və klub binalarında dəyərli əl izləri qoymuşdur. Mingəçevir, Zaqatala, Şəki, Bərdə, Yevlax və digər rayon mərkəzlərində 5 mərtəbəli yaşayış evlərində də onun zəhmət payı var.



Bünyadov
Zəlimxan
Osman oğlu

20 fevral 1956-cı ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Kürtlər kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Marneuli rayonundakı Muğanlı sovxozunda inşaat briqadasında iki il fəhlə işləmişdir.


Z.O. Bünyadov 1973-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuş və 1978-ci ildə bu ali məktəbin sənaye və mülki tikinti fakültəsini bitirib inşaatçı-mühəndis adını almış, təyinatla Moldova Respublikasına göndərilmişlər. O, 1978-1981 və 1983-1985-ci illərdə Moldovanın Oknisi təsərrüfatlararası "Kolxoztikinti" Birliyində iş ustası, baş iş icraçısı, sahə rəisi vəzifələrində işləmişdir.

Z.O. Bünyadov 1985-ci ildə Azərbaycana qayıtmış və Sənaye Tikinti Nazirliyi sistemində işə düzəlmiş və tikinti təşkilatlarında baş iş icraçısı, baş mühəndis, idarə rəisi və tikinti trestinin müdiri kimi məsul vəzifələrdə çalışmış, özünün istedadı, təcrübəsi ilə çoxlarına nümunə olmuşdur.

O, istehsalatdan ayrılmadan ikinci ixtisasa da yiyələnmişdir. 1987-ci ildə Qırmızı Əmək Bayrağı ordenli S.Orconikidze adına Moskva İdarəetmə İnstitutunda Tikinti və Sənaye İstehsalının təşkil edilməsi fakültəsini bitirmişdir.

Z.O. Bünyadov hazırda "Nərimanovsənayetikinti" Səhmdar Cəmiyyətinin sədridir. O, eyni zamanda Azərbaycan Ağsaqqallar Şurasının orqanı olan "İnkişaf" qəzetinin redaksiya heyətinin üzvüdür.

C



Cəfərov
Aydın
Abdulkərim oğlu

23 avqust 1936-cı ildə Füzuli rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Politexnik Texnikumunun inşaat fakültəsində təhsil almış, sonra Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir.

A.A. Cəfərov yarım əsrdən çoxdur ki, həyatını Azərbaycan tikinti kompleksinə bağlamışdır. Füzuli rayonundakı ən aparıcı və iri tikinti təşkilatlarında məsul və rəhbər vəzifələrdə işləmiş, Füzuli kolxozlararası tikinti trestinin, "Milkanalsutikinti" trestinin, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin Respublika Tikinti Birliyinin rəisi vəzifələrində səmərəli fəaliyyət göstərmişdir.

A.A. Cəfərov respublikanın 40-dan çox rayonunda sosial-mədəni obyektlərin, iri sənaye müəssisələrinin tikintisində, müxtəlif rayonlarda kompleks meliorasiya və irriqasiya işlərinin görülməsində, Baş Mil Kanalının çəkilişində, iri istehsalat bazalarının yaradılmasında, təsərrüfatlararası kanalların çəkilişində var qüvvəsini sərf etmiş, səriştəli və qabiliyyətli rəhbər işçilərdən biri kimi tanınır. O, işlədiyi müddətdə çoxlu səmərəli təkliflər vermiş və onların istehsalatda tətbiqinə nail olmuşdur.

A.A. Cəfərov səmərəli və qüsursuz işinə görə bir neçə orden və medallarla təltif olunmuş, bir dəfə şəhər, dörd dəfə rayon və bir çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Hazırda təqaüdçüdür.



Cəfərov
Ələmşah
Mədət oğlu

1941-ci ilin dekabrında Kəlbəcər rayonunun Qaramanlı kəndində anadan olmuşdur. 1959-1964-cü illərdə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində ali təhsil almış, 1969-1972-ci illərdə S.Ə. Dadaşov adına TMETİ-da aspirant olmuş və dissertasiya müdafiə edərək texniki elmlər namizədi adını almışdır.

Ə.M. Cəfərov yarım əsrdən çoxdur ki, həyatını Azərbaycan tikinti kompleksinə bağlamışdır. İlk əmək fəaliyyətinə BBTİ-nin 3 nömrəli tikinti idarəsində fəhlə, dülgər kimi işə başlamışdır. Pillə-pillə vəzifəsi qalxmış, təcrübəsi artmış və istehsalat komandirləri sırasına çıxmışdır. 16 nömrəli tikinti idarəsində rəis, "Azərbaşmelosutikinti" sistemində 2 nömrəli TQİ-nin rəisi, BBTİ-də texniki şöbənin rəisi, 8 nömrəli DBM zavodunda baş mühəndis və nəhayət, BBTİ-nin Sənayeləşdirilmiş Evtikmə İstehsalat Birliyinin 1 nömrəli Evtikmə Kombinatında direktor olmuşdur. O, bu vəzifəyə 1988-ci ildə seçki yolu ilə seçilmiş və uzun müddət – BBTİ-nin son günlərinəcən bu vəzifədə çalışmışdır.

Ə.M. Cəfərov 2003-cü ildən həmin zavodun bazasında təşkil olunmuş "Bakı İnşaat-1" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyyətinin sədridir.


Ə.M. Cəfərov işlədiyi müddətdə yüzlərlə yaşayış evlərinə, sosial-mədəni obyektlərə, göydələnlərə avtoqraf vermişdir. Əhmədli qəsəbəsi, Yeni Günəşlidə "A", "B", "V", "Q" massivləri, Hövsanda yeni mikrorayonun, Yeni Yasamal-1, Yeni Yasamal-2 yaşayış massivləri, qaçqınlar üçün Yaşma və Sitalçaydakı yeni qəsəbələr, "Moskva" mehmanxanası, Azərbaycan Dövlət Universiteti, Elmlər Akademiyasının kompleksləri, Azərbaycan Geologiya Komitəsinin inzibati binası, Abşeron rayonunda Mədəniyyət evi və bir sıra digər obyektlərə onun alın təri hopmuşdur.

Ə.M. Cəfərovun inşaat yönümündəki böyük və şərəfli fəaliyyəti dövlət və hökumət tərəfindən yetərincə qiymətləndirilmişdir. O, Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1991-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. 1992-ci ildə isə ona respublikanın "Əməkdar inşaatçısı" fəxri adı verilmişdir. O, İnşaat Kompleksi İşçilərinin Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin "Fəxri fərman"ına da layiq görülmüşdür. Inşaat Mühəndisləri Universitetinin müəllimi olmaqla yanaşı ixtisası üzrə dəfələrlə dövlət imtahan komissiyasının sədri olmuşdur. Bir alim kimi 50-dən çox elmi məqalənin və monoqrafiyanın müəllifidir. 20 ildən çoxdur ki, "İnşaatçı" qəzetinin redaksiya heyətinin üzvüdür. O, həm də "Vətən" və "İnam" fəxri diplomlarının sahibi, Hacı Zeynəlabdin Tağıyev mükafatı laureatıdır.





1. "Moskva" mehmanxanası. **2.** Bakı Dövlət Üniversitetinin yeni tədris korpusu



Cəfərov
Sədafər
Cəfər oğlu

6 oktyabr 1953-cü ildə Saatlı rayonundakı Mustafabəyli kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1971-ci ildə Saatlı şəhərindəki S.Vurğun adına orta məktəbi bitirib və elə həmin ildə də Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinin avtomobil nəqliyyatı şöbəsinə (axşam şöbəsi) qəbul olunmuş və oranı uğurla başa vurmuşdur.

S.Ə. Cəfərov Bakı metrosunun tikintisində çilingər kimi əmək fəaliyyətinə başlamışdır (1972-ci il). 1976-1978-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1978-1981-ci illərdə Kənd Tikintisi Nazirliyinin Xırdalandakı 4 nömrəli İTDİ-nin rəisi kimi fəaliyyət göstərmişdir. 1981-1992-ci illərdə Azərbaycan SSR Meyvə-Tərəvəz Sənayesi Nazirliyinin "Sovxoztikinti" trestinin 2 nömrəli İTDİ-nin rəisi işləmişdir.

S.Ə. Cəfərov 1982-1994-cü illərdə "Dizayn" istehsalat birliyində, sonrakı illərdə Nəqliyyat Nazirliyinin 4 nömrəli avtobazasında məsul vəzifələrdə işləmişdir (1996-1999-cu illər).

S.Ə. Cəfərov hazırda "Azərsu" Səhmdar Cəmiyyətində Bakı Kanalizasiya Xidməti İdarəsinin Hövsandakı bölməsində mexaniki təmir sexinin rəisidir.

Azərbaycan tikinti kompleksində S.Ə. Cəfərovun böyük əməyi olmuşdur. Kənd Tikintisi Nazirliyinin Bakıdakı 9 mərtəbəli labaratoriya binasında, respublikanın müxtəlif bölgələrində tikilmiş 24 şərab zavodunda, 6 mexanikləşdirilmiş tövlədə, 18 uşaq bağçasında, 14 məktəb binasında, 4 inzibati binada, 2 dəyirman kombinatında, 4 mehmanxana binasında, 150 min kv. metrdən çox yaşayış evlərində, 14 klubda və s. obyektlərdə əl izləri var. O, çalışdığı idarələrin ictimai işlərində fəal iştirak etmiş, bir neçə səmərəli təkliflər irəli sürmüş və respublikada yeganə olan Bakı Qatran-Tara fabrikinin tikintisində fəallıq göstərmişdir.

D



Dərgahov
Vahid
Lətif oğlu

24 oktyabr 1932-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunu bitirərək dağ mühəndisi ixtisasına yiyələnmişdir. 1964-cü ildə isə Moskva Ali Həmkarlar İttifaqı Məktəbini dövlət və mülki hüquq ixtisası üzrə bitirmişdir.

V.L. Dərgahov əmək fəaliyyətinə erkən yaşlarından başlamışdır. Yeniyetmə çağlarında "Lənbəran" kolxozunda sıravi kolxozçu kimi, sonralar isə Artyom adasında və Qaradağ rayonunda fəhlə kimi işləmişdir. Bacarıq və işgüzarlığı sayəsində Hacıqabul və Dəvəçi rayonlarında mühəndis vəzifəsinə yüksəlmişdir.

V.L. Dərgahovun işgüzarlığını və qabiliyyətini nəzərə alaraq onu AHİŞ sisteminə dəvət etmişlər. Əvvəlcə Şuşanın Turşsu qəsəbəsində ekspedisiya rəisi, sonra isə AHİS-in Kurortlar İdarəsində böyük mühəndis vəzifəsində çalışmışdır.

O, yarım əsrə yaxındır ki, İnşaat Kompleksi İşçilərinin Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsində idarə rəisi vəzifəsində işləyir, müstəqil respublikamızın daha da inkişaf etdirilməsində əmək sərf edir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu


SSRİ Kənd Təsərrüfatı Nazirliyinin 24.04.1981-ci il tarixli 135 saylı və "Başkəndtikintilayihə"nin 07.05.1981-ci il 31 nömrəli əmrlərinə əsasən "Azərdövlətkəndtikintilayihə" "Mərkəzi Birtipli və Eksperimentallayihə" adlandırılmışdır. SSRİ Dövlətaqrarsənayelayihənin 18.12.1986-cı il tarixli 763 nömrəli əmrinə əsasən "Mərkəzi Birtipli və Eksperimentallayihə" adı dəyişdirilərək "Cənubaqrarsənayelayihə" adlandırılıb. Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin 18.03. 1998-ci il tarixli 16 nömrəli əmrinə əsasən DBLİ "Azərdövlətaqrarsənayelayihə"nin adı dəyişdirilərək "Azəraqrarsukanallayihə" DBL İnstitutu olmuşdur. Dövlət Tikinti və Arxitektura Komitəsinin 15.12. 2005-ci il tarixli 180 saylı əmri ilə "Azəraqrarsukanallayihə" DBLİ-nin adı dəyişdirilərək "Azərmemarlayihə" DBLİ olmuşdur.

2005-ci ildən bu günə kimi instituta Əhmədov Bəkir Məmmədəli oğlu rəhbərlik edir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Bakı Dövlət Layihə İnstitutu

Bakı Dövlət Layihə İnstitutu 1937-ci ildən fəaliyyət göstərir. Böyük Vətən Müharibəsi illərindən sonra 1950-1960-cı illərdə "Bakıproyekt" adlı layihə kontoru kimi, 1960-cı ildən sonra isə Bakı Dövlət Layihə İnstitutu kimi 70 ildən artıqdır ki, fəaliyyəti Azərbaycan milli memarlığında bütöv bir mərhələni təşkil edir. Bakı Dövlət Layihə İnstitutunun yüksəliş illəri bu instituta 24 il ərzində yüksək peşəkarlıqla rəhbərlik etmiş respublikanın "Əməkdar mühəndisi" və "Əməkdar memarı" Abbas Abbas oğlu Ələsgərovun adı ilə sıx bağlıdır. Ötən illər ərzində Abbas müəllimin rəhbərliyi altında institut Bakı şəhərində çox dəyərli və möhtəşəm memarlıq incilərinin layihələrini hazırlayıb və onlar bu gün də Bakının simasını gözəlləşdirir. Bu kollektiv 1986-2005-ci illər üzrə Bakı şəhərinin Baş Planını məharətlə işləyib hazırlamışdır. Cəsarətlə demək olar ki, Azərbaycan milli memarlığının inkişafında institut kollektivinin çox dəyərli rolu və zəhməti olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 9 oktyabr 2007-ci il tarixli Sərəncamı ilə Azərbaycan memarlığının inkişfındakı xidmətlərinə görə Bakı Dövlət Layihə İnstitutunun əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilmişdir. O cümlədən – Ələsgərov Abbas Abbas oğluna, Babayeva Ofelya Musa qızına, Quliyev Feyzulla Ağasəfər oğluna və Məmmədov Zülfiqar Əli oğluna "Azərbycan Respublikasının Əməkdar memarı", Ağayeva Fəridə Hüseynbala qızına, Həsənov Vahid Hüseyn oğluna və Nazarov Sabir Nazaroviçə Azərbaycan Respublikasının Əməkdar mühəndisi", Heybətov Ağalar Sultan oğluna "Şöhrət ordeni", Qoncarova Nina Vasilyevna və Qurbanova Kamilə Cəfər qızına isə"Tərəqqi" medalı verilmişdir.

2008-ci ilin fevralından instituta respublikanın Əməkdar Memarı İlqar Aydın oğlu İsbatov rəhbərlik edir. Bu gün onun rəhbərliyi altında institutun kollektivi Böyük Bakının Regional İnkişaf Planını uğurla həyata keçirməkdədir.



Bakı Dövlət Layihə İnstitutunun layihələri

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu (AzİMETİ)

1972-ci ildə AzİMETİ yaranana qədər tikintidə elmi-tədqiqat işləri aparmaq üçün SSRİ Dövlət Tikinti Komitəsinin qərarlarına əsasən respublikada aşağıda göstərildiyi kimi bir neçə laboratoriya və şöbələr yaradılmışdır. Belə ki, 1. 1972-1984-cü illərdə Zakavkaziya Zonal Elmi-Tədqiqat və Layihə İnstitutunun (TbilZNİİGP) Bakı bölməsi. 2. 1978-1984-cü illərdə SSRİ Dövlət Tikinti Komitəsinin V.A.Kuçerenko adına İnşaat Konstruksiyaları Mərkəzi Elmi-Tədqiqat İnstitutunun (ÜNİİSK im.Kuçerenko) "Zəlzələdavamlı tikintilər" laboratoriyası. 3. 1973-1984-cü illərdə SSRİ Dövlət Tikinti Komitəsinin Beton və Dəmirbeton Elmi-Tədqiqat İnstitutunun (NİİJB) "Yerli materiallardan dəmirbeton" Bakı laboratoriyası. 4. 1976-1984-cü illərdə SSRİ Dövlət Tikinti Komitəsinin Mərkəzi Elmi-Tədqiqat İnstitutunun (ÜNİİOMTP) Tətbiq bürosunun Azərbaycan şöbəsi. 5. Eyni zamanda Bakı şəhərində SSRİ Dövlət Tikinti Komitəsinin tikintidə Əmək Umumittifaq Elmi Layihə İnstitutunun Zakavkaziya Kompleks şöbəsi yaradılmış və bu şöbə 1976-1984-cü illərdə fəaliyyət göstərmişdir. 6. 1984-cü ildə yuxarıda adı çəkilən təşkilatlar birləşdirilərək Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin tabeçiliyində Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu (AzİMETİ) yaradılmışdır.

2005-ci ildə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi ləğv edildikdən sonra AzİMETİ Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeçiliyinə keçmişdir. Sovet İttifaqı dağıldıqdan sonra institutun qarşısında duran məsələlərin istiqamətləri xeyli artmışdır. İnstitut yalnız xüsusi və ekstremal şəraitlə əlaqədar deyil, memarlıq və tikinti sahəsində də bütün elmi problemlərlə məşğul olmağa başlamışdır.

Hal-hazırda Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu mövcud bina və qurğuların texniki vəziyyətinin müayinəsi, onların bərpası və gücləndirilməsi üçün təkliflərin işlənməsi məsələləri üzrə aparıcı təşkilat kimi fəaliyyət göstərir.

Binaların müasir memarlığı və konstruksiyaları sahəsində AzİMETİ Azərbaycan Respublikasında yeganə elmi-tədqiqat təşkilatıdır. İnstitutun tərkibində Elmi Şura fəaliyyət göstərir. Ötən dövr ərzində institutun əməkdaşları tərəfindən 2 doktorluq, 10-a yaxın namizədlik dissertasiyaları müdafiə edilmişdir. İnstitutun gördüyü işlərdən inşaat konstruksiyaları sahəsində binaların zəlzələyə davamlığının və dayanıqlığının artırılması, onların təhlükəsizliyinin və uzunömürlüyünün təmin edilməsi, yüksək mərtəbəli karkas binaların seysmik dayanıqlığının və onların layihələndirilməsi və tikintisi üçün normativ tələblərin xüsusiyyətlərinə dair tədqiqatların aparılmasını göstərmək olar. Bina və qurğuların texniki vəziyyətinin müayinəsinə görə respublikada aparıcı təşkilat kimi institut yüzlərlə müxtəlif tipli, müxtəlif konstruksiyalı binaların və qurğuların texniki vəziyyətini öyrənmiş, gücləndirilməsi üçün praktiki təkliflər hazırlanmışdır. Belə ki, Heydər Əliyev adına Respublika Sarayı, Azərbaycan Dövlət Filarmoniyası, Nizami adına kinoteatr, Gənc Tamaşaçılar teatrı, Rus dram teatrı, Z.Əliyeva adına Respublika Oftolmologiya kompleksi, Milli Elmlər Akademiyası və s. göstərmək olar.

E



Eldarov
Novruz
Eldar oğlu

20 yanvar 1960-cı ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

O, orta məktəbi bitirdikdən sonra 1977-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinə qəbul olunmuş və 1985-ci ildə institutu müvəffəq qiymətlərlə bitirib memar ixtisasına yiyələnmişdir.

N.E. Eldarov ilk əmək fəaliyyətinə "Azkommunlayihə" İnstitutunun Elmi Konstruktor - Layihə Laboratoriyasında texnik kimi başlamış və 1977-1984-cü illərdə burada çalışmışdır.

Novruz Eldarov sonrakı illərdə Bakı Baş Tikinti İdarəsinin Layihə Konstruktor – Texnoloji Bürosunda sektor rəhbəri (1984 – 1987-ci illər), "Yeyintisənayelayihə" DLİ-də şöbənin baş mütəxəssisi (1987-1991-ci illər), "TEKTON" şirkətində Layihənin Baş Mühəndisi (1992-1993-cü illər), BEMZ "Azəlektromaş" Elmi-İstehsalat Birliyində təsərrüfat müdiri (1993 – 1999-cu illər) vəzifələrində çalışmışdır.

N.E. Eldarov 1999-cu ildə "ENEL" firmasını yaratmış və həmin vaxtdan firmanın təsisçisi və müdiridir.


O, 2009-cu ildə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin "Böyük Bakının Regional İnkişaf Planı" Layihənin İcra Qrupunun rəhbəri vəzifəsinə təyin olunmuş və bu vəzifəni vicdanla icra etmişdir.

Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən və Azərbaycanın iqtisadi inkişafına böyük töhfə verəcək bu mühüm layihə Bakı şəhərinin tarixində altıncı inkişaf planı, müstəqil Azərbaycanın tarixində isə birincidir. Təklif olunan yeni konseptual sxem Böyük Bakının ərazisində şəhərsalmanın yüksək səviyyədə idarə olunmasına xidmət edəcəkdir.


"Böyük Bakının Regional İnkişaf Planı"na paytaxtın 11 rayonu ilə birlikdə Sumqayıt və Xırdalan şəhərləri daxildir. Layihələndirilən ərazinin ümumi sahəsi 260 min hektar təşkil edir.


N.E. Eldarov bir memar olaraq son 20 il ərzində çoxlu sayda sosial yönümlü infrastruktur obyektlərinin layihələrini hazırlamış və onların böyük əksəriyyəti həyata vəsiqə almışdır. Onun layihəsi ilə istifadəyə verilmiş obyektlər respublikamızın paytaxtında və bölgələrimizdə tikilmiş və xalqın istifadəsinə verilmişdir.

Bunlardan 32 şəhər villa, 18 yaşayış interyer, 12 qeyri-yaşayış interyer layihələri (1993 – 1998), Mercedes-Benz şirkətinin Bakı şəhərində avtomobil satış mərkəzi (1998) , Kürdəmir rayonunun Muradxan kəndində Cümə məscidinin binası (1999), Naxçıvan şəhərində Olimpiya İdman Kompleksi (1999-2002), Bakı şəhərində Milli Olimpiya Komitəsinin inzibati binası (2000 - 2001), Bakı şəhərində "YURDUM" çoxmərtəbəli yaşayış kompleksi (2004-2006) və digər çoxlu sayda layihələr Novruz Eldarovun yaradıcılıq axtarışlarının nəticəsidir.













1. Bakıda "Yurdum" yaşayış kompleksi. **2.** Bakıda, "Sahil" metro st. üstündə ticarət və iş mərkəzi. **3.** İran İslam Respublikası üçün yeni şəhər layihəsi. **4.** Gəncə Avtozavod. **5.** Bakıda yeni restoran.







1. Bakıda "Lider TV" üçün inzibati bina. **2.** Azərbaycan Milli Olimpiya Komitəsi. **3.** Məscid. **4-5.** Ankara, Hotel kompleksi. **6.** Aktau şəhərində Ticarət və əyləncə kompleksi. **7.** Təbriz şəhərində y/evi.

Həmçinin Aktau şəhərində Ticarət və əyləncə kompleksi, Ankarada Hotel kompleksi, Bakıda əski Sovet binasının rekonstruksiyası, Bakıda LİDER TV üçün inzibati bina, Bakıda ticarət və iş mərkəzi, "Sahil" metro stansiyasının üstündə ticarət və iş mərkəzi, İran İslam Respublikası üçün yeni Şəhər layihəsi, Qroznı şəhərində Məscid layihəsi, Təbriz şəhərində yaşayış evi və digər layihələr də Novruz Eldarovundur.

Müasir Azərbaycan memarlığının tanınmış simalarından olan Novruz Eldarovun ölkənin şəhərsalma-layihələndirmə yönümündəki çoxşaxəli uğurlu fəaliyyəti bir sıra yüksək mükafatlara layiq görülmüşdür. Belə ki, o, 2001-ci ildə "HUMAY" Azərbaycan Milli mükafatına, 2003-cü ildə Beynəlxalq Memarlar Assosiasiyasının Diplomuna (Tiflis), 2004-cü ildə Azərbaycan Memarlıq Mükafatına (Bakı), 2007-ci ildə Beynəlxalq LİDER KLUBU tikinti mükafatına (Madrid), 2008 –ci ildə isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Diplomu ilə mükafatlandırılmışdır.

N.E. Eldarov ailəlidir, iki oğlu var.



Eyyubov
Şaiq
Veyis oğlu

1942-ci ildə Ağstafa şəhərində anadan olmuşdur. 1959-cu ildə orta məktəbi gümüş medalla bitirmişdir. 1964-cü ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini əla qiymətlərlə başa vurub təyinatla Sənaye Tikintisi Nazirliyinə, oradan da Sumqayıta göndərilmişdir.

Ş.V. Eyubov Sumqayıt tikintilərində iş ustası, iş icraçısı, sahə rəisi, baş mühəndis, idarə rəisi, trestin baş mühəndisi və müdiri vəzifələrində işləmişdir. 1974-1978-ci illərdə Kimya Sənaye İstismar Birliyində (indiki Azərkimya Dövlət Şirkətində) baş direktorun tikinti üzrə müavini, 1978-1985-ci illərdə Sənaye Tikintisi Nazirinin müavini, 1985-ci ildən 1989-cu ilədək "Azərsənayetikinti" nazirinin 1-ci müavini vəzifəsində fəaliyyət göstərmişdir.

Ş.V. Eyubov 1989-1993-cü illərdə Azərbaycan SSR Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır. O, 1993-cü ildə yeni yaradılmış "Azərsənayetikinti" Dövlət Şİrkətinin Prezidenti təsdiq olunmuş və bu vəzifədə 1999-cu ilədək işləmişdir. 1999-cu ildən "Azərtunelmetrotikinti" ASC-də sədr müavini vəzifəsində çalışır.

Ş.V. Eyubov Bakının və Sumqayıtın ən iri sənaye müəssisələrinin - neft və maşınqayırma, kimya sənayesi müəssisələrinin tikintisində, yenidən qurulmasında və bərpasında fəal iştirak etmiş, Sumqayıtda ucaldılan 10-a yaxın zavodun tikintisinə, Bakıdakı teleqüllənin, Sanqaçal neft terminalının 1-ci növbəsinin, şimal neft kəmərinin (Bakı-Novorosiysk) kompleksinə daxil olan Siyəzən nasos stansiyası və Qalaaltı radiorels ötürücü stansiyasının, Şirvanovka sayğaclar stansiyası kimi çox vacib obyektlərin tikintisinə bilavasitə rəhbərlik etmiş, respublikanın paytaxtında və əksər rayonlarında tikilən sosial-mədəni obyektlərdə və eləcə də Neftçala yod zavodu, Yevlax yun zavodu, Şəki ipək kombinatı, Dağlıq Qarabağ və Naxçı-

vanda bir neçə nəhəng müəssisənin inşasında əl izləri qoymuş, Çernobıl qəzasının aradan qaldırılması üzrə respublika inşaatçılar dəstəsinə rəhbərlik edərək Slavutiç şəhərində "Bakı" mikrorayonunun salınmasında sanballı işlər görmüşdür. Kür su kəmərinin çəkilməsində, çirkab suların təmizlənməsi qurğularının tikintisində, təbii fəlakətlərdən zərər çəkmiş rayonlarda faciələrin aradan qaldırılmasında əl izləri vardır.

Ş.V. Eyubov respublikanın tikinti kompleksinin inkişafında və elmi texniki nailiyyətlərin tətbiqi sahəsində xidmətlərinə görə Azərbaycan Elmi Tədqiqat İnşaat və Memarlıq İnstitutunun "Fəxri doktoru" adına layiq görülmüşdür.

Ş.V. Eyubov tikinti kompleksindəki səmərəli fəaliyyətinə və qazandığı uğurlara görə respublikanın "Əməkdar İnşaatçısı" fəxri adına layiq görülmüş və "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur.

Ş.V. Eyubov 1999-cu ilin oktyabrından "Azərtunelmetroikinti" ASC-də sədr müavini vəzifəsində çalışır və öz zəngin təcrübəsini metro tikintisinin inkişafında sərf edir.





1. Şəki ipək kombinatı. 2. Teleqüllə.

Ə



Əbdülrəhimov Ələvsət İbrahim oğlu

1912-ci ildə Salyan rayonunda anadan olmuşdur. Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (AZİİ) bitirdikdən sonra 1934-cü ildə Bakının neft mədənlərində əmək fəaliyyətinə başlamışdır. 1940-1942-ci illərdə Neft mədənləri və Neftayırma zavodlarının layihələndirilməsi üzrə trestin müdiri, 1942-1949-cu illərdə "Azneftzavodtikinti" Trestinin müdiri vəzifələrində işləmişdir. 1949-cu ildə Azneft Birliyinin rəisi vəzifəsində, 1949-cu ilin birinci yarısından 1952-ci ilin birinci yarısına qədər Azneft Birliyinin rəis müavini vəzifəsində çalışmışdır.

1952-1953-cü illər Gəncə Vilayət İcraiyyə Komitəsi sədrinin birinci müavini, 1953-1956-cı ilin birinci yarısına qədər Bakı şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsində işləmişdir. 1956-1961-ci illərdə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının Tikinti Trestinə rəhbərlik etmişdir.

Ə.İ.Əbdülrəhimov 1961-1986-cı illərdə "Bakıtunetikinti" İdarəsinə başçılıq etmişdir.

1952-ci ildə "SSRİ Dövlət mükafatı laureatı", 1960-cı ildə "Azərbaycan SSR Əməkdar İnşaatçısı", 1968-ci ildə "Lenin Ordeni", 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1982-ci ildə SSRİ-nin "Fəxri nəqliyyat tikintisi işçisi" fəxri adlarına layiq görülmüşdür.

Ə.İ. Əbdülrəhimovun keçdiyi ömür yolunu ardıcıllıqla vərəqlədikdə onun Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi misilsiz xidmətləri, insani fədakarlıqları ilə baş-başa qalırıq.

1949-1952-ci illərdə neft yataqlarının istismarının yeni metodlarının işlənib həyata keçirilməsində böyük əməyi olmuşdur.

1961-ci ilin aprel ayından o, həyatını Bakı Metropoliteninin tikintisinə bağlamış və 25 il ərzində "Bakıtuneltikinti" İdarəsinə başçılıq etmişdir.

Belə ki, "Bakı Soveti", "Sahil", "28 may", "Xətai" "Gənclik", "Nərimanov","Nizami", "Ulduz", "Əzizbəyov", "Q.Qarayev", "Neftçilər" "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar" və "Memar Əcəmi" metro stansiyaları, çoxlu sayda yeraltı keçidlər, tunellər və digər dövlət əhəmiyyətli obyektlər Ələvsət Əbdülrəhimo-

vun gərgin əməyi, təşkilatçılığı və rəhbərliyi altında istifadəyə verilmişdir.

Ə.İ. Əbdülrəhimov Bakı Metropoliteninin tikintisinə rəhbərlik etdiyi 25 il ərzində öz məktəbini yaratdı. Və onun rəhbərliyi altında metro tikintisi inşaatçılarının yeni bir nəsli yetişdi. O nəslin nümayəndələri-Əlövsət Əbdülrəhimov məktəbinin məzunları neçə illər onunla çiyin-çiyinə metro tikintisində yeni səhifələr açdılar. Və bu məktəbin yetirmələri ondan sonrakı zaman içərisində də Bakı metro tikintisinin yeni tarixini yazdılar və bu gün də yazmaqda davam edirlər.

Ə.İ. Əbdülrəhimov metro tikintisində elə bir məbəd yaradıb ki, aradan əsrlər ötsə belə, metro tikintisi davam etdikcə onun adı bütün zamanlarda hörmətlə xatırlanacaqdır. Çünki, ömrünün ən məhsuldar 25 ilini o, metro tikintisinə həsr edib və iz qoyub, tarix yazıb.

Tanıyanlar deyir ki, Əlövsət müəllim işçilərinin yanında özünü hər zaman onlarla eyni səviyyədə aparmağa çalışıb, ünsiyyətdə olduğu insanların qəlbinə, ürəyinə yol tapıb. Heç də təsadüfi deyil ki, işçilər onun yanına gələndə özlərini tam sərbəst aparır və istədikləri arzularını ona çatdırırdılar.

Bakı Metropoliteninin tikintisində müstəsna xidmətləri olan Əlövsət Əbdülrəhimov harada işləməsindən asılı olmayaraq öz əməlləriylə böyük iz buraxmışdır.

Ə.İ. Əbdülrəhimov dövlət qarşısında xidmətlərinə görə hökumət tərəfindən çoxlu sayda fəxri adlarla və digər orden və medallarla təltif olunmuşdur. Yuxarıda qeyd edilən fəxri adlardan









1. "28 May" stansiyası 2. "Sahil" stansiyası. 3. "Gənclik" stansiyası. 4. "İçərişəhər" stansiyası

əlavə Əlövsət müəllim 1942-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1944-cü ildə "Şərəf nişanı" ordeni, Qafqazın müdafiəsinə görə medalı, 1945-ci ildə "Əmək rəşadətinə görə" medalı, 1946-cı ildə "Şərəf nişanı" ordeni, 1952-ci ildə "Rəşadətli əməyə görə" medalı, 1972 və 1982-ci illərdə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir.

Ə.İ. Əbdülrəhimov beş çağırış Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. "Azərtunelmetrotikinti" Dövlət Şirkətinin 29 iyul 1996-cı il tarixli müraciətinə əsasən, Bakı şəhər İcra Hakimiyyətinin 29 avqust 1996-cı il tarixli sərəncamı ilə Bakı şəhərinin Nərimanov rayonundakı küçələrdən birinə Ə.İ. Əbdülrəhimovun adı verilmişdir. Onun yaşadığı binada (T.Əliyarbəyov küç. 3) xatirə lövhəsi vurulmuşdur.

O, gözəl insan idi, əsil xalq adamı idi. O, bütün ömrü və fəaliyyəti ilə hər zaman Azərbaycan xalqına və dövlətinə başucalığı gətirdi.

Aradan illər keçsə də, Əlövsət müəllimin xatirəsi onu tanıyan insanların, xalqın ürəyindədir, hər zaman xatırlanır, yada düşür.

O, elə bir işıqlı ömür yaşadı ki, heç zaman yaddaşlardan getmir.



Əfəndiyev
Şaiq
Kərim oğlu

1936-cı ildə anadan olub. 1960-cı ilə Bakı Dövlət Universitetini "Dağ mühəndisi" ixtisası üzrə bitirərək SSRİ Nəqliyyat Tikintisi Nazirliyinin "Bakıtuneltikinti" İdarəsinə təyinatla işləməyə göndərilmişdir. Əmək fəaliyyətinə fəhləlikdən başlayaraq sonralar növbə rəisi, sahə rəisi, istehsal-texniki şöbənin rəisi, Tunel Tikinti İdarəsinin baş mühəndisi və rəisi vəzifələrində çalışmışdır.

1980-1983-cü illərdə Kuba Respublikasında Sovet mütəxəssisləri qrupunun rəhbəri, baş müşavir vəzifələrində işləmişdir. Xaricdə işlədiyi zamanlar onun təşkilatçılıq qabiliyyəti və savadlı mühəndis olması Kubanın rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Xarici xidməti ezamiyyətdən qayıtdıqdan sonra o, öz əmək fəaliyyətini tunellərin, metropolitenlərin və xüsusi yeraltı qurğuların tikintisi sahəsində davam etdirmiş, 1987-ci ildən metro inşaatı baş idarəsinin rəhbəri, 1998-ci ildən "Azərtunelmetrotikinti" ASC-nin sədridir.

Ş.K. Əfəndiyevə 1987-ci ildə "SSRİ Fəxri nəqliyyat inşaatçısı", 1989-cu ildə "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adı verilmiş, 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə metro tikintisindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ş.K. Əfəndiyev 1991-ci ildən Azərbaycan Tunelçilər Birliyinin sədridir. Keçmiş SSRİ Nəqliyyat Nazirliyinin, hal-hazırda Rusiya Federasiyasının "Nəqliyyattikinti" Korporasiyasının İdarəetmə Şurasının üzvüdür, ingilis və rus dillərində nəşr olunan "Dünyanın yeraltı fəzaları" və "Metro" elmi-texniki jurnallarının redaksiya kollegiyasının üzvü, metropoliten və müxtəlif təyinatlı yeraltı qurğuları haqqında əlliyə yaxın elmi-texniki məqalələrin müəllifidir. 2000-ci ilin iyun ayından "Azər-Misir İnvest" Birgə Müəssisəsinin İdarə Heyətinin sədridir. Kuba, Türkiyə, İran, Al-

maniya, Fransa, İspaniya, İtaliya, Çexoslovakiya, Misir və sair ölkələrdə xidməti ezamiyyətlərdə olmuşdur.

Ailəlidir, iki övladı var.

Şaiq Əfəndiyev ziyalı ailəsində anadan olmuşdur. Ali təhsilini başa vurduqdan sonra təyinatla "Bakımetrotikinti" İdarəsinə göndəriləndə isə burda çox gözəl insanlarla rastlaşıb, yaradıcı bir mühitə düşüb. Bu da Şaiq müəllim üçün böyük məktəb olmuşdur.

Şaiq müəllim korifey mühəndis Əlövsət Əbdülrəhimovun məktəbini keçmiş, yüksək idarəçilik qabiliyyətinə malik peşəkar mütəxəssis, inşaatçı, böyük hörmətə malik ağsaqqal, zəhmətkeş insandır.

Metro inşaatının son 25 ildəki bütün uğurları Şaiq Kərim oğlunun adı ilə bağlıdır. Bu onilliklərdə həmçinin Şaiq Əfəndiyevin rəhbərliyi altında metro tikintisində bacarıqlı metro inşaatçıları nəsli yetişib.











1. "Memar Əcəmi" stansiyası. **2.** "Həzi Aslanov" stansiyası. **3.** "Azadlıq prospekti" stansiyası. **4.** "Nəsimi" stansiyası. 5. "Dərnəgül" stansiyası

Şaiq Əfəndiyev 1960-cı ildən metro tikintisindədir. Bu 50 ildə Ş.K.Əfəndiyev Bakı Metropoliteninin bu günkü səviyyəyə çatdırılmasında gərgin əmək sərf etmişdir. Bu gün "Azərtunelmetrotikinti" Açıq Səhmdar Cəmiyyətinin strukturuna daxil olan bütün tabe təşkilatlarda Şaiq müəllimin inşaat məktəbini keçmiş mütəxəssislər rəhbər vəzifələrdədir və onlar öz böyük müəllimləri ilə çiyin-çiyinə Bakı Metropoliteninin tikintisini həyata keçirirlər.

Şaiq Kərim oğlu bacarıqlı və yüksək təşkilatçılıq qabiliyyətinə malik mütəxəsis, sözün əsl mənasında ağsaqqaldır.

O, həmişə Bakıda sütunsuz metro stansiyasının tikintisni arzulayıb. "Azadlıq prospekti"nin tikilməsilə onun bu arzusu reallaşdı. O həmişə arzu edib ki, Bakı Metropoliteni xətlərinin dairəsi birləşsin, bütün Bakı şəhəri metro stansiyaları ilə əhatə olunsun. Artıq bu arzuları da həyata keçmək məqamındadır. Bakı Metropoliteninin yeni perspektiv inkişaf proqramının hazırlanması və qəbul olunması, eləcə də operativ şəkildə proqramın icrasına start verilməsi –"Dərnəgül" stansiyasının tikiilib istifqdəyə verilməsi, "Əcəmi- ll", "Avtovağzal" stansiyalarının tikintisinə başlanılması bu arzuların həyata keçməsinə doğru atılan addımlardır.

Metro tikintisini peşəkar səviyyədə bilən, sahənin bütün problemlərini asanlıqla həll etməyə qadir olan bu təcrübəli metro inşaatçısı, respublikanın əməkdar mühəndisi Şaiq Kərim oğlu həm də insan qəlbinin mühəndisidir, hərtərəfli biliyə malik mütaliəli və ziyalı insandır.

Şaiq Əfəndiyev o xoşbəxt insanlardandır ki, o hələ cavan kadr kimi metro tikintisində ilk qədəmlərini atdığı vaxtlardan taleyin hökmü ilə Azərbaycan xalqının böyük oğlu, Ümummilli lider Heydər Əliyevlə dəfələrlə təmasda olmaq və böyük Azərbaycan oğlunun diqqətində olmaq qismət olmuşdur. Və son nəticədə Şaiq müəllimin ölkə tikinti kompleksindəki bütün yüksəlişi də məhz Heydər Əlirza oğlunun xeyir-duası ilə olmuşdur.

Bu kollektiv, "Azərtunelmetrotikinti" ASC Şaiq müəllimin həyatının mənasıdır. Baxmayaraq ki, 50 ildir tikintidədir, bir insan kimi, təcrübəli rəhbər kimi böyük inşaat yolu keçib və həyatını bu kollektivə həsr edib, bu gün də işə əvvəlki həvəslə gəlir. Və işindən də zövq alır.

Şaiq müəllim bu gün çox nikbindir, optimistdir. Sabaha çox inamlıdır. Və söz düşəndə deyir ki, "Azərtunelmetrotikinti" ASC -nin strukturunun qorunub saxlanılmasına görə fəxr edir, qürur hissi keçirir.

MDB dövlətləri arasında "Azərtunelmetrotikinti" ASC -nin böyük nüfuzu, avtoriteti var. Və bu idarənin mütəxəssislərinə hər yerdə böyük hörmətlə yanaşırlar. "Azərtunelmetrotikinti" ASC-nin səriştəli mütəxəssisləri bu gün nəinki MDB ölkələrində işləyir, hətta onların çoxu digər inkişaf etmiş dünya ölkələrində də yüksək professionallıqla çalışır və Bakı metro tikintisi məktəbinin adına şərəf, başucalığı gətirirlər.

Perspektiv inkişaf proqramına uyğun olaraq Səhmdar Cəmiyyətin kollektivi Şaiq Əfəndiyevin rəhbərliyi altında yaxın illərdə metro tikintisinin tarixinə yeni səhifələr yazmaq əzmindədirlər.

Əfəndiyev
Siyasət
Haqqı oğlu

20 may 1937-ci ildə Ağdam rayonunun Boyəhmədli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1954-cü ildə kənd orta məktəbini, 1961-ci ildə Azərbaycan Politexnik İnstitutuu bitirmiş inşaatçı mühəndisdir. Təyinatla Sənaye Tikinti Nazirliyinin 4 nömrəli tikinti trestinin 21 nömrəli (sonralar 48 nömrəli) tikinti idarəsinə göndərilmişdir. 1961-1967-ci illərdə Bakının ən vacib tikinti meydançalarında – Bakı neftayırma zavodunun tikintisində inşaat ustası, iş icraçısı və s. vəzifələrdə işləmişdir.

S.H. Əfəndiyev 1967-ci ildən həyatını Sovet Ordusuna bağlanmışdır. Qazaxstanın Sempilatinsk vilayətində hərbi hissəsinin tikinti bölməsində, Çexoslavakiya Respublikasının hərbi tikinti idarəsində, Bakı və Gəncədəki hərbi hissələrdə, tikinti təşkilatlarında rəhbər işdə işləmiş, böyük hərbi bölgələrə rəhbərlik etmişdir.

S.H. Əfəndiyev polkovnik rütbəsində ehtiyata çıxsa da, Azərbaycan Müdafiə Nazirliyinin ən mühüm obyektlərinin tikintisinə rəhbərlik etmişdir. Dövlət mükafatlatlarına layiq görülmüş, çoxlu sayda fəxri fərmanlar almışdır.



Əhmədzadə
Əhməd
Cuma oğlu

1945-ci il yanvarın 7-də Azərbaycan Respublikasının Qax rayonunda anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, mühəndis-hidrotexnik ixtisasına yiyələnmişdir. 1978-ci ildə Sov.İKP yanında İctimai Elmlər Akademiyasını bitirmişdir. Əmək fəaliyyətinə 1961-ci ildə 11 nömrəli Bakı şəhər Tikinti İdarəsində fəhlə kimi başlamışdır.

Ə.C. Əhmədzadə 1966-cı ildə Azərbaycan Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda böyük mühəndis, 1967-ci ildən Qax Suvarma Sistemləri İdarəsində böyük mühəndis, 1967-1975-ci illərdə Qax Suvarma Sistemləri İdarəsinin rəisi, 1975-1976-cı illərdə Qax rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1978-1980-ci illərdə Abşeron Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1980-1987-ci illərdə Azərbaycan KP Füzuli RK-nın birinci katibi, 1987-1991-ci illərdə Azərbaycan KP Şamxor RK-nın birinci katibi, 1991-ci ildən Şəki Şəhər Partiya Komitəsinin birinci katibi, Şəki Rayon Xalq Deputatları Sovetinin sədri, 1991-1992-ci illərdə Quba Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində işləmişdir.

Ə.C. Əhmədzadə 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri, 2004-cü ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirinin birinci müavini, Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin baş direktoru və 2006-cı ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədridir. O, respublika Dövlət aqrar islahatı komissiyasının üzvü, Fövqəladə hallar üzrə dövlət komissiyasının sədr müavini olmuşdur. 1981-1996-cı illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olub.

Ə.C.Əhmədzadə bir sıra orden və medallarla təltif olunmuş, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanını almışdır. Müxtəlif vaxtlarda Amerika Birləşmiş Ştatlarında, Meksikada, Almaniyada, Fransada, Malaziyada, Türkiyədə, İranda, Kiprdə və sair ölkələrdə xidməti ezamiyyətdə olmuşdur.


Ailəlidir, 3 övladı, 6 nəvəsi vardır.

Ə. C. Əhmədzadə uzun müddət kənd rayonlarında rəhbər vəzifələrdə çalışmış, Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan kəndinin inkişafının həm iştirakçısı, həm də canlı şahidi olmuşdur.

İşlədiyi dövrlərdə Ə.C. Əhmədzadənin rəhbərlik etdiyi rayonların iqtisadiyyatının inkişaf etdirilməsində böyük əməyi olmuşdur. Həmin illərdə rayon mərkəzlərinin, kəndlərin siması başdan-başa dəyişmiş, geniş miqyaslı quruculuq işləri həyata keçirilmiş, yollar çəkilmiş, çoxlu sayda məktəb, xəstəxana, uşaq bağçası, mədəniyyət evi, klub, kitabxana, muzey, ticarət və digər sosial obyektlər tikilib istifadəyə verilmişdir.

Həmin dövrdə Ə.C. Əhmədzadənin rəhbərliyi və bilavasitə iştirakı ilə çoxlu sayda su təsərrüfatı obyektləri – Füzuli rayonunda Köndələnçay su anbarı, Qozluçay və Haramı nasos stansiyaları, Şəmkir rayonunda Şəmkir maşın kanalı, Şəmkir nasos stansiyası və digər obyektlər tikilib istifadəyə verilmişdir. Bunun nəticəsində ölkədə suvarılan torpaq sahələri xeyli genişlənmiş, kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır.

1988-ci ilin məlum hadisələri zamanı Şəmkir ra-




1. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi. **2.**Samur-Abşeron kanalı ilə Qudialçay kəsişməsi. **3.** Pirsaat su anbarı. **4.**Vəlvələçay-Taxtakörpü kanalı. Bu obyektlər Ə.C. Əhmədzadənin rəhbərliyi ilə həyata keçirilən çoxlu sayda su təsərrüfatı obyektlərindən bir neçəsidir.

yonunun Çardaxlar və digər kəndlərində Ermənistandan qovulmuş azərbaycanlı ailələrinin yerləşdirilməsində onun həyata keçirdiyi uzaqgörən və müdrik tədbirlər nəticəsində minlərlə insan əzab-əziyyətdən və məhv olmaq təhlükəsindən xilas olmuşdur.

Ə.C. Əhmədzadə 1993-cü ildən ölkə iqtisadiyyatının vacib və aparıcı sahələrindən biri olan meliorasiya və su təsərrüfatı sahəsinə rəhbərlik edir.

1993-2004-cü illərdə o, keçmiş Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin bazasında yaradılmış və ölkədə su təsərrüfatı sahəsində dövlət idarəetməsini həyata keçirən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri, 2004-2006-cı illərdə həmin Komitənin bazasında yaradılmış və onun səlahiyyətlərini həyata keçirən Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin baş direktoru, Kənd Təsərrüfatı nazirinin birinci müavini olmuş, 2006-cı ildən isə həmin Agentliyin əsasında yaradılmış Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədridir. Bu dövrdə



Naxçıvan MR-da Vayxır su anbarı

onun rəhbərlik və təşkilatçılıq qabiliyyəti, gərgin əməyi sayəsində respublikamızda mövcud meliorativ fondları nəinki qorunub saxlanıldı, onlardan daha səmərəli istifadə olunması yolları və sahənin inkişaf istiqamətləri müəyyənləşdirildi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatında, xüsusilə kənd təsərrüfatı sahəsində həyata keçirilən mühüm əhəmiyyətli islahatlarda Ə.C. Əhmədzadə yaxından iştirak etmişdir. Aqrar sahədə son illər həyata keçirilən köklü islahatlar bu sahənin inkişaf etməsinə, onun ziyanla işləyən bir sahədən aparıcı sahəyə çevrilməsinə şərait yaratmışdır.

Ə.C. Əhmədzadənin bilavasitə iştirakı ilə aqrar islahatlarla paralel meliorasiya və su təsərrüfatında da islahatlar aparıldı, sahənin qanunvericilik bazası yaradıldı, onun şəxsi təşəbbüsü və dəstəyi ilə "Meliorasiya və irriqasiya haqqında", "Azərbaycan Respublikasının Su Məcəlləsi" və "Hidrotexniki qurğuların təhlükəsizliyi" haqqında Qanunları, bunların əsasında onlarla normativ-hüquqi sənədlər hazırlanıb təsdiq edildi. Azərbaycanda ilk dəfə olaraq "Meliorasiya və irriqasiya sistemlərinin istismarı qaydaları" hazırlanaraq respublika Nazirlər Kabineti tərəfindən təsdiq edildi.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə meliorasiya və su təsərrüfatı sahəsinə xarici investisiyalar cəlb edilmiş və bu sahədə iri miqyaslı layihələrin həyata keçirilməsinə başlanmışdır.

Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin siyasi xəttini və ideyalarını layiqincə və müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyev cənabları tərəfindən iqtisadiyyatımızın bütün sahələrinə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsinə də daim böyük diqqət və qayğı göstərilir.

Prezident İlham Əliyevin meliorasiya və su təsərrüfatı sahəsinə daimi diqqəti sayəsində Ə.C. Əhmədzadənin bilavasitə rəhbərliyi ilə bir çox layihələr başa çatdırılmış, bir çox layihələr və tədbirlər isə hazırda uğurla həyata keçirilir.

Bunlardan respublika iqtisadiyyatı üçün ən vacib olan obyektlər, Baş Mil-Muğan kollektorunun, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminə daxil olan Xanarx kanalının tikintisi, Samur Abşeron kanalının baş qurğusunun və kanalın ilk 50 km hissəsinin yenidən qurulması işləri başa çatdırılmış, Ağcabədi rayonu ərazisində yerləşən Laçın qış otlaqlarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün ayrılmış torpaq sahələrinin və həyətyanı sahələrin su təchizatının yaxşılaşdırılması məqsədilə Qarqarçay çayı üzərində sugötürücü qurğu və kanal tikilib istifadəyə verilmiş, Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Selə qarşı tədbirlər" layihəsi çərçivəsində 2006-2008-ci illərdə respublikanın Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, İsmayıllı, Ağsu, Qusar və Astara rayonlarında yerləşən sel və daşqın təhlükəli çaylarında və Naxçıvan MR-ın Şərur rayonunda Araz çayında 34 km uzunluğunda sahilbərkitmə işləri yerinə yetirilmiş, Ağcabədi, Ağstafa, Ağdam, Bərdə, Beyləqan, Biləsuvar, Qəbələ, Tərtər, Yevlax, Şəmkir və bir çox digər rayonlarda meliorasiya işləri və su təminatının yaxşılaşdırılması tədbirləri həyata keçirilmiş, respublikanın rayonlarında yüzlərlə subartezian quyuları qazılaraq istifadəyə verilmişdir.

Həyata keçirilmiş tikinti, təmir-bərpa və istismar tədbirləri hesabına respublikamızda 100 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti və 95 min hektar ərazinin su təminatı yaxşılaşdırılmışdır ki, bu da ölkədə pambıqçılığın, taxılçılığın, üzümçülüyün və meyvə-tərəvəzçiliyin inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır.

Hazırda Ə.C. Əhmədzadənin rəhbərliyi ilə Pirsaat su anbarının yenidən qurulması, Tovuzçay su anbarının, Şəmkir Maşın kanalının, Taxtakörpü-Ceyranbatan, Vəlvələçay-Taxtakörpü, Neftçala magistral kanallarının, Taxtakörpü, Şəmkirçay su anbarlarının və bir sıra digər obyektlərin tikintisi davam etdirilir.

Meliorasiya və su təsərrüfatı sahəsində respublikamızda yaxın illərdə görülməsi tələb olunan vacib işləri əhatə edən "Azərbaycan Respublikasında meliorasiya və su təsərrüfatının 2008-2015-ci illər üzrə davamlı inkişaf Dövlət Proqramı" da Ə.C. Əhmədzadənin rəhbərliyi ilə hazırlanmışdır.

Meliorasiya və su təsərrüfatı sahəsində mütəxəssislərin hazırlanmasına və yetişdirilməsinə böyük diqqət və qayğı ilə yanaşan Ə.C. Əhmədzadə uzun illər Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri" fakültəsinin "Hidrotexniki tikinti" və "Meliorasiya mühəndis sistemlərinin tikintisi" ixtisasları üzrə magistirlərin dissertasiya müdafiəsi şurasına rəhbərlik etmişdir. Onun yaxından köməkliyi nəticəsində meliorasiya və su təsərrüfatı sahəsində çalışan mütəxəssislər dünya

ölkələrinin qazandıqları qabaqcıl təcrübələrlə tanış olmaq üçün Türkiyə, İngiltərə, Fransa, Amerika Birləşmiş Ştatları, Meksika, Yaponiya və digər ölkələrdə tədris səfərlərində olmuşlar.

Ə.C. Əhmədzadə respublikamızda meliorasiya və irriqasiyanın inkişafında misli görünməmiş xidmətləri olan Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanın su təsərrüfatı" və meliorasiya və su təsərrüfatı sistemlərinin kəmiyyət və keyfiyyət göstəricilərini özündə əks etdirən "Meliorasiya və su təsərrüfatı sistemlərinin kadastrı" kitablarının müəllifidir.

Peşəkar mütəxəssis, böyük təcrübəyə və idarəçilik qabiliyyətinə malik, bütün varlığı ilə dövlətçiliyimizə sadiq olan Əhməd Cuma oğlu Əhmədzadə hələ bu sahədə ölkəmizin çiçəklənməsi naminə çox böyük işlər görəcəkdir.

Ə.C. Əhmədzadə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 04 iyun 2011-ci il tarixli Sərəncamı ilə Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafındakı xidmətlərinə görə "Əməkdar Mühəndis" fəxri adına layiq görülmüşdür.



Əhmədov
Bəkir
Məmmədəli oğlu

1955-ci il noyabrın 12-də Yevlax rayonunda ziyalı ailəsində anadan olmuşdur. 1973-cü ildə orta məktəbi bitirən kimi Sovet Ordusu sıralarında xidmətə yollanmışdır. Hərbi xidmətdən qayıtdıqdan sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə daxil olmuş, 1981-ci ildə bu ali məktəbi bitirərək "Azərkəndtikintilayihə" İnstitutunda əmək fəaliyyətinə başlamışdır. O vaxtdan bu institutda (adı sonralar dəyişdirilmiş və bu gün "Azərmemarlayihə" İnstitutu adı ilə fəaliyyət göstərir) müxtəlif vəzifələrdə çalışmışdır. 1997-ci ildən isə həmin institutun direktorudur.

B.M. Əhmədov işlədiyi müddətdə özünü bacarıqlı memar, səriştəli rəhbər işçi və ictimaiyyətçi kimi göstərmiş, onlarla məktəb, uşaq bağçası, mədəniyyət evi, bir sıra sənaye müəssisələrinin tikilməsi üçün hazırlanan layihə-smeta sənədlərində əl izləri qoymuş, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınmasında, yenidənqurma və bərpa işlərinin aparılmasında fəal iştirak etmiş və bu gün də iştirak edir.



Əhmədov
Rafiq
Surxay oğlu

1952-ci ilin mart ayının 18-də Bərdə şəhərində qulluqçu ailəsində anadan olub. 1959-1969-cu illərdə Bərdə şəhərindəki 2 nömrəli orta məktəbdə oxumuş və məktəbi qurtaran ildə də Azərbaycan Politexnik İnstitutunun Hidromeiorasiya fakültəsinə qəbul olmuşdur. O, orta məktəbi rus dilində bitirdiyi üçün ali məktəbin rus bölməsində oxumuş və 1974-cü ildə təhsilini başa vurmuşdur.

O, təyinatla Rusiyanın Saratov vilayətinə göndərilir. 1974-1979-cu illər arasında, düz 5 il Saratov vilayətində iş icraçısı, sahə rəisi, baş mühəndis, idarə müdiri işləmiş və kifayət qədər təcrübə toplamışdır.

1979-cu ildə Azərbaycana qayıdan R.S. Əhmədov həyatını su qurğuları və meliorasiya tikintilərinə bağlamışdır. Əvvəlcə Baş Meliorasiya və Su Qurğuları Tikintisi İdarəsinin Xaçmazdakı 1 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsində baş mühəndis kimi fəaliyyət göstərmişdir. Az sonra onu Dəvəçidəki 13 nömrəli Tikinti-Quraşdırma İdarəsinə rəis təyin etmişlər. Sonrakı illərdə "Xüsusi Mülki Sənaye Tikinti" Trestinin 34, 2 nömrəli Tİlərin, "Samur-Abşeron Su Tikinti" Trestinin 26 nömrəli tikinti idarəsinin rəisi vəzifələrində işləmişdir.

R.S. Əhmədov Samur-Abşeron kanalının yenidən qurulması, Quba, Qusar, Dəvəçi, Xaçmaz, Siyəzən və Abşeron rayonlarının kompleks meliorasiya işlərinin aparılması, qaçqın və məcburi köçkünlər üçün Füzuli, Bərdə, Ağdam, Biləsuvar, Mingəçevir, Goranboy rayonlarında salınan 14 qəsəbənin tikintisinə, 12 məktəb, 6 uşaq bağçası, 4 inzibati binanın tikintisinə bilavasitə rəhbərlik etmişdir. Uzun illər "İnşaatçı" – "Stroitel" və "İnkişaf" qəzetlərinin redaksiya heyətinin üzvü olmuş, bir neçə dəfə qəsəbə və rayon sovetinə deputat seçilmiş, fəxri fərmanlara, dövlət mükafatlarına layiq görülmüşdür.

O, 1991-ci ildən 2007-ci ilədək "Samur-Abşeron Su Tikinti" trestinin müdiri və bu trestin bazasında yaranan müəssisənin baş direktoru olmuşdur.



Əhmədov
Tofiq
Cahangir oğlu

1924-cü ildə Salyan rayonunda anadan olmuşdur. Ali təhsilli inşaatçı mühəndisdir. İnşaat ustalığından nazir vəzifəsinədək böyük və şərəfli yol keçmişdir. 1950-1960-cı illərdə Mingəçevir, Sumqayıt, Əli Bayramlı (indiki Şirvan) şəhərlərinin salınmasında yaxından iştirak etmişdir. Tikinti idarələrinə rəhbərlik edəndə də, tikinti trestinin müdiri işləyəndə də dövlət əhəmiyyətli obyektlərin, eləcə də sosial – mədəni obyektlərin tikintisində dəyərli əl izləri qoymuşdur.

Azərbaycan SSR tikinti nazirinin müavini və Azərbaycan SSR Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri vəzifələrində işlədiyi illərdə (1955-1965-ci illər) ölkə tikinti kompleksində tikinti ustadları sayılan Əliş Ləmbəranski, Polad Poladzadə, Ənvər İsmayılov, Yaqub İsmayılov, Qənbər Behbudov, Sərdar Sərdarov, Sadıq Rəhimov, Mehbalı Əmiraslanov kimi şəxsiyyətlərlə çiyin-çiyinə işləmişdir.

1965-ci ilin noyabr ayının 19-da Azərbaycan Kənd Tikintisi Nazirliyi yarananda Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə T.C. Əhmədov qısa vaxt içində yeni yaranmış tikinti qurumunu möhtəşəm bir nazirlik kimi formalaşdırmışdır. O, nazirliyə rəhbərlik etdiyi illərdə (1965-1971-ci illər) inşaatçı kadrların yetişdirilməsinə, istehsalat bazalarının yaradılmasına bilavasitə rəhbərlik etmişdir.

T.C. Əhmədov tikinti sahəsindəki səmərəli fəaliyyətinə görə respublikanın Əməkdar Mühəndisi fəxri adına layiq görülmüş, bir neçə orden və medallarla təltif olunmuşdur.



Ələsgərov
Abbas
Abbas oğlu

13 dekabr 1937-ci ildə Bakıda anadan olmuşdur. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun nəqliyyat fakültəsini dəmir yolları tikintisi ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə "Xalqtəsərrüfatmaştəchizatsatış"ın tikinti materialları şöbəsində mütəxəssis kimi başlamışdır (1959-cu il). 1960-cı ilin mart ayından 1961-ci ilin may ayına kimi ixtisaslaşdırılmış tikinti mexanizasiya sənayesi trestində texnik, mühəndis işləmişdir.

A.A. Ələsgərov 1961-ci ilin may ayından Sumqayıtdakı 2 nömrəli ixtisaslaşdırılmış mexanizasiya idarəsinə usta kimi işə qəbul olunmuşdur. 1961-ci ilin sentyabr ayından 1962-ci ilin oktyabr ayına kimi Kommunal Təsərrüfatı Nazirliyində ƏTŞ-in mühəndisi kimi fəaliyyət göstərmişdir. 1962-ci ilin oktyabr ayından 1976-cı ilin noyabr ayına kimi Sənaye Tikintisi Nazirliyinin texniki tikinti təşkilatı trestində mühəndis, qrup rəhbəri, layihənin baş mühəndisi, şöbə müdiri, trestin baş mühəndisi vəzifələrində çalışmışdır.

1976-cı ilin noyabr ayından 1977-ci ilin avqust ayınadək Sənaye Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestinin 42 nömrəli tikinti idarəsində baş mühəndis olmuşdur. 1977-ci ilin avqust ayından 1987-ci ilin iyun ayınadək "Azərdövlətsənayelayihə" İnstitutunda baş mühəndisin müavini, 1982-ci ilin iyun ayından 1983-cü ilin noyabr ayına kimi BBTİ-nin layihə konstruktor texniki bürosunun direktoru işləmişdir.

A.A. Ələsgərov 1983-cü ilin noyabr ayından 2007-ci ilin aprel ayına kimi Bakı Dövlət Layihə İnstitutuna rəhbərlik etmişdir. 2007-ci ilin sentyabr ayında Memarlar İttifaqının sədri seçilmişdir. Həmin ildən eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin olunmuşdur. Hazırkı vaxtda da Komitəyə uğurla rəhbərlik edir.

Abbas müəllimin Azərbaycan Memarlar İttifaqına rəhbərlik etdiyi 2007-2012-ci illər Memarlar İttifaqının fəaliyyətində yeni bir mərhələnin başlanğıcı oldu. Və bu illərdə Abbas Ələsgərov Azərbaycan Memarlar İttifaqının Azərbaycan cəmiyyətində və beynəlxalq aləmdə nüfuzunun qalxması üçün çox böyük işlər görə bilmişdir.

Tikinti kompleksindəki uğurlu və qüsursuz işlərinə görə "Şərəf nişanı" (1971-ci il), "Xalqlar dostluğu" (1986-cı il) ordenləri ilə təltif olunmuş və Azərbaycanın "Əməkdar Mühəndisi" (1987-ci il) və "Azərbaycanın Əməkdar Memarı" (2007-ci il) fəxri adlarına layiq görülmüş, "Şöhrət" ordeni ilə (2012-ci il) təltif olunmuşdur.

Abbas müəllim əmək fəaliyyətinə adi texnikdən başlamışdır. 50 illik əmək fəaliyyətində şərəfli yol keçmişdir. Onun 25 ilini "Bakıdövlətlayihə" İnstitutuna rəhbərlik etmişdir.

Bu dövr ərzində (1983-2007-ci illər) Bakı şəhərinin 1986-2005-ci illər üzrə Ərazi İnkişaf Planı hazırlanmış, gözəl paytaxtımızda tikilən sənaye, mülki-yaşayış, xidmət və digər infrastruktur obyektlərinin əksəriyyəti bu kollektivin əməyinin bəhrəsi olmuşdur.



Ələsgərov
Elkin
Hənifə oğlu


12 oktyabr 1948-ci ildə Bakıda memar ailəsində anadan olub. 1971-ci ildə Politexnik İnstitutunun memarlıq şöbəsini bitirib. 1971-ci ildən 1994-cü ilə kimi "Azərdövlətaqrarsənayelayihə" İnstitutunda texnikdən baş mühəndis vəzifəsinə yüksəlmişdir. Qabiliyyət və bacarığını nəzərə alıb onu 1994-cü ildə "Azərdövlətsənayelayihə" İnstitutuna direktor vəzifəsinə irəli çəkmişlər. O, bu vəzifədə 10 sentyabr 2012-ci il tarixədək çalışmışdır.

E.H. Ələsgərov 1975-78-ci illərdə Moskvadakı "ЧНИИЕП жилища" İnstitutunda əyani aspiranturada təhsil almış, 1980-ci ildə müdafiə edərək memarlıq namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Şərq Ölkələri Beynəlxalq Memarlar Akademiyasının həqiqi üzvüdür.

E.H. Ələsgərov memarlıq-inşaat, habelə birtipli və eksperimental layihələndirmə şöbəsində işləyərkən Azərbaycanın bir sıra qəsəbələrinin və mühüm obyektlərinin layihələndirilməsində gərgin əmək sərf etmişdir. Onun müəllif işləri dəfələrlə Azərbaycanın və keçmiş ittifaqın baxış və müsabiqələrində diploma və mükafatlara layiq görülmüşdür. 2000-ci ildə ölkə prezidenti H. Əliyevin imzaladığı fərmanla ona Azərbaycanın "Əməkdar Memarı" fəxri adı verilmişdir.

Uzun müddət rəhbərlik etdiyi institutun kollektivi ölkəmizdə həyata keçirilən dövlət proqramının layihə-axtarış işlərini uğurla yerinə yetirir. O cümlədən, qaçqınlar üçün qəsəbələrin, respublikanın rayon və kəndlərində məktəb binalarının, mədəniyyət obyektlərinin, olimpiya komplekslərinin, sənaye və yaşayış binalarının layihələndirilməsi və s. işlərin yerinə yetirilməsində fəallıq göstərir.

E.H. Ələsgərovun uzun illərdir ki, Azərbaycan Memarlar İttifaqının ictimai həyatında fəal iştirak edir. O, uzun müddət Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin kollegiya üzvü və eyni zamanda "İnşaatçı" qəzetinin redaksiya heyətinin üzvü olmuşdur.



Ələsgərov
Hənifə
Əlisgəndər oğlu

1912-ci ilin yanvar ayının 1-də Bakı şəhərində anadan olmuşdur. 1936-cı ildə Sənaye İnstitutunu bitirmişdir. Böyük Vətən Müharibəsinin iştirakçısı olmuşdur. Ölkə tikinti kompleksində öz dəsti-xətti ilə seçilən memarların sırasında ön cərgədə dayanmışdır.

H.Ə. Ələsgərov 1960-cı ildə Bakıda və Azərbaycanın müxtəlif rayonlarında aparılan tikinti quraşdırma, abadlıq və quruculuq işlərində fəal iştirak etmiş, məsul və rəhbər vəzifələrdə çalışmışdır. 1948-1950-ci illərdə Azərbaycan SSR Dövlət Tikinti Komitəsi sədrinin müavini, 1962-1967-ci illərdə Azərbaycan Memarlar İttifaqının sədr müavini, 1967-1974-cü illərdə isə Bakı şəhərinin Baş memarı kimi çox sanballı və məsul vəzifələrdə işləmişdir.

H.Ə. Ələsgərovun kamil memarlıq qabiliyyəti və əl

izləri əsasən bu obyektlərdə qalmışdır: Gəncə (keçmiş Kirovabad) toxuculuq kombinatı (1956-cı il), Şuşa şəhərindəki pansionat mehmanxana (1960-cı il), Bakının Bilgəh qəsəbəsindəki müalicə-məişət binası (1962-ci il), Bakıda 26 Bakı Komissarının xatirə ansamblı (1968-ci il), Bakı Metropoliteninin "Qara Qarayev" stansiyası (1972-ci il), Naxçıvanda V.İ.Leninin xatirəsi abidəsi (1975-ci il), (son üç obyekt Ə.N.Hüseynovla birgə) və s.

H.Ə. Ələsgərov I dərəcəli Vətən müharibəsi ordeni, "Qırmızı ulduz", "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur. 1960-cı ildə Azərbaycan SSR-in Əməkdar İnşaatçısı fəxri adına layiq görülmüş, 1972-ci ildə SSRİ Dövlət Mükafatı, 1976-cı ildə isə Azərbaycan SSR Dövlət Mükafatını almışdır.

Dünya şöhrətli memar bir neçə dəfə rayon və şəhər sovetlərinə deputat seçilmişdir.

Bu böyük memarın yolunu bu gün onun övladları uğurla və onun adına layiq davam etdirlər.

Hənifə Ələsgərov bir istedadlı və tanımış memar olaraq bu günkü gənc memar kadrları üçün əsil nümunə və örnəkdir.



Əlixanbəyov
Talib
Həsəd oğlu

7 may 1955-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Moskva şəhərinə getmiş, 1972-1977-ci illərdə Moskva İnşaat Mühəndislər İnstitutunda mülki tikinti ixtisası üzrə inşaatçı diplomunu almışdır. Ali məktəbi fərqlənmə diplomu ilə bitirib Azərbaycana gəlmiş, Sənaye Tikintisi Nazirliyinin Gəncədəki 3 nömrəli tikinti trestində mühəndis vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır. Az sonra Sovet ordusu sıralarına çağrılmış və 1977-1979-cu illərdə orduda xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra Sənaye Tikinti Nazirliyinin 5 nömrəli tikinti trestinin 51 nömrəli tikinti idarəsində iş icraçısı vəzifəsinə təyin olunmuşdur. 1981-ci ilin iyun ayında həmin idarənin baş mühəndisi vəzifəsinə irəli çəkilmişdir. 1991-1992-ci illərdə Assosiasiya prezidenti olmuş, 1992-1995-ci illərdə isə "Araz" şirkətinin baş direktoru işləmişdir. Sumqayıt şəhərinə ən mühüm sənaye müəssisələriniişində öz töhfələrini verir.

Əliyev
Ağasəf
Dünyamalı oğlu

1939-cu ildə Salyan rayonunun Parça Xalac kəndində anadan olub, 1954-cü ildə kənddəki 7 illik məktəbi, 1957-ci ildə isə Salyan şəhər orta məktəbini bitirib. Orta məktəbi bitirən kimi Azərbaycan Neft-Kimya İnstitutuna daxil olub və 1962-ci ildə (indiki Azərbaycan Dövlət Neft Akademiyası) həmin institutun meft-mexanika fakültəsini bitirərək mühəndis-mexanik ixtisasına yiyələnib. Təyinatla Azərbaycan Qaz Emalı zavoduna göndərilib və texnoloji quraşdırma sahəsində ilk əmək fəaliyyətinə mühəndis-mexanik kimi başlayıb. 1969-cu ilədək zavodda müxtəlif məsul vəzifələr daşıyıb. 1969-cu ildə köçürmə yolu ilə SSRİ Qaz Sənayesi Nazirliyinin "Qazzavodtəmirtikinti" trestində təsərrüfat hesablı sahəsinə rəis təyin olunub. 1973-cü ildə oranın bazasında yaradılmış Bakı tikinti-quraşdırma

idarəsində rəis vəzifəsinə təyin olunur. 1976-cı ildə "Azərdənizneftinşaat" trestinin istehsalat şöbəsində böyük mühəndis kimi fəaliyyətə başlayır. 1979-cu ildə trest iki hissəyə bölünür və bununla əlaqədar yaradılan təzə trestə - "Xəzərdənizneftqaztikinti" trestinə baş texnoloq təyin olunur. Az sonra onu trestin texniki şöbəsinin rəisi vəzifəsinə köçürürlər. Bir neçə aydan sonra trestin tikinti quraşdırma idarəsinə rəis vəzifəsinə təyin edilir. 1983-cü ildən 1986-cı ilin aprel ayına kimi Ümumittifaq Sənaye Birliyi "Xəzərdənizneftqaztikinti"ın əsaslı tikinti şöbəsində rəis işləyib.

A.D. Əliyev 1986-cı ilin aprel ayından 1997-ci ilin 29 yanvarına kimi "Xəzərdənizneftqaztikinti" trestinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. 1997-ci ildən bu günə kimi Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyində baş direktorun əsaslı tikinti və quru nəqliyyatı üzrə müavini vəzifəsində çalışır.

Bakıda tikilib istsimara verilmiş yaşayış evlərində, uşaq bağçaları və səhiyyə ocaqlarında, Azərbaycan neftçiləri üçün tikilən sosial-mədəni obyektlərdə, Xəzər dənizində aparılan quraşdırma işlərində, ölkə prezidentinin məlum sərəncamları ilə respublikamızın müxtəlif bölgələrində inşa olunan bir sıra tikintilərdə, yenidənqurma və abadlıq işlərində sanballı əl izləri var.

A.D. Əliyevin uzun illər boyu dövlətimizə və xalqımıza göstərdiyi xidmət layiqincə qiymətləndirilib, 2006-cı ildə respublikanın "Əməkdar Mühəndisi" fəxri adına layiq görülüb. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. O, eyni zamanda "Əsrin müqaviləsinin 15 illiyi" medalı ilə təltif olunub.



Əliyev
Arif
Bəylər oğlu

7 aprel 1962-ci ildə Cəbrayıl rayonunun Qanad kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Rusiyanın qədim Tula şəhərindəki Politexnik İnstitutuna daxil olmuş (1983-cü il) və həmin institutun inşaat fakültəsinin sənaye və mülki tikintisi şöbəsini bitirərək (1989-cu il) tikinti mühəndisi ixtisasını qazanmışdır. O, 1996-cı ildə Azərbaycan Dövlət İqtisad İnstitutunun mühasibat uçotu və audit fakültəsinə daxil olmuş, 1998-ci ildə institutu bitirib ikinci bir ixtisas-mühasibat uçotu və audit ixtisasını almışdır.

A.B. Əliyev 1980-1982-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş, 1990-1991-ci illərdə Cəbrayıl rayonundakı TTM-də baş mühəndis vəzifəsində işləmişdir. 1991-1993-cü illərdə "Xudafərin" və "Qız Qalası" hidrotexniki qurğularının müdiriyyətində əsaslı tikinti şöbəsinin rəisi kimi fəaliyyət göstərmişdir. 1994-1999-cu illərdə 8 nömrəli Təmir-Tikinti Trestində iş icraçısı vəzifəsində çalışmışdır.

A.B. Əliyev 1990-2000-ci illərdə Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyində Tərtər rayonu üzrə Texniki nəzarətçi vəzifəsində işləmişdir. 2000-2002-ci illərdə "Alıbəyli" kiçik müəssisəsində iş icraçısı olmuşdur.

2002-ci ildən bu vaxtadək Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunda Texniki Nəzarət qrupunun işi üzrə əlaqələndirici vəzifəsində çalışır.



Əliyev
Əli
Musa oğlu

1933-cü il may ayının 20-də Ermənistan SSR Vedi rayonunun Dəhnəz kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1937-ci ildə ailəsi ilə birlikdə Qazaxstan SSR-nin Canbul vilayətinə sürgün edilmişdir. 1947-ci ildə Sverdlov rayonundakı Mixayloves orta məktəbini bitirən kimi Frunze Sənaye Texnikumunun şəhər yollarının və körpülərin tikintisi fakültəsinə daxil olmuş və oranı uğurla başa vurmuşdur (1953-cü il).

Ə.M. Əliyev 1953-cü ildə təyinatla Qırğızıstan SSR Avtomobil Nəqliyyatı Nazirliyinin sərəncamına, ordan isə nazirliyin "Yolmühəndistikinti" trestinə göndərilmiş və ilk dəfə həmin trestdə mühəndis-layihəçi kimi əmək fəaliyyətinə başlamışdır . Çox çəkmir ki, tikintinin baş mühəndisi vəzifəsinə irəli çəkilir.

Ə.M. Əliyev ümumittifaq miqyasında ən böyük magistrallardan olan Frunze –Oş avtomobil yolunun, Narın çayının üzərində bir neçə körpünün, o cümlədən uzunluğu 99 metrə çatan asma körpünün və uzunluğu 2,4 km olan tunelin tikintisinə bilavasitə rəhbərlik etmişdir. 1955-ci ilin dekabr ayından 1958-ci ilin mart ayına kimi Sovet Ordusunda xidmət etmişdir. 1958-ci ildə Saratov Ümumittifaq Avtomobil Yolları İnstitutuna daxil olmuş və sonralar ailəsinin Bakıya köçməsi ilə əlaqədar ali təhsilini Azərbaycan Politexnik İnstitutunda davam etdirmiş və 1965-ci ildə oranı bitirmişdir.

Ə.M. Əliyev 1972-ci ildə Bakı şəhərində yeni yaradılmış "Xüsusiləşdirilmiş yol tresti"nə müdir təyin olunmuşdur. O, istehsalat fəaliyyəti ilə bərabər elmi axtarışlarla məşğul olmuş, 1973-cü ildə "Aktivləşdirilmiş mineral tozlu aerolbetonların tədqiqi" mövzusunda namizədlik dissertasiyası, 1984-cü ildə "Aerolbetonun regenerasiyası" mövzusunda doktorluq disertasiyası müdafiə edərək texniki elmlər doktoru, alimlik dərəcəsi almışdır. Ə.M. Əliyevin təklif etdiyi aktivləşdirilmiş mineral tozlardan istifadə etməklə asfalt-beton qarışıqlarının hazırlanması üzrə yeni texnologiya halhazırda bir sıra MDB ölkələrində avtomobil yollarının və aerodromların uçuş-enmə zolaqlarının tikintisində geniş tətbiq olunur.

Ə.M. Əliyev 1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun avtomobil yolları, körpü və tunellər kafedrasında pedaqoji fəaliyyət göstərmiş və professor olmuşdur. O, uzun müddətdir ki, Attestasiya Komissiyası Elmi Şurasının üzvüdür.

O, 1999-cu ilin dekabr ayından "Azvirt" MMC-nin baş direktoru vəzifəsində çalışır. Strateji əhəmiyyətli Böyük İpək Yolunun bərpasında fəal iştirak edir. Ə.M. Əliyevin rəhbərliyi altında "Azərbaycan Respublikasında asfalt-beton örtüklü yol və aerodrom geyimlərinin tikintisi üzrə rəhbərlik" texniki-normativ sənəd hazırlanmış, Dövlət Tikinti və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş və 1 iyun 2004-cü il tarixdən qüvvəyə minmişdir.

O, Beynəlxalq Ekoenergetika Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. 2001, 2003 və 2005-ci ilin yekunlarına görə "Konsulting s.e. B.Usines"-in təsis etdiyi "Uğur" Milli Mükafatının laureatı olmuşdur. 2004-cü ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri doktoru adına və "İlin ziyalısı" beynəlxalq diplomuna layiq görülmüşdür.

Ə.M. Əliyev 2004-cü ildə Türkiyənin İLESAM (Elm və Sənət Əsərləri Sahibləri Məslək Birliyinin) "Elm sahəsində Türk Dünyasına Xidmət Mükafatı" (altın medalı) ilə təltif edilmişdir. Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Ali İdarəetmə Komitəsinin 12 noyabr 2004-cü il tarixli 2 nömrəli qərarı ilə texniki elmlər bölməsində akademik üzv seçilmiş, 10 dekabr 2004-cü il tarixli 5 nömrəli qərarı ilə "İlin Elm Adamı" beynəlxalq diplomuna layiq görülmüşdür.

2005-ci ilin iyulunda Qırğızıstan hökumətinin dəvətilə qardaş respublika-









Əli Musa oğlu Əliyevin rəhbərliyi altında "Azvirt" MMC inşaatçılarının çəkdikləri yollar, tikdikləri körpülər və digər infrastruktur layihələrindən görüntülər

da səfərdə olan Ə.M. Əliyevin şərəfinə Narın çayının üzərində onun baş mühəndisliyi ilə salınmış ən böyük körpülərdən birinə "Qırğızıstan-Azərbaycan körpüsü" adı verilmiş və körpünün üzərinə xatirə lövhəsi vurulmuşdur.

Ə.M. Əliyev 2006-cı ildə Bolqarıstanın paytaxtı Sofiya şəhərində yerləşən Avropa Mədəniyyət Akademiyasının akademik üzvü seçilmişdir. 2006-cı ildə Türk Dünyası üzrə "İlin ziyalısı" beynəlxalq ödülünə layiq görülmüş və Türk Dünyası Araşdırmaları Beynəlxalq Akademiyasının təsis etdiyi beynəlxalq Atatürk Mükafatının 1 nömrəli diplomu ilə təltif olunmuş, 2006-cı ildə İran İslam Respublikasının Parlaq Dan Ulduzu Dil və Kültür Akademiyasının akademik üzvü seçilmişdir.

Ə.M. Əliyev Şimali Kipr Türk Respublikasının KİVATEK Akademiyasının akademik üzvü seçilmişdir. "Qırmızı Əmək Bayrağı" ordeni və bir çox medallarla, Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə mükafatlandırılmışdır.

Əsərləri, 80-ə qədər elmi işi, "Yol tikinti materialları" adlı dərsliyi, "Nəqliyyat magistrallarının tikintisinin əsasları" kitabı çap olunmuş, iki cildlik "Avtomobil yollarının və aerodromlarının tikintisi" kitabı nəşr olunmuşdur.

Peşəkar mühəndis, tanınmış alim, sadə insan, müasir idarəçilik qabiliyyətinə malik olan Ə.M. Əliyev tikinti kompleksinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevin 09.04.2010-cu il tarixli Sərəncamı ilə "ŞÖHRƏT" ordeni ilə təltif edilmişdir.



Əliyev
Emin
Ənvər oğlu

1966-cı ilin fevral ayında Bakı şəhərində anadan olmuşdur. 1973-cü ildə Bakı şəhər 66 nömrəli orta məktəbin 1-ci sinfinə daxil olub, 1983-cü ildə həmin məktəbi bitirmişdir. 1983-cü ildə Azərbycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsinə qəbul olunmuşdur. 1984-cü ildə hərbi qulluğa çağrılmış və 1986-cı ildə Xəzər Hərbi Dəniz Donanmasında hərbi qulluğunu başa vurduqdan sonra institutda təhsilini davam etdirmişdir. İnstitutda oxuduğu dövrdə 1988-ci ildən 1989-cu ilin iyul ayınadək fəhlə işləmişdir.

E.Ə. Əliyev 1990-cı ildə institutu bitirdikdən sonra Azərbaycan Sənaye Tikinti Nazirliyinin 4 nömrəli tikinti trestinin 41 nömrəli tikinti idarəsinin texniki-istehsalat şöbəsində mühəndis işləmişdir. 1992-ci ilin fevral ayından Sənaye Tikintisi Nazirliyinin 5 nömrəli tikinti trestinin "İnkişaf" tikinti firmasının baş direktoru təyin olunmuşdur. 1994-cü ilin yanvar ayından "İnkişaf" tikinti firmasının Sənaye Tikintisi Nazirliyinin 8 nömrəli tikinti trestinin tabeçiliyinə verilməsi ilə əlaqədar həmin firmanın baş direktoru vəzifəsinə təyin olunmuşdur.

"İnkişaf" tikinti idarəsinin (firması) "Azərsənayetikinti" Dövlət Şirkətinin sərəncamına götürülməsi ilə əlaqədar olaraq E.Ə. Əliyev tikinti idarəsinin rəisi vəzifəsinə köçürülmüşdür. O, 2002-ci ildən 2009-cu ilin aprel ayınadək "İnkişaf" tikinti şirkətinin baş direktoru işləmişdir.

E.Ə. Əliyev hazırda "Azərsənayetikinti" Açıq Səhmdar Cəmiyyətində sədr müavini vəzifəsində çalışır. Tikinti kompleksində işlədiyi dövrlərdə aşağıdakı ən mühüm obyektlərin tikintisinə bilavasitə rəhbərlik etmişdir:

Füzuli rayonunun Horadiz qəsəbəsi və Haramı ərazisində qaçqın və məcburi köçkünlər üçün yaşayış evlərinin tikintisi, MTN-nin Akademiyasının tədris kompleksində təmir işləri, Azərbaycan Texniki Universitetində tikintisi yarımçıq qalmış tədris korpusunun tikintisi, Şəmkir maşın kanalında tikinti işləri, Binə aeroportunun 1-ci tikinti kompleksində tikinti işləri, "Azneftkimyamaş" İstehsalat Birliyinin inzibati binasında təmir-tikinti işləri və s.



Əliyev
Ənvər
Adil oğlu

1938-ci ilin mart ayının 15-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Bakıya gəlmiş, Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1962-ci ildə həmin institutu bitirmiş və təyinatla Azərbaycan SSP Sənaye Tikintisi Nazirliyinin 4 nömrəli Tikinti Trestinə göndərilmişdir. Trestin 43 nömrəli tikinti idarəsində əvvəlcə usta, sonra iş icraçısı vəzifələrində işləyərək iri sənaye obyektlərinin tikintisində və sosial-mədəni obyektlərin ucaldılmasında səmərəli əməyi ilə fərqlənmişdir.

Ə.A. Əliyev 1967-1971-ci illərdə 5 nömrəli tikinti trestinin 51 nömrəli tikinti idarəsində rəis müavini, 8 nömrəli tikinti trestinin 84 nömrəli tikinti idarəsində baş iş icraçısı və baş mühəndis vəzifələrində çalışmışdır. 1971-1972-ci illərdə AHİŞ-nin Kurortlar İdarəsində baş mühəndis, 1972-1981-ci illərdə isə Sənaye Tikintisi Nazirliyinin Qırmızı Əmək Bayrağı Ordenli 4 nömrəli Tikinti Trestinin əvvəlcə 41 nömrəli tikinti idarəsində baş iş icraçısı, sahə rəisi, sonra 45 nömrəli tikinti idarəsində rəis vəzifələrində işləyərək ən mühüm sənaye obyektlərinin tikilməsi, yenidənqurulması, genişləndirilməsi və bərpa işlərinə, sosial-mədəni obyektlərin inşasına bilavasitə başçılıq etmişdir.

Ə.A. Əliyev 1981-1984-cü illərdə Sumqayıtdakı 1 nömrəli tikinti trestində müdir işləyərək dövlət əhəmiyyətli mühüm obyektlərin – iri sənaye müəssisələrinin ucaldılmasında, Sumqayıtda yeni-yeni mikrorayonların salınmasında fəal iştirak etmiş, tikintinin ucuz və keyfiyyətlə başa çatdırılması üçün xeyli miqdarda səmərələşdirici təkliflər irəli sürmüş, tikinti təşkilatlarının gəlirlə işləməsinə, dövlətə xeyir verməsinə nail olmuşdur. Fəal işi, qabiliyyət və bacarığı nəzərə alınaraq onu daha böyük bir vəzifəyə irəli çəkmişlər. O, 1984-cü ildə Sənaye Tikintisi Nazirinin müavini vəzifəsinə irəli çəkilmişdir.

Ə.A. Əliyev 1999-cu ilin iyul ayına kimi Sənaye Tikintisi nazirinin müavini, "Azərsənayetikinti" İstehsalat Birliyinin rəis müavini, az sonra "Azərsənayetikinti" Dövlət Şirkətinin vitse-prezidenti kimi işlədiyi illərdə təkcə Bakıda deyil, Sumqayıtda, Dağlıq Qarabağda, Naxçıvanda, Yevlaxda, Neftçalada, Əli Bayramlıda, Gəncədə və respublikanın digər şəhər və rayonlarında dövlət proqramına uyğun tələb olunan saysız-

hesabsız obyektlərdə əl izləri qoymuş, özünün bacarıq və fəaliyyətini daha qabarıq şəkildə göstərə bilmişdir.

Ə.A. Əliyev 1999-cu ildə respublika Prezidentinin sərəncamı ilə "Azərsənayetikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunmuşdur. İndi də bu vəzifədə çalışır və uğur qazanır.

O, tikintisində çalışdığı respublika əhəmiyyətli obyektlərdə işin keyfiyyətinə xüsusi diqqət yetirmiş, obyektlərin vaxtında istismara verilməsi üçün bütün imkanlardan maksimum istifadə etmişdir.

Ə.A. Əliyevin tikinti kompleksindəki çoxillik fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı (1989-cu il), "Şərəf nişanı" (1982-ci il) və "Şöhrət" ordeni ilə (2008-ci il) təltif olunmuşdur.

O, Sumqayıt şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Azərbaycan Ağsaqqallar Şurası Milli Məclisinin və şuranın orqanı olan "İnkişaf" qəzeti redaksiya heyətinin üzvüdür.



Əliyev
Kamil
Əli oğlu

18 may 1961-ci ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur. 1978-ci ildə Bakıdakı 47 nömrəli orta məktəbi, 1983-cü ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yol tikintisi fakültəsini (əyani şöbə) qırmızı diplomla bitirmişdir.

K.Ə. Əliyev 1983-cü ildə Azərbaycan SSR Yol Nazirliyinin İstismar İdarəsində mühəndis-dispetçer vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır. Daha sonra təhsilini davam etdirmək üçün aspiranturaya daxil olmuş, Moskva Dövlət Yol Elmi-Tədqiqat İnstitutunun aspirantı olmuşdur. O, 1988-ci ildə müdafiə edib texniki elmlər namizədi adını almışdır.

O, 1988-ci ildə aspiranturada təhsilini başa vurduqdan sonra tikinti və arxitektura idarəsində elmi işçi kimi işləmiş, 1991-1995-ci illərdə "Azəravtoyol" Elm-İstehsalat Mərkəzinin direktoru, 1995-ci ildən 1999-cu ilin sonuna kimi isə "Azvirt" Azərbaycan-Almaniya Birgə Müəssisəsinin baş direktoru işləmişdir.

K.Ə. Əliyev 1999-cu ildən 2001-ci ilə kimi Bakı Şəhər İcra Hakimiyyətinin Mühəndis Kommunikasiyaları Departamenti "Yoltəmirtikinti" Baş İstehsalat İdarəsində rəis vəzifəsində işləmişdir.

K.Ə. Əliyev 2001-ci ildən hal-hazıra kimi "Azvirt" MMC-nin baş direktorudur. Bakının və eləcə də ölkənin müxtəlif bölgələrində yol təsərrüfatının inkişafında, mövcud yolların əsaslı və cari təmirində, yeni yolların çəkilişində, körpülərin salınmasında, paytaxtın küçə və prospektlərinin abadlaşdırılmasında dəyərli əl izləri qoymuşdur.

K.Ə. Əliyev yol tikintisinə təsadüfən gəlməyib. Onun atası Əli Musa oğlu Əliyev Azərbaycanda və Qırğızıstanda tanınmış alim və yol inşaatçısıdır. Əliyevlər ailəsi Stalin repressiyası dövründə Ermənistanın Vedi rayonunun doğma Dəhnəz kəndindən Qazağıstanın Canbul rayonuna deportasiya olunmuşdur. Qəribliкdə bir çox çətinliklərə baxmayaraq Əli Musa oğlu Qırğızıstanın tanınmış inşaatçısı ola bilir. Onun bilavasitə iştirakı ilə ötən əsrin 50-ci illərində həmin illərdə SSRİ-nin ən uzun atombil magistralı – Frunze – Oş yolu çəkildi, Narın çayı üzərində bir neçə körpü tikildi. O, 1958-ci ildə Saratovda Ümumiittifaq Avtomobil Yolları İnstitututuna qəbul olundu. Sonra Əliyevlər ailəsi Azərbaycana qayıdır. Və Əli Əliyev ali təhsilini 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunda başa vurur. 1984-cü ildə doktorluq disertasiyasını müdafiə edir. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda dərs deyir. 1999-cu ildə "Azvirt" şirkətinə rəhbərlik edir.

K.Ə. Əliyev belə bir kişinin yolunu davam etdirir. Və son illərdə onun rəhbərliyi altında "Azvirt" MMC-nin kollektivi tərə-











Azərbaycan yol tikintisinin ən kamil mütəxəssislərindən olan Kamil Əli oğlu Əliyevin rəhbərliyi altında "Azvirt" MMC-nin yol inşaatçıları artıq ölkəmizin hüdudlarından kənarda da yol tikinti layihələrini müvəffəqiyyətlə həyata keçirirlər.

findən iri yol layihələri həyata vəsiqə almışdır.

"Azvirt" MMC ölkədə bir çox layihələrin reallaşdırılmasında baş podratçı kimi iştirak etmişdir. İlk öncə fəaliyyətini əsasən paytaxt Bakı şəhərində quran şirkətə sonradan ölkənin müxtəlif hissələrini birləşdirən əhəmiyyətli magistral yollar, daha sonra isə Gəncə, Lənkəran, Zaqatala kimi böyük şəhərlərdə mühüm layihələrin reallaşdırılması həvalə olunmuşdur ki, bu da şirkətə qarşı artan inam və etibarın bariz nümunəsidir.

1998-ci ildə Almaniya Hökumətinin Bakı Aeroportuna ilkin kömək proqramı çərçivəsində maliyyələşdirdiyi "Bakı Aeroportunda "Boeing-747" təyyarələri üçün yönləndirici yolların və dayanacaqların tikilməsi" üzrə bağlanmış müqavilə şirkətə həvalə olunmuşdur. "Azvirt" MMC bu işin öhdəsindən müvəffəqiyyətlə gəlmiş və layihədə nəzərdə tutulan müddətdə işləri yüksək keyfiyyətlə təhvil vermişdir.

1999-cu ildə şirkət tərəfindən yeni aerovağzal kompleksinə aparan estakadada yüksək keyfiyyətli yol çəkilmiş, habelə kompleksə giriş yolları və aeroportlarda xüsusi tip avtonəqliyyatların hərəkəti üçün yollar tikilmişdir.

"Azvirt" MMC 2000-2004-cü illər ərzində Bakı şəhərində bir sıra küçə və prospektlərin əsaslı təmirini həyata keçirmişdir.

2002-2003-cü illərdə Səngəçal terminalı ərazisində daxili yolların tikintisini yerinə yetirmişdir.

2004-cü ildə "Azvirt" MMC Böyük İpək Yolunun tərkib hissəsi olan "Şəmkir-Qazax avtomobil yolunun bərpası" üzrə keçirilən tenderdə "Azərkörpü" ATSC ilə konsorsiumda qalib gəlmişdir. 2006-cı il noyabrın 1-də həmin yolun rəsmi açılış mərasimi olmuşdur.

Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı (2004-2008-ci illər) çərçivəsində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə hava limanının uçuş-enmə zolağının, perronunun, yönəldici yolların və Gəncə-Qazax yolundan hava limanına qədər asfaltbeton yolun yenidənqurulması işləri 2006-cı ilin oktyabr ayında müvəffəqiyyətlə sona çatdırılmışdır.

2007-ci ildə başa çatmış layihələr sırasınıa Zabrat "Azalhelikopter" Aviaşirkətinin uçuş meydançalarının tam yenidənqurulması işlərini aid etmək olar.

Müəssisə 2006-cı ilin mart ayında Lənkəran hava limanının aerodrom ərazisinin, yük terminalının ətrafının, vağzalyanı meydanın və hava limanına giriş yolunun yenidənqurulması işlərinə başlamış və 08 oktyabr 2008-ci ildə obyekt istifadəyə verilmişdir.

2006-cı ilin avqust ayında Zaqatala hava limanının aerodrom ərazisinin yenidənqurulması işlərinə başlayan müəssisə qısa müddət ərzində və keyfiyyətlə yenidənqurma işlərini başa çatdırmışdır. 19 sentyabr 2008-ci ildə hava limanının istismara verilmə mərasimi keçirilmişdir.

"Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq "Azvirt" MMC 2007-ci ilin mart ayında "Bakı şəhəri, Əzizbəyov dairəsi - H.Əliyev Beynəlxalq Hava limanı avtomobil yolunun yenidənqurulması" üzrə işlərə başlamışdır. 25 dekabr 2008-ci ildə tikintisi başa çatdırılan yol istismara verilmişdir.

Öz istehsalat bazasının və kadr potensialının durmadan gücləndirilməsini davam etdirən "Azvirt" MMC-nin məqsədi istər Böyük İpək Yolunun bərpası, istərsə də şəhərimizin küçə və prospektlərinin abadlaşdırılmasında öz layiqli töhfəsini bundan sonra da verməkdən ibarətdir.

Bundan başqa hazırkı vaxtda K.Ə. Əliyevin rəhbərliyi altında "Azvirt" MMC-nin yol inşaatçıları Qəbələ-Ağdaş avtomobil yolunun (0 - 22 km) tikintisi, Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının tikintisi, Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 2-4 km hissəsinin (Dövlət Bayrağı Meydanına gedən yol) əsaslı təmiri, Bakı şəhəri, Heydər Əliyev Beynəlxalq Hava Limanında Yeni Aerovağzal Kompleksinin tikintisi, Hava Nəzarət Qülləsinin tikintisi, Mövcud Aerovağzal Terminalının yenidənqurulması, Bakı şəhəri, Buzovna-Mərdəkan-Qala avtomobil yolunun yenidənqurulması, Buxarest dairəvi yolunun yenidənqurulması, Belqrad-Juzni Jadran magistral yolunun tikintisi, Bakı şəhəri, Heydər Əliyev Beynəlxalq Hava Limanı-Mərdəkan-Bilgəh avtomobil yolunun km 24+00 hissəsindən Qala-Pirallahı və Qala-Şüvəlan avtomobil yollarının yenidənqurulması, Bilgəh qəsəbəsi-Novxanı qəsəbəsi-Sumqayıt şəhəri avtomobil yolunun tikintisi və digər obyektlərdə işi uğurla davam etdirirlər.



Əliyev
Kamran
Fərman oğlu

26 avqust 1971-ci ildə Naxçıvan şəhərində ziyalı bir ailədə anadan olub. Kamran müəllimin valideynləri Naxçıvanın ziyalı mühitində sayılan - seçilən insanlardandır. Atası Əliyev Fərman Qasım oğlu uzun müddət Naxçıvan Vilayət Partiya Komitəsində inzibati şöbədə məsul vəzifələrdə işləyib. İxtisasca uşaq həkimi olan anası Əliyeva Kübra Abbas qızı isə həm həkim kimi çalışıb, həm də Naxçıvan Tibb Texnikumunda müəllim kimi pedaqoji fəaliyyətlə məşğul olub, orta tibb kadrlarının hazırlanmasında böyük əmək sərf edib.

K. F. Əliyev Naxçıvan şəhər 3 nömrəli rus məktəbini 1988-ci ildə müvəffəq qiymətlərlə bitirdikdən sonra elə həmin ildə də Azərbaycan İnşaat Mühəndisləri Universitetinin əyani şöbəsinə qəbul olunub və 1993-cü ildə həmin institutda tam kursu bitirərək inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

K. F. Əliyev institutu bitirdikdən sonra Naxçıvan 5 nömrəli Evtikmə Kombinatında ilk əmək fəaliyyətinə başlamışdır. O, 1993-1994-cü illər arasında burada çalışaraq inşaat yönümündə müəyyən təcrübə toplamış və 5 mərtəbəli iri panelli 30 mənzilli yaşayış evinin tikilib təhvil verilməsində yaxından iştirak etmişdir.

K. F. Əliyev 1994-1996-cı illərdə Milli Orduda hərbi xidmətdə olub. O, ordudan tərxis olunduqdan sonra bir sıra tikinti şirkətlərində inşaat yönümündə fəaliyyət göstərmişdir.

1998-2006-cı illərdə isə Kamran Əliyev "Azərsun Holdinq" Şirkətlər Qrupunun inşaat sektorunda çalışaraq səkkiz il ərzində burada bir sıra böyük layihələrin tikintisinə rəhbərlik etmiş və gərgin əmək sərf etmişdir. Bu illər K. F Əliyevin inşaat sahəsində püxtələşdiyi, böyük təcrübə topladığı illərdir. O, Astara çay fabrikinin tikintisində, Xaçmaz rayonunda Şimal Konserv zavodunun inşa olunmasında və digər bir sıra layihələrin reallaşmasında yaxından iştirak edib. İmişli

Şəkər zavodunun tikintisi isə Kamran müəllimin inşaat fəaliyyətində ayrıca bir səhifədir. O, bu obyektdə tikintinin başlanğıcından təhvil verilənə kimi inşaat müdiri vəzifəsində çalışmış, şəkər zavodunun yüksək keyfiyyətlə tikilib təhvil verilməsi üçün bütün mühəndis bacarığından istifadə etmişdir.

K. F. Əliyev 2006-cı ildən Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdiriyyətinin rəis müavini vəzifəsinə təyin olunmuş və bu gün də həmin vəzifədə qüsursuz fəaliyyət göstərir.

Belə ki, o, respublikamızın müxtəlif rayonlarında qəza vəziyyətində olan sosial və infrastruktur obyektlərinin bərpa-gücləndirilməsi, möhkəmləndirilməsi, tikintisi və təmirinin aparılması, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılması, əhaliyə dəymiş zərərin qiymətləndirilməsi və bununla bağlı kompensasiyaların, inşaat və tikinti materiallarının verilməsi işləri üzrə sifarişçi funksiyasının yerinə yetirilməsi, eyni zamanda, obyektlərin müasir tələblərə uyğun layihəsmeta sənədlərinin hazırlanması, onların tikintisinə texniki nəzarətin həyata keçirilməsi sahəsində TO-OBM-nin rəis müavini kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

K. F. Əliyev ailəlidir, 2 oğlu, 1 qızı var. O, övladlarını Azərbaycanımız üçün layiqli vətəndaş kimi formalaşdırmağa çalışır.



Əliyev
Qardaşxan
Ağaxan oğlu

1939-cu ildə Azərbaycanın qədim Dərələyəz mahalının Cul kəndində anadan olmuşdur. 1958-ci ildə Yevlax şəhər orta məktəbini bitirmiş və Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş, 1963-cü ildə oranı bitirərək təyinatla Mingəçevirdəki 5 nömrəli tikinti trestinə göndərilmiş və trestin 102 nömrəli tikinti idarəsində iş ustası kimi əmək fəaliyyətinə başlamışdır.

Q.A. Əliyev 1965-ci ildə Yevlax rayon XDS İcraiyyə Komitəsində yol tikintisi və istismarı şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. 1968-ci ildə Kənd Tikintisi Nazirliyinin Yevlaxdakı 57 nömrəli tikinti idarəsində məsul işə dəvət olunmuşdur. 1970-ci ildən Yevlax kolxozlararası tikinti idarəsində əvvəlcə baş mühəndis, sonra isə rəis vəzifəsində işləmişdir. Ömrünün sonuna kimi həmin kollektivdə rəis (idarənin adı dəyişəndə də) kimi fəaliyyət göstərmişdir (2007-ci il).

Q.A. Əliyev Mingəçevirdə çoxlu sayda yaşayış evləri, Yevlaxda yolların çəkilişi, 6 məktəb, 8 uşaq bağçası, hər biri 1200 başlıq mexanikləşdirilmiş 2 heyvandarlıq kompleksi, 1600 başlıq kökəltmə məntəqəsi, 12 kənd təsərrüfatı emalatxanası və digər obyektlərin tikilib-istifadəyə verilməsinə bilavasitə rəhbərlik etmişdir.

Q.A. Əliyev rəhbərlik etdiyi hər obyektin tikintisini bütün inşa müddətində daim nəzarətdə saxlamış, keyfiyyət amilinə xüsusi diqqət yetirmişdir. Bu isə son nəticədə onun tikdiyi bütün obyektlərin sifarişçiləri razı salmasıyla nəticələnmişdir.

Rayon sovetinin deputatı seçilmiş, orden və medallarla təltif olunmuşdur. 2008-ci ildə vəfat etmişdir.



Əliyev
Mahmud
İsax oğlu

1931-ci ildə iyunun 10-da Xanlar rayonunun Toğana kəndində anadan olmuşdur. 1938-ci ildə kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1948-ci ildə isə bitirmişdir. 1949-cu ildə Azərbaycan Politexnik İnstitutuna daxil olub, 1954-cü ildə fərqlənmə diplomu ilə bitirmiş, təyinatla Sabirabada göndərilmişdir. Sabirabad rayonunda 18 nömrəli tikinti-quraşdırma idarəsində iş icraçısı, böyük iş icraçısı vəzifəsində çalışmışdır. 1955-ci ildə 18 nömrəli tikinti-quraşdırma idarəsi Yuxarı Şirvan kanalının tikintisi üçün Ağdaş rayonuna köçürülmüş və o, həmin idarədə iş icraçısı, baş mühəndis, idarənin rəisi vəzifələrində çalışmışdır. Yuxarı Şirvan kanalının, Baş Şirvan kollektorunun tikintiləri başa çataraq istismara verilmişdir.

M.İ. Əliyev 1963-cü ildə Ağstafaçay su anbarının tikintisi üçün 7 nömrəli tikinti idarəsinə rəis vəzifəsinə keçmişdir. İşlədiyi vaxtda Ağstafaçay su anbarının tikintisində 1-ci mərhələdə nəzərdə tutulan işlər başa çatdırılmış, Ceyrançöl qışlaqlarının nəzərdə tutulmuş su kəmərinin tikintisi qurtararaq istismara verilmişdir.

M.İ. Əliyev 1964-cü ildə Azərbaycan KP Mərkəzi Komitəsi bürosunun qərarı ilə "Kür-Araz su tikintisi" Baş İdarəsinin rəis müavini vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə işlədiyi vaxtda respublikada tikilən irimiqyaslı hidrotexniki qurğuların, kanalların və kollektorların tikintiləri ilə məşğul olmuşdur.

O,1967-ci ildə SSRİ Enerji Nazirliyinin Naxçıvanda olan "Arazhidrotexniki" tikinti idarəsində baş mühəndis, rəisin 1-ci müavini vəzifəsinə irəli çəkilmişdir. İşlədiyi müddətdə Araz çayında İran hökuməti ilə birlikdə Araz su anbarının hidro-qovşağının və Horadiz hidroqovşağının tikintiləri başa çataraq istismara verilmişdir. 1971-1979-cu illərdə "Azərenerjitikinti" trestinin Horadizdəki 2 nömrəli TQİ-də rəis, trestin baş mühəndisi və müdiri vəzifəsində çalışmışdır. Onun biavasitə rəhbərliyi altında Qızılvəng, Horadiz və Sərsəng su anbarı və hidroqovşağı tikilib istismara verilmiş, "Qırmızı ulduz" Sumqayıt 2 nömrəli istilik elektrik stansiyasının tikintiləri başa çatdırılmışdır. Respublikada böyük əhəmiyyətli Mingəçevir dövlət istilik elektrik stansiyasının, Şəmkir Su Elektrik stansiyasının tikintiləri başlanıb. Hər iki stansiyada dövlət tərəfindən nəzərdə tutulan plan üzrə işlər tam yerinə yetirilib.

M.İ. Əliyev 1980-1989-cu illərdə Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı naziri vəzifəsində işləmişdir.

İki "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni, "Əmək igidliyi" medalı, "Əməkdə fərqlənməyə görə" medalı və iki dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdur. Fəaliyyət dövründə dövlət əhəmiyyətli iki ixtirası olmuş və SSRİ Kənd Təsərrüfü Nailiyyətləri Sərgisinin 2 gümüş, 1 qızıl medalına layiq görülmüşdür. Dövlətlərarası mühüm obyektlərin tikintisində fəal işlədiyinə görə sərhədçilərin Fəxri fərmanı ilə təltif olunmuşdur. Azərbaycan Respublikası "Fəxri mühəndisi" adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. Azərbaycan Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvüdür.



Əliyev
Məhəmməd
Mirağa oğlu

12 oktyabr 1949-cu ildə İmişli rayonunun Muradxanlı kəndində ziyalı ailəsində anadan olub. 1956-1963-cı illərdə Muradxanlı kənd orta məktəbində, 1964-1966-cı illərdə isə Zaqatala şəhər 1 nömrəli məktəbində orta təhsil alıb.

O, 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin sənaye və mülki tikinti şöbəsinə qəbul olunub, 1975-ci ildə həmin institutu müvəffəq qiymətlərlə bitirmişdir. M.Əliyev 1977-ci ildə Marksizm-Leninizm Universitetinin iqtisadi təbliğat şöbəsini bitirib.

O, 1968-ci ildə Qaz Ümumittifaq Elmi-Tədqiqat İnstitutunda I dərəcəli fəhlə kimi ilk əmək fəaliyyətinə başlamış və inşaat mühəndisi vəzifəsinədək yüksəlmişdir. 1971-1991 ci illərdə Bakı şəhər İcraiyyə Komitəsinin Əsaslı Tikinti İdarəsinin sahələrin tikinti üçün ayrılması və hazırlanması şöbəsində mühəndis, şəhər abadlaşdırma şöbəsinin müdiri, məzillərin uçotu, bölüşdürülməsi və kooperativ təsərrüfatı idarəsinin rəisi, əsaslı tikinti idarəsinin rəis müavini, baş mühəndisi və rəisi vəzifələrində çalışmışdır.

M. M. Əliyev daha sonra Bakı şəhər İcraiyyə Komitəsinin Mənzil-Kooperativ Təsərrüfatı İdarəsinin rəisi (1991-1992-ci illər), Bakı Baş Tikinti İdarəsinin Əsaslı Tikinti İdarəsinin rəisi (1992-1993-cü illər), Gömrük Komitəsinin Əsaslı tikinti və maddi texniki təchizat idarəsinin rəisi (1993-1995-ci illər), "Azərsənayetikintimaterialtəchizat" trestinin baş mühəndisi (1996-cı il), Dövlət Ekologiya Komitəsinin tikinti obyektlərinə nəzarət və ekoloji ekspertiza şöbəsinin rəisi (1996-1999-cu illər), Mənzil Kommunal Təsərrüfatı Komitəsinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin "Azərsukanaltəmir" İstehsalat Birliyinin baş direktoru (1999-2004- cü illər), "Azəraqrarsukanallayihə" Dövlət Baş Layihə İnstitutunun direktor müavini (2004-2005-ci illər) və Dövlət Tikinti və Arxitektura Komitəsinin Mənzil-Kommunal Siyasəti və Əhaliyə Xidmət şöbəsinin müdiri (2005-2006-ci illər) vəzifələrində çalışmışdır.



"Gülüstan" Sarayı bacarıqlı inşaatçı – mühəndis Məhəmməd Əliyevin tikintisində çalışdığı onlarla obyektlərdən biridir.

M. M. Əliyev 2010-cu ilə kimi Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Ərazilərin mühəndisi təminatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, 2010 cu ildən 2011-ci ilin martına kimi Dövlət Hidrometerologiya Komitəsində Ərazilərin keyfiyyətinə dövlət nəzarəti idarəsinin rəisi, 2011-ci ilin martından "Azərsu" ASC-nin Tikinti Departamentinin rəis müavini, 2012-ci ilin iyulundan isə "Azərsu" ASC-nin "Sukanal" Elmi-Təqdiqat və Layihə İnstitutunun direkroru vəzifəsində çalışır.

M. M. Əliyev hansı vəzifədə çalışıbsa onun fəaliyyəti paytaxt Bakı şəhərinin tikinti və abadlıq işləri ilə, şəhər sakinlərinin mənzil problemi ilə bağlı olmuşdur. Əhmədli, Günəşli, Hövsan, Ələt və Pərəküşkül qəsəbələrinin salınmasında, orada minlərlə yaşayış evinin tikilməsində M.Əliyevin böyük zəhməti vardır. Həmçinin "Gülüstan" sarayı, "Semaşko" xəstəxanası, Kirov Parkının (indiki Şəhidlər Xiyabanının) abadlaşdırılması, bu günkü Prezident iqamətgahı, saysız-qədərsiz məktəblər, ATS-lər onun ömür kitabına yazılmış obyektlərdir.

Ailəlidir 3 övladı – 2 oğlu, 1 qızı, 4 nəvəsi var. Övladlarının hamısı ali təhsillidir.



Əliyev
Mirmehdi
Heydər oğlu

30 noyabr 1938-ci ildə Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olmuşdur. 1957-ci ildə Lənkəran şəhərindəki 1 nömrəli orta məktəbi, 1967-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir.

M. H. Əliyev ali məktəbi bitirən kimi təyinatla Lənkərana göndərilmişdir. Kənd Tikintisi Nazirliyinin Lənkərandakı 32 nömrəli tikinti-quraşdırma idarəsində iş ustası, iş icraçısı və idarənin baş mühəndisi vəzifələrində çalışmış, rayonda tikilən sosial-mədəni və sənaye obyektlərinin vaxtında və keyfiyyətlə istismara buraxılmasında fəal iştirak etmişdir. Bacarıq və qabiliyyətini nəzərə alaraq rayonda yaranan 30 nömrəli mexanikləşdirilmiş səyyar dəstənin rəisi vəzifəsinə irəli çəkilmişdir. 1973-1982-ci illərdə bu idarəyə məharətlə rəhbərlik etmiş, böyük uğurlar qazanmışdır.

M. H. Əliyevin qabiliyyət və bacarığını nəzərə alıb ona böyük etimad göstərilərək Kənd Tikintisi Nazirliyinin Masallıdakı 3 nömrəli tikinti trestinin müdiri təyin olunmuşdur. Respublikanın cənub bölgəsində baş podratçı təşkilat kimi fəaliyyət göstərən 3 nömrəli kəndtikinti trestinin kollektivi onun bilavasitə rəhbərliyi altında Cəlilabad, Masallı, Lənkəran, Lerik və Yardımlı rayonlarının ərazisində 2 konserv kombinatı, 3 min tonluq tərəvəzilik, ilkin soyuducu stansiyası, 12 məktəb binası, 3 kənd soveti üçün inzibati bina, rayon partiya komitəsi üçün 4 inzibati bina, kərpic zavodu, 3 şərab emalı zavodu, 2 mərkəzi xəstəxana kompleksi, 1 uşaq xəstəxanası, 6 aptek binası, 3 çay fabriki, 2 süd zavodu, televiziya ötürücü stansiyası, ümumi yaşayış sahəsi 26 min kvadrat metrdən çox olan beşmərtəbəli yaşayış evləri, bir neçə istehsalat bazası və s. tikilib istifadəyə verilmişdir.

O, 1989-1993-cü illərdə Lənkəran Şəhər Sovetinin sədri vəzifəsində işləmişdir.

Tikinti kompleksində məsul və rəhbər vəzifələrdə işlədiyi müddətdə çoxlu səmərələşdirici təkliflər irəli sürmüş, briqada podratı üsulunun cənub bölgəsində geniş yayılmasına rəhbərlik etmiş, uğurlar qazanmışdır. 1978-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə və "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

M. H. Əliyev Lənkəran Şəhər Sovetinin sədri vəzifəsində işlədiyi illərdə öz seçicilərinin etimadını qazanmışdır. 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Hazırda təqaüdçüdür.



Əliyev
Mirzalı
Əmiralı oğlu

1927-ci ildə Ucar rayonunun Lək kəndində anadan olmuşdur. 1943-cü ildə kənd yeddiillik məktəbi bitirib Bakı Kənd Təsərrüfatı Texnikumunun mühasibat şöbəsinə daxil olmuşdur. 1947-ci ildə texnikumu bitirib öz doğma rayonuna təyinat almış və Alpout kəndindəki kolxozda baş mühasib kimi əmək fəaliyyətinə başlamışdır.

Sonra o, Kənd Təsərrüfatı Nazirliyinin sərəncamı ilə Zərdab rayonunda Maşın Traktor Stansiyasına mühasib göndərilmişdir (1950-ci il). Nazirliyin sərəncamı ilə 1951-ci ildə Müsüslü Maşın Traktor Stansiyasına mühasib vəzifəsinə köçürülmüdür. 1957-ci ildə isə nazirliyin sərəncamı ilə Göyçay rayonundakı Qara Məryəm MTS-nə baş mühasib təyin edilmişdir. 1958-ci ildə MTS ləğv olunduğu üün onun bazasında yaranmış idarədə baş mühasib işləyib.

M.Ə. Əliyev öz ərizəsinə əsasən 1960-cı ildə vəzifəsindən azad edilmiş və az sonra həmin idarələr də ləğv edilmiş, M.Ə. Əliyev onun bazasında yaranmış Kənd Təsərrüfatı Texnologiyası Birliyində baş mühasib işləmişdir (1962-ci il).

M.Ə. Əliyev 1969-cu ildə Moskva Kooperasiya İnstitutunu qiyabi bitirmişdir. Kənd Təsərrüfatı Texnikası Birliyi 1971-ci ildə ləğv edildikdə köçürmə yolu ilə Respublika Texnikası Birliyinin mərkəzi aparatında mərkəzi mühasibliyin rəisi təyin edilmişdir. O, Aqrar Sənaye Dövlət Komitəsi yarananda (1986-cı il) köçürmə yolu ilə komitənin mühasibat şöbəsinə rəis təyin edilmişdir. Komitənin "Azərkəndtikinti" İstehsalat Birliyi yarananda birliyin baş mühasibi təyin olunmuşdur. (1989-cu il). 20 ilə yaxındır ki, tikinti kompleksinin ən iri qolu sayılan "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyətinin baş mühasibidir.



Əliyev
Mürsəl
Xurşud oğlu

1939-cu ildə Füzuli rayonunun Aşağı Rəfəndinli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən onra Bakıya gəlmiş və Bakı Politexnik Texnikumunda oxumuşdur. Texnikumu bitirən kimi Sənaye Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestində əvvəlcə fəhlə, az sonra briqadir işləməyə başlamışdır. İstehsalatdan ayrılmadan Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda ali təhsil alaraq inşaatçı-mühəndis ixtisası üzrə diplom almışdır. 1970-ci illərin sonu 1980-ci illərin əvvəllərində SSRİ-nin bir qrup inşaatçısı ilə Liviya Respublikasında Azərbaycan inşaatçılarını təmsil etmiş və bu ölkədə inşa edilən strateji obyektlərdə çalışmışdır.

M.X. Əliyev Azərbaycana qayıtdıqdan sonra öz doğma kollekvində - 4 nömrəli tikinti trestinin 46 nömrəli tikinti idarəsində kompleks briqadaya rəhbərlik etmişdir. Bakı şəhəri və onun ətraf kənd və qəsəbələrində tikilib istifadəyə verilmiş sosial-mədəni obyektlərdə, iri sənaye müəssisələrində, inzibati binalarda dəyərli əl izləri qoymuşdur. O, uzun illər idarənin Həmkarlar İttifaqı Komitəsində və Partiya Təşkilatında büro üzvü kimi də fəaliyyət göstərmiş, dəfələrlə başçılıq etdiyi briqada sosializm yarışında qalib gəlmışdır. M.X. Əliyev 4 nömrəli trestin 46 nömrəli tikinti idarəsində kompleks briqadaya rəhbərlik etdiyi illərdə onun və kollektivinin əməyi trestin və idarənin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Hazırda təqaüdçüdür.



Əliyev
Natiq
Nadir oğlu

1955-ci ildə Qasım İsmayılov rayonunda (indiki Goranboy) anadan olmuşdur. 1972-ci ildə orta məktəbi bitirmişdir. Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş (1972-ci il) və həmin institutun sənaye və mülki tikinti fakültəsinin axşam şöbəsini bitirmişdir (1980-ci il).

N.N. Əliyev əmək fəaliyyətinə Bakıdakı 26 Bakı Komissarları adına mətbəədə çilingər kimi başlamışdır (1972-1975-ci illər). 1975-1977-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

O, 1977-1996-cı illərdə Sənaye Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestinin 41, 42 nömrəli tikinti idarələrində fəhlə, iş ustası, iş icraçısı, texniki istehsalat şöbəsinin aparıcı mühəndisi vəzifələrində çalışmışdır.

1996-1998-ci illərdə isə "Azərsənayetikinti" Dövlət Şirkətinin Mənzil-Kommunal İdarəsində rəis müavini kimi fəaliyyət göstərmişdir. 1999-cu ildən hal-hazıra kimi "Azərsənayetikinti" Açıq Səhmdar Cəmiyyətində texniki və layihələrin qiymətləndirilməsi şöbəsinin rəis müavini vəzifəsində işləyir.

N.N. Əliyev Bakı və onun ətrafında inşa edilən bir sıra mühüm obyektlərdə səmərəli əl izləri qoymuşdur. Bakı Radio zavodu, Elektron-Hesablama maşınları zavodu, Leytenant Şmidt adına Maşınqayırma zavodu, Montin adına Neft Maşınqayırma zavodu, bir neçə sosial-mədəni obyektlər də bu sıradandır.

O, tikintisinə rəhbərlik etdiyi bütün obyektlərdə işin keyfiyyətlə və məsuliyyətlə yerinə yetirilməsinə, vaxtdan səmərəli istifadə olunmasına və texniki təhlükəsizlik tədbirlərinə ciddi riayət olunmasına hər zaman xüsusi diqqət yetirmiş və nail olmuşdur.

Bir çox səmərəli təklifləri ilə dövlətə xeyli miqdarda xeyir vermişdir. Dəfələrlə idarə, trest, nazirlik və həmkarlar ittifaqı təşkilatları tərəfindən fəxri fərman və tərifnamələrlə təltif olunmuşdur.



Əliyev
Ramiz
Cahangir oğlu

Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, qədim Arpa çayının yaxınlığında yerləşən Qarxun kəndində anadan olub.

1970-ci ildə Qarxun kənd orta məktəbini bitirdikdən sonra o, həyatını respublikamızın paytaxtı Bakı şəhəri ilə baglayıb. 1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun mülki və sənaye tikinti fakultəsinin qiyabi şöbəsinə daxil olsa da tezliklə qiyabi təhsil alaraq inşaat mühəndisi ixtisasına yiyələnməyin cox cətin olduğunu düşünərək institutdan sənədlərini geri alıb və Bakı şəhərinin təmir-tikinti idarələrinin birində fəhlə işləməyə başlayıb. Fəhlə yataqxanasında həyat məktəbi keçə-keçə inşaat mühəndisi olmaq arzusundan əl cəkməyib. Tikintidə işləməyin çətinliklərinə baxmayaraq hazırlaşaraq növbəti ildə Azərbaycan Politexnik Institutunun sənaye və mülki tikinti fakultəsinin axşam şöbəsinə daxil olmuş və böyük həvəslə gündüzlər işləyərək axşamlar ali təhsil almağa başlamışdır.

R.C. Əliyev 1972-1974-cü illərdə Sovet Ordusu sıralarında hərbi xidmət borcunu yerinə yetirdikdən sonra Bakıya dönmüş və işləyərək təhsilini davam etdirmişdir. O, 1980-ci ildə institutu bitirdikdən sonra Bakı Baş Tikinti İdarəsinin 2 nömrəli Evtikmə Kombinatında quraşdırma sahəsinin iş ustası vəzifəsində işləməyə başlamış və bununla da həyatının yeni və böyük bir səhfəsinin başlanğıcını qoymuşdur.

R.C. Əliyev 1980-83-cü illərdə gecə və gündüz işin qaynadığı 2 nömrəli Evtikmə Kombinatında quraşdırma sahəsinin iş icracısı, baş inşaatçının quraşdırma və tamamlama sahələri üzrə müavini vəzifələrində işləmişdir.

O, 1983-84-cü illərdə 22 nömrəli tikinti idarəsində rəis, 1985-1990 illərdə 2 nömrəli Evtikmə Kombinatında direktorun tikinti işləri üzrə müavini vəzifələrində işləməklə o illərdə dövlət orqanlarının cox böyük əhəmiyyət verdiyi və ciddi nəzarət altında saxladığı yaşayış binalarının tikintisində böyük əmək sərf etmişdir.

Bu illərdə Yeni Əhmədli, Yeni Günəşli, Hövsan, Yasamal, Bakıxanov, Müşfiqabad və digər yaşayış massivlərinin tikintisi başlanıldı və təhvil verildi. Hər il 160-165 min kvadrat metr yaşamağa tam hazır yaşayış sahəsinin istifadəyə verilməsi cətin olsa da, gecəli-gündüzlü 3 növbə işləməklə buna nail olunurdu.

R.C. Əliyev bu illərdə istər mühəndis-texniki, istərsə də fəhlə və briqadirlər arasında öz inşaatcı sənətini ürəkdən sevən, işinə vicdan və məsuliyyətlə yanaşan, şərəfli və ləyaqətli insanlarla bir kollektivdə işlədiyinə görə hər zaman qürur duyur. Bu kollektivdəki insanlar qarşıdakı məqsədə catmaq ücün əsil fədakarlıq nümayiş etdiriblər və bunun nəticəsi olaraq 1986, 1987-ci illərdə 2 nömrəli Evtikmə Kombinatının kollektivi kecmiş Sov. İKP Mərkəzi Komitəsinin, ÜİLKGİ MK-nın və ÜİHİMŞ-in Keçici Qırmızı Bayrağına layiq görülmüşdür.Tikdikləri binalarda axşamlar işıq gələn mənzillərin sayı coxaldıqca, gündəlik 12-15 saatlıq iş nəticəsində yaranmış yorğunluğu unudaraq yeni mənzillərə köçən sakinlər qədər onlar da sevinirdilər...

R.C. Əliyev 1992-2000-ci illərdə Bakı Baş Tikinti İdarəsinin "Tiikintikonstruksiya" İstehsalat Birliyində baş direktorun muavini vəzifəsində işləməklə tikinti sənayesinin sirlərinə dərindən yiyələnmişdir.


Bu illərdə ölkəmizdə cox böyük ictimai-siyasi hadisələr baş verdi. Ulu öndər Heydər Əliyev ikinci dəfə respublika rəhbərliyinə qayıtdıqdan sonra həm xalqımızın, həm də dövlətçiliyimizin tarixində yeni bir dövr, quruculuq-iqtisadi inkişaf dövrü başlandı. Bazar iqtisqdiyyatı yolunu seçmiş respublikamızda bir sıra nazirliklər və baş idarələrlə yanaşı paytaxt Bakımızın tikintisində çox böyük işlər görmüş Bakı Baş Tikinti İdarəsi də ləğv olundu.

R.C. Əliyev 2000-2010 –cu illərdə bir sıra tikinti idarələrində baş mühəndis və müdir vəzifələrində işləmişdir.

2010-cu ilin avqust ayından isə, hörmətli prezidentimiz cənab İlham Əliyevin düzgün, balanslı siyasəti nəticəsində vüsət almış tikinti-quruculuq işində öz sözünü inamla deyən, dünyada analoqu olmayan, çox mürəkkəb və orijinal dizayna malik "HEYDƏR ƏLİYEV MƏRKƏZİ", "BAKI



Bakı Alovu Qüllələri





1. Heydər Əliyev Mərkəzi. **2.** "Şahdağ" Qış-Yay Turizm Kompleksi.

ALOVU QÜLLƏLƏRİ", "SAHDAĞ" Qış-Yay Turizm Kompleksi və digər əhəmiyyətli tikintilərin baş podratçısı olan "DİA HOLDİNG FZCO" Şirkətinin Azərbaycan Respublikasındakı Filialında baş mühəndis vəzifəsində işləyir.

Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyan, memarlıq həlli baxımından qeyri-adi formaya malik olan bu tarixi və analoqu olmayan möhtəşəm binanın tikintisində zəhməti olduğuna görə, həmçinin respublikamızın tarixinə qızıl hərflərlə yazılacaq bu iqtisadi inkişaf, quruculuq illərində aparılan tikinti işlərinin iştirakçısı olduğuna görə Ramiz müəllim fəxr duyur, qürur hissi keçirir.

R.C. Əliyev inanır ki, böyüdüb boya-başa çatdırdığı dörd övladı atalarının keçdiyi çətin və şərəfli həyat yoluna, zəhmətinin izi qalmış binalara baxdıqca həmişə fəxr edəcəklər.

R.C. Əliyev inanır ki, gənc olmasına baxmayaraq günü-gündən inkişaf edən, çiçəklənən respublikamızın gələcəyi parlaqdır və şərəfli inşaatçı, memar peşəsini seçmiş gənclərimiz gözəl və möhtəşəm binalar, körpülər, yollar tikərək cox qısa zaman ərzində ölkəmizi cənnətə cevirəcəklər.



Əliyev
Sənan
Sədi oğlu

1961-ci ildə Cəbrayıl rayonunun Şəybəy kəndində anadan olub. 1979-cu ildə orta məktəbi, 1989-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib.

S. S. Əliyev 1992-ci ildə Nəqliyyat Nazirliyinin nəzdində Təmir-Tikinti İdarəsinin rəisi olarkən bir çox avtobus və taksi parklarının təmir və tikintisində fəal iştirak edib. 1995-ci ildən isə Bakı Akkumlyator zavodunun təmir və yenidənqurma işlərinə rəhbərlik edib.

O, 1997-ci ildən "Azəraqrartikinti" ASC-nin prezidenti Ağalar Vəliyevin Sərəncamı ilə Bakı "Yerlitikintimaterialları" filialının baş mühəndisi, 2000-ci ildən isə rəisi vəzifəsinə təyin olunub.

Sənan müəllim ailəlidir, iki oğlu, bir qızı və bir nəvəsi var.

S.S. Əliyev 1992-ci ildən ölkə tikintisindədir. 20 il az vaxt deyil. Deyək ki, bu 20 ilin 15-i "Azəraqrartikinti"də - Ağalar Vəliyevin rəhbərliyi altında keçib. Bu illər onun üçün sözün əsil mənasında böyük tikinti məktəbi olub. Sənan müəllimin nəslində inşaatçı olmayıb. O, bu sənətə özü gəlib, taleyini bu peşəyə bağlayıb və özü də hiss etmədən bu xeyirxah sənətin sehrinə düşüb və uğurlar qazanıb.

Filialın adı barədə bir neçə kəlmə. Bakı "Yerlitikintimaterialları" filialı əvvəllər birlik olub və ancaq tikinti materiallarının istehsalı ilə məşğul olub və Sanqaçal qəsəbəsində yerləşib. 1996-cı ldə "Azəraqrartikinti" Dövlət Şirkəti yaradıldıqdan sonra isə bu birlik Bakı "Yerlitikintimaterialları" filialı kimi şirkətin daxilində fəaliyyətini davam etdirmişdir.

Sənan Əliyevin rəhbərlik etdiyi filialın kollektivi Tovuz rayonunda Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində bir neçə məktəbin tikintilərini aparıb.

Son illərdə Bakı "Yerlitikintimaterialları" filialının

inşaatçıları respublikamızın əksər bölgələrində çoxlu sayda tikinti-quruculuq layihələrini həyata keçirmişlər.

Balakən rayonunun Katex kəndində Katex çayının kənarında sahil-bəndvurma işləri, Ağdam rayonunun Ergi qəsəbəsində məcburi köçkünlər üçün 34 fərdi yaşayış evinin tikintisi, Biləsuvar rayonunda məcburi köçkünlər üçün 181 fərdi yaşayış evinin tikintisi, Nəsimi rayonunda 211 nömrəli orta məktəbin əsaslı təmiri, yenə Nəsimi rayonunda 152 nömrəli orta məktəbin əsaslı təmiri və dörd mərtəbəli 880 şagird yerlik yeni korpusun tikintisi, Bakı şəhəri Baş Təhsil İdarəsi binasının təmir və tikintisi, Xaçmaz rayonunun Çarxı kəndində, Quba rayonunun Xaroşa kəndində, Tovuz rayonunun Alakol, Əsrik Cırdaxan, Əhmədabad və Cəlilli kəndlərində, Gədəbəy rayonunun Xar-Xar və Dəyər Qara Bulaq kəndlərində, Lerik rayonunun Veri və Kələxan kəndlərində orta məktəb tikintiləri, Beyləqan rayonunun Əmirzeyidli kəndində orta məktəblərin və şəhər 6 nömrəli məktəbin, Oğuz rayonunun Sincan kəndində orta məktəbin və digər bir sıra sosial obyektlərin tikintiləri Bakı "Yerlitikintimaterialları" filialı kollektivinin son illərdə həyata keçirdikləri layihələrin müəyyən bir qismidir. Bakı şəhərinin Sabunçu rayonunda 22, 108, 209 nömrəli orta məktəb binalarının və 13 nömrəli peşə liseyinin əsaslı təmiri isə 2011-ci ildə başa çatdırılmışdır. Həmçinin Bakı şəhərinin Sabunçu rayonunda 109 və 321 nömrəli körpələr evi və uşaq bağçasının tikintisi də başa çatdırılmış və təhvilə hazırdır.

Hazırkı vaxtda isə Bakı "Yerlitikintimaterialları" filialının inşaatçıları Bakı şəhərinin Sabunçu rayonunda 128, 213 və 293 nömrəli orta məktəblərin və Nərimanov rayonu ərazisində 82 nömrəli orta məktəbin tikintilərini uğurla davam etdirirlər. Obyektlərin dördü də bu il istifadəyə veriləcəkdir. Qeyd edək ki, bu gün bu kollektivdə işləməklə öz güzəranlarını quran inşaatçılar burada aqrartikinti rəhbərliyinin hər cür qayğı və diqqəti ilə əhatə olunmuşlar. Aldıqları əmək haqqı onlara normal yaşamaq imkanı verib. Qayğı olan yerdə isə hər zaman məsuliyyətli iş olub, uğurlar qazanılıb və o kollektivdə xeyir-bərəkət olub. Kollektivin hər bir üzvü vahid məqsəd ətrafında yumruq kimi birləşib. Bu isə böyük uğurlara aparan yolun başlanğıcıdır.



Əliyev
Telman
Xurşud oğlu

3 aprel 1940-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Aşağı Rəfədinli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1958-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə (sənaye və mülki tikinti ixtisası üzrə) daxil olmuş, oranı 1963-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. Dövlət İmtahan Komissiyasının tövsiyəsi ilə institutda müəllim saxlanılmış və aspiranturaya zəmanət almışdır.

T.X. Əliyev V.V.Kuybışev adına Moskva Hərbi Mühəndislik Akademyasının kafedra rəisi, polkovnik-mühəndis, Rusiya Federasiyasının Əməkdar elm və texnika xadimi, professor A.P.Sinitsinin elmi rəhbərliyi ilə 1969-cu ilin fevralında disertasiya müdafiə edərək texniki elmlər namizədi alimlik dərəcəsi almışdır. Onun birinci opponenti SSRİ Elmlər Akademiyası Yer Fizikası İnstitutunun şöbə müdiri, dünya şöhrətli seysmoloq, 12 ballıq seysmik şkalanın əsas müəllifi (MSK-64) professor S.V. Medvedyev olmuşdur.

Professor T.X. Əliyev 46 ildən çoxdur ki, Azərbaycan Memarlıq İnşaat Universitetinin inşaat mexanikası kafedrasında çalışır.

O, 125-dən çox elmi məqalənin, 17 kitabın, 2 dövlət qeydiyyatından keçmiş kəşfin, 10-dan çox patentləşdirilmiş ixtiranın, 15 faydalı modelin, 3 nəzəriyənin, 3 elmi fərziyyənin, yüzlərlə elmi populyar əsərin müəllifidir. Onun "Təbiətin qadağan qanunları və ölümqabağı gümrahlaşmanın sirri" və "Canlılarda müxtəliflik (diversifikasiya) fenomeni və onun sirrinin açılması" adlı kəşfləri təbiət hadisələrini üzə çıxarmış, patentləşdirdiyi ixtiraları isə zəlzələ proqnozu və zəlzələyə davamlı qurğular yaradılması sahəsinə aiddir. O, öz tədqiqatları haqqında dəfələrlə beynəlxalq konqres və seminarlarda məruzə etmişdir. Onun rəhbərliyi altında Bakımetropolitenin zəlzələyə davamlılığı naturada sınaq yolu ilə öyrənilmişdir.

T.X. Əliyev 1996-cı ildən Beynəlxalq Ekonergetika Akademiyasının elmlər doktoru və professorudur. 1998-ci ildə o, həmin akademiyanın həqiqi üzvü, 2000-ci ildə Ukrayna İnşaat Akademiyasnın, 2008-ci ilin may ayında Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasnın akademiki seçilmişdir.

T.X. Əliyev Milli Geofizika Komitəsinin, Azərbaycan Seysmoloqlar Assosiasiyası Rəyasət Heyətinin, "Zadə" İrsi və Süni İntellekt Assosiasiyası Rəyasət Heyətinin, Üzeyir Bəy Hacıbəyov Cəmiyyətinin, Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyətinin, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin, respublika "Bilik" Maarifçilik, Mədəniyyət və İnformasiya Mərkəzinin İdarə Heyətinin üzvü, Respublika "Təhsil" Cəmiyyətinin, Azərbaycan Ağsaqqallar Şurasının Rəyasət Heyətinin, bir çox elmi şuraların, elmi jurnalların redaksiya heyətinin üzvüdür. Azərbaycan Milli Ensiklopediyasının elmi məsləhətçisidir.

T.X. Əliyev 1992-ci ildən Təhsil Sahəsində Nailiyyərə görə Mükafat Komitəsinin üzvüdür. "Elm və həyat" telejurnalının aparıcısı olmuşdur. Bir çağırış Bakı Şəhər Sovetinin deputatı (1990-cı il) seçilmişdir. Onun bir sıra təklifləri Bakı miqyasında həyata keçirilmişdir (Bakıda 2001-ci ildə fəvvarələrin açılışı, metronun bərbad hala salınmış Nərimanov stansiyasının ilkinliyinə qayıtması, metroda terrorun aradan qaldırılması üçün yoxlama-nəzarət sisteminin həyata keçirilməsi və s.).

O, ötən əsrin 80-ci illərində Moskvadan Nobel mükafatı laureatı, dahi fizik akademik Basovun imzası ilə Fəxri fərman almış, iki dəfə Ümumittifaq "Bilik" Cəmiyyətinin döş nişanı ilə təltif olunmuşdur. 1992-ci ildə Respublika Elmi Texniki Cəmiyyətinin müsabiqəsində qalib gələrək mükafat almışdır. 1993-cü ildə Akademik Yusif Məmmədəliyev adına beynəlxalq mükafat və onun adına olan medalla təltif olunmuşdur. 1999-cu ildə Beynəlxalq Ekoenergetika Akademiyasının qızıl medalına layiq görülmüşdür.

T.X. Əliyev 2002-ci ildə Amerika Bioqrafiya İnstitutunun "Dünyanın 500 elm lideri" nominasiyasının qalibi kimi, fərdi qaydada, əl işi kimi hazırlanmış ordenlə təltif olunmuşdur. Orden üzərində onun adı, soyadı və çalışdığı elm

sahəsi yazılmışdır: "Antiseysmik qurğular". Ona bu barədə beynəlxalq diplom da göndərilmişdir. Alimin aldığı məktubda yazılır ki, sizin adınız konqresin kitabxanasında əbədi saxlanmaq üçün yazılmışdır. 2003-cü ildə həmin institutun təqdimatı ilə yekdillikle "Amerikanın qüdrəti" ordeninin təsis üzvü seçilmişdir. 2004-cü ildə ABŞ-da nəşr olunmuş "Dünyanın İntelektual Liderləri" kitabında "Telman Xurşud oğlu Əliyev" adlı bioqrafiya çap olunmuşdur. Bundan sonra isə alimə 2005-ci ildə "Dünyanın İntelektual Lideri" qızıl medalı göndərilmişdir. Medalın üz tərəfində ingilis dilində "Dünyanın İntelektual Lideri", "Amerika Bioqrafiya İnstitutu, Amerikada istehsal olunmuşdur" sözləri yazılmışdır. Əks tərəfdə isə "Telman Əliyev-2004" həkk olunmuşdur.

T.X. Əliyev təhsil sahəsində qazandığı böyük nailiyyətlərə görə iki dəfə (1995-2000-ci illərdə) Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı ilə və 2003-cü ildə Respublika "Təhsil" Cəmiyyətinin "Təhsil sahəsində qazandığı böyük nailiyyətlərə görə" birinci mükafatına və birinci dərəcəli diploma layiq görülmüşdür. Həmçinin Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin və AR Jurnalistlər Birliyinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

29 mart 2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin birlikdə təşkil etdikləri "Azərbaycan alimlərinin sosial-iqtisadi inkişafda rolu" adlı elmi-praktik konfransda T.X. Əliyevin yeddi seçilmiş patenti (rekord nəticə idi) təmsil olunmuşdur. Konsfransın sərgi salonunda (AMEA-nın Rəyasət Heyətinin binasında) ona ayrılmış stenddə bu işlər nümayiş etdirilmiş və sahibkarların, mütəxəssislərin, alimlərin diqqətini cəlb etmişdir. Bu işlər eyni adlı kitabda da çap olunmuşdur.

26 apreldə "Ümumdünya Əqli Mülkiyyət günü" bayaramında Agentliyin təqdimatı ilə o, Az.TV-də novator-alim kimi "Günün nəbzi" verlişində canlı yayımda çıxış etmişdir. T.X. Əliyev "İnşaatçı" (1989-cu il), və "İnkişaf" (2006-cı il) qəzetlərinin redaksiya heyətinin, Azərbaycan Ağsaqqallar Şurası Rəyasət Heyətlərinin üzvüdür. (2009-cu il)



Əliyev
Tələt
Hacıağa oğlu

1937-ci ilin iyunun 11-də Bakıda İçəri Şəhərdə əsilli – köklü sadə bir azərbaycanlı ailəsində anadan olub. 1945-1955-ci illərdə şəhər 1 nömrəli məktəbində orta təhsil alıb. 1955-1960-ci illərdə Azərbaycan Politexnik İnstitutunun İstilik və ventilyasiya fakültəsində təhsil alıb.

O, təyinatla Bakı Baş Tikinti İdarəsinə göndərilmiş, əvvəlcə bu baş idarənin tabeliyində fəaliyyət göstərən Mərkəzi Tədqiqat Labaratoriyasında böyük mühəndis kimi ilk əmək fəaliyyətinə başlayıb. Sonra 11 nömrəli İxtisaslaşdırılmış Tikinti İdarəsində iş icraçısı, baş mühəndis və idarənin rəisi vəzifələrində çalışıb.

T. H. Əliyev sonrakı illərdə BBTİ "Baksantexelektrikquraşdırma" Trestinin 12 nömrəli İxtisaslaşdırılmış Tikinti idarəsinin rəisi, (1970-1985-ci illər) və "Baksantexelektrikquraşdırma" trestinin müdiri (1985-1990-ci illər) və Bakı Mənzil Təmir Trestinin müdiri (1990-1996-ci illər) vəzifələrində çalışıb.

1996-cı ildə respublikamızda özəlləşmə proqramı çərçivəsində Bakı Mənzil Mühəndis Təmir Tresti özəlləşdirilmiş və trestin bazasında "Rəvac" Sənaye – İnşaat Firması yaradılmışdır. Həmin vaxdan bu günə kimi Tələt Əliyev "Rəvac" Sənaye – İnşaat Firmasının baş direktoru vəzifəsində çalışır.

Tələt Əliyev 11 və 12 nömrəli İMİ-lərə,"Baksantexelektrikquraşdırma" trestinə, eləcə də Bakı Mənzil Mühəndis Təmir Trestinə rəhbərlik etdiyi illərdə paytaxtımız Bakı şəhəri onun əsas fəaliyyət meydanı olub.

Əli izi olan obyektlər:

Bakı Baş Tikinti İdarəsinin şəhərimizin müxtəlif ünvanlarında tikdiyi yüzlərlə çoxmərtəbəli yaşayış evləri, inzibati binalar, müxtəlif təyinatlı sosial obyektlər – poliklinikalar, xəstəxanalar, məktəblər, uşaq baxçaları, Ali Sovetin inzibati binası, "Moskva" mehmanxanası, Heydər Əliyev adına saray və bu sıradan digər yüzlərlə tikili.

T. H. Əliyev ailəlidir. Ömür-gün dostu Sevda xanım İncəsənət Universitetində müəllimədir. Üç övladı – iki oğlu, bir qızı və bir nəvəsi var. Övladlarının hər üçü ali təhsillidir.

T. H. Əliyev bu gün də əzmlə çalışır. "Rəvac" firması ilə Bakı şəhərində çoxlu sayda yaşayış binalarının istilik xətlərinin, qazanxanaların, daxili qaz sistemlərinin və kanalizasiya xətlərinin çəkilişini həyata keçirir.

Köhnə inşaatçı-mühəndis T. H. Əliyev bu gün də cavanlıq şövqü ilə işləyir.

Əliyev
Zülfü
Özbək oğlu

6 aprel 1949-cu ildə Saatlı şəhərində anadan olmuşdur. 1966-cı ildə Politexnik İnstitutunu bitirmişdir. Ordu sıralarında xidmət edərkən Moskvadakı hərbi hissədə tikinti sahəsinin rəisi vəzifəsində işləmişdir.

Z.Ö. Əliyev ordudan tərxis olunduqdan sonra Saatlıdakı 2 nömrəli tikinti quraşdırma idarəsində baş mühəndis, Kənd Tikinti Nazirliyinin 25 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstəsində rəis kimi fəaliyyət göstərmişdir. 90-cı illərin əvvəllərində Saatlı rayon XDS İcraiyyə Komitəsində sədrin birinci müavini, daha sonra isə Saatlı rayon İcra Hakimiyyəti başçısının müavini və birinci müavini və s. vəzifələrdə çalışmışdır.

Z. Ö. Əliyev 2000-2008-ci illərdə Saatlı bələdiyyəsinin sədri işləmişdir. Saysız hesabsız sosial-mədəni obyektlərin tikintisində, sənaye müəssisələrinin inşaasında əl izləri qoymuşdur. Hazırda sahibkarlıq fəaliyyəti ilə məşğul olur.



Əsədov
Nizami
Əsədulla oğlu

1950-ci il yanvarın 7-də Göyçay rayonunun İncə kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1967-ci ildə kənd orta məktəbini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun AVT fakültəsinin axşam şöbəsinə qəbul olmuş və 1973-cü ildə oranı bitirərək mühəndis-elektrik ixtisasına yiyələnmişdir. İnstitutun axşam şöbəsində təhsil aldığı üçün "Bakı Aqreqat İstehsalat

Layihə Birliyi"ndə (BAPKO) mühəndis-layihəçi vəzifəsində işləmişdir. İnstitutu bitirdikdən sonra 1973-1974-cü illərdə Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra 1974-cü ildən 1976-cı ilə kimi "Bakı Aqreqat İstehsalat Layihə Birliyi" nə qayıdaraq şöbə müdiri vəzifəsində işləmiş, 1977-ci ildən Kənd Tikintisi Nazirliyinin "Kəndtikintitəchizat" trestində mühəndis, 1977-ci ildən 1986-cı ilə kimi trestin şöbə müdiri vəzifəsində çalışmışdır. 1986-cı ildən 1987-ci ilə kimi "Aqrosənaye kompleksi"ndə şöbə müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

N.Ə. Əsədov 1987-1988-ci illərdə "Kəndtikintitəchizat" trestində baş mühəndis vəzifəsində, 1988-ci ildən 1997-ci ilə kimi isə həmin trestdə müdir vəzifəsində işləmişdir.

N.Ə. Əsədov Azərbaycanda inşa edilən bütün şərab zavodlarında, 8 süd-əmtəə fermasında, Bərdə, Mingəçevir, Salyan, Sabirabaddakı mehmanxanalarda, 40-60 mənzilli yaşayış evlərində, inzibati binalarda, Tovuz, Kəlbəcər, Beyləqan, Lənkəran rayonlarındakı istehsalat bazalarında, müxtəlif rayonlarda 24 məktəb binasında əl izləri qoymuş, irili-xırdalı 15-dək səmərəli təkliflər irəli sürmüşdür. Dəfələrlə fəxri fərmanlar, tərifnamələr almışdır.



Əsədullayev
Seyfulla
Səməd oglu

1953-cü ildə Naxçıvan MR Sərur rayonunun Alışar kəndində anadan olmuşdur. Sumqayıtdakı 7 nömrəli texniki-peşə məktəbini bitirən kimi (1969-cu il) Azərbaycan SSR Quraşdırma və Xüsusi Tikinti İşləri Birliyinin Qırmızı Əmək Bayrağı ordenli "Azneftkimyaquraşdırma" trestinin 1 nömrəli Sumqayıt Quraşdırma İdarəsində çilingər kimi əmək fəaliyyətinə başlamışdır. İstehsalatdan ayrılmadan Politexnik Texnikumunu bitirmişdir. Adi çilingərlikdən Sumqayıt Tikinti-Quraşdırma İdarəsinin rəisi vəzifəsinədək yüksəlmiş, tikinti idarəsində partiya təşkilatı katibi kimi fəaliyyət göstərmişdir, sahə üzrə nazirliyin komissiya üzvü olmuşdur.

S. S. Əsədullayev Sumqayıt Tikinti-Quraşdırma Məhdud Məsuliyyətli Cəmiyyətini təsis etmiş və hazırda həmin müəssisənin direktorudur.



Əsgərov
Rauf
Cəlal oğlu

1946-cı ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1953-cü ildə Bakıdakı 48 nömrəli orta məktəbin I sinfinə getmiş və 8-ci sinfi bitirən kimi Bakı Politexnik Texnikumuna daxil olmuşdur. 1965-ci ildə texnikumu bitirib təyinatla Sənaye Tikintisi Nazirliyinin Dəmir-Beton trestinin 8 nömrəli DBM zavodunda fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar bu müəssisədə betonçu, texniki nəzarət şöbəsinin nəzarətçisi olmuşdur. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat şöbəsinin axşam bölməsinə daxil olmuş və istehsalatdan ayrılmadan ali təhsil almışdır (1976-cı il).

R. C. Əsgərov tələbəlik illərində Sənaye Tikintisi Nazirliyinin Normativ Tədqiqatlar Stansiyasında çalışmışdır. 1974-1988-ci illərdə meliorasiya və su təsərrüfatı sistemində müxtəlif vəzifələrdə çalışmışdır. 1988-1990-cı illərdə Rusiya Federasiyasının Ryazan vilayətində tikinti idarəsinin rəis müavini, baş mühəndisi, rəisi vəzifələrində işləmişdir.

R. C. Əsgərov 1990-cı ilin noyabr ayında Sənaye Tikintisi Nazirliyinə köçürülmüş və həmin vaxtdan 2000-ci ilədək "Sənayetikintimexanizasiya" trestində məsul vəzifələrdə fəaliyyət göstərmişdir. 2000-ci ildən hal-hazıra qədər "Azərsənayetikinti" Səhmdar Cəmiyyətində sədr müavini vəzifəsində çalışır. Tikintidə işlədiyi müddətdə iri sənaye obyektlərinin tikintisində, sosial-mədəni obyektlərin inşasında, təzə qəsəbələrin salınmasında böyük əmək sərf etmişdir. Qaradağda inşa edilən terminalın, H.Əliyev adına Dərin Dəniz Özülləri zavodunun və s. obyektlərin tikintisində faydalı əməyi olmuşdur.



Əzimov
Hacı Elçin
Hacıbala oğlu

1949-cu ilin 1 may tarixində İmişli rayonunda anadan olmuşdur. 1967-ci ildə İmişli şəhərindəki 1 nömrəli orta məktəbi bitirmişdir.

Orta təhsilini başa vurduqdan sonra Moskva Korporativ İnstitutunun Bakı filialında ali təhsil almışdır. (1969-1973-cü illər). Əmək fəaliyyətinə fəhləlikdən başlamışdır. Bir qərinədən çoxdur ki, həyatını "Azərborukəmərtikinti" trestinə bağlamışdır. Ölkənin müxtəlif bölgələrində qaçqınlar üçün tikilən obyektlərdə, buraxılış obyektlərində dəyərli əl izləri qoymuşdur. İrili-xırdalı 30-dan çox səmərələşdirici təklifləri həyata keçmişdir. Onun başçılıq etdiyi kollektiv müstəqil respublikamızın müxtəlif bölgələrində olimpiya idman komplekslərinin keyfiyyətlə tikilib istsimara buraxılmasında fərqlənmiş, gərgin əmək sərf etmişdir.

F

Fərəcullazadə
Nadir
Mirzə Əzizulla oğlu
1931-ci ildə anadan olmuşdur. Əslən Cənubi Azərbaycandandır. Bakı Kənd Təsərrüfatı Texnikumunun inşaat fakültəsini bitirən kimi (1954-cü il) onu Şəki rayonunda fəaliyyət göstərən 55 nömrəli tikinti-quraşdırma idarəsinə göndərmişlər. İstehsalatda adı iş ustasından baş iş icraçısı vəzifələrinədək yüksəlmişdir.

N.M. Fərəcullazadə taleyini bütövlükdə Azərbaycanın kənd tikintisinə bağlamışdır. Respublikada geniş tanınan, tikinti korifeyləri sayılan Məmmədli Abbasov, Dadaş Asanov, Litvin Abasov, Tofiq Əhmədov, Şair Həsənov kimi ustadlarla bir sırada işləməklə onların dəyərli təcrübələrindən kifayət qədər bəhrələnmiş və bunun sayəsində Kənd Tikintisi Nazirliyində idarə rəisi vəzifəsinədək yüksəlmişdir.

Onun bilavasitə rəhbərliyi altında çoxsaylı sosial-mədəni obyektlər, iri istehsalat bazaları tikilmişdir. Müxtəlif rayonlarda inşa olunmuş 26 şərab zavodunda, 8 mehmanxana binasında, 44 məktəb, 26 uşaq bağçası, 8 xəstəxana kompleksində, 14 süd-əmtəə fermasında, 18 inzibati binada dəyərli əl izləri vardır. Səmərələşdirici kimi xeyli təkliflərin müəllifidir. Dəfələrlə diplomlara, fəxri fərmanlara layiq görülmüşdür.

FHN
Tikintidə
Təhlükəsizliyə Nəzarət
Dövlət Agentliyi
Azərbaycan Respublikasında, digər sahələrlə yanaşı, tikinti sahəsinin də sürətlə inkişaf etdiyi bir şəraitdə tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində dövlət səviyyəsində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası təkmilləşdirilmişdir.

Tikintidə təhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirilmiş tədbirlərdən biri də Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tərkibində Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin yaradılması olmuşdur.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2006-cı il tarixli, 1339 nömrəli Sərəncamı ilə ləğv edilmiş Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin tikinti sahəsindəki funksiyaları yeni yaradılmış mərkəzi icra hakimiyyəti orqanı – Fövqəladə Hallar Nazirliyinə verilmişdir. Həmin funksiyaların yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2006-cı il tarixli 394 nömrəli Fərmanı ilə Fövqəladə Hallar Nazirliyinin strukturunda Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2006-cı il tarixli, 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"yə əsasən, Agentlik ölkə ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edən, bu siyasətin həyata keçirilməsini təmin edən və həmin sahədə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

Agentlik qanunvericiliklə ona həvalə olunmuş vəzifələrini öz Aparatının şöbələri və strukturuna daxil olan bölmələri vasitəsilə, habelə Nazirliyin tabeliyində olan qurumlar, digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə yerinə yetirir.

Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edir, bu siyasətin həyata keçirilməsini təmin edir və həmin sahədə dövlət nəzarətini həyata keçirir;

- Nazirliyin digər struktur bölmələri, müvafiq dövlət orqanları ilə birlikdə ərazilərin, bina və qurğuların fövqəladə hallardan müdafiəsi və nəticələrinin aradan qaldırılmasının təşkilində iştirak edir;

- Agentliyin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

- Agentlik qanunvericiliklə onun səlahiyyətlərinə aid olan digər istiqamətlərdə də fəaliyyət göstərir.

Qurumun göstərdiyi xidmətlər: Mühəndis-axtarış xidmətləri (mühəndis-geodeziya, mühəndis-geoloji axtarış işləri, qruntların laboratoriya tədqiqatı); İnşaat materiallarının xassələrinin və keyfiyyət göstəricilərinin tədqiqi; Layihə-smeta sənədlərinin dövlət ekspertizası; Tikintidə qiymətqoyma və smeta normalaşdırılması üzrə xidmətlər; Bina və qurğuların layihələndirilməsi; İnşa edilməkdə olan və ya tikintisi başa çatmış bina və qurğuların seysmik dayanıqlıq göstəricilərini və tikinti zamanı qüvvədə olan normativ sənədlərin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə vizual və instrumental (kompleks) müayinə işlərinin aparılması.

Agentliyin qurumları:

Baş Dövlət Tikinti Müfəttişliyi respublika ərazisində I və II məsuliyyət səviyyəli bina və qurğularda aparılan tikinti-quraşdırma işlərinin müvafiq tikinti norma və qaydalarının, standartlarının tələblərinə və layihə sənədlərinə uyğunluğunu, qanunvericiliklə nəzərdə tutulmuş sənədlərin və razılaşdırılmaların mövcudluğu və tikinti obyektlərinin istismara qəbulunda müvafiq qaydalarına riayət edilməsinə dövlət nəzarətini həyata keçirən dövlət orqanıdır.

Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdiriyyəti fövqəladə halların qarşısını alınması və nəticələrinin aradan qaldırılması üçün dövlət büdcəsi və büdcədənkənar vəsaitlər üzrə sifarişçi funksiyalarını yerinə yetirən dövlət orqanıdır.

Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsi layihəqabağı və tikinti layihə sənədlərinin layihələndirmə və smeta üzrə tikinti və şəhərsalma norma və qaydalarının tələblərinə, verilən texniki şərtlərinə, müvafiq razılaşdırılmaqların mövcudluğuna, mühəndis-geoloji nəticələrinin uyğunluğuna və ümumiyyət-

lə inşa olunacaq bina və qurğuların dayanıqlığını, o cümlədən seysmik təsirlərə davamlılığı üzrə normativ tələblərə uyğunluğuna dövlət nəzarətini həyata keçirən qurumdur.

Tikintidə Qiymətqoyma Mərkəzi dövlət büdcə vəsaiti hesabına tikinti işlərinin aparılması üzrə smeta dəyərinin müəyyənləşdirilməsində dövlət nəzarətini həyata keçirən təsərrüfat hesablı hüquqi şəxsdir.

"Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu bina və qurğuların layihələndirilməsini həyata keçirən, tikintidə təhlükəsizliyə nəzarətin aparılmasına dair metodik-normativ sənədlərin və tövsiyələrin, tikintiyə dair digər normativ-texniki sənədlərin hazırlanmasında iştirak edən təsərrüfat hesablı prinsipi ilə fəaliyyət göstərən qurumdur. İnstitutun tərkibində Mühəndis-Geoloji, Topoqrafiya-Geodeziya və Seysmoloji Təhlil Mərkəzi fəaliyyət göstərir.

S.Ə.Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları İnstitutu inşaat materiallarının istehsalı və tikinti sənayesi sahələrində təhlükəsizliyin təmin edilməsi məqsədi ilə elmi-tədqiqat, layihə-konstruktor və təcrübə-sınaq işləri aparan, tikintiyə dair normativ-texniki sənədlərin hazırlanmasında iştirak edən təsərrüfat hesablı qurumdur.

"Azərinşaatlayihə" Dövlət Baş Layihə-Konstruktor və Texnoloji İnstitutu emal müəssisələrinin, eləcə də iqtisadiyyatın digər sahələrində obyektlərin, onlarla bağlı qurğuların, avadanlıq və sistemlərin, infrastruktur obyektlərinin layihələndirilməsini, tikinti ilə əlaqədar mühəndis-axtarış işlərini həyata keçirən təsərrüfat hesablı prinsipi əsasında fəaliyyət göstərən qurumdur.

"Azərdövlətlikintilayihə" Dövlət Layihə İnstitutu bina və qurğuların layihələndirilməsini həyata keçirən, tikintidə təhlükəsizliyə nəzarətin aparılmasına dair metodik-normativ sənədlərin və tövsiyələrin, tikintiyə dair digər normativ-texniki sənədlərin hazırlanmasında iştirak edən təsərrüfat hesabı prinsipi ilə fəaliyyət göstərən qurumdur.

"Azkommunlayihə" Kommunal Layihələndirmə İnstitutu tikililərin, o cümlədən kommunal təsərrüfatlı obyektlərinin layihələndirilməsini həyata keçirən, tikintidə təhlükəsizliyə nəzarətin aparılmasına dair metodiki-normativ sənədlərin və tövsiyələrin, tikintiyə dair digər normativ-texniki sənədlərin hazırlanmasında iştirak edən təsərrüfat hesablı prinsipi ilə fəaliyyət göstərən qurumdur.

G

"Gəncə Körpü Tikinti-2" Açıq Səhmdar Cəmiyyəti

Son vaxtlar respublikamızın prezidenti, möhtərəm İlham Əliyevin bilavasitə tapşırıq və tövsiyələri, diqqət və qayğısı nəticəsində respublikamızda bütün yollar və körpülər abadlaşdırılır, bərpa edilir, yenidən qurulur. Bu işdə öz dəsti-xətti, zəhməti olan müəssisələrdən biri də "Gəncə Körpü Tikinti-2" ASC-dir. Yarandığı vaxtdan indiyədək işini günün tələbləri səviyyəsində quran müəssisənin əsas prinsipi belədir: qarşıya qoyulan vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmək. Hər zaman yeniliklər tətbiq edən, uğurlu işlərə imza atan "Gəncə Körpü Tikinti-2" ASC-nin kollektivi hazırda gərəkli fəaliyyətini davam etdirir, insanların rahatlığı naminə bütün qüvvə və bacarığını sərf edir.

"Gəncə Körpü Tikinti-2" ASC respublika ərazisində körpü keçidlərinin, yolötürücülərinin, yeraltı keçidlərin, suötürücü boruların və avtomobil yollarının, eləcə də digər süni qurğuların tikintisi ilə məşğul olan azsaylı müəssisələrdən biridir. Bundan əlavə, müəssisə şəhər yollarında və avtomobil magistrallarında abadlıq işlərini, müxtəlif tikinti obyektlərində monolit və yığma dəmir-beton konstruksiyalarını tikinti-quraşdırma işlərini də həyata keçirir. Müəssisə rəhbərliyinin başlıca məqsədi daim irəli getmək, elmi-texniki tərəqqinin son nailiyyət-







M. Hadi küçəsi ilə Babək prospektinin kəsişməsindəki və Mikayıl Əliyev küçəsi ilə Babək prospektinin kəsişməsindəki yolqovşağı kompleksi


lərindən istifadə etmək, yeni istehsal texnologiyalarına yiyələnmək, görülən işləri beynəlxalq standartlar səviyyəsinə qaldırmaq, tapşırıqları keyfiyyətlə, təhlükəsiz, vaxtında, ekoloji və əmək mühafizəsi tələblərini pozmadan yerinə yetirmək və işçi personalının rifah halını yaxşılaşdırmaqla yanaşı, dövlətimiz üçün infrastrukturların inkişaf etdirilməsinə nail olmaqdır.

"Gəncə Körpü Tikinti-2" ASC 1975-ci ildə 2 saylı Körpü Tikinti İdarəsi kimi yaradılmışdır. 2001-ci ildən Səhmdar Cəmiyyət kimi fəaliyyət göstərir. Müəssisənin 37 illik istehsalat təcrübəsi vardır. Bu müddət ərzində kollektiv tərəfindən xeyli sayda körpü keçidləri, yolötürücüləri tikilmiş, avtomobil yolları salınıb istifadəyə verilmişdir.


1


2


3


4


5

1. Qazax rayonu, M2 Magistralı - Kəmərli avtomobil yolunun tikintisi. **2.** Qazax rayonu, M2 Magistralı - Aşağı Salahlı avtomobil yolunun tikintisi. **3.** "Oğuz-Qəbələ-Bakı" su kəmərinin çəkilişi layihəsi. **4.** Gəncə şəhərində, İmamzadə dini kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması. **5.** Sabirabad rayonu , Cavad kəndi ərazisində Kür çayı üzərindən körpünün tikintisi.

"Gəncə Körpü Tikinti - 2" ASC-də yüksək ixtisaslı və təcrübəli kadrlar cəmlənib. Müəssisədə tikinti təsərrüfatı sahəsində yüksək hazırlıq səviyyəsi olan peşəkarlar çalışır. Hal-hazırda müəssisədə 350-yə yaxın işçi qüvvəsi çalışmaqdadır.

"Gəncə Körpü Tikinti-2" ASC ilk dəfə Azərcaycan Respublikasında ölkə prezidentinin "Bakı şəhərində Nəqliyyat Sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı" sərəncamına müvafiq olaraq yanaşma divarları ilə birlikdə uzunluğu 2 kmdən artıq olan nəhəng körpü kompleksinin inşasını uğurla tamamlayaraq istismara vermişdir.


Yüksək keyfiyyət, inşaat norma və qaydalarına əməl etmək, tikintini vaxtında təhvil vermək, daim irəliyə doğru addımlamaq və bunun müqabilində böyük uğurlar qazanmaq "Gəncə Körpü Tikinti-2" Açıq Səhmdar Cəmiyyəti kollektivinin əməli fəaliyyətinin real nəticəsidir.

Qazax rayonu, M2 Magistralı - Aşağı Salahlı avtomobil yolunun, Qazax rayonu, M2 Magistralı – Kəmərli avtomobil yolunun, Sabirabad rayonu, Cavad kəndi ərazisində Kür çayı üzərindən körpünün, Ələt-Astara avtomobil yolunun (KM 0.0 - KM 9) tikintiləri, Gədəbəy-Qızıltorpaq-Qonaqlı a/yolunun 29-cu km-də Fındıqlıçay üzərində körpü keçidi, Gəncə Dolama avtomobil yolunun tikintisi, "Oğuz-Qəbələ-Bakı" su kəmərinin çəkilişi layihəsi, Kürdəmir-Ucar a/y tikintisi, Tovuz Dolama Yolunun tikintisi, M. Hadi küçəsi ilə Babək prospektinin kəsişməsindəki və Mikayıl Əliyev küçəsi ilə Babək prospektinin kəsişməsindəki yolqovşağı kompleksinin tikintisi, Suraxanı dairəsi yaxınlığında yolqovşağının inşaası, Sabunçu rayonu ərazisində dəmiryolu üzərindəki körpünün inşası, Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsindəki yolötürücüsüsünün inşası. Bakı-Ələt avtomobil yolunun tikintisi, Gəncə-Şəmkir avtomobil yolunun bərpası və yenidənqurulması və digər bir sira layihələr son bir neçə il ərzində "Gəncə Körpü Tikinti-2" ASC kollektivinin gərgin əməyi ilə hasilə gəlmiş və sifarişçilərə təhvil verilmişdir.

Hazırkı vaxtda isə "Gəncə Körpü Tikinti-2" ASC-nin inşaatçıları Masallı-Ələt avtomobil yolu Lənkərançay körpüsünün layihələndirilməsi və tikintisi, Bakı şəhəri, Z.Bünyadov prospektinin Ə.Rəcəbli küçəsi ilə kəsişməsində müxtəlif səviyyəli yol qovşağının tikintisi, Şamaxı şəhəri kənd yollarının tikintisi layihəsi, Gəncə şəhərində İmamzadə dini kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması, "Yevlax-Gəncə Avtomobil Yolunun 4 zolaqlı səviyyədə genişləndirməklə tikintisi" obyektlərində çalışırlar.

Müəssisənin maşın parkında dünyanın qabaqcıl texnika istehsalçılarının istehsal etdikləri Mercedes Benz, Ford, Kamatsu, Kato, Mann, Liebherr, Bomaq, Caterpillar, Casagrande, Solimec və s. markalı, yük maşınları, qreyderlər, buldozerlər, ekskavatorlar, qazma aqreqatları, müxtəlif tonnajlı mobil kranlar, yolbasan maşınlar (katok), yükləyicilər, asfalt yayan maşınlar, qoşqular, yarımqoşqular, beton mikserləri və s. bu kimi texnikalar vardır.

H



Hacılı
Ramiz
Əli oğlu

5 sentyabr 1937-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1955-ci ildə orta məktəbi qızıl medalla bitirib Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1960-cı ildə sənaye və mülki tikinti ixtisası üzrə mühəndis diplomu almışdır. 1968-ci ildə V.V.Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunun aspiranturasını bitirmiş, 1969-cu ildə namizədlik disertasiyası müdafiə etmişdir.

R.Ə. Hacılı 1968-1972-ci illərdə S. Dadaşov adına Elmi-Tədqiqat İnşaat Materialları İnstitutunda baş elmi işçi, 1972-1976-cı illərdə Azərbaycan Sənaye Tikinti Nazirliyinin 8 nömrəli Dəmir-Beton zavodunun direktoru, 1976-1980-ci illərdə respublika "Aqrotikinti" Birliyinin "Aqrotikintitəşkil" trestinin müdiri, 1987-1991-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda bölmə müdiri, 1991-1995-ci illərdə "Qaya" kiçik müəssisəsinin direktoru və 1995-2000-ci illərdə Qaradağ Sement zavodunda direktor mümavini vəzifəsində çalışmışdır.

R.Ə. Hacılı 19 may 1992-ci ildə V.V.Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunda doktorluq disertasiyası müdafiə edərək inşaat materialları və hissələri ixtisası üzrə texniki elmlər doktoru alimlik dərəcəsi diplomunu almışdır. 1999-cu ildən Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü, 2004-cü ildən isə həmin Akademiyanın akademikidir. R.Ə. Hacılıya 2005-ci ildə professor elmi adı verilib.

R.Ə. Hacılı Azərbaycan Memarlıq və İnşaat Universitetində artıq 10 ildir ki, Doktorluq Dissertasiyası üzrə Müdafiə Şurasının üzvüdür. 1993-cü ildən başlayaraq həmin universitetdə yarımştat üzrə müəllimlik edib. 2006-cı ildən respublikada yenicə yaradılmış Azərbaycan Mühəndislik Akademiyasnın həqiqi üzvüdür. 2007-ci ildən "Gilan Holdinq" şirkətində baş direktorun müavinidir.

R.Ə. Hacılı Qaradağ Sement zavodunda dağ işləri üzrə direktor müavini işləyərkən zavodun 45 il ərzində əhəngdaşı dağlarının partladılmasını dayandıraraq zavodda əhəngdaşı xammalı kimi daşkəsmənin tullantısının (şitb və but daşları) işlədilməsi texnologiyasını həyata keçirmişdir. Bu texnologiya milyardlarla manat qənaətlə bərabər ekoloji baxımdan da olduca faydalıdır. 45 il istifadə olunmuş gil karxanasından imtina edərək istismarı başa çatmış daş karxanasının altında tapılmış və milyon illər dəniz altında qalmış yeni gil yatağının işə buraxılması isə 1400 C temperatur şəraitində işləyən sobaların təmirsiz işləmə müddətini 5 dəfədən çox artırmaqla bərabər yüksək keyfiyyətli sement alınması üçün tutarlı zəmin yaratmışdır.

R.Ə. Hacılı yeni sinif kimyəvi səthi-aktiv maddələrin tədqiqinə, nəzəri işlənməsinə və onların təsir mexanizmlərinin, kolloid kimyanın müddəalarına istinadən öyrənilməsinə, ən səmərəli əlavələrin alınmış ilkin nəticələrə istinadən dəmir-beton məmulatları istehsalında tətbiqinə, kaolin gilləri əsasında odadavamlı materialların istehsalının nəzəri əsaslarına, sementin və betonun xassələrinin tənzimlənməsinə həsr olunmuş 150-dən çox elmi əsərin, o cümlədən 22 ixtiranın, 6 monoqrafiyanın, 5 dərs vəsaitinin, 120-dən çox elmi məqalələrin və hesabatların müəllifidir.

R.Ə. Hacılı Bakı Baş Tikinti İdarəsinin 1, 2 və 3 nömrəli evtikmə kombinatlarında xarici divarlar üçün keramzit beton panellərinə yüngüllük və istilik-izolyasiya qabiliyyəti vermək üçün havacəlbedici – sulfanol əlavəsinin qatılmasını təklif etmişdir. Təxminən 20 il müddətində kombinatlar təklif olunan üsul ilə həmin panelləri istehsal etmişlər.



Hacıyev
Faiq
Mustafa oğlu

15 avqust 1932-ci ildə Qazax rayonunda anadan olmuşdur. 1941-ci ildə Qazaxda 1 nömrəli orta məktəbə daxil olmuş və 1951-ci ildə orta məktəbi bitirib Azərbaycan Politexnik İnstitutuna qəbul olunmuş, 1957-ci ildə həmin institutun mülki və sənaye tikinti fakültəsini bitirərək təyinatla Bakı Baş Tikinti İdarəsində əmək fəaliyyətinə başlamışdır. 1973-cü ilədək Bakının tikinti meydançalarında iş icraçısı, sahə rəisi, 1 və 2 nömrəli evtikmə kombinatlarında sahə rəisi və s. məsul və rəhbər vəzifələrdə işləmişdir.

F.M. Hacıyev 1973-cü ildə Bakının indiki Xətai rayon sovetinə deputat seçilmiş və yerli sovetlərə seçkilərdən sonra burada rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsində sədr müavini vəzifəsinə seçilmişdir.

F.M. Hacıyev 5 il bu vəzifədə işlədikdən sonra 2 nömrəli tikinti trestinin 28 nömrəli tikinti idarəsinə rəis vəzifəsinə təyin olunmuşdur. Az sonra BBTİ-nin 16 nömrəli tikinti idarəsinə rəis vəzifəsinə köçürümüşdür. 80-ci illərin sonundan 1993-cü ilə kimi BBTİ-nin Sənayeləşdirilmiş Evtikmə İstehsalat Birliyində baş direktorun müavini vəzifəsində çalışmışdır. 1993-cü ildən təqaüdə çıxana qədər Azərbaycan Respublikası Yol Nəqliyyatı İdarəsində rəis müavini kimi fəaliyyət göstərmişdir.

F.M. Hacıyevin bilavasitə iştirakı ilə Bakıdakı 569-570-ci məhəllədəki 12 yaşayış evi, 1 məktəb, 1 uşaq bağçası, "Azərkinofilm" studiyasının binası, Respublika Xəstəxanası, Hövsan təmizləyici qurğu-

su, Dərin Dəniz Özülləri zavodu, bir neçə mikrorayonlarda mədəni-sosial obyektlər tikilmiş, müxtəlif bölgələrdə asfalt yollar çəkilmişdir. Qüsursuz işinə, səmərəli təkliflərinə, məhsuldar əməyinə görə müxtəlif mükafatlar almış, respublikanın Əməkdar İnşaatçısı fəxri adına layiq görülmüşdür.

Hazırda Bakı şəhəri Nizami rayon Ağsaqqallar Şurasının sədridir.



Hacıyev
Eldar
Məhərrəm oğlu

1936-cı ildə Qaryagin (indiki Füzuli) rayonundaı Kürd-Mahmudlu kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun yetirməsidir. Ali təhsilini başa vuran kimi Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin tikinti meydançalarında – İmişli, Saatlı, Beyləqan rayonlarındakı kənd təsərrüfatı əhəmiyyətli obyektlərdə, sosial-mədəni tikililərdə iş ustası, iş icraçısı, sahə rəisi, baş mühəndis və idarə müdiri kimi fəaliyyət göstərmiş və 500-dən çox vacib obyektdə əl izləri qoymuşdur.

E.M. Hacıyev bir qərinədən çox müddət ərzində həyatını kolxoz tikintisi bağlanmışdır. Əvvəlcə Beyləqandakı kolxozlararası tikinti idarəsində rəis, sonra isə Beyləqandakı 5 nömrəli kolxozlararası tikinti trestinin müdiri olmuşdur. Həmin illərdə Beyləqan, Ağcabədi, İmişli, Saatlı, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarında aparılan kolxoz tikintisində onun əməyi daha çoxdur. O, 10 ildən artıq Beyləqan "Aqrotikinti" Səhmdar Cəmiyyətinə sədrlik etmişdir. 1996-2006-cı illərdə məcburi köçkünlər və qaçqınlar üçün Biləsuvar, Füzuli və İmişli rayonlarında salınan təzə qəsəbələrdə E.M. Hacıyevin başçılıq etdiyi kollektiv daha böyük və sanballı işlər görmüşdür.

E.M. Hacıyev tikinti kompleksindəki uğurlarına, fəal işinə və səmərəli əməyinə görə bir neçə orden və medalla, fəxri fərmanlarla mükafatlandırılmış, dəfələrlə rayon və şəhər sovetinə deputat seçilmişdir. 2006-ci ildə vəfat etmişdir.



Hacıyev
Eldar
Müseyib oğlu

3 oktyabr 1945-ci ildə Salyan şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1962-ci ildə Salyanda orta məktəbi, 1968-ci ildə isə Bakı şəhərində M. Əzizbəyov adına Neft-Kimya İnstitutunu bitirmişdir.

E.M. Hacıyev 1968-1976-cı illərdə Azərbaycan SSR Kənd Tikinti Nazirliyinin maddi texniki təchizat idarəsində mühəndis, baş mühəndis, şöbə müdiri, rəis müavini işləmişdir. 1976-1983-cü illərdə isə "Azərkəndtikintidəstləşdirmə" trestinin müdiri işləmiş və Kənd Tikinti Nazirliyində kollegiya üzvü seçilmişdir. 1983-cü ilin sentyabrından 1986-cı ilin yanvarına kimi kənd tikinti nazirinin müavini olmuşdur. 1986-cı ilin yanvarından 1989-cu ilin aprelinədək Dövlət Aqrar Sənaye Komitəsinin "Azərsənayetikinti" İstehsalat Birliyinin rəis müavini işlə-

mişdir. Bu birlik ləğv olunduğu üçün 1989-cu ildə Dövlət Tikinti Komitəsinin Kənd Təsərrüfatı Birliyinin rəis müavini vəzifəsinə köçürülmüş və 1990-cı ilin avqustuna kimi bu vəzifədə işləmişdir.

E.M. Hacıyev 1990-cı ilin avqustundan 1992-ci ilədək "Aqrarsənaye" Komitəsinin sədr müavini – Kənd Təsərrüfatı, ərzaq nazirinin müavini işləmişdir. 1993-cü ilin may ayından noyabr ayınadək "Azəryeyintisənaye" Dövlət Şirkətinin maddi-texniki təchizat və nəqliyyat şöbəsinin rəisi, 1993-cü ilin noyabrından 1995-ci ilin yanvarınadək isə Kənd Təsərrüfatı Nazirliyinin "Azəraqrartəchizat" Mexanikləşdirmə Respublika İstehsalat Birliyi sədrinin birinci müavini vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. O, 1995-1996-cı illərdə Taxıl Məhsulları Dövlət Şirkətinin "Taxıl Birliyi"nin direktor müavini, 1998-2000-ci illərdə isə Abşeron Reginal Səhmdar Cəmiyyətinin Sabunçu və Binəqədi rayonlarındakı filiallarının rəisi işləmişdir. Azərbaycanda tikilib istismara buraxılan əksər obyektlərdə əl izləri qoymuş və buna görə dövlət mükafatlarına layiq görülmüşdür. Hazırda təqaüddədir.



Hacıyev
Nəcəfəli
İmaməli oğlu

25 avqust 1932-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvandakı 1 nömrəli orta məktəbi başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinə daxil olmuş və 1958-ci ildə həmin universitetin geoloji-coğrafiya fakültəsini bitirmişdir. Təyinatla Azərbaycan Geologiya İdarəsinə göndərilmişdir. 1958-ci ilin aprel ayına kimi həmin idarədə texnik-geoloq vəzifəsində işləmişdir.

N.İ. Hacıyev 1959-cu ilin aprel ayından 1964-cü ilin aprelinə kimi Kür-Araz Su Qurğuları Tikintisi Baş İdarəsinin Naxçıvandakı 6 nömrəli tikinti idarəsində labaratoriya müdiri, istehsalat-texniki şöbəsinin mühəndisi, şöbə rəisi, baş iş icraçısı və s. məsul vəzifələrdə fəaliyyət göstərmişdir. 1964-cü ilin aprel ayından 1965-ci ilin iyul ayına kimi Naxçıvan Muxtar Respublikasının Nazirlər Sovetində referent, 1965-ci ilin avqust ayından 1968-ci ilin sentyabr ayına kimi Naxçıvandakı 6 nömrəli tikinti idarəsinin rəisi işləmişdir.

N.İ. Hacıyev 1969-cu ilin dekabrında şəhər Sovetinə sədr seçilmiş, 1970-ci ilin dekabr ayına kimi bu vəzifədə fəaliyyət göstərmişdir.

N.İ. Hacıyev 1970-ci ildə Muğan Meliorasiya və Su Qurğuları Tikintisi Trestinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1977-ci ilin noyabrından "Azərkəndsukəmərləriinşaat" İstehsalat Birliyinə rəis vəzifəsinə köçürülmüşdür. 1983-cü ilin iyun ayından 1989-cu ilin mart ayına kimi Suriya Ərəb Respublikasında müqavilə rəhbəri olmuş və orada çox vacib işlər görmüşdür. 1993-cü ilin dekabr ayından 1996-cı ilin dekabr ayına kimi Azərbaycan Respublikası Taxıl Məhsulları Dövlət Şirkətində "Tikintisənayelayihə" İstehsalat Birliyinin rəisi – şirkətin vitse prezidenti, 1997-ci ilin iyun ayından 2002-ci ilin iyul ayına kimi Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin "Dövlətxəzərmühafizə"

Müfəttişliyinin rəisi vəzifəsində çalışmışdır. Hazırda təqaüdçüdür.

N.İ. Hacıyevin bilavasitə rəhbərliyi və iştirakı ilə ölkədə çox vacib kompleks meliorasiya işləri görülmüş, çoxlu qəsəbələr salınmış, su qurğuları tikilmişdir. 1963-2001-ci illərdə dəfələrlə Fransa, Norveç, Danimarka, Almaniya, Əfqanıstan, Rumıniya, Polşa, Macarıstan və digər ölkələrdə ezamiyyətlərdə olmuşdur.

N.İ. Hacıyev X və XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 1967-ci ildə Naxçıvan Muxtar Respublikasının fəxri fərmanları ilə təltif edilmişdir. Dövlət mükafatlarına – "İgidliyə görə" medalı (1968-ci il), "Fəxri Nişan" ordeni (1973-cü il), "Qırmızı Əmək bayrağı" ordeni (1980-ci il), "Xalqlar Dostluğu"ordeni (1986-cı il) ilə təltif olunmaqla yanaşı Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına (1982-ci il), SSR Nazirlər Sovetinin laureatı mükafatına (1982-ci il), Azərbaycan Respublikasının Əməkdar mühəndisi fəxri adına (1982-ci il) və Naxçıvan Muxtar Respublikasının Əməkdar İnşaatçısı (1988-ci il) fəxri adlarına layiq görülmüşdür.



Hacıyev
Oqtay
İmaməli oğlu

1936-cı il oktyabrın 15-də Naxçıvan şəhərində anadan olmuşdur. İxtisasca kənd təsərrüfatının iqtisadiyyatı və təşkili mütəxəssisi olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsini bitirmiş, əmək fəaliyyətinə Babək rayonundakı Cabbarov adına kolxozda mühasib köməkçisi kimi başlamışdır. Az sonra həyatını tikinti və abadlıq sahəsinə bağlamışdır.

O.İ. Hacıyev Azərbaycan SSR Mənzil Kommunal Komitəsinin Təmir Tikinti İdarəsində, Asfaltbeton zavodunda və komitənin aparatında məsul vəzifələrdə işləmiş, Naxçıvan Muxtar Respublikasının Mənzil Kommunal Təsərrüfatı nazirinin müavini vəzifəsinədək yüksəlmişdir.

O.İ. Hacıyev 1994-cü edən 2001-ci ilin iyuluna kimi, ömrünün son gününə qədər Naxçıvan MR Mənzil Kommunal Təsərrüfatı naziri vəzifəsində çalışmışdır. Harada və hansı vəzifədə işləyibsə, həmişə vətən, xalq üçün faydalı iş görməyə, fəhlə əməyini qiymətləndirməyə, insanlara ləyaqətlə xidmət etməyə, tikməyə, qurmağa və abadlaşdırmağa səy göstərmişdir. Qüsursuz və səmərəli əməyinə görə dövlət mükafatlarına layiq görülmüşdür.



Hacıyev
Rafiq
Zamin oğlu

1936-cı ildə Bakı şəhərində anadan olmuşdur. Tikinti kompleksində, o cümlədən quraşdırma işləri aparan təşkilatlarda iş ustası, iş icraçısı, texniki-istehsalat şöbəsinn rəisi, quraşdırma idarəsinin rəisi və 1965-1967-ci illərdə Azərbaycan KP MK-da təlimatçı vəzifələrində işləmişdir.

R.Z. Hacıyev 1974-cü ildən "Santexquraşdırma" Birliyində layihə quraşdırma üzrə rəis vəzifəsində çalışmışdır. 1989-1991-ci illərdə "Azquraşdırmaxüsusitikinti" Birliyində rəis müavini olmuşdur.

Bakıda metropolitenin, Prezident Administrasiyası binasının, Heydər Əliyev Sarayının, H. Əliyev adına İdman Sarayının, "Gülüstan" Sarayının, Bakı Məişət Kondisionerləri, "Azon" və "Neftayırma zavodlarının, "Azdənizneft", "Azneft", BBTİ-nin sənaye obyektlərinin, habelə Sumqayıt, Gəncə, DQMV, Şəki, Əli Bayramlı, Lənkəran və digər bölgələrdə mənzil, məktəb və iri sənaye obyektlərinin tikintisində fəal iştirak etmişdir.

O, tikintisində çalışdığı respublika əhəmiyyətli obyektlərdə işin keyfiyyətinə xüsusi diqqət yetirmiş, obyektlərin vaxtında istismara verilməsi üçün bütün imkanlardan maksimum istifadə etmişdir.

R.Z. Hacıyev "Qırmızı Bayraq" ordeni, "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuş, "Əməkdar inşaatçı" fəxri adına layiq görülmüş, SSRİ Ali Sovetinin Fəxri Fərmanını almışdır.

Hazırda təqaüdçüdür.



Hacıyev
Saleh
Hilal oğlu

Adı ölkəmizin tikinti-quruculuq tarixində korifey inşaat mühəndisləri ilə qoşa çəkilən Saleh Hilal oğlu Hacıyevin mənalı həyatının son 50 ili ölkəmizin tikinti-quruculuq tarixi ilə sıx bağlıdır.

S.H. Hacıyev 1932-ci ilin oktyabrın 25-də qədim Bərdə torpağında anadan olmuşdur. Zəhmətə bağlı insan olan atası Hilal kişi 1932-ci ildə Sovet rejiminin repressiyasına məruz qalmış və ailəsi ilə birlikdə Qırğızıstana sürgün edilmişdir. Onun əsli Bərdənin qədim nəsillərinə gedib çıxır. Hilal kişinin atası Qulu kişi XX əsrdə, babası Hacı Mehdi isə XIX əsrdə Bərdənin tanınmış insanlarından, ağsaqqallarından olmuşdur.

S.H. Hacıyev istehsalatdan ayrılmadan fəhlə-gənclər orta məktəbini bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun meliorasiya və su qurğuları tikintisi fakültəsinə qəbul olunub, təhsil illərində dərs əlaçısı olub, institutun ictimai işlərində fərqlənib, əvvəlcə fakültə, sonra isə institut komsomol komitə katibi olub. Ali məktəb auditoriyasında qazandığı elmi-texniki bilik, komsomol komitəsindəki ictimai iş, respublika və ümumittifaq miqyasında keçirilən tədbirlərdə iştirakı Saleh Hacıyevi daha da püxtələşdirib. O, 1957-ci ildə Politexnik İnstitutunu bitirmişdir.

S.H. Hacıyev əmək fəaliyyətinə 1950-1951-ci illərdə "KürArazsutikinti" Baş İdarəsinin "Qarabağsutikinti" trestinin 1 nömrəli tikinti idarəsində usta vəzifəsində işləməklə başlamışdır.

Bundan sonrakı vəzifə ardıcıllığı isə belədir:

Azərbaycan Politexnik İnstitutunun Komsomol Komitəsində və Azərbaycan LKGİ-nin Bakı Komitəsində katib (1957-1960-cı illər), "KürArazsutikinti" Baş İdarəsinin "Göyçaysutikinti" trestinin 3 nömrəli tikinti idarəsində baş iş icraçısı (1960-1961-ci illər), "KürArazsutikinti" Baş İdarəsinin 12 nöm-

rəli tikinti idarəsində Kürdəmirdə Kür çayı üzərində dükerin tikintisində tikinti rəisi, Lənkəranda 8 nömrəli Tİ-nin rəisi, "Lənkəransutikinti" trestinin müdiri (1961-1968-ci illər), "Azərmeliorasiyasutikinti" Baş İdarəsi rəisinin birinci müavini (1968-1971-ci illər), Azərbaycan SSR Kənd Tikinti naziri (1971-1974-cü illər), "Azərmeliorasiyasutikinti" Baş İdarəsinin rəisi (1975-1983-cü illər), Azərbaycan SSR Xüsusitikintiquraşdırma Nazirliyində nazir müavini (1983-1988-ci illər), Azərbaycan SSR Meliorasiya və Su Təsərrüfatı naziri (1988-1993-cü illər) vəzifələrində çalışmışdır.

Saleh Hacıyev 1995-1998-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda müəllim kimi fəaliyyətini davam etdirmiş, topladığı zəngin təcrübəsini tələbələrinə sevə-sevə öyrətmişdir.

S.H. Hacıyevin şəxsiyyət kimi, korifey mühəndis kimi, ictimai xadim kimi formalaşmasında Ümummilli liderimiz Heydər Əliyevin rolu əvəzsizdir.

Belə ki, S.Hacıyevin məqsədyönlü, səmərəli və səriştəli fəaliyyəti o dövrdə respublikaya rəhbərlik etmiş Ümummilli liderimiz Heydər Əliyev cənablarının diqqətini cəlb etmiş və ölkədə aparılan iri miqyaslı quruculuq işlərində respublikanın inkişafı naminə bacarıqlı və savadlı bir kadr kimi istifadə olunmasını zəruri hesab edərək onu Azərbaycan SSR-nin Kənd tikintisi naziri vəzifəsinə təyin etmişdir. Bu vəzifədə H. Əliyevin idarəetmə məktəbini mənimsəyən və işində özünü doğruldan Saleh Hacıyev onun göstərişi ilə daha məsuliyyətli, daha lazımlı və daha iri miqyaslı layihələr həyata keçirən bir təşkilata – respublikanın "Azərmeliorasiyatikinti" Baş İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Ötən əsrin altmışıncı-yetmişinci illərində ölkə tikinti kompleksində öz dəsti-xətləri ilə seçilən Polad Poladzadə, Əşrəf Allahverdiyev, Tofiq Səfərəliyev, Məmmədəli Abbasov, Dadaş Asanov, Litvin Abasov, Rəşid Sadıqov, Yaqub İzmayılov, Məzahir Abdullayev, Sərvər Bədəlbəyli, Kamil Axundov, Tofiq Əhmədov kimi tikinti ustadları ilə bir cərgədə dayanmış Saleh Hacıyev ölkəmizdə iri su qovşaqlarının, su anbarlarının, dəryaçalarının tikintisində, kanalların çəkilməsində, kompleks meliorasiya tədbirlərinin aparılmasında, yeni qəsəbələrin salınmasında var qüvvəsi ilə çalışmış, ölkə inşaatında Saleh Hacıyev adına başucalığı gətirən işlər görmüşdür.

Qafqazda ilk düker – Kür çayının altından su ötürücüsü, Xaçınçay su dəryaçasının tikintisi, Bəhramtəpə su qovşağı, Naxçıvançay tikintisi, Lənkəran-Astara ovalığında kompleks meliorasiya işləri, İsmayıllı rayonundakı Yekəxana su bəndi, Kür çayının altından keçən Mil-Qarabağ kollektorunun dükerləri və yüz min hektarlarla kompleks meliorasiya işləri, 20-dək rayonda salınan "Meliorator" qəsəbələri, Ağstafaçay, Viləşçay və Xanbulançay dəryaçaları, Madagiz su anbarı, Baş Mil kanalı və onlarca bir-birindən mühüm hidromeliorasiya, Azərbaycanda üzümçülüyün inkişafı sahəsi, meliorasiya tikinti sənayesi obyektlərinin tikintisi Saleh Hacıyevin bilavasitə rəhbərliyi altında tikilib istismara buraxılmışdır.

S.H. Hacıyev üç çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Və o, millət vəkili kimi həmişə öz seçicilərinin yanında olmuş, onların problem və qayğılarının həllini deputatlıq fəaliyyətinin əsas yönümü kimi qəbul etmişdir.

Azərbaycan SSR Meliorasiya və su təsərrüfatı naziri və "Azqur" Səhmdar Cəmiyyəti sədrinin müavini kimi fəaliyyət göstərdiyi illərdə onun bilavasitə rəhbərliyi altında respublikada görülmüş sanballı işlər tarixə düşmüşdür. Harada və nə vəzifədə çalışıbsa, həmişə uğur qazanıb. Vətən, dövlət, xalq qarşısında üzü ağ olub, hörmət qazanıb.

S.H. Hacıyev bir sıra xarici ölkələrdə olmuş, həmişə və hər yerdə Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Əməkdə və ictimai işlərdə fəal iştirakına görə bir neçə orden və medallarla təltif olunmuş, fəxri fərmanlar almışdır.

Saleh Hacıyevin ölkə tikintisindəki çoxşaxəli fəaliyyətini dövlətimiz yüksək qiymətləndirmiş, ona respublikanın "Əməkdar Mühəndisi" fəxri adı verilmişdir. Bu gün mübaliğəsiz deyə bilərik ki, Saleh Hacıyev respublikanın "Əməkdar Mühəndisi" fəxri adına hamıdan daha çox layiq olan inşaat mühəndislərindən idi. O, öz quruculuq fəaliyyətilə mühəndislik sənətinə böyüklük və ucalıq gətirmişdir.

Saleh Hacıyev 1971-1974 cü illərdə kənd tikinti naziri kimi Azərbaycanın bütün bölgələrində tikinti işləri aparmışdır. Meliorasiya və su təsərrüfatı yönümündə gördüyü böyük işlərlə yanaşı, kənd tikintisinə rəhbərlik etdiyi illərdə tikintisini apardığı yüzlərlə kənd tikinti obyektləri, sənaye kombinatları, kənd təsərrüfatı və yeyinti sənayesi məsullarının istehsalı obyektləri, quşçuluq-broyler fabrikləri, heyvandarlıq kompleksləri, respublikamızın bütün rayon və kəndlərinə səpələnmiş sosial mədəni-məişət və yaşayış binalarının obyektləri S.H. Hacıyevin inşaatçı-mühəndis karyerasının ayrıca bir səhifəsidir.

Bu illər ərzində demək olar ki, nazirliyinin idarəetmə strukturu yenidən qurulmuş, 4 yeni tikinti tresti yaranmışdır (Bərdə, Masallı, Füzuli, Xaçmaz). Müasir səviyyədə sənaye tikinti bazaları yaranmışdır.

O, eyni zamanda gözəl ailə başçısı idi. Həyat yoldaşı Zeynalova Əzizə Əsəd qızı Azərbaycan Xarici Dillər İnstitutunda kafedra müdiri, dosent, filologiya elmləri namizədi olmuşdur. 2 övladı, 4 nəvəsi vardır. Övladları Asəf, Fəridə, nəvələri Rəhim, Fərid, Vasif, Mehti onun xatirəsini daim uca tutur, onunla fəxr edir və onun adına layiq olmağa çalışırlar.

S.H. Hacıyev həm də gözəl alim idi. O, Azərbaycan Respublikasında 2010-cu iləqədək meliorasiya, irriqasiya və su təsərrüfatı tikintisinin inkişafı konsepsiyasının hazırlanmasında fəal iştirak etmiş və bu işə rəhbərlik etmişdir.

S.H. Hacıyev 23 dekabr 2004-cü ildə Prezident İlham Əliyev cənablarının sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşdür.

Saleh Hacıyev ömrünün son illərinəcən yorulmadan çalışır, öz bilik və təcrübəsini gənc nəslə öyrətməkdən məxsusi zövq alırdı.

Meliorasiya və su tikinti sahəsinin ən kamil mütəxəssislərindən olan, respublikanın Əməkdar mühəndisi Saleh Hacıyev 2011-ci ilin yanvarın 7-sində, 79 yaşında haqq dünyasına qovuşdu.

O, cismən aramızdan getsə də, mənən yaşayır və əzizləri, qohumları, iş yoldaşları, yaxınları onun xatirəsini daim uca tuturlar.

S.H. Hacıyev Azərbaycan tikinti kompleksinin say-seçmə ustadlarından idi.



Hacıyev
Söhbət
Qəhvəddin oğlu

1962-ci ildə Qusar rayonunun Pıral kəndində anadan olmuşdur. 1979-cu ildə orta məktəbi bitirmişdir. 1980-1989-cu illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun mülki və sənaye tikintisi fakültəsində ali təhsil almışdır. 1981-1983-cü illərdə Sovet Ordusu sıralarında xidmət edərkən hərbi dəniz donanmasında əsgəri borcunu yerinə yetirmişdir.

S.Q. Hacıyev Azərbaycan Sənaye Tikintisi Nazirliyinin 8 nömrəli Tikinti Trestinin 83 və 87 nömrəli tikinti idarəsində fəhlə, betonçu, dülgər, usta, iş icraçısı, sahə rəisi və rəis vəzifələrində işləmişdir. 1993-1998-ci illərdə rayonlararası Təmir Tikinti Birliyinin 1 nömrəli quraşdırma idarəsinin rəisi olmuşdur. 1998-ci ildən bu idarənin bazasında "İnşaat İstehsalat Təsərrüfat" Məhdud Məsuliyyətli Cəmiyyətini təsis etmiş və bu gün ona uğurla rəhbərlik edir.

Mərəzə, Şamaxı rayonlarında, Bakı və Sumqayıt şəhərlərində tikilən iri inzibati binalara, sosial-mədəni obyektlərə, sənaye ocaqlarında aparılan tikinti işlərinə bilavasitə rəhbərlik etmiş və bu gün də eyni istiqamətdə iş aparır. Fəal işinə və qazandığı uğurlara görə fəxri fərmanlar və təriflənamələr almışdır.



AFFA-nın inzibati binası tanınmış inşaatçı-mühəndis Söhbət Qəhvəddin oğlu Hacıyevin son illərdə tikib istifadəyə verdiyi onlarla obyektlərdən biridir.



Hacıyev
Tofiq
İslamxan oğlu

1949-cu ilin iyun ayının 1-də Füzuli rayonunun Merdinli kəndində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi, 1972-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. O dövrün qanunlarına əsasən, institutu bitirən kimi Sovet Ordusu sıralarına çağrılmış və 1972-1974-cü illərdə orduda baş leytenant rütbəsində rota komandirinin müavini vəzifəsində xidmət etmişdir. Sovet ordusu sıralarından tərxis olunduqdan sonra -1974-cü ildən 1989-cu ilədək Azərbaycan SSR Neftayırma və Neft Kimya Sənayesinin "Azneftkimyazavodtəmir" trestinin 3 nömrəli tikinti-quraşdırma idarəsində usta, iş icraçısı, baş iş icraçısı işləmişdir.

T.İ. Hacıyev 1989-2000-ci illərdə "Azneftkimyazavodtəmir" trestinin müdiri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin 22 mart 2001-ci il tarixli sərəncamı ilə "Azneftkimyazavodtəmir" tresti özəlləşməyə açılmış, trestin struktur vahidləri özəlləşmiş və şirkət prezidentinin sərəncamı ilə trest ləğv olunmuşdur.

T.İ. Hacıyev 2003-cü ildə şirkət prezidentinin sərəncamı ilə Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin "Azərdənizneft" trestinə sosial məsələlər üzrə müdir müavini vəzifəsinə təyin olunmuşdur. 2003-cü ilin may ayında ştat vahidinin ləğv edilməsi ilə əlaqədar işdən azad edilmişdir.

1972-2003-cü illər ərzində adi iş ustasından trest müdiri vəzifəsinədək yüksəlmiş T.İ. Hacıyevin başçılıq etdiyi kollektivin respublika iqtisadiyyatının inkişafında müstəsna rolu olmuşdur. Onun başçılıq etdiyi trest vaxtilə zəif maliyyə və istehsalat bazası olan geridə qalmış kollektivlər sırasında idi. T.İ. Hacıyev bu trestə müdir vəzifəsinə gələndən sonra çox güclü, qabaqcıl bir kollektivə çevrilmişdir. Trestin çevik maşın mexanizm parkı, dəmir-beton zavodu, armatur, taxta sexləri, beton və beton-dəmir, metal konstruksiyalara nəzarət edən müasir labaratoriyası günün tələbləri səviyyəsində yenidən qurulmuş, 1200 nəfərdən çox fəhlə, qulluqçu, mühəndis və texniki işçini özündə cəmləşdirən çox səmimi bir kollektiv formalaşmışdır.

T.İ. Hacıyev trestə rəhbərlik etdiyi illərdə neft sənayesi nazirliyinin işçiləri üçün 100-dən artıq çoxmərtəbəli yaşayış evlərinin tikintisinə bilavasitə rəhbərlik etmiş və 15-dən çox səmərələşdirici təkliflərin müəllifi olmuşdur. Görülən işin yüksək keyfiyyətinə və texnologiyanın yeniləşdirilməsinə görə Cenevrədə qızıl nişana layiq görülmüşdür (2005-ci il). Onun tabeçiliyində fəaliyyət göstərən 10 struktur vahidinin köməyi və fəaliyyəti ilə neft və kimya sənayesinin bir çox müəssisələrində mürəkkəb texniki qurğuların tikintisi və təmiri uğurla həyata keçirilmişdir. Trestin kollektivi xarici tikinti təşkilatları ilə birlikdə "Elo AVT" katalitik qeformik və digər mürəkkəb qurğuların tikinti və quraşdırılmasını başa çatdırmışdır.

O, 1976-1979-cu illərdə Bakı şəhər Partiya Komitəsinin təşəbbüsü və qərarı ilə İmişli rayonuna ezam olunmuş və bu rayonda 624 yerlik orta məktəb binasını yüksək keyfiyyətlə tikib istismara buraxmış, rayonda aparılan abadlıq işlərində fəal iştirak etmişdir.

T.İ. Hacıyev qüsursuz işinə, fəal həyat mövqeyinə, istehsalatdakı uğurlarına görə 3 iyun 1986-cı ildə SSRİ Ali Sovetinin Fərmanı ilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. 1989-2001-ci illərdə Bakı şəhəri Xətai rayon Direktorlar Şurasının sədri kabinetinin üzvü kimi fəaliyyət göstərmişdir.



Hacıyev
Vahid
Hilal oğlu

1941-ci il oktyabrın 25-də Bərdə rayonunda anadan olmuşdur. 1958-ci ildə Bərdə şəhər 2 nömrəli rus orta məktəbini bitirmiş və 1958-1960-ci illərdə Bərdə rayonu Dəmir-Beton zavodunda armaturçu işləmişdir. Xüsusi kursları bitirdikdən sonra 1960-1961-ci illərdə Bərdə kənd məktəbində müəllim işləmişdir.

V. H. Hacıyev 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə sənaye və mülki tikinti ixtisası üzrə əyani şöbəsinə daxil olmuşdur. 1963-1966-cı illərdə Sovet ordusu sıralarında xidmət etmişdir. Hərbi xidmətdən qayıtdıqdan sonra ailə vəziyyəti ilə əlaqədar institutda təhsilini axşam şöbəsində davam etdirərək 1969-cu ildə oranı bitirmişdir.

V. H. Hacıyev 1966-1967-ci illərdə SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin "Kür-Arazsutikinti" Baş İdarəsində texnik-layihəçi, 1967-1968-ci illərdə həmin təşkilatın 1 nömrəli trestinin 26 nömrəli tikinti idarəsində usta, 1968-1970-ci illərdə iş icraçısı və baş iş icraçısı vəzifələrində işləmişdir. O, daha sonra 1970-ci ildə "Azmeliosutikinti" Baş İdarəsinin Yevlax rayonunda yerləşən 5 nömrəli trestində istehsalat şöbəsinin rəisi, 1970-1972-ci illərdə həmin trestin Beyləqandakı 4 nömrəli SMD-sində baş mühəndis, 1972-1973-cü illərdə həmin trestin 14 nömrəli SMD-sində rəis, 1973-1974-cü illərdə 4 nömrəli trestin 19 nömrəli Zərdab tikinti idarəsində rəis vəzifələrində çalışmışdır.

V. H. Hacıyev 1974-1976-cı illərdə "Ortexsutikinti" trestində şöbə rəisi, 1976-1983-cü illərdə Sənaye Müəssisələri trestində baş mühəndisin müavini, 1983-1984-cü illərdə "Sənayemənzsiltikinti" trestində müdir müavini vəzifələrində işləmişdir. 1984-1987-ci illərdə SSRİ "Neftqaztikinti" Nazirliyinin "Azborutikinti" trestində müdir müavini, 1987-1992-ci illərdə "Azmeliosutikinti" Baş İdarəsinin "Samur-Abşeronsutikinti" trestinin rəisi vəzifəsində çalışmışdır.

V. H. Hacıyev 1992-1995-ci illərdə Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin Tikilməkdə olan Su Təsərrüfatı Obyektlərinin Birləşmiş Müdriyyətində müdir vəzifəsində işləmişdir. 1995-ci ildən bu günə qədər Meliorasiya və Su Təsərrüfatı Komitəsinin (2004-cü ildən Meliorasiya və Su Təsərrüfatı Agentliyi, 2009-cu ildən isə "Meliorasiya və Su Təsərrüfatı" ASC) Tikilməkdə olan Su Təsərrüfatı Obyektlərinin Birləşmiş Müdriyyətində rəis müavini vəzifəsində çalışır.

O, bu gün meliorasiya və su qurğularının tikintisi sahəsindəki zəngin təcrübəsini gənc kadrlara həvəslə öyrətməklə yanaşı, 10-15 il öncə olduğu kimi var qüvvəsi ilə çalışaraq "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin uğurlarına töhfə verməyə çalışır və buna nail olur.

V. H. Hacıyevin ölkə tikintisində əl izləri yüzlərlədir. Onun fəal rəhbərliyi altında Baş Mil kanalının çəkilişi, Köndələnçay Su Qovşağının, II növbə Bakı içməli su kəmərinin, su anbarlarının tikintisi və yenidən qurulması, Sənaye müəssisələrinin tikintisi, yenidən qurulması, Qarabağ-Mil-Muğan kollektoru, Füzuli, Cəbrayıl, Zəngilan, Beyləqan, Zərdab, Ucar, Yevlax, Bərdə, Tərtər, Ağdam, Ağcabədi və digər rayonlarda meliоratorlar qəsəbələrinin salınması, kolxoz və sovxozlarda kompleks meliorasiya işlərinin aparılması, onlarla məktəb və uşaq bağçalarının tikintisi böyük zəhmətlə tikilib başa çatdırılmışdır.

V. H. Hacıyev irili-xırdalı 20-dək səmərəli təklifin müəllifi kimi dövlətə milyon manatlarla xeyir vermişdir. Dəfələrlə fəxri fərmanlar, döş nişanları, pul mükafatları almış, Zərdab şəhər Sovetinə (1973-1975) və Abşeron rayon Sovetinə (1990-1992) deputat seçilmişdir.

Ailəlidir, 2 övladı, 5 nəvəsi vardır.



Həmidov
Bürhan
Əhməd oğlu

1957-ci ilin iyulun 1-də Göyçay rayonunun Haçılıkənd kəndində anadan olub. 1964-cü ildə Haçılıkənd 8 illik məktəbinin 1-ci sinfinə getmiş, 1974-cü ildə Qarabaqqal kənd orta məktəbini bitirmişdir. 1974-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin mülki sənaye tikinti şöbəsinə qəbul olmuş və 1979-cu ildə institutu müvəffəq qiymətlərlə bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmiş, təyinatla Tümen vilayətinin Nijne Vartovsk şəhərinə göndərilmiş, burada "Nijnevartovsknefttikinti" İdarəsində iş icraçısı kimi ilk əmək fəaliyyətinə başlamışdır.

B.Ə. Həmidov 1981-ci ildə Azərbaycana qayıtmış, Kənd Tikintisi Nazirliyinin Göyçay rayonundakı 182 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstəsində fəhlə kimi işə qəbul olunmuş, tikinti ustası və iş icraçısı kimi (1987-ci ilə kimi) Göyçay rayonunun tikintilərində çalışmışdır.1987-ci ildə kənd tikintisi sistemindən ayrılaraq Mənzil-Kommunal Təsərrüfatı Nazirliyinin Göyçaydakı təmir-tikinti idarəsinin rəisi vəzifəsinə təyin olunmuş və 1989-cu ilə kimi bu vəzifədə çalışmışdır. 1989-cu ildə Kənd Tikintisi Nazirliyinin 182 nömrəli MSD-nin rəisi vəzifəsinə işə qəbul olunmuş və taleyini həmişəlik kənd tikintisinə bağlamışdır. 2003-cü ilin iyulundan "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyətinin baş mühəndisi və podrat işləri üzrə sədr müavinidir.

B.Ə. Həmidov 182 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstənin rəisi işlədiyi illərdə Göyçay rayonunun ictimai həyatında yaxından iştirak etmiş, Göyçay rayon Sovetinin büro üzvü (1989-1992-ci illər), Göyçay rayon XDS İcraiyyə Komitəsində Rəyasət Heyətinin üzvü (1990-1992-ci illər) və Göyçay rayon Sovetinin deputatı (1990-1995-ci illər) olmuşdur.

Onun inşaatda keçən ömrünün hər günü yeni obyektlər, yeni əmək qələbələri demək idi. Göyçayda yüzlərlə gözəgəlimli obyektlər – 5 mərtəbəli yaşayış evləri, xəstəxana, polikilinika, uşaq başğçası və sosial

təyinatlı digər tikililər B.Ə. Həmidovun 182 nömrəli MSD-nin rəisi işlədiyi illərdə taleyinə yazdığı obyektlərdir. Sonrakı illərdə isə Prezident sərəncamlarına uyğun olaraq Füzuli rayonunun Haramı düzündə, Ağdamda və Biləsuvarda qaçqın və məəburi köçkünlər üçün qəsəbələrin salınmasında çalışmışdır. "Qara Heybət" hərbi şəhərciyinin, Heydər Əliyev Fondunun vəsaiti ilə, eləcə də Təhsil Nazirliyinin xətti ilə Ağcəbədidə və digər rayonlarda ərsəyə gələn bir neçə məktəbin tikintilərini aparmışdır.



Hənifəyev
Xudaverdi
Həsən oğlu

15 aprel 1943-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1966-cı ildə S.M.Kirov adına ADU-nun geoloji-coğrafiya fakültəsini, 1977-ci ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun hidromeiorasiya fakültəsini bitirmişdir. Ilk əmək fəaliyyətinə Azərbaycan SSR geoloji-kəşfiyyat ekspedisiyası idarəsində texnik-geoloq kimi başlamışdır (1964-cü il). Ali təhsilini başa vurduqdan sonra Ordubad rayonuna göndərilmişdir. 1966-1967-ci illərdə Ordubad geoloji-kəşfiyyat ekspedisiyası idarəsində geoloq işləmişdir.

X.H. Hənifəyev 1967-ci ildə Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin Naxçıvandakı texniki nəzarət bürosuna köçürülmüş və burada 1968-ci ilin noyabr ayına kimi baş mühəndis olmuşdur. 1968-ci ilin noyabrından 1969-cu ilin fevralınadək "KürArazsutikintisi" Baş İdarəsinin Naxçıvandakı 6 nömrəli tikinti idarəsində baş iş icraçısı işləmişdir. 1969-cu ilin fevralından 1971-ci ilin sentyabr ayına kimi "KürArazsutikintisi" Baş İdarəsinin Naxçıvandakı 4 nömrəli tikinti idarəsində baş mühəndis vəzifəsini icra etmişdir.

O, 1971-1973-cü illərdə "Azərbaşmeliosutikinti"-nin indiki Şirvan şəhərindəki 16 nömrəli tikinti idarəsində rəis işləmişdir. 1973- 1977-ci illərdə "Azərbaşmeliosutikinti"-nin sənaye müəssisələri trestinin müdiri, 1977-1978-ci illərdə həmin baş idarənin sənaye, mülki və mənzil tikintisi trestinin müdiri. 1978-1980-ci illərdə isə SamurAbşeron Su Tikinti trestinin müdiri vəzifələrində çalışmışdır.

X.H. Hənifəyev 1980-1981-ci illərdə Azərittifaqda sədrin tikinti üzrə müavini, 1981-1983-cü illərdə "Azərbaşmeliosutikinti"də rəisin I müavini, 1983-1988-ci illərdə Azərbaycan KP MK-da tikinti və şəhər təsərrüfatı şöbəsinin müdir müavini, 1988-1990-cı illərdə avtomobil yolları tikintisi və istismarı nazirinin I müavini işləmişdir. 1990-1992-ci illərdə Azərbaycan Nazirlər Sovetində tikinti və arxitektura şöbəsinin müdiri, 1992-1998-ci illərdə "Azal" Hava Yolları Dövlət Konsernində müavin, 1998-2000-ci illərdə Bakı Aeroportunda direktorun I müavini olmuşdur.

X.H.Hənifeyev çalışdığı bütün rəhbər vəzifələrdə həmişə özünü doğrultmuş, ona həvalə olunan tapşırıqları öz səlahiyyətləri çərçivəsində yüksək peşəkarlıqla icra etmişdir.

X.H. Hənifəyevin Azərbaycanda tikilən ən mühüm obyektlərdə əl izləri var. O, bir neçə dəfə rayon sovetlərinə, bir dəfə isə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.



Həsənov
Həsən
Əziz oğlu

Azərbaycan SSR və Azərbaycan Respublikasının siyasi və dövlət xadimi, diplomat, alim, tarix elmləri doktoru (2006). Azərbaycan Respublikasının Polşada fövqəladə və səlahiyyətli səfiri (2010-), Azərbaycan Respublikasının Xarici İşlər Naziri (1993-1998), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1990-1992).

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin İdeoloji məsələlər üzrə katibi (1981-1983), Tikinti məsələləri üzrə katibi (1983-1988), İqtisadiyyat məsələləri üzrə katibi (1988-1990), uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro üzvü, Azərbaycan Respublikasının BMT-də ilk daimi nümayəndəsi və ilk fövqəladə və səlahiyyətli səfiri (1992-1993), Macarıstan (2004-2010) və Polşada (2010-h.d.-ə qədər) fövqəladə və səlahiyyətli səfiri. Macarıstan və bir neçə SSRİ ordeni, Azərbaycan, Qazaxıstan və bir neçə SSRİ medalları ilə təltif olunmuşdur.

Bakı şəhər Səbayıl Rayon Partiya Komitəsinin 1-ci Katibi (1975-1978), Sumqayıt Şəhər Partiya Komitəsinin 1-ci Katibi (1978-1979), Gəncə Şəhər Partiya Komitəsinin 1-ci Katibi (1979-1981) vəzifələrində çalışmışdır.

Həsən Həsənov 20 oktyabr 1940-cı ildə Tbilisi şəhərində anadan olmuşdur. 1958-ci ildə Tbilisidə 43 saylı orta məktəbi bitirərək, Bakıya gəlmiş və Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1963-cü ildə həmin tədris müəssisəsində təhsilini başa çatdırmışdır.

1981-ci ildə Bakı Ali Partiya məktəbini bitirmişdir. Tələbəlik dövründə qrup, fakültə və institut Komsomol Komitəsinin katibi olmuşdur. 1962-ci ildə Azərbaycan tələbələrinin təmsilçisi kimi Moskvada keçirilən XIV Ümumittifaq Komsomol Qurultayına nümayəndə seçilmişdir. Azərbaycanın və SSRİ-nin bir sıra gənclər təşkilatının üzvü olmuşdur.

1960-cı ildən 1963-cü ilə qədər Bakı şəhər Tələbə Şurasının sədri, Bakı Şəhər Komsomol Komitəsində təlimatçı (1962), Yasamal rayon Komsomol Komitəsinin katibi (1962-1965), Respublika Komsomol Komitəsinin MK-də bölmə müdiri vəzifələrində çalışmışdır (1965-1966). 1966-1967-ci illərdə Tikinti Materialları və Konstruksiyaları Elmi-Tədqiqat İnstitutunun aspiranturada elmi-tədqiqatla məşğul olmuşdur. 1967-1969-cu iliərdə AKP MK-da təlimatçı vəzifəsində çalışmışdır.

1969-1971-ci illərdə Moskvada Ümumittifaq Komsomolunun Mərkəzi Komitəsində məsul təşkilatçı vəzifəsində işləmişdir. 1971-ci ildə Vətənə qayıtmış, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində əvvəl təlimatçı, sonra bölmə müdiri (1971-1975), şöbə müdirinin müavini (1975) vəzifəsində çalışmışdır.

1975-1978-ci illərdə Səbayıl Rayon Partiya Komitəsinin 1-ci Katibi, 1978-1979-cu illərdə Sumqayıt Şəhər Partiya Komitəsinin 1-ci Katibi, 1979-1981-ci illərdə isə Gəncə Şəhər Partiya Komitəsinin

1-ci Katibi vəzifələrində işləmişdir.

1981-1983-cü illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi, 1983-1988-ci illərdə tikinti məsələləri üzrə katibi, 1988-1990-cı illərdə iqtisadiyyat məsələləri üzrə katibi vəzifələrində çalışmışdır.

Qeyd etmək lazımdır ki, 1983-cü ildə Həsən Həsənov Kremlin göstərişi ilə vətənpərvərliyinə görə, ideoloji sahədən uzaqlaşdırılmışdır. İdeoloji sahəyə rəhbərlik etdiyi zaman o, Azərbaycan elm, ədəbiyyat və tarixinin bir sıra qadağan olunmuş mövzularına həsr olunmuş monoqrafiya və əsərlərin işıq üzü görməsinə köməklik göstərmişdir. Həsən Həsənovu bir çox Azərbaycanın görkəmli elm, ədəbiyyat və incəsənət nümayəndələri ilə səmimi dostluq münasibətləri birləşdirirdi.

1990-1992-ci illərdə Azərbaycan Respublikasının Baş Naziri vəzifəsində çalışmışdır.

Həsən Həsənov 1992-ci ildən xarici siyasət və diplomatiya sahəsində fəaliyyət göstərir.

1992-1993-cü illərdə BMT-də (Nyu-York) Azərbaycan Respublikasının Daimi Nümayəndəsi, Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsində çalışmışdır.

1993-1998-ci illərdə AR Xarici İşlər Naziri vəzifəsində işləmişdir. Həmin illərdə BMT və YUNESKO, İKT-nın illik toplantılarında Azərbaycan Nümayəndə Heyətinə rəhbərlik etmişdir.

H.Həsənov 23 il arası kəsilmədən müxtəlif Parlamentlərin nümayəndəsi olmuşdur. 1977-1995-ci illərdə Azərbaycan Ali Sovetinin, 1979-1984-cü illərdə SSRİ Ali Sovetinin, 1995-2000-ci illərdə Milli Məclisin nümayəndəsi və Milli Məclisin Beynəlxalq əlaqələr üzrə Komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir.

Müstəqil Azərbaycanın ilk Əsas Qanununu hazırlayan Konstitusiya komissiyasının üzvü olmuşdur. Üçüncü Respublikamızın ilk Baş Naziri, ilk Fövqaladə və Səlahiyyətli Səfiridir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü il sentyabr ayının 1-də Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri, 2010-cu il mart ayının 30-da isə Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.


Həsən Həsənov elmi və bədii yaradıcılıqla da məşquldur. O, Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş dahi mütəfəkkir Mirzə Fətəli Axundovun həyat və fəaliyyətinə həsr edilmiş "Brüsseldən məktublar" pyesinin müəllifidir.

H.Həsənov Tarixin hədəfi (Tarixin fəlsəfəsi), Nəriman Nərimanovun milli dövətçilik baxışları və fəaliyyəti, Türklüyümüz, Misir amuleti və ieroqlifləri Azərbaycanda adlı monoqrafiyaların, Azərbaycanın Avropaya inteqrasiyası əsərinin, çoxsaylı çıxışlar və məqalələr toplularının müəllifidir.

2004-cü ildə Bakıda "SSRİ-də milli təmayülçü hərəkat" mövzusunda namizədlik, 2006-cı ildə Tiflisdə "Tarixin fəlsəfəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Azərbaycan, türk, ingilis, rus, gürcü dillərini bilir.

Ailəlidir, iki övladı və nəvələri vardır.



Həsənov
Saday
Əliqulu oğlu

20 noyabr 1936-cı ildə Ağdam rayonunun Mirəşəlli kəndində anadan olub. 1946-cı ildə kənd məktəbinin birinci sinfinə getmişdir. O, 1956-cı ildə Sovet ordusu sıralarına xidmətə getmiş, 4 il (1956-1959-cu illər arası) orduda xidmət etdikdən sonra Rusiyanın Samara vilayətinin Tolyatti şəhərində yaşamış və müxtəlif işlərdə çalışmışdır (1960-1961-ci illər). O, 1961-ci ildə Ağdama qayıtmış və Qərvənd kəndindəki axşam kəndli-gənclər məktəbində təhsilini davam etdirmiş və 1963-cü ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 1963-1969-cu illərdə Azərbaycan Politexnik İnstitutunda təhsil almış və inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. İnstitutda təhsil aldığı illərdə Bakı Baş Tikinti İdarəsinin, Sənaye Tikintisi Nazirliyinin mənzil-kommunal kontorlarında müxtəlif vəzifələrdə çalışmış, 9 və 12 nömrəli fəhlə yataqxanalarının komendantı olmuşdur.

S.Ə. Həsənov 1970-ci ildə Ağdam kolxozlararası tikinti idarəsinin sərəncamına köçürülmüş və 1976-cı ilədək bu idarədə iş icraçısı, mühəndis, sahə rəisi işləmişdir. 1977-2006-cı illərdə Ağdam Rabitə Qovşağında şöbə rəisi kimi fəaliyyət göstərmişdir. Əmək fəaliyyəti dövründə Bakıda salınan yeni mikrorayonlarda, neft və maşınqayırma sənayesi obyektlərində dəyərli əl izləri qoymuşdur. Ağdam rayonundakı Metiz furnitur zavodunun, dəyirman kombinatının, mexanikləşdirilmiş tövlələrin, süd-əmtəə fermalarının, şərab emalı zavodlarının, məktəb və uşaq bağçalarının tikintisində fəal iştirak etmiş, 14 ən mühüm buraxılış obyektlərinin inşasına bilavasitə rəhbərlik etmişdir. Həmin müddətdə 10-dək səmərəli təklif irəli sürmüş və bunun sayəsində dövlətə və işlədiyi kollektivə xeyli xeyir vermişdir. Dəfələrlə trest, baş idarə, nazirlik və komitələrdən fəxri fərmanlar, təriflənamələr və pul mükafatları almışdır. Hal-hazırda təqaüddədir. 2008-ci ildən Azərbaycan Ağsaqqallar Şurasının üzvüdür.



Həsənov
Şair
Nəcməddin oğlu

1936-cı ilin iyulun 10-da Qusarda qulluqçu ailəsində anadan olmuşdur. 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunu yol nəqliyyatı mühəndisi ixtisası üzrə bitirmişdir. Elə həmin ildən də Azərbaycan SSR Tikinti Nazirliyinin müxtəlif təşkilatlarında briqadir, mühəndis, baş mühəndis, nazirliyin texniki idarəsinin rəis müavini, trestin baş mühəndisi, nazirliyin istehsalat idarəsinin rəisi və s. vəzifələrdə çalışmışdır.

Ş.N. Həsənov 1977-1980-ci illərdə Azərbaycan SSR Kənd Tikintisi Nazirinin birinci müavini, 1980-cı ildə respublika Baş Kolxoz və Sovxozlararası Tikinti İdarəsinin rəisi təyin edilmiş və bu vəzifədə böyük uğurlar qazanmışdır. Bunu nəzərə alaraq onu 1983-cü ildə daha böyük bir sahəyə-kənd tikintisi naziri vəzifəsinə irəli çəkilrlər. Bu vəzi-

fədə 1986-cı ilə kimi işləyir. 1986-cı ildə yenidənqurma ilə əlaqədar tikinti kompleksində birləşmələr aparılır və respublikada yeni bir qurum – Dövlət Aqrar-Sənaye Komitəsi yaranır. O, bu komitədə sədr müavini vəzifəsinə təyin olunur.

Ş.N. Həsənov 1990-cı ilin yanvarından dekabrına kimi "Azəravtoyol" İstehsalat Birliyində sədr müavini, 1990-cı ilin yanvar ayından 1998-ci ilə qədər Azərbaycan Respublikası Tikinti Materialları Sənayesi naziri və konsern prezidenti vəzifələrində işləmişdir. Ölkə Prezidentinin Fərmanı ilə 1999-cu ildən 2001-ci ilin aprelinə kimi Azərbaycan Respublikası Mənzil Kommunal Təsərrüfatı Komitəsinin sədri işləmiş və 2001-ci ilin aprel ayından Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunmuşdur.

İstehsalatdakı uğurlarına, ölkə tikinti kompleksindəki zəhmətinə görə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif olunmuş, 1982-ci ildə respublikanın Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür. Dəfələrlə rayon, şəhər sovetlərinə və bir çağırış Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilmişdir.

Ş.N. Həsənov kadrların seçilməsi, yerləşdirilməsi, bütün tikinti obyektlərinin vaxtında və vaxtından əvvəl tikilib ucuz, tez, keyfiyyətlə istismara buraxılmasında dəyərli təkliflər vermiş, bir sıra səmərəli təkliflərin müəllifi olmuş, respublikanın ictimai həyatında fəal iştirak etmiş və bu gün də fəal iştirak edir.

Ölkə prezidentinin 28 fevral 2006-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsi ləğv olunduqdan sonra Ş.N. Həsənov təqaüdə çıxmışdır.



Həsənov
Şakir
Rəfi oğlu

1947-ci il iyun ayının 15-də Masallı rayonunun Boradigah qəsəbəsində anadan olub. 1965-ci ildə Masallı şəhər 1 nömrəli məktəbin səkkizinci sinfni bitirib, orta təhsilini isə 2 nömrəli orta məktəbdə başa vurub. Orta məktəbi 1966-cı ildə bitirərək Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olub və tikinti mühəndisi ixtisasına yiyələnib. 1971-ci ildə Sumqayıtdakı 1 nömrəli Tikinti Trestinin 12 nömrəli Tikinti İdarəsində fəhlə-betonçu kimi əmək fəaliyyətinə başlayıb. 1972-ci ildə sahə rəisi vəzifəsinə təyin edilib. 1972-1984-cü illərdə Sumqayıt şəhərində fəaliyyət göstərən Xovlu İplik və Üst Trikotaj fabriklərinin tikintisində həm usta, həm sahə rəisi, həm də baş mühəndis kimi obyektlərin vaxtında və keyfiyyətlə tikilib təhvil verilməsində əlindən gələni edib. Eləcə də həmin illərdə Bakı Dərin Dəniz Özülləri zavodunun tikintisində, Sumqayıt şəhərinin magistral yol xəttinin, qaz və su xətlərinin çəkilişində, istilik təsərrüfatının qurulmasında nümunəvi mütəxəssis və mühəndis kimi fəal iştirak etmişdir. Məhz buna görə də onun əməyi çox yüksək qiymətləndirilib.

Ş.R. Həsənov 1988-ci ildən başlayaraq taleyini quraşdırma işlərinə bağlayıb. Belə ki, həmin ildə Azərbaycan Respublikası Xüsusi Tikinti Quraşdırma Nazirliyinin Sumqayıt "Termoizolyasiya" Quraşdırma İdarəsinə rəis vəzifəsinə təyin olunub. Onun rəhbərliyi, yüksək təşkilatçılığı ilə 1988-ci ildən başlayaraq Sumqayıt şəhərində tikilən Superfosfat, Sintezkauçuk, EO-300 zavodlarının, Polimer-120, Məişət Kimyası Kombinatlarının və digər müəssisələrin tikintisində termoizolyasiya işi uğurla davam etdirilib.

2004-cü ildən "Termoizolyasiya" Quraşdırma İdarəsi "Aztermoizol" ASC-yə çevrilərək fəaliyyətini daha da genişləndirib və axırıncı 4-5 ildə təkcə respublika təşkilatları ilə deyil, həm də xarici şirkətlərdə işbirliyi qurub.

Ş.R. Həsənov bacarıqlı mütəxəssis, siyasi cəhətdən savadlı, yüksək əxlaqi keyfiyyətlərə məxsus, mehriban, obyektiv bir insandır. 1990-1995-ci illərdə Sumqayıt şəhər Sovetinin deputatı olub. Ş.R. Həsənovun gərgin əməyi sayəsində "Aztermoizol" ASC hazırda respublikanın ən aparıcı təşkilatlarından biri sayılır.

Ş.R. Həsənov rəhbər kimi işə başladığı vaxtlardan imkansız, şəhid, qaçqın və köçkün ailələrinə, idman təşkilatlarına, təhsil, mədəniyyət, incəsənət müəssisələrinə, Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrına, Azərbaycan Dövlət Gənclər Teatrına, ali məktəblərlərdə təhsil alan imkansız tələbələrə, respublikanın və Sumqayıtın mətbuat orqanlarına hər zaman maddi yardım göstərib. Rəhbərlik etdiyi müəssisənin gəlirindən Sumqayıt şəhərində parkların, meydançaların, yolların abadlaşdırılmasına, uşaq şəhərciklərinin salınmasına, şəhər ekologiyasının qorunması işlərinə, şəhərdə mədəni-kütləvi tədbirlərin keçirilməsinə bilavasitə maliyyə yardımı göstərilməsi üçün əlindən gələni əsirgəməyib.



Həsənov
Şərafət
Aslan oğlu

13 sentyabr 1960-cı ildə Masallı rayonunun Qodman kəndində anadan olmuşdur. Sumqayıt Politexnik Texnikumunun sənaye və mülki tikinti fakültəsini bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinin mühəndis iqtisadiyyatı və idarəetmə fakültəsini bitirmişdir. İlk əmək fəaliyyətinə Sənaye Tikintisi Nazirliyinin Sumqayıtdakı 2 nömrəli tikinti trestində fəhlə kimi başlamışdır. Fəhləlikdən idarə rəisliyinə qədər yüksəlmiş və bu şəhərin ucaldılan sosial-mədəni obyektlərində, iri sənaye müəssisələrində dəyərli əl izləri qoymuş, zəhmətkeşliyi və mühəndislik qabiliyyəti ilə fərqləndirmişdir. "Polimer – 120", "Bakkondirasiya", Bayıl sürüşməsinin vurduğu ziyanların aradan qaldırılması, istehsalat bazalarının yaradılması kimi mühüm obyektlər bilavasitə onun rəhbərliyi altında tikilmişdir. Son illərdə Suraxanıda 1292 yerlik orta məktəb binasında, Heydər Əliyev Fondunun vəsaiti hesabına Cəlilabad və Masallı rayonlarında kənd məktəblərinin bərpası, yenidən qurulması və tikilməsində, Sumqayıt su xəttinin bərpasında Şərafət Həsənovun başçılıq etdiyi kollektiv fərqlənmişdir.

O, harda, hansı vəzifədə işləyibsə, orada hər zaman öz yüksək rəhbərlik və idarəçilik bacarığı ilə kollektivi vahid məqsəd naminə birləşdirmiş və uğurlar qazanmışdır.

Ş.A.Həsənovun əməyi hər zaman yüksək qiymətləndirilmişdir.



Həsənova
Aidə
Süleyman qızı

1 iyul 1959-cü ildə Füzuli rayonunun Arayatılı kəndində anadan olub. 1966-1976-cı illərdə orta məktəbdə təhsil almışdır. 1980-ci ildə Qırmızı Əmək Bayrağı ordenli Bakı Neft Texnikumunun neft və qaz mədənləri avadanlığı fakültəsinə daxil olmuş və 1984-cü ildə həmin texnikumu bitirərək neft və qaz mədənləri avadanlıqlarının mexaniki peşəsinə yiyələnmişdir.

A.S. Həsənova ilk əmək fəaliyyətinə 1 oktyabr 1978-ci ildən başlamışdır. XXII Partiya Qurultayı adına Neft Qazçıxarma İdarəsində istehsalat işləri elmi tədqiqat labaratoriyasında neftin analizi üzrə laborant kimi işləmişdir. Texnikumu qurtardıqdan sonra – 1985-ci ildə həmin idarədə geoloji şöbədə texnik-geoloq vəzifəsinə irəli çəkilmişdir.

A.S. Həsənova 8 iyul 1990-cı ildən həyatını ölkə tikinti kompleksinin ən iri qollarından biri olan "Xəzərdənizneftqaztikinti" trestinə bağlamışdır. İlk öncə onu trestə Maddi-Texniki Təchizat üzrə mühəndis vəzifəsinə qəbul etmişlər. Hazırda bu trestdə mühəndis vəzifəsində işləyir. Son 15-16 il ərzində "Xəzərdənizneftqaztikinti" trestinin inşaatçılarının Neft Daşlarında, Mərdəkanda, 8-ci kilometr qəsəbəsində, Əhmədli yaşayış massivində və digər yerlərdə yüksək keyfiyyətlə tikib istismara buraxdığı yaraşıqlı yaşayış evlərində, məktəb və uşaq bağçalarında, mövcud müəssisələrdə aparılan yenidənqurma işlərində əl izləri vardır.

Tikinti təşkilatlarında istehsalat bazalarının yaradılması, texniki təchizat məsələlərinin həll edilməsi və inşaat materiallarının obyektlərə vaxtında çatdırılması və digər məsələlərin müsbət həllində onun zəhmət payı vardır. Trestin ictimai həyatında və bütün işlərində fəal iştirak edir. Neçə vaxtdır ki, trest aparatında Həmkarlar İttifaqı Komitəsinin sədridir.

A.S. Həsənova öz həmkarları və Bakı zəhmətkeşləri arasında böyük hörmət qazanmış mütəxəssislərdən biridir. Elə buna görədir ki, 1983-1985-ci illərdə Neft Daşları qəsəbə sovetində, 1985-1987-ci illərdə isə Mərdəkan qəsəbə sovetində deputat kimi fəaliyyət göstərmiş və böyük hörmət qazanmışdır. Onun kiçik qardaşı Xəlil Mustafayev 1993-cü ildə Qarabağ uğrunda gedən döyüşlərdə - Füzuli rayonunun Veysəlli kəndində torpağımız uğrunda canını fəda etmiş-şəhid olmuşdur. İstehsalatdakı uğurlarına görə A.S. Həsənova dəfələrlə fəxri fərmanlar almış, medallarla təltif olunmuşdur.



Həşimov
Həmid
Məhəmməd oğlu

1934-cü ildə qədim Zəngəzur mahalının Sisyan rayonundakı Comərd kəndində anadan olub. Uşaqlıq və yeniyetməlik illəri Böyük Vətən müharibəsinə təsadüf etmiş və erkən yaşından kolxozda işləmişdir. 1953-1956-cı illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

1960-cı ildən Bakıya gəlmiş və Bakı Baş Tikinti İdarəsinin 7 nömrəli tikinti idarəsində fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. Tikintidə bənna, dülgər, suvaqçı, betonçu və digər peşələrə yiyələnmiş və 7 nömrəli tikinti idarəsində 1963-1996-cı illər ərzində kompleks briqadanın briqadiri kimi səmərəli fəaliyyət göstərmişdir.

O, tikintidə bənna, fəhlə, suvaqçı və betonçu işləyəndə də, kompleks briqadanın başçısı kimi briqada podratı üsulu ilə işləyib böyük uğurlar qazananda da onun bir amalı olub. Tikilən nə varsa keyfiyyəti ilə seçilməli, bütün obyektlər vaxtında təhvil verilməli, kollektivin hər bir üzvü əməyinin bəhrəsini görməlidir.

H.M. Həşimov sosial-mədəni obyektlərin tikintisində dəfələrlə səmərəli təkliflər irəli sürmüş, briqada podratı ilə işləmiş və uğur qazanmışdır.

Səmərəli əmək fəaliyyətinə görə əlaqədar təşkilatlar tərəfindən 15 dəfə fəxri fərman və tərifnamə, 30 dəfədən çox pul mükafatı almış, dövlət tərəfindən bir neçə medal, orden və müxtəlif döş nişanları ilə təltif olunmuşdur.



Heydərov
Avtandil
Aslan oğlu

1940-cı ildə Şəki şəhərində müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Sovet ordusu sıralarına çağrılmışdır. Ordu sıralarından tərxis olunan kimi (1962-ci il) Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur. O, 1968-ci ildə institutu bitirib təyinatla "Azneftkimyaquraşdırma" trestinin 2 nömrəli Bakı mexaniki quraşdırma İdarəsinə göndərilmiş və orada müxtəlif vəzifələrdə işləyərək rəis vəzifəsinə qədər yüksəlimişdir (1979-cu il). Neftqaz, kimya, neft kimyası sənayesi mexaniki quraşdırma işlərində çox böyük əmək sərf etmişdir.

A.A. Heydərov 15 il "BMT-2" nəhəng obyektlərdə xarici firmalarla birlikdə çalışmışdır. 1993-1995-ci illərdə "Azərneftyağ" İstehsalat Birliyində neftin təkrar emalı üçün qurğunun quraşdırılmasında fəal iştirak etmişdir. 1997-ci ildə Sanqaçal Terminalında ümumi həcmi 5000 kubmetr olan çənlərin quraşdırılmasında əl izləri vardır. (sifarişçi "AMAKO", subpodratçı "Azqur" Səhmdar Cəmiyyəti). 1998-ci ildə Bakı-Supsa neft-boru xəttinin qərb hissəsində nasos stansiyasının tikintisində mexaniki quraşdırma işlərini yerinə yetirmişdir. 1999-cu ildə Pitun qurğusunun tikintisində mexaniki quraşdırma işlərini aparmışdır.

A.A. Heydərov 2000-2001-ci illərdə alman firması üçün Bakı İstilik Elektrik Stansiyası-1-in ərazisində tikilən "Qazturbin LES"-in mexaniki quraşdırma işlərini yerinə yetirmişdir.

2005-2007-ci illərdə BP Expioration (Caspian Sea) Limited firması üçün polad konstruksiyalar hazırlanmış və quraşdırılmışdır. Hazırda fəaliyyətini həmin müəssisədə davam etdirir.

A.A.Heydərov işlədiyi bütün vəzifələrdə tapşırılan bütün işlərə məsuliyyətlə yanaşmış və uğurla başa çatdıraraq rəhbərliyin etimadını doğrultmuşdur.



Heydərov
Kamil
Hüseyn oglu

25 oktyabr 1936-cı ildə Tovuz rayonundakı Qovlar kəndində anadan olub. Orta məktəbi bitirən gündən (1953-cü il) həyatını ölkə tikinti kompleksinə bağlamış və Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsinə daxil olmuşdur (1953-cü il). Ali məktəbdə oxuduğu illərdə təhsildə və ictimai işlərdə fərqlənmiş, professor-müəllim heyətinin və tələbələrin hörmətini qazanmışdır.

K.H. Heydərov 1958-ci ildə həmin institutu sevib-seçdiyi ixtisas üzrə bitirmiş və inşaatçı-mühəndis adını almışdır. O, təyinatla Bakı Baş Tikinti İdarəsinin sərəncamına göndərilmişdir. Baş idarənin müxtəlif bölmələrində iş ustası, iş icraçısı, baş mühəndis, sahə rəisi, idarə rəisi, trest müdiri kimi məsul və rəhbər vəzifələrdə işləmişdir. 1958-ci ildən bir qərinəyədək müddətdə Bakıda və onun rayonlarında inşa edilib istifadəyə verilmiş xeyli yaşayış evlərində, uşaq bağçalarında, xəstəxana komplekslərində, idmansağlamlıq ocaqlarında, təhsil və mədəniyyət obyektlərində, ATS binalarında dəyərli, sanballı əl izləri qoymuşdur.

K.H. Heydərovun bilavasitə rəhbərliyi və iştirakı ilə Bakıda Tbilisi prospektində 16 mərtəbəli "Eksperimental" (sürüşmə yolu ilə) evi tikilmiş, "Moskva" mehmanxanası, "İnturist" mehmanxanası, 8-ci km. qəsəbəsində kolxoz bazarı, "Universam", Əhmədli qəsəbəsində kinoteatr binası, Xətai rayon Partiya Komitəsi üçün inzibati bina, yüngül-atletika maneji, paytaxtdakı "Gülüstan" sarayı, Basin küçəsindəki "Azərkəndtikintilayihə" İnstitutunun inzibati binası, Yvlax-Balakən dəmir yolu, "Abşeron" Mehmanxanası kimi sanballı və gözəgəlimli obyektlərdə əl izləri qoymuş və ya onların tikilib istismara buraxılmasına bilavasitə rəhbərlik etmişdir.

K.H. Heydərovu 1989-cu ildə Baş Kolxozlararası Tikinti İdarəsinə dəvət etmişlər. O, bu mötəbər təşkilatda tikinti materialları sənayesi trestinə rəhbərlik etniş, kolxoz və sovxozlarda iri heyvandarlıq binalarının, süd-əmtəə fermalarının, iri quşçuluq-broyler fabriklərinin tikintisi, süd-pendir-yağ zavodlarının, kəndlərdə məktəb, uşaq bağçaları, tibb ocaqları və s. tikintilər üçün vacib olan inşaat materiallarının təminatı və təchizatı ilə ciddi məşğul olmuş, tabeçiliyindəki daş karxanalarının, ağac emalı zavodlarının, qum-çınqıl karxanalarının tam qüvvə ilə və fasiləsiz işləməsini təmin etmiş, kəndlərdə yeni istehsalat birliyi yaratmışdır.

K.H. Heydərov ömrünün son illərində həyatını "Azərnəqliyyattikinti" Açıq Səhmdar Cəmiyyətinə bağlamış və bu nüfuzlu təşkilatda məsul işdə çalışmışdır. O, əvvəlki illərdə olduğu kimi, ömrünün son illərində də tikib qurmaqla yanaşı gənc inşaatçı kadrların yetişdirilməsində də var qüvvəsini sərf etmişdir. Hazırda ölkə tikinti kompleksində çalışanların xeyli hissəsi "Kamil Heydərov məktəbi"nin yetirməsidir. Onlar öz həyat müəllimlərini sözübütöv kişi, əməksevər və peşəsinin qədrini bilən səriştəli rəhbər işçi kimi tanıyırlar. K.H. Heydərov bu keyfiyyətlərinə görə arxada qalan illərdə bir sıra ədalətsizlik və qısqanclıqla üzləşsə də, ruhdan düşməmiş, həmişə qalib olmuşdur.



Hüseynli
Təyyar
Məhərrəm oğlu

7 dekabr 1951-ci ildə Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olmuşdur. 1958-ci ildə Sütəmurdov kənd 8 illik məktəbinin 1-ci sinfinə getmiş, 1965-ci ildə həmin məktəbin 8-ci sinfini bitirmişdir. Həmin il Lənkəran şəhər 1 nömrəli orta məktəbin 9-cu sinfinə daxil olmuş və 1968-ci ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

Hələ orta məktəbin aşağı siniflərində oxuyarkən layihəçi-mühəndis olmaq arzusu sonradan onun bütün həyatını bu sənətə bağladı. Və o, 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə qəbul olundu. 1973-cü ildə həmin institutu sənaye və mülki tikintilərin konstruktoru ixtisası üzrə bitirərək ali təhsil aldı.

Hər bir işə xüsusi hazırlıqla başlamağı sevdiyinə görə T.M. Hüseynli Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra inşaatın incəliklərinə yiyələnmək üçün təyinatını Rusiyanın Novosibirsk vilayətinə aldı.

Belə ki, T.M. Hüseynli 1973-cü ildə Az Pİ-nin təyinatı ilə RSFSR-nın Novosibirsk rayon Neft Kəmərləri İdarəsinin təmir-tikinti qrupuna usta vəzifəsinə işə qəbul olundu. 1973-cü ilin dekabrın 17-dən təmir-tikinti qrupuna mühəndis, 1974-cü ilin martın 14-dən əsaslı tikinti şöbəsinə mühəndis-dispetçer, az sonra isə həmin şöbədə böyük mühəndis dispetçer vəzifəsinə irəli çəkildi. Burada işlədiyi üç il ərzində o, kəskin iqlim şəraitində tikinti işlərinin aparılması texnologiyasını mükəmməl öyrəndi. Bu müddətdə Omsk-Novosibrsk-Anjero-Sudjensk-Krasnoyarsk Neft Kəmərinin çəkilişində yaxından iştirak edir, neftötürücü stansiyalarında 5, 10 və 20000 kubmetr tutumu olan metal çənlərin, su qüllələrinin, böyük diametrli kanalizasiya kollektorlarının və s. bu kimi mürəkkəb qurğuların tikintisində fəal iştirak edir.

Tikinti işləri nə qədər maraqlı olsa da layihəçi olmaq arzusu onu vətənə, doğma Bakıya qaytardı və 1976-cı ildən "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun 1 nömrəli emalatxanasında əmək fəaliyyətini layihəçi-mühəndis kontruktor kimi davam etdirməyə başladı. Həmin ilin may ayının 1-dən böyük mühəndis vəzifəsinə irəli çəkildi. 1978-ci ilin mayın 16-dan qrup rəhbəri, sonra 1 nömrəli emalatxananın baş konstruktoru, 1986-cı il fevralın 1-dən layihənin baş mühəndisi vəzifəsində çalışdı. 1994-cü ilin yanvarın 1-dən isə T.M. Hüseynli institutun texniki şöbəsinə rəis vəzifəsinə, 1996-cı ilin mayın 1-dən "Azərdövlətlayihə" İnstitutunun baş müəndisinin müavini vəzifəsinə təyin olundu.

T.M. Hüseynli 2009-cu ilin yanvarın 5-də Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi "Azərdövlətlayihə" DBLİ-nin baş mühəndisinin əvəzi vəzifəsinə irəli çəkilmiş, on gün sonra institutun baş mühəndisi təyin olunmuşdur.

Hər başladığı bir işə insan öz qəlbinin bir hissəciyini qoymalıdır. Əks təqdirdə işin keyfiyyəti olmaz və o heç bir əhəmiyyət kəsb etməz. Bu, T.M. Hüseynlinin həyatda yaşamaq devizi olmuşdur.

O, 1976-cı ildən bəri doğma kollektivdə -"Azərdövlətlayihə" İnstitutunda çalışdığı müddətdə yüzlərlə bina və qurğuların layihələndirilməsinə baş konstruktor və layihənin baş mühəndisi kimi rəhbərlik etmiş, bəzən sıravi mühəndis kimi icraçı işini də öz üzərinə götürmüşdür.

Bir oğlu, bir qızı var, oğlu memar, qızı isə telekommunikasiya mühəndisidir.

Bilavasitə rəhbərlik etdiyi və yaxından iştirak etdiyi obyektlər:

Bakı şəhərində Tibb Universitetinin yeni tədris korpusu; (memarlar: M.Ə.Hüseynov, N.V.Axundova); Bakı Dövlət Universitetinin filologiya fakültəsinin yeni tədris korpusu; ictimai kitabxana korpusu (memar: A.M. Cabbarlı); Azərbaycan Respublikası Prezdent Aparatının inzibati binası – M.T.Xələfovla birlikdə (Memar: T.A. Abdullayev); Lənkəran, Şirvan, Sumqayıt, Gəncə və digər şəhərlərdə 5-9 mərtəbəli yaşayış evləri; Bakı şəhərində ilk dəfə olaraq İİS-04 seriyasında yığma d/b konstruksiyalardan ibarət 4 tip 16 mərtəbəli yaşayış evlərinin təkrar tətbiq olunmaq üçün layihələndirilməsi; Rusiya Federasiyasının Ulyanovsk şəhərində "Azərbaycan" kinotetarı, Baykal-Amur Magistralının "Anqoya" dəmir-yol vağzalının binası (memarlar: A.M.Cabbarlı, T.Hacıyev) və s.

T.M. Hüseynli 1996 və 2000-ci illərdə Bakı şəhəri Bayıl yamacında baş vermiş torpaq sürüşməsinin nəticələrinin aradan qaldırılması və ehtimal olunan deformasiyaların qarşısının alınması üçün ilkin tədbirlərin layihələndirilməsi və həyata keçirilməsində fəal iştirak etmişdir.


O, həmçinin 1999-cu il iyun ayının 4-ü Ağdaş rayonunda və 2000-ci il noyabr ayının 25-də Bakı şəhərində baş vermiş zəlzələlərin törətdiyi fəsadların aradan qaldırılmasında, bina və qurğuların gücləndirilməsində əvəzolunmaz əmək və bacarıq sərf etmişdir.

T.M. Hüseynli son illər Bakı şəhərində və respublikamızın digər sahələrində vüsət almış yeni çoxmərtəbəli binaların da layihələndirilməsində fəal iştirak etmişdir: Bakı ş. R.Behbudov küçəsində 9,11,14,16,18,19 mərtəbəli yaşayış evləri; R.Behbudov küçəsində UNİBANK-ın inzibati binası; S.Vurğun küçəsində 2 ədəd 20 mərtəbəli dairəvi yaşayış evləri; Ş.Bədəlbəyli küçəsində 22 mərtəbəli yaşayış evi; Sumqayıt şəhərində "Qövsi Quzeh" yaşayış massivi və digər layihələr bu qəbildəndir.

Uzun bir yaradıcılıq yolu keçən T.M. Hüseynli sənətinin vurğunu olmaqla yanaşı bu sahədə çoxlu sayda mütəxəssislər də yetişdirmişdir. Böyük bir layihə təşkilatının baş mühəndisi vəzifəsində işləməsinə baxmayaraq daim bina və qurğuların konstruksiyalarının layihələndirilməsi kimi yaradıcılığını davam etdirməkdədir.

Onun əməyi rəhbərlik tərəfindən həmişə yüksək qiymətləndirilib. Dəfələrlə pul mükafatlarına, qiymətli hədiyyələrə layiq görülüb. 2008-ci ilin dekabr 15-də T.Hüseynli AR FH naziri Kəmaləddin Heydərovun imzası ilə "Fəxri fərman"a layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 dekabr 2011-ci tarixli 1884 saylı Sərəncamı ilə T.Hüseynliyə "Əməkdar Mühəndis" fəxri adı verilmişdir.



Hüseynov
Cavanşir
Təmraz oğlu

1934-cü il yanvarın 23-də Qazax rayonunda anadan olmuşdur. 1957-ci ildə Ç. İldırım adına Politexnik İnstitutunu bitirdikdən sonra Bakı Baş Tikinti İdarəsinin tikinti idarələrində inşaatçı-texnik və tikinti ustası işləmişdir. 1958-1963-cü illərdə Azərbaycan Politexnik İnstitutunun müəllimi və aspirantı olmuşdur. Sonra tikintidə texnologiyanın tətbiqi və "Sənayetikintimexanikləşdirmə" trestlərində rəhbər vəzifələrdə çalışmışdır.

C.T. Hüseynov 1971-1975-ci illərdə Sənaye Tikintisi Nazirliyinin Qırmızı Əmək Bayrağı ordenli 4 nömrəli Tikinti Trestinə rəhbərlik etmişdir. 1975-1978-ci illərdə Azərbaycan SSR Tikinti Materialları Sənayesi Nazirinin müavini işləmişdir.

C.T. Hüseynov 1978-ci ildə Azərbaycan SSR Dövlət Tikinti və Arxitektura Komitəsinin sədri təyin olunmuş və ömrünün axırına kimi bu vəzifədə çalışmış və uzun sürən ağır xəstəlikdən sonra – 1985-ci il dekabrın 2-də 52 yaşında vəfat etmişdir.

C.T. Hüseynov işlədiyi bütün sahələrdə ona tapşırılan vəzifəni layiqincə yerinə yetirmiş, əzmkarlığı, özünə və tabeçiliyində olanlara qarşı yüksək tələbkarlığı, təvazökarlığı ilə fərqlənmiş, respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir. X və XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, Azərbaycan SSR-in Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür.

Hüseynov
Ələsgər
Nurəli oğlu

1928-ci ilin yanvar ayının 10-da Bakıda anadan olmuşdur. 1953-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 1953-1967-ci illərdə əvvəlcə "Azərdövlətlayihə" İnstitutunda, sonra isə Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyində məsul vəzifələrdə çalışmışdır. 1968-1971-ci illərdə Bakının Baş rəssamı, 1971-1975-ci illərdə Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin sədr müavini, 1975-1980-ci illərdə Sumqayıt Şəhər Soveti İcraiyyə Komitəsinin sədri olmuşdur.

Ə.N. Hüseynov görkəmli memar H.Ə. Ələsgərovla birlikdə 1968-ci ildə Bakıda 26 Bakı Komissiyasının xatirə ansamblını, 1972-ci ildə Bakı metropolitenin "Avropa" indiki "Q.Qarayev" stansiyasını, 1973-cü ildə isə Naxçıvanda V.İ.Leninin xatirə abidəsini yaratmışdır. Azərbaycan KP XXIX qurultayında Azərbaycan KP üzvlüyünə namizəd seçilmişdir. V çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. "Oktyabr İnqilabı" ordeni və medallarla təltif olunmuşdur.




Hüseynov
Hüseyn
Hidayət oğlu

1948-ci ildə Füzuli rayonunda ziyalı ailəsində anadan olmuşdur. Böyük inqilabçılar nəslinin davamçısı

olan Hüseyn orta məktəbi bitirən kimi babası el ağsaqqalı Zülfüqar Hüseynovun məsləhəti ilə Bakıya gəlir, İnşaat Mühəndisləri İnstitutuna daxil olmaq üçün qəbul imtahanlarında iştirak edir, yüksək bal toplayıb ali məktəbə qəbul olunur. Ali məktəbdə dərs əlaçıları sırasında olur, ictimai işlərdə fərqlənir. Elə buna görə də onu institutda saxlamaq istəyirlər, o isə istehsalata üz tutur. Təyinatla "Azərbaşmeliosutikinti" İdarəsinə göndərilir.

H.H. Hüseynov Baş İdarədən birbaşa Ceyranbatandakı Ağac Emalı zavoduna göndərilir. O, burada əmək fəaliyyətinə fəhləlikdən başlayır. Əvvəlcə briqadir, sonra sex rəisi, mühəndis, baş mühəndis və sonda zavodun direktoru vəzifəsinədək yüksəlir.

H.H. Hüseynovun rəhbərlik etdiyi kollektivin istehsal etdiyi 20-dən çox adda inşaat materialları indiyə kimi yüzlərlə obyektlərə göndərilmişdir. Respublikada aparılan kompleks meliorasiya işlərində, təzə qəsəbələrin salınmasında, Viləşçay, Xanbulançay, Köndələnçay su anbarlarının yaradılmasında, Baş Mil kanalının çəkilməsində, iri istehsalat bazalarının yaradılmasında onun dəyərli əl izləri vardır.



Hüseynov
Rəhim
Əlihüseyn oğlu

1936-cı ilin aprel ayının 5-də Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1953-cü ildə Bakıda orta təhsilini başa vurmuş 1953-1959-cu illərdə Moskva Polad İnstitutunda ali təhsil alıb metallurgiya üzrə mühəndis ixtisasını qazanmış, təyinatla Azərbaycana göndərilmişdir.

R.Ə. Hüseynov əmək fəaliyyətinə 1959-cu ildə Sumqayıtdakı Azərbaycan Boru-Prokat zavodunda başlamışdır. O, 1962-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsinə işə dəvət olunmuş, burada 1965-ci ilə kimi metal və boru şöbəsinə rəhbərlik etmişdir.

R.Ə. Hüseynov 1965-ci ildə Respublika Dövlət Plan Komitəsi sədrinin müavini vəzifəsinə təyin olunmuşdur. 1974-cü ildə isə ona böyük etimad göstərilmiş və Azərbaycan SSR Dövlət Material Texniki Təchizat Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir. 1989-1992-ci illərdə Baş Nazirin birinci müavini, Dövlət Plan Komitəsinin sədri vəzifəsində işləmişdir.

R.Ə. Hüseynov 1992-1993-cü illərdə müstəqil Azərbaycan Respublikasının Baş Naziri olmuşdur. O, harada və hansı vəzifədə işləyibsə həmişə və hər yerdə ölkə tikinti kompleksi ilə sıx əlaqəli olmuş, xalq təsərrüfatının inkişafı, respublikanın daha da inkişaf etdirilməsi üçün tikilən və quraşdırılan ən mühüm obyektlərdə, xüsusilə neft və maşınqayırma sənayesinin obyektlərində, kənd təsərrüfatı əhəmiyyətli tikililərdə, sosial-mədəni obyektlərin tikintisində, ölkədə gedən quruculuq işlərində tikinti kompleksi işçilərinə hərtərəfli kömək göstərmiş, onların ehtiyaclarının, məhsuldar işləmələrinin qayğısına qalmış, hər bir tikintidə əl izləri qoymuşdur.

R.Ə. Hüseynovun əməyi, vətənə və xalqa sədaqətli xidmətləri xalq və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "SSRİ Dövlət Plan Komitəsinin əlaçısı" nişanı, habelə bir neçə orden və medallarla təltif olunmuş, uç çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

Azərbaycan Respublikasının Əməkdar İqtisadçısı, Milli Akademiyanın iqtisadiyyatçı doktorudur.

R.Ə. Hüseynov 10 ildən artıqdır ki, Beynəlxalq "Xəzər" Fondunun prezidentidir. Azərbaycan Ağsaqqallar Şurasının Rəyasət Heyətinin üzvüdür. (2009-cu il)



Hüseynov
Umud
Aydın oğlu

1 iyul 1956-cı ildə Naxçıvan Muxtar Respublikası Kəngərli (Şərur) rayonunun Qarabağlar kəndində anadan olub. 1963-1973-cü illərdə Qarabağlar kənd məktəbində orta təhsil alıb.

1973-cü ilin sentyabr ayından "Bakıbaştikinti" İdarəsinin 11 nömrəli "İctimaimədənitikinti" trestinin 23 nömrəli Tikinti İdarəsində fəhlə kimi işə qəbul olunub.

1975-1977-ci illərdə Murmansk vilayətində hərbi xidmətdə olub.

1977-ci ilin iyun ayında yenidən BBTİ 11 nömrəli "İMT" trestinin 23 nömrəli Tİ-nə qayıdıb və 1991-ci ilin mart ayına qədər fəhlə, bənna, anbar müdiri, tikinti ustası, təhlükəsizlik texnikası üzrə mühəndis vəzifələrində işləyib. Eyni zamanda 1983-1991-ci illərdə ardıcıl olaraq 8 dəfə tikinti idarəsi Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.

1991-ci ilin martında "Bakıbaştikinti" İdarəsi 11 nömrəli "İctimai-mədənitikinti" trestinin Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.

1995-ci ilin martında Suraxanı rayon İcra Hakimiyyəti Başçısının mənzil uçotu və bölüşdürülməsi üzrə müavini təyin edilib.

1995-ci ilin iyul ayında öz xahişilə həmin vəzifədən azad edildikdən sonra 11 nömrəli "İMT" trestinin Həmkarlar İttifaqı Komitəsi sədrinin müavini təyin olunub və 25 dekabr 1995-ci ildə trest Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransında yenidən trest Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib.

2000-ci ilin oktyabr ayından Bakı şəhəri Nizami Bələdiyyəsinin vergi və rüsumlar şöbəsinin müfəttişi, 2001-ci ilin mart ayından isə vergi və rüsumlar şöbəsinin rəisi vəzifəsində işləyib.

11 fevral 2005-ci ildə Azərbaycan İnşaat Kompleksi İşçiləri Müstəqil Həmkarlar İttifaqının sədri seçilib və hazırkı vaxtda da bu vəzifəni uğurla icra edir.

1977-1980-ci illərdə Bakı Sənaye Pedoqoji Texnikumunda "Mülki və Sənaye Tikinti" ixtisası üzrə təhsil alıb.

1986-cı ildə Moskva şəhərində Əmək və İctimai Münasibətlər Akademiyasına (qiyabi) daxil olub və 1991-ci ildə "Əməyin iqtisadiyyatı" üzrə tam kursu bitirərək iqtisadçı ixtisasına yiyələnib.

AHİK-in İcraiyyə Komitəsinin qərarı ilə "Həmkarlar İttifaqının 100 illiyi" yubiley medalı ilə və ÜHİK-nin Fəxri fərmanı ilə təltif olunub. Azərbaycan Respublikası Prezidentinin 04 fevral 2008-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

AHİK Məclisinin İcraiyyə Komitəsinin və İnşaatçıların Beynəlxalq Həmkarlar İttifaqı Konfederasiyasının İK-nin üzvü, Dünya Tikinti və Meşə İşçiləri Həmkarlar İttifaqları Konfederasiyasının Məclis üzvüdür.

Ailəlidir. Bir övladı var.



Hüseynzadə Əlimuxtar Ağaqulu oğlu

05 fevral 1925-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1 nömrəli orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra 1942-ci ildə Dəmiryolu Texnikumuna qəbul olmuşdur. Texnikumu bitirdikdən sonra 1945-ci ildə Bakıda filialı açılan Tbilisi Dəmiryolu İnstitutunun tikinti şöbəsinə daxil olmuş və 1950-ci ildə təhsilini başa vurmuşdur.

Əmək fəaliyyətinə 1950-1953-cü illərdə Kür-Araz Su Tikinti İdarəsinin Salyan bölməsində usta vəzifəsindən başlamışdır. 1953-1956-cı illər Neft Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Azərbaycan Ərazi Tikinti Trestində usta, iş icraçısı, 1956-1962-ci illərdə Bakı Baş Tikinti İdarəsinin 3 nömrəli Tikinti İdarəsində iş icraçısı, müdir, 1962-1966-cı illərdə yeni yaradılmış 1 nömrəli Bakı Şəhər Tikinti Trestinin müdiri, 1966-1974-cü illərdə "Xəzərdəniztikinti" ("Azərnəqliyyattikinti") Trestinin müdiri, 1974-1978-ci illərdə Azərbaycan Respublikasının Kənd Tikinti Naziri, 1979-1984-cü illərdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində tikinti məsələləri üzrə nazir müavini vəzifələrində çalışmışdır.

1958-ci ildə "Şərəf nişanı", 1966-cı və 1971-ci illərdə isə "Qırmızı əmək bayrağı" ordenləri ilə təltif olunmuşdur. 1962-ci ildə tikinti kompleksində xidmətlərinə görə respublikanın "Əməkdar inşaatçısı" fəxri adına və 1978-ci ildə SSRİ Nazirlər Sovetinin laureatı mükafatına layiq görülmüşdür. 1974-cü və 1985-ci illərdə Ali Sovetin fəxri fərmanları ilə təltif olunmuşdur. O, IX çağırış Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilmişdir.

Ə. Hüseynzadənin gənc yaşları müharibənin qızğın illərinə təsadüf edir. Bununla əlaqədar orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra məcburiyyət qarşısında qalaraq Bakı Dəmiryolu Texnikumuna daxil olur. Təhsilini davam etdirərək, eyni zamanda Bakı şəhərinin Sabunçu rayonunda dəmiryolu sahəsində baş fəhlə və texnik vəzifəsində çalışır. 1945-ci ildə Bakıda filialı açılan Tbilisi Dəmiryolu İnstitutunun tikinti şöbəsinə daxil olur (sonralar bu filial Azərbaycan Sənaye İnstitutunun Nəqliyyat fakultəsinə çevrilir) və 1950-ci ildə institutun birinci məzunlarından biri olur.

Böyük Vətən müharibəsindən sonra ölkədə quruculuq işləri böyük vüsət alanda "Kür-Araz Su Tikinti" Baş İdarəsi, "Metrotikinti" İdarəsi, eyni zamanda o vaxt Ermənistandan köçüb gələn azərbaycanlıları yerləşdirmək üçün yaşayış evləri tikən "Köçürmətikinti" ("Azpereselenstroy") və s. çoxsaylı tikinti təşkilatları yaradılır. Tikinti-quraşdırma işləri nəinki Bakı şəhərində, eləcə də Sumqayıt, Mingəçevir və digər rayonlarda aparılırdı. Demək olar ki, tikintinin qaynar bulaq kimi coşub çağladığı bir vaxtda bu sahədə işləmək o zaman hər bir insanın arzusu idi və bu böyük şərəf sayılırdı. Belə bir zamanda, 1950-ci ildə Əlimuxtar müəllim gənc mütəxəssis kimi Kür-Araz Su Tikinti İdarəsinin Salyan rayonunun Şorsulu kəndində olan tikinti idarəsinə göndərilir və burada 1953-cü ilə qədər ağır şəraitin

olmasına baxmayaraq çox həvəs və coşqunluqla işləyən su təsərrüfatı obyektlərinin, yaşayış evlərinin, elektrik yarımstansiyalarının tikintisində müvəffəqiyyətlə çalışır və böyük təcrübə qazanır.

1953-cü ildə Əlimuxtar Hüseynzadə Bakı şəhərinə qayıdır və o zaman keçmiş Sovet İttifaqı Neft Nazirliyinin tabeçiliyində olan Azərbaycan Ərazi Tikinti Trestində fəaliyyət göstərir. Burada o, bir neçə mürəkkəb tikintinin icrasına rəhbərlik edir, o cümlədən Gəmi Təmiri Zavodunun tikintisinin başa çatdırılmasında fəal iştirak edir. Burada gənc mütəxəssis böyük təcrübə toplayır, sınaqdan keçir, tikintinin incəliklərini mənimsəyir və hər-hansı bir tikintinin texniki mürəkkəbliyindən asılı olmayaraq müstəqil və səmərəli qərarlar qəbul etməyə nail olur.

1956-cı ildə Bakı Baş Tikinti İdarəsi yaradılır və Əlimuxtar müəllimin çalışdığı idarə Bakı Baş Tikinti İdarəsinin tabeliyinə verilərək 3 nömrəli Tikinti İdarəsi yaradılır. Öz fəaliyyətini Bakı Baş Tikinti İdarəsinin 3 nömrəli Tikinti İdarəsində iş icraçısı vəzifəsində davam etdirərək 1958-ci ildə idarənin rəisi təyin olunur. 1962-ci ildə isə yeni yaradılan 1 nömrəli Bakı Şəhər Tikinti Trestinin müdiri vəzifəsinə təyin edilir. Beləliklə, bu idarəyə usta kimi işə qəbul olunan Əlimuxtar Ağaqulu oğlu 9 il ərzində öz zəhməti və bilik nəticəsində ustalıqdan böyük bir trestin müdiri vəzifəsinə ucalmışdır.

Bu illər ərzində Əlimuxtar müəllimin rəhbərliyi altında Bakı Televiziya Mərkəzi, Nərimanov prospektində (indiki Cavid prospekti), 522, 528, 535 nömrəli məhəllələrdə yerləşən yaraşıqlı "Stalinka" deyilən beşmərtəbəli binalar, 8 nömrəli internatın yenidən qurulması, "Cəfər Cabbarlı" və "Sevil" kinoteatrları, "Yaşıl" teatr, Elmlər Akademiyasının binası və onun kimya və fizika institutlarının binaları, Azərbaycan Dövlət Universitetinin binası, Politexnik İnstitutunun yeni korpusları, Sirkin binası və Azərbaycanfilm Kinostudiyası, Azqiprovodxoz İnstitutunun binası (indiki Vergilər Nazirliyinin binası), Aktyorlar evi, "Bakı" mehmanxanası, Respublika xəstaxanasının iki əsas korpusu, Ə.Qarayev adına Mərkəzi Uşaq Xəstəxanası, M.Topçubaşov adına Eksperimental Xəstəxana, Onkologiya İnstitutu, Qanköçürmə və Taun Əleyhinə stansiyalar, 5 nömrəli xəstəxana, çoxsaylı məktəb, uşaq bağçası və s. obyektlər tikilib istifadəyə verilmişdir.

Ə. A. Hüseynzadə 1966-cı ilin iyun ayında respublika rəhbərliyinin təklifi ilə keçmiş Sovet İttifaqı dövrləri zamanı mərkəzin tabeçiliyində olan SSRİ Nəqliyyat Tikinti Nazirliyinin "Xəzərdəniztikinti" Trestinin müdiri vəzifəsinə təyin olunmuşdur. Bu trest Rusiya Federasiyası, Azərbaycan, Türkmənistan və Qazaxıstan Respublikalarının ərazisi sayılan Xəzər dənizində və dəniz kənarı hidrotexniki qurğuların, portların, paromların, aerodromların, bəndlərin, körpülərin, dəmir yollarının, bu nazirliyin işçiləri üçün yaşayış evlərinin və digər sosial-mədəni obyektlərin tikintisi ilə məşğul idi.

Bu trestdə çalışdığı dövr ərzində Əlimuxtar müəllim öz peşəkarlığını, səriştəsini və böyük idarəçilik qabiliyyətinə malik olan təşkilatçığını göstərmişdir. Trestin apardığı tikinti-quraşdırma işlərinin həcmi 8 ildə 5 dəfədən çox artmışdır. Bu illər ərzində Zabrat-Pirşağı dəmir yolu, Sumqayıt-Yalama və Bakı-Dərbənd yollarının elektrikləşdirilməsi, Dübəndidə

neftdoldurma bazası, Bakıda Dəniz vağzalı, Bakı Gömrüyünün binası, 16 mərtəbəli İnturist ("Azərbaycan") mehmanxanası, İçəri Şəhərdə Ensiklopediya binası, Kibernetika institutunun çoxmərtəbəli korpusu, maşınqayıranlar üçün sınaq zavodu, Dövlət Təhlükəsizlik Komitəsinin yeni inzibati binası və işçiləri üçün Bilgədə dənizkənarı istirahət zonası, Əhmədlidə dəniz gəmiçiliyi üçün ağac məmulatı qəbul edən liman, Qaradağda sement zavodunun işçiləri üçün qəsəbə, Əhmədlidə və Hövsanda çoxlu yaşayış binaları, Alacada dəniz limanı, Çələkənddə türkmən neftçiləri üçün, Zığda və Dübəndidə Azərbaycan neftçiləri üçün, Hövsanda və Port-İliçdə balıqçılar üçün, Bayılda dəniz hərbiçiləri üçün yeni bazalar, körpülər, yaşayış evləri, məktəblər, idarə binaları və sair sənaye və kommunal obyektlər tikilmişdir.

Azərbaycan Respublikası Hökumətinin dəstəyi ilə 1971-ci ilin fevralında İttifaq Hökumətinin qərarı ilə bu trestin adı dəyişdirilərək Azərbaycan Nəqliyyat Tikinti Tresti ("Azərnəqliyyattikinti") adlandırıldı və beləliklə, bütün dəmiryolu obyektlərinin inşası bu trestə tapşırıldı.

Qeyd etmək lazımdır ki, bu trestin tikdiyi obyektlər Ulu Öndər Heydər Əliyevin həmişə nəzarəti altında olmuşdur. Ulu Öndər bu trestin tikdiyi obyektlərdə olaraq onların keyfiyyətini yüksək qiymətləndirərdi.

1974-cü ildə Azərbaycan KP MK-nin qərarı ilə Əlimuxtar Hüseynzadə Kənd Tikinti naziri təyin edilmişdir. Belə bir təyinat Ulu Öndərin Əlimuxtar Hüseynzadəyə böyük etimad göstərməsinin təzahürü idü.

Keçən əsrin 60-cı illərində ölkənin kənd təsərrüfatının inkişafında böyük gerilik yaranmışdı. Bununla əlaqədar 70-ci illərin əvvəlində kənd təsərrüfatının əsas sahələri üzrə - pambıqçılığı, üzümçülüyü, heyvandarlığı, meyvə və tərəvəzçiliyi inkişaf etdirmək üçün Kənd Tikinti Nazirliyi gərgin işləməklə bərabər texniki tərəqqinin tələblərinə cavab verən özünün maddi – texniki bazasını möhkəmləndirməli idi.

Əlimuxtar Hüseynzadə 1974-cü ilin axırlarında respublikanın Kənd Tikinti naziri təyin edildiyi zaman nazirliyin qarşısında daha mühüm vəzifələr dururdu, kənddə tikintinin maddi – texniki bazasının və kənd tikinti təşkilatlarının fəaliyyət dairəsinin bir qədər də genişləndirilməsi tələb olunurdu.

Qeyd etmək lazımdır ki, qısa bir vaxtda Qazaxda 7 nömrəli trest və onun ətraf rayonlarında üç tikinti idarəsi yaranmışdır. Füzuli-Qubadlı zonasında tikinti-quraşdırma işləri aparmaq üçün Füzuli şəhərində 6 nömrəli, Sabirabad-İmişli zonasında isə Sabirabadda 8 nömrəli trestlər təşkil olunmuşdur. Xüsusi quraşdırma işləri aparmaq üçün (santexnika və elektrik işləri) trest yaradılmış və bu trestlər üçün Biləcəridə və Keşlədə müəyyən baza qurulmuşdur.

Görülmüş tədbirlər nəticəsində 3-4 il ərzində nazirlik üzrə tikinti işlərinin həcmi iki dəfədən çox artmışdır, yeni heyvandarlıq, quşçuluq kompleksləri, şərab zavodları və s. obyektlər istifadəyə verilmişlər. Respublikanın şəhərlərində və digər rayonlarında-Astarada, Zaqatalada, Lənkəranda, Yevlaxda, Beyləqanda, Sabirabadda və digər rayonlarda kənd təsərrüfatı məhsulları emal edən müəssisələr tikilib vaxtında istifadəyə verilmişdir.

Əfsuslar olsun ki, kənd tikinti işlərində yeni nailiyyətlər, müsbət dəyişikliklər əldə edildiyi zaman və işin gərgin vaxtında – 1978-ci ilin əvvəllərində Əlimuxtar müəllimin səhhətində problemlər yaranmışdır. Bununla əlaqədar 1978-ci ildə o, Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyevin məsləhəti ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə tikinti məsələləri üzrə nazirin müavini təyin olunmuşdur.

1978-1985-ci illərdə burada Əlimuxtar müəllim böyük əmək sərf edir, səhiyyənin bazasının genişləndirilməsində və inkişafında nazir müavini kimi bütün gücünü sərf edir. 1985-ci ilin fevralında 60 yaşında xəstəliyi ilə əlaqədar Əlimuxtar Hüseynzadənin təqaüdə çıxmaq barədə xahiş müraciəti qəbul olunur. Əlimuxtar müəllimə ittifaq əhəmiyyətli fərdi təqaüd təyin edilir. Eyni zamanda 60 illik yubileyi münasibətilə Əlimuxtar Hüseynzadə Ali Sovetin fəxri fərmanı ilə təltif olunur.

Əlimuxtar Ağaqulu oğlu Hüseynzadə 2007-ci ilin sentyabr ayında 82 yaşında haqq dünyasına qovuşdu. Əlimuxtar müəllim ziyalı, nurlu bir insan idi. O mədəniyyətimizi, ədəbiyyatımızı dərindən bilən el ağsaqqalı idi. Əlimuxtar müəllim gözəl və nümunəvi ailə başçısı olmuşdur. Onun övladları onun yolunu müvəffəqiyyətlə davam etdirirlər.

Bütün ömrünü tikinti kompleksinin inkişafına həsr etmiş Əlimuxtar müəllimin yanında məktəb keçmiş çoxsaylı inşaatçı kadrlar bu gün də tikintidə rəhbər işlərdə çalışırlar.

Ömür boyu insansevər, hamıya mehriban münasibət saxlamağa, ünsiyyət qurmağa çalışan və bacaran, imkanı çərçivəsində insanlara kömək əli uzadan və bundan zövq alan Əlimuxtar müəllim eyni zamanda zəhmətkeş, tələbkar və dövlətçiliyimizə sadiq bir insan olmuşdur.



Azərbaycan Milli Elmlər Akademiyasının binası



1



2

1. Bakı Dövlət Universitetinin tədris korpusu. **2.** Ə. Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası.
Azərbaycan xalqına xidmət edən bu vacib tikililər ayrı-ayrı zaman kəsiyində
tanınmış inşaatçı-mühəndis Əlimuxtar Hüseynzadənin rəhbərliyi altında tikilib istifadəyə verilmişdir.

X



Xələfov
Rafiq
Rəsul oglu

1939-cu ildə anadan olmuşdu. Bilik və bacarığını, gücünü və enerjisini xalqının yolunda sərf edən, qəlbində hələ neçə-neçə iş görmək arzusunu yaşadan, lakin taleyinə yazılan illərin o qədər də uzun olmadığından buna macal tapmayan gözəl insanlardan biri idi. O, cəmi 59 il yaşadı. Mühəndis diplomu alaraq gənc mütəxəssis kimi fəaliyyətə başladığı vaxtdan pillə-pillə yüksəlib müxtəlif vəzifələrə irəli çəkildi. Harada çalışmasından asılı olmayaraq özünəməxsus təşəbbüskarlıq və təşkilatçılıq, əməksevərlik və bacarıqlı rəhbər xüsusiyyətlərini nümayiş etdirdi. Ona görə də bu gün Rafiq Xələfovu xarırlayarkən bir neçə qısa və dəyərli kəlmə yada düşür - o, Azərbaycanın layiqli oğullarından idi...

Xalq Rafiq Xələfovun təcrübəsini, təşkilatçılıq qabiliyyətini onun avtomobil yolları sahəsində işlədiyi dövrdə daha əyani görə bildi. On il dalbadal ölkə iqtisadiyyatının ən çətin sahələrindən birinə rəhbərlik etmək o qədər də asan iş deyildi. Həm də söhbət yaxşı rəhbərlik etməkdən, sahənin inkişafına nail olmaqdan gedir. Rafiq Xələfovun avtomobil yollarının istismarı və tikintisi naziri olduğu 1979-1989-cu illərdə sahə xüsusi inkişaf etdi. Bu da təsadüfi deyildi. Çünki həmin vəzifəyə təyin olunanadək R.Xələfov artıq təcrübəli mütəxəssis kimi respublikada və onun hüdudlarından kənarda tanınmış, zəngin iş və həyat təcrübəsi toplamışdı. Həm də ötən əsrin 70-ci illəri ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə respublikamızın inkişafı, çiçəklənməsi dövrü idi. Xalqını sevən vətəndaş kimi Rafiq bəy də bu prosesdən kənar qala bilməzdi. Çünki o, Heydər Əliyev məktəbinin yetirməsi idi. Bunu onun keçdiyi həyat yolu da təsdiq edir.

Rafiq Xələfov 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirəndən sonra müxtəlif sahələrdə çalışmış və elə ilk dövrlərdən özünü səmərələşdirici təkliflərlə çıxış edən, istehsalata yenilik gətirən istedadlı mühəndis kimi göstərmişdi. 1962-1965-ci illərdə "Azərtəsərrüfat" Dövlət Layihə İnstitutunda iqtisadçı, iş icraçısı, baş mühəndis vəzifələrində çalış-

mışdı. Sonra "Azərdənizneftikinti" trestinin baş mühəndisi vəzifəsinə irəli çəkilmişdi. 1969-cu ildə Suriyanın neft yataqlarında tikinti işlərinin aparılmasında iştirak etmək üçün bu ölkəyə ezam olunmuşdu. Burada da etimadı layiqincə doğrultmuşdu. Sonralar neft sənayesi tikintisi üzrə səriştə və təcrübəsini nəzərə alaraq R.Xələfovu keçmiş SSRİ Neft Sənayesi Nazirliyinin "Xəzərdənizneft" İstehsalat Birliyi baş direktorunun müavini, "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyi rəisinin müavini vəzifələrinə irəli çəkmişdilər. Bu vəzifələrdə çalışdığı dövrdə R.Xələfovun mühüm sənaye obyektlərinin tikilməsində böyük rolu olmuşdu.

Qurub-yaratmaq, tikmək, yol çəkmək, körpü salmaq Rafiq Xələfovun təkcə sənəti və vəzifəsi deyil, həm də amalı, alın yazısı, həyatını həsr etdiyi iş idi. Bu onun yol sahəsində çalışdığı illərdə özünü daha aydın büruzə verdi. Yollar haqqında çox söz deyilib. Mədəniyyətin, firavanlığın, inkişafın məhz yoldan başlandığını söyləyirlər. Rafiq Xələfov bunları vurğulamağı deyil, işlə sübut etməyi sevirdi. Odur ki, onun avtomobil yollarının istismarı və tikintisi naziri olduğu illər yol təsərrüfatının inkişafı dövrünə çevrildi. Ölkədə şosse yollarının ümumi uzunluğu 23.800 kilometrdən 24.900 kilometrə çatdırıldı. Bərk örtüklü yollar 18.300 kilometrdən 23.800 kilometrədək uzadıldı. Bakı-Sumqayıt-H.Z.Tağıyev-Giləzi, Lökbatan-Qaradağ-Ələt-Astara keçid yolu, İsmayıllıdan, Sabirabaddan, Füzulidən, Tovuzdan qonşu bölgələrə uzanan, bir sözlə, ölkənin bütün yaşayış məntəqələrini biri-birinə calayan yollar. Bunların hamısı magistral, birinci dərəcəli yollardır və Rafiq Xələfovun rəhbərliyi ilə inşa edilib.

Rafiq Rəsul oğlunun belə yadigarları çoxdur. Oxucuları fakt və rəqəmlərlə yormaq istəməsək də, bir neçə misal gətirəcəyik. Çünki görülən hər hansı bir işi əyani göstərən bunlardır. Həmin illərdə birinci dərəcəli yolların 5, ikinci dərəcəli yolların 3,2, üçüncü dərəcəli yolların 2,3 dəfə artırılması məhz Rafiq Xələfovun və onun başçılıq etdiyi kollektivin zəhmətinin bəhrəsidir. Səy və təşəbbüs nəticəsində məhz həmin dövrdə Poylu, Daşburun, Ordubad, Vəlvələçay qırmadaş karxanaları yol tikintisi üçün vacib sayılan materialları 5,3 milyon kubmetrdən 14,7 milyon kubmetrədək, qum materialları 400 min kubmetrdən 1 milyon 420 min kubmetrədək artırıldı. Körpü salmağı da xalqımız qədim zamanlardan yol çəkmək kimi gərəkli və xeyirxah bir iş sayıb. Rafiq Xələfov Tovuzda və Zərdabda Kür, İmişlidə Araz, Naxçıvanda Naxçıvançay, Laçında Pircahançay, Qazaxda Ağstafaçay üzərində körpülərin salınmasında bilavasitə rəhbərlik və iştirak edib. Həmin illərdə Lökbatan-Ələt, Bakı- Sumqayıt-H.Z.Tağıyev-Giləzi magistrallarında hərəkəti tənzimləyən körpülər də salınıb. Qeyd etmək lazımdır ki, bu işlərin hamısı yol tikintisi və istismarı sahəsindəki qabaqcıl təcrübənin, müasir texnologiyanın geniş tətbiqi ilə həyata keçirilirdi. Odur ki, yollar və qurğular beynəlxalq norma və standartlara cavab verirdi. Bir sözlə, R.Xələfovun rəhbərliyi ilə Azərbaycanda avtomobil yollarının şəbəkəsi tam formalaşdı. Bu şəbəkə ölkənin bütün şəhərlərini, rayon mərkəzlərini, qəsəbələri, hava və dəniz limanlarını, dəmiryol stansiyalarını, qoruqları, yerli kurort və istirahət mərkəzlərini, eləcə də qonşu dövlətlərlə sərhəd məntəqələrini birləşdirirdi. Əlbəttə, yeni yolların çəkilməsi təkcə istəklə və zəhmətlə başa gələn iş deyildi. Bunun üçün bürokratik sovet plan sistemini "pozmaq", hər il qurğu və yolların tikintisinə ayrılan kapital qoyuluşunun həcminin artırılmasına nail olmaq lazım gəlirdi. R.Xələfov məhz bunları bacaran nazir idi. Azərbaycanın yol tarixində ilk dəfə olaraq şosse yollarının uzunmüddətli inkişaf proqramı da (1981-2000-ci illər üçün) onun rəhbərliyi ilə işlənib hazırlanmışdı. Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün illərdə azərbaycanlı gənclərin təhsilinə, xüsusilə onların nadir ixtisaslar üzrə xaricdə ali məktəblər bitirməsinə böyük qayğı göstərib. Rafiq Xələfov da gələcəyə yönəlmiş bu uzaqgörən siyasəti dəstəkləyənlərdən idi. O, ümumiyyətlə, gənclərə qayğı ilə yanaşır, xaricdə təhsil alıb gəlmiş mütəxəssislərin işlə təmin olunmasına kömək edir, məsuliyyətli və bacarıqlı kadrları irəli çəkirdi. Bakıda, Moskvada, Sankt-Peterburqda, Kiyevdə, Minskdə ali təhsil alıb R.Xələfov tərəfindən işə götürülən mütəxəssislər bu gün sahəni irəliyə aparanların sırasındadırlar. Onların çoxu indi rəhbər işlərdə çalışır. Tabeliyindəki bütün işçilərə qayğı R.Xələfova xas olan keyfiyyətlərdən idi. Onun yaxından köməyi ilə işçilərin çoxu mənzil şəraitini yaxşılaşdırmışdı, güzəştli qaydada minik maşınları almışdı. R.Xələfov çalışırdı ki, yol təsərrüfatı işçiləri gərgin əməkdən sonra öz illik məzuniyyətlərini yalnız Azərbaycanın deyil, keçmiş İttifaqın müxtəlif kurort və sanatoriyalarında, sağlamlıq və turizm mərkəzlərində keçirsinlər. R.Xələfovu tanıyanlar, onunla birlikdə çalışanlar bilirlər ki, o, bütün vəzifələrdə bu cür olub - işgüzar, qayğıkeş, təşəbbüskar. 1989-1993-cü illərdə Nazirlər Kabinətinin İşlər İdarəsində şöbə müdiri, baş nazirin müşaviri işləyəndə də, 1993-cü ildən başlayaraq "Xalq üçün mallar" Dövlət Konsernin idarə heyətinin sədri vəzifəsində çalışanda da. "Xalq üçün mallar" Dövlət Konserni də mürəkkəb quruluşa malik bir sahə idi. Konsern ölkə sənayesinin doqquz müxtəlif sahəsinə rəhbərliyi həyata keçirirdi. Özü də Azərbaycan iqtisadiyyatı üçün çətin olan bir dövrdə. İqtisadiyyat tənəzzülə uğramış, keçmiş əlaqələr qırılmış, bazar itirilmişdi. Belə çətin bir vaxtda R.Xələfov istehsalatın bazar iqtisadiyyatı istiqamətində qurulması üçün bütün qüvvələri səfərbər etdi. Nəticədə "Xalq üçün mallar" Dövlət Konserni qısa müddətdə öz məhsullarını xaricə göndərməyə nail oldu. Mütəxəssislər Almaniyaya, Türkiyəyə, Çinə ezamiyyətə yollandılar, müasir texnika, xammal və materialların alınması barədə müqavilə bağladılar. Əmək ahəngini bərpa edən müəssisələrdə minlərlə insan, o cümlədən qadınlar və qızlar işlə təmin olundular.

1997-ci ildə baş nazirin müavini təyin edilən R.Xələfov bu məsul işdə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir və ölkə iqtisadiyyatının yüksəlişi üçün əlindən gələni əsirgəmirdi. Rafiq Xələfovu xaricdəki həmkarları da yaxşı tanıyırdılar. O, bir çox səmərələşdirici təkliflərin müəllifi idi. Dəfələrlə beynəlxalq tədbirlərdə Azərbaycanı və keçmiş SSRİ-ni təmsil etmişdi.

R. Xələfov əməyinə görə orden və medallarla təltif olunmuşdu. İki çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdi. Rafiq Xələfov şair təbiətli insan idi. İncə təbli şeirləri vardı.



Xəlilov
Mirzəcan
Mirzəmməd oğlu

19 aprel 1954-cü ildə Sabirabad rayonunun Kovlar kəndində anadan olub. 1960-cı ildə Kovlar kənd səkkizillik məktəbin 1-ci sinfinə getmiş, 1968-ci ildə həmin məktəbdə 8 illik təhsil almış, 1970-ci ildə isə S.Vurğun adına 3 nömrəli Sabirabad şəhər orta məktəbində orta təhsilini başa vurmuşdur.

M.M. Xəlilov elə həmin ildə Ç.İldırım adına Politexnik İnstitutunun axşam şöbəsinə qəbul olunmuş və təhsilini axşam şöbəsində davam etdirməklə, 1970-ci ilin oktyabrından Bakı Şin Zavodunda çilingər kimi ilk əmək fəaliyyətinə başlamışdır.

M.M. Xəlilov 1974-1976-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidmətdə olarkən Azərbaycan Politexnik İnstitutu iki hissəyə bölünərək Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaradıldığı üçün o, 1976-cı ildə hərbi xidmətdən qayıtdıqdan sonra ali təhsilini Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda davam etdirmiş və yenidən öz iş yerinə-Bakı Şin Zavoduna qayıtmışdır.

M.M. Xəlilov 1977-1978-ci illərdə Sabirabadda "Muğanmeliorasiyasutikinti" trestinin 10 nömrəli SMD-də briqadir kimi işləmişdir. 1978-ci ildə isə "Azərkəndsutəchizattikinti" İB-nin Sabirabad-Saatlı Qrup Su Kəmərinin tikintisi üçün yaradılan 20 nömrəli SMD-də işə qəbul olunmuş və ayrı-ayrı vaxtlarda həmin təşkilatda briqadir, usta, iş icraçısı və baş mühəndis vəzifələrində çalışaraq daha sonra rəis vəzifəsinə qədər yüksəlmişdir.

M.M. Xəlilov 1979-cu ildə "Çay qurğularının və Su Elektrik Stansiyalarının hidrotexniki tikintisi" ixtisası üzrə tam kursu bitirərək hidrotexnik mühəndisi ixtisasına yiyələnmişdir.

18 noyabr 1991-ci ildə "Azərkəndsutəchizattikinti" İB ləğv olunaraq "Azərkəndsutəchizattikinti" Konserni yaradılmışdır. 1997-ci il 2 dekabr tarixində Konsern ləğv edilmiş və tabeliyində olan təşkilatlar səhmdar cəmiyyətlərə çevrilmişdir.

M.M. Xəlilov 1998-ci il 8 sentyabr tarixindən yeni yaranan "Sabirabad-Su-Təchizat-Tikinti" ATSC-nin sədri vəzifəsini icra etmişdir. Mülkiyyət formasının dəyişməsi ilə əlaqədar 15 avqust 2003-cü ildə "Azərsutəchizattikinti" ASC yaradılmış və M.M. Xəlilov Cəmiyyətin İdarə Heyətinin sədri seçilmişdir.

M.M. Xəlilov hazırda həmin vəzifədə çalışır.

M.M. Xəlilov 1990-1995-ci illərdə Sabirabad rayon Sovetinin deputatı olub. 1997-ci ildən YAP-ın üzvüdür. 2006-cı ildən YAP-ın Sabirabad Rayon Təşkilatı İdarə Heyətinin üzvü seçilib.

2005-ci ildə Milli Məclisə seçkilərdə 63 saylı Sabirabad birinci seçki dairəsindən YAP tərəfindən vahid namizəd olub.

"Azərsutəchizattikinti" ASC-nin sədridir.

Ailəlidir, 6 övladı var.

"Azərsutəchizattikinti" ASC 1997-ci ildə ləğv edilmiş "Azərkəndsutəchizattikinti" konserinin hüquqi varisidir. Təşkilat 1976-cı ildə Sabirabad-Saatlı Qrup su kəmərinin tikintisini həyata keçirmək məqsədi ilə yaranmışdır. 1980-ci ildə tikintisi başa çatmış obyektin açılışını şəxsən Ulu Öndər Heydər Əliyev etmişdir. O, vaxt

həmin qurğu SSRİ Nazirlər Sovetinin mükafatına layiq görülmüşdür.

Sonralar M.Xəlilovun rəhbərliyi ilə təşkilat respublikanın bütün bölgələrində su təchizatı obyektlərinin tikintisini həyata keçirmişdir.

1988-90-cı illərdə Ermənistandan gələn qaçqınların Abşeron rayonu ərazisində və eyni zamanda indiki Xızı rayonunda məskunlaşması üçün infrastruktur layihələri həyata keçirmişdir.

1991-92-ci illərdə xüsusi Dövlət Proqramı olan Dağlıq Qarabağ Ərazisində yaşayan Azərbaycanlı kəndlərində və Ermənistanla sərhəd rayonların kəndlərində tikinti-quraşdırma işləri həyata keçirmişdir.

1993-94-cü illərdə məcburi köçkunlərin qarşılanmasında, çadır düşərgələrinin və Fin qəsəbələrinin salınmasında infrastruktur layihələrini həyata keçirmişdir.

1997-ci ildən Ərazilərin Bərpası Agentliyinin sifarişi ilə Füzuli rayonunun işğaldan azad olunmuş 22 kəndinin su təchizatının tikintisini başa çatdırıb. Sonra bu proses bütün sərhəd rayonlarında həyata keçirilib.

2002-ci ildən hal-hazıra kimi məcburi köçkünlər üçün yeni qəsəbələrin tikintisini həyata keçirir.

2004-cü ildə Ulu Öndər Heydər Əliyevin vəfatının bir illiyinin anım günü ərəfəsində nəşr olunan Heydər Əliyevə həsr edilmiş "Xalqa bağışlanan ömür"


1


2


3


4

1. Xaçmaz şəhərində tutumu 1500 kub.m olan 2 ədəd su anbarı və manevr otağının tikintisi.
2-3. Gəncə şəhərində Qızıl-Qaya su mənbəyindən şəhərə gedən boru xəttinin çay keçidinin tikintisi.
4. Gəncə şəhərində tutumu 5000 kub.m olan su anbarının tikintisi.

(III-kitab) kitabının təsisçisi və ön sözün müəllifi olmuşdur.

2005-ci ildə Sabirabadda Ulu Öndərin Abidə-muzey kompleksinin tikintisini şəxsi təşəbbüsü ilə həyata keçirib. Cənab Prezident İlham Əliyev 2005-ci ilin oktyabrında Abidə-muzey kompleksinin açılışını edib.

2005-ci ildə Heydər Əliyev Fondunun vəsaiti hesabına 6 məktəbin tikintisini başa çatdırıb.

2008-ci ildə Ulu Öndərin 85 illiyi münasibəti ilə Abidə-muzey kompleksinin qarşısında Fəvvarə tikdirib.

2009-cu ildə Heydər Əliyevin 86-ci ildönümü münasibəti ilə Yeni Azərbaycan qəzetinin təşkilatçılığı ilə KİV nümayəndələri arasında keçirilən Dama yarışmasının, 2010-cu ildə isə 87-ci ildönümünə həsr edilmiş Voleybol üzrə yarışmanın təşkilatçısı və sponsoru olmuşdur.

2010-cu ildə Kür çayının daşması zamanı yaranan təbii fəlakətin aradan qaldırılmasında yaxından iştirak etmişdir. Belə ki, Kürün sol sahilində 17 km ərazini öz kollektiv üzvləri, maşın-mexanizmləri və 6 kəndin birgə qüvvəsi ilə aradan qaldırmışdır. Sabirabad şəhərinin və kəndlərinin içməli su təchizatının və suvarma suyunun müvəqqəti təşkilini həyata keçirmişdir.

Goranboy rayonu Yuxarı Ağcakənd məntəqəsinin su təchizatı sisteminin bərpası, Füzuli rayonunun 5 kəndinin su təchizatının yenidən qurulması, Füzuli r-nu 1,3 və 5 nömrəli yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi, Füzuli rayonunun Harami ərazisində məcburi köckünlər üçün salınacaq 10 yeni yaşayış qəsəbəsinin və Qayıdış qəsəbələrinin xarici icməli su təchizatı sistemini (baş suqəbuledici qurğuların tikintisi), Biləsuvar rayonunun ərazisində 13 yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi, Füzuli rayonunun Haramı düzündə 6 ədəd qəsəbələr ücün irriqasiya sistemi obyektlərinin tikintisi, Goranboy rayonunun şərq hissəsində 42 ədəd subartezian quyusunun bərpası, Xanlar şəhərinə Zurnabad kəndi ərazisindən su kəmərinin çəkilişi, Xanlar rayonunda 70 ədəd subartezian quyusunun bərpası, Ağdaş ,Göycay və İsmayıllı rayonlarında sahil bərkitmə işləri, Zaqatala, Balakən və Qax rayonlarında içməli su sistemlərinin tikintisi, Qusar rayonunda və Qobustan rayonunun Mərəzə qəsəbəsində su sistemlərinitn tikintisi, Ağdam rayonu ərazisində 836 evdən ibarət "Baharlı" yeni yaşayış qəsəbəsinin su təchizatı sisteminin tikintisi, Ağdam rayonu ərazisində "Təzəkənd" yeni yaşayış qəsəbəsinin su təchizatı, Əli Bayramlı şəhərində yanğına qarşı su hovuzlarının təmiri və tikintisi, Ağsu şəhərinin su təchizatının yenidən qurulması, Qobustan rayonunun Mərəzə qəsəbəsinin və digər yaşayış məntəqələrinin su təchizatı, Sabirabad şəhərinin kanalizasiya sisteminin yaxşılaşdırılması, Astara rayonunun su təchizatının yaxşılaşdırılması, Qusar rayonu Ləzə su qəbul edicisindən yeni su kəmərinin tikintisi, Qax şəhərinin Qumçay su qəbul edicisindən yeni su kəmərinin tikintisi, Füzuli rayonu ərazisində 2104 ailəlik yeni yaşayış qəsəbələrinin xarici və daxili içməli su təchizatı sisteminin tikintisi, Füzuli rayonu ərazisində yeni qəsəbələrə köçürüləcək əhalinin həyətyanı sahələrinin suvarma şəbəkəsinin tikintisi, Goranboy rayonu ərazisində 500 ailəlik yeni yaşayış qəsəbələrinin xarici içməli su təchizatı sisteminin tikintisi, Beyləqan rayonu ərazisində 500 məcburi köçkün ailəsi üçün ayrılmış əkin sahələrinin irriqasiya şəbəkəsinin tikintisi, Goranboy rayonu ərazisində məcburi köçkünlər üçün salınan 596 ailəlik yeni qəsəbənin içməli su təchizatı sisteminin tikintisi, Yevlax şəhəri ərazisində 612 məcburi köçkün ailəsi üçün salınan məhəllənin içməli su təchizatı və kanalizasiya sisteminin tikintisi, "Azərsu" ASC-nin sifarişi və Dünya Bankının vəsaiti hesabına II Acıq Kommunal İnfrastruktur Proqramı-Mərhələ1, Şəki, Müqavilə 1, Kiş sugötürücü qurgusu, Magistral boru xətti və su anbarının bərpası, Ağcəbədi rayonu ərazisində 552 məcburi köçkün ailəsi üçün tikilən qəsəbənin su təchizatı sisteminin tikintisi, Oğuz-Qəbələ-Bakı su kəmərinin təkmilləşdirilməsi ilə əlaqədar Bakı şəhərində və qəsəbələrində su-kanalizasiya şəbəkəsinin təkmilləşdirilməsi, Xətai rayonu Babək prospektindən Cavanşir küçəsinə qədər su xəttinin çəkilişi, Nizami rayonu Elşən Süleymanov küçəsi boyu su xəttinin çəkilişi (Kür xətti), Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin 2 nömrəli pansionatında mövcud kanalizasiya xətlərinin layihələndirilməsi və yenidən qurulması, M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı Filialının tikilən tədris kompleksinin xarici təsərrüfat-məişət və yağış kanalizasiya kollektorlarının tikintisi, Ağcəbədi rayonu ərazisində 556 məcburi köçkün ailəsi üçün salınan məhəllənin içməli su təchizatı və kanalizasiya sisteminin tikintisi, Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə su təchizatı və kanalizasiya sistemlərinin tikintisi, Şəki rayonu ərazisidə 423 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində su təchizatı sisteminin tikintisi və digər layihələr Mirzəcan Xəlilovun baş podratçı kimi yerinə yetirdiyi işlərin bir qismidir.

Hazırkı vaxtda isə Mirzəcan müəllimin kollektivi "Azərsu" ASC-nin sifarişi və Dünya Bankının vəsaiti hesabına II Acıq Kommunal İnfrastruktur Proqramı-Mərhələ2, Gəncə şəhəri ərazisində Qızılqaya sugötürücü qurğusu, iki mövcud su anbarının bərpası, xlorlama sisteminin, bir yeni su anbarının və qidalandırıcı boru xəttlərinin tikintisini, kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi çərçivəsində, Xaçmaz, Qusar və Xızı şəhərlərinin su təchizatı sistemlərinin bir hissəsinin yenidən qurulması işlərini, Bərdə, İmişli. Saatlı rayonlarında və Bakının Masazır qəsəbəsində məcburi köçkün qəsəbələrində su təchizatı və kanalizasiya sisteminin tikintilərini, MKSİF-in sifarişi və Dövlət Neft Fondunun vəsaiti hesabına Müşfiqabad qəsəbəsinin ərazisində 1410 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli yaşayış binalarından ibarət məhəllənin su təchizatı və kanalizasiya sisteminin tikintilərini və digər layihələri həyata keçirməkdədirlər.

M.M. Xəlilov 35 ildir ki, ölkə tikintisindədir. O, müxtəlif tikinti qurumlarında fəhləlikdən başlayaraq ən yüksək vəzifələrə qədər yüksəlib və harda, hansı vəzifədə işləməsindən asılı olmayaraq hər zaman işinə yüksək məsuliyyət hissi ilə yanaşıb, taleyini bağladığı peşədən, inşaatçı-mühəndis fəaliyyətindən qürur duyub.

O, bu gün də tikib-qurmaqdan qürur duyur və illər ötdükcə öz sənətinə daha çox bağlanır.



Xəlilov
Şamxəlil
Xəlil oğlu

1945-ci ildə Gürcüstan SSR Bolnisi rayonundakı Əsmələr kəndində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi, 1969-cu ildə isə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirib beton və dəmir-beton məmulatlarının və konstruksiyalarının istehsalı – inşaatçı-mühəndis, texnoloq ixtisasını almışdır. Təyinatla respublika Baş Kolxozlararası Tikinti İdarəsinə göndərilmişdir. İlk əmək fəaliyyətinə baş idarədə mühəndis-texnoloq kimi başlamışdır. Həmin ildən bu vaxta qədər baş idarənin adı bir neçə dəfə dəyişsə də, bu sistemdən kənara çıxmamış və pillə-pillə yüksək vəzifələrə qalxmışdır.

Ş.X. Xəlilov 1971-ci ildə Baş İdarənin İTŞ-də böyük mühəndis vəzifəsinə köçürülmüş, 1976-cı ildə İTŞ-də rəis müavini vəzifəsinə irəli çəkilmişdir. 1978-ci ilin mayından sentyabr ayına kimi texniki şöbəsinin rəisi, 1978-ci ilin sentyabrından 1983-cü ilin sentyabrına kimi istehsalat şöbəsinin rəisi işləmişdir.1983-cü ildən 1986-cı ilə kimi Baş İdarənin rəis müavini vəzifəsində çalışmışdır.

Ş.X. Xəlilov 1986-cı ildə "Aqrarsənayetikintimaterialları" trestinə müdir müavini təyin olunmuşdur. 1992-ci ilin aprel ayından 1992-ci ilin dekabr ayınadək Metal Konstruksiyaları Sınaq-Təcrübə Zavodunun direktoru kimi fəaliyyət göstərmişdir. O,1994-cü ilin yanvar ayından köçürmə yolu ilə "Azəraqrartikinti" Dövlət Şirkətinin vitse-prezidenti vəzifəsinə irəli çəkilmişdir. 1995-ci ildən "Aqrartikinti" ASC-nin vitse-prezidenti işləyir.

Ş.X. Xəlilov məsul və rəhbər vəzifələrdə işlədiyi müddətdə respublikanın kolxoz və sovxozlarında, idarə və müəssisələrində, kənd və qəsəbələrdə mənzil və digər sosial-mədəni obyektlərin tikilməsində, 200-dən çox mexanikləşdirilmiş tövlələrin, 8 quşçuluq broyler fabrikinin, 16 südəmtəə fermasının, 4 yağpendir zavodunun, xeyli məktəb və uşaq bağçalarının tikilib isismara verilməsində Bərdə, Şuşa, Balakən, Ağcəbədi, habelə Füzuli, Tərtər, Sabirabad, Qubadlı, Şəki, Zaqatala, Qəbələ, Kürdəmir, Göyçay, Salyan, Saatlı və digər rayonlarda istehsalat bazalarının (daş karxanası, asfalt zavodu və s.) yaradılmasına bilavasitə rəhbərlik etmişdir.



Xəlilov
Vaqif
Təhməz oğlu

1941-ci ildə Füzuli rayonunda qulluqçu ailəsində anadan olmuşdur. 1963-cü ildə institutu bitirib ali təhsilli inşaatçı-mühəndis ixtisasına yiyələnmiş, təyinatla Neft Daşlarına göndərilmişdir. Dünyanın möcüzəsi sayılan Neft Daşlarında iş ustası vəzifəsində çalışmaqla neft buruqları üçün zəruri olan körpü və polad özüllərin quraşdırılmasında fəal iştirak etmişdir. Sonralar Bakı, Sumqayıt Neft-Kimya zavodlarının yenidən qurulması, magistral neft kəmərlərinin tikintisini aparan inşaat idarələrində iş aparıcısı, baş mühəndis, idarə rəisi vəzifələrində fəaliyyət göstərmişdir. Həmin dövrdə Bakı şəhərinin müxtəlif rayonlarında yaşayış və sosial yönümlü obyektlər inşa etmiş, şəhərin ictimai işlərində fəallıq göstərmiş, dəfələrlə Bakı Sovetinə deputat seçilmişdir.

V.T. Xəlilov 1978-ci ildə respublikanın Su Təsərrüfatı və Meliorasiya Tikintisi ilə məşğul olan Baş İdarə sisteminə köçürülmüş, əvvəlcə baş idarənin quraşdırma işləri aparan idarəsinə rəhbərlik etmiş, az sonra trestin baş mühəndisi vəzifəsində işləmişdir. Respublika hökumətinin xüsusi proqramı ilə şimal rayonlarında aqrar sənayenin inkişafı proqramına uyğun olaraq ərazidə intensiv bağçılığın yaranması zəruri idi. O illərdə respublika üçün texniki yenilik olan suvarmanın çiləməyağış yağdıran və damcılı suvarma yollarının, beton üzlüklü, yüksək təzyiqə davamlı, hidravlik boruların suvarmada tətbiqi kimi üsulların ilk dəfə istehsalatda tətbiq edilməsinə, meliorasiya və hidrotexnika qurğularının modernləşdirilməsi kimi işlərin aparılmasına bilavasitə rəhbərlik etmiş, uğur qazanmışdır.

V.T. Xəlilov Ukrayna Respublikası, Çernobl Atom Elektrik Stansiyasındakı qəzadan zərər çəkənlərə tikinti fəaliyyəti ilə yardım edənlər sırasındadır. Azərbaycan Respublikasının inşaat yönümündə səmərəli fəaliyyətini, ixtira və təkliflərini nəzərə alaraq ona respublikanın Əməkdar İnşaatçısı fəxri adı verilmişdir.

V.T. Xəlilov Qarabağ müharibəsi və əmək veteranı idi. 2008-ci ilin noyabr ayında qəflətən vəfat etmişdir.



Xudiyev
Kamil
Cəlil oğlu

1933-cü ilin 23 avqustunda Xankəndində anadan olmuşdur. 1951-1956-cı illərdə Azərbaycan Politexnik İnstitutunda ali təhsil almış və santexnika işlərinin quraşdırılması üzrə mühəndis ixtisasını qazanmışdır. Təyinatla Dağlıq Qarabağ Muxtar Vilayətinə göndərilmişdir. 1956-cı ilin iyul ayının 4-dən Xankəndində Kommunal Təsərrüfatı İdarəsində baş mühəndis kimi fəaliyyətə başlamışdır. Kadr çatışmazlığını və ali təhsilli inşaatçı mühəndislərə ciddi ehtiyac olduğunu nəzərə alaraq müstəsna hal kimi K.C. Xudiyevə daha iki vəzifə - yeni təşkil olunmuş layihə idarəsinə və Tikinti Nazirliyinin "Azsantexquraşdırma" trestinin açdığı tikinti sahəsinə rəhbərlik etməyi həvalə etmişlər. O, bu üç təşkilatda üzərinə düşən işi vaxtında və keyfiyyətlə yerinə yetirməkdə bütün bilik, bacarığını və qüvvəsini səfərbər etmiş və 1964-cü ilin iyun ayına kimi istirahət etmədən, gecəsini gündüzünə qataraq işləmişdir.

DQMV-da tikilən yeni binalarda istilik sistemi, qazanxana və daxili santexnika işlərinin yüksək keyfiyyətlə aparılmasına nail olmuş, böyük uğurlar qazanmış və 8 il müddətində gənc və bacarıqlı, ixtisaslı kadrlar yetişdirmişdir. Buna görə də 1964-cü ilin 10 iyulunda onu Gəncədə təzəcə təşkil olunmuş Kirovabad Quraşdırma İdarəsinə rəis göndərirlər. Bu idarə təkcə Gəncə şəhərində deyil, bütövlükdə DQMV-də, habelə Ağdam, Füzuli, Yevlax, Şəmkir, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Şəmkir rayonlarında təzə tikilən bütün obyektlərdə santexnika işlərini yüksək keyfiyyətlə yerinə yetirmişdir. 1967-ci ilin yanvarında isə onu Bakıdakı me-

xanikləşdirilmiş səyyar dəstəyə rəis vəzifəsinə köçürmüşlər. Bu dəstəyə rəhbərlik etdiyi illərdə sənaye və kənd tikintisi nazirliklərinin, Baş Kolxozlararası Tikinti İdarəsinin, Azərbaycan Baş Meliorasiya və Su Qurğuları Tikintisi İdarəsinin inşa etdikləri bütün obyektlərdə subpodrat işlərini yerinə yetirmişdir. 1972-ci ilin 2 martında BQİ-yə rəis təyin olunmuş, 1975-1980-ci illərdə Kənd Tikintisi Nazirliyinin xüsusi tikinti-quraşdırma trestində müdir işləmişdir.

K.C. Xudiyev 1980-cı ildə Azərbaycan SSR Kənd Tikintisi Nazirinin müavini vəzifəsinə irəli çəkilir. O,-bu vəzifədə 4 il 3 ay işləyir. Həmin illərdə Sabirabad, İmişli, Saatlı, Beyləqan, Füzuli, Salyan, Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Qax, Şəmkir, Tovuz, Qazax, Ağdam, Şuşa, Xankəndi, Tərtər, Yevlax, Kürdəmir, Göyçay, Quba, Dəvəçi, Abşeron və digər rayonlarda 26 orta məktəb, 18 uşaq bağçası, 3 dəyirman kombinatı, 24 şərab zavodu, 4 mineral gübrə anbarı, 12 inzibati bina, 6 süd-pendir zavodu, 3 konserv zavodu, 8 mehmanxana binası, 6 xəstəxana kompleksi, 14 tibb məntəqəsi, 3 pambıq zavodu, 2 bazar, 2 çay fabriki, bir neçə broyler fabriki və s. mühüm obyektlərin tikintisində dəyərli əl izləri qoymuşdur. 1984-1996-cı illərdə isə Baş Kolxozlararası Tikinti İdarəsində Xüsusi Quraşdırma Trestinə rəhbərlik etmişdir.

K.C. Xudiyevin zəhməti xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Xankəndində dörd dəfə şəhər sovetinə deputat seçilmiş, respublikanın Əməkdar mühəndisi fəxri adına layiq görülmüş, fəxri fərmanlarla təltif olunmuşdur.

2008-ci ildən ömrünün axırına kimi Azərbaycan Ağsaqqallar Şurasının üzvü və Nərimanov rayon Ağsaqqallar Şurası sədrinin 1-ci müavini olmuşdur.



Xudiyev
Muxtar
Cəlil oglu

25 yanvar 1943-cü ildə Xankəndində anadan olub. Atası Cəlil kişi əslən şuşalıdır. Şuşa, Xankəndi və Ağdam rayonlarında məsul işlərdə çalışmış, el-obada böyük nüfuz sahibi olmuşdur. 1988-ci ildə nankor ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, Xocalı Xalq Məhkəməsinin 15 mart 2002-ci il tarixli qərarı ilə şəhid statusu almışdır.

M.C. Xudiyev 1951-1957-ci illərdə Ağdam şəhər 1 nömrəli orta məktəbdə, 1957-1961-ci illərdə isə Xankəndi şəhərindəki Nizami adına orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur (1962-ci il). O dövrün tələblərinə uyğun olaraq hələ tələbə ikən sovet ordusu sıralarına çağrılmış və 1962-1965-ci illərdə orduda xidmət etmişdir. Əsgəri xidmətini başa vurduqdan sonra ali təhsilini davam etdirmiş və 1970-ci ildə institutu su təchizatı və kanalizasiya ixtisası üzrə bitirmişdir. 3 sentyabr 1970-ci ildən 10 fevral 1981-ci ilə kimi Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin 2 nömrəli tkinti trestinin 29 nömrəli XSMD-də mühəndis, 25 nömrəli MSD-də baş mühəndis, nazirliyin mərkəzi aparatında istehsalat şöbəsinin böyük mühəndisi vəzifəsində məhsuldar əmək fəaliyyəti göstərmişdir.

M.C. Xudiyev 11 fevral 1981-ci ildən Dövlət Kinomotaqrafiya Komitəsinin əsaslı tikinti şöbəsinə baş mühəndis vəzifəsinə köçürülmüşdür. 11 iyun 1989-cu ildən 25 dekabr 1989-cu ilə qədər "Aqrarsənayetikinti" nin xüsusi quraşdırma zavodunda baş mühəndis kimi fəaliyyət göstərmişdir. 1990-cı ilin yanvar ayının 10-dan 1993-cü ilin 20 avqustuna kimi Mədəniyyət Nazirliyinin "Azərbərpa" Trestinin 2 və 3 nömrəli idarəsində iş icraçısı işləmişdir. 3 avqust 1993-cü ildən 20 oktyabr 1997-ci ilə kimi Nazirlər Kabineti yanında "Tarixi abidələrin mühafizəsi və bərpası" Komitəsinin 2 nömrəli E.İ.B-nin bərpa idarəsində rəis vəzifəsində çalışmışdır. 20 oktyabr 1997-ci ildən bu günədək Dövlət Əmlak Komitəsinin Daşınmaz Əmlakın İnventarlaşması İdarəsində aparıcı mütəxəssis vəzifəsində işləyir.

M.C. Xudiyev ölkə tikinti kompleksinin ən mühüm qollarında məsul və rəhbər vəzifələrdə çalışdığı illərdə respublikamızın müxtəlif guşələrində sosial-mədəni, kənd təsərrüfatı və sənaye obyektlərinin tikintisində fəal iştirak etmiş, saysız-hesabsız buraxılış obyektlərinə bilavasitə rəhbərlik etmişdir. Əl əməyinin ixtisara salınması, maşın və mexanizmlərdən səmərəli istifadə edilməsi, tikinti meydançalarında 2 növbəli işin təşkil olunması, inşaat materiallarına qənaət edilməsi və sair məsələlər üzrə bir neçə səmərələşdirici təkliflər irəli sürmüşdür. Respublikada tarixi abidələrin bərpası və yenidən qurulmasında var qüvvəsini sərf etmişdir. Qüsursuz əməyinə görə dəfələrlə əlaqədar təşkilatlar (idarə, trest, birlik, nazirlik və s.) tərəfindən tərifnamələr və fəxri fərmanlar almışdır.

"Xumar-98"
firması

1998-ci ildə Ağdam rayonunda təsis edilib. Artıq 14 ildir ki, bu firma ölkə tikinti kompleksində mətin addımlar atır.

"Xumar-98" firmasının yaradılmasında əsas məqsəd qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə köməklik göstərmək olub.

"Xumar-98" firmasının tikdiyi obyektlər:

Ağdam rayonunun "Baharlı" qəsəbəsində 87 evin tikintisi, "Dördyol-1" qəsəbəsində 1011 ailənin su təchizatı sisteminin tikintisi, Heydər Əliyev Fondunun vəsaiti hesabına "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Beyləqan rayonunda 240 şagird yerlik məktəbin tikintisi, Biləsuvar və Sabirabad rayonlarında bir neçə məcburi köçkün qəsəbələrində daxili meliorasiya işləri, Füzuli rayonunun Zövcuq qəsəbəsində 99 yaşayış evinin tikintisi, Qaradağ rayonunda 840 şagird yerlik məktəbin tikintisi və sair.

2005-2012-ci illərdə "Xumar-98" firmasının inşaatçılarının zəhməti ilə hasilə gələn obyektlər artıq onların tikinti kompleksində özlərini təsdiqləməsinin bariz göstəricisidir. .

"Dördyol-1" və Təzəkənd qəsəbələrinin ərazisində kollektor-drenaj sisteminin tikintisi, Azərbaycan Dövlət Dillər Universitetinin 2 nömrəli yataqxanasının təmiri, Azərbaycan Memarlıq-İnşaat Universitetinin 1, 2, 5 nömrəli yataqxanalarının və sanatoriya – profilaktoriya binasının təmiri, Sumqayıt şəhərində 12-ci mikrorayonda 33 nömrəli yataqxananın təmiri, Ağdam rayonu Qasımbəyli qəsəbəsinin ərazisində 35 evin su və elektrik təchizatı sisteminin quraşdırma işləri, Biləsuvar rayonu 4 və 5 nömrəli qəsəbələrin

ərazisində daxili drenaj suvarma şəbəkəsinin tikintisi, Beyləqan şəhərində 240 şagird yerlik orta məktəbin bərpa və təmir-tikinti işləri, Beyləqan rayonu Yeni Xocavənd qəsəbəsində drenaj tikintisi, Sabirabad rayonu ərazisində məcburi köçkünlər üçün tikilən yeni yaşayış qəsəbəsinin suvarma və drenaj sisteminin tikintisi, Ağcabədi rayonu, 1 nömrəli orta məktəbin əsaslı təmir işləri, Qaradağ rayonu, Müşfiqabad qəsəbəsində 840 şagird yerlik yeni məktəb binası, Biləsuvar rayonu ərazisində 4 nömrəli yeni yaşayış qəsəbəsində 106 yaşayış evi, Ağdam rayonu ərazisində məcburi köçkünlər üçün salınan 3823 ailəlik yeni yaşayış qəsəbələrinin suvarma təchizatının yaxşılaşdırılması və Alıbəyli-Səfərli-Baharlı qəsəbələrarası yolunun tikintisi, Füzuli rayonu ərazisində salınan 2 nömrəli yeni yaşayış qəsəbəsində 99 ədəd yaşayış evi, Beyləqan rayonunun Tatalılar kənd orta məktəbi üçün 120 şagird yerlik 6 əlavə sinif otağı, Ağcabədi rayon İcra Hakimiyyətinin inzibati binasının şərq memarlıq üslubunda bərpası və yenidən təmiri işləri, Xanlar rayonunun Balçılı kəndində 320 şagird yerlik orta məktəb, İmişli rayonunun Bəhrəmtəpə kəndində 270 şagird yerlik orta məktəb, Bakı şəhəri Binəqədi rayonu 83 nömrəli orta məktəb üçün 320 şagird yerlik əlavə 16 sinif otağı, 267 nömrəli orta məktəbin əsaslı təmiri, Bakı şəhəri Qaradağ rayonu 166 nömrəli orta məktəb üçün 360 şagird yerlik əlavə 18 sinif otağı, Beyləqan şəhəri 360 şagird yerlik 1nömrəli məktəbin əsaslı təmir işləri, Beyləqan rayonu ərazisində məcburi köçkünlər üçün salınan 500 ailəlik yeni qəsəbədə 82 ədəd yeni yaşayış evi, Ağcabədi rayonunda 5 nömrəli bağçanın bərpa və təmir-tikinti işləri, Şəki rayonu Kosalı kəndində 80 şagird yerlik məktəb, Aşağı Kəldək kəndində 80 şagird yerlik orta məktəb, Şəmkir rayonu Xanalılar kəndində 480 şagird yerlik orta məktəb, Lerik rayonu Çayrud kəndində 220 şagird yerlik məktəb, Beyləqan rayonu Birinci Şahsevən kəndində 2 nömrəli orta məktəb, Goranboy rayonu ərazisində məcburi köçkünlər üçün salınan 596 ailəlik yeni qəsəbədə 56 ədəd yaşayış evi, Yevlax şəhəri ərazisində 612 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzillli 5 mərtəbəli 3 nömrəli yaşayış binası və Ağdam rayonu ərazisində məcburi köçkünlər üçün salınan 689 ailəlik yeni qəsəbədə 70 ədəd yaşayış evinin tikintisi, Ağcabədi rayonu ərazisində məcburi köçkünlər üçün salınan 552 ailəlik yeni qəsəbədə 55 ədəd yaşayış evinin, 556 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli 5 mərtəbəli 4 nömrəli yaşayış evinin, Şəki rayonu Şorsu kəndində 360 şagird yerlik orta məktəbin, Şəki rayonu 5 nömrəli orta məktəbin, Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 9 mərtəbəli 54 mənzilli 3 nömrəli yaşayış binasının, Şəki rayonu ərazisində 423 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində 43 evin, Bərdə rayonu ərazisində 195 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində əkin sahələrinin meliorasya sisteminin, Bakı şəhəri Qaradağ rayonu Müşfiqabad qəsəbəsi yaxınlığındakı ərazidə 1410 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış məhəlləsində 5 mərtəbəli 80 mənzilli 15 nömrəli binanın tikintilərini, Qaradağ rayonunun Sahil qəsəbəsində 28 nömrəli Musiqi məktəbinin əsaslı təmirini, Ağcabədi rayonunun Şərəfxanlı kəndində 180 şagird yerlik tam orta məktəbin, Bərdə rayonu ərazisində 195 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış qəsəbəsində 198 şagird yerlik məktəb binasının və 25 yerlik uşaq bağçasının yüksək keyfiyyətlə başa çatdırılaraq sifarişçiyə təhvil verilmişdir.

Qeyd edək ki, "Xumar-98" firmasının tikdiyi bir neçə obyektdə Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev cənabları iştirak etmiş və inşaatçıları əməyini yüksək qiymətləndirmişdir.

Hazırkı vaxtda isə "Xumar-98" firmasının inşaatçıları Agcabədi rayonunda 5 məktəb binasının və 1 bağçanın tikintilərini uğurla davam etdirirlər.

Xumar-98" firması böyük işlər görmək iddiasındadır. Firmanın direktoru Nizami Allahverdiyevin ən böyük arzusu "Xumar-98" firmasını respublikamızın inşaat sektorunda öz nümunəvi işinə görə seçilən və hər zaman öndə olan tikinti qurumları sırasında görməkdir.

İ



İbrahimov
Zülqədər
Əmir oğlu

1921-ci ildə Yevlax rayonunun (keçmiş Xaldan) Yuxarı Bucaq kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Sovet Ordusu sıralarında xidmət etmişdir (1938-1946-cı illər). Böyük Vətən Müharibəsində dəfələrlə yaralansa da, müalicə olunaraq dərhal cəbhə xəttin qayıdaraq Almaniya və Yaponiyaya qarşı vuruşlarda iştirak etmişdir. Ordudan tərxis olunduqdan sonra doğma vətənə qayıtmış və Xaldan rayon Komsomol Komitəsinin I katibi seçilmişdir. 1947-ci ildə Moskvaya göndərilmiş, 1949-cu ilə qədər ÜİK(b)P-nin Partiya Məktəbində təhsil almışdır. 1949-cu ildə Samux rayon meşə sənayesi təsərrüfatında direktorun siyasi məsələlər üzrə müavini təyin edilmişdir.

Z.Ə. İbrahimov 1953-cü ildə Xaldan rayon XDS İcraiyyə Komitəsinin sədri vəzifəsinə seçilmişdir. 1957-ci ildə Xaldan rayonu ləğv edildiyindən Xaldan orta məktəbinə direktor vəzifəsinə köçürülmüşdür. 1959-cu ildə Mingəçevir şəhər XDS İcraiyyə Komitəsinə sədr seçilmişdir. 1967-1984-cü illərdə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin Mingəçevirdəki 5 nömrəli tikinti trestinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdur. 1984-cü ildən Yerli Sənaye və Kommunal Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Komitəsinə rəhbərlik etmişdir. İstehsalatdakı uğurlarına, fasiləsiz və uğurlu işinə görə dövlət tərəfindən dəfələrlə orden, medal və fəxri fərmanlarla təltif olunmuşdur.

2007-ci il noyabrın 2-də vəfat etmişdir.



İsaqov
Malik
Xızır oğlu

1953-cü ildə Qubadlı rayonunda anadan olub. Azərbaycan Neft Kimya İnstitutunun energetika fakültəsini bitirib. İlk əmək fəaliyyətinə Azərbaycan SSR Xüsusi Tikinti və Quraşdırma Nazirliyinin Sumqayıtdakı elektrik hissələri quraşdırma zavodunda çilingər kimi başlamışdır (1970-ci il).

M.X. İsaqov zavodda işlədiyi müddətdə müxtəlif vəzifələrdə çalışmışdır: tikinti təhlükəsizliyi üzrə mühəndis, mühəndis-konstruktor, mühəndis-texnoloq, texniki şöbənin rəisi, zavodun baş mühəndisi (1983-cü il) və bu zavodun direktoru (1984-cü il). Uzun illər həmin zavoda bacarıqla rəhbərlik etmiş və respublikada tikilən ən mühüm, vacib obyektlərin elektrik hissələri, metal konstruksiyaları bu zavodda hazırlanıb tikinti meydançalarına göndərilmişdir. Belə obyektlərin sırasında YBNZ-da tikilən qurğular, Dərin Özüllər zavodu, Kimya zavodu, kimya kombinatındakı qurğular, "Polimer-120", "Etilen politetilen" zavodu, Azərbaycan Boru-Prokat zavodunun əsaslı təmiri, Alimininium zavodundakı qurğular, Sumqayıtdakı məktəblər, uşaq bağçaları, yaşayış evləri, Gəncədə sənaye obyektləri, yaşayış binaları, Mingəçevir və Naxçıvanda Xalça kombinatları, Trikotaj fabrikləri, Cihazqayırma zavodu, trolleybus xəttinin tikilişi və s. Həmin illərdə zavod nazirliyin və həmkarlar ittifaqı komitəsinin keçici qırmızı bayrağını almış, ümumittifaq nazirliyinin fəxri fərmanı və diplomları ilə təltif olunmuşdur.

M.X. İsaqov bir neçə çağırış Sumqayıt şəhər XDS-nə deputat və şəhər Partiya Komitəsinə üzv seçilmişdir. 2001-ci ildən Qubadlı rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışır.



İsayev
Nəriman
Ağaxan oğlu

1930-cu ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur. 16 yaşında Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə daxil olmuşdur (1946-cı il). Ali məktəbi 1951-ci ildə bitirib təyinatla ilk əmək fəaliyyətinə "Mingəçevirtikinti"də sıravi mühəndis kimi başlayıb. Az sonra burada iş icraçısı, baş iş icraçısı, sahə rəisi vəzifələrinə yüksəlib. Azərbaycan SSR Nazirlər Soveti nəzdində yeni bir qurum - quraşdırma və xüsusi tikinti işləri üzrə Baş İdarə yaradılanda N.A. İsayev bu idarənin ilk rəisi olur. Bu vəzifəyə irəli çəkilənə qədər "Azkommunaenerji", "Azelektrikquraşdırma", "Azsənayeelektrikquraşdırma" kimi iri tikinti trestlərinə rəhbərlik etmişdir. Azərbaycan torpağında Mingəçevir SES, Bakı Kondisonerlər zavodu, Kür Su Kəməri, Sumqayıt Kimya Kombinatı, Gəncə Alimininium zavodu, Bakı Metropoliteni və onlarla digər iri və mühüm obyektlərin tikilib istismara buraxılmasında, istehsalat bazalarının tikilməsində, milli kadrların hazırlanmasında fəal iştirak etmiş, gərgin əmək sərf etmişdir.

N.A. İsayev Tikinti Materialları Sənayesi naziri, Sənaye Tikintisi və Avtomobil Yollarının Tikintisi və İstismarı nazirliklərində məsul vəzifələrdə işləyəndə və "Baqes"ə rəhbərlik etdiyi illərdə prinsipiallığı ilə seçilmiş, dövlətçiliyimizin qorunması kimi vacib məsələlərə xüsusi diqqət yetirmişdir.



İsgəndərov
İdris
İmanverdi oğlu

10 yanvar 1936-cı ildə Tovuz rayonunun Yanıxlı kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1958-ci il). Həmin ildən də həyatını Sənaye Tikinti Nazirliyinə başğlamışdır. Nazirliyin "Qırmızı Əmək Bayrağı" ordenli 4 nömrəli tikinti trestinin 45 nömrəli tikinti idarəsində iş ustası, sahə rəisi, idarə rəisinin müavini, 47 və 42 nömrəli tikinti idarələrində iş ustası, sahə rəisi, idarə rəisinin müavini, 47 və 42 nömrəli tikinti idarələrində baş mühəndis, rəis vəzifələrində işləmişdir.

İ.İ. İsgəndərov 40 il ərzində saysız-hesabsız obyektlərdə, o cümlədən Səttarxan adına, Y.Qasımov adına, B.Sərdarov adına maşınqayırma zavodlarının tikintisində, Dövlət Sirkinin, H.Əliyev Sarayının və bir neçə kino-teatr binasının ucaldılmasında fəal iştirak etmişdir.

İ.İ. İsgəndərov ömrünün son illərində "Azərdəmiryoltikinti" trestində baş mühəndis vəzifəsində çalışmış, Yalamada, Horadizdə, Sumqayıtda, İmişlidə, Şəkidə və digər dəmiryol stansiyalarında aparılan yenidənqurma və bərpa işlərində, dəmiryolçular üçün tikilmiş səhiyyə ocaqlarında, məktəb binalarında trestin baş mühəndisi kimi qüvvə və bacarığını sərf etmişdir. O, peşəsini dərindən sevməklə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuş, onlarla şeir və hekayələri respublika mətbuatında çap olunmuşdur. İşıq üzü görmüş 3 şeirlər və bir "Seçilmiş əsərlər" kitablarının müəllifidir.

İncə zövqə malik kamil bir insan olan İdris İsgəndərov tikintisində çalışdığı və rəhbərlik etdiyi bütün obyektlərdə nümunəvi işi ilə fərqlənmiş, hər zaman rəhbərlik tərəfindən qiymətləndirilmişdir.

İ.İ. İsgəndərov 2006-cı il yanvar ayının 2-də vəfat etmişdir.



İsgəndərov
Rəfael
Əmirxan oğlu

25 oktyabr 1957-ci ildə Qubadlı rayonunun Boynəkər kəndində müəllim ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuşdur.

R.Ə. İsgəndərov harada olursa – olsun elinə - obasına, doğma yurdu Qubadlıya və bütöv Azərbaycana başucalığı gətirmişdir. Hələ uşaqlıq illərində vətənpərvərliyi, elmə, təhsilə marağı, zəhmətə bağlılığı ilə həmyaşıdlarından seçilmiş və ali məktəb illərində özünün qabiliyyəti və bacarığı ilə tələbə yoldaşları, professor-müəllim heyəti arasında hörmət və nüfuz qazanmışdır. R.Ə. İsgəndərov Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin əyani şöbəsində oxuduğu beş il ərzində əlaçı tələbələr sırasında olmuş, ali məktəbin ictimai işlərində fəal iştirak etmiş, daxil olduğu institutun bazasında yaranan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikinti fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

R.Ə. İsgəndərov 1979 – 1981-ci illərdə Sovet Ordusu sıralarında xidməti borcunu yerinə yetirdiyi zaman inşaatçı-mühəndis zabit kimi əsgər kazarmalarının, inzibati binaların, rabitə qovşaqlarının tikintisində, yenidən qurulmasında, əsaslı təmirində və tikinti abadlıq işlərində fəal iştirak etmişdir.

R.Ə. İsgəndərov ordudan tərxis olunduqdan sonra Azərbaycan tikinti kompleksində məsul və rəhbər vəzifələrdə işləmiş, respublikamızın əksər bölgələrində çoxlu sayda sosial-mədəni obyektlərin tikintisində iştirak etmiş və bir çox qlobal layihələrin tikintisinə bilavasitə rəhbərlik etmişdir.

Sonra isə həyatını Azərbaycan SSR Rabitə Nazirliyinin tikinti birliyinə bağlamışdır.

R.Ə. İsgəndərov 1991-ci ildə "Azərrabitəinşaat" Layihə Tikinti Birliyinin 3 nömrəli tikinti-quraşdırma idarəsinə rəis təyin olunmuş, 1997-ci ildə isə Birliyin sədri vəzifəsinə irəli çəkilmişdir. Və birlik "Azərrabitəinşaat" Aşıq Tipli Səhmdar Cəmiyyətinə çevriləndə cəmiyyətin sədri vəzifəsində fəaliyyət göstərmişdir. R.Ə. İsgəndərov 2002-ci ilin avqustuna kimi həmin vəzifədə çalışaraq ölkənin bütün bölgələrində rabitə sisteminin yenidən qurulmasında, bərpa və yenidənqurma işlərində, Mildə, Muğanda, Şirvanda, Qarabağda, Abşeronda, Şəmkirdə, Şəkidə, Bərdədə, Gəncədə, Sabirabadda, Bakıda, Sumqayıtda və digər rayon və şəhərlərimizdə sosial-mədəni obyektlərin inşasında öz bilik və bacarığını əsirgəməmişdir.

R.Ə. İsgəndərov tikinti və abadlaşdırma işlərində qüsursuz işinə, fəal mövqeyinə, bacarıq və qabiliyyətinə görə bir sıra birlik, komitə, nazirlik və Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən fəxri fərman, tərifnamə, döş nişanı və qiymətli hədiyyələrlə mükafatlandırılmışır.

R.Ə. İsgəndərov ömrünün cavan yaşında - 2002-ci il avqust ayının 30-da vəzifə borcunu yerinə yetirərkən Goranboy rayonu ərazisində qəzaya düşərək həlak olmuşdur.

R.Ə. İsgəndərov Azərbaycan tikinti kompleksində öz yüksək təşkilatçılıq qabiliyyəti, inşaatçı-mühəndis səriştəsi və insani ləyaqəti ilə böyük hörmət və nüfuz qazanmış seçilən simalardan idi. O, çox bacarıqlı, işgüzar və yaradıcı insan idi. Və o, yaşadığı qısa ömründə öz qabiliyyəti və istedadı sayəsində respublikanın tanınmış mütəxəssisləri, görkəmli şəxsiyyətləri sırasına çıxmış və geniş tanınaraq özünə hörmət və nüfuz qazanmışdı. O, neçə-neçə insana çörək verib, əsil xeyriyyəçi olub. O, taleyini öz xalqının xoş gün-güzəran görməsi yolunda şam kimi əritmiş, əsil fədai olmuşdur.

R.Ə. İsgəndərov qaçqın və məcburi köçkünlər üçün çox böyük işlər görmüş, hər bir məcburi köçkün ailəsinin qayğı və problemini öz problemi kimi qəbul etmişdir. Bu bəlkə də ona görə belə olub ki, özü qaçqın düşmüş bir rayonun sakini olub və onların çəkdiyi əzab-əziyyətlər, yaşadıqları çətinliklər onun üçün doğma olub. Və heç də təsadüfi deyil ki, o, məcburi köçkünlər üçün tikdikləri evlərin tikintisinə baş çəkməyə gedərkən avtomobil qəzasında dünyasını dəyişdi.

R.Ə. İsgəndərov ailəli di. Bir oğlu və bir qızı var. Oğlu Orxan Polis Akademiyasının məzunudur. Qızı Aynur xanım isə Azərbaycan Dillər Universitetini bitirib. Hər ikisi həyatda atalarının adına layiq övlad olmaq üçün çalışır.



İsgəndərov
Yelmar
Əmirxan oğlu

01 sentyabr 1964-cü ildə Qubadlı rayonunun Boynəkər kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1982-ci ildə V.N.Obraztsov adına Leninqrad (indiki Sankt-Peterqburq) Dəmir Yolları Nəqliyyatı Mühəndisləri İnstitutuna daxil olmuş və 1987-ci ildə həmin institutun elektromexanika fakültəsini bitirmişdir. 1987-1990-cı illərdə Naxçıvan Dəmir Yolu İdarəsinin elektrik təchizatı distansiyasında sahə rəisi, idarə rəisinin müavini, 1990-91-ci illər ərzində Qubadlı rayonunda Tikinti Materialları Kombinatında baş mühəndis vəzifəsində işləmişdir. 1992-97-ci illər ərzində "Azərrabitəinşaat" 3 nömrəli Tikinti-Quraşdırma İdarəsində (TQİ) baş mühəndis, 1997-2002-ci illərdə "Azərrabitəinşaat" ATSC-də İdarə Heyəti sədrinin müavini, 2002-2004-cü illərdə sədri vəzifəsində işləyib.

Y.Ə. İsgəndərov 2004-cü ildən bu günə kimi "Azərrabitəinşaat" ATSC-nin bazasında yaradılmış "Rabitəinşaat" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışır.

Evlidir, 2 övladı var.

Y.Ə. İsgəndərov əmək fəaliyyətinə Naxçıvan Dəmir Yolu İdarəsində sahə rəisi vəzifəsindən başlamışdır. 1990-cı ildə Azərbaycan Respublikası Tikinti Materialları Nazirliyi tərəfindən Qubadlı rayonunda yerli tikinti materialları istehsal etmək məqsədilə Tikinti Materialları Kombinatı yaradılmış və Yelmar İsgəndərov bu kombinata baş mühəndis təyin edilmişdir. 1991-ci ildən Bakı şəhərinə qayıdaraq Rabitə Nazirliyi sistemində tikinti təşkilatlarında çalışmışdır.

Y.Ə. İsgəndərov 2002-ci ildən "Azərrabitəinşaat" ASC-nin sədri seçilmişdir.

Səhmdar Cəmiyyətin Türkiyənin "Hesfibel" şirkəti ilə birgə həyata keçirdiyi Çindən Almaniyayadək uzanan TAE (Trans-Asiya-Avropa) beynəlxalq fibro-optik magistral xəttinin Azərbaycan Respublikası ərazisindən keçən 600 km-lik hissəsinin çəkilməsi layihəsi hər il respublikamıza külli miqdarda gəlir gətirir.

2000-ci ildən üzü bu yana Y.Ə. İsgəndərovun rəhbərliyi altında Səhmdar Cəmiyyətin həyata keçirdiyi inşaat-tikinti layihələrini ardıcıllıqla sıralasaq olduqca böyük bir siyahı alınardı.

SC respublikanın işğaldan azad olmuş yaşayış məntəqələrində məktəblərin, xəstəxanaların, kənd tibb məntəqəsi və amblatoriya binalarının bərpa işlərini həyata keçirmişdir. Eyni zamanda işğaldan azad olmuş və müharibədən zərər çəkmiş aşağıda göstərilən ərazilərdə bərpa və yenidənqurma işləri aparılmışdır: Ağcakənd qəsəbəsində 40 çarpayılıq xəstəxana binasında; Ağstafa rayonunun kəndlərində 17 fərdi yaşayış evlərində; Goranboy, Ağdam, Biləsuvar, Beyləqan və Füzuli rayonlarında fərdi yaşayış evlərinin tikintisində; Bakıda Mirqasımov adına klinik xəstəxanasında; Şəmkir rayonunda 126 ailəlik qəsəbədə və s.

Yuxarıda qeyd edilən bərpa və yenidənqurma işlərinin maliyyələşdirməsi Dövlət Neft Fondunun, Dünya Bankının və Avropa Birliyi Fövqəladə Proqramları hesabına aparılmışdır. Təhsil Nazirliyinin sifarişləri əsasında 30-dan çox məktəb binasının tikintisi və təmiri, o cümlədən, Xaçmaz şəhərində akademik Zərifə xanım





1. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə tikilən 36 mənzilli yaşayış evi.
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin binası.





1. Əhalinin Məşğulluq İdarəsinin binası. **2.** Xırdalan şəhərində şəhid və əlil ailələri üçün 9 mərtəbəli 81 mənzilli yaşayış binası.

Əliyeva adına 1176 şagird yerlik 8 nömrəli orta məktəb binasının, Dövlət Neft Şirkətinin sifarişləri əsasında Balakan şəhərində 235 çarpayılıq Mərkəzi Xəstəxana binasının, Ümummilli lider Heydər Əliyevin adını daşıyan Balakən mərkəzi parkının tikintisi, açılışında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və xanımı Mehriban xanım Əliyevanın iştirak etdikləri Binə qəsəbəsində 218 saylı 1926 şagird yerlik orta məktəb binası, eləcə də, Balakən rayonunun İtitala kəndində 480 şagird yerlik orta məktəb binasının və kənd mədəniyyət evinin tikintisi, Bakı şəhərinin Xəzər və Sabunçu rayonlarında bir çox məktəb binalarının tikintisi və təmiri də Yelmar İsgəndərovun rəhbərliyi altında həyata keçirilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri əsasında Xırdalan şəhərində 9 mərtəbəli 81 mənzilli yaşayış binası, Ağcabədi, Zaqatala və Balakən şəhərlərində 4 mərtəbəli 36 mənzilli yaşayış binaları, Qax və Goranboy rayonlarında 16 mənzilli 2 mərtəbəli yaşayış binaları, Ağstafa rayonunda 16 mənzilli 4 mərtəbəli yaşayış evi, eləcə də əhalinin məşğulluq mərkəzləri binalarının tikintisi, (açılışlarda cənab prezident iştirak edib), Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sifarişləri əsasında respublikanın rayon və şəhərlərində qaçqınlar və məcburi köçkünlər üçün salınan qəsəbələrin və yaşayış binalarının tikintisi və bir sıra digər infrastruktur obyektlərin tikintisi, Mərkəzi Neftçilər Xəstəxanasının 2 korpusunun təmiri, respublikamızın Goranboy, Zaqatala, Şəki, İsmayıllı, Balakən və digər rayonlarda Əhalinin Sosial Müdafiə Mərkəzləri üçün inzibati binaların tikintisi, Milli Arxiv İdarəsinin Ziya Bünyadov prospektindəki binalarının yenidən qurulması layihələri də Y. Ə. İsgəndərovun tikinti-quruculuq fəaliyyətinin tərkib hissəsidir.

Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi əsasında, dövlət büdcəsi vəsaiti hesabına Bakı şəhərində Respublika Milli Arxiv İdarəsinin inzibati binasının tikintisi və yenidənqurulması layihəsindən ayrıca bəhs etmək istərdik. Milli Arxiv İdarəsinin inzibati binası bu günədək çoxsaylı iri miqyaslı tikinti layihələrini reallaşdırmış "Rabitəinşaat" ASC tərəfindən həyata keçirilmişdir.

Milli Arxiv İdarəsinin inzibati binasının açılışında iştirak edən dövlətimizin başçısı cənab İlham Əliyev də "Rabitəinşaat" ASC inşaatçılarının əməyinə çox yüksək qiymət vermişdir.

Şübhəsiz ki,"Rabitəinşaat" Açıq Səhmdar Cəmiyyətinin son illər ərzində qazandığı bütün uğurlarda Səhmdar Cəmiyyətin sədri Yelmar İsgəndərovun xüsusi rolu vardır. Yelmar İsgəndərov cavan olmasına baxmayaraq tikintidə çalışan bir neçə tikinti-quraşdırma təşkilatlarının koordinasiyasını təmin etmiş, onlara tikinti-quraşdırma işlərini keyfiyyətlə və səmərəli aparmaq üçün tələb olunan şəraiti yaratmışdır. Artıq Y. İsgəndərov peşəkar inşaatçı, bazar iqtisadiyyatı şəraitində idarəetmə üsulunu yaxşı mənimsəmiş rəhbər kimi formalaşmışdır.

Şübhə yoxdur ki, "Rabitəinşaat" Açıq Səhmdar Cəmiyyətinin kollektivi Yelmar İsgəndərovun rəhbərliyi altında bundan sonra da daha iri miqyaslı layihələri reallaşdırmaqla böyük və sanballı nailiyyətlər qazanacaq, respublikamızın iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının həyata keçirdiyi iqtisadi-inkişaf strategiyasının uğurlar qazanmasına öz töfhəsini verəcəkdir.



İskəndərov
Xeyrulla
Mirmənsim oğlu

1934-cü il may ayının 10-da Lerik rayonun Rvarud kəndində kəndli ailəsində dünyaya gəlib. Dövrünün çətinliklərinə baxmayaraq Rvarud kəndində ibtidai, Çayrud kəndində və Lerik qəsəbəsində orta təhsil alıb. 1953-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "Sənaye və Mülki tikinti" şöbəsinə qəbul olunub və 1959-cu ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib.

X.M. İskəndərov 1959-1960-cı illərdə Bakı şəhəri abadlaşdırma müəssisəsinin 3 nömrəli tikinti idarəsində istehsalat ustası kimi əmək fəaliyyətinə başlayıb. 1960-1963-cü illərdə "Azərneft" Birliyinin Kommunal təsərrüfat idarəsində tikinti sahə rəisi vəzifəsinə irəli çəkilib. 1963-1967-ci illərdə Lerik rayon Kommunal Təsərrüfatı şöbəsində iş icraçısı, sonra baş mühəndis vəzifələrində çalışıb. 1967-1974-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Kolxozlararası Tikinti Birliyinin Lerik rayon Kolxozlararası Tikinti İdarəsinin rəisi vəzifəsinə irəli çəkilib. 1974-1976-cı illərdə Lerik rayon XDS İcraiyyə Komitəsinin baş memarı vəzifəsinə təyin edilib. 1976-cı ildən ömrünün sonuna kimi Lerik rayon Yoltəmir-tikinti idarəsinin direktoru olub.

X.M.İskəndərov fəaliyyəti dövründə 7 il ardıcıl olaraq "Əmək zərbəçisi" adına və "1973-cü ilin Sosializm Yarışının Qalibi" döş nişanına layiq görülüb. Dəfələrlə fəxri-fərman və mükafatlarla təltif edilib. Əməyi "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla qiymətləndirilib. Kolxozlararası Tikinti İşçilərinin II qurultayına nümayəndə seçilib. Xalq arasında böyük hörmət və nüfuz sahibi olduğuna görə ardıcıl 5 çağırış Lerik rayon Zəhmətkeş Deputatları Sovetinin müxtəlif dairələrindən rayon sovetinə deputat seçilib.

Onun əməyi sayəsində həm Bakıda, həm də Lerikdə çoxlu evlər tikilib, parklar salınıb. Bir vaxtlar Pioner bağı adlandırılan parkın layihəsinin tərtibində və tikintisində əmək sərf edib. Hazırda Nərimanov, Nizami, Nəsimi rayonlarının ərazisində olan və bir vaxtlar Azərneft Birliyinə məxsus olan yaşayış evlərinin tikintisində bilavasitə iştirak edib və inşaata rəhbərlik edib. Lerikdə nə qədər tikinti obyekti onun adı ilə bağlıdır. Lerik rayonunda bu gün də mövcud olan və kənd təsərrüfatına aid bütün tikintilərin memarı və inşaatçısı demək olar ki, X.M.İskəndərov olub. Rayonda mövcud olan fərdi yaşayış evlərinin böyük əksəriyyətinin layihəsi də məhz ona məxsusdur. Buna görə də ona Leriki tikib-yaradan bir memar kimi həmişə ehtiram göstərilib.

Memarı olduğu neçə-neçə tikili onun yarımçıq qalmış ömrünün davamçısı kimi əbədiyyətə doğru yol gedir. O, qısa, lakin çox mənalı ömür yaşayıb. Ali keyfiyyətlərin daşıyıcısı, cavankən ağsaqqal ehtiramına malik olan bir insan kimi xeyirxahlığı və insanpərvərliyi ilə yaddaşlarda əbədilik qazanıb. Qısa ömürdə nəsildən-nəsilə ötürülə bilən ehtiram ünvanı yarada bilib. Çoxlarından fərqli xüsusiyyətlərin bir şəxsiyyətdə cəmlənməsi də İlahinin qismətidi... Ona görədir ki, Xeyrulla İskəndərov qısa zaman kəsiyində parladı, seçildi, sevildi, ehtiram qazandı və əbədiyyətə qovuşdu... Ona görə idi ki, onun itkisi bir evi yox, bir eli qəmə batırmışdı. İndi Lerikdə bu insanla bağlı kimliyindən asılı olmayaraq nəsə soruşulsa onunla bağlı yalnız ehtiramla və şübhəsiz ki, təəssüflə danışılacaq. Ata-babalardan, soy-kökdən gələn müqəddəs nə varsa bu insanın qısa həyatında aparıcı amil olub.

X.M.İskəndərov 1976-cı il iyun ayının 18-də vəfat edib.

İsmayılov
Ənvər
Ələkbər oğlu

1916-cı ildə anadan olmuşdur. M.Əzizbəyov adına Sənaye İnstitutunu bitirdikdən sonra müxtəlif yerlərdə mühəndis işləmişdir. 1942-ci ildə Azərbaycan SSR Xalq Kommunal Təsərrüfatı Komissarlığının Baş İdarəsində məsul vəzifəyə irəli çəkilmişdir. 1945-1951-ci illərdə Azərbaycan Dövlət Layihə Təşkilatında müdir, sonrakı illərdə isə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Arxitektura İşləri İdarəsinin rəisi, Kommunal Təsərrüfatı və Mənzil Tikinti Nazirinin müavini, Azərbaycan SSR Tikinti nazirinin müavini vəzifələrində çalışmışdır.

Ə.Ə. İsmayılov 1959-cu ildən ömrünün sonuna kimi Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin birinci müavini vəzifəsində işləmişdir. Harda və hansı vəzifədə işləməsindən asılı olmayaraq, peşəkar inşaatçı-mühəndis, ləyaqətli memar, bacarıqlı rəhbər işçi kimi özünü göstərə bilmişdir. Respublikamızda aparılan quruculuq işlərində, tikinti və abadlaşdırma sahəsində onun əl izləri bu gün də görünür, dəsti-xətti seçilir. Naxçıvan Dram Teatrı, Bakı Dövlət Sirki, Gəncə şəhər Partiya və İcraiyyə Komitələrinin inzibati binaları, Bakı, Sumqayıt, Gəncə şəhərlərindəki yaşayış evlərinin, Naxçıvanda C.Məmmədquluzadənin ev-muzeyinin, "Neftçilər" metro stansiyasının və digər obyektlərin arxitektura hissələrində İsmayilovun daə payı var.

Ə.Ə. İsmayilov məhsuldar və vicdanlı əməyinə görə yüksək dövlət mükafatları ilə qiymətləndirilmişdir. "Qırmızı Əmək Bayrağı" ordeninə, bir neçə medala, fəxri fərmanlara layiq görülmüşdür. 1988-ci ilin 25 fevralında 73 yaşında dünyasını dəyişmişdir.

İsmayılov
Harun
İsmayıl oğlu

20 sentyabr 1947-ci ildə Quba raonunun Kupcah kəndində anadan olmuşdur. 1965-ci ildə Quba rayonundakı 4 nömrəli internat məktəbin XI sinfini bitirdikdən sonra Bakıya gəlmiş və Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakı filialına daxil olmuşdur. 1977-ci ildə həmin institutun dəniz limanları və dəniz yolları fakültəsini bitirərək mühəndis-hidrotexnik ixtisasına (tikintidə mühəndis işləmək səlahiyyəti ilə) yiyələnmişdir.

H.İ. İsmayılov ilk əmək fəaliyyətinə Termoizolyasiya Trestində izoləedici kimi başlamışdır (1965-ci il). 1966-cı ildə yeni yaranan Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin İxtisaslaşdırılmış Mexanizasiya İdarəsində fəhlə kimi işə düzəlmiş və qısa bir vaxtda bənna, usta, sonralar isə iş icraçısı vəzifəsinə yüksəlmişdir. Onun rəhbərlik etdiyi briqadalar Bakıda ən nəhəng və iri obyektlərin tikintisində fərqlənmişdir. İrili-xırdalı 20-dək səmərəli təklifləri həyata keçmişdir. Fəal işinə, qabiliyyət və bacarığına görə həmkarları onu çalışdığı müəssisənin Həmkar-

lar İttifaqı Komitəsinin sədri seçmişlər (1981-ci il).

1985-ci ildə isə H.İ. İsmayılov "Sənayetikintimexanikləşdirmə" Trestinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə sədr seçilmişdir. O vaxtdan bu günə kimi də həmin vəzifədə çalışır. Sadəliyi, əməksevərliyi, qabiliyyət və bacarığını nəzərə alaraq dəfələrlə trest, birlik, komitə və nazirlik rəhbərliyi, eləcə də Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən fəxri fərmanlar, tərifnamələrlə təltif edilmiş, mükafatlandırılmışdır.



İsmayılov
İsmayıl
Aslan oğlu

10 dekabr 1948-ci ildə Qazax rayonunun Soyuq Bulaq stansiyasında anadan olmuşdur. 1966-cı ildə Tovuz rayonundakı Əlibəyli kənd orta məktəbini, 1971-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsini bitirmiş hidrotexnik-mühəndisdir. Ali məktəbi bitirəndə "Azərbaşmeliosutikinti" nin sərəncamına göndərilmiş və həyatının bir qərinədən artıq hissəsini su qurğuları və meliorasiya tikintisinə bağlamışdır. Təyinatı üzrə iş yerinə gələndən sonra Sovet Ordusu sıralarına çağrılmış və il yarım orduda zabit kimi xidmət etmiş, bölmə kamandiri kimi komandanlıq tərəfindən mükafatlandırılmışdır.

İ.A. İsmayılov ordudan tərxis olunduqdan sonra "Azərbaşmeliosutikinti" nin Ucardakı 7 nömrəli Tikinti İdarəsində texniki istehsalat şöbəsinin rəisi, baş mühəndis, rəis vəzifələrində çalışmışdır. 1980-1982-ci illərdə "Göyçaymeliotikinti" trestində baş mühəndis, 1983-1988-ci illərdə isə Ağdaşdakı 18 nömrəli tikinti-quraşdırma idarəsində rəis, 1989-cu ilin əvvəlindən sonuna kimi "Qazaxmeliosutikinti" trestinin 2 nömrəli tikinti idarəsində rəis işləmişdir. 1989-cu ilin sonunda həmin trestin Xanlardakı 33 nömrəli tikinti-quraşdırma idarəsinə rəis vəzifəsinə köçürülmüşdür. Hazırda "Ağstafasutikinti" müəssisəsinin Xanlar Filialına rəhbərlik edir.

İ.A. İsmayılovun bilavasitə rəhbərliyi altında istismara verilmiş obyektlər: Ucarda və Xanlarda melioratorlar qəsəbələri, Ucar, Göyçay, Zərdab, Ağdaş, Xanlar, Ağsu rayonlarında 10 min hektardan çox kompleks meliorasiya işləri, Ağdaş, Ucar, Zərdab rayonlarında təsərrüfatlararası "P-6", "P-8", "P-8-1" magistral kanalları, Şəki Qaragil qoyunçuluq sovxozunda 7,75 hektar sahədə mexaniki suvarmanı həyata keçirmək üçün Şirvan kanalından güclü nasoslarla suyun yüksək dağlıq sahəyə qaldırılması, Kür çayı üzərindəki iki ədəd nasos stansiyasının tikintisi, müxtəlif rayonlarda hər biri 60 mənzilli 4 yaşayş evi, hər biri 12 mənzilli 14 yaşayış evi, 3 uşaq baxçası, 2 məktəb binası, 2 inzibati bina, 250 yerlik Ucar avtomobil nəqliyyatı müəssisəsinin, "P-3", "P-4" magistral kanalların tikintisi və s.

İ.A. İsmayılov bir neçə dəfə rayon və qəsəbə sovetinə deputat seçilmişdir. O, bir neçə səmərəli təklifin müəllifidir. Dəfələrlə qiymətı hədiyyələrlə mükafatlandırılmış, müxtəlif döş nişanlarına, fəxri fərmanlara layiq görülmüşdür.



İsmayılov
Novruz
İsmayıl oğlu

23 yanvar 1946-cı ildə Beyləqan rayonundakı 3 nömrəli sovxoz qəsəbəsində zəhmətkeş bir ailədə anadan olub. On bir illik məktəbi bitirib Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1968-ci ildə institutun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Təyinatla Azərbaycan Dövlət Sənaye Layihə İnstitutuna göndərilmişdir.

N.İ. İsmayılov on ilə yaxın müddətdə bu institutda müxtəlif məsul vəzifələrdə işləmişdir. 1977-ci ildə onu Bakı Şəhər Dövlət Layihə İnstitutuna köçürmüşlər. Burada isə mühəndis işləri şöbəsinin, daha sonra isə institutun baş konstruktoru kimi fəaliyyət göstərmişdir. 1992-ci ildə onu Azərbaycan Dövlət Tikinti və Arxitektura Komitəsinə köçürmüşlər. Komitədə bir il məsul vəzifədə işləmiş, bacarıq və qabiliyyətini nəzərə alaraq onu Azərbaycan Respublikası Nazirlər Kabinetinə işə dəvət etmişlər.

N.İ. İsmayılov Nazirlər Kabinetində Tikinti Şöbəsinin referenti, baş referent vəzifələrində çalışmışdır. Respublikanın şəhər və kəndlərində tikinti və tikinti-quraşdırma, abadlıq işlərində fəal iştirak etmişdir. Hazırda o, Nazirlər Kabinetində baş məsləhətçidir.

N.İ. İsmayılov Azərbaycan tikinti kompleksinin ustadları sayılan Yaqub İsmaylov, Qəni Məmmədov, Tahir Abdullayev, Dadaş Asanov, Xalid Nəcəfov, Eldar Məmmədov kimi ustadlardan istehsalat dəsri almış və bu gün də bu şəxslərin öz həyatında böyük rol oynadığını unutmur. Bu ustadların qayğısı və köməyi sayəsində memarlığın incəliklərinə yiyələnmiş, bir sıra iri və mühüm obyektlərin layihə-smeta sənədlərinin hazırlanmasında, konstruksiyaların hesablanmasında bilavasitə iştirak etmişdir. Naxçıvanda hündür mərtəbəli yaşayış evləri, Nərimanov rayon İcra Hakimiyyətinin inzibati binası, Xankəndində şəhər partiya komitəsinin inzibati binası və yaşayış evləri, Bakıda "Gülüstan" sarayı və s. "Gülüstan" sarayındakı işi ona böyük uğur gətirmişdir. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 11 may 1982-ci il tarixli qərarı ilə N.İ. İsmayılov Bakı şəhərində "Gülüstan" sarayının yaradılmasındakı fəaliyyətinə görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.



İsmayılov
Qiyas
Hümbət oğlu

1951-ci ildə Gürcüstan Respublikasının Qardabani rayonunun Nəzərli kındində ziyalı ailəsində anadan olmuş, 1967-ci ildə orta məktəbi bitirdikdən sonra Bakıya gəlmişdir. 1973-cü ildə Azərbaycan Politexnik İnstitutun İnşaat fakültəsini bitirmiş və təyinatla Bakı Baş Tikinti İdarəsinin 8 nömrəli Dəmir-Beton Məmulatları zavodunda sex ustası kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Aylar, illər bir-birini əvəz etdikcə Q.H. İsmayılovun vəzifəsi də pillə-pil-

lə artmış, sex ustası, sex rəisi, baş texnoloq və baş mühəndis vəzifələrində işləmişdir.

Q.H. İsmayılov 1980-ci ildə köçürmə yolu ilə Azərbaycan SSR Avtomobil Nəqliyyatı Nazirliyinin Bakıdakı Dəmir-Beton Məmulatları zavodunda direktor təyin olunur. Çox çəkmir ki, o Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinə dəvət olunur və nazirliyin ən iri müəssisələrindən sayılan 7 nömrəli Dəmir-Beton Məmulatları zavoduna direktor vəzifəsinə irəli çəkilir. Bu vəzifədə 1984-cü ilə qədər çalışır.

Q.H. İsmayılov 1984-cü ildə Azərbaycan SSR Əhaliyə Məişət Xidməti Nazirliyinin tikinti-quraşdırma trestinin müdiri vəzifəsinə irəli çəkilir. Əhaliyə Məişət Xidməti Nazirliyi ləğv edilənədək, uzun müddət bu vəzifədə çalışır. Nazirlik və trest ləğv olunduqdan sonra Q.H. İsmayılov "Azərsənayetikinti" Dövlət Şirkətinin 7 nömrəli tikinti trestində müdir müavini kimi fəaliyyət göstərir.

1996-cı ildən həyatını Abşeron Reginal Səhmdar Su Cəmiyyətinə (indiki "Azərsu" ASC) bağlayır. 1996-2003-cü illərdə səhmdar cəmiyyətin su satışı idarəsində rəis müavini, 2003-cü ildən bu idarənin yüksək ödəmə qabiliyyətli abonent şöbəsinin rəisi vəzifəsində çalışır.

Q.H. İsmayılov tikinti kompleksində nə vəzifədə işləyibsə, həmişə və hər yerdə dövlət tapşırıqlarının, əlavə öhdəliklərin vaxtında və keyfiyyətlə icrasına diqqət yetirmiş, respublikada inşa edilmiş uca mərtəbəli yaşayış evlərinin, məntəqələrin, uşaq bağçalarının tikintisində, 20-dək iri sənaye müəssisələrinin yenidən qurulması və bərpasında, 10-dan artıq şərab emalı zavodunun ucaldılmasında, respublikanın bütün bölgələrində irili-xırdalı 25-dək əhaliyə məişət xidməti obyektində, o cümlədən müasir tələblərə cavab verən 12 hamam və camaşırxananın, 50-dək istehsalat bazasının tikilib istismara buraxılmasında əl izləri qoymuşdur.

O, həm də xeyriyyəçi kimi tanınır. Qarabağ uğrunda döyüşlərdə şəhid olanların ailələrinə, qaçqın və köçkünlərə şəxsi əmək haqqından hər zaman maddi yardım göstərmiş, qaçqın və köçkünlərin müvəqqəti məskunlaşması və işlə təmin edilməsində fəal iştirak etmiş və bu gün də iştirak edir.



İsmayılov
Yaqub
Abbas oglu

1916-cı ildə Kirovabad (indiki Gəncə) şəhərində anadan olmuşdur. S.M.Kirov adına Gürcüstan Sənaye İnstitutunu bitirdikdən sonra Bakıda, Kirovabadda, Daşkəsəndə, Sumqayıtda sənaye obyektlərinin tikintisində onbaşı, iş icraçısı, idarə rəisi işləmiş, podratçı idarələrə və trestlərə rəhbərlik etmişdir. Sonralar Bakı Baş Tikinti İdarəsi rəisinin birinci müavini, 1956-cı ildən isə Azərbaycan SSR Tikinti Nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1959-cu ildə isə Tikinti naziri təsdiq edilmişdir.

Y.A. İsmayılov 1962-ci ildə Azərbaycan SSR Dövlət Tikinti İşləri Komitəsinə sədr vəzifəsinə irəli çəkilmiş və bu vəzifədə 17 il işləmişdir.

O, Azərbaycanda tikintinin inkişafında və səviyyəsinin yüksəlməsində, podratçı təşkilatların istehsalat bazalarının möhkəmləndirilməsində, texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiq olunmasında böyük qüvvə və əmək sərf etmişdir. Onun iştirakı ilə iri istehsalat obyektləri və qurğuları tikilmiş, mənzil tikintisinin həcmini artırmaq, təşkilati və texniki səviyyəsini yüksəltmək sahəsində tədbirlər həyata keçirilmişdir. Tikinti elminin inkişafında onun müəyyən xidmətləri olmuşdur. Qabacaqdan gərginləşdirilmiş konstruksiyalar, zəlzələyə davamlı tikinti, tam quraşdırma tikililərin artırılması sahəsində tədqiqatları və araşdırmaları respublika tikintilərində geniş tətbiq edilmişdir. Gənc inşaatçı kadrların tərbiyəsinə və hazırlanmasına böyük diqqət yetirmiş, səmərəli müəllimlik fəaliyyəti göstərmişdir.

Y.A. İsmayılov ömrünün son illərində SSR Dövlət Tikinti İşləri Komitəsi Elmi Tədqiqat-Beton və Dəmir-Beton İnstitutunun Bakı labaratoriyasına da bacarıqla rəhbərlik etmiş, eyni zamanda respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir. Xidmətlərinə görə "Lenin" ordeninə, bir çox medallara, respublika Ali Sovetinin fəxri fərmanlarına layiq görülmüş, SSPİ Nazirlər Sovetinin mükafatını almışdır.



İsmayılova
Şəfiqə
Bəşir qızı

9 may 1940-cı ildə Qarabağın (indiki Füzuli) rayonunun Qovşad kəndində ziyalı ailəsində anadan olub. Bakı şəhərindəki 176 nömrəli orta məktəbi gümüş medalla bitirmişdir (1958-ci il). Orta məktəbi bitirib Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və həmin institutu inşaat mühəndisi kimi bitirmişdir (1963-cü il). Ali məktəbi bitirdikdən sonra təyinatla Azərbaycan SSR Kommunal Təsərrüfatı Nazirliyinin 1 nömrəli tikinti quraşdırma idarəsinə göndərilmişdir. İlk əmək fəaliyyətinə həmin idarədə iş icraçısı kimi başlamışdır (1963-cü il). Az sonra 1 nömrəli tikinti quraşdırma idarəsində baş mühəndis vəzifəsinə irəli çəkilmişdir. O uzun müddət bu vəzifədə işləmiş və həmin illərdə çalışdığı tikinti idarəsi Kənd Təsərrüfatı Nazirliyinin baş toxuculuq idarəsinin sifarişi ilə toxuculuq təsərrüfatlarını təmin edən toxum təmizləyən zavodlar tikmiş, sosial-mədəni obyektlər inşa etmişdir.

Ş.B. İsmayılova 1985-ci ildən həyatını Ağdam kolxozlararası tikinti idarəsinə başlamış və bu gun də həmin idarənin bazasında yaradılmış təsərrüfatlararası tikinti idarəsinə başçılıq edir. Ağdam kolxozlararası tikinti idarəsinə rəhbərlik etdiyi ilk on ildə bir sıra sosial-mədəni obyektlərin, o cümlədən yaşayış evlərinin, məktəblərin və uşaq bağçalarının inşasında fəal iştirak etmişdir.

Mardakert rayonunun kəndlərində, Xocalı şəhərində, Qayğı qəsəbəsində yaşayış evlərinin tikintisinə isə bilavasitə rəhbərlik etmişdir (1989-1993-cü illər).

Qarabağ uğrunda gedən döyüşlərdə sərhəd bölgəsindəki kənd və yaşayış məntəqələrində müxtəlif tikinti və təmir işlərinin aparılmasında öz bilik və bacarığını göstərmişdir.

Ş.B. İsmayılova Biləsuvar rayonunda Cəbrayıl qaçqınları üçün salınan qəsəbədə, Ağdam rayon qaçqınları üçün salınan Quzanlı qəsəbəsində, Nəsimi rayonunda inşa edilən Humanitar Liseyin təmir olunmasında fərqlənmişdir.



İsmiyev
Əfəndi
Hacımurad oğlu

1955-ci ildə Rusiya Federasiyasının Dağıstan Respublikasında anadan olub. 1978-ci ildə Saratov Politexnik İnstitutunun körpü və tunellər fakültəsini bitirib. SSRİ Nəqliyyat Tikinti Nazirliyinin Yaroslavl şəhərindəki 6 nömrəli tikinti dəstəsində işləyib.

Ə. İsmiyev 1985-ci ildən Bakı şəhərindəki 100 nömrəli Körpü-Tikinti Dəstəsinin baş mühəndisi, 1994-cü ildən isə rəisi vəzifəsində çalışıb.

Ə. İsmiyev 1997-ci ildən "Azərkörpü" Açıq Səhmdar Cəmiyyətinin sədridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 09 aprel 2010-cu il tarixli sərəncamı ilə o, Azərbaycan Respublikasının tikinti kompleksinin inkişafındakı xidmətlərinə görə "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı, 4 nəvəsi vardır.

Ötən illər ərzində Əfəndi İsmiyevin rəhbərliyi altında "Azərkörpü" ASC-nin kollektivi "Bakı-Tbilisi-Ceyhan" neft kəməri, "Bakı-Supsa" qaz kəməri, Xəzər hövzəsində liman və yanalma körpülərinin (Aktau-Qazaxıstan, Bakı-Azərbaycan), Ukraynada Kiyev-Çop avtomobil yolunun 322-348 km sahəsinin tikintisi layihələrinin reallaşmasında aktiv iştirak etmiş, Bakı-Samur avtomobil yolunun 28-65 km sahəsində çoxsaylı körpü və yol ötürücülərinin, Bakı-Şamaxı avtomobil yolunda körpülərin və yeraltı keçidlərin, Tovuz dolama yolunda Tovuzçayı üzərində orijinal körpünün tikitnisini başa çatdırmış və digər çoxlu sayda böyük layihələri reallaşdırmışdır.

Strateji əhəmiyyət kəsb edən layihələr:

Hal-hazırda "Azərkörpü" tərəfindən bir sıra strateji əhəmiyyətli obyektlər həyata keçirilir: Bakı-Ələt yolunun 55 km-də Kür çayı üzərindən körpünün tikilməsi (Salyan şəhəri); M6 Hacıqabul-Horadiz avtomobil yolunda Kür çayı üzərindən körpünün tikilməsi (Şirvan şəhəri); Araz çayının yeni qolunun tikilməsi, Taxtakörpü bəndi, Vəlvələçay-Taxtakörpü və Taxtakörpü-Ceyranbatan kanalları və Tovuzçay bəndinin tikintisi davam etməkdədir, Poylu stansiyasında Kür çayı üzərindən dəmir yolu körpü keçidinin tikintisi; yeni Bakı beynəlxalq dəniz ticarət limanında yol infrastrukturunun tikintisi; "Avtovağzal-Memar Əcəmi-2" keçid tunelinin qolunun tikintisi və Bakı metropoliteninin "Əcəmi-2" stansiyası üçün "qruntda divar" üsulu ilə divarların tikintisi.

Şirkət xaricdə Kazan şəhərində (Rusiya) "Leninskaya" bəndinin bir hissəsinin yenidən qurulmasını və Kazanka çayı üzərində körpünün tikintisi; M-07 Kiyev-Kovel-Yaqodin avtomobil yolunun km 30+600-km 64+000 hissəsinin əsaslı təmiri, M-06 Kiyev-Çop (Ukraynanın Kiyev vilayəti) avtomobil yolunun 21 km-də müxtəlif səviyyəli nəqliyyat qovşağının tikintisi; "RF sərhədi (Samaraya) – Çımkent" (Qazaxıstan) respublika əhəmiyyətli avtomobil yolunun km 2231-674 və km 1807-1837 hissələrinin yenidən qurulmasını həyata keçirir.

Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadasının su təchizatı üçün strateji əhəmiyyət kəsb edən Samur-Abşeron kanalı suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində "Taxtakörpü" su anbarının, uzunluğu 30 km olan "Vəlvələçay-Taxtakörpü" kanalının və uzunluğu 110 km olan "Taxtakörpü-Ceyranbatan" kanalının tikintiləri hal-hazırda davam etdirilir.

Əfəndi İsmiyevin rəhbərliyi altında tikilib istifadəyə verilən yol ötürücüləri: "Azərkörpü" ASC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakının nəqliyyat sistemini təkmilləşdirmək barədə imzaladığı Fərmanlara uyğun olaraq şəhərdə böyük yolötürücülərinin, körpülərin tikintisini həyata keçirib:

"20 Yanvar" stansiayasında böyük yolötürücüsü, metronun "Koroğlu" stansiyası rayonunda, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişdiyi yerdə inşa olunan nəhəng











1. Taxtakörpü-Ceyranbatan kanalının tikintisi. L=110 km. **2.** 20 yanvar dairəsində yolötürücüsü.
3. Bakı şəhərində, Həsən Seyidbəyli küçəsində yaşayış kompleksinin tikintisi. "İntəpə" layihəsi.
4. Ukraynada M06 Kiyev-Çop avtomobil yolunun təmiri və 2 nəqliyyat qovşağının tikintisi.
5. Ələt-Astara avtomobil yolunun 55 km-də Kür çayı üzərində körpünün tikintisi.

yol qovşağının tikintisinin birinci, ikinci və üçüncü kompleksləri.

Səhmdar Cəmiyyət son illərdə respublikamızın xalq təsərrüfatının müxtəlif sahələrini əhatə edən onlarla nəhəng layihələri həyata keçirmiş və bu gün də həyata keçirir.

Mülki tikinti sahəsində:

Bakı şəhərinin H. Seyidbəyli küçəsində böyük yaşayış kompleksi.

Körpü və tunellərin layihələndirilməsi və tikintisi üzrə peşəkar və təcrübəli mühəndis olan Əfəndi İsmiyev bu gün şirkətdə gənc kadrların hazırlanması və şirkətin maddi – texniki bazasının ən müasir avadanlıqlarla, maşın-mexanizmlərlə möhkəmləndirilməsi istiqamətində böyük işlər görür.

"Azərkörpü" ASC tikinti fəaliyyəti sahəsində qazandığı böyük uğurlara görə 2006, 2007, 2008-ci illərdə MDB dövlətləri üzrə keçirilən II, III və IV Beynəlxalq Dövlətlərarası Müsabiqələrin "Ən yaxşı tikinti təşkilatı" nominasiyası üzrə qalibi diplomlarını almış və "Azərkörpü"-nün sədri Əfəndi İsmiyev tikinti kompleksinin ən yaxşı tikinti rəhbəri sertifikatını almışdır.

Səhmdar Cəmiyyətin kollektivi Əfəndi İsmiyevin rəhbərliyi altında sabaha böyük ümidlərlə baxır. Kollektiv Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsi və müstəqil Azərbaycanın iqtisadi cəhətdən çiçəklənməsinə xidmət edən ən çətin və mürəkkəb tikinti layihələrini yerinə yetirməyə hər an hazırdır.







1. Vəlvələçay-Taxtakörpü kanalı layihəsi. L=30 km. **2.**Tovuz şəhəri dolama yolunda Tovuzçay üzərində körpü. **3.** Vəlvələçay-Taxtakörpü kanalı ıayihəsi. Baş qurğu.

K

"Kaspian Servis" ("Caspian Service") MMC

2001-ci ildə təsis olunan "Caspian Service" MMC respublikamızın tikinti sektorunda fəaliyyət göstərən ən qabaqcıl özəl tikinti qurumlarındandır.

"Caspian Service" MMC ilk gündən inşa etdyi binalarda klassik üsluba üstünlük verməyə başladı, əsrin əvvəllərində tikilən binaların bir növ davamı kimi şirkət Bakının mərkəzi hissələrində yaşayış binalarının tikintisinə start verdi. Şirkətin tikdiyi əksər binaların layihələri əsasən respublikanın əməkdar memarı Faiq Yüzbaşova məxsusdur.

"Caspian Service" MMC yarandığı gündən idarəetmə sisteminə öz işini dərindən bilən, prinsipial, müstəqil, yaradıcı, müasir fikir yürütməyi bacaran və iqtisadi prosesləri idarəetmə keyfiyyətlərinə malik kamil mütəxəssis olan Rəhim Ələddin oğlu Sultanov rəhbərlik edir.

"Caspian Service" MMC-nin kollektivi respublika inşaat kompleksinin inkişafına ilk töfhə verən şirkətlərdən biridir. Çünki elə ilk dövrdə şirkət özünün markasını yaratdı və hazırda o, "Bakı memarlığı" adını daşıyır.

Memarlıq üsullarını bərpa etmək və ən yaxşı ənənələri geri qaytarmaq arzusu şirkətin yarandığı ilk gündən təsisçilərin qarşıya qoyduğu əsas istiqamətdir. Heyrətamiz gözəlliyi olan Gülbax daşından istifadə olunması isə üz fasadının əsl incəsənət əsərinə çevrilməsinə imkan yaratdı.

Son 10 ildə şirkət 300 min kv. metrdən çox sahəni tikib istifadəyə vermişdir; bunlara elit yaşayış binaları, biznes mərkəzləri, idman kompleksləri, ticarət mərkəzləri, klinikalar, bağçalar və ofis binaları daxildir. Milli Konservatoriya, Muğam Mərkəzi, dövlət vəsaiti hesabına tikilən və əsl incəsənət əsəri olan Milli Musiqi Alətləri Konservatoriyasının yeni binası, özəl ümumtəhsil məktəbi və digər tikililər milli mədəniyyətin və maarifin inkişafına bir töfhə kimi əhəmiyyətli yer tuturlar. Hazırda tikintisi davam etdirilən bir sıra yaşayış, inzibati və kommersiya obyektləri vardır ki, onların da ümumi sahəsi 400 min kv.m təşkil edir. Evlərin tikintisində müasir və ən mütərəqqi texnologiyalardan istifadə olunur. Bu gün şirkətin qarşıya qoyduğu əsas prioritet məsələ yalnız keyfiyyətli və rahat mənzillərə olan ehtiyacı ödəmək deyil, həm də, şəhərin müasir simasının yaradılmasına öz töfhəsini verməkdir.

İşə prinsipal və özünəməxsus yanaşma tərzi, ideya yarandığı andan realla-

şana qədər hər bir layihəyə son dərəcə məsuliyyətli münasibət, fərdi texniki bazanın və mütərəqqi tikinti materiallarının ən yaxşı istehsalçıları ilə əlverişli beynəlxalq müqavilələrin olması onlara tikinti sənayesinin liderinə çevrilməyə imkan vermişdir.

Keyfiyyətli və estetik tikinti materiallarından istifadə olunması, üz fasadlarının ənənəvi üzlük materiallar və qeyri-adi gözəlliyi olan milli Gülbax daşı ilə bəzədilməsi və günbəzlər "Caspian Service" şirkətinin layihələrini dövrün üslubuna çevirir və onlar, heç şübhəsiz şəhərsalma tarixində də öz izlərini buraxacaqlar.



Səbail rayonunda yaşayış evi

Şirkətin öz fəaliyyəti dövründə yaratdığı müasir maddi-texniki bazası keyfiyyəti yüksəltməyə və son məhsulun dəyərini aşağı salmağa imkan verir.

Kərpic və beton zavodları, daş üz çəkmə, yerli Gülbax daşınının emalı sexi, kompozit materiallardan sanitariya-texniki və üzlük tavalar istehsalı sexi, ağac emalı sexi şirkətin obyektlərini yüksək keyfiyyətli mühüm tikinti komponentləri ilə təchiz etməyə yaxşı zəmin yaradır.

Bu gün "Caspian Service" dinamik inkişaf edən bir şirkətə çevrilib və layihələndirmə, tərtibat və inşaat sahəsində istənilən işi yüksək səviyyədə icra etmək gücündədir. Şirkətin kadr, texniki və istehsal resursları onlara müxtəlif miqyaslı, mürəkkəb konstruktiv həlləri müstəqil şəkildə yerinə yetirməyə imkan verir.

"Caspian Service" şirkətinin inşaat fəaliyyətindən bəhs edərkən onun MDB respublikalarında tikinti-quraşdırma sahəsində qazandığı çox böyük uğur-





1. Yasamal rayonu, Zivər Əhmədbəyov küçəsində yaşayış evi.
2. Zərifə Əliyeva küçəsi 19-da yerləşən çoxmərtəbəli yaşayış binası

larını xüsusi qeyd etmək lazımdır. Azərbaycan memarlığının milli ünsürlərini özündə birləşdirən yeni markanı dünyaya nümayiş etdirmək arzusu "Caspian Service" şirkətini Azərbaycandan kənara aparmış və 2003-cü ildən onlar Rusiyanın, Qazaxstanın və Gürcüstanın inşaat meydanlarında da özlərini təsdiq etmişlər.

Şirkətin ölkəmizdən kənardakı inşaat fəaliyyətində qonşu Gürcüstan Respublikasında son 5 ildə həyata keçirdiyi inşaat işləri böyük əhəmiyyət kəsb edir. Şirkət Gürcüstanda tikinti fəaliyyətini 2005-ci ildə təsis etdiyi "Caspian Service Georgia" şirkəti vasitəsi ilə həyata keçirir.

"Caspian Service" qonşu ölkədə həmçinin xeyriyyəçilik təşəbbüsü göstərərək Azərbaycanın görkəmli ictimai xadimi Mirzə Fətəli Axundovun Tbilisi şəhərindəki Azərbaycan məktəbində olan büstünü bərpa etmiş, bundan başqa paytaxtdakı Panteonda – bu regionda fəaliyyət göstərmiş görkəmli Azərbaycan oğullarının dəfn olunduğu yerdə bərpa-yenidənqurma işlərini həyata keçirmişdir.

"Caspian Service" şirkəti 2004-cü ildən Rusiya Federasiyasında inşaat işlərinə start verib və buradakı fəaliyyətini "OOO Cmpoyservis" şirkəti vasitəsilə həyata keçirir. Şirkət burada 2 layihənin icrasına başlayıb.

Stavrapol şəhərinin tarixi hissəsində şirkətin inşa etdiyi 4500 kv. metr yaşayış sahəsinə malik çoxmərtəbəli yaşayış binası şəhərin ümumi memarlıq ansamblında yeni üslubu ilə seçilir və keyfiyyətilə

yeni səviyyəli tikintiyə nümunədir.

Həmçinin 2010-cu ilin mayında Yesentuki şəhərinin kurort zonasında müalicə parkından 200 metr aralıda klub tipli üçmərtəbəli binanın tikintisinə başlanmışdır.

Şirkətin respublikamızdan kənarda inşaat yönümlü çoxşaxəli fəaliyyətində Qazaxstan Respublikası mühüm yer tutur. 2003-cü ildə şirkətin təsisçiləri tərəfindən Astanada yaradılmış "Caspian Service Kazakhstan" şirkəti Astana şəhərinin salınmasında iştirak edən əsas xarici şirkətlərdən biridir. Astanada, Yeşil çayının sol sahilində, Prezident Sarayının yanında şirkətin inşa etdiyi ümumi sahəsi 44800 kv. metr olan yaşayış kompleksi öz formalarının əzəməti və qüsursuz inşası ilə görənləri heyran etdiyi kimi, şəhərin memarlıq görümünə də xüsusi çalar, gözəllik bəxş edir.

Həmçinin Qazaxstanın Aktau şəhərində bələdiyyələrin sifarişi ilə ümumi sahəsi 20.4 min kv.metr olan 9 mərtəbəli evin tikintisi "Caspian Service Kazakhstan" şirkətinin Aktau filialı vasitəsilə həyata keçirilib. Bundan başqa Aktauda ümumi sahəsi 34100 kv. metr olan "Khazar Palace" çoxtəyinatlı yaşayış kompleksinin tikintisinə başlanılıb. Yaxın zamanlarda isə Karaqanda şəhərində ümumi sahəsi 33500 kv. metr olan iki 16 mərtəbəli binadan ibarət yaşayış kompleksinin tikintisinə başlanacaqdır.

Şirkət yaxın gələcəkdə xarici ölkələrdəki tikinti-quruculuq fəaliyyətini daha da genişləndirmək niyyətindədir.

"Caspian Service" MMC yarandığı vaxtdan nümunəvi fəaliyyəti ilə çoxsaylı diplomlarla və mükafatlarla təltif olunmuşdur.

Belə ki, "Caspian Service" MMC 2005-ci ildə IX Peterburq Beynəlxalq İqtisadi Forumunda forumun sərgi hissəsinin hazırlanmasında fəal iştirakına və keçirilməsinə görə:

- XIII Beynəlxalq Neft-Qaz sərgisində fəal iştirakına görə;
- II Qazaxstan Ekspo daşınmaz əmlak sərgisində şəhərsalmaya milli kolorit verdiyinə və mülki inşaatda yeni texnologiyaların tətbiqinə görə;
- XI Azərbaycan Beynəlxalq Tikinti Sərgisi "Baku Build" sərgisində fəal iştirakına görə;
- 2006-2007- ci illərdə XII Beynəlxalq Tikinti Sərgisi "Baku Build" sərgisində fəal iştirakına görə;
- "MDB-nin 15 illiyi: əməkdaşlıq və inteqrasiya" dövlətlərarası sərgisində iştirakına görə;
- 15-ci "Kazan yarmarkası" adlı çoxsahəli ticarət-sənaye sərgisində tikintidə müasir texnologiyaya gorə diplomlarla təltif edilmişdir.

"Caspian Service" MMC həmçinin mülki inşaat sahəsində və şəhərsalmada milli ənənələrin bərpasına və unikal koloritə verdiyi töhfəsinə görə dalbadal 3 il: - "Uğur 2004", "Uğur 2005"və "Uğur 2006" mükafatlarına layiq görülmüş, tikintidə milli ənənələrə gorə isə "Caspian Energy Award 2007" mukafatını almışdır.

Müstəqil Azərbaycanda 15 ildən artıq düşünülmüş, uğurla aparılan iqtisadi islahatların formalaşmış mühiti şəraitində "Caspian Service" MMC yaradılmış və özünə şərəfli yol açmışdır. Əlbəttə, bu çətin şəraitdə keçmişdir. Lakin, ölkədə idarəetmə strukturunun kökündən təkmilləşdirilməsi və bazar iqtisadiyyatına ardıcıllıqla keçid onun iştirakçılarına sərbəstlik və idarəçilik üsulunun verilməsi nəticəsində məhz mümkün olmuşdur.



Kazımov
Kazım
Hüseyn oğlu

10 avqust 1912-ci ildə Naxçıvanın Şərur rayonundakı Qarabağlar kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun mühasibat fakültəsini bitirmişdir (1936-cı il). 1963-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsini də bitirmişdir.

K.H. Kazımov 1936-1942-ci illərdə Qarabağlar kəndində kolxozda mühasib işləmişdir. 1942-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. Cənub Qərb cəbhəsinin 9-cu ordusunda 9-cu atıcı korpusunda, 1-ci Ukrayna cəbhəsinin 566-cı polkunda, 304 nömrəli Jitomir diviziyasında yüksək rütbəli zabit kimi iştirak etmiş, Moskvanın müdafiəsində, Voronej, Jitomir və digər şəhərlərin azad edilməsində iştirak etmiş, bir neçə dəfə yaralansa da, müalicə olunub döyüşlərə qayıtmış, 3 orden və çoxlu medallarla təltif olunmuşdur.

K.H. Kazımov 1945-ci ilin avqustundan Naxçıvan MR partiya təşkilatı katibi, 1946-cı ilin yanvarından isə maliyyə idarəsinin rəisi işləmişdir. Sonrakı illərdə ət kombinatının direktoru (1952-1958-ci illər), Naxçıvan şəhər sovetinin sədri (1962-1964-cü illər), Naxçıvan Kommunal Təsərrüfat Naziri (1964-1968-ci illər) işləmişdir.

K.H. Kazımov 1968-ci ildən ömrünün sonuna kimi həyatını Naxçıvan Tikinti Komitəsinə bağlamışdır. Əvvəlcə Naxçıvandakı 5 nömrəli tikinti trestinin müdiri (1968-1972-ci illər), 1972-2000-ci illərdə isə Naxçıvanda tikilmiş dövlət müəssisəsinin direktoru kimi fəaliyyət göstərmişdir. Bir neçə dəfə Naxçıvan MR və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

O, harda, hansı vəzifədə işləyibsə, orada hər zaman öz yüksək rəhbərlik və idarəçilik bacarığı ilə kollektivi vahid məqsəd naminə birləşdirmiş və uğurlar qazanmışdır.

K.H. Kazımov 2007-ci ildə vəfat etmişdir.



Kazımov
Məmməd
Qurbanəli oğlu

27 iyun 1948-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. 1965-ci ildə Lənkəran şəhərindəki 3 nömrəli orta məktəbi gümüş medalla bitirmiş və həmin ildə də Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1970-ci ildə institutu müvəffəqiyyətlə bitirərək mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

M.Q. Kazımov əmək fəaliyyətinə 1969-cu ildə Bakıdakı 2704 nömrəli avtomobil dəstəsində mexanik kimi başlamış, 1970-1971-ci illərdə 5 nömrəli Bakı Avtobus Parkında texnik vəzifəsində çalışmışdır. 1971-ci ildə Sovet Ordusu sıralarına çağrılmışdır. 1971-1973-cü illərdə 2038 nömrəli sərhəd qoşunları dəstəsində rota komandiri kimi hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunandan sonra 1973-cü ildə Lənkəran rayon

Partiya Komitəsinin təqdimatı ilə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin Lənkəran rayonundakı 2 nömrəli ərazi nəqliyyat kontorunda baş mühəndis vəzifəsinə təyin olunmuşdur. 1977-ci ildən isə həmin kontora rəis vəzifəsinə irəli çəkilmişdir. 1973-1983-cü illərdə onun başçılıq etdiyi nəqliyyatçılar kontoru Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarında tikilib istismara verilmiş 192 min kv.metr yaşayış evləri, 4 mehmanxana, 12 məktəb, 6 uşaq baxçası, 10 şərab zavodu, 3 çay fabriki, 2 mineral kübrə anbarı, 3 istehsal bazası, 2 xəstəxana kompleksi və s. obyektlərin inşaat materialları ilə vaxtında təmin edilməsində fərqlənmiş və kollektiv mükafatlandırılmışdır.

M.Q. Kazımovun bacarığı, təcrübə və səriştəsi nəzərə alınaraq 1983-cü ildə Bakıya dəvət olunmuş və 1991-ci ilin iyun ayına kimi Kənd Tikintisi Nazirliyinin Avtonəqliyyat trestinin müdiri kimi fəaliyyət göstərmişdir. Trestin nəqliyyatçıları respublikanın bütün kənd rayonlarındakı tikinti meydançalarını inşaat materialları ilə təmin etmişdir. Onun irəli sürdüyü səmərəli təkliflər sayəsində nəqliyyatçılar yüz tonlarla yanacağa qənaət etmiş, maşınların təmir müddətini xeyli uzada bilmişlər. Buna görə də trestin kollektivi Sov. İK MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-in və ÜİLKGİ MK-nın Keçici Qırmızı Bayrağını və pul mükafatını almışdır. Trestin adı Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Şərəf lövhəsi"nə yazılmışdır.

M.Q. Kazımov 1991-ci ilin iyun ayından "Azərkəndtikinti" İstehsalat Birliyi rəisinin müavini vəzifəsinə təyin olunmuşdur. 1992-1993-cü illərdə isə "Azərkəndtikinti" Dövlət Şirkətinin vitese-prezidenti kimi fəaliyyət göstərmişdir. 1999-cu ildən "Azərkəndtikinti" ASC-nin sədr müavinidir.

Kənd tikintisində çalışdığı illər M. Q. Kazımovun inşaatçı-mühəndis karyerasının ən uğurlu səhifələridir.

Ötən əsrin 90-cı illərində Dağlıq Qarabağda və sərhəd rayonlarında tikilən obyektlərə bilavasitə rəhbərlik etmişdir. Kənd rayonlarında ucaldılan sosial-mədəni obyektlərdə, iri sənaye müəssisələrində faydalı əl izləri qoymuşdur. İki çağırış Lənkəran şəhər sovetinə deputat seçilmişdir.



Kazımov Telman Məmməd oğlu

1937-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1955-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1960-cı ildə həmin institutun inşaat fakültəsini "İstilik-qaz təchizatı və ventilyasiyası" ixtisası üzrə bitirmişdir.

T.M. Kazımov əmək fəaliyyətinə SSRİ Quraşdırma və Xüsusi Tikinti İşləri Nazirliyinin Rostov şəhərində yerləşən "Başsantexquraşdırma" trestinin Bakı Quraşdırma İdarəsində usta vəzifəsində başlamışdır. 1962-1966-cı illərdə Bakı Quraşdırma İdarəsində istehsalat şöbəsinin müdiri, Abşeron MSD-də (Mexanikləşdirilmiş Səyyar Dəstə) rəis vəzifəsində çalışmışdır. Bu 6 il ərzində Telman müəllim institutda topladığı bilikləri nəticəsində istehsalatda tam formalaşmış, sözün əsil mənasında peşəkar mühəndisə çevrilmişdir.

T.M. Kazımov 1966-1972-ci illərdə Bakı "Santexquraşdırma" İdarəsinin rəisi, 1972 -1976 -cı illərdə "Azərquraşdırmaxüsusitikinti" Baş idarəsində rəis müavini, 1976-1982-ci illərdə isə Baş idarənin rəisi vəzifələrində çalışmışdır.

T.M. Kazımov Azərbaycan SSR Ali Sovetinin 12 aprel 1982-ci il tarixli Fərmanına əsasən "Azərquraşdırmaxüsusitikinti" Baş İdarəsinin bazasında yaradılmış Azərbaycan SSR Quraşdırma və Xüsusi Tikinti Nazirliyinə nazir vəzifəsinə təyin edilmişdir.


Ölkədə aparılan iqtisadi islahatlar nəticəsində 1991-ci ilin avqust ayında bu nazirlik Səhmdar Cəmiyyətə çevrilmiş və Telman Kazımov yeni yaradılmış "AzQUR" ASC-nin sədri seçilmişdir.


O, Azərbaycan SSR Ali Sovetinin X-XI çağırışların deputatı olmuş, "Qırmızı Əmək bayrağı", "Xalqlar dostluğu" ordenləri ilə və "Rəşadətli Əməyə görə" medalı ilə təltif olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin ölkəyə başçılıq etdiyi dövrdə tikinti kompleksindəki xidmətlərinə görə 1980-ci ildə "Əməkdar inşaatçı" fəxri adına layiq görülmüşdür.


Telman Kazımov "Azərquraşdırmaxüsusitikinti" Baş İdarəsinə rəhbərlik etdiyi illərdə respublikada tikilən, yenidən qurulan və genişləndirilməsi nəzərdə tutulan obyektlərdə quraşdırma və xüsusi tikinti işlərinin 75-80 faizi onun başçılıq etdiyi bu idarənin üzərinə düşürdü.

Telman Kazımovun və eləcə də "AzQUR" ASC kollektivinin keçdiyi yol çox






1. "Azneftyanacaq" zavodunda kokc qurğusu
2. "Azneftyanacaq" zavodunda "ELO-ABT" qurğusu







1. Dərin Dəniz Özülləri zavodu. 2. "Orqisintez" Birliyində divinil istehsalatı.
3. Sumqayıt "EP-300" qurğusunda enerji korpusunun tikintisində, Yaponiyanın "Çioda" firması ilə birlikdə Azərbaycan quraşdırıcıları məhsuldar iş nümunəsi göstərmişlər

çətin, mürəkkəb və şərəfli olmuşdur. Ona görə ki, bu kollektivin tikdiyi obyektlər (sənaye müəssisələri) özünün mürəkkəbliyi ilə (mənimsənilməmiş yeni avadanlıqlar, texnologiyalar, xətlər) fərqlənirlər. Belə ki, 1970-2000-ci illərdə respublikada Telman Kazımovun bilavasitə rəhbərliyi və iştirakı ilə tikilib istifadəyə buraxılmış ən mühüm obyektlər sırasında: Bakı Məişət Kondisionerləri zavodu, Dərin dəniz özülləri zavodu, Gəncə alüminium zavodunda 300 ton qlinozyom qurğusu, Bakı neft emalı zavodunda yeni qurğuların quraşdırma işləri (neftin ilk emalı, dərin proseslər və bitum qurğuları), "Orqsintez" zavodunda polimer 120 istehsalı, "Sintezkauçuk" zavodunda "EP-300" (etilen və propilen) qurğusu, Sumqayıtda 32 MUT gücündə enerji hasil edən iki qaz turbinləri, Bakı-Supsa neft xətlərində nasos stansiyaları, Bakı şəhərində "Yüngül metalkonstruksiya" zavodu, Sumqayıt şəhərində "Elektrikdəstləşdirmə" zavodu, İmişlidə Şəkər zavodu və s. olmuşdur.

Tikinti kompleksində böyük xidmətləri olan Telman Məmməd oğlu Kazımov artıq 52 ildir ki, ölkə inşaatındadır. Bu illərin 47 ilini o, yalnız rəhbər vəzifələrdə çalışmış, öz biliyini və qüvvəsini müstəqil ölkəmizin çiçəklənməsinə, iqtisadiyyatımızın yüksəlməsinə, tikinti kompleksinin ayrılmaz bir hissəsi olan quraşdırma və xüsusi tikinti işlərinin daha da inkişafına sərf etmişdir.

T.M. Kazımov respublikamızdan kənarlarda da tanınan inşaat mütəxəssislərimizdən biridir. Onun ölkə tikintisində bundan sonra da daha böyük uğurlara imza atacağına əminik.

Kərimli
Rafiq
Abbasəli oğlu

1933-cü ildə Gəncədə anadan olmuş, 1951-ci ildə Bakıda orta məktəbi, 1956-cı ildə isə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. 1956-cı ildə təyinatla Sumqayıt şəhərindəki Zaqafqaziya Sənaye Tikinti (Zakpromstroy) trestinin (sonralar Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin 1 nömrəli tikinti tresti) metallurgiya sənaye tikinti idarəsində usta kimi ilk əmək fəaliyyətinə başlamışdır. 1959-cu ilədək bu idarədə usta, iş icraçısı, sahə rəisi və s. vəzifələrdə işləyərək Azərbaycan Boru-Prokatı zavodunun inşasında çalışmışdır. 1959-cu ildə həmin idarədə baş mühəndis vəzifəsinə köçürülür. 1965-ci ildə Zaqafqaziya Sənaye Tikintisi tresti iki hissəyə bölünür və bu trestin bazasında 1 və 2 nömrəli tikinti trestləri yaradılır.

R.A. Kərimli 2 nömrəli tikinti trestinə müdir təyin olunur. 1974-cü ildə 1 nömrəli tikinti trestinə müdir müavini vəzifəsinə köçürülür. Az sonra həmin trestə müdir vəzifəsinə təyin edilir (1976-1981-ci illər). 1981-ci ildə Azərbaycan KP MK-nın göstərişinə əsasən Qaradağ rayonunda Dərin Dəniz Özülləri zavodunun tikintisi ilə əlaqədar yeni 7 nömrəli tikinti tresti yaradılır və R.A. Kərimli bu trestə müdir təyin olunur. 1982-ci ildə səhhəti ilə əlaqədar öz ərizəsinə əsasən nazirliyin aparatına idarə rəisi vəzifəsinə köçürülür. Hazırda təqaüdçüdür.

Sumqayıtdakı Kimya kombinatının, bir sıra təmizləyici qurğuların, Sulfanol kompleksinin, 3 uşaq bağçası, 5 məktəb kompleksi, musiqi məktəbi, şadlıq evləri, Yuyucular zavodunun, Şamaxıdakı üç şərab zavodunun, kanalizasiya sisteminin, 9 mərtəbəli mehmanxananın, ATS binasının, bir çox inzibati binaların, klub, əlillər evi, məişət evi, 5 mərtəbəli yaşayış binasının, Pirquluda istirahət zonasının, Xırdalandakı ət-süd kombinatlarının və s. obyektlərin tikintisinə bilavasitə rəhbərlik etmişdir.



Kərimov
Elşad
Şahmar oğlu

10 iyun 1948-ci ildə Ağdam rayonunun Sarıcallı kəndində ziyalı ailəsində anadan olmuş, Ağdam şəhərindəki 5 nömrəli orta məktəbi fərlənmə ilə bitirmişdir. 1964-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1969-cu ildə həmin institutun dəmir-beton və inşaat materiallarının hazırlanması texnologiyası şöbəsini bitirərək inşaatçı-mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

E.Ş. Kərimov ali məktəbdə oxuduğu illərdə elmi biliklərə dərindən yiyələnməklə yanaşı institutun ictimai işlərində fəal iştirak etmiş, idman yarışlarında təhsil aldığı məktəbin şərəfini bacarıqla qorumuş, respublika və ümumittifaq yarışlarında uğur qazanmış və idman ustası adını almışdır. 1969-cu ilin 1 iyununda institutu bitirib təyinatla Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin sərəncamına göndərilmişdir. Nazirliyin 2 nömrəli Dəmir-Beton Məmulatı zavodunda sex ustası, sex rəisi, texnoloq, 8 nömrəli Dəmir-Beton Məmulatları zavodunda baş mühəndis vəzifələrində çalışmışdır.

O, 1978-ci ilin oktyabrından Kənd Tikintisi Nazirliyinin 7 nömrəli Dəmir-Beton Məmulatları zavoduna direktor təyin edilmiş və 1981-ci ilədək bu vəzifədə işləmişdir. 1981-1986-cı illərdə Kənd Tikintisi Nazirliyinin Tikinti Materialları Sənayesi trestinin müdiri işləmişdir. 1986-cı ildə SSRİ Ağır Maşınqayırma Sənayesi Nazirliyinin əmri ilə "Neftmaştikinti" trestinə müdir təyin olunmuşdur. Sonralar bu trest "Neftmaştikinti" Açıq Səhmdar Cəmiyyətinə çevrilmiş və o vaxtdan da bu cəmiyyətin sədridir.

E.Ş. Kərimov 1987-ci ildə ikinci ixtisas almaq üçün Politexnik İnstitutunun maşınqayırmanın texnologiyası fakültəsinə daxil olmuş və 1989-cu ildə oranı bitirmişdir. Azərbaycanın müxtəlif rayonlarında tikilib istifadəyə verilmiş yaşayış evlərində, 4 dəyirman kombinatında, 62 şərab emalı zavodunda, 8 broyler-quşçuluq fabrikində, 12 min başlıq heyvandarlıq kompleksində, 6 süd-əmtəə fermasında, 8 mehmanxana, 6 klub, 12 mədəniyyət evi, 14 inzibati bina, xeyli miqdarda istehsalat bazasında, 32 min şagird yerlik məktəb, 1500 yerlik uşaq bağçasında, 4 xəstəxana kompleksində, 14 aptek və 6 tibb məntəqəsində, Kür su kəmərinin II növbəsinin tikintisində, Bakıdakı neft sənaye müəssisələrinin tikintisi və yenidənqurulmasında və digər obyektlərdə səmərəli əmək fəaliyyəti ilə fərqlənən səriştəli, bacarıqlı rəhbər işçilərdən biri kimi tanınır.

O, işlədiyi bütün vəzifələrdə tapşırılan bütün işlərə məsuliyyətlə yanaşmış və uğurla başa çatdıraraq rəhbərliyin etimadını doğrultmuşdur.

Əməkdə qazandığı uğurlar, səriştəli və məsuliyyətli rəhbər işçi, səmərəli təklifləri ilə dövlətə xeyir verən kamil inşaatçı-mühəndis olduğu üçün komitə və nazirliklərdən döş nişanları, fəxri fərmanlar, tərifnamələr almış, dəfələrlə Nizami və Nərimanov rayon sovetlərinə deputat seçilmişdir.

E.Ş. Kərimov bu gün də öz zəngin inşaatçı-mühəndis təcrübəsini gənc inşaatçı kadrlara həvəslə öyrədir.



Kərimov
Kərim
Bayram oğlu

Qax rayonunda anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun yetirməsi olan inşaatçı-mühəndisdir. Əmək fəaliyyətinə Bakı Baş Tikinti İdarəsində başlamış, Baş İdarənin 7 nömrəli tikinti idarəsində iş icraçısı, sahə rəisi, baş mühəndis işləmişdir. Ötən sərin 60-70-ci illərində Bakıda inşa edilmiş çox mühüm və vacib obyektlərdə əl izləri qoymuşdur. Bacarıq və qabiliyyətini nəzərə alaraq onu Avtoquraşdırma trestinə müdir vəzifəsinə irəli çəkmişlər. Az sonra Baş Kolxozlararası Tikinti İdarəsində rəisin birinci müavini vəzifəsinə təyin olunmuşdur.

K.B. Kərimov sonra Baş Kolxozlararası Tikinti İdarəsinin rəisi, "Aqrotikinti" Dövlət Şirkətinin preizdenti vəzifələrində işləmiş, respublikanın əksər rayonlarında təzə qəsəbələrin, sənaye obyektlərinin tikintisinə bilavasitə rəhbərlik etmişdir.

"Knauf"
şirkəti


Mədən mühəndisi ailəsində anadan olan Alfons və Karl Knauf qardaşları 1932 – ci ildə "Knauf qardaşları" adı altında öz şirkətlərini yaratdılar. Onlar öz fəaliyyətlərində unikal xassələrə malik təbii mineral olan – gips ilə işləməyə üstünlük verdilər. Onların əsas məqsədi gips əsasında sadə texnologiya yaratmaqla insanlara yüksək keyfiyyətli xidmət göstərməkdən ibarət olmuşdur. Belə ki, emal olunmuş gips materialı əsasında insanlar evlərinin daha tez, daha yaxşı və minimum xərclə təmir edə bilsinlər.

Bu gün, "Knauf" sənaye qrupu dünyanın 50-yə yaxın ölkəsində uğurla fəaliyyət göstərən 200-dən artıq müəssisəni özündə birləşdirir.

"Knauf" şirkəti fəaliyyət göstərdiyi müddət ərzində tikililərin interyerini daha möhtəşəm və funksional etmək üçün yeni materiallar yaradır və qabaqcıl texnologiyalar tətbiq edir. Mükəmməlliyə doğru istiqamətlənmiş fəaliyyətin nəticəsi olaraq hədsiz dizayn imkanlarına, yüksək odadavamlılıq və möhtəşəm səs izolyasiyası göstəricilərinə malik "quru" inşaat sistemlərinin yaradılmasına nail olundu. Dəqiq, ilkin planlaşdırmanı və texnoloji əməliyyatların koordinasiyasını yerinə yetirməyə imkan verən komplekt inşaat sistemləri qısa bır zamanda təmirə güclü impuls verdi və tikililərin işlənməsi prosesində əvəzolunmaz oldular.


"Knauf" sistemlərinin əsasını karkas elementləri, izolyasiya, astar və suvaq materialları ilə birlikdə gipskarton lövhə təşkil edir. "Knauf" şirkətinin quru inşaat komplekt sistemlərinin müxtəlif arakəsmələrə, tavanlara, divarlara, kommunikasiya şaxtalarına və mansard üzlük sistemlərinə, o cümlədən, döşəmə sistemlərinə qruplaşdırılan bölmələr şəklində inkişaf etdirilməsi onların çoxsaylı üstünlüklər qazanmalarına səbəb olmuşdur.

Gips əsaslı daxili sistemlərin düşünülmüş texnologiyası və onun daim inkişaf etdirilməsi yeni praktik imkanlar açır. Bu sahədə işlənib hazırlanmış bütün tədbirlər zirzəmidən çardağa, hamamdan mətbəxə qədər yaşayış məkanlarının tərtibatında hər zaman şəxsi istəklərin reallaşdırılması üçün geniş şərait yaradır. Onlardan istifadə etməklə hətta





1. Mozel çayı üzərində, Perl şəhərində gips əsaslı quru inşaat qarışıqlarının emalı üzrə ilk zavod.
2. Goranboy şəhərində yerləşən "Gilan & Knauf Gipso-Karton" MMC.



yaşayış meydançalarını belə genişləndirmək mümkün olur. Dəqiqliklə seçilmiş divar konstruksiyaları ənənəvi kərpic hörgüsü ilə müqayisədə qeyri-daşıyıcı daxili divarların qalınlığını azaltmağa imkan verir. Divarları həm maili vəziyyətdə quraşdırmaq, həm də onları tağ şəklində dairəvi formaya salmaq olur. Belə olan halda inşa olunan sahə daha cəlbedici olur. Divarların quraşdırılması memarlıq planı ilə yanaşı, məkanın təyinatından da asılıdır. Misal üçün, mətbəxdə və ya hamam otağında olan bütün su və kanalizasiya boruları divar içərisində olduğundan görünmürlər. Bununla da, ənənəvi üsuldan fərqli olaraq, naqillərin yerləşdirilməsi zamanı heç də az olmayan xərclərə kifayət qədər qənaət etmək olur. Bu zaman divarları deşmək lazım gəlmir və onlar dəyişməz olaraq qalırlar. Divarların üzərinə rahatlıqla sanitar – texniki avadanlıqlar kimi, rəf və digər asma dolablar da yerləşdirmək mümkün olur.

"Knauf" şirkətinin izolyasiya sistemlərinin istifadəsi zamanı gipskarton lövhələrdən hazırlanmış otaqlararası arakəsmələr ən yüksək səs və istilik izolyasiyası, bununla yanaşı, yanğından mühafizə tələblərinə cavab verirlər. Gələcəkdə yaşayış sahələrinin yaradılmasında və sahələrə görə irəli sürülən tələblərin həyata keçirilməsində əsas rolu daha bir faktor oynayacaqdır: otaqlararası arakəsmələrin aktual tələbatlara görə uyğunlaşdırılması. Təmir və yenidənqurma zamanı onların asan quraşdırılması yaşayış məkanı ilə bağlı şəxsi tələblər dəyişərsə, məkanın son anda planlaşdırılmasına asanlıqla imkan yaradır.

Haqqında danışılan sistemlər daha bir vacib hesab olunan meyarı nəzərə alır: məkandakı mikroiqlim divarların konstruksiyası üçün əsas element sayılan təbii material gips rütubəti qısa bir zamanda özünə hopdurmaq və yenidən qaytarmaq xüsusiyyətinə malikdir. Bu, istənilən iqlim qurşağında xoş mikroiqlim yaratmağa imkan verir. Bütün dünyada daha çox diqqət evin tikintisində xərcin azalmasına yönəlir. Təklif olunan daxili təmir sistemi yetərincə qənaət əldə etməyə imkan verir və dünyada qəbul edilmiş standartlara tam cavab verir. Qeyd etmək lazımdır ki, yeni sistemlərin yaradılmasına qədər Azərbaycanda binanın konstruksiyasına böyük ağırlıq salmaq kimi çatışmazlığa malik olan boşluqlu kərpicdən istifadə olunurdu. Regionumuzun seysmik cəhətdən aktiv olduğunu nəzərə alaraq kərpic hörgüsü ilə müqayisədə "Knauf" gipskarton sistemləri on dəfə az çəkiyə malik olmaqla yanaşı istilik və səs izolyasiyası, yanğından mühafizə, az xərclə yaşayış və sənaye tikintisinin tələblərinin yerinə yetirilməsi kimi xüsusiyyətlərə malikdir. Quru proseslərin olması və sürətli quraşdırma tikintinin müddətini azaldır. Bu sistemlərin qənaətcil olmasına sübut olaraq, həm təkmənzilli evlərdə, həm də göydələnlərdəki çoxsaylı təmir işlərini misal göstərmək olar.

"Knauf Marketing Baku" MMC-nin sifarişi əsasında AzİMETİ tərəfindən işlənib hazırlanmış və Azərbaycan Respublikasında inşa edilən yaşayış, ictimai, sənaye binalarında istifadə edilməsi üçün gipskarton lövhələri əsasında inşaat konstruksiyalarının işçi cizgi albomları və metodik sənədləri artıq dövlət qeydiyyatına alınmışdır.

Knauf şirkətinin siyasəti ibtidai və orta texniki peşə məktəbləri, ali təhsil müəssisələri ilə əməkdaşlıq etməklə yanaşı quru inşaat texnologiyaları sahəsində çalışan mütəxəssislərin maarifləndirilməsini nəzərdə tutur. Texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin nəzdində uğurla fəaliyyət göstərən Knauf tədris mərkəzlərinin yaradılma və inkişaf proqramı çərçivəsində respublikamızda da hal-hazırda Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə razılaşma proqramı üzrə Knauf Tədris Məsləhət Mərkəzi fəaliyyət göstərir. Tədris AzMİU-nun nəzdində fəaliyyət göstərən İnşaat Texniki Kollecin tələbələrini də əhatə edir. 2010-cu il dekabrın 8-də Təhsil Nazirliyi ilə KNAUF şirkətlər qrupu arasında imzalanmış Niyyət Protokolu əsasında 4 saylı Bakı Peşə Liseyinin nəzdində KNAUF Resurs Mərkəzi yaradılmışdır. Artıq 2011-cu ildən etibarən "Quru İnşaat işləri ustası" peşəsi yaradılmış və həmin ildən etibarən 4 saylı Bakı Peşə Liseyində bu peşə üzrə tələbələrin qəbuluna başlanmışdır. Bu kimi tədbirlərin respublikamızın digər bölgələrində də həyata keçirilməsi planlaşdırılır.

"Knauf" şirkəti Azərbaycanın inşaat bazarında 15 illik fəaliyyəti dövründə quru inşaat komlekt sistemlərinin populyarlaşdırılmasına və aparıcı məhsullarından biri olan gipskartonun satış həcminə görə qeyd-şərtsiz liderə çevrilməsi üçün çox böyük sərmayə yatırmağa nail olmuşdur. Bu nailiyyətin pozitiv perspektivləri və Azərbaycan iqtisadiyyatının yüksək templə inkişafı yerli istehsalın yaradılmasına zəmin yaratdı. "Gilan Holding" şirkətlər qrupu ilə əməkdaşlıq nəticəsində, 2005-ci ildə gipskarton istehsalı üzrə "Gilan & Knauf" MMC zavodunun inşa layihəsinin reallaşdırılması barədə razılıq əldə olunmuşdur.

Goranboyda yerləşən "Gilan & Knauf" MMC, gipskarton istehsalı üzrə Qafqaz regionunda analoqu olmayan bir müəssisədir. Zavodun tikintisinə 2006-cı ildə başlanmış, ilk məhsul isə 2008-ci ildə istehsal olunmuşdur. Ən müasir alman avadanlığı ilə təchiz edilmiş zavodun istehsal gücü yerli bazarı tam təmin etməyə imkan verir. Zavodun fəaliyyətə başlaması çoxlu sayda insanın işlə təmin olunmasına şərait yaratmışdır. Məhsul gipskarton istehsalı sahəsində dünya üzrə lider olan "Knauf" şirkətinin texnologiyalarından istifadə olunmaqla istehsal edilir.

Gipskarton əsasında sistemlərin tədbiqinin genişlənməsi və inkişafı sistemlərin dayaq konstruksiyasını təşkil edən metal profillərin də istehsalına təkan verdi. Beləliklə, 2011-ci ildən etibarən "Gilan & Knauf" MMC tərəfindən metal profillərin istehsalına başlanmışdır. Metal profillər yüksək keyfiyyətli sink örtüyü və 0.6 mm qalınlığa malik olan xammaldan hazırlanır. İstehsal olunan məhsul dünya keyfiyyət standartlarına tamamilə cavab verir. Keyfiyyətə nəzarət ayrıca komponentlərdən başlayaraq hazır məhsula qədər olan bütün istehsal prosesi boyu həyata keçirilir.

Azərbaycanda "Knauf" firması özünün "müştəriyə yaxın olmaq", onu yüksək keyfiyyətli ekoloji məhsullarla təmin etmək prinsipini həyata keçirir. Şirkətin ölkədəki fəaliyyət fəlsəfəsi ölkədaxili müəssisələrində Azərbaycan xammalından, yerli personalı cəlb etməklə istehsal olunan innovasiya və enerjiqoruyucu tikinti materiallarının ölkə bazarına tədarük edilməsindən, zavodların müasir istehsalçı müəssisə səviyyəsinə çatdırılmasından və qabaqcıl marketinq strukturunun formalaşmasından ibarətdir.

Ümidvarıq ki, iqtisadiyyatımızın dinamik inkişafı naminə keçirilən bütün tədbirlər respublika inşaat sektorunun bütün tələblərə cavab verən keyfiyyətli materiallarla təmin edilməsinə xidmət edəcəkdir.

Q



Qaraxanov
Əli
Yusif oğlu

7 yanvar 1944-cü ildə Dərbənddə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1987-ci ildə həmin institutu bitirmişdir.

Ə.Y. Qaraxanov ölkə tikinti kompleksinin ən iri qollarında, nəhəng sənaye müəssisələrində, dövlət və hökumət idarələrində məsul və rəhbər vəzifələrdə işləmişdir. O, ötən əsrin 90-cı illərindən bu vaxtacan "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyətinin sədridir. Bakı Maşınqayırma zavodu, Səttarxan adına zavod, Kirov adına zavod, Bakı Elektrik maşınqayırma zavodu, Suraxanı zavodu, Sabunçu maşınqayırma zavodu və digər çox vacib dövlət əhəmiyyətli və strateji obyektlərin tikilib istsimara buraxılmasında sifarişçi kimi fəal iştirak etmişdir.



Qarayev
Həbib
Fərrux oğlu

1919-cu ildə Qaryagın (indiki Füzuli) rayonundakı Kürdmahmudlu kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Qaryagin Pedaqoji Texnikumunu bitirib İmişlidə orta məktəb müəllimi işləməyə başlamışdır. 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində iştirak etmişdir. Ordudan tərxis olunduqdan sonra əvvəlcə müəllim işləmiş, sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. İnstitutu bitirdikdən sonra Bakının tikinti meydançalarında iş ustası, sahə rəisi, baş mühəndis, idarə rəisi kimi fəaliyyət göstərmişdir. 1964-cü ildə təcrübəsi, zəhmətkeşliyi və qabiliyyəti nəzərə alınıb Tikinti Nazirliyinin 4 nömrəli tiikinti trestinə müdir vəzifəsinə irəli çəkilmişdir.

H.F. Qarayev 1964-1970-ci illərdə Sənaye Tikintisi Nazirliyinin 4 nömrəli tikinti trestinə rəhbərlik etdiyi illərdə Bakıda yeni-yeni mikrorayonların salınmasında, Heydər Əliyev Sarayının, Dövlət Sirkinin,

neçə-neçə yaşayış evinin tikintisində, iri neft və maşınqayırma zavodlarının inşasında və genişləndirilməsində çox böyük uğurlar qazanmışdır. Təsadüfü deyildir ki, neftayırma və kimya sənayesi müəssisələrinin tikintisinə dair beşillik (1965-1970-ci illər) plan tapşırıqlarının yerinə yetirilməsində trest kollektivinin qazandığı müvəffəqiyyətlərə görə H.F. Qarayevin müdir olduğu 4 nömrəli tikinti tresti SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Podqornının 17 fevral 1971-ci ildə imzaladığı Fərmanla "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

İşgüzarlığını və bacarığını nəzərə alıb onu daha mühüm bir sahəyə-Azərbaycan SSR Sovxozlar Nazirinin müavini vəzifəsinə irəli çəkirlər. Bu vəzifədə uzun müddət çalışır və respublikanın sovxozlarında tikinti abadlaşdırma işlərinə nazir müavini kimi bilavasitə rəhbərlik edir. Bu vəzifədən də təqaüdə çıxır. Ömrünün son illərini layihə institutunda məsləhətçi-mütəxəssis kimi fəaliyyət göstərir. O, bir neçə dəfə rayon, şəhər sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuş, fəxri fərman və fəxri adlara layiq görülmüşdür.



Qarayev
Sahib
Aslan oğlu

28 avqust 1952-ci ildə Ağdaş şəhərində ziyalı ailəsində anadan olmuşdur. Valideynlərinin Naxçıvan şəhərində işləməsi ilə əlaqədar uzun müddət Naxçıvan şəhərində yaşamış və 1959-1969-cu illərdə Naxçıvan şəhərində orta təhsil almışdır.

1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə mülki sənaye tikinti ixtisası üzrə qəbul olunmuşdur.

Tələbəlik illərində fəal komsomolçu kimi fakültənin və institutun ictimai işlərində yaxından iştirak etmişdir. O, tələbə inşaat dəstəsinin zona komandiri olmuş, Rusiyanın Kalinin, Qazaxıstanın Cambul vilayətlərində 700-800 nəfərlik tələbə inşaat dəstəsinə 2-3 ay rəhbərlik etmiş və qazandığı uğurlara görə ÜİLKGİ MK-nın fəxri fərmanı ilə təltif olunmuşdur.

S.A. Qarayev 1975-ci ildə institutu bitirərək inşaat mühəndisi ixtisasına yiyələnmiş və təyinatla Bakı Baş Tikini İdarəsinə göndərilmişdir. Burada idarənin 1 nömrəli tikinti trestinin 6 nömrəli tikinti idarəsində usta, iş icraçısı, baş iş icraçısı vəzifələrində işləmişdir.

S.A. Qarayev az sonra - 1978- ci ildə Baş Kolxoz və Sovxozlararası Tikinti İdarəsinə köçürülmüş, bu baş idarədə aparıcı mühəndis, baş mühəndis və mexanikləşdirilmiş səyyar dəstənin rəisi vəzifələrində çalışaraq respublikamızın rayonlarında bir çox tikintilərin, infrastruktur layihələrinin tikilib təhvil verilməsində yaxından iştirak etmişdir.

S.A. Qarayev 1980-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun aspiranturasının əyani şöbəsinə daxil olmuş və 1985-ci ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır (rəhbəri professor Abbas Mustafayev olub). O, 1985-1993-cü illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun tikintinin təşkili, planlaşdırılması və idarə edilməsi kafedrasında ixtisası üzrə asissent, müəllim, baş müəllim və

dosent vəzifələrində çalışmışdır. O, Azərbaycan İnşaat Mühəndisləri İnstitutnda müəllim vəzifəsində çalışdığı illərdə respublikamızda inşaatçı-memar kadrlarının hazırlanmasında gərgin əmək sərf etmişdir. Və bu gün çox xoşdur ki, vaxtilə onun dərs dediyi tələbələr bu gün onun rəhbərliyi altında onunla çiyin-çiyinə çalışır, onun layihələrini tikinti meydanlarında reallaşdırır, həmçinin onun bəzi tələbələri bu gün xarici ölkələrdə işləyir və ölkəmizi ləyaqətlə təmsil edirlər. Bundan başqa Sahib müəllimin bəzi tələbələri bu gün dövlət orqanlarında və tikinti sektorunda yüksək rəhbər vəzifələrdə çalışırlar.

S.A. Qarayev 1993-cü ildən Azərbaycan Respublikası Mənzil Kommunal Təsərrüfatı Nazirliyinin "Azkommunalayihə" Kommunal Layihə İnstitutuna direktor təyin olunmuş və o vaxtdan indiyədək bu vəzifədə vicdanla və qüsursuz çalışır.

Qeyd edək ki, 1996-cı ildə nazirlik komitə ilə əvəz olunmuş, 2001-ci ilin mart ayından isə Mənzil Kommunal Təsərrüfatı Komitəsi Respublika Prezidentinin Fərmanı ilə ləğv olunmuş, institut Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin nəzdində fəaliyyətini davam etdirmişdir.

2006-cı ilin dekabrın 30-dan isə "Azkommunlayihə" İnstitutu Azərbaycan Respublikasının Prezidenti









Bu zövq oxşayan layihələr "Azkommunlayihə" institutunun mütəxəssisləri tərəfindən hazırlanıb.

cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin tərkibində fəaliyyət göstərir.


51 il ərzində fəaliyyət göstərən və respublikanın layihələndirmə sektorunda böyük nüfuz qazanmış instituta son 20 ildə Sahib Qarayev rəhbərlik edir və bu illər ərzində institutun əhatə dairəsi və kadr potensialı xeyli genişlənmiş və nüfuzu artmışdır.

Arxada qalan son 20 il ərzində Sahib Qarayevin rəhbərliyi altında institutda 100-lərlə infrastruktur layihələri hazırlanmış və respublikamızın əksər bölgələrində, ayrı-ayrı ünvanlarında tikilib xalqın istifadəsinə verilmişdir. Hazırkı vaxtda da institutda çoxlu sayda layihələr hazırlanaraq sifarişçilərə təhvil verilir.

"Azkommunlayihə" KLİ respublikamızın bütün rayon və şəhərlərində su kanalizasiya layihələrinin hazırlanması sahəsində ixtisaslaşmış bir layihə qurumu olub və əsasən bu layihələri yerinə yetirirdi. İndi isə bütün sahələr üzrə layihələr – məktəblər, inzibatı binalar, yaşayış binaları, qəsəbələrin salınması, bir sözlə FHN TTNDA-nın sifariş etdiyi bütün layihələr hazırlanır.

Sahib Qarayev Bakı Baş Tikinti İdarəsində çalışdığı illərdə respublikamızın paytaxtında çoxlu sayda sosial-mədəni məişət obyektlərinin tikintisin-







İnstitutda hazırlanmış hər bir layihə Azərbaycan muasir memarlığının gözəl nümunəsi kimi özünəməxsusluğu ilə seçilir.

də əmək sərf etmişdir. Məktəblərin tikintisində, Konservatoriyanın tikintisində, Əhmədli qəsəbəsində uşaq bağçası, yaşayış evlərinin tikintisində əl izləri qoymuşdur.

S.A. Qarayev Baş Kolxoz Sovxoz Tikinti İdarəsində aparıcı mühəndis vəzifəsində çalışdığı illərdə Dağlıq Qarabağda yerləşən 2 nömrəli trest onun kurasiyasında olub və o zaman Şuşada, Kəlbəcərdə və digər rayonlarda çoxlu sayda kənd təsərrüfatı obyektlərinin, heyvandarlıq komplekslərinin tikintisinə bilavasitə rəhbərlik etmişdir.

Həmçinin "Azkommunlayihə" İnstitutunun kollektivi 2001-ci il Bakı zəlzələsindən sonra Baş nazirin müavini Abid Şərifovun rəhbərliyi altında zəlzələdən ziyan çəkmiş bina və qurğuların bərpa və gücləndirmə layihəsinin yerinə yetirilməsində yaxından iştirak ediblər.

Bundan başqa kanalizasiya layihələrinin hazırlanmasında, Xəzər dənizinə axıdılan çirkab sularının qarşısının alınması layihələrinin hazırlanmasında "Azkommunlayihə" İnstitutunun kollektivi yaxından iştirak etmişdir. Bilgəhdən Buzovnaya qədər bütün obyektlərin monitorinqi keçirilmiş, institut tərəfindən çirkab sular müəyyən edilmiş, sonradan layihələndirmişdir.

S.A. Qarayev instituta rəhbərlik etdiyi müddətdə respublikanın müxtəlif rayonlarında yüzlərlə yaşayış evlərinin, 20 məktəb və 10 uşaq bağçasının, qaçqın və köçkünlər üçün salınan 30-dək təzə qəsəbənin, xeyli xəstəxana və mehmanxananın, onlarla kommunal və mədəni-məişət binalarının tikintisi, yenidən qurulması və bərpası üçün layihə smeta sənədlərinin yüksək keyfiyyətlə hazırlanmasına nail olmuşdur.

İnstitutda bu gün 70 nəfərdən çox mütəxəssis çalışır.

"Azkommunlayihə" KLİ bu gün FHN TTNDA-da layihələndirmə sahəsində aparıcı layihə institutlarından biridir. İnstitut agentliyin bütün tapşırıqlarını yüksək səviyyədə yerinə yetirir. Bu yaxınlarda Sabirabad, Saatlı və İmişli rayonlarından sel qaçqınlarının evlərinin bərpasında və yeni yaşayış evlərinin tikintisində, eyni zamanda Saatlı rayonunda böyük yaşayış kompleksinin tikintisində, həmçinin respublikamızın bir sıra rayonlarında yanğınsöndürmə syansiyaları layihələrinin hazırlanması işləri həyata keçirilib.

Qeyd edək ki, Sahib Qarayevin rəhbərlik etdiyi "Azkommunlayihə" KLİ-nin hazırladığı çoxlu sayda infrastruktur layihələrinin təməlqoyma və açılış mərasimlərində Ulu Öndər Heydər Əliyev cənabları və hörmətli Prezidentimiz cənab İlham Əliyev dəfələrlə iştirak etmişdir. Buna misal olaraq Goranboy rayonunda Aşağı Ağcakənd qəsəbəsinin açılışında ulu öndər Heydər Əliyev cənabları iştirak etmişdir. Qəsəbənin layihəsinin bir qismini "Azkommunlayihə" İnstitutunun kollektivi hazırlayıb.

Həmçinin Zabrat qəsəbəsində 840 şagird yerlik orta məktəb binasının həm təməlqoymasında, həm də açılışında, Xırdalan qəsəbəsində məktəbin təməl qoymasında və açılışında, bundan başqa Balakən Olimpiya İdman Kompleksinin, İsmayıllı Olimpiya İdman Kompleksinin, Ağdaş Olimpiya İdman Kompleksinin və digər bir sıra komplekslərin açılışlarında Prezident İlham Əliyev iştirak etmişdir.

Habil Əliyevin 80 illiyi münasibətilə Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti ilə layihəsi "Azkommunlayihə" İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanmış Ağdaş rayonunda Habil Əliyev adına musiqi məktəbinin açılışında möhtərəm prezidentimiz cənab İlham Əliyev iştirak etmişdir.

O, 10-dan çox elmi əsərin, əyani vəsait və kurs layihələrinin, 150-dək elmi-texniki məqalələrin müəllifidir.

S.A. Qarayev ailəlidir, 1 oğlu, 1 qızı, 4 nəvəsi var. Oğlu Bakı Dövlət Universitetini bitirib, polis orqanlarında işləyir, qızı isə Azərbaycan Tibb Universitetini bitirib və hazırda uşaq göz həkimi kimi gələcəyimiz olan körpələrin sağlamlığının keşiyindədir.

S.A. Qarayev Yeni Azərbaycan Partiyasının üzvüdür, o, eyni zamanda FHN TTNDA YAP-ın şura üzvüdür.

S.A. Qarayev yüksək insani keyfiyyətlərə malik, olduqca sadə, təmkinli, tələbkar rəhbər və xeyirxah insandır. Onun respublikamızda layihəçi kadrların yetişməsində əməyi böyükdür.

O, geniş dünyagörüşünə malik əsl ziyalı və alimdir.

S.A. Qarayevin Azərbaycan tikinti kompleksində dəyərli və yaddaqalan əl izləri vardır. Ölkəmizdə son 20 ildə inşa edilib istismara buraxılmış çoxlu sayda unikal obyektlərin, sosial-mədəni tikililərin ərsəyə gəlməsində onun başçılıq etdiyi layihə institutu kollektivinin zəhməti danılmazdır.

S.A. Qarayevin başçılığı altında çalışan layihəçilər bu gün də respublikamızın layihələndirmə sahəsində yeni-yeni uğurlara imza atır, institutun öncül və aparıcı mövqeyini qoruyub saxlayırlar.



Qasımov Ənvər Abı oğlu

1941-ci ildə Masallı rayonunun Musaküçə kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Əvvəlcə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini, sonra isə Moskvada İnşaat Mühəndisləri İnstitutu yanında ali rəhbər işçilər kursunu bitirmişdir. Lənkəranın tikinti meydançalarında iş ustası, sahə rəisi, idarə müdiri işləmiş, Kənd Tikinti meydançalarında iş ustası, sahə rəisi, idarə müdiri kimi çalışmış, kənd tikinti Nazirliyinin Masallıdakı 3 nömrəli tikinti trestinə rəhbərlik etmiş, respublikanın cənub bölgəsində inşa olunmuş 150-dən çox mühüm obyektlərin tikintisinə bilavasitə rəhbərlik etmişdir.

Ə.A. Qasımov ömrünün son 20 ilini kənd tikinti nazirinin müavini, "Azərkəndtikinti" İstehsalat Birliyinin baş mühəndisi, "Azərkəndtikinti" Səhmdar Cəmiyyətinin sədr müavini vəzifələrində işləmiş, respublikanın bütün rayon və kəndlərində tikilib istifadəyə verilmiş sosial-mədəni obyektlərdə, kənd təsərrüfatı təmayüllü tikililərdə, iri sənaye müəssisələrinin ucaldılmasında faydalı əmək sərf etmiş, hər yerdə hörmət qazanmışdır.

Mənalı keçən ömrünü tikinti kompleksinin inkişafına sərf edən Ə.A. Qasımov istehsalatdakı uğurlarına görə dövlət mükafatları və fəxri adlarla mükafatlandırılmış, bir neçə dəfə rayon və şəhər sovetlərinə deputat seçilmişdir.

Kənd tikinti inşaatçılarının böyük bir nəsli Ənvər Qasımovu hər zaman səriştəli və bacarıqlı inşaatçı-mühəndis və peşəkar rəhbər kimi xatırlayır.



Qasımov
Hüseyn
Muxtar oglu

15 yanvar 1933-cü ildə Ağcəbədi rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1951-ci ildə orta məktəbi bitirmiş, Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunmuş və oranı 1956-cı ildə bitirmişdir. 1956-cı ildə institutun təyinatı üzrə "Zaksənayetikinti" trestinin Sumqayıtdakı "Kauçuktikinti" İdarəsində usta kimi ilk əmək fəaliyyətinə başlamışdır. 1960-cı ilin fevralında onu böyük iş icraçısı vəzifəsinə keçirmişlər. Həmin ilin sentyabrından 1961-ci ilin may ayına kimi 1 nömrəli "Ximkombtikinti" trestinin tikinti idarəsində istehsalat şöbəsinin rəisi işləmişdir. Az sonra isə 1 nömrəli trestin 19 nömrəli tikinti idarəsində rəis müavini vəzifəsinə irəli çəkilmişdir.

H.M. Qasımov 1961-ci ilin iyul ayından 1963-cü ilin dekabr ayına kimi 1 nömrəli tikinti trestinin 14 nömrəli tikinti idarəsində baş mühəndis, 1963-cü ilin dekabrından 1966-cı ilə qədər 1 nömrəli tikinti trestinin 19 nömrəli tikinti idarəsində rəis kimi fəaliyyət göstərmişdir. 1966-cı ilin may ayına kimi 1 nömrəli tikinti trestində baş mühəndis vəzifəsində çalışmışdır. 1974-cü ilin martından 2000-ci ilə qədər 2 nömrəli tikinti trestinin müdiri olmuşdur. 2000-ci ildən həmin trest səhmdar cəmiyyətə çevrilmiş və o, bu cəmiyyətə rəhbərlik etməyə başlamışdır. Hazırda "Sumqayıttikintiquraşdırma" Açıq Səhmdar Cəmiyyətinin sədridir.

H.M. Qasımov düz 50 ildir ki, həyatını Sumqayıt tikintilərinə, şəhərin abadlaşdırılmasına həsr etmişdir. Şəhərdə tikilmiş kimya sənayesi müəssisələrində, salınan bütün mikrorayonlarda, tikilib istismara buraxılmış sosial-mədəni obyektlərdə, inzibati binalarda, nəhəng istehsalat bazalarında onun əl izləri vardır. Kür su kəmərinin çəkilməsinə, Sumqayıt şəhərində hündür mərtəbəli yaşayış evlərinin inşasına bilavasitə rəhbərlik etmişdir. Onun rəhbərlik etdiyi kollektiv sovetlər birliyi dövründə dəfələrlə respublika və ümumittifaq sosializm yarışında qalib gələrək (1975-1976, 1978, 1980, 1981, 1983-ci illər) Sov. İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ MK-nın, Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan SSR LKGİ MK-nın, SSRİ Sənaye Tikintisi Nazirliyi və SSRİ Tikinti və Tikinti Materialları Sənayesi Həmkarlar İttifaqı Şurasının keçici qırmızı bayraqlarını, pul mükafatlarını, diplom və fəxri fərmanlarını almışdır.

H.M. Qasımovun əməyi, zəhməti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1966-cı ildə "Əmək igidliyinə görə" medalı ilə, 1970-ci ildə "Əməkdə fərqləndiyinə görə" medalı ilə, 1975-ci ildə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə, 1976-cı ildə "Qırmızı Bayraq" ordeni ilə, 1981-ci ildə "Şərəf nişanı" ordeni ilə, 1983-cü ildə isə SSRİ-nin xalq təsərrüfatının inkişafındakı fəaliyyətinə görə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin və SSRİ Xalq Təsərrüfatı Nailiyətləri Sərgisinin gümüş medalına layiq görülmüşdür. 1978-ci ildə isə onun rəhbərlik etdiyi trest SSRİ Xalq Nəzarəti Komitəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.



Qasımov
Qasım
Məmməd oğlu

1952-ci ilin yanvarın 20-də Ağdam rayonunun Ətyeməzli kəndində anadan olub. O, ziyalı bir ailənin övladıdır. Atası Məmməd Mikayıl oğlu uzun müddət Ağdam rayon Partiya Komitəsində, Ağdam rayon XDS İcraiyyə Komitəsində məsul vəzifələrdə çalışıb, rayonun sayılıb-seçilən, nüfuzlu kişilərindən olub. Anası Şəmi xanım isə uzun illər bağçada tərbiyəçi işləyib. Və onlar Qasımı kiçik yaşlarından zəhmətə alışdırmış, əməyə məhəbbət ruhunda tərbiyə etmişlər. Bu isə Qasımın həyatda uğurlar qazanmasında həlledici rol oynamışdır.

Q.M. Qasımov 1959-1967-ci illərdə Ətyeməzli kənd 8 illik məktəbində oxumuş, 1967-ci ildə isə Ağdam şəhər 1 nömrəli orta məktəbin 9-cu sinfinə qəbul olunmuş və 1969-cu ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

O, 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin tikintinin iqtisadiyyatı və təşkili şöbəsinə qəbul olunub və 1974-cü ildə həmin fakültəni bitirərək iqtisadçı-mühəndis ixtisasına yiyələnmişdir.

O, eyni zamanda institutda hərbi təhsil alaraq leytenant rütbəsinə yiyələnmişdir. Hazırda ehtiyatda olan kapitandır.

Q.M. Qasımov 1974-1977-ci illərdə Ağdam 50 nömrəli kənd orta texniki peşə məktəbində usta və müəllim, 1977-1983-cü illərdə isə Ağdam metiz-furnitur zavodunda iqtisadçı və əsaslı tikinti şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1983- cü ildən isə Q.M. Qasımovun sorağı qaynar inşaat meydanlarından gəlir. Belə ki, o, 1983-2002-ci illərdə "Azəraqrartikinti" ATSC-nin Ağdam 1 nömrəli "Aqrartikinti" filialında baş mühəndis və rəis vəzifələrində çalışmışdır. (Əvvəllər həmn təşkilat "Başkolxoz-sovzoztikinti" Birliyinin Ağdam tikinti sahəsi, sonra isə Ağdam 40 nömrəli Səyyar Mexanikləşdirilmiş Dəstə adlanırdı.)

Q.M. Qasımov 1995-ci ildə Ağdam rayonunda "Şəms-95" firmasını təsis edib və artıq 17 ildir ki, kollektivə sərişdə ilə rəhbərlik edir.

Qasım müəllim ailəlidir, bir oğlu, iki qızı var.

"Şəms-95" firması yarandığı gündən keyfiyyətli iş onun başlıca devizi olmuş və bu gün də kollektivin gücü ilə təhvil verilən hər bir obyekt keyfiyyəti ilə sifarişçini razı salır. Son 5 ildə "Şəms-95" inşaatçılarının çalışdıqları bütün obyektləri sıralasaq çox böyük bir siyahı alınardı. Onların inşa etdikləri obyektlərin kiçik bir qisminə nəzər salmaq kifayətdir ki, kollektivin işi haqqında dolğun təəssürat yaransın.

Belə ki, 2006-2010-cu illərdə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Sabirabad rayonu ərazisində 161 ailəlik yeni yaşayış qəsəbəsində yaşayış evlərinin, sosial obyektlərin, elektrik və su təchizatı sisteminin tikintiləri, Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində salınan 450 ailəlik qəsəbədə 225 fərdi yaşayış evinin, 360 şagird yerlik məktəb binası və sosial – məişət (ambulatoriya, poçt şöbəsi, inzibati bina və musiqi məktəbi) xidmət obyektlərinin, Füzuli rayonunda 4 nömrəli yeni yaşayış qəsəbəsində 208 fərdi yaşayiş evinin tikintisi, Biləsuvar rayonunun ərazisin-

də salınan 5 yeni yaşayış qəsəbəsində 5 ədəd 360 şagird yerlik məktəb binasının tikintisi, Beyləqan rayonunun ərazisində məcburi köçkünlər üçün salınan 500 ailəlik yeni qəsəbədə 94 yaşayış evinin, sosial-məişət obyektlərinin (klub-icma, 50 yerlik uşaq bağçası və 360 şagird yerlik məktəb binasının) tikintiləri, Goranboy rayonunda yeni yaşayış qəsəbəsində 60 ədəd evin, Yevlax şəhərində 612 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli, 5 mərtəbəli yaşayış binasının tikintiləri və s. həyata keçirilmişdir.

Həmçinin bu illərdə Qasım Qasımovun kollektivi Təhsil Nazirliyinin sifarişi ilə Keşlə qəsəbəsində 1296 şagird yerlik məktəbin, Samux rayonunun Kolayır kəndində 340 şagird yerlik orta məktəb üçün idman zalının, Zərdab rayonunun Məlikmudlu kəndində 360 yerlik orta məktəb binasının, İmişli rayonunun Mirili kəndində 192 şagird yerlik orta məktəb binasının, Bakı şəhəri Nizami rayonu 272 nömrəli orta məktəb üçün 700 şagird yerlik 35 əlavə sinif otaqlarının, Binəqədi rayonu, Biləcəri qəsəbəsində 299 nömrəli orta məktəb üçün 840 şagird yerlik əlavə 42 sinif otağının, İmişli rayonunun Murquzalı kəndində 180 şagird yerlik, Sarıxanlı kəndində 220 şagird yerlik orta məktəblərin, Qobustan rayonunun Xilmilli kəndində 360 şagird yerlik orta məktəbin, Bakı şəhəri Yasamal rayonunda 167 nömrəli məktəb üçün 440 şagird yerlik 22 əlavə sinif otağının, İmişli rayonunun Nurulu kəndində 180 şagird yerlik məktəbin tikintilərini və s. həyata keçirmişdir.

Kollektiv 2011-ci ildə də MKSİF və Təhsil Nazirliyinin sifarişi ilə bir sıra obyektlərin tikintisini həyata keçirmişdir. Belə ki, onlar MKSİF-in xətti ilə Ağcabədi rayonu ərazisində məcburi köçkünlər üçün






1. Ağdam rayonunun Səfərli kəndində 180 şagird yerlik orta məktəb binası. **2.** Bərdə rayonunun Soğanverdililər kəndində 360 şagird yerlik orta məktəb binası. **3.** Tərtər şəhərində 960 şagird yerlik orta məktəb binası. **4.** Beyləqan rayonu ərazisində salınan yeni yaşayış qəsəbəsində 360 şagird yerlik orta məktəb binası

salınan 552 ailəlik yeni qəsəbədə 58 yaşayış evinin və yenə də Ağcəbədi rayonunda 556 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli 5 mərtəbəli yaşayış binasının tikintilərini yüksək keyfiyyətlə sifarişçiyə təhvil vermişlər. Həmçinin onlar Təhsil Nazirliyinin xətti ilə Ağdam rayonunun Səfərli kəndində ötən il tikintisinə başladıqları 180 şagird yerlik ümumi məktəb binasının, Bərdə rayonunun Soğanverdilər kəndində 360 şagird yerlik orta məktəb binasının və Tərtər rayonunda 1 nömrəli 960 şagird yerlik orta məktəb binasının tikintilərini 2012-ci il ərzində başa çatdırmışlar.


Bundan başqa MKSİF-in sifarişi ilə ötən ildən inşasına başlanmış Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 9 mərtəbəli 54 mənzilli yaşayış bi-








1. Beyləqan qəsəbəsində 50 yerlik uşaq bağçası. **2.** Ramana qəsəbəsində Musiqi məktəbi. **3.** Biləsuvar rayonu ərazisində salınan yeni yaşayış qəsəbəsində 360 şagird yerlik orta məktəb binası **4.** Beyləqan rayonu ərazisində salınan yeni yaşayış qəsəbəsində klub-icma mərkəzi. **5.** Yevlax rayonu ərazisində salınan hündür mərtəbəli binalardan ibarət yaşayış massivindən bir görüntü. **6.** Ağcabədi rayonu ərazisində salınan hündür mərtəbəli binalardan ibarət yaşayış qəsəbəsindən bir görüntü



1



2

1. Ramana qəsəbəsində salınan yeni yaşayış qəsəbəsində 360 şagird yerlik orta məktəb binası.
2. Ağdam rayonunun Bənövşələr qəsəbəsində 198 şagird yerlik orta məktəb binası.

nasını da "Şəms-95" firmasının inşaatçıları 2012-ci ildə istifadəyə verəcəklər.

2006-cı ilin mart ayında Ağdam, Tərtər və Bərdə rayonlarına səfəri çərçivəsində Ağdam rayonundakı "Dördyol-1" və Bənövşələr" qəsəbələrinə baş çəkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Şəms-95" firması inşaatçılarının tikdiyi 536 yaşayış evinin və 198 şagird yerlik orta məktəb binasının tikintilərində olmuş və onların əməyini yüksək qiymətləndirmişdir.

Kollektivdə bu gün gözəl əhval-ruhiyyə var. Və heç şübhəsiz firmanın qazandığı uğurlarda bu işgüzar ab-havanın rolu böyükdür. Bu isə Qasım Qasımovun səriştəli rəhbərlik bacarığı ilə mümkün olmuşdur. Kollektiv ona inanır və onun rəhbərliyi altında çalışmaqdan qürur duyur. Qasım müəllim də öz növbəsində "Şəms-95"-i yaratdığı vaxtdan bütün potensialını firmanın güclənməsinə, ölkənin tikinti yönümündə öz layiqli yerini tutmasına sərf edib.

Və etiraf edək ki, onun zəhməti hədər getməyib. "Şəms-95" bu gün ciddi və etibarlı tikinti qurumu kimi tanınır və qəbul olunur. Getdikcə kollektivə daha böyük layihələr etibar olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə inşaat sahəsində qazandığı uğurlara görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Qasım Qasımov 60 yaşda çox optimisdir. Azərbaycanın böyük gələcəyinə inanır və itirilmiş torpaqlarımızın mənfur düşməndən təmizlənməsi və Ağdam firması kimi "Şəms-95"-in Ağdamın, Dağlıq Qarabağın tikinti və bərpasında yaxından iştirak etməsi onun ən böyük arzusudur.

Q. M. Qasımov dünyagörüşünə, həyat duyumuna, adamı bir işarədən başa düşmək, hər şeyin yerini bilmək qabiliyyətinə görə də həmyaşıdlarından çox fərqlənir. Bu isə onun hərtərəfli insan olmağından irəli gəlir.

O, sadə insandır. Və ondakı sadəlik ifrat sadəlikdir, çılpaq sadəlikdir. Məhz bu keyfiyyətlərinə rəğmən də o, hər zaman olduğu kimi görünür. O, özü sadə olduğu üçün də insanlarda ən xoşladığı cəhət də sadəlikdir, adilikdir, necə varsa o cür - olduğu kimi də görünməkdir.

Q. M. Qasımov optimist və realist insandır. Onun bütün məqamlarda reallığa söykənməsi güclü optimizmindən irəli gəlir. O, reallığa söykəndiyi üçün də həyatda onun üçün əlçatmaz heç nə yoxdur.

O, səadətini inşaatda tapıb. O, elə bir sənət seçib ki, bu sənət ona həm çörək verib, həm də həyatda, cəmiyyətdə özünü təsdiq etmək imkanı. Bu sənət ona zirvələr qazanmaq, dostlar tapmaq, işdə və həyatda uğurlar qazanıb onun sevincini yaşamağı qismət edib.

Q. M. Qasımov çox nikbindir. Gələcəyimizi çox uğurlu görür və bunun üçün hamının bir nöqtəyə vurmağının vacibliyini bildirir. O, övladlarını da torpağını sevən, türkün adını, şərəfini uca tutan insanlar kimi böyüdüb tərbiyələndirmişdir.

Hər bir insan dünyaya gəlişi ilə gedişi arasındakı müəyyən zaman kəsiyində fəaliyyət göstərdiyi sahədə, cəmiyyətdə və ailədə iz qoyur. Ancaq heç də hamı özündən sonra sanballı iz, ad-san, qoya bilmir.

Qasım Məmməd oğlu Qasımov çalışdığı tikinti yönümündə xüsusi əməyi olan, kollektivdə, cəmiyyətdə nüfuzu və hörməti olan bir rəhbər kimi tanınır və sevilir. Onun rəhbərlik etdiyi "Şəms-95" firması ötən əsrin 95-ci ilindən respublikanın inşaat sektorunda həyata keçirdiyi irili-xırdalı tikinti layihələri ilə ciddi bir tikinti qurumu kimi tanınır və getdikcə nüfuzu artır.

Əminik ki, şirkət bundan sonrakı illərdə də daha böyük uğurlara atacaqdır.



Qasımov
İsmayıl
İsrafil oğlu

15 sentyabr 1915-ci ildə Şəki şəhərində anadan olmuşdur. Bakıdakı 132 nömrəli orta məktəbi bitirdikdən sonra (1937-ci il) Azərbaycan Neft Sənayesi İnstitutunda ali təhsil almışdır (1937-1942-ci illər). Ali məktəbi bitirdikdən sonra onu Bakıdakı hərbi təmayüllü zavoda göndərmişlər. İ.İ. Qasımov o vaxtın tələblərinə uyğun olaraq 1942-1946-cı illərdə Dzerjinski adına zavodda mühəndis, mühəndis-texnik, böyük mühəndis kimi fəaliyyət göstərmişdir.

İ.İ. Qasımov 1947-ci ildə 31 saylı peşə məktəbinin direktoru təyin edilmişdir. 1948-1951-ci illərdə Bakı şəhər Tikinti İdarəsinin nəzdindıki peşə məktəbinin direktoru olmuşdur. 1951-ci ildə "Bakışəhərtikinti" trestinin müdir müavini vəzifəsinə təyin olunmuşdur. 1954-cü ildə "Bakışəhərtikinti" trestinin müdiri vəzifəsinə irəli çəkilir. 1955-ci ildə "Azsantexquraşdırma" trestinə baş mühəndis köçürürülür. 1956-1965-ci illərdə BBTİ-nin 11 nömrəli tikinti idarəsinin rəisi olmuşdur. 1965-1966-cı illərdə "Bakışəhərsantexelektrikquraşdırma" trestinin müdiri işləmişdir. 1966-1982-ci illərdə isə BBTİ-nin rəis müavini vəzifəsində çalışmışdır.

İ.İ. Qasımov daha sonralar "Azərticarətquraşdırma" trestində kombinat direktoru (1983-1987-ci illər), "Azərticarəttexnika"da direktor müavini (1987-1992-ci illər) vəzifələrində fəaliyyət göstərmişdir. 1992-1994-cü illərdə BBTİ-nin İstehsalat Birliyində baş məsləhətçi olmuş və buradan təqaüdə çıxmışdır.

İ.İ. Qasımov vətən qarşısındakı xidmətlərinə və tikinti kompleksindəki uğurlu işinə görə "Şərəf nişanı" ordeni ilə (1966-cı il), müxtəlif medallarla (1944, 1945, 1967, 1979, 1984, 1985-ci illər) təltif olunmuş, respublikanın Əməkdar İnşaatçısı fəxri adına layiq görülmüşdür (1962-ci il).



Qasımov
Mobil
Nəsib oğlu

20 aprel 1944-cü ildə Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Bakıya gəlmiş (1961-ci il) və o dövrün tələblərinə uyğun olaraq istehsalata üz tutub, Ağac Emalı Zavodunda fəhlə işləmişdir. İstehsalatdan ayrılmadan Azərbaycan Politexnik İnstitutunda ali təhsil almış inşaatçı-mühəndisdir.

M.N. Qasımovun həmin illərdə fəaliyyət göstərən Kür-Araz Su Tikintisi Baş İdarəsinin Ceyranbatan Ağac Emalı zavodunda briqadir, sex rəisi, baş mühəndis işləmiş və baş direktor vəzifəsinə qədər yüksəlmişdir.

M.N. Qasımovun rəhbərliyi altında ən mühüm buraxılış obyektlərinə, təzə qəsəbələrin salınmasına, sosial-mədəni obyektlərin tikintisinə, Xanbulançay, Köndələnçay, Viləş su anbarlarının yaradılmasına təsdiq olunan 30-dan çox adda inşaat materialları hazırlanıb göndərilmişdir. 1981-1982-ci illərdə meşə sənayesi nazirinin müavini işlədiyi illərdə bu sahədə inşa olunan bütün obyektlərin vaxtında və keyfiyyətlə istismara buraxılmasına bilavasitə rəhbərlik etmişdir.

M.N. Qasımov 1982-1984-cü illərdə Ələt Ağac Emalı zavodunun baş direktoru, 1984-1989-cu illərdə Bakı Karton fabrikinin direktoru, 1989-1994-cü illərdə isə Mebel Kombinatının direktoru kimi fəaliyyət göstərmişdir. O, 1994-cü ildən halhazıra qədər "Mobilin" şirkətinin baş direktorudur. O, tikinti kompleksində işlədiyi illərdə saysız-hesabsız səmərəli təkliflər irəli sürmüş və bunun sayəsində dövlətə xeyli xeyir vermişdir. Başçılıq etdiyi idarə və müəssisə həmişə qabaqcıllar sırasında dayanmışdır. Baş Mil kanalı, Əyriçay, Arpaçay Su qovşaqlarının, dəryaçaylarının tikintisində, Bərdə, Xaçmaz, Şəki, Yavlax, Füzuli, Beyləqan və bir sıra başqa rayonlardakı sosial-mədəni obyektlərdə, kompleks meliorasiya işlərində əl izləri qoymuşdur. Qüsursuz və ləyaqətli işinə, qabiliyyət və bacarığına görə M.N. Qasımov dəfələrlə qiymətli hədiyyələr almış, fəxri fərmanlarla təltif olunmuşdur.



Qasımov
Şubay
Allahverdi oğlu

1937-ci il iyun ayında Qasım Ismayılov (hazırda Goranboy) rayonunun Səfikürd kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1954-cü ildə orta məktəbi bitirmiş, həmin il Azərbaycan Politexnik İnstitutunun nəqliyyat fakültəsinin körpü və tunellər şöbəsinə daxil olmuş, 1959-cu ildə körpü və tunellər üzrə tikinti mühəndisi ixtisasına yiyələnmişdir. İnstitutu fərqlənmə diplomu ilə bitirdiyi üçün ona həmin institutda işləməyi məsləhət görmüşlər. Qısa bir müddət işlədikdən sonra Şəki şəhərində yerləşən SSRİ Baş Yollar İdarəsinin 5 nömrəli Yol Tikinti İdarəsinə işləməyə göndərilmiş və ilk olaraq ona Əyri çay üzərində körpünün tikintisini tapşırmışlar. 1960-cı ildə həmin körpünü tikib qurtardıqdan sonra Zaqatala rayon ərazisindən keçən Katexçay üzərində körpü tikməyi tapşırıblar. 1963-cü ildə həmin körpü tikilib və dövlət komissiyası tərəfindən yüksək qiymətlə tikildiyi qeyd olunaraq istismara buraxılmışdır.

1960-cı ildə idarə Şəki şəhərindən Zaqatala şəhərinə köçmüş və adı dəyişilərək SSRİ Baş Yollar İdarəsinin 838 nömrəli tikinti idarəsi adlandırılmış və 1963-cü ildə onu həmin idarənin baş mühəndisi təyin etmişlər. Ş.A. Qasımov 1964-cü ildə həmin idarənin rəisi təyin olunmuşdur. 838 nömrəli tikinti idarəsində işlədiyi dövrdə, yəni 1959-1978-ci illərdə rəhbərlik etdiyi tikinti idarəsi Xaldan-Şəki-Gürcüstan sərhədi yolunun və körpülərin tikintisi, İsmayıllı-Qutqaşen (Qəbələ) yolunun, digər körpü və yolların tikintisi ilə məşğul olub. Həmin yolların tikintisi zamanı yüzlərlə kiçik, orta və böyük körpülər tikilmişdir. Böyük körpülərdən Əyriçay, Talaçay, Katexçay, Mazımçay, Axoçay,Vəndamçay və Dəmiraparançay üzərində tikilmiş körpüləri göstərmək olar. Həmin dövr ərzində Ş.A. Qasımovun işlədiyi idarə Mingəçevir Su Elektrik Stansiyasının daxili yollarını və körpülərini tikmişdir. Bütün binalardan

başqa Balakən və Zaqatala rayonlarında "Yak-40" təyyarələri üçün hava limanlarının tikintisində də əməyi olmuşdur.

Ş.A. Qasımov 1978-ci ilin sonunda Azərbaycan Respublikası Yol Tikinti Nazirliyinin Siyəzən şəhərində yerləşən 15 nömrəli Yol Tikinti İdarəsinə rəis vəzifəsinə göndərilmişdir. 1978-1979-cu illərdə həmin idarə Bakı-Quba yolunun Nasosnu-Dəvəçi hissəsisinin yenidənqurulması ilə məşğul olmuşdur.

Ş.A. Qasımov 1979-cu ilin noyabrında yenidən SSRİ Baş Yollar İdarəsinin Bakıda yerləşən 106 nömrəli Mexanikləşdirmə İdarəsinə rəis, 1980-cı ilin mart ayında Respublika Yol Tikinti Nazirliyinin 9 nömrəli Yol Tikinti idarəsinə rəis göndərilmişdir. 1980-1985-ci illər ərzində Bakı-Astara yolunun Lökbatan-Sanqaçal hissəsisinin tikintisi dövlət komissiyası tərəfindən qəbul olunub istismara buraxılmışdır.

O, 1985-ci ilin sonunda ailə vəziyyəti ilə əlaqədar "Aqroyol" Birliyinin keçmiş Şaumyankənd (indiki Goranboy) rayonunda yerləşən 15 nömrəli rayonlararası Yol Tikinti İdarəsinə rəis vəzifəsinə göndərilmişdir. 1990-cı ilə kimi Yevlax, Tərtər, Goranboy rayonları ərazisində yerli yolların və körpülərin tikintisi ilə məşğul olmuşdur.

Qarabağ müharibəsi başlanan zaman idarənin fəaliyyəti dayanmış və o, bir çox iş yoldaşları ilə birlikdə könüllü olaraq Goranboy 2 nömrəli batalyonunda qulluq etmişdir. Rota komandiri kimi 1992-ci ilin avqust ayına kimi keçmiş Saumyankənd rayonunun erməni quldurlarından təmizlənməsində iştirak etmişdir.

1992-ci ilin sentyabrında ordudan tərxis olunmuş və onu Yuxarı Ağcakənd kəndində yerləşən gips kombinatına müdir vəzifəsinə göndərmişlər. Qısa bir müddətdə kombinatın işini bərpa etmiş, respublikamızın gips daşına olan tələbatını ödəmişdir. 1992-ci ilin oktyabrında təsərrüfatı bərpa edərkən mina partlayışında ağır bədən xəsarəti almış və uzun müalicədən sonra yenidən iş fəaliyyətinə davam etmişdir.

Hazırda müəssisə özəlləşərək "Goranboy Gips" ASC kimi fəaliyyət göstərir. Ş.A. Qasımov isə cəmiyyətin sədridir. İşlədiyi dövr ərzində bir ixtirası həyata vəsiqə almışdır (Məsələn, quruducu barabanların yanacaq məsrəfinə qənaət etmək üçün sabit avtomatlaşdırılması mexanizmi haqqında ixtirası, Müəllif vəsiqəsi № 482778). Tikinti ilə məşğul olduğu illərdə irili-xırdalı 60 səmərəli təklifi olub. 1970-ci ildə "Lenin yubileyi" medalı ilə təltif olunmuş və "Zaqatala rayonunun Tarix salnaməsi" kitabına adı yazılıb.



Qasımov
Teymur
Hüseyn oğlu

1901-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-ci ilin noyabrında V.İ.Lenin adına toxuculuq kombinatı fabrik komitəsinin katibi, 1922-ci ildə Naxçıvan diyar komsomol komitəsinin katibi seçilmişdir. 1923-cü ildə Leninqradda fəhlə fakültəsində oxumuş, orada təhsilini bitirdikdən sonra Leninqrad Sənaye Tikintisi Mühəndisləri İnstitutuna daxil olmuşdur.

T.H. Qasımov Bakıya qayıtdıqdan sonra bir çox illər iş icraçısı, tikinti sahəsinin və tikinti idarəsinin rəisi işləmişdir. 1941-1945-ci illərdə Sovet Ordusu sıralarında qulluq etmiş, müdafiə qurğuları tikintisi ilə məşğul olmuşdur. 1945-ci ildən T.H. Qasımov Bakı Tikinti Trestinin müdiri, Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, Qərb neft sənayesi müəssisələri tikintisi baş idarəsi Azərbaycan məhəlli tikinti idarəsinin rəisi işləmişdir. O, 1954-cü ildə respublika neft sənayesi nazirinin müavini, 1955-ci ildə isə Azərbaycan SSR şəhər və kənd tikintisi naziri təyin edilmişdir. 1961-ci ildən 1979-cu ilədək Respublika Dövlət Tikinti İşləri Komitəsinin şöbə rəisi olmuş, 1979-cu ilin yanvarından təqaüdə çıxmışdır. Respublikada əsaslı tikintinin inkişafında T.H. Qasımovun böyük xidməti olmuşdur.

T.H. Qasımov respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmiş "50 il Sov. İKP sıralarında" döş nişanına layiq görülmüşdür. Azərbaycan Kommunist Partiyasının XVII və XXI qurultaylarında Azərbaycan KP MK üzvlüyünə namizəd seçilmiş, iki şağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

T.H. Qasımovun xidmətləri "Qırmızı Ulduz" ordeni, bir çox medal və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyyətinin fəxri fərmanları ilə qiymətləndirilmişdir. 1984-cü ilin oktyabrın 19-da 83 yaşında vəfat etmişdir.



Qeybullayev
Qeybulla
Ramazan oğlu

02 iyun 1945-ci ildə Balakən rayonunun Katex kəndində Qaybalı nəslindən olan ailədə anadan olmuşdur. 1963-cü ildə Katex kənd orta məktəbini qızıl medalla bitirmiş və həmin ildə də Azərbaycan Politexnik İnstitutunun İnşaat və Memarlıq fakültəsinə daxil olmuşdur. O, 1968-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Q. R. Qeybullayev 1968-ci ildə təyinatla Azərbaycan Dövlət Layihə İnstitutunda elmi fəaliyyətə başlamışdır. O, 1969-cu ildə SSRİ – Moskva Dövlət Tikinti İşləri Komitəsinin İnşaat Fizikası İnstitutunun əyani aspiranturasına qəbul olunmuşdur. 1972-ci ildə həmin institutun Böyük Elmi Şurasında dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, texniki elmlər namizədi alimlik dərəcəsi adını almışdır. Q. R. Qeybullayev tədqiqat işini davam etdirərək 1989-cu ildə İnşaatın İqtisadiyyatı üzrə doktorluq elmi dərəcəsi üzrə müdafiə etmişdir.

Q. R. Qeybullayevin elmi işi Tolyatidə "Jiquli" və Moskvada "Moskviç" zavodlarında istehsalata tətbiq olunmaqla dövlətə milyonlarla gəlir gətirmişdir. Bu işinə görə ona yüksək mükafat verilməklə İxtiraçı Diplomu Patenti verilmişdir. Müdafiədən sonra istedadlı gənc alim Bakıya qayıdaraq Azərbaycan Dövlət Tikinti İşləri və Memarlıq Komitəsində şöbə müdirinin müavini vəzifəsinə təyin olunmuşdur. Respublika Dövlət Tikinti işləri və Memarlıq Komitəsinin nəzdində Moskvanın qərarı ilə yaradılmış Tikinti İşləri və Memarlıq Elmi-Tədqiqat İnstitutunun ilk direktoru təyin olunmuşdur.

O, 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Azərbaycan İnşaat Mühəndisləri Universitetinin rektoru vəzifəsinə təyin olunmuşdur. Azərbaycanın ali təlabələrinin gizli səsverməsi ilə 1998-1999-cu illərdə "İlin Rektoru" adına layiq görülmüşdür.

Q. R. Qeybullayev 2000-ci ildə Azərbaycan İnşaat Universitetinin rektoru və-

zifəsindən azad olunaraq və elə həmin universitetin "Tikintinin İqtisadiyyatı kafedrasının müdiri vəzifəsinə təyin olunmuşdur. O, 2001-ci idə Türkiyə Cümhuriyyətinə dəvət olunmuşdur. Türkiyə Cümhuriyyətinin Baş Nazirinin Avrasiya İşləri üzrə müşaviri vəzifəsinə və Türkiyənin "Süleyman Dəmrəl Universiteti" nin İqtisadi bölüm başqanlığı vəzifəsinə təyin olunmuşdur. Türk Gümhuriyyəti bələdiyyələri Assosiasiyaları yönətim qurumu başqanı olmuşdur. İki övladı və 1 nəvəsi var.

Atası Ramazan Qeybullazadə 1934-cu ildə Zaqatala Kənd Təsərrufatı Texnikumunu bitirmiş və Balakən rayonunun Torpaq şöbəsində, daha sonra Katex kəndindəki kolxozda aqronom vəzifəsində çalışmışdır. Əmisi Qeybullazadə Qori Gimnaziyasının məzunu olmuşdur. Quba zonasında müəllimlik etmişdir.

Dayısı Əhməd Hacıseyid oğlu Əhmədzadə 1930-cu ildə Leninqrad Kənd Təsərrufatı Akademiyasını bitirmiş və Azərbaycan SSR Dövlət Torpaq Nazirliyində yüksək vəzifədə işləmişdir. O, məşhur "Rerixlər" ailəsindən olan Lilya adlı qızla ailə həyatı qurmuş və iki övladı olmuşdur.


Qənizadə
Rza
Ağababa oğlu

1912-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. 1920-ci ildə ibtidai məktəbə daxil olmuş və 1924-cü ildə oranı bitirmişdir. 1929-cu ildə hazırlıq kursu keçmiş, sonra Bakı Pedaqoji Texnikumuna daxil olmuşdur. 1930-cu ildə Bakı Pedaqoji Texnikumunu bitirdikdən sonra 3 il müəllim işləmişdir.

R.A. Qənizadə 1933-cü ildə Azərbaycan Neft Sənaye İnstitutuna daxil olmuş, 1939-cu ildə həmin ali məktəbin inşaat fakültəsini bitirmişdir. 1941-1943-cü illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1943-cü ilin aprel ayından ömrünün sonuna kimi həyatını tikinti kompleksinə bağlamış, iş ustalığından tikinti nazirinin müavini, Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin müavini vəzifələrinədək yüksəlmişdir.

Ölkədə salınan yeni qəsəbə və şəhərlərdə, iri sənaye müəssisələrində, kənd təsərrüfatı əhəmiyyətli obyektlərdə R.A. Qənizadənin əməyi çoxdur.

Onun əməyi hər zaman dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.



Qiyasbəyli
Ramiz
Həsən oğlu

1937-ci ildə Bərdə şəhərində qulluqçu ailəsində anadan olub. Əslən Qazax rayonunun Kəmərli kəndindəndir. Bu bölgədən kənarda da geniş tanınan məhşur Qiyasbəylilər nəslinin davamçısıdır. O, Azərbaycan Politexnik İnstitutunun yetirməsidir. Yarım əsrdən çox həyatını ölkə tikinti kompleksinə bağlamışdır. Adi fəhləlikdən nəhəng müəssisələrin direktorluğuna qədər çox şərəfli və mənalı həyat yolu keçmişdir. Azərbaycan SSR Tikinti Materialları Sənayesi Nazirliyinin ən iri müəssisələri sayılan Bakı Şifer Kombinatında və Qaradağ Sement zavodunda müəyyən fasilələrlə direktor müavini, direktor və baş direktor vəzifələrində çalışmışdır. Qaradağ sement zavodunda baş direktor işlədiyi illərdə (1988-2000-ci illər) bu müəssisənin yenidən qurulmasına bilavasitə başçılıq etmişdir.



Qocayev
Cahangir
Dövlət oglu

1948-ci il iyun ayının 1-də Saatlı rayonunun Mollavaizli kəndində fəhlə ailəsində anadan olmuşdur. Orta təhsilini başa vurub Bakıya gəlmiş, Bakıxanov qəəbəsindəki 7 nömrəli şəhər texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. İlk əmək fəaliyyətinə "Leninneft" Mədənlər İdarəsində başlamış, fəhlə, operator işləyə-işləyə Azərbaycan Neft Kimya İnstitutunun axşam şöbəsində ali təhsil alaraq iqtisadçı-mühəndis olmuşdur.

C.D. Qocayev ali məktəbi bitirdikdən sonra Saatlı rayonuna qayıtmış "Azərmeliosutikinti" Baş İdarəsinin 17 nömrəli tikinti-quraşdırma idarəsində, az sonra isə Muğan Meliorasiya Su Tikinti Trestində məsul vəzifələrdə işləmiş, trestin əməyin təşkili və əmək haqqı şöbəsinin müdiri olmuşdur. Muğan bölgəsində aparılan kompleks meliorasiya işlərində yaxından iştirak etmişdir. Bacarığı, tikinti iqtisadiyyatını yaxşı bilməsi sayəsində onu baş idarəyə dəvət edirlər. Bir neçə il baş idarənin Normativ-Tədqiqat Stansiyasının ilk rəisi, sonra isə "Azərmeliosutikinti"nin mərkəzi aparatında şöbə müdiri və ilk partiya təşkilatının katibi işləmişdir. Çox keçmir ki, o, buradan Dövlət Tikinti Komiəsinin mərkəzi aparatına, oradan isə Azərbaycan Respublikasi Nazirlər Kabinetinə köçürülür.

C.D. Qocayev Azərbaycan Respublikası Nazirlər Kabinetində tikinti şöbəsinin müdiri işlədiyi illərdə tikinti kompleksinin inkişafı üçün var qüvvəsini sərf edir. Sonra onu Azərbaycan Respublikası Tikinti və Arxitektura Komitəsinə göndərirlər. O, bu komitədə sədrin müavini və birinci müavini vəzifələrində də ləyaqətlə, vicdanla çalışmış, müstəqil respublikasımızda tikinti kompleksinin hərtərəfli inkişafı üçün qüvvə və bacarığını əsirgəməmişdir.

C.D. Qocayev hazırda Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Beynəlxalq əlaqələr və informasiya şöbəsinin müdiri vəzifəsində çalışır, dövlət qulluğu müşaviridir.

O, 2008-ci ildən Azərbaycan Ağsaqqallar Şurasının üzvü və Sabunçu rayon Ağsaqqallar Şurası sədrinin 1-ci müavinidir.

2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.



Quliyev
Atakişi
Ağadədə oğlu

20 avqust 1934-cü ildə Lənkəran rayonunun Sütəmurdov kəndində ziyalı ailəsində anadan olub. 1952-ci ildə Lənkəran şəhərindəki 3 nömrəli orta məktəbi, 1957-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsini bitirmişdir. 1957-1958-ci illərdə Azərbaycan Çayçılıq və subtropik bitkilər Elmi-Tədqiqat İnstitutunun Lənkəran filialında mühəndis-mexanizator, Lənkəran Su Tikinti-Quraşdırma İdarəsində mexanik vəzifələrində işləmişdir.

A.A. Quliyev 1958-ci ilin sonundan həyatını Qaradağ Tikinti Materialları

Kombinatına bağlamışdır. Əvvəlcə kombinatda mexanik işləmişdir. Az sonra baş mexanik və baş mühəndis kimi fəaliyyət göstərmişdir. Güzdək Tikinti Materialları Kombinatı geridə qalan kollektiv olduğu üçün burada istehsalat göstəricilərini yaxşılaşdırmaq məqsədilə 1967-ci ildə onu həmin müəssisəyə direktor göndərirlər. Qısa vaxtda bu kombinat nəinki gerilikdən çıxır, həm də sosializm yarışında qaliblər sırasında dayanır və son nəticədə kollektiv Tikinti Materialları Sənayesi Nazirliyinin və Sahə Həmkarlar İttifaqı Respublika Komitəsinin "Keçici Qırmızı Bayrağı" ilə və pulla mükafatlandırılır. 1968-ci ildə onu Qaradağ Tikinti Materialları Kombinatına direktor təyin edirlər. O, bu müəssisəyə düz 12 il – 1980-ci ilədək rəhbərlik edir. Bu kombinata rəhbərlik etdiyi illər ərzində aşağıda qeyd edilən işləri görmüşdür:

- Mişar daşı – kubikin kəsilməsindən sonra onun 100 faiz mexaniki üsulla yığılmasını təşkil etmişdir (1968-1970-ci illər).

- Mişar daşı – kubikin avtomaşınlara 1972-ci ilə qədər 95 faizə qədərini mexaniki üsulla yüklənməsinə nail olmuşdur.

- Mişar daşı – kubiki istehsal edən yeni iş sahələrinin açılmasına nail olmuş və kombinatın ümumi sahəsi 100 hektara çatdırılmışdır (1976-cı il).

- Mişar daşı – kubikin istehsalı 43 milyon ədəddən (1968-ci il) 63 milyon ədədə çatdırılmışdır (1979-cu il).

- Kombinatın balansında olan Qızıldaş qəsəbəsində yeni sosial-məişət obyektlərinin inşasını və həmçinin mənzil tikintisini genişləndirmişdir.

- Qəsəbədə 880 nəfərlik texniki-peşə məktəbinin tikilib istismara buraxılmasına nail olmuşdur.

- Kombinat yarandığı vaxtdan (1951-ci il) 1968-ci ildək -17 il ərzində mişar daşı-kybik istehsalı üzrə illik planı cəmisi 3 dəfə yerinə yetirdiyi halda, 1972-1985-ci illər ərzində mütəmadi olaraq bütün göstəricilərlə birlikdə mişar daşı-kubik və üzlük piltə istehsalı planını artıqlaması ilə yerinə yetirmişdir.

- Kombinatda çoxsaylı qabaqcıl iş üsullarının həyata keçirilməsinə, mütərəqqi iş üsullarının respublikanın digər tikinti materialları kombinatlarında tətbiq olunmasına, yaxşı işçilərə dövlət mükafatları, orden, medallar və nəhayət, daşkəsən maşinist Əhliman Qasımova Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail olmuşdur.

A.A. Quliyev 1980-ci ilin iyun ayında Azərbaycanda yeganə olan Qaradağ Sement Zavodunun iqtisadi göstəriciləri qənaətbəxş olmadığına görə respublika rəhbərliyinin tövsiyyəsi ilə həmin müəssisəyə direktor təyin olunmuş, bu müəssisəyə 1980-1985-ci illərdə ləyaqətlə rəhbərlik etmiş, müəssisəni gerilikdən çıxarmışdır. Həmin müddətdə Qaradağ Sement zavodunda respublika rəhbərliyinin qayğı və köməyilə çoxsaylı texniki-mədəni tədbirlər həyata keçirmiş, zavodda yenidənqurma işlərini aparmış, illərlə tikintisi yarımçıq qalmış "Şöhqaya" xammal karxanasının işə düşməsinə nail olmuş, Qaradağ Tikinti Materialları Kombinatının tullantılarından xammal kimi istifadə edilməsinə başlamış, 500-dən çox ailənin təzə mənzillə təmin edilməsini həyata keçirmişdir.

A.A. Quliyev təşkilatçılığı və yaradıcılıq qabiliyyəti sayəsində 1985-ci ildə Qaradağ rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri seçilmişdir. O, bu vəzifədə 1991-ci ilin dekabrına kimi işləmişdir. Bu illər ərzində onun rəhbərliyi altında Qaradağ rayonu geniş tikinti meydançasına çevrilmiş və hər il 100-150 min kv.metr mənzil sahəsi inşa olunub zəhmətkşlərin istifadəsinə verilmiş, Bakı Dərin Özüllər zavodu kimi nəhəng sənaye flaqmanı istismara buraxılmışdır. 1991-ci ilin dekabrında SSRİ-nin süqutundan sonra Qaradağ rayon İcra Hakimiyyəti başçısınının birinci müavini təyin olunan A.A. Quliyev Xalq Cəbhəsi hakimiyyətə gələndə işdən kənarlaşdırılmışdır.

A.A. Quliyev az sonra "Bakışəhərtikinti" trestində müdir müavini işləməyə başlamışdır.

Əmək cəbhəsində çalışdığı müddətdə "V.İ.Leninin 100 illik yubileyi" medalı (1970-ci il), "Şərəf nişanı" (1971-ci il) və "Qırmızı Əmək Bayrağı" (1977-ci il) ordenləri ilə təltif olunmuş, 1968-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində səmərələşdirici təkliflərinə görə gümüş medalla mükafatlandırılmış, 1982-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür. Azərbaycan Kommunist Partiyasının XXXI və XXXII qurultaylarının nümayəndəsi olmuşdur. 1968-1977-ci illərdə Qaradağ rayon XDS-nin deputatı, 1970-1977-ci illərdə rayon icraiyyə komitəsinin üzvü, 1980-1991-ci illərdə Bakı şəhər Sovetinin deputatı, 1978-1991-ci illərdə isə Qaradağ rayon Partiya Komitəsinin büro üzvü olmuşdur.



Quliyev
Cəbrayıl
Əliyar oğlu

5 dekabr 1950-ci ildə Ermənistan SSR Qafan rayonunun Xələc kəndində fəhlə ailəsində anadan olub. 1967-ci ildə Qafan şəhər 4 nömrəli orta məktəbi bitirib.

Orta məktəbi qurtardıqdan sonra bir il Xaçmaz konserv kombinatında elektrik montyoru işləyib.

1968-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunmuş və 1973-cü ildə həmin institutu bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir.

C.Ə. Quliyev 01 oktyabr 1973-cü ildə təyinatla "Soyuzvodokanalproyekt" Layihə İnstitutunun Bakı şöbəsində mühəndis vəzifəsinə qəbul olunmuş və 1982-ci ilin avqust ayına kimi orada müxtəlif vəzifələrdə çalışmışdır. 1982-ci ilin avqustunda qrup rəhbəri vəzifəsində işlədiyi yerkən öz xahişi ilə işdən azad olunmuş və "Sredazqiproselstroyindustriya" İnstitutunun Bakı kompleks layihələndirmə şöbəsinə baş mütəxəssis vəzifəsinə qəbul olunmuşdur. Həmin institutda 1986-cı ilin 31 dekabrınadək baş mütəxəssis vəzifəsində çalışmışdır.

C.Ə. Quliyev 04.01. 1987-ci ildən "Bakımənzilkommunlayihə" İnstitutunda baş konstruktor vəzifəsində işə başlamış, müəyyən müddətdən sonra texniki şöbənin müdiri təyin olunmuşdur. O, 1988-ci ilin aprel ayından 2003-cü ilin may ayınadək institutun baş mühəndisi vəzifəsində işləmişdir.

C.Ə. Quliyev 2003-cü ilin may ayından hal-hazırkı dövrə kimi "Bakımənzilkommunlayihə" İnstitutunun direktoru vəzifəsində çalışır.

3 oğlu var. İki oğlu həkimdir. Bir oğlu isə AZ.-MİU-da inşaat fakültəsində sənaye və mülki tikinti ixtisası üzrə təhsil alır.

Yaradıcılıq fəaliyyəti:

1973-1982-ci illər ərzində "Soyuzvodokanalproekt" layihə institutunda işlərkən layihəsində yaxından iştirak etdiyi obyektlər:

2-ci Kür su kəməri: yerüstü və yeraltı qurğu-

lar – nəhəng horizontal və radial təmizləyici qurğular, filtr binaları, nasos stansiyaları, "tras" üzrə bina və qurğular, böyük diametrli su kəmərinin özü, müxtəlif eksperimental qurğuların layihəsi və tikintisinə müəllif nəzarəti; 3-cü Bakı su kəmərinin texniki layihəsi; Böyük Bakının kanalizasiyası. Zığ şosesində nəhəng yeraltı – unikal nasos stansiyası, Zığda təmizləyici qurğuların layihəsi; Azərbaycanın müxtəlif rayonlarında (Gəncə, Sabirabad və s.) keçmiş SSRİ-nin müxtəlif bölgələrində (Orta Asiya Respublikaları, Sibir, Başqırdıstan və s.) su və kanalizasiya qurğularının layihəsi.

"Sredazqriproselstroyindustriya" institutunun Bakı şöbəsində iştirak etdiyi müxtəlif sənaye bina və qurğularının layihəsi:

Bərdə və Yevlaxda dəmir-beton konstruksiyaları zavodu, 7 nömrəli Bakı dəmir-beton zavodu, Gəncədə silikatbeton kontruksiyalar zavodu, Azərbaycanın rayonlarında və SSRİ məkanında kərpic zavodları, tikinti bazaları, böyük əhəng və sement anbarları, müxtəlif təyinatlı avtomobil qarajları və s.

"Bakımənzilkommunlayihə" İnstitutunda bilavasitə rəhbərliyi altında layihələndirilmiş müxtəlif sənaye və tikinti –istehsalat bazaları:

Fərdi layihələrdən "Bibi Heybət məscidi kompleksi", "Yaşıl Tetatr" kompleksi, "Şəhidlər Xiyabanı" kompleksi, "Fəxri Xiyaban", H.Əliyev adına sarayın qarşısındakı heykəl-park kompleksi, "Üns" teatrı, Dənizkənarı bulvarda fontan-park kompleksləri, "Alovfontan" park kompleksi, "Koroğlunun abidə" kompleksi, 2000-ci il zəlzələsindən zərər çəkmiş "unikal" binaların bərpası ("Hacınski"nin evi və s.), məktəb və xəstəxana binaları, çoxmərtəbəli yaşayış binaları və s.

C.Ə. Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 aprel 2012-ci il tarixli Sərəncamı ilə respublikanın inşaat sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

O, bu mükafatı ölkənin layihə-tikinti yönümündəki çoxillik fəaliyyətinə verilən yüksək qiymət kimi qəbul edir və bundan sonra da öz sahəsində dövlətimizə təmənnasız xidmət etmək arzusundadır.



Quliyev
Əliməmməd
İslam oğlu

1952-ci ilin 11 sentyabrında Masallı rayonunun Böyük Xocavər kəndində anadan olub. Orta məktəbi başa vurduqdan sonra Bakıya gəlmiş, 1967-1971-ci illərdə Bakı Politexnik Texnikumunda təhsil alıb sənaye və mülki tikinti üzrə inşaatçı-texnik ixtisasına yiyələnmişdir. Texnikumdan birbaşa təyinatla Moskva şəhərinə göndərilmişdir. 1971-1973-cü illərdə Moskvanın Koşirak şəhərindəki Dövlət Elektrik Stansiyasının 4 nömrəli tikinti idarəsində müxtəlif vəzifələrdə işləmişdir.

Ə.İ. Quliyev Moskva inşaatçılarının dəyərli təcrübələrindən bəhrələnərək 1973-cü ildə Azərbaycana qayıdır. Əvvəlcə Masallı rayonundakı "Sovet Azərbaycanı" sovxozunda fəhlə işləyir. Onu Bakıya-Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin 8 nömrəli tikinti trestinin 85 nömrəli tikinti idarəsinə işə dəvət edirlər. 1973-1989-cu illərdə bu idarədə rəngsaz, tikinti ustası, iş icraçısı, baş iş icraçısı vəzifələrində çalışmışdır.

1982-ci ildə İnşaat Mühəndisləri İnstitutunun qiyabi şöbəsinə daxil olmuş, istehsalatdan ayrılmadan institutu 1987-ci ildə bitirərək sənaye və mülki tikinti üzrə mühəndis diplomunu almışdır. O, 1982-1989-cu illərdə 8 nömrəli tikinti trestinin 85 nömrəli tikinti idarəsinin rəisi kimi fəaliyyət göstərmişdir.

Respublika rəhbərliyi 1989-cu ildə onu xarici ölkəyə köməyə - Macarıstan Xalq Respublikasına göndərir.

Ə.İ. Quliyev Macarıstan Xalq Respublikasında ilk azərbaycanlı mütəxəssis kimi tikinti idarəsinin rəisi vəzifəsinə təyin olunur. Monqolustanın Erqnət şəhərində Rusiya cənub tikintisi idarəsinə düz iki il yarım rəhbərlik edir. Onun rəhbərliyi altında dost ölkədə neçə-neçə yaraşıqlı evlər, metallurgiya kombinatı, bir neçə zavod, fabrik, konsulluq üçün inzibati bina tikilir. Elə oradaca qabiliyyət və bacarığını nəzərə alıb Ə.İ. Quliyevi daha böyük bir vəzifəyə - Rusiya Cənub Tikintisi üzrə Tikinti Tamamlama Trestinin müdiri vəzifəsinə irəli çəkirlər. O, bu vəzifədə də göstərilən etimadı, səmərəli fəaliyyəti, qabiliyyət, bilik və bacarığı ilə doğruldur, dəfələrlə tərifnamələr, fəxri fərmanlar alır.

Ə.İ. Quliyev Azərbaycana qayıtdıqdan sonra bir müddət Azərbaycan Respublikası Kurortlar Şurasının "Azərkurorttəmirtikinti" Birliyində baş direktorun təchizat və nəqliyyat üzrə müavini vəzifəsində çalışır (1991-1994-cü illər). O, 1994-cü ildə yenidən doğma kollektivə - Sənaye Tikintisi Dövlət Şirkətinin (əvvəlki sənaye Tikintisi Nazirliyi) 8 nömrəli Tikinti Trestinə qayıdır. O, əvvəlcə trestin iqtisadiyyat üzrə müdir müavini işləyir. Az sonra 7 nömrəli tikinti trestinin 71 nömrəli tikinti idarəsinə başçılıq edir.

1995-ci ildən "Cənubsənayetikinti" Birliyinin 1 nömrəli tikinti idarəsinə köçürülür. 1997-ci sonunda 1 nömrəli tikinti idarəsi özəlləşdirilmiş, onun bazasında "İnşaatçı" firması yaradılmışdır. Firma yaranan gündən Ə.İ. Quliyev bu müəssisəsinin direktoru seçilmiş və indi də bu vəzifədə çalışır.

Aşağıdakı obyektlərdə dəyərli əl izləri qoymuşdur: Ovçular evi, Fizika İnstitutunun binası, Bakı Elektrik Avadanlıqları Zavodu, Botanika İnstitutu və s.



Quliyev
Əsgər
Məhəmməd oğlu

1936-cı ildə Tovuz rayonunda zəhmətkeş bir ailədə anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1961-ci ildə institutu uğurla bitirib, ali təhsilli inşaatçı-mühəndis kimi gənclik şəhəri Sumqayıtın tikinti meydançalarında əmək fəaliyyətinə başlamışdır.

Ə.M. Quliyev Sumqayıtda Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin 1 nömrəli tikinti trestinin inşa etdiyi kimya sənayesi obyektlərində, təzə salınan mikrorayonlarda, yaşayış evləri, inzibati binalar və uşaq bağçalarının tikintisində 10 ilə yaxın bir müddətdə iş ustası, iş icraçısı, sahə rəisi, baş mühəndis, idarə müdiri kimi çox məsul vəzifələrdə çalışmışdır. Bacarığı və səriştəsi ilə həmkarları arasında seçilmişdir.

O, ötən əsrin 70-ci illərinin əvvəllərindən həyatını Azərbaycan Baş Meliorasiya və Su Qurğuları Tikintisinə bağlamışdır. Əvvəlcə Baş İdarənin Sabirabaddakı İstehsalat bazasının tikintisinə rəhbərlik etmiş və çox qısa vaxtda burada dəmir-beton məmulatı istehsal edə bilən nəhəng zavod kompleksi tikilmiş və müəssisəyə özü rəhbərlik etmişdir. Bacarığını, işgüzarlığını nəzərə alıb onu daha böyük bir müəssisəyə - Ceyranbatan Ağac Emalı Zavoduna direktor vəzifəsinə köçürmüşlər. 1980-ci ildən isə Baş İdarənin Tikinti Materialları Sənayesi Trestinin müdiri olmuşdur.

Ə.M. Quliyevin başçılıq etdiyi kollektiv Baş Mil kanalı, Viləşçay su qovşağı, Köndələnçay su anbarı, Xanbulaqçay su dəryaçası kimi çox mühüm obyektlərin inşaat materialları ilə təchizatında fərqlənmişdir. Respublikanın rayonlarında aparılan kompleks meliorasiya işlərinin rəvan getməsində, Füzuli, Beyləqan, Şəki, Qazax, Kürdəmir, Ceyranbatan, Bəhramtəpə, Masallı, Neftçala, Zəngilan, Bərdə, Salyan, Şəmkir və digər rayonlarda "Meliorator" qəsəbələrinin salınmasında onun böyük zəhmət payı vardır. İstehsalatda, xüsusi ilə inşaat materialları istehsal edən müəssisələrdə Ə.M. Quliyevin irəli sürdüyü onlarca səmərələşdirici təkliflər həyata keçirilmiş və dövlətə milyonlarla manat xeyir vermişdir.


Uğurlu işinə, səriştəli rəhbər işçi olmasına görə dəfələrlə Baş İdarənin, Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin saysız-hesabsız fəxri fərmanları ilə mükafatlandırılmışdır. Hal-hazırda təqaüddədir.



Quliyev
Həsən
Pirqulu oğlu

1949-cu ilin mart ayının 6-da Ordubad rayonunun Yuxarı Əylis kəndində qulluqçu ailəsində anadan olmuşdur. Kənddəki 8 illik natamam orta məktəbi bitirdikdən sonra təhsilini Ordubad şəhərindəki 1 nömrəli orta məktəbdə davam etdirmiş və 1966-cı ildə həmin məktəbi bitirmişdir. 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin axşam şöbəsinə daxil olmuş və istehsalatdan ayrılmadan ali təhsil almış, inşaatçı mühəndis ixtisasına yiyələnmişdir (1972-ci il).

H.P. Quliyev 1967-1969-cu illərdə Azərbaycan Dəmiryol İdarəsində fəhlə, yükləyici, çilingər və s. vəzifələrdə işləmişdir. 1969-cu ilin avqust ayından Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi sisteminə işə götürülmüş və nazirliyin süni mayalanma stansiyasında əvvəlcə təsərrüfat müdiri, sonra isə böyük inşaat texniki vəzifəsində fəaliyyət göstərmişdir. Ali məktəbi bitirdikdən sonra (1972-ci il) sovet ordusu sıralarında bir il xidmət etmişdir. Ordu sırasından tərxis olunduqdan sonra öz əvvəlki iş yerinə qayıtmışdır. Onu tezliklə nazirliyin kolxoz tikinti şöbəsinə böyük mühəndis təyin etmişlər. Nazirlikdə kolxozlararası tikinti idarəsi təşkil olunanda onu bu idarəyə rəis vəzifəsinə irəli çəkmişlər. 1986-cı ildə respublikada Aqrar-Sənaye Komitəsinin yaradılması ilə əlaqədar Baş Əsaslı Tikinti İdarəsinin sərəncamına köçürülmüş və buradakı kolxoz tikinti şöbəsinə rəhbərlik etmişdir. Az sonra Azərbaycan SSR Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Baş Əsaslı Tikinti İdarəsinin sərəncamına köçrülmüş və buradakl kolxoz tikinti şöbəsinə rəhbərlik etmişdir. Az sonra Azərbaycan SSR Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Baş Əsaslı Tikinti, Meliorasiya və Su Tikinti İdrəsinin şöbə rəisi vəzifəsində çalışmışdır. Respublikanın kolxoz və sovxozlarında tikilib istismara buraxılmış 500-dən çox süd-əmtəə fermasında və buzov damında, 524 mexanikləşdirilmiş tövlədə, 6 süd zavodunda, 8 pendir-yağ zavodunda, müxtəlif təmayüllü 12 kombinatda, 30-dan çox məktəb, 16 uşaq bağçasında, 8 quşçuluq broyler fabrikində, saysız-hesabsız kənd təsərrüfatı obyektlərində əl izləri vardır. Səmərəli əməyi və qüsursuz işinə görə dəfələrlə komitə, birlik və nazirliklərdən tərifnamələr, fəxri fərmanlar və mükafatlar almışdır. Bir neçə ildir ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təmir-tikint sektorunun müdiridir.



Quliyev
Kamil
Əli oğlu


1946-cı il sentyabrın 18-də Şərur rayonunun Qorçulu kəndində kolxozçu ailəsində anadan olub. 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmiş, təyinatla Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin normalaşdırma stansiyasında əmək fəaliyyətinə başlamışdır. Altı ay sonra onu Bakı Baş Tikinti İdarəsinin 28 nömrəli tikinti idarəsinə dəvət etmişlər. Bu idarədə iş ustası işləyir, az sonra o, Sovet Ordusu sıralarına çağrılmışdır. İki il Ukraynada hərbi hissədə xidmət edir, zabit-inşaatçı kimi hərbi hissə komandirinin tikinti və iqtisadiyyat üzrə müavini işləyir və zəhməti sayəsində çoxlu tərifnamələr, mükafatlar alır.

K.Ə. Quliyev ordu sıralarından tərxis olunduqdan sonra yenidən əvvəlki iş yerinə-28 nömrəli tikinti idarəsinə qayıdır. İstehsalatdakı uğurları, mühəndislik bacarığı, işgüzarlığı nəticəsində vəzifələr özü onu tapır. 11 nömrəli ictimai-mədəni tikinti trestində əmək haqqı üzrə mühəndis, terstin 7 nömrəli tikinti idarəsinin iş icraçısı, baş iş icraçısı, 9 nömrəli tikinti idarəsində baş mühəndis, trestin baş mühəndisi və müdiri, 7 nömrəli tikinti idarəsində rəis və s. məsul vəzifələrdə işləyir.

K.Ə. Quliyev 1993-cü ildə Bakı Baş Tikinti İdarəsində rəisin birinci müavini vəzifəsinə təyin edilir. Az sonra onu Baş İdarənin rəisi vəzifəsinə irəli çəkirlər. Bu vəzifədə də özünü doğrultdur. Sonra "Bakıyoltikinti" İstehsalat Birliyinə rəis göndərirlər. 1997-ci ildən yenidən Bakı Baş Tikinti İdarəsinə rəhbərliyi ona etibar edirlər. Respublikamızın paytaxtının böyüməsi, gözəlləşməsi və inkişafında əl izləri daha çoxdur. Bakıxanov qəsəbəsindəki Doğum evində, Mərdəkandakı 26 nömrəli xəstəxanada, Naxçıvanski adına məktəbdə, Göz xəstəxanasında, Gülüstan Sarayında, Dövlət Sirkinin binasında, Xoreoqrafiya məktəbində, Milli Məclisin əzəmətli binasında, Əhmədli, Günəşli və 8-ci Kilometr yaşayış məntəqələrindəki yaşayış evlərində, Bakı və onun ətrafında tikilmiş bütün ATS-lərdə,

neçə-neçə uşaq bağçasında, ümumtəhsil məktəblərinin binalarında əl izləri vardır. Əksər obyektlərin tikintisinə bilavasitə rəhbərlik etməklə yanaşı, həm də səmərəli təlifləri ilə də fərqlənmişdir: məsələn, Göz xəstəxanasının tikintisində layihəçilər nədənsə qrunt sularının çox hündürdə olmasını nəzərə almamışdılar. Konfrans zalındakı örtüklər və eyvanlar monolit variantda nəzərdə tutulmuşdu. K.Ə. Quliyev təklif vermişdi ki, monolit variantı yığma varianta keçirilsin. Bunun üçün Baş İdarənin özünün müəssisəsinə də sifariş verildi. Örtüyün dəyişdirilməsi, eyvanların yığma variantda inşası işi xeyli irəli saldı və çoxlu gəlir əldə edildi. Layihəyə görə Binədəki ATS binasını 4 mərtəbəli tikməli idilər. K.Ə. Quliyev təklif vermişdi ki, binanı 2 mərtəbəli tiksinlər. Belə də etmişlər və nəzərdə tutulan 10 min nömrəlik 2 mərtəbəli ATS binası tikilmiş və nəticədə o vaxtkı pulla 382 min manat gəlir götürülmüşdür.

K.Ə. Quliyev həm də xeyirxah insandır. Dara düşənlərə əl tutmaq, ehtiyacı olanlara maddi kömək göstərmək, yaşlı adamlara qayğı ilə yanaşmaq ona xas olan keyfiyyətdir. Müharibə dövründə, qıtlıq və bahalığın hökm sürdüyü bir vaxtda insanlara, şəhid ailələrinə, doğulduğu kəndin camaatına imkanı daxilində kömək göstərmiş və bu gün də kömək götərir.



Quliyev
Mahir
Yadigar oğlu

9 mart 1957-ci ildə Beyləqanda anadan olmuşdur. 1974-cü ildə orta məktəbi bitirib həmin ildə də Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki tikintisi fakültəsinə daxil olmuşdur. İlk əmək fəaliyyətinə Sənaye Tikintisi Nazirliyinin Qırmızı Əmək bayrağı ordeni 4 saylı tikinti trestinin 41 saylı tikinti idarəsində başlamışdır. (1974).

O, 1975-1977-ci illərdə sovet ordusunda xidmət etmişdir. Ordudan qayıdandan sonra Bakıdakı 43 saylı tikinti idarəsinə işə başlamışdır. 1983-85-ci illərdə iş icraçısı, 1985-1987-ci illərdə baş iş icraçısı, 1987-1989-cu illərdə baş mühəndis işləmişdir. 2003-cü ildən "M-İnşaatçı" LTD MMC-nin direktorudur.

M. Y. Quliyevin 4 saylı Dəmir Beton zavodunun yenidən qurulmasında, Suraxanı Maşınqayırma zavodunun tikintisində, Opera və Balet tetatrı binasının yenidən qurulmasında, "Ulduz" zavodunun, "Neftyağ" zavodunun, Mebel fabrikinin tikintilərində əl izləri vardır. Son illərdə ölkənin işğal olunmuş ərazilərində və sərhəd bölgəsində ərazilərin minalardan təmizlənməsi üzrə Milli Agentliyin ("ANAMA") sifarişi ilə Füzuli, Tərtər, Ağstafa, Göygöl, Ağdam rayonlarında minaaxtaranlar üçün infrastrukturların tikintisinə rəhbərlik etmiş və bu gün də rəhbərlik edir.

Bundan başqa Mahir Quliyevin rəhbərliyi altında ANAMA-nın sifarişi ilə minaaxtaranlar üçün təlim-tədris bazasının tikintisi çox yüksək keyfiyyətlə həyata keçirilmişdir.

Həmçinin M. Y. Quliyev özəl tikinti təşkilatının rəhbəri olaraq paytaxtın Abşeron rayonu ərazisində "Mitsubişi", "Mazda", "Suvari" və "Honda" avtomobilləri üçün satış mərkəzlərinin tikintisini həyata keçirmişdir.

M. Y. Quliyev 2009-2011-ci illərdə isə "Dəvəçi-Broyler" ASC-nin yenidənqurulması işlərinə rəhbərlik etmişdir. Hazırda isə ANAMA-nın sifarişi ilə Göygöl rayonunda minaxtaranlar üçün yeni inzibati binanın tikintisini aparır.

M. Y. Quliyev ailəlidir, üç qızı, bir oğlu var. Böyük qızı ali təhsilli həkimdir, kiçik qızı isə AzİMU-nun memarlıq fakültəsinin tələbəsidir.

M. Y. Quliyevin tikinti yönümündəki çox illik fəaliyyəti zamanı hər zaman müdiriyyətin etimadını doğrultmuş, əməyi rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.



Quliyev
Saday
Əsəd oğlu

28 oktyabr 1934-cü ildə Beyləqan rayonunda anadan olmuş, 1954-cü ildə orta məktəbi, 1959-cu ildə isə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir. 1959-1961-ci illərdə "Azərşərab" tikinti trestinin Beyləqandakı 2 nömrəli ixtisaslaşdırılmış tikinti idarəsində usta, iş icraçısı, tikinti istehsalat şöbəsinin rəisi işləmişdir.

S.Ə. Quliyev 1961-1963-cü illərdə Kür Araz Su Qurğuları Tikinti Baş İdarəsinin Beyləqan rayonundakı 9 nömrəli tikinti idarəsində baş iş icraçısı, 1963-1965-ci illərdə həmin Baş İdarənin İmişlidəki 10 nömrəli tikinti idarəsində baş mühəndis, 1965-1966-cı illərdə Cəlilabaddakı 7 nömrəli tikinti idarəsində rəis vəzifələrində çalışmışdır. 1967-ci ildə yenidən İmişli rayonuna köçürülmüş və bir vaxtlar baş mühəndis kimi işlədiyi 10 nömrəli tikinti idarəsində rəis kimi fəaliyyət göstərmişdir.

S.Ə. Quliyev 1970-ci ildə "Milsukanaltikinti" tresti yarananda bu trestə müdir vəzifəsinə köçürülmüş və 1977-ci ilə qədər bu vəzifədə işləmişdir. 1977-ci ildə Meliorasiya və Su Təsərrüfatı Nazirliyi sisteminə köçürülərək bu nazirliyin Beyləqandakı bölməsində rəis vəzifəsində çalışmışdır. 1979-1985-ci illərdə Kənd Tikintisi Nazirliyinin Bərdədəki 4 nömrəli tikinti trestinə rəhbərlik etmişdir.

S.Ə. Quliyev 1985-ci ildə Bakıya dəvət olunmuş və "Azərbaşmelisutikinti" İdarəsində rəis müavini vəzifəsinə irəli çəkilmişdir. 1997-ci ilin sonuna kimi baş idarə rəisinin birinci müavini işləmiş, 1997-ci ilin sonundan 2007-ci ilədək həmin baş idarənin sələfi olan "Azərsutikinti" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini olmuş və bu vəzifədən təqaüdə çıxmışdır.

S.Ə. Quliyevin rəhbərliyi altında respublikanın böyük bir hissəsində tikinti-quraşdırma işləri aparılmış, Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Beyləqan, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın rayonlarındakı torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılması, yeni suvarılan torpaqların istifadəyə verilməsi, suvarma kanalların çəkilməsi, kollektor sistemlərinin yaradılması təmin edilmişdir. Onun şəxsi rəhbərliyi altında Baş Mil Kanalı çəkilmiş, Beyləqan, İmişli, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında "Meliorator" qəsəbələri salınmış, Yevlax, Kəlbəcər, Bərdə, Ağdam, Laçın, Ağcabədi, Sabirabad, Tərtər rayonlarında xəstəxana kompleksləri, taxıl kombinatı, çoxlu yaşayış evləri, məktəb və uşaq bağçaları tikilmişdir. Bakı şəhərində vaxtından qabaq inşa edilib istismara buraxılmış Ana və uşaq sağlamlıq mərkəzi, Əhmədli qəsəbəsində 240 çarpayılıq xəstəxana, 60 mənzilli yaşayış evi, Ceyranbatandakı sosial-mədəni obyektlər və istehsalat bazaları kimi vacib tikililərdə onun böyük əməyi vardır. Vicdanlı işinə, fəda-

kar əməyinə, pak və təmiz niyyətinə, qaçqın və köçkünlərə xüsusi qayğısı, kadrlara xoş münasibəti və s. nəticəsidir ki, "Rəşadətli əməyə görə" medalı, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuş və bir neçə çağırış kənd, rayon, şəhər sovetlərinə deputat seçilmişdir.



Quliyev
Sərdar
Əsəd oğlu

11 mart 1956-cı ildə Beyləqan rayonunda anadan olmuşdur. Beyləqan rayonundakı 1 nömrəli orta məktəbi bitirdikdən sonra (1966-cı il) Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1972-ci ildə oranı uğurla bitirmişdir. Ali məktəbdə təhsil aldığı illərdə və institututu bitirdikdən bir müddət sonra "Azərbaşmeliosutikinti" İdarəsində müxtəlif vəzifələrdə işləmişdir (1969-1979-cu illər).

S.Ə. Quliyev 1979-1999-cu illərdə həyatını kolxoz tikintisinə bağlamış, Beyləqan rayon kolxozlararası tikinti idarəsində rəis, trestin baş mühəndisi vəzifələrində çalışmışdır. 1999-2004-cü illərdə Sumqayıt Sintetik Kauçuk zavodunda tikinti-quraşdırma işləri üzrə müavin işləmişdir. 2004-cü ildən "Respublika" Bankında departament müdiridir.

S.Ə. Quliyev Beyləqan, Füzuli, Ağcabədi rayonlarında aparılan kompleks meliorasiya işlərində, Baş Mil Kanalının çəkilişində, açıq və qapalı drenlərin çəkilişində, melioratorlar üçün 2 qəsəbənin salınmasında, Daşburun pambıq zavodunun, 4 məktəb, 2 uşaq bağçası, 8 inzibati bina, 80 tarla düşərgəsi və s. obyektlərin tikintisində əl izləri qoymuşdur.

İrili-xırdalı 15-dək səmərəli təkliflərin həyata keçirilməsi nəticəsində dövlətə xeyli xeyir vermişdir. Baş İdarə, Komitə, Birlik, Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən fəxri fərmanlar, təriflənamələr, pul mükafatları almış, qəsəbə sovetinə deputat seçilmişdir.

Onun əməyi hər zaman çalışdığı kollektivlərin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.



Qurbanov
Calal
Bilal oğlu

1935-ci ilin mart ayının 1-də Bərdə rayonunun Maçadırlı kəndində kəndli ailəsində anadan olmuşdur. 1952-ci ildə Bərdə şəhərindəki orta məktəbi əla qiymətlərlə bitirmişdir. Elə həmin ildə də M. Əzizbəyov adına Azərbaycan Neft Sənaye İnstitutunun neft mexanikasi fakültəsinə daxil olmuş və 1957-ci ildə institutu qırmızı diplomla qurtarmışdır. Təyinatla o zamankı Artyom rayonuna (indiki Əzizbəyov rayonu) göndərilmişdir. İlk əmək fəaliyyətinə "Artyomneft" Mədənlər İdarəsində çilingər kimi başlamışdır. Üç il burada işləyə-işləyə, vəzifəsi də pillə-pillə artmışdır.

C.B. Qurbanov xəstələndiyi üçün Artyomdan Bakıdakı 7 nömrəli Dövlət Diyircəkli Yastıqlar zavoduna baş mühəndis-texnoloq vəzifəsinə köçürülür.

İki il sonra isə Bakıdakı 2 nömrəli Dəmir-Beton Məmulatı zavoduna köçürülür. Burada baş mexanik, zavod komsomol komitəsinin katibi, sahə rəisi, zavod partiya komitəsinin katibi vəzifələrində çalışır. Buradan isə "Xəzərdənizneftqazsualtıtikinti"nin tələbnaməsi əsasında ("Azərneqliyyatsualtıtikinti"nin tələbnaməsi əsasında) Mexanizasiya İdarəsinə rəis vəzifəsinə köçürülür. Onun rəhbərliyi altında Bakıda uca mərtəbəli və yaraşıqlı binalar, o cümlədən "İnturist" mehmanxanası, Mərkəzi Komitənin, Nazirlər Sovetinin yaraşıqlı binaları, Prezident Administrasiyasının binası, Dəniz Limanı, köhnə aeroportun binası və xeyli yaşayış evləri tikilib istifadəyə verilir. Bu böyük tikintilərlə yanaşı Zabrat-2, Pirşağı dəmiryolunun çəkilməsi, aeroport yolunun salınması, dənizdə özüllərin tikilməsi kimi obyektlərdə onun əl izləri vardır.

70-ci illərin ortalarında C.B. Qurbanovu Azərbaycan SSR Kənd Tikintisi Nazirliyi sisteminə dəvət edirlər. Bu nazirliyin Tikinti Mexanizasiyası Trestinə bacarıqla rəhbərlik edir, respublikanın müxtəlif rayonlarında inşa edilən 50-dən çox şərab zavodunda, 4 dəyirman kombinatda, 1500 min kv. metr yaşayış evində, 34 məktəb və 1 uşaq bağçasında, 6 quşçuluq fabriki və s. vacib obyektlərdə var qüvvəsi ilə çalışır



Prezident Adminstrasiyasının inzibati binası

C.B. Qurbanov 1983-cü ildə Xətai rayon XDS İcraiyyə Komitəsinin sədri vəzifəsinə seçilir və 1990-cı ilədək bu vəzifədə işləyir. Həmin illərdə Əhmədli və Günəşli yaşayış məntəqələrində tikinti və abadlıq, quruculuq işlərinə daha çox diqqət verilmiş və sanballı işlər görülmüşdür.

C.B. Qurbanov SSRİ adlı ölkə dağıldıqdan sonra yenidən tikintiyə - Bakı Baş Tikinti idarəsinə qayıtmış, inşaatçı mühəndis kimi çox məsul və rəhbər vəzifələrdə işləmişdir. 10 ildən artıqdır ki, Bakı Tikinti və Şəhərin İnkişafı Şirkətində baş direktorun birinci müavini vəzifəsində çalışır.

O, səmərəli əmək fəaliyyətinə görə bir neçə orden və medallarla təltif olunmuş, Hacı Zeynəlabdin Taqğıyev adına diploma, fəxri fərmanlara layiq görülmüşdür. İki dəfə Nizami rayon, 3 dəfə Bakı şəhər Sovetinə və bir dəfə Azərbaycan SSR Ali Sovetinə (1990) deputat seçilmişdir.



Qurbanov
Cavid
Qəmbər oğlu

1958-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Ağdaban kəndində anadan olmuşdur.

1975-ci ildə Kəlbəcər rayon orta məktəbini bitirdikdən sonra 1975-1976-cı illərdə Kəlbəcər şəhərində elektroenergetika sahəsində çalışmışdır.

1977-ci ildə Azərbaycan Inşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur.

1977-1979-cu illərdə ordu sıralarında xidmət etdikdən sonra 1979-cu ildə 26 Bakı Komissarları nəşriyyatında kuryer vəzifəsi ilə əmək fəaliyyətinə yenidən başlamışdır.

1980-1981-ci illərdə "Azəryollayihə" Layihə Institutunda texnik-cizgiçi, 1982-1987-ci illlərdə "Azərnəqliyyattikinti" Trestinin avtobazasında mexanik, baş mexanik, rəis müavini vəzifələrində çalışmışdır.

C. Q. Qurbanov 1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.

O, 1987-1992-ci "Elektromexanizasiya" Trestinin 4 saylı Avtonəqliyyat Kontorunda direktor, 1992-1993-cü illərdə Respublika İxtisaslaşdırılmış "Avtonəqliyyat" Birliyində baş direktor, 1993-1994-cü illərdə "Azəravtoyol" Dövlət Şirkətində Prezident vəzifəsində işləmişdir.

C. Q. Qurbanov daha sonra 1995-ci ildə "Azərərzaqnəqliyyat" Birliyində direktor, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Dəmiryolu İdarəsinin Təchizat şöbəsində rəis, 1997-2001-ci illərdə "Azərdəmiryolservis" İstehsalat Birliyində rəis kimi çalışmışdır.

O, 2003-cü ildən "Yolnəqliyyatservis" Departamentinin rəisi, 2004-cü ildən Nəqliyyat Nazirliyi "Yolnəqliyyatservis" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəisi vəzifələrində çalışmışdır.

2007-ci ilin fevral ayından "Yolnəqliyyatservis" Departamentinin "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti olması ilə əlaqədar olaraq, "Azəryolservis" ASC-nin sədridir, texniki elmlər namizədidir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

İki övladı var.



Cavid Qurbanovun rəhbərliyi altında "Azəryolservis" ASC inşaatçılarının tikdikləri yol ötürücüsündən bir görüntü





Bu rahat və yaraşıqlı yollar "Azəryolservis" ASC inşaatçılarının əməyi ilə hasilə gəlib



Qurbanov
Vaqif
Ağayar oğlu

25 mart 1948-ci ildə Sabirabad rayonunun Xutor kəndində anadan olmuşdur. 1954-cü ildə həmin kənddə olan dörd illik məktəbə daxil olmuş, 1958-ci ildə isə Sabirabad rayonunun Qaratəpə (keçmiş Pakrovka) kənd 10 illik orta məktəbinə daxil olmuş, 1965-ci ildə həmin məktəbi bitirmişdir. 1965-ci ilin sentyabr ayından 1966-ci ilin iyul ayına kimi Sabirabad rayonunun Lenin adına kolxozunda işləmiş, 1966-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin "Sənaye və mülki tikinti" şöbəsinə daxil olmuş və 1971-ci ildə həmin institutu bitirərək "inşaat mühəndisi" ixtisasını almışdır.

V.A. Qurbanov 1971-1972-ci illərdə 10 nömrəli Səyyar Mexanikləşdirmə Dəstəsində işləmiş, 1972-ci ilin fevral ayından may ayına kimi "Muğansutikinti" trestinin İstehsalat Texniki Komplektləşdirmə İdarəsində və 1972-ci ilin may ayından 1973-cü ilin yanvar ayına kimi həmin trestin Salyan şəhərində yerləşən 9 nömrəli SMD-də iş icraçısı vəzifəsində işləmişdir.

O, 1975-1976-cı illərdə həmin trestin 32 nömrəli SMD-də rəis, 1976-1977-ci illərdə 9 nömrəli SMD-də rəis, 1977-1980-ci illərdə 8 nömrəli SMD-nin rəisi və 1980-ci ilin yanvarından iyun ayına kimi "Muğansutikinti" trestində baş mühəndis vəzifəsində fəaliyyət göstərmişdir.

V.A. Qurbanov 1980-1984-cü illərdə "Cənubmüğansutikinti" tikinti-quraşdırma Baş idarəsində rəis, 1984-cü ilin fevral ayından hal hazıra kimi isə "Muğansutikinti" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışır.

Qeyd etmək lazımdır ki, 05 yanvar 2006-cı ildən 2010-cu ilin noyabr ayına kimi, o həm də "Azərsutikinti" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini vəzifəsində çalışmışdır.

Ölkə inşaat kompleksində işlədiyi bu 40 il ərzində Muğan-Salyan zonasının – Neftçala, Salyan, Cəlilabad, Biləsuvar, Saatlı, İmişli, Sabirabad, Şirvan və Hacıqabul rayonlarında xalq təsərrüfatının bütün sahələrində qarşıya qoyulmuş dövlət tikinti işlərinin istər keyfiyyət və istərsə də vaxtında istismara verilməsində bir inşaatçı-mühəndis rəhbər kimi özünü göstərmişdir.

O, bütün buraxılış obyektlərində var qüvvəsini sərf etmiş, heç də təsadüfü deyildi ki, "Azərsutikinti" ASC rəhbərliyi onun təcrübəsini və bacarağını nəzərə alaraq, həm də Cəmiyyətin sədr müavini vəzifəsinə təyin etmişdi.

V.A. Qurbanov bütün əmək fəaliyyəti dövründə uğurlar qazanmışdır. Rəhbərlik etdiyi bütün dövrlərdə qeyd edilən rayonların kənd təsərrüfatının inkişafı məqsədilə qarşıya qoyulmuş torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, əsaslı hamarlanması, su şəbəkələrinin yenidən qurulması, torpaqların şoran duzlardan təmizlənməsi, yeni suvarılan torpaqların istifadəyə verilməsi, sosial mədəni obyektlərin, sənaye obyektlərinin, istehsal bazalarının tikintisində həmişə tabeçilində olduğu baş idarənin ön sıralarında getmişdir.

V.A. Qurbanovun rəhbərliyi altında bu rayonlarda saysız-hesabsız inzibati binalar, yaşayış evləri, uşaq

baxçaları, banklar və məktəblər, on min hektarlarla torpaqlarda kompleks meliorasiya işləri görülmüşdür. O, 50-dən artıq səmərəli təkliflərin müəllifi olmuşdur və bunun nəticəsində tikintidə xeyli məbləğdə qənaət yaranmışdır.

Muğan-Salyan zonasının aqrar sənayenin tikintisinin inkişafında həyata keçirilən mühüm əhəmiyyətli islahatlarda yaxından fəaliyyət göstərmişdir.

Vaqif Qurbanov həm də xeyrixah insandır. Dara düşənlərə əl tutmaq, ehtiyacı olanlara maddi yardım göstərmək, cavanlara öyüd-nəsihət vermək, yaşlı adamlara qayğı ilə yanaşmaq ona xas olan keyfiyyətlərdəndir.

Vaqif müəllimin atası Ağayar Qurbanov torpaq, əkin biçin adamı idi və böyük ailə sahibi olmuşdur. O, 5 yaşında ikən valideynlərini itirmiş, böyuyəndə dərk etmişdi ki, özündən başqa arxası yoxdur, lakin gecəni-gündüzə qatib işləmiş, 15 yaşı olanda traktorun sükanı arxasında əyləşən ilk mexanizator olmuşdur və onun şanlı əmək yolu belə başlamışdır. 1960-1970-ci illərdə Ağayar Qurbanovun adı, işi, fəaliyyəti respublikada dərc edilən bütün qəzetlərin sevimli mövzusuna çevrilmişdi.

Təbiəti etibarilə hədsiz dərəcədə təvəzökar olan, aldığı məvacibə həmişə şükranlıq edən Ağayar Qurbanov nəyi vardısa özü qazanmışdı. Vəzifə, şan-şöhrət pilləsinə öz qa-



Vaqif Qurbanovun rəhbərliyi altında " Muğansutikinti" ASC kollektivinin inşa etdikləri hidrotexniki qurğulardan görüntülər

biliyyəti, fərasəti, tükənməz əzabkeşliyi sayəsində yüksəlmişdi.

Belə adamların gücünü, nəyə qadırliyini insan sərrafı olan Ulu öndərimiz Heydər Əliyev hamıdan yaxşı bilirdi. Ötən əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edən Heydər Əliyev hər il rayonlara çıxır, kənd təsərrüfatının işi ilə yaxından tanış olur, əhalinin dərd sərlərini öyrənir, ölkədə bolluq yaradılması yollarını birgə araşdırırdı. A. Qurbanovun briqadasına gələrkən Ümumilli lider onunla xeyli söhbət etmiş o, Ulu öndərə ilk dəfə hesabat vermiş, məhsul istehsalına dair 5 illik tapşırığa 3 ildə əməl edildiyini bildirmiş və hazırda növbəti beş illik uğrunda mübarizə apardığını demişdi.

Vaqif Qurbanov belə bir kişinin ocağında dünyaya gəlmiş və həyatda uğurlar qazanmışdır.

V. A. Qurbanov aqrar sənayenin inkişafında ləyaqətli əməyinə, tikinti kompleksindəki uğurlarına, mənalı keçən həyatına, qüsursuz və səmərəli əmək fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2011-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Cəmiyyətin sədri V. Qurbanovun rəhbərliyi dövründə vacib obyektlərdən – 1985-1991-ci illərdə üzümçülük bağlarının salınması məqsədi ilə Navahı üzümçülük sovxozunda (I, II, III növbə) və Pirsaat massivində geniş miqyaslı yeni suvarılan sahələr,









Bu meliorasiya və su qurğuları "Muğansutikinti" ASC inşaatçılarının gecəli-gündüzlü gərgin əməyinin bəhrəsidir.

1984-cü ildə tikintisinə başlanmış 271 min hektar su təminatını yaxşılaşdıran (kanalın su sərfi 72 kub.m/san) Baş Şirvan kollektorunun yenidən qurulması, Mil-Qarabağ kollektorunun Baş Mil-Muğan kollektoruna birləşdirilməsi, 1993-cü ildə xarici investisiya hesabına tikintisi aparılan obyektlərlə bərabər 1998-ci il daxil olmaqla Sabirabad, Saatlı, Salyan və Neftçala rayonlarının hər il bütün kolxoz və digər təsərrüfatlarında, habelə balıqçılıq obyektlərində tikinti-quraşdırma işlərinin aparılması, Azərbaycan Suvarma və drenaj infrastrukturlarının qurulması və yaxşılaşdırılması məqsədi ilə Xanarx kanalının tikilməsi, Konsersium üzvü kimi "Muğansutikinti" ASC Samur-Abşeron Magistral kanalının ilk 27 km-nin yenidən qurulması, Paket-3 obyektində tikinti-quraşdırma işlərini başa çatdırılmış və Xanarx kanalının II mərhələsinin 29,7 km tikinti obyektində irili-xırdalı 47 ədəd hidrotexniki qurğular tikilmiş, 2000-ci ilin mart ayında I növbə və 2006-cı ilin avqustunda II növbə başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin məcburi köçkünlərin problemlərini həll etmək məqsədilə imzaladığı 01 iyul 2004-cü il tarixli 298 saylı sərəncamına əsasən Cəbrayil və Zəngilan köçkünləri üçün (1858 ailə) Biləsuvar rayonu ərazisində ayrılmış əkin sahələrinin irriqasiya işləri yerinə yetirilmiş, irriqasiya işləri cəmi 2000 hk olmaqla 1589,55 hk suvarılan torpaq sahələri istismara verilmişdir.

Biləsuvar rayonu Çıraqlı kəndi ərazisində torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması ilə əlaqədar fermer və pay torpaqları olmaqla 400 hektar ərazidə meliorasiya işləri aparılmış, 10650 km su yığıcı kollektor yenidən qurulmuş, həmçinin bu drenlər üzərində 5 ədəd akveduk, 6 ədəd körpü tikilmişdir.

Fizuli rayonu ərazisində "Yuxarı Mil kanalının tikintisinin davam etdirilməsi layihəsinin tərkib hissəsi olan Qayıdış-2 qəsəbəsinin əhalisi üçün 137 hk sahəyə su verilməsi işləri aparılmışdır.

Respublika əhəmiyyətli tikinti işləri olan "Bəhrəmtəpə Baş Hidroqovşağının Bərpası və Müasirləşdirilməsi, "Cəlilabad rayonunda Göytəpə su anbarının tikintisinin davam etdirilməsi və suvarma-drenaj şəbəkəsinin bərpası", 681,34 hk ərazidə suvarma şəbəkələrinin yenidən qurulması işləri yerinə yetirilmişdir. Su mənbəyini Göytəpə su anbarından götürməklə 7140 pm metal boru kəmərinin tikilməsi, ümumi su tutumu 4,2 mln. kubmetr olan su anbarının bərpası, nasos stansiyasının yenidən qurulması, su qülləsinin yenidən tikintisi, qəza su tullayıcı, körpü tikintisi və onlarca irili-xırdalı qurgular bərpa edilərək obyekt 2009-cu ildə istismara verilmişdir.

Hazırda Vaqif Qurbanovun rəhbərliyi altında respublika büdcəsinin vəsaiti hesabına "Biləsuvar rayonunun sərhəd ərazilərində suyığıcı kollektorun tikilməsi və Əzizbəyov adına kollektorun yenidən qurulması", "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasının təmin edilməsi məqsədilə tədbirlərin görülməsi", "Neftçala Magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi", "Kür-Araz çayları boyunca mövcud mühafizə bəndlərinin möhkəmləndirilməsi və hündürləndirilməsi" obyektlərində meliorasiya işləri uğurla davam etdirilir.

L



Ləmbəranski
Əliş
Cəmil oğlu

10 mart 1914-cü ildə Bərdə rayonun Ləmbəran kəndində anadan olmuşdur. 1936-cı ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Bakının iri zavodlarında məsul və rəhbər vəzifələrdə işləmişdir. Böyük Vətən Müharibəsində iştirak etmiş, 1942-ci ildə ağır yaralanmış və ordudan tərxis olunmuşdur.

Ə.C. Ləmbəranski 1943-1947-ci illərdə "Bakı Neftayırma zavodları" trestinin müdiri, 1947-1950-ci illərdə Ə.Qarayev adına Neftayırma Zavodunda direktor, 1950-1959-cu illərdə "Azərbaycan Neftayırma zavodları" Birliyinin rəisi işləmişdir. 1954-cü ildə eyni zamanda Azərbaycan SSR Neft Sənayesi nazirinin müavini olmuşdur. 1959-1966-cı illərdə Bakı şəhər ZDS İcraiyyə Komitəsinin sədri olmuş, 1966-cı ildə SSRİ Nazirlər Soveti yanında Mikrobiologiya Sənayesi Baş İdarəsi rəisinin birinci müavini vəzifəsinə keçirilmişdir. 1970-ci ildə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin olunmuşdur. Bakıda Dənizkənarı Bulvarın abadlaşdırılması, yeni mikrorayonların salınması, neftayırma və maşınqayırma zavodlarının tikilməsi və yenidənqurulması, respublikanln şəhər və kəndlərində sosial-mədəni obyektlərin istehsalat bazalarının, kənd təsərrüfatı obyektlərinin tikilməsinə bilavasitə rəhbərlik etmiş, Musiqili Komediya Teatrının binasının yenidənqurulmasında fəal iştirak etmişdir.

Ə.C. Ləmbəranski III, V, VI, VIII, X çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Azərbaycan KP XXX qurultayında MK-ya üzv seçilmişdir. 2 dəfə "Lenin", "Oktyabr İnqilabı", 3 dəfə "Qırmızı Əmək Bayrağı", "2-ci dərəcəli Vətən müharibəsi", "Xalqlar Dostluğu" ordenləri və medallarla təltif olunmuş, 1978-ci ildə isə SSRİ Nazirlər Soveti Mükafatı Laureatı adını almışdır.

M



Maxsudov
Maxsudəli
Abbas oğlu

15 aprel 1941-ci ildə Azərbaycan Respublikası İmişli rayonunun Bəcrəvan kəndində zəhmətkeş ailəsində anadan olub. 1948-1958-ci illərdə Bəcrəvan kənd məktəbində orta təhsil alıb. O, 6 ay Bəcrəvan kəndindəki "Nizami" adına kolxozda işlədikdən sonra Azərbaycan Politexnik İnstitutunun hazırlıq kursuna qəbul olunur və elə həmin ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin sənaye və mülki tikinti şöbəsinə qəbul olunmuş və 1964-cü ildə oranı inşaat mühəndisi ixtisası üzrə bitirmişdir.

O, 1965-ci ilin fevralından 1982-ci ilin avqustunadək Sənaye Tikinti Nazirliyinin 1 nömrəli trestinin müxtəlif tikinti idarələrində usta vəzifəsindən başlayaraq iş icraçısı, böyük iş icraçısı və baş mühəndis vəzifələrində çalışmışdır.

M.A. Maxsudov daha sonra 1 nömrəli trestin baş mühəndisi (1982-1984-cü illər), 1 nömrəli trestin müdiri (1984-1995-ci illər), "Sumqayıtsənaycmülkitikinti" Birliyinin rəisi (1995-1996-cı illər), "Sumqayıtsənayemülkütikinti" icarə törəmə müəssisəsinin baş direktoru (1996-1999-cu illər) və "Azərsənayetikinti" Səhmdar Cəmiyyətinin 1 saylı müəssisəsinin rəisi (1999-2002-ci illər) vəzifələrində çalışıb.

Maxsudəli Maxsudov 2002-ci ilin mart ayından Dövlət Tikinti və Arxitektura Komitəsinin Baş Dövlət Texniki İnventarlaşdırma, Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Şəhərsalma Kadastrı İdarəsinin rəisi vəzifəsinə təyin olunmuş və 2005-ci ilin noyabrında struktur dəyişikliyi nəticəsində idarənin ləğv olunması ilə əlaqədar işdən azad olunmuşdur.

M.A. Maxsudov 2005-ci ilin noyabrından 2008-ci ilə kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş, tikinti yönümündə çalışmışdır.

2008-ci ilin iyunun 11-dən isə o, Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Şəhərsalma Kadastrı şöbəsinin müdiri vəzifəsinə təyin olunmuş və 2011-ci ilə kimi bu vəzifədə çalışmışdır.

Maxsudəli Maxsudovun əmək bioqrafiyasının 1965-1999-cu illər arasındakı 35 ili Sumqayıt şəhəri, Sumqayıt tikintiləri ilə bağlıdır. Bu illərdə o, Sumqayıt şəhərinin tikilib böyüməsində, sənaye komplekslərinin, sosial-mədəni obyektlərin tikintisində böyük əmək sərf etmişdir. Maxsudəli müəllim tikintsini

apardığı yüzlərlə obyektlərlə, yaşayış evləri ilə minlərlə sumqayıtlıya mənzil sevinci bəxş etmiş, Sumqayıt şəhər sakinlərinin xoş gün-güzəranı üçün çalışmışdır.

M.A. Maxsudov Sumqayıt şəhər XDS İcraiyyə Komitəsinin 2 çağırış deputatı olmuş, "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuş və Azərbaycan Respublikasının "Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür.

M.A. Maxsudov bu gün Sumqayıtda hara getsə orda öz izini, tikdiyi obyektləri görür və keçdiyi ömür yolundan qürur duyur.

Maxsudəli müəllim milli ruha sahib əsl Azərbaycan ziyalısıdır, xalqını sevən və onun xoşbəxtliyi üçün vətəndaş yanğısı ilə çalışan insandır, rəhbər işçidir.

M.A. Maxsudov həm də nümunəvi ailə başçısıdır. Sevilən ata və babadır. Onun 4 övladı-iki qızı, iki oğlu var, hamısı ali təhsil alıb, ailəlidirlər. 7 nəvəsi var.

M.A. Maxsudov bu gün özəl sektorda tikinti yönümündə fəaliyyətini davam etdirir və hündür mərtəbəli yaşayış evlərinin tikintisini həyata keçirir. Əminik ki, o bu işində də xalqımıza, dövlətimizə təmənnasız xidmət göstərəcək, adını ölkə tikinti kompleksinin tarixinə əbədi həkk edəcəkdir.



Məlikov
Akif
Allahverdi oglu

1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsini bitirmişdir (1961-ci il). Əmək fəaliyyətinə Sumqayıtın tikinti meydançalarında usta kimi başlamışdır. Sonra 73 nömrəli tikinti idarəsində rəis işləmişdir. 1973-1977-ci illərdə Sumqayıtdakı 2 nömrəli trestdə texniki istehsalat şöbəsinin rəisi, 1977-1981-ci illərdə Monqolustan Xalq Respublikasının Darxan şəhərindəki 1 nömrəli tikinti trestində labaratoriya rəisi işləmişdir. 1981-1987-ci illərdə 2 nömrəli tikinti trestində texniki istehsalat şöbəsinin rəisi, 1987-1989-cu illərdə Sumqayıtdakı Evtikmə Kombinatında baş mühəndis kimi fəaliyyət göstərmişdir.

A.A. Məlikiov 1989-cu ildən bu günədək "Azərsənayetikinti" Səhmdar Cəmiyyətində texnika və layihələrin qiymətləndirilməsi şöbəsinə rəhbərlik edir. Tikintidə işlədiyi dövrlərdə onun rəhbərliyi altında xeyli sayda dövlət əhəmiyyətli obyektlər tikilib istifadəyə verilmişdir. Bir sıra mühüm və vacib obyektlər inşa olunub istismara buraxılmışdır: Hövsan təmizləyici qurğuları, Bakıda hündürlüyü 310 metr olan teleqüllə-radio-televiziya ötürücü stansiyası, Sanqaçal neft terminalı, nasos stansiyaları, Bakı-Tbilisi-Ceyhan neft kəməri boyunca respublika ərazisində II məntəqədə siqnal qəbuledici stansiyalar, Suraxanı rayonunda 1296 şagird yerlik məktəb binası və s.



Məlikov
Umud
Umud oğlu

1934-cü ilin yanvar ayında Xızı rayonunun Fındığan kəndində anadan olmuşdur. Uşaqlıq çağlarından əvvəlcə atasını, sonra isə anasını itirmişdir. Babası Yasin kişinin himayəsində qalmış və kənddəki ibtidai məktəbdə təhsil almışdır. 1941-ci ildə Fındığandan Qızılburuna gəlmiş, dayısı Əbdülhəmid Hacıyevin himayəsində böyümüş, buradakı məktəbin 5-ci sinfinə daxil olmuşdur. Orta məktəbi başa vurduqdan sonra (1953-cü il) Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1959-cu ildə həmin ali məktəbin sənaye və mülki tikinti fakültəsini bitirmiş, təyinatla Sumqayıt tikintilərinə göndərilmişdir. On ilə yaxın müddətdə Sumqayıtdakı tikinti idarələrində iş ustası, iş icraçısı, sahə rəisi, tikinti idarəsinin rəisi işləmiş, iri kimya sənaye müəssisələrinin tikintisində, yeni mikrorayonların salınmasında dəyərli əl izləri qoymuşdur. Ötən əsrin 70-ci illərində həyatını Tikinti Materialları Sənayesi Nazirliyinə bağlamışdır.

U.U. Məlikov müxtəlif vaxtlarda həmin nazirlikdə şöbə müdiri, nazirliyin şüşə zavodunda, şifer kombinatında direktor işləmiş və Azərbaycan inşaatçılarının tikinti materiallarına olan tələbatının ödənilməsində var qüvvəsi ilə çalışmışdır. Onun dəyərli və faydalı əməyi dövlət mükafatlarına layiq görülmüşdür. 2008-ci ildə vəfat etmişdir.



Məmmədov
Cavanşir
Nadir oğlu

7 mart 1954-cü ildə keçmiş Qasım İsmayılov (indiki Goranboy) rayonundakı Qaradağlı kəndində anadan olmuşdur. 1970-ci ildə Qoylu kənd orta məktəbini, 1979-cu ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmiş inşaat mühəndisidir.

C.N. Məmmədov 1971-1986-cı illərdə müxtəlif nazirliklərin tikinti idarələrində iş ustası, iş icraçısı, baş mühəndis və tikinti idarələrində rəis vəzifələrində işləmiş, kənd təsərrüfatı əhəmiyyətli obyektləri inşa edib istifadəyə vermişdir.

1987-ci ildə köçürmə yolu ilə Kənd Tikinti Nazirliyinin 2 nömrəli tikinti trestinə müdir təyin olunmuşdur. 1994-cü ilədək həmin vəzifədə işləyərək uğur qazanmış, heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin istehsalat bazalarının tikintisində fəal iştirak etmişdir. 1994-cü ildən 2 nömrəli tikinti trestinin bazasında "Seymur" MMS-ni təsis etmiş və özəl bölmədə sahibkarlıqla məşğul olur, yenə tikir, qurur və abadlaşdırma işləri ilə məşğul olur.



Məmmədov
Elman
Məhəmməd oğlu

23 mart 1941-ci ildə Bərdə şəhərində anadan olmuş, 1964-cü ildə isə Bakı Politexnik Texnikumunu bitirərək texnik-hidrotexnik ixtisasına yiyələnmişdir. Texnikumun göndərişilə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin Bərdədəki 45 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsində iş ustası kimi əmək fəaliyyətinə başlamışdır. Az sonra Azərbaycan Baş Şosse Yolları İdarəsinin Gəncədəki 1 nömrəli Yol Tikinti Trestinə dəvət edilir və bu trestdə əmək və əmək haqqı şöbəsinin müdiri vəzifəsində çalışır.

E.M. Məmmədov 1968-ci ildə köçürmə yolu ilə Orta Asiyanın Sır-Dərya vilayətinin Yandper şəhərində olan "Aqqolsəhratikinti" Baş İdarəsinin tikinti bölmələrində iş icraçısı, böyük iş icraçısı, sahə rəisi və tikinti idarəsinin baş mühəndisi vəzifələrində işləmişdir. O, istehsalatdan ayrılmadan 1973-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun çay qurğularının və su elektrik stansiyalarının hidrotexniki tikinti ixtisası fakültəsinə daxil olmuş və 1979-cu ildə oranı uğurla bitirərək ali təhsilli mühəndis-hidrotexnik ixtisasını qazanmışdır. O, 1973-cü ildə İttifaq Nazirliyinin göstərişinə əsasən köçürmə yolu ilə Rusiya Federasiyasının Rostov şəhərindəki 2 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsinə rəis vəzifəsinə köçürülmüşdür.

E.M. Məmmədov 1976-cı ildən həyatını Azərbaycan tikinti kompleksinə bağlamışdır. əvvəlcə "Azərbaşmeliosutikinti"nin Xaçmazdakı 1 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsinə rəis göndərilir və bu vəzifədə ona göstərilən etimadı doğruldur. Sonrakı illərdə həmin baş idarənin Qubadakı 1 nömrəli Tikinti Quraşdırma İdarəsində rəis və "Şəkimeliosutikinti" trestində baş mühəndis vəzifələrində işləmişdir.

E.M. Məmmədov 1985-ci ildə "Aqrarsənayetikinti" Birliyinin Xudatdakı 10 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsində rəis işləmiş, 2 il sonra həmin birliyin Dəvəçidəki 11 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsinə rəis göndərilmişdir. 1989-cu ildə Azərbaycan SSR Dövlət Yanacaq Komitəsinin sərəncamına göndərilir. Həmin komitə tərəfindən "Azərqaztikinti" trestinin müdiri vəzifəsinə təyin edilir. Bu vəzifədə işlədiyi vaxtda Dağlıq Qarabağ hadisələri baş verir. Ermənilər öncə sosial tələblər irəli sürdülər. Sovet Hökuməti Dağlıq Qarabağda sosial-mədəni obyektlərin tikintisi üçün xüsusi olaraq vəsait ayırdı. 1989-1990-cı illərdə Dağlıq Qarabağın şəhər və kəndlərinin qazlaşdırılması E.M. Məmmədovun rəhbərlik etdiyi trestə həvalə olundu. O, bütün çətinliklərə sinə gərdi, hədə-qorxulara məhəl qoymadı, atəş altında ərazidə iş apara bildi.

1993-cü ildə onu Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinə işə dəvət etdilər. O, burada 2006-cı ilə kimi Tikintiyə Nəzarət Baş İdarə rəisinin müavini vəzifəsində işləmiş və dövlət qulluğunun müşaviri ixtisası dərəcəsilə təqaüdə çıxmışdır.



Məmmədov
Hacı Qasım
Əsəd oğlu

1948-ci ilin iyulun 1-də Tovuz rayonunun Alakol kəndində ziyalı ailəsində dünyaya göz açıb. 1955-1965-ci illərdə Alakol kənd orta məktəbində orta təhsil alıb. O 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin (sənaye – mülki tikinti ixtisası üzrə) axşam şöbəsinə qəbul olunmuş və təhsil ala-ala 1965-ci ilin noyabrın 13-də Bakı Baş Tikinti İdarəsinə – o zamanki Bakı şəhər Tikintiləri Texnikləşdirmə Trestinə fəhlə kimi işə qəbul olunub.

Q. Ə. Məmmədov 1968-1970-ci illərdə 203 nömrəli İMİ – də tikinti ustası işləyib. 1971-1973-ci illər onun Sovet Ordusu sıralarında hərbi xidmət illəridir. O 1973-cü ildə ordudan tərxis olunub yenidən 203 nömrəli İMİ-yə qayıtmış tikinti ustası, iş icraçısı, texniki – istehsalat şöbəsinin mühəndisi, baş iş icraçısı, sahə rəisi və texniki istehsalat şöbəsinin rəisi vəzifələrində çalışaraq 1979-cu ildən 203 nömrəli İMİ-nin müdir müavini (6 ay) vəzifəsində çalışıb. O, 1979-1983-cü illərdə BBTİ-nin 28 nömrəli tikinti idarəsinin rəisi, 2 nömrəli Tİ-nin rəisi (1983-cü il), 16 nömrəli Tİ-nin rəisi (1984-cü il) və Bakı şəhər Tikintiləri Mexanikləşdirmə Trestinin müdiri (1985-1990-cı illər) vəzifələrində çalışıb.

Q.Ə. Məmmədov 1990-1991-ci illərdə Bakı Baş Tikinti İdarəsi rəisinin muavini vəzifəsində çalışıb.

1991-ci ilin sonunda Hacı Qasım Məmmədov BBTİ Sənayeləşdirilmiş Evtikmə İstehsalat Birliyinin baş direktoru təyin olunur və o, bu vəzifədə 1995-ci ilin noyabrın 13-nə kimi çalışıb.

Qasım Məmmədovun 1965-ci ilin noyabrın 13-dən BBTİ-də başlanan fəaliyyət illəri düz 30 il sonra 1995-ci ilin noyabrın 13-də başa çatıb. Bu 30 ili Qasım müəllim Bakı sakinlərinin xoş gün-güzəranı üçün çalışıb.

Hacı Qasım Məmmədov paytaxt Bakıda mənzil probleminin həlli üçün dövlətimizin qəbul etdiyi "Növbə - 86" və "Mənzil-2000" proqramlarının həyata keçirilməsinə öz sanballı töfhələrini verən kadrlardandır.

Əl izi olan obyektlər:

Bakı kanalizasiya sisteminin Bakı şəhərinə aid hissəsinin çəkilişi, Günəşli yaylasında ilk kommunikasiya xəttinin çəkilişi, Yeni Yasamal-1, Yeni Yasamal - 2, 9-cu mikrorayon, Hövsan, Vişnevka və Biləcəri yaşayış massivlərinin salınması, Yeni Yaşmada, Sitalçayda qaçqınlar üçün qəsəbələrin salınması, Günəşlinin "A", "B", "V", "Q" massivləri, 4-cü mikrorayonda, Bakıxanov, Qaraçuxur qəsəbələrində çoxsaylı yaşayış evləri və digər ünvanlarda sıralanan minlərcə göydələnlər Qasım Məmmədovun taleyinə yazılıb.

Allah adamı, xeyirxah insan olduğunu zaman-zaman əməlləriylə sübut edən Qasım müəllim 1992-ci ildə Məkkə ziyarətində olub.

O milli ruha sahib, vətəndaş insandır, əsl azərbaycanlıdır.

Hacı Qasım gözəl və nümunəvi ailə başçısıdır. Ömür-gün dostu Zəkiyyə xanım 247 saylı orta məktəbdə fizika müəllimidir. Onların 2 oğlu, 1 qızı var.

Hacı Qasım Məmmədov bu gün də işləyir, çalışır. Əsl inşaat adamı, sənətini sevən inşaatçı-mühəndis olduğu üçün o, bu sahədən uzaqlaşa bilməyərək 2004-cü ildə "Fuad" MMC-ni təsis edib və 2005-ci ildən tikinti yönümündə fəaliyyətə başlayıb.

Əminik ki, Hacı Qasım Məmmədov tikinti fəaliyyətində bundan sonra daha böyük uğurlara imza atacaqdır.

Məmmədov
Şamil
Əsədulla oğlu

1944-cü ildə Lənkəran şəhərində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1967-ci ildə oranı bitirərək təyinatla "Sənayeventilyasiya" da ilk əmək fəaliyyətinə başlamışdır. 1970-ci ildə "Metrotuneltikinti" İdarəsinə köçürülmüş və orada sahə rəisi kimi fəaliyyət göstərmişdir. Az sonra kondisioner və soyuducular zavodlarında da sahə rəisi vəzifələrində işləmişdir. 1973-cü ildə "Termoizolyasiya" nın Bakı Quraşdırma İdarəsinə rəis müavini vəzifəsinə köçürülmüşdür.

Ş.Ə. Məmmədov 1975-ci ildə "Sənayeventilyasiya"nın Bakı Quraşdırma İdarəsində rəis vəzifəsinə

təyin olunmuşdur. Bakı Məişət Kondisionerləri zavodunda, yeyinti-sənaye obyektlərinin tikintisində fəal iştirak etmiş və buna görə də "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1986-cı ildə "Enerjiquraşdırma"nın Bakı Quraşdırma İdarəsinə rəis vəzifəsinə köçürülmüşdür. 1988-ci ildə Nigeriya Respublikasına göndərilmiş və orada iki ildən çox müddətdə məsul vəzifələrdə işləmişdir. Vətənə qayıtdıqdan sonra (1990-cı il) "Azsantexquraşdırma" trestində baş mühəndis vəzifəsinə təyin olunmuş və 1994-cü ilə qədər bu vəzifədə çalışmışdır.

Ş.Ə. Məmmədov 1994-cü ildə "AzQUR" şirkətinə vitse-prezident vəzifəsinə köçürülmüşdür. Bu vəzifədə işləyərkən Sumqayıt zonasına kuratorluq etmiş, Bakı-Supsa neft xəttində əl izləri qoymuşdur. 2005-ci ildən təqaüdçüdür.

Məmmədov
Səfərəli
İbrahim oğlu

1929-cu ildə Baba dağın ətəyində, Niyal dağla üzüzə yerləşən İsmayıllı rayonunun Əhən kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Böyük Vətən Müharibəsindən sonra ölkəmizdə dinc quruculuq işləri başladığı dövrdən kənddən Bakıya gələn yeniyetmələrdən biridir. Bakıda 18 nömrəli sənət məktəbində bənnalıq peşəsinə yiyələnmişdir. Əvvəlcə Azərneftayırma Zavodları Tikintisi və Təmiri trestinin 1 nömrəli tikinti idarəsində işləmişdir. Sənaye Tikintisi Nazirliyi yarananda 4 nömrəli Tikinti Trestinin 48 nömrəli tikinti idarəsinə köçürülmüşdür. Tikinti meydançalarında bənna, betonçu, suvaqçı, rəngsaz və s. peşələrdə işləmiş, məhsuldar və keyfiyyətli işi ilə həmkarları arasında fərqlənmişdir. Bakı və onun ətrafında tikilən ən mühüm obyektlərdə başçılıq etdiyi kompleks briqada ölkə daxilində o vaxtlar ən mütərəqqi iş üsulu sayılan N.Zlobin iş üsulu ilə işləyərək böyük uğurlar qazanmışdır. Zəhməti ilə ad-san qazandığına görə ona respublikanın Əməkdar İnşaatçısı fəxri adı verilmiş, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, "Oktyabr İnqilabı" ordeni ilə təltif olunmuşdur.

S.İ. Məmmədov bir neçə il 4 nömrəli Tikinti Trestinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri işləmişdir.



Məmmədzadə
Rauf
İbadulla oğlu

1950-ci il oktyabr ayının 25-də Cəlilabad şəhərində ziyalı ailəsində anadan olub. 1967-ci ildə orta məktəbi, 1972-ci ildə isə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. Ali məktəbi bitirən kimi ordu sıralarına çağırılmışdır. Sovet Ordusu sıralarında zabit-inşaatçı mühəndis kimi fəaliyyət göstərmiş və Müdafiə Nazirliyinin sifariş etdiyi 20-dən çox obyektdə sahə rəisi, baş mühəndis, rəis vəzifələrində işləmişdir. Qüsursuz işinə, fəal mövqeyinə, səmərəli əməyinə görə SSRİ Müdafiə Nazirliyinin, hərbi hissənin komandanlığı tərəfindən mükafatlandırılmış, fəxri fərmanlarla təltif olunmuşdur.

R.İ. Məmmədzadə 30 ildən çoxdur ki, həyatını

Azərbaycan Respublikasının kənd tikintisinə bağlamışdır. O, bir müddət Azərbaycan SSR Kənd Tikinti Nazirliyində aparıcı mühəndis, şöbə müdiri, trestin baş mühəndisi işləmiş və nazir müavini vəzifəsinə yüksəlmişdir. 10 ildən çoxdur ki, "Azərkəndtikinti" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavinidir. Harada və hansı vəzifədə işləyibsə həmişə və hər yerdə səmərəli təklifləri ilə fərqlənmiş, tikintinin tez və ucuz başa gəlməsinə çalışmışdır.

R. İ. Məmmədzadə tapşırılan işi yüksək səriştə və peşəkarlıqla icra edən bir rəhbər olduğu üçün onun əməyi hər zaman kənd tikinti rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

R.İ. Məmmədzadə son illər respublikada qaçqınlar və məcburi köçkünlər üçün salınan qəsəbələrin tikintisində, müxtəlif rayonlarda inşa edilmiş yüzlərlə yaşayış evləri, məktəb və uşaq bağçalarının tikintisində dəyərli əl izləri qoymuş səriştəli rəhbər işçilərdən biridir.

Onun kənd tikintisində bundan sonra da böyük uğurlar qazanacağına əminik.



Mənsimov
Hacı Kərbəlayı Cəlal
Süleyman oğlu

1934-cü ildə dekabr ayının 28-də Sabirabad rayonunun Balvar kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmiş peşəkar inşaatçı-mühəndisdir. Tikinti meydançalarında iş ustasından "Azərkəndtikinti" İstehsalat Birliyinin sədr müavini vəzifəsinədək yüksəlmişdir. Uzun müddət Kənd Tikinti Nazirliyinin 8 nömrəli tikinti trestinə rəhbərlik etmiş, Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Salyan, Neftçala, Əli Bayramlı, Kürdəmir, Ucar, Zərdab, Ağsu, Hacıqabul rayonlarında tikilmiş sosial-mədəni obyektlərdə, iri sənaye müəssisələrində əl izləri qoymuşdur.

C.S. Mənsimov 10 ildən artıq müddətdə Sabirabad "Kəndtikinti" Səhmdar Cəmiyyətinin sədri olmaqla yanaşı "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinə də rəhbərlik etmişdir. Son illərdə respublikada tikilib istifadəyə verilmiş, qaçqınlar və məcburi köçkünlər üçün salınmış 15-dək qəsəbədə əl izləri vardır. O, tikintidə işin rəvan getməsi, ucuz və keyfiyyətli başa çatması üçün bir sıra səmərəli təkliflərin müəllifidir. Elə buna görə də sinəsini çoxlu orden və medallar bəzəmişdir. Dəfələrlə rayon, şəhər sovetinə, bir çağırış isə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş və bir neçə qurultayın nümayəndəsi olmuşdur.



Mirzəyev
Mahmud
Musul oğlu

1941-ci ildə İmişli rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, ali təhsilli inşaatçı-mühəndis kimi doğma yurda qayıtmışdır. İlk əmək fəaliyyətinə Kür-Araz Su Tikintisi Baş İdarəsinin Bəhramtəpədəki 10 nömrəli Dəmir-

Beton Məmulatı zavodunda fəhlə kimi başlamışdır. İstehsalatda qabaqcıllığı ilə fərqlənmiş, vəzifəsi pillə-pillə yüksəlmiş və sonda həmin zavoda direktor təyin olunmuşdur.

O, 1971-ci ildə "Milkanalsutikinti" Trestinin Beyləqandakı 14 nömrəli mexanikləşdirilmiş dəstəsinə rəis vəzifəsinə təyin edilmişdir. Onun rəhbərliyi altında Daşburun stansiyası yaxınlığında "Melioratorlar" qəsəbəsi salınmış, kolxoz və sovxozlarda kompleks meliorasiya işləri aparılmış, Baş Mil kanalının çəkilişində nəzərdə tutulduğundan çox işlər görülmüşdür.

M.M. Mirzəyevin təcrübəsini və qabiliyyətini nəzərə alıb Bakıya işə dəvət etmişlər. Əvvəlcə Kənd Tikinti Nazirliyinin İnşaat Materialları Sənayesi Trestinin, sonra isə Sovxozlararası tikinti trestinin müdiri vəzifəsində çalışmışdır. 5 ildən artıq müddətdə trest müdiri işlədiyi illərdə Dağlıq Qarabağ, Abşeron, Mil, Muğan, Şirvanda, respublikanın qərb və şimal bölgəsində, cənub və şərq rayonlarında quşçuluq fabriklərinin, südəmtəə fermalarının, saysız-hesabsız məktəb və uşaq baxçalarının, xəstəxana komplekslərinin, konserv və pendir zavodlarının, mehmanxana və yaşayış evlərinin, şərab zavodlarının tikintisində və iri istehsalat bazalarının yaradılmasında sanballı əl izləri qoymuşdur. Direktiv orqanlar onu bir müddət Abşeron rayonuna göndərmişlər. O, burada Abşeron rayon XDS İcraiyyə Komitəsinin sədri işləmişdir. Rayon mərkəzində yaraşıqlı mədəniyyət evi, məktəb və uşaq başçası, kəndlərdə sosial-mədəni obyektlər ucaldılmış, kifayət qədər abadlıq işləri aparılmışdır.

M.M. Mirzəyev 10 ildən çoxdur ki, həyatını Meliorasiya və Su Təsərrüfatı Nazirliyinə bağlamış, nazir müavini, komitə sədrinin 1-ci müavini işləmişdir. Hazırda respublika Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Baş İdarə rəisidir.

Dəfələrlə rayon və şəhər sovetlərinə deputat seçilmiş, dövlət mükafatları ilə mükafatlandırılmışdır. Azərbaycan Ağsaqqallar Şurasının orqanı olan "İnkişaf" qəzetinin redaksiya heyətinin üzvüdür (2008-ci il).

"Muğansutikinti"
Açıq Səhmdar Cəmiyyəti

Ölkəmizdə meliorasiya və irriqasiya işlərinə hələ XIX əsrin ikinci yarısından başlanmasına baxmayaraq, onların geniş miqyasda vüsət tapması 1969-1982-ci illərə, ulu öndərimiz H. Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə sürətlənmişdir. Onun şəxsi təşəbbüsü və yaxından köməkliyi ilə meliorasiya işləri aparılmış, güclü istehsal bazası yaradılmış, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları, su axınını bölüşdürən və tənzimləyən suvarma sistemləri, su anbarlarından ibarət nəhəng meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır.

Məhz onun hakimiyyətə gəldiyi 1969-cu ildə Azərbaycan Respublikasının regionlarında meliorasiya işlərinin inkişafı məqsədilə su tikinti trestləri yaradılmışdır. O cümlədən, Muğan-Salyan zonasında meliorasiya tədbirlərini həyata keçirmək məqsilə Sabirabad rayonunda da "Muğanmeliorasiya" tresti yaradılmışdır.

İttifaq rəhbərliyində olarkən belə meliorasiya və su təsərrüfatı sahəsinə öz qayğılarını əsirgəməmiş, bu sahədə işlərin gedişinə daim nəzarət etmiş və lazımı köməklik göstərmişdir.

Həmin dövrdə onun yaxından köməkliyi sayəsində respublika üçün son dərəcə vacib olan, o cümlədən Baş Mil-Muğan və Baş Şirvan Kollektorlarının yenidən qurulması və onlarla belə digər vacib obyektlərin tikintisi ilə əlaqədar məsələlərə baxılıb həll olunmuşdur.

Ulu öndərimizin birinci dəfə respublika rəhbərliyinə gəlişində Muğan-Salyan zonasının rayonlarına meliorasiya tədbirlərinə kapital qoyuluşunun həcmi 2,5 dəfədən çox artması nəticəsində, meliorasiya işlərinin sürətlə inkişafı nəticəsində kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 2,2 dəfə, o cümlədən bitkiçilik 2,2 dəfə və heyvandarlıq məhsulları 1,7 dəfə artmışdı.

Həmin dövrdə Muğan-Salyan zonasının Şirvan (keçmiş Əli-Bayramlı) şəhəri, Sabirabad, Saatlı, Salyan, İmişli, Biləsuvar və Neftçala rayonlarında meliorasiya tədbirlərini həyata keçirən "Muğansutikinti" tresti tərəfindən (indiki "Muğansutkinti" Açıq Səhmdar Cəmiyyəti) 14195 hektar yeni suvarılan sahə, 92500 hektar torpaqların meliorasiya cəhətdən yaxşılaşdırılması, 86754 hektar əsaslı hamarlama işləri, 86066 hektar su şəbəkələrinin yenidən qurulması və su təchizatının artırılması, 89528 hektar torpaqların şoran duzlardan əsaslı surətdə təmizlənməsi və 2231 hektar sahədə mədəni otlaqlar salınıb təsərrüfatların sərəncamına verilmişdir. İstismara verilən qeyd olunan bu istehsal gücləri bütün maliyyə mənbələri (mərkəzləşdirilmiş və digər mənbələr) nəzərə alınmaqla trest tərəfindən hər il irili-xırdalı 113-135 tikinti obyektlərində (o cümlədən 50-60 kolxoz və sovxozlarda) Muğan-Salyan zonasının rayonlarında tikinti işləri aparılmışdır. Bu dövrdə 2000-2100 nəfərlik əmək kollektivləri trestin bölmələrində fəaliyyət göstərmişdir.

1972-ci ildə 45000 hektardan ibarət mərkəzi Muğanda qış otlaqları və cənub-şərq Şirvanda 60000 hektar sahədən ibarət qış otlaqları su ilə təmin edilmişdir. Həmin dövrdə qeyd edilən rayonların təsərrüfatlarında 27 nasos stansiyası, 450 km kollektor drenaj şəbəkəsi 154 km-lik 5 iri kanal istismara verilmişdir, 400 tona yaxın senaj quyuları, hər biri 200 və 400 başlıq 8 ədəd inək tövləsi istismara veilmişdir.

1973-cü ildə Şirvan şəhərində 900 km istehsal gücü olan saxsı drenaj boru zavodu, Saatlı rayonunun Sarcalar qəsəbəsində pambıq emalı zavodu, Neftçala rayonunda Dövlət Bankı, asfalt yollar və digərləri istismara verilmişdir.

Həmin dövrdə Sabirabad, Saatlı, Salyan, Neftçala, Biləsuvar, İmişli və Şirvan şəhərində melioratorlar üçün 7 qəsəbə salınmış, qəsəbələrdə 61044 kvadrat metr faydalı mənzil sahəsi istifadəyə verilmişdir, qəsəbələrdə mağazalar, yeməkxanalar, hamamlar, apteklər, məişət kombinatları, uşaq baxçası, uşaq evi və digər sosial mədəni-məişət təyinatlı obyektlər istismara verilmişdir.

Balıqçılıq təsərrüfatlarının inkaşafına da diqqət verilmişdir, xüsusilə Neftçala rayonu ərazisində 1982-ci ildə Kür çayının hövzəsində ot yeyən balıq təsərrüfatı, Oryad balıqçılıq təsərrüfatı, 1 və 2 saylı tam sistemli 50000 min sufrə böyüdən nəhəng nohur təsərrüfatları və digər balıqçılıq təsərrüfatları istismara verilmişdir.

Salyan, Neftçala rayonlarının kolxoz təsərrüfatlarında 21886 sentr istehsal gücü olan balıq nohurları, bundan əlavə Sabirabad, Saatlı rayonlarının kolxozlarında da balıq istehsal edən balıq nohurları tikilmişdir.

Təkcə Sabirabad rayonunda 100 min kubmetr

yığma dəmir beton istehsal edən 2 saylı Sənaye Kombinatı, 28 min ton gücü olan nar emalı zavodu, 600 yerlik mədəniyyət evi, 1176 yerlik Nizami Cəncəvi adına orta məktəb, melioratorlar qəsəbəsi, uşaq evi, uşaq baxçası, dövlət bankı və yuxarıda qeyd etdiyimiz bir sıra digər sosial, mədəni məişət təyinatlı bina və tikililər inşa edilmişdir.

"Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında" (1975-ci il), "1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında (1976-cı il) qərarları Muğan-Salyan zonası rayonlarının gələcək inkişafı üçün dinamik proqram oldu.

Göstərilən tarixi qərarlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə kompleks meliorasiya proqramları hazırlandı və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə aparılması üçün mühüm tədbirlər işlənib həyata keçirildi. Qeyd edildiyi kimi həmin dövrdə də Mərkəzi Muğan və Cənub Şərqi Şirvanda qış otlaqlarının su təminatının artırılması bu proqram əsasında hayata keçirildi.

1970-ci ildə Ulu öndərimizin şəxsi təşəbbüsü ilə SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin tabeliyində xüsusi tikinti təşkilatı "Azərsutikinti" Baş idarəsi yaranmışdı, bu da İttifaq hökuməti tərəfindən respublikanın kənd təsərrüfatına sərmayə qoyuluşunun qat-qat artmasına şərait yaratmaqla intensiv inkişafa səbəb oldu.

Bu dövrdə Baş idarənin illik tikinti-quraşdırma işlərinin həcmi 300 mln manat səviyyəsinə qalxmışdı və bu illərdə "Muğansutikinti" tresti hər ildə orta hesabla 25-30 mln manatlıq istehsal gücləri üzrə əsas fondları istismara verirdi. Melioratorlar ən müasir texnika və avadanlıqlarla təchiz olundu. Baş Mil-Muğan kollektorunun inşasında istismar olunan torpaq işlərində çalovu 6 kubmetr olan özü addımlayan ekskovatorlar və başqa ekskovatorlar, güclü traktorların bazasında quraşdırılmış buldozerlər, skreperlər və digər texnikalara "Muğansutikinti" tresti də sahib oldu. 1985-1991-ci illərdə üzüm bağlarının respublikada inkişafı məqsədilə Pirsaat massivində və Navahı üzümçülük sovxozunda I, II və III növbələr üzrə geniş miqyasda yeni suvarılan sahələr istifadəyə verilmişdi.

Meliorasiya sahəsinə kapital qoyuluşunun ildən ilə artması nəticəsində təkcə bunu qeyd etmək lazımdır ki, 1984-cü ildə tikintisinə başlanmış 271 min hektar su təminatını yaxşılaşdıran (kanalın su sərfi 72 kubmetr/san), Baş Şirvan kollektorunun yenidən qurulması obyektinin tikinti işlərinə başlanıldı və 1994-cü ildə istismara verildi.

Qeyd etmək lazımdır ki, respublika iqtisadiyyatında əsasən kənd təsərrüfatının gələcək inkişafı üçün xüsüsi əhəmiyyəti olan Baş Mil-Muğan kollektorunun tikilməsində məqsəd Kür-Araz düzənlərində yerləşən və ümumi suvarılan torpaqların 80 faizini təşkil edən sahələrdən drenaj sularının Xəzər dənizinə maneəsiz axıdılması məqsədi qoyulmuşdu və buna da nail olundu.

Baş Mil-Muğan kollektoru respublikanın ən böyük meliorativ qurğularından biridir. Kollektorun layihə uzunluğu 186 kilometr, dibindən eni 18:35, normal su sərfi 70 kubmetr/san, orta dərinliyi 5:10 metrdir. Xəzər dənizinə töküldüyü yerdə su sərfi saniyədə 107 kubmetr, maksimum sərfi isə saniyədə 147 kubmetrdir. Bu dövrdə trestin illik tikinti-quraşdırma işlərinin həcmi 25-30 mln manat səviyyəsinə qalxmışdı. Melioratorlar ən müasir texnika və avadanlıqlarla təshiz olunmuşlar. Baş Mil-Muğan kollektorunun inşasında istismar olunan torpaq işlərində yuxarıda qeyd edilmiş texnikalardan və digərlərindən "Muğansutikinti" tresti istifadə etdi. Onun I-ci hissəsinin (90 kilometr) istismara verilməsi ilə əlaqədar Muğan-Salyan nasos stansiyaları ləğv edilmiş, nəticədə hər il 46 milyon kvt/saat elektrik enerjisinə qənaət edilir. Tikintisinə 1984-ci ildə başlanmış I buraxılış obyekti 1994-cü ildə istismara verilmişdir. Qeyd etmək lazımdır ki, hər iki nəhəng obyektlərdə işlərə başlanması və istismara verilməsi Cəmiyyətin sədri V.Qurbanov tərəfindən həyata keçirilmişdir.

1993-cü ildə respublikada gərqin siyasi durum, iqtisadi böhran, müharibə şəraiti, qaçqınlar problemi, vətəndaş müharibəsi təhlükəsi hökm sürən bir dövrdə Ulu öndərimiz bir çox maneələrə baxmayaraq, heç nədən çəkinmədən, cəsarətlə respublikanın xalq təsərrüfatında islahatların aparılmasını tələb etdi və bu prosesin həyata keçirilməsinə rəhbərliyi bilavastə öz üzərinə götürdü.

Yalnız onun sayəsində 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olarkən, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan Kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit ayırdı və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin əvəzsiz olaraq hazırlanması qərarına gəldiyini elan etdi və kredit ayrılması barədə Saziş imzalandı.

2 mart 1995-ci il tarixli 290 saylı Fərman meliorasiya və su təsərrüfatında aparılacaq islahatlara təkan verdi. 1996-cı ildə meliorasiya və irriqasiya haqqında Azərbaycan Respublikası Qanunu qəbul olundu və bu qanun melioratorların arasında böyük ruh yüksəkliyinə səbəb oldu. Ümdə əhəmiyyətli olan bu qanunlar respublikamızda meliorasiya sahəsində idarə olunma münasibətlərini, islahatların əsas istiqamətlərini, mülkiyyət prinsiplərini və xarici investisiyanın cəlb edilməsi üçün hüquqi zəmin yaratdı.

Məhz ikinci dəfə hakimiyyətə gəldiyi zaman onun göstərişlərinə əsasən "2003-2010-cu illər üçün meliorasiya və su təsərrüfatının İnkişaf Konsepsiyası və İnvestisiya Proqramı hazırlanmışdır. Ulu öndərimizin göstərişlərini əsas tutaraq Konsepsiya və İnvestisiya Proqramı əsasında respublikaya ayrılan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldi. Dünya Bankı, İslam İnkişaf Bankı tərəfindən kredit xidməti açıldı.

BMMK-in 2-ci buraxılış (52,7 kilometr) obyektinin inşasına 1998-ci ilin mart ayında başlandı və qısa müddətdə yüksək keyfiyyətlə başa çatdırıldı. 2000-ci ilin noyabr ayında kollektorun 52,7 uzunluğunda ikinci hissəsi Dövlət Komissiyası tərəfindən istismara qəbul olundu.

Ulu öndərimizin qayğısı sayəsində Baş Mil-Muğan Kollektorunun 31,7 km uzunluğunda 3-cü hissəsinin tikintisinə Dünya Bankının müvafiq imzalanmış borc Sazişi əsasında 2001-ci ildə tikinti işlərinə başlanmış və 2006-cı ildə istismara buraxılmışdır. Bu dövrlərdə trestin idarələrində 1000-1100 nəfərlik əmək kollektivləri fəaliyyət göstərmişdir.

Baş Mil-Muğan Kollektorunun tikintisinin başa çatdırılması nəticəsində onun əhatə etdiyi ərazidə

kənd təsərrüfatı məhsulları istehsalı 30-40 faiz artmışdır. Kollektorun 3 hissəsinin istismara verilməsi nəticəsində Sabirabad, Saatlı, İmişli rayonlarının 60 min hektar suvarılan torpaqlarının meliorativ vəziyyətinin yaxşılaşdırılmasına şərait yaratmışdır, Saatlı və Kürdəmir rayonları arasında, qısa avtomobil yolu istismara verilmişdir.

Mil-Qarabağ kollektorunun Baş Mil-Muğan kollektoruna birləşdirilməsi, Mil-Qarabağ kollektorundan keçən 25 kubmetr/san su sərfinin BMMK ilə nəql olunması, Baş Şirvan kollektorunun su keçirmə yükünün azalmasına səbəb olmaqla, Şirvan düzünün öz drenaj sularının sərbəst Xəzər dənizinə axıdılmasına şərait yaratmışdır.

BMMK-ın üzərində 30 avtomobil körpüsü, 58 müxtəlif hidrotexniki qurğu, Araz çayı altından keçən düker, 143 km istismar yolları və sair qurğular vardır. Kollektorun təsir zonasına Kür çayının sağ sahilində, Xəzər dənizindən başlayaraq Qazax rayonuna qədər 29 rayonun ərazisində 3 mln hektar torpaq sahəsi daxildir. Qeyd etmk lazımdır ki, kollektor 860 min hektar suvarılan sahədən drenaj sularını kənar etmək üçün hesablanmışdır.

1993-cü ildə xarici investisiya hesabına tikintisi aparılan obyektlərlə bərabər 1998-ci il daxil olmaqla Sabirabad, Saatlı, Salyan və Neftçala rayonlarının hər il bütün kolxoz və digər təsərrüfatlarında, habelə balıqçılıq obyektlərində tikinti-quraşdırma işləri aparılmış, kolxoz-sovxoz və digər ictimai qurumlar ləğv edildikdən sonra isə 2000-ci ildən respublika kənd təsərrüfatının inkişafı ilə bağlı olan meliorasiya tədbirləri həyata keçirirlir.

Azərbaycan suvarma və drenaj infrastrukturlarının qurulması və yaxşılaşdırılması məqsədi ilə Xanarx kanalının tikilməsində əsas məqsəd Qusar, Xaçmaz və Şabran rayonlarının 62547 hektar sahəsini suvarma suyu ilə təmin etmək, eyni zamanda Samur-Abşeron kanalının yenidən qurulması zamanı Bakı, Sumqayit şəhərlərinin və Abşeron yarımadasının suya olan tələbatını təmin etmək məqsədi qarşıya qoyulmuşdu.

Konsersium üzvü kimi "Muğansutikinti" ASC Samur-Abşeron Magistral kanalının ilk 27 km-nin yenidən qurulması, Paket-3 obyektində tikinti-quraşdırma işlərini başa çatdırmış və Xanarx kanalının II mərhələsinin 29,7 km tikinti obyektində irili-xırdalı 47 ədəd hidrotexniki gurğular tikmişdir. 2000-ci ilin mart ayında I növbə və 2006-cı ilin avqustunda II növbə başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin məcburi köçkünlərin problemlərini həll etmək məqsədilə imzaladığı Dövlət proqramı haqqında 01 iyul 2004-ci il tarixli 298 saylı sərəncamına əsasən Cəbrayil və Zəngilan köçkünləri üçün (1858 ailə) Biləsuvar rayonu ərazisində ayrılmış əkin sahələrinin irriqasiya işləri yerinə yetirilmiş, irriqasiya işləri cəmi 2000 hk olmaqla 1589,55 hk suvarılan torpaq sahələri istismara verilmişdir.

Biləsuvar rayonunun Çıraqlı kəndi ərazisində torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması ilə əlaqədar fermer və pay torpaqları olmaqla 400 hektar ərazidə meliorasiya işləri aparılmış, 10650 km su yığıcı kollektor yenidən qurulmuş, həmçinin bu drenlər üzərində 5 ədəd akveduk, 6 ədəd körpü tikilmişdir.

Füzuli rayonu ərazisində "Yuxarı Mil kanalının tikintisinin davam etdirilməsi layihəsinin tərkib hissəsi olan Qayıdış-2 qəsəbəsi əhalisi üçün 137 hk sahəyə su verilməsi işləri aparılmışdır.

Respublika əhəmiyyətli tikinti işləri olan "Bəhrəmtəpə Baş Hidroqovşağının Bərpası və Müasirləşdirilməsi, Araz çayı üzərində tikilmiş bu mürəkkəb hidroqovşağın məqsədi çaydan Muğan-Mil düzənliklərində 157 min hektar sahənin suvarılması üçün tələb olunan su götürülməsidir.

Hidroqovşaq 2500 kubmetr/san daşqın sularını buraxmağa hesablanmışdır. Hidroqovşaq kompleksinə beton bənd, suqəbuledici və su durulducular, kanalların baş tənzimləyiciləri, balıqburaxan və s. qurğular daxildir. Suqəbuledici vasitəsilə çaydan götürülən su Baş Muğan (65 kubmetr/san), Əzizbəyov kanalı (50 kubmetr/san) və Rəsularx (16 kubmetr/san) kanallarına verilir.

Suqəbuledicidə yenidənqurma işləri başa çatdırıldıqdan sonra Əzizbəyov adına kanalın su sərfi 63 kubmetr/san-yə çatdırılmış və obyekt 2006-cı ildə başlanmış və 2009-cu ilin 1 yarımilliyində istismara verilmişdir.

"Cəlilabad rayonunda Göytəpə su anbarı tikintisinin davam etdirilməsi və suvarma-drenaj şəbəkəsinin bərpası" 681,34 hk ərazidə suvarma şəbəkələrinin yenidən qurulması işləri yerinə yetirilmişdir. Su mənbəyini Göytəpə su anbarından götürməklə 7140 pm metal boru kəmərinin tikilməsi, ümumi su tutumu 4,2 mln. kubmetr olan su anbarının bərpası, nasos stansiyasının yenidən qurulması, su qülləsinin yenidən tikintisi, qəza su tullayıcı, körpü tikintisi və onlarca irili-xırdalı qurgular bərpa edilərək 2009-cu ildə obyekt istismara verilmişdir.

Hazırda respublika büdcəsinin vəsaiti hesabına "Biləsuvar rayonunun sərhəd ərazilərində suyığıcı kollektorun tikilməsi və Əzizbəyov adına kollektorun yenidən qurulması", "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasının təmin edilməsi məqsədilə tədbirlərin görülməsi", "Neftçala Magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi" və "Kür-Araz çayları boyunca mövcud mühafizə bəndlərinin möhkəmləndirilməsi və hündürləndirilməsi" obyektlərində tikinti işləri aparılır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirilən aqrar bölmənin inkişafına töhfə vermək hamının, o cümlədən "Muğansutikinti" Açıq Səhmdar Cəmiyyətinin əmək kollektivinin ümdə vəzifəsidir və bu istiqamətdə işlər davam etdirilir.

Ümumülli Lider H.Əliyev 1982-ci ildə Sabirabad rayonunda tikilmiş "Nar emalı zavodunun istismara verilməsində, 1976-cı ildə Sabirabad şəhərində 600 yerlik mədəniyyət evinin açılışında, 1992-ci ildə Sabirabad şəhərində Nizami Gəncəvi adına 5 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.

2006-cı ildə başa çatdırılmış Xanarx kanalının istismara verilməsində Konsersium üzvü olan "Muğansutikinti" Səhmdar Cəmiyyəti də fəaliyyət göstərmiş və onun açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir. Bundan başqa 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Cəlilabad rayonunda Göytəpə su anbarının tikintisi və suvarma drenaj şəbəkəsinin bərpası" obyektinin istismara verilməsində də iştirak etmişdir.

1969-cu ildə yaranmış "Muğansutikinti" trestinə ayrı-ayrı illərdə İbrahimov Hidayət Balabək oğlu (1969-1970), Hacıyev Nəcəfəli İmaməli oğlu (1970-1976), Baxşıyev Fərrux Məmməd oğlu (1976-1978), Sarıyev Sarı Yapan oğlu (1978-1981), Ağayev Kamil Mirnizam

oğlu (1981-1984) rəhbərlik etmişlər.

1984-cü ilin fevral ayından Qurbanov Vaqif Ağayar oğlu "Muğansutikinti" trestinə müdir vəzifəsinə təyin edilmiş və hazırda "Muğansutikinti ASC-nin sədri vəzifəsində fəaliyyət göstərir (2000-cü il fevral ayından trest "Muğansutikinti" törəmə müəssisəsinə və 2010-cu ilin 26 noyabrından törəmə müəssisə "Muğansutikinti" Açıq Səhmdar Cəmiyyətə çevrilmişdir).

Hazırda "Muğansutikinti" Açıq Səhmdar Cəmiyyətinin kollektivi Vaqif Qurbanovun rəhbərliyi altında respublika büdcəsinin vəsaiti hesabına "Biləsuvar rayonunun sərhəd ərazilərində suyığıcı kollektorun tikilməsi və Əzizbəyov adına kollektorun yenidən qurulması", "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasının təmin edilməsi məqsədilə tədbirlərin görülməsi", "Neftçala Magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi", "Kür-Araz çayları boyunca mövcud mühafizə bəndlərinin möhkəmləndirilməsi və hündürləndirilməsi" obyektlərində meliorasiya işlərini davam etdirir.



Musayev
Şöhrət
Cəmil oğlu

20 may 1973-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olmuşdur.

1980-ci ildə Parakənd kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1991-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir.

Ş.C. Musayev 1991-ci ildə məktəbi bitirən ili sənədlərini Gəncə şəhərində Kənd Təsərrüfatı Akademiyasının Mexanizasiya fakültəsinə vermiş və qəbul imtahanlarında yüksək nəticə göstərərək həmin fakültəyə qəbul olunmuşdur. 1996-cı ildə həmin ixtisas üzrə Akademiyanı bitirib ali təhsil diplomu almışdır.

1997-2010-cu illər ərzində müxtəlif xarici ölkələrdə yaşamış və biznes fəaliyyəti ilə məşğul olmuşdur.

Ş.C. Musayev 2010-cu ildə vətənə qayıdıb "Nur Tikinti" MMC şirkətini təsis edərək ölkə tikinti kompleksində tikinti-quruculuq fəaliyyəti ilə məşğul olmağa başlamış və həmin vaxtdan hal-hazırkı dövrədək cəmiyyətin direktoru vəzifəsində çalışaraq bu istiqamətdə fəaliyyətini uğurla davam etdirməkdədir.

Ş.C. Musayev bu illər ərzində bir çox nailiyyətlər əldə etmiş, rəhbərliyi dövründə respublikanın bir sıra bölgələrində – o cümlədən Ağcabədi, Goranboy, Ağdam, İmişli rayonlarında, Mingəçevir, Şəki şəhərlərində və Bakı şəhərinin Masazır, Müşfiqabad qəsəbələrində qaçqın və məcburi köçkünlər üçün yaşayış evləri, məktəblər və digər infrastruktur obyektləri inşa etmişdir.

Hal-hazırda bu işlər Şöhrət Cəmil oğlu Musayevin rəhbərliyi altında müvəffəqiyyətlə davam etdirilir.

Ailəlidir, iki övladı-1 oğlu, 1 qızı var, hər ikisi məktəblidir.

Ş. C. Musayevin rəhbərliyi altında "Nur Tikinti" MMC kollektivinin ölkə tikinti kompleksinə verəcəyi ən böyük töfhələr hələ qabaqdadır.



Mustafazadə
Nasir
Nadir oğlu

10 may 1958-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1975-ci ildə Şəkidəki 12 nömrəli orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. O, orta təhsilini başa vurduqdan sonra, Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, bir il sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaranmış və təhsilini bu ali məktəbdə davam etdirmişdir. 1980-ci ildə institutun tikintinin iqtisadiyyatı və təşkili şöbəsini bitirib iqtisadçı-mühəndis ixtisasına yiyələnmişdir.

N.N. Mustafazadə 1980-ci ildə təyinatla Baş Kolxozlararası Tikinti İdarəsinin Şəkidəki 7 nömrəli tikinti trestinə göndərilmiş və həmin trestdə 1983-cü ilə kimi böyük mühəndis vəzifəsində çalışmışdır. O, 1981-1982-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmiş və ordudan zabit kimi tərxis olunmuşdur.

Ordudan qayıtdıqdan sonra o, 1983-1987-ci illərdə Şəkidə yenicə yaranmış şimal zonasını əhatə edən Könüllü Yanğından Mühafizə Cəmiyyətinin sədri vəzifəsinə təyin olunmuşdur. Sədr işlədiyi 5 il müddətində on birinci beşilliyin döş nişanına və fəxri fərmanına layiq görülmüşdür. Başçılıq etdiyi kollektiv isə hər il sosializm yarışında qalib gələrək Azərbaycan SSR Könüllü Yanğından Mühafizə Cəmiyyətinin Keçici Qırmızı Bayrağını almışdır.

N.N. Mustafazadə 1987-ci ildə Şəki şəhər Abadlıq Kombinatının direktoru vəzifəsinə təyin edilmişdir. 1988-ci ildə isə o, seçki yolu ilə Şəki Kommunal Təsərrüfatı Birliyinə baş direktor seçilmişdir.

N.N. Mustafazadə 1991-ci ilin yanvarından 2004-cü ilin iyun ayına kimi "Azərkəndsutəchizatı" Dövlət Konserninin Qax, Şəki, Oğuz, Qəbələ və İsmayıllı rayonlarını əhatə edən, yeni təşkil olunmuş 16 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstəsinə rəhbərlik etmişdir.

N.N. Mustafazadə 2000-ci ilin fevral ayında "Azəri Servis LTD" Məhdud Məsuliyyətli Cəmiyyətini təsis etmiş və özəl inşaat qurumu olaraq ölkənin tikinti sektorunda fəaliyyətə başlamışdır. Artıq 13-cü ildir ki, o, bu kollektivə rəhbərlik edir.

Ailəlidir, üç övladı var.


N.N. Mustafazadə "Azəri Servis LTD" MMC-ni təsis etdiyi vaxtdan ilk olaraq Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sifarişi ilə Şəki rayonunun ərazisində "Cəyirli-arx" su hövzəsinin və kanalının tikintisi işlərini aparıb.

2001-ci ildə "Azəri Servis LTD" MMC "Teleradio" İstehsalat Birliyinin sifarişi ilə "Təpəcənnət TV" yarımötürücü stansiyasına elektrik xəttinin çəkilişini və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Beyləqan rayonunun ərazisində "Yeni Tuğ" qəsəbəsində yol çəkilişini və daxili yolların bərpası və yenidənqurulması işlərini, 2002-2003-cü illərdə isə MKSİF-in sifarişi ilə Beyləqan rayonunda xarici elektrik xəttinin çəkilişini, Füzuli rayonunun Haramı düzündə məcburi köçkünlər üçün salınan 1 nömrəli qəsəbənin və Biləsuvar rayonunda salınan 1 və 2 nömrəli qəsəbələrin daxili yollarının inşasını, eləcə də Füzuli rayonunun Haramı düzündə salınan 4 yeni qəsəbədə irriqasiya sistemlərinin tikintisini həyata keçirmişlər.

N.N. Mustafazadənin başçılıq etdiyi kollektiv sonrakı illərdə də baş podratçı qismində ölkə prezidenti cənab İlham Əliyevin imzaladığı məlum Sərəncamlara əsasən məcburi köçkünlər və qaçqınlar üçün Biləsuvar, Füzuli, Ağdam, Dəvəçi, Goranboy, Yevlax, Mingəçevir, Ağcabədi rayonlarında və Bakı şəhərində yeni yaşayış qəsəbələrinin və məhəllələrin salınmasında, həmçinin respublikanın bir sıra rayonlarında dövlət əhəmiyyətli sosial-mədəni obyektlərin tikintisində var qüvvələrini sərf etmiş, uğurlar qazanmış və ildən-ilə bu istiqamətdə daha böyük uğurlar qazanmaqdadırlar.

Onların zəhməti ilə hasilə gələn obyektlərin siyahısına ötəri nəzər salmaq kifayətdir ki, müəssisənin ölkə tikintisindəki çağdaş yeri və mövqeyi barədə oxucuda dolğun təsəvvür yaransın.

"Azəri Servis LTD" MMC-nin kollektivi 2005-ci ildən üzü bu yana əsasən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişləri ilə məcburi köçkün şəhərciklərinin salınmasında, bu qəsəbələrdə yaşayış evləri və digər infrastruktur layihələrinin həyata keçirilməsində böyük əmək sərf etmişlər. Belə ki, Ağdam rayonu ərazisində Bənövşələr-1 yaşayış qəsəbəsində 70 ədəd yaşayış evinin tikintisi, qəsəbədaxili yol, su təchizatı və elektrik təchizatı şəbəkələrinin tikintisi (2005-ci il), Ağdam rayonu ərazisində yeni salınmış Bənövşələr yaşayış qəsəbəsində yol-küçə şəbəkəsinin tikintisi (2005-ci il), Biləsuvar rayonu ərazisində 1, 2 və 3 nömrəli qəsəbələrin ərazisində daxili drenaj və suvarma şəbəkələrinin tikintisi (2006-2007-ci illər), 3 nömrəli yeni yaşayış qəsəbəsində 106 ədəd yaşayış evlərinin tikintisi (2007-ci il), 5 nömrəli yeni yaşayış qəsəbəsində 100 ədəd yaşayış evlərinin tikintisi (2007-ci il), 2 nömrəli yeni yaşayış qəsəbəsində 107 ədəd yaşayış evlərinin tikintisi (2007-ci il), Füzuli rayonu ərazisində Babı kəndində su götürən qurğunun və su nəqledici kəmərin tikintisi (2007-ci il), Ağdaş rayonunun Yenikənd kəndində yolların bərpası, (2008-ci il), Füzuli rayonu ərazisində 3 nömrəli qəsəbədə inzibati bina anbar ilə birlikdə, poçt şöbəsi, klub – icma mərkəzi, 50 yerlik uşaq bağçası,15 siniflik orta məktəb və ambulatoriya tikintisi (2008-ci il), Füzuli rayonunun ərazisində yeni salınmış 1 və 2 nömrəli yaşayış qəsəbələrində yol-küçə şəbəkəsinin tikintisi (2008-ci il), Biləsuvar rayonu ərazisində salınan 3 nömrəli qəsəbədə inzibati bina anbar ilə birlikdə, poçt şöbəsi, klub – icma mərkəzi, 50 yerlik uşaq bağçası və yanğınsöndürmə deposunun tikintisi (2008-ci il), Goranboy rayonunun Aşağı









1. Mingəçevir şəhərində Gənclər Mərkəzi. 2. Goranboy rayonunun Aşağı Ağcakənd kəndində 220 ş/yerlik məktəb binası. 3. Şəki rayonunda məcburi köçkün qəsəbəsindən bir görüntü. 4. Ramana qəsəbəsində 80 mənzilli yaşayış evi.











1. Şabran şəhərində məcburi köçkün qəsəbəsindən bir görüntü. 2. Ağstafa rayonunda 115 yerlik uşaq bağçası. 3. Müşfiqabad qəsəbəsində 80 mənzilli yaşayış evi. 4. Laçın rayon təhsil şöbəsinin inzibati binası. 5. Ağstafa şəhərində 88 mənzilli yaşayış evi.





1. Ağstafa şəhərində Yeni Azərbaycan Partiyasının inzibati binası.
2. Balakən şəhərində məcburi köçkünlər üçün salınan yaşayış məhəlləsində 45 mənzilli yaşayiş evi

Ağcakənd kəndində 80 ədəd yaşayış evlərinin, yolküçə, elektrik təchizatı, içməli su təchizatı şəbəkəsinin və 15 siniflik orta məktəbin qazanxana ilə birlikdə tikintisi (2008-ci il), Goranboy rayonunda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin ərazisinin mühəndis hazırlığı, sel sularından mühafizəsi və qəsəbənin yol-küçə şəbəkəsinin tikintisi (2009-cu il), Bərdə rayonunun Mirzəxan kəndində yolların bərpası (2009-cu il), Ağdam rayonunda 59 ədəd yaşayış evlərinin, avtomobil körpüsünün tikintisi (2010-cu il), Yevlax rayonu ərazisində salınan yaşayış qəsəbəsində drenaj şəbəkəsinin tikintisi (2010-cu il), Ağcabədi rayonu ərazisində 51 ədəd yaşayış evlərinin tikintisi, Mingəçevir şəhəri ərazisində salınan yaşayış qəsəbəsində drenaj şəbəkəsinin tikintisi, Ağcabədi rayonu ərazisində salınan yaşayış qəsəbəsində mühəndis hazırlığı işləri, Şəki rayonu ərazisində 44 ədəd yaşayış evlərinin tikintisi, Şəki rayonu ərazisində salınan yaşayış qəsəbəsində mühəndis hazırlığı işləri, İmişli rayonu ərazisində salınan yeni yaşayış qəsəbəsində drenaj və suvarma şəbəkəsinin tikintisi, Bərdə rayonunda salınan yeni yaşayış qəsəbəsində şaquli planlaşdırma və drenaj şəbəkəsinin tikintisi (2010-2012-ci illər) layihələrini reallaşdırmışlar.

Hazırkı vaxtda isə onlar MKSİF-in xətti ilə Qaradağ rayonu ərazisində 80 mənzilli, 5 mərtəbəli yaşayış binasının tikintisini, Qaradağ rayonu ərazisində salınan yaşayış qəsəbəsində mühəndis hazırlığı işlərini, Ramana qəsəbəsində 80 mənzilli 5 mərtəbəli yaşayış binasının tikintisini, Balakən rayonunda 45 mənzilli yaşayış binasının tikintisini, Gəncə şəhərində 60 mənzilli yaşayış binasının tikintisini, Abşeron rayonunun Masazır kəndində salınan yeni yaşayış məhəlləsində ərazinin mühəndis hazırlığı işlərini, sosial obyektlərin (inzibati bina, ambulatoriya, poçt) tikintisini yüksək templə davam etdirirlər.

"Azəri Servis LTD" MMC kollektivinin işlədiyi ikinci böyük sifarişçi "Meliorasiya və Su Təsərrüfatı" ASC-dir. "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişi ilə "Taxtakörpü su anbarının tikintisi" layihəsi çərçivəsində Güləmli kəndində 70 evdən ibarət yaşayış qəsəbəsinin tikintisi (bütün infrastrukturla birlikdə) (2006-2007-ci illər), Qəbələ rayonu ərazisində açıq suyığıcı və qapalı suyığıcı qurğuların tikintisi (2007-ci il), Füzuli rayonu ərazisində açıq suyığıcı və qapalı suyığıcı qurğuların tikintisi (2007-ci il), Beyləqan rayonu ərazisində açıq suyığıcı və qapalı drenlərin tikintisi, (2007-2008-ci illər), Goranboy rayonu ərazisində 7 ədəd subartezian quyusunun qazılması (2008-ci il), Kür çayı boyunca bir neçə rayon ərazisində Kür çayının sahilində torpaq bəndin tikintisi (2010-2012-ci il) başa çatdırılmışdır.

"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişi əsasında həyata keçirilən digər layihələr - Ağcabədi rayonu ərazisində açıq və qapalı suyığıcıların, nasos stansiyasının və suyığıcı qurğuların tikintisi (2007-2012-ci illər), İsmayıllı rayonu ərazisində Göyçay çayında beton bəndin tikintisi (2004-2012-ci illər), İsmayıllı rayonu ərazisində Mican kəndi ərazisində açıq və qapalı drenlərin tikintisi (2007-2012-ci illər) və "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı işlər, o cümlədən, Abşeron rayonu üzrə "Saray, Mehdiabad və Digah qəsəbələrində, Novxanı, Fatmayı, Goradil və Məhəmmədli kəndlərində əkin və həyətyanı sahələrin su təminatının yaxşılaşdırılması tədbirləri" çərçivəsində Ab-

şeron rayonu Goradil kəndində yeni nasos stansiyalarının, boru xətlərinin və su hovuzlarının tikintisi uğurla davam etdirilir.

Hazırkı vaxtda "Azəri Servis LTD" MMC-nin kollektivi digər istiqamətlərdə də fəaliyyətini davam etdirir. Belə ki, Ağstafa Rayon İcra Hakimiyyətinin sifarişi ilə onlar Ağstafa şəhərində 1 girişli 4 mərtəbəli 16 mənzilli yaşayış binasının, Ağstafa şəhərində 5 mərtəbəli 88 mənzilli yaşayış binasının, 115 yerlik uşaq bağçasının, Ağstafa rayonunun Soyuqbulaq kəndində 220 şagird yerlik, Köçəskər kəndində 450 şagird yerlik və Göycəli kəndində 360 şagird yerlik orta məktəb binalarının tikintilərini, Laçın Rayon İcra Hakimiyyətinin sifarişi ilə Laçın rayon təhsil şöbəsinin inzibati binasının tikintisini və AR Gənclər və İdman Nazirliyinin sifarişi ilə Mingəçevir şəhərində Gənclər Mərkəzinin və digər bir sıra layihələrin tikintilərini davam etdirirlər.

"Azəri Servis LTD" MMC-nin kollektivi həmçinin "Azərsu" ASC-nin sifarişi ilə Bakı şəhəri, Xətai rayonu, Ə.Şıxlinskiy-Mehmandarov küçələrində su xəttinin çəkilişini (2011-ci il), Bakı şəhərinin Nərimanov, Xətai, Nəsimi, Səbail rayonları ərazisində yeni su və kanalizasiya xəttlərinin çəkilişi (2012-ci il), Ağstafa Rayon İcra Hakimiyyətinin sifarişi ilə Ağstafa rayonunda Poylu-Xətai-Yenigün-Aşağı Göycəli avtomobil yolunun təmiri işlərini (2011-ci il) və YAP Ağstafa rayon təşkilatının yeni inzibati binasının tikintisini başa çatdırmışdır.

Qeyd edək ki, Prezident İlham Əliyev cənabları dəfələrlə "Azəri Servis LTD" MMC kollektivinin tikdiyi obyektlərdə olmuş, onların əməyini yüksək qiymətləndirmişdir.

2012-ci ilin aprelin 12-də Ağstafa rayonuna səfəri çərçivəsində də Azərbaycan Prezidenti cənab İlham Əliyev "Azəri Servis LTD" MMC kollektivinin inşa etdiyi 2 obyektin - YAP Ağstafa rayon təşkilatının yeni inzibati binasının və ümumi uzunluğu 7,5 kilometr olan və 11 mindən çox əhalinin yaşadığı Poylu, Xətai, Yenigün və Aşağı Göyçəli kəndlərini birləşdirən avtomobil yolunun açılışlarında iştirak etmiş və hər iki obyektdə görülən tikinti-quraşdırma işlərini yüksək qiymətləndirmişdir.

N.N. Mustafazadə 32 ildir ki, ölkə tikintisində inamla yol gəlir. Harda, hansı vəzifədə işləməyindən asılı olmayaraq o, hər zaman tapşırılan bütün işlərə çox ciddi və məsuliyyətlə yanaşmış, böyük uğurlara imza atmışdır. Onun üçün işin böyüyü və yaxud kiçiyi yoxdur. İş tapşırılıbsa mütləq vaxtında və yüksək keyfiyyətlə icra olunmalıdır. O, rəhbərlik etdiyi bütün təşkilatlarda belə işləyib. Və böyük zəhmət bahasına yaradıb inkişaf etdirdiyi "Azəri Servis LTD" MMC-in kollektivini də illərdir ki, bu metodla idarə edir, bütün kollektiv vahid məqsəd ətrafında birləşib. Arxada qalan illərdə əldə olunan nailiyyətlər göstərir ki, onun iş metodu doğru-düzgündür. Bu, bazar iqtisadiyyatı şəraitində uğur qazanmaq yoludur. Və nəticə göz önündədir: "Azəri Servis LTD" MMC bu gün sifarişçilərin daha çox etibar etdiyi nüfuzlu inşaat qurumlarından birinə çevrilmişdir.

Nasir Mustafazadə hər zaman böyük kollektivlərlə işləyib, insanlarla sıx ünsiyyətdə olub. O, xalq üçün gərəkli bir ömür yaşayıb və həmişə öz üzərində işləyən adam olub. O, bu gün də öz üzərində çalışır.

Nasir Mustafazadə səmimi dost, nümunəvi ailə başçısı, sevilən atadır, xeyirxah və ziyalı insandır, mütərəqqi şəxsdir və ən başlıcası bacarıqlı inşaatçı-mühəndisdir.

Onun həyatda və ölkə inşaatında qazanacağı böyük uğurlar hələ qabaqdadır.



Munşiyev
Kamil
Məmməd oğlu

1937-ci ildə Bakıda anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikintisi fakültəsini bitirib inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Tələbəlik illərindən əmək fəaliyyətinə başlamış, ömrünün son günlərinədək respublikamızın müxtəlif tikinti meydançalarında və tikinti üzrə idarəetmə orqanlarında çalışmış, Bakı Məişət Kondisionerləri zavodunda direktorun əsaslı tikinti üzrə müavini olmuşdur. 4 nömrəli Tikinti Tresrinin müdiri işlədiyi dövrdə Bakıda 3 nömrəli Evtikmə Kombinatı, Yevlaxda Yunun İlkin Emalı fabriki, Şəki İpək Kombinatı, Xırdalandakı Xəz Məmulatları zavodu, Dərin Özüllər zavodu tikilmiş, bir neçə maşınqayırma zavodunda genişləndirmə işləri başa çatdırılmışdır.

K.M. Munşiyev müxtəlif vaxtlarda Sənaye Tikinti Nazirinin birinci müavini, Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin müavini işləmişdir. Dəfələrlə Nərimanov rayon və Bakı şəhər Sovetinə deputat seçilmiş, Nərimanov rayon Partiya Komitəsinin üzvü olmuşdur. Onun əməyi "Qırmızı Əmək Bayrağı" ordeni ilə qiymətləndirilmişdir. Ömrünün son illərində "Azərdövlətsənayelayihə" İnstitutunun direktoru işləmişdir.



Musayev
Zakif
Əlif oğlu

10 fevral 1937-ci ildə Füzuli rayonunun Qarakollu kəndində anadan olmuş, orta məktəbi bitirib, ordu sıralarına xidmətə getmiş, 1961-ci ildə hərbi xidməti başa vurub Sumqayıta gəlmişdir. İlk dəfə Sumqayıt "SK" zavodunda çilingər kimi əmək fəaliyyətinə başlamışdır (1962-ci il). İstehsalatdan ayrılmadan M.Əzizbəyov adına Neft-Kimya İnstitutunun neft mexanikası fakültəsinə daxil olmuş və mühəndis-mexanik ixtisasına yiyələnmişdir. 1963-1966-cı illərdə texniki konstruktur, 1966-1970-ci illərdə isə Sumqayıt Təmir Tikinti-Quraşdırma Trestinin 2 nömrəli Tikinti İdarəsində sahə rəisi işləmişdir. 1970-1977-ci illərdə Sumqayıt "Ximprom"da Təmir Tikinti-Quraşdırma İdarəsində sahə rəisi olmuşdur.

Z. Ə. Musayev köçürmə yolu ilə 1977-1986-cı illərdə "Azərbaşmeliosutikinti" Sənaye Materialları Trestinə gəlmiş, burada sahə rəisi kimi fəaliyyət göstərmişdir. 1986-cı ildə 20 nömrəli MSD-yə köçürülmüş və orada sahə rəisi işləmişdir. 1987-ci ildə Sənaye Tikinti trestinin 27 nömrəli tikinti idarəsində rəis vəzifəsinə təyin olunmuş bu vəzifədə 1990-ci ilədək çalışmışdır. 1990-1993-cü illərdə Sumqayıt Təmir Tikinti Trestinin sənaye kombinatında direktor vəzifəsində, 1993-1996-cı illərdə həmin trestin təmir tikinti-quraşdırma idarəsində sahə rəisi olmuşdur.

Z. Ə. Musayev sonra Samur-Abşeron Su Tikinti

Trestinə köçürülmüş, burada sahə rəisi işləmişdir. 2004-cü ildən Abşeron Su Tikinti törəmə müəssisəsində sahə rəisi işləyir.

Tikinti kompleksində işlədiyi müddətdə irili-xırdalı 10-dan çox səmərəli təkliflər irəli sürmüş və həyata keçirmişdir. Şəkidə, Tovuzda, Qazaxda, Cəbrayılda, Füzulidə, Beyləqanda tikilən istehsalat bazalarında, təhsil, səhiyyə ocaqlarında, təzə salınan qəsəbələrdə əl izləri qoymuşdur. Nazirlik, komitə, trest, Baş idarə rəhbərliyindən mükafatlar almış, döş nişanları ilə və fəxri fərmanlarla təltif olunmuşdur.



Mustafayev
Darvin
Nəsrəddin oğlu

9 mart 1949-cu ildə Gürcüstanda ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra (1966-cı il) Bakıya gəlmiş Bakı Baş Tikinti İdarəsinin 9 nömrəli tikinti idarəsində fəhlə işləməyə başlamış və istehsalatdan ayrılmadan Azərbaycan Politexnik İnstitutunun axşam şöbəsində təhsil almışdır. (1956-1972-ci illər). Adi fəhləlikdən tikinti trestinin müdiri vəzifəsinədək yüksəlmiş, başçılıq etdiyi tikinti kollektivləri qabaqcıllar sırasında olmuşdur.

Əl izləri ən mühüm buraxılış obyektləri çoxdur. Onlardan Bakıdakı 9 və 5 mərtəbəli yaşayış evləri, Bakı Sirkinin binası, Heydər Əliyev Sarayı, Ceyranbatan və Xırdalan qəsəbələrində müxtəlif obyektlər, Abşeron rayonunda qaçqınlar üçün yaşayış evləri, Polimer Tikinti Materialları zavodu və s.

Darvin Mustafayevin inşaatçı-mühəndis kimi əsas fəaliyyət illləri "Azərkəndtikinti" ASC ilə bağlıdır. O, kənd tikinti rəhbərliyinin bütün tapşırıqlarını vicdanla və məsuliyyətlə yerinə yetirmiş, kollektivdə nüfuz qazanmışdır.

On ildən çoxdur ki, 2 nömrəli tikinti trestinin bazasında yaradılmış tikinti bölməsinə bacarıqla rəhbərlik edir.



Mürvələdov
Aydın
Qurban oğlu

1961-ci il yanvarın 13-də Gürcüstan Respublikasının Dmanisi rayonunun Yaqublu kəndində anadan olub. O, 1968-1976-cı illərdə Yaqublu kənd səkkizillik məktəbində təhsil alıb. 1976-1978-ci illərdə Bakıdakı 1 nömrəli fizika-riyaziyyat təmayüllü internat məktəbdə orta təhsilini davam etdirən yeniyetmə Aydın həmin məktəbi bitirdikdən sonra Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun inşaat fakültəsinin axşam şöbəsinə daxil olur və ali təhsil almağa başlayır.

A.Q. Mürvələdov 1978-ci ildən taleyini Bakı şəhərinə bağlamışdır. Belə ki, o, 12 oktyabr 1978-ci ildən Bakı Baş Tikinti İdarəsinin 1 nömrəli tikinti idarəsində işləməyə başlayıb. 1980-1982-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Hərbi xidməti başa vurduqdan sonra Aydın Mürvələdov institutun axşam şöbəsində təhsil almaqla bərabər 1 nömrəli tikinti idarəsində rəngsaz kimi əmək fəaliyyətini davam etdirmişdir.

Onun Bakı Baş Tikinti İdarəsində fəhləlikdən başlanan yolu bacarıq və qabiliyyəti sayəsində daha yüksək pillələrə qalxır. Sənətinə olan sonsuz sevgisini nəzərə alıb onu 3 fevral 1986-cı ildən tikinti ustası vəzifəsinə irəli çəkirlər. O, 1987-ci ildə institutu müvəffəq qiymətlərlə başa vurur.

A.Q. Mürvələdov 1987-1994-cü illərdə BBTİ Bəzək Tamamlama trestinin 1 nömrəli tikinti idarəsində anbar müdiri, tikinti ustası və baş təchizatçı vəzifələrində çalışmışdır. 1994-1997-ci illərdə isə baza müdiri vəzifəsini vicdanla icra etmişdir.

1997-ci ilin 3 avqustunda A.Q. Mürvələdov 1 nömrəli İxtisaslaşdırılmış Tikinti İdarəsinin rəisi vəzifəsinə irəli çəkilir və BBTİ-nin son dövrlərinə kimi bu idarəyə müvəffəqiyyətlə rəhbərlik edir. 3 may 2002-ci il tarixində 1948-ci ildən fəaliyyət göstərən 1 nömrəli tikinti idarəsinin özəlləşdirilməsi ilə əlaqədar olaraq həmin idarənin bazasında "MAQ" ltd şirkəti MMC yaradılmış və həmin vaxtdan 2005-ci ilinin iyulunacan A.Q. Mürvələdov həmin şirkətin təsisçisi və baş direktoru vəzifəsində çalışmışdır. "MAQ" ltd şirkəti MMC bu gün də Aydın Mürvələdovun təsisçiyi ilə tikinti kompleksində böyük layihələrə həyat verir.

A.Q. Mürvələdov 2005-ci ilin iyulundan Bakı Tikinti və Şəhərin İnkişafı Şirkətinin baş direktorudur.

A.Q. Mürvələdov 1 nömrəli tikinti idarəsində



1



2



3

1. Kürdəmir Olimpiya İdman Kompleksi. **2.** Gənclər və İdman Nazirliyinin Atıcılıq Kompleksi.
3. Azərbaycan Respublikası Prezidentinin Qış İqamətgahının inzibati binası.

məsul işlərdə çalışdığı illərdə baş idarəyə müxtəlif illərdə rəhbərlik etmiş Əzim Məsimov, Sabir Rzayev, Fuad Eyvazov, Əli Təhməzov, Rauf Gülməmmədov, Kamil Quliyev və Xəlilbəy Günəşov kimi ustadlardan həyat dərsi almışdır. Bu şəxsiyyət insanlar onlara zəhmətsevərliyi, sözübütövlüyü, nəyi necə və nə cür tikməyi, insana qayğının yollarını sevə-sevə öyrətmişlər.

A.Q. Mürvələdov ilk cavanlıq illərində Semaşko xəstəxana kompleksinin tikintisində, "Gülüstan" sarayında, 8-ci kilometr qəsəbəsindəki yaşayış evlərində, Ali Sovetin inzibati binasında, Mərdəkandakı xəstəxana kompleksində, indiki Bakıxanov qəsəbəsindəki doğum evində, Xoreoqrafiya məktəbinin binasında dəyərli əl izləri qoymuşdur. 1985-ci ildə mühəndis vəzifəsinə yüksələn A. Mürvələdov həmin illərdə 1 nömrəli tikinti idarəsinin bütün obyektlərində iştirak edib. 4-cü mikrorayonda Əlillər üçün yaşayış evi, "Azərsu" ASC-nin inzibati binasının yenidən qurulması, 6 nömrəli məktəbin yenidən qurulması, MSK-nın Seçkilər İnformasiya Mərkəzinin inzibati binasının – (keçmiş Bakı Baş Tikinti İdarəsinin binası) əsaslı təmiri işlərini həyata keçirib. Bakı zəlzələsindən sonra isə çoxlu sayda obyektlərin bərpa və gücləndirmə layihələrini - bu sıradan Konstitusiya Məhkəməsinin, Hacıniskinin binasının və digər obyektlərin bərpa işlərinə rəhbərlik edib.

Bundan sonra Aydın Mürvələdova ölkə tikinti kompleksində daha iri layihələr etibar olunub.

Son 10 il ərzində Aydın Mürvələdovun rəhbərliyi

Dövlət Gömrük Komitəsinin inzibati binası.

altında Bakı Tikinti və Şəhərin İnkişafı Şirkəti MMC-nin və "MAQ" ltd Şirkəti MMC-nin xətti ilə tikilib istifadəyə verilən obyektlərin müəyyən bir qismino nəzər salmaq kifayətdir ki, Aydın müəllimin ölkə tikinti kompleksindəki çağdaş rolunu qiymətləndirə bilək.

Son illərdə respublikada olan ən müxtəlif funksiyalı obyektlərin əksəriyyəti bu təşkilatın, bu işgüzar kollektivin əməyi ilə hasilə gəlmişdir. Gəlin son bir neçə ildə tikilib istifadəyə verilmiş obyektlərin bir neçəsini sadalayaq: Kürdəmir rayonunda şəhər stadionunun rekonstrukiyası, Binə qəsəbəsində klub və yeni kitabxana binası, Azərbaycan Respublikası Prezidentinin "Gənclik" İqamətgahında inzibati bina, Azərbaycan Respublikası Prezidentinin Sonaxanım Vəlixanlı küçəsindəki 4 ədəd 4 mərtəbəlt Qonaq Evi kompleksində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Zaqulba qəsəbəsindəki Pansionatında 2 ədəd 3 bloklu, 6 mərtəbəli yaşayış evinin tikintisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Zaqulba qəsəbəsindəki Pansionatında 12 ədəd 2 mərtəbəli kotteclərin tikintisi, Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) Xaçmaz və Siyəzən rayonlarında yataqxana binalarının tikintisi, XDMX-nın Xətai rayonu ərazisində Qaçaq Nəbi küçəsində yaşayış evləri, XDMX-nın Nabranda "Ulduz" İstirahət mərkəzinin tikintisi, Kürdəmir Olimpiya İdman Kompleksinin tikintisi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Zaqulba Pansionatında 3 mərtəbəli 30 mənzilli yaşayış evinin tikintisi, XDMX-nin Badamdar qəsəbəsində Avtomobil Parkının tikintisi, Gömrük Komitəsinin inzibati binasının tikintisi, Gənclər və İdman Nazirliyinin Atıcılıq Kompleksi, Respublika kinoloji bazasının tikintisi, Qusar rayonunda Qarabağ Müharibəsi veteranları və əlilləri üçün yaşayış binasının tikintisi və digər çoxlu sayda obyektlər Aydın Mürvələdovun gərgin zəhməti sayəsində ərsəyə gəlmişdir.



Sonaxanım Vəlixanlı küçəsində Qonaq evləri.

Və görülən böyük işlərin yekunu kimi tikinti sahəsindəki çoxşaxəli və səmərəli fəaliyyətinə görə A.Q. Mürvələdov Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ən yüksək ada – Respublikanın Əməkdar Mühəndisi fəxri adına layiq görüldü.

Ancaq A.Q. Mürvələdovun yaradıcılıqla zəngin inşaatçı ömrü hələ qabaqdadır. Onun inşaat yönümündə, tikinti cəbhəsində daha böyük uğurlar qazanacağına əminik.

Bu gün mübaliğəsiz deyə bilərik ki, ölkə tikintisində 34 illik əmək staji olan Aydın müəllimin həyatı, inşaatla bağlı fəaliyyəti çox yaşıdlarına örnək ola bilər.



Muxtarzadə İbrahim Qənbər oğlu

2 aprel 1951-ci ildə Lerik rayonundakı Qışlaq kəndində anadan olub. 1952-ci ildə ailəlikcə Puşkin (indiki Biləsuvar) rayonuna köçmüşlər. 1968-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1973-cü ildə ali təhsilini başa vuraraq təyinatla Baş Kolxozlararası Tikinti İdarəsinə, oradan isə Ucar Dəmir Beton Məmulatları Kombinatına göndərilmişdir. Kombinatda iş ustası (1973-1974-cü illər), sahə rəisi (1974-1975-ci illər), baş mühəndis (1975-1976-cı illər) vəzifələrində fəaliyyət göstərmişdir. 1976-cı ildə isə Baş İdarənin göstərişi əsasında Salyan rayonundakı 3 nömrəli kolxozlararası tikinti trestinin inşaat materialları və konstruksiyaları istehsal edən kombinatına direktor vəzifəsinə köçürülmüşdür.

İ.Q. Muxtarzadə 1977-ci ildən həyatını Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinə bağlamışdır. Əvvəlcə nazirliyin Göyçaydakı 6 nömrəli yol tikinti idarəsində ASZ müdiri, sonra işə baş mühəndis vəzifələrində işləmişdir. 1990-2005-ci illərdə "Azəravtoyol" Dövlət Şirkətində Tikilən obyektlərin müdiriyyətinin rəisi vəzifəsində fəaliyyət göstərmişdir. Bu müddət ərzində Ucar-Zərdab, Göyçay-Ucar, Qaraməryəm-Ağdaş, Bakı-Astara, Ələt-Qazıməmməd, Bakı-Qazax, Bakı-Quba avtomobil yollarının və onların üzərində körpülərin tikintisi və təmirinə bilavasitə rəhbərlik etmişdir.



Azərbaycan Respublikası Milli Məclisinin binası





Milli Məclisin daxili dizayn işləri "Azəraqrartikinti" ASC-nin Bakı Tikinti Mexanikləşdirmə Filialının ustaları tərəfindən İbrahim Muxtarzadənin rəhbərliyi altında yüksək peşəkarlıqla və zövqlə işlənmişdir.

İ.Q. Muxtarzadə 2005-ci ildən onun üçün doğma olan kollektivə, ilk dəfə əmək fəaliyyətinə başladığı - "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinə (keçmiş Baş Kolxozlararası Tikinti İdarəsi) qayıtmışdır. 8 ildir ki, həmin Səhmdar Cəmiyyətin Bakı Tikinti Mexanikləşdirmə filialına rəhbərlik edir. Azərbaycan Respublikası Milli Məclisinin 15 mərtəbəli yeni binasının tikintisi üzrə keçirilmiş tenderdə "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti qalib gəlmiş və həmin mühüm obyektin tikintisini İ.Q. Muxtarzadənin rəhbərlik etdiyi filiala həvalə etmişdir. Kollektiv etimadı doğrultmuş və obyekt nəzərdə tuyulan vaxtda - 2009-cu ildə istismara buraxılmışdır. Həmin inzibati binanın tikintisində dünyanın ən qabaqcıl şirkətlərinin istehsal etdiyi qranit, mərmər, kafel, metlax, parket, armatur yayması, beton, suvaq materialları, qiymətli ağaclardan divar üzlük materialları və s. istifadə olunmuşdur.

İ.Q. Muxtarzadə tikinti kompleksində müxtəlif məsul və rəhbər vəzifələrdə işlədiyi müddətdə irili-xırdalı yüzədək səmərəli təkliflər irəli sürmüş və onların əksəriyyəti həyata keçmişdir.



Mütəllimov Akif Üzüməli oğlu

1957-ci il sentyabrın 2-də Dəvəçi rayonunun Xəlilli kəndində müəllim ailəsində anadan olub. O, 1972-ci ildə Xəlilli kənd orta məktəbinin səkkizinci sinfini bitirib Bakıya gələrək Bakı Politexnik Texnikumunun inşaat fakültəsinə əyani qəbul olunub və sənaye-mülki tikinti şöbəsində təhsil alaraq 1976-cı ilin may ayında texnikumu müvəffəq qiymətlərlə başa vurub, inşaatçı-texnik ixtisasına yiyələnib. 1976-1978-ci illərdə gənc Akif Sovet Ordusu sıralarında hərbi xidmətdə olub.

A.Ü. Mütəllimov ordudan tərxis olunduqdan bir ay sonra – 1978-ci ilin iyununda inşaat yönümündə fəaliyyətə başlayır. Belə ki, o, Dəvəçi "Sovxoztikinti" idarəsində tikinti ustası kimi işə başlamış və 1985-ci ilə qədər burada müxtəlif vəzifə pillələrini aşaraq idarənin baş mühəndisi olmuşdur. 1985-1989-cu illərdə isə artıq inşaat yönümündə baş mühəndis kimi özünü doğrultmuş Akif Mütəllimov Dəvəçi təmir-tikinti sahəsinin rəisi vəzifəsində də qüsursuz çalışmış və Dəvəçidə təmir-tikinti, abadlıq və yenidənqurma yönümündə yaddaqalan işlər görmüşdür. Bu illərdə o, həmçinin rayon camaatının dərin hörmətini qazanmış, nüfuzlu və hörmətli şəxs kimi tanınmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində A.Ü. Mütəllimov təhsilini davam etdirmək, ali təhsil almaq barədə düşünmüş və 1988-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının qiyabi şöbəsinə qəbul olunaraq burada 1994-cü ilə qədər təhsil almış və "Neft və qaz mədənlərinin maşın və avadanlıqları" ixtisası üzrə tam kursu bitirərək mühəndis-texnik ixtisasına yiyələnmişdir.

A.Ü. Mütəllimov 1989-1990-cı illərdə "Azəraqrarsənayetikinti" Birliyinin Dəvəçi rayonunda yerləşən 15 nömrəli SMD-nə, 1990-1996-cı illərdə isə Qaaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Dəvəçi rayonunda yenicə yaradılmış 7 nömrəli SMD-nə rəhbərlik etmişdir.

A.Ü. Mütəllimov 1996-cı ilin martından bu günəcən "Azərkəndtikinti" ASC-nin Dəvəçi rayonunda yerləşən 11 nömrəli "Kəndtikinti" trestinin sükanı arxasındadır. O, trest müdiri kimi getdikcə yeni nailiyyətlər qazanır.

A.Ü. Mütəllimov hansı tikinti təşkilatında çalışıbsa, onun tikdikləri Dəvəçi rayonunun gözəlləşməsinə, rayon camaatının firavanlığına xidmət edib. Çünki hərbi xodmətdən dönüb inşaatçı kimi fəaliyyətə başladığı vaxtdan Dəvəçidə yaşayıb, işləyir.

Son illərdə isə Akif müəllimin kollektivi respublikamızın paytaxtından tutmuş ayrı-ayrı bölgələrinəcən bütün ünvanlarda tikinti-quraşdırma işləri aparırlar.

11 nömrəli "Kəndtikinti" trestinin kollektivi 2003-2004-cü illərdə respublika büdcəsindən ayrılmış vəsait hesabına Qusar rayonunun Avaran kəndində 192 şagird yerlik orta məktəb binasının tikintisini, 2004-cü il ərzində "Qara-Heybət-1" hərbi şəhərciyinin yenidən qurulması – 800/1600 yerlik yeməkxana – layihəsinin həyata keçirmişlər.

A.Ü. Mütəllimovun rəhbərlik etdiyi trestin inşaatçıları 2005-ci ildə Heydər Əliyev Fondunun vəsaiti ilə millət vəkili, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə başlamış "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində respublkamızın bir neçə rayonunda məktəb binalarının tikintisini aparmış və vaxtında şagirdlərin istifadəsinə vermişlər.

Həmçinin onlar Dəvəçi rayonunun Dəvəçikənd yaşayış massivində 3 nömrəli orta məktəbin gücləndirilməsi işlərini və əsaslı təmirini həyata keçirmişlər.

Akif Mütəllimov bu xalq üçün 3 oğul, 3 əsgər böyüdüb. Onların bu Vətən üçün gərəkli insan olmaları üçün nə lazımsa edib. Hər üçü ordu sıralarında xidməti borcunu yerinə yetirib. Hər üçü ali təhsillidir və öz ixtisaslarına uyğun sahələrdə çalışır, vətənə xidmət edirlər.

N



Nağıyev
Nizami
Həsən oğlu

1943-cü ildə Gəncə şəhərində anadan olmuşdur. 1944-cü ildə ailələri Bakı şəhərinə köçmüşdür.

N.H. Nağıyev 1950-1960-cı illərdə Bakıdakı 160 nömrəli rusdilli məktəbdə orta təhsil almışdır.

N.H. Nağıyev 1967-ci ildə Rusiyanın Leninqrad (Sankt-Peterburq) şəhərində İnşaat Mühəndisləri İnstitutunun "şəhərsalma" fakültəsinin memarlıq bölməsini bitirmişdir.

N.H. Nağıyev 1969-cu ildən 1972-ci ilə qədər Rusiyanın Moskva şəhəri şəhərsalma sahəsində Elmi-Tədqiqat institutunun aspirantı olaraq 1974-cü ildə memarlıq namizədi elmi dərəcəsini almışdır. O, eyni zamanda memarlıq sahəsi üzrə fəlsəfə doktorudur.

N.H. Nağıyev 1967-ci ildən praktiki fəaliyyətini, elmi işini və tədrisini birləşdirərək Bakının ayrı-ayrı elmi-tədqiqat və layihə institutlarında ixtisası üzrə işləyirdi.

Əsas iş yerləri: 1975-1978-ci illər – "Azərdövlətlayihə" Layihə İnstitutunun Memarlıq emalatxanasının rəhbəri; 1978-1980-ci illər – Azərbaycan Respublikası Dövlət Tikinti Komitəsinin mənzil tikintisi idarəsinin rəisi; 1980-1989-cu illər – "Sentrosoyuzproyekt" Layihə İnstitutunun Bakı filialının baş mühəndisi, həmin institutun rəisi; 1989-1996-cı illər – Azərbaycan Respublikası Dövlət Tikinti Komitəsinin sədr müavini, sədrin birinci müavini, sədr əvəzi; 1995-ci ildən indiki vaxta qədər AzMİU-nun "Memarlıq Layihələndirilməsi və şəhərsalma" kafedrasının professoru; 1997-2001-ci illər – AzMİU-nun memarlıq fakültəsinin dekanı; 2001-ci ildən indiki vaxta qədər AzMİU-nun "Memarlığın əsasları" kafedrasının müdiri.

N.H. Nağıyev 1969-cu ildən Azərbaycan Memarlar İttifaqının üzvlüyünə qəbul edilmişdir. O, 1970-ci ildə Memarlar İttifaqı Rəyasət Heyətinin üzvü, 1975-1990-cı illərdə Azərbaycan Memarlar İttifaqının katibi seçilmişdir. 1985-ci ildə isə SSRİ Memarlar İttifaqının Rəyasət Heyətinə seçilmişdir.

N.H. Nağıyevə 1990-cı ildə Azərbaycanın Əməkdar Memarı fəxri adı verilmişdir.

1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının memarlıq doktoru elmi dərəcəsi verilmişdir, 1997-cü ildə Beynəlxalq Ekoakademiyasının professor-doktoru adı verilmişdir, 1995-ci ildə Azərbaycan Dövlət Tikinti Komitəsinin İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun fəxri doktoru seçilmişdir.

N.H. Nağıyev 1992-ci ildə Şərq Ölkələri Bynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü, 1994-cü ildən həmin Akademiyanın Vitse-Prezidenti seçilmişdir.

O, 1995-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində professor vəzifəsində çalışır.

1995-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Şurasının və universitetdə fəaliyyət göstərən dissertasiya şurasının üzvüdür.

Universitetdə aparılan bir çox elmi-tədqiqat işlərinin fəal iştirakçısıdır və bir sıra dərsliklərin və dərs vəsaitlərinin müəllifidir.

2011-ci ildə professor Nizami Həsən oğlu Nağıyevin "Azərbaycanın müasir şəhərsalması" adlı böyük monoqrafiyası nəşr edilmişdir.

N.H. Nağıyev Azərbaycanın bir çox şəhərlərinin və yaşayış qəsəbələrinin baş planlarının, 100-dən çox tikinti layihəsinin və 20-dən çox elmi-tədqiqat işlərinin müəllifidir.

N.H. Nağıyev 1983-cü və 1985-ci illərdə SSRİ Memarlar İttifaqının "İlin ən yaxşı layihəsi" müsabiqələrində və sərgilərində qızıl medal və diplomlara layiq görülmüşdür.



Nağıyev
Yusif
Həsən oğlu

21 mart 1945-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1952-1962-ci illərdə Bakı şəhərindəki 160 nömrəli rus dilli məktəbdə orta təhsil alıb.

1963-1964-cü illərdə Leninqrad Politexnik İnstitutunun radioelektronika fakültəsində təhsil alan Y.H. Nağıyev 1967-1974-cü illərdə Moskva şəhərində Ümumittifaq Yeyinti Sənaye İnstitutunun mühəndis iqtisadiyyat fakültəsində təhsil alaraq mühəndis-iqtisadçı ixtisasına yiyələnmişdir.

Y.H. Nağıyev ilk əmək fəaliyyətinə 1962-ci ildə Bakı radio zavodunda başlamış və 1966-cı ilə kimi burada I dərəcəli yığıçı, II dərəcəli tənzimləyici vəzifəsində işləmişdir. 1966-1967-ci illərdə isə o, Bakı Kondisioner zavodunda IV dərəcəli yığıçı-çilingər vəzifəsində çalışmış, müəssisənin və rayonun ictimai həyatında fəal iştirak etmişdir.

Y.H. Nağıyev 1967-1969-cu illərdə Nərimanov rayon Komsomol Komitəsi Bakı Yeyinti Sənaye Texnikumunda komsmol komitə katibi, 1969-1974 -cü illərdə Bakı şəhər Komsomol Komitəsində təlimatçı, şöbə rəisinin müavini, 1974-1977-ci illərdə Azərbaycan KP MK Bakı şəhər Partiya Komitəsinin təşkilat şöbəsində təlimatçı vəzifəsində çalışmışdır.

O, 1977-ci ildən ixtisası üzrə "Qipropişepnom – 2" layihə institutunun Bakı filialında – indiki "Azərinşaatlayihə" DBLKT İnstitutunda böyük mühəndis kimi işə başlamış, sonrakı illərdə qrup rəhbəri, bölmə rəhbəri, baş mütəxəssis, texniki şöbənin rəisi, istehsalat üzrə direktor müavini vəzifələrində işləmişdir.

Y.H. Nağıyev 1993-cü ilin mart ayından – 19 ildir ki, "Azərinşaatlayihə" DBLKT İnstitutunun direktoru vəzifəsində işləyir.

Y.H. Nağıyev 1975-1977-ci illərdə Bakı şəhəri Oktyabr rayon sovetinin deputatı olmuş, bir millət vəkili kimi seçicilərinin mövcud problemlərinin həllində onlara yaxından köməklik göstərmişdir.

O, 12 may 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür.


İnstitut 1966-cı ildə yaranıb. Belə ki, Aqrar Sənaye Kompleksinin obyekt və müəssisələrini layihə-smeta sənədləri ilə təmin etmək üçün 1966-cı ildə keçmiş SSRİ Yeyinti Nazirliyinin əmri ilə Moskvada fəaliyyət göstərən 1974-cü ildə adı dəyişdirilərək "Qipropişeprom-2" olan "Qiprospirtvino" İnstitutunun Bakıda kompleks layihə şöbəsi təşkil edilmişdir. 1975-ci ilin fevralında isə bu kompleks layihə şöbəsi keçmiş SSRİ Yeyinti Sənayesi Nazirliyinin əmri ilə 2 nömrəli Yeyinti Sənayesi Layihə İnstitutunun Bakı filialına çevrilmişdir.

1994-cü ildə instituta "Azərdövlətətsüdsənayelayihə" İnstitutu birləşdirilmiş və institutun adı "Azəryeyintiətsüdsənayelayihə" Dövlət Baş Layihə Konstruktor Texnoloji İnstitutuna dəyişdirilmişdir. İnstitut bu ad altında 2004-cü ilə kimi fəaliyyət göstərmiş və məhz bu illərdə ölkənin layihə sektorunda aparıcı layihə qurumlarından biri kimi özünü təsdiq etmiş, görülən böyük işlərlə institutun maddi-texniki bazasının möhkəmləndirilməsinə nail olunmuşdur.

Dövlət Tikinti və Arxitektura Komitəsinin 22 iyun 2004-cü il tarixli 135 nömrəli əmri ilə institutun adı yenidən başqa bir ada "Azərinşaatlayihə" Dövlət Baş Layihə Konstruktor İnstitutuna dəyişdirilmişdir. Elə buradaca qeyd edək ki, fəaliyyət göstərdiyi illər ərzində institut yüksək maddi-texniki təchizatı olan yüksək səviyyəli, professional mütəxəssislərlə formalaşmış güclü bir müəssisəyə çevrilmişdir.









1. Qobustanda İdman Kompleksi. **2.** Dəvəçi rayonunda istirahət zonası.
3. Ekoloji nəzarət postu. **4.** Hacıqabul şəhərində 5 mərtəbəli yaşayış binası

Arxada qalan illər ərzində institutun layihəçiləri tərəfindən yüzərlə şərab zavodunun, şərab saxlama bazalarının, şərabçılıq tullantıları emal müəssisələrinin layihə-smeta sənədləri hazırlanmaqla faktiki olaraq respublikamızda şərabçılıq sənayesi yaradılmış, 16 konserv zavodlarının, 40 çörəkbişirmə, makaron və qənnadı məmulatı sənayesi, yaşıl çay yarpağının emalı, tütün – fermentasiya zavodlarının, çörək məmulatları kombinatlarının, 37 ət-süd müəssisələrinin, 32 istifadədə olan ət-süd müəssisələrinin yeni avadanlıqla təmin edilərək yenidən qurulmasının layihələri hazırlanmışdır. Eyni zamanda çoxillik bitkilərin əkilməsi, bağların salınması üçün 400-dən çox layihə hazırlanmışdır ki, burada müasir aqrotexnikadan, mütərəqqi texnologiyadan və yeni inşaat konstruksiyalarından istifadə olunmuşdur.

Arxada qalan illərdə institut böyük bir təşkilata, layihə qurumuna çevrilmiş və burada yaxşı, professional mühəndis, layihəçi-konstruktor kadrlar yetişmişdir. Baxmayaraq ki, müasir tariximizin müəyyən mərhələsində durğunluq adlandırdığımız illər olub, ancaq institut heç zaman öz fəaliyyətinə ara verməmiş, bir gün də iş axsamamışdır. Əsasən 1993-cü ildə Ulu Öndər Heydər Əliyev ikinci dəfə Azər-









1. Hacıqabul şəhərində 12 mərtəbəli yaşayış binası. **2.** Buta qəsəbəsində 5 mərtəbəli yaşayış binası.
3. Balaxanı qəsəbəsində bərk məişət tullatılarının yandırılması zavodu.
4. Qaradağ Sement Zavodunda 6-cı sobanın yenidən qurulması.

baycan rəhbərliyinə qayıtdıqdan sonra institutda iş tempi artmağa başlamış və 1997-1998-ci illərdən institut tam gücü ilə işləməyə başlamışdır.

Son bir neçə illər ərzində Y.H. Nağıyevin rəhbərliyi altında institutun hazırladığı çoxsaylı layihələrlə respublikamızın bütün bölgələrində, eləcə də paytaxtımız Bakıda yüzlərlə irili-xırdalı mədəni-məişət və istehsalat obyektləri tikilərək istifadəyə verilmişdir.

2006-cı ildə "Azərinşaatlayihə" DBLKT İnstitutu Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin tabeçiliyinə verildiyi vaxtdan fəaliyyətində dönüş əmələ gəlmiş, yeni bir mərhələ başlamışdır.

2009-cu ildə Fövqəladə Hallar Nazirliyinin sifarişi ilə FHN üçün bir neçə obyektlərin layihələri hazırlanmışdır. Türkan qəsəbəsində Alayın layihəsi, Gəncə şəhərində briqadanın layihəsi və s. bu qəbildəndir. Həmçinin Sanqaçal qəsəbəsində 800 min tonluq taxıl saxlamaq üçün Elevatorun layihəsi, Xırdalan Pivə zavodunda yenidənqurma layihəsi, Yevlax şəhərində uşaq və gənclər idman məktəbinin layihəsi, Şamaxı rayonunda Astrofizika Rəsədxanasının əsaslı yenidən qurulması layihəsi hazırlanmışdır. Qeyd edək ki, Astrofizika Rəsədxanasının yenidən qurulması cənab Prezidentin Sərəncamı ilə həyata keçirilib.

Bundan başqa Şəki və Gəncə şəhərlərində arxiv binalarının, İmişli rayonunda qaçqınlar və məcburi köçkünlər üçün 550 ailəlik qəsəbənin, Füzuli rayonunun Horadiz qəsəbəsində Olimpiya İdman Kompleksinin, Sabunçu rayonu ərazisində məcburi köçkünlər üçün 5 mərtəbəli 70 mənzilli yaşayış evinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə əlil və şəhid ailələri üçün 3 ədəd 9 mərtəbəli 81 mənzilli yaşayış binalarının layihələri işlənmiş və bütün bu layihələrə müəllif nəzarəti yüksək səviyyədə həyata keçirilmişdir. Əsasən də büdcədən maliyyələşdirilən layihələrə daha ciddi nəzarət olunmuşdur.

2009-cu ildə "Azərinşaatlayihə" DBLKTİ-nin layihəçiləri həmçinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişinə əsasən respublikamızın 5 rayonunun - Qəbələ, Oğuz, Ağstafa, Qazax və İmişli şəhərlərinin baş planlarını işləyib hazırlamış və təhvil vermişlər.

Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Bakı şəhərində Laboratoriya binası, Sumqayıtda, Lənkəranda və digər rayonlarda isə onların ərazi bölmələri üçün iki mərtəbəli binaların, Abşeron rayonunun Xırdalan şəhərində Zəhmət-Ruzi şirkəti üçün istehsal sahəsi kompleksinin layihələri də görülən işlər sırasındadır.

2008-2009-cu illərdə institutda respublikamızın bir neçə rayonları üçün abadlaşdırma və yenidənqurma layihələri aparılıbdır. Belə ki, Şamaxı, Goranboy, Tovuz, Dəvəçi, Qobustan və Biləsuvar rayonlarında parklar, istirahət ünvanları və digər abadlıq işlərinin layihələri hazırlanmış və həyata keçirilmişdir.

İnstitutun kollektivi həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Qospitalının 9 mərtəbəli korpusunun layihəsini hazırlayıb.

İnstitutun layihəçiləri 2009-cü ildən Fransanın "Klim" şirkəti ilə birgə Bakıda Balaxanı qəsəbəsində bərk məişət tullantılarının yandırılması zavodunun layihəsini hazırlamağa başlamış və layihə ilə paralel olaraq zavodun

tikintisinə də başlanmışdır. Dəyəri 300 milyon yevrodan çox olan bu nəhəng obyekt Balaxanıda zibillik ərazisində tikilir.

İnstitutun layihəçiləri həmçinin "Xolsum" alman şirkətinin sifarişi ilə Qaradağ sement zavodunda Çin mütəxəssisləri ilə birgə 6-cı sobanın layihəsini hazırlamışlar.

Bundan başqa MKSİF-in sifarişi ilə məcburi köçkünlər üçün Ağdam rayonunda 1689 ailəlik 3 yeni qəsəbənin layihələri işlənib.

2010-cu ildə "Vizer Constrasion" şirkəti ilə birlikdə Daxili İşlər Nazirliyi üçün Zaqulba qəsəbəsində sanatoriya layihəsi hazırlanmışdır.

Həmçinin Xüsusi Mühafizə İdarəsi üçün idman kompleksinin və Buta qəsəbəsində Müdafiə Nazirliyi üçün dəniz (morskoy) bazasının, seysmoloji mərkəzin sifarişi ilə respublikamızın 7 rayonunda seysmoloji stansiyaların, Qəbələ rayonunda böyük stadionun və Xırdalan Pivə zavodunun yenidənqurulması layihələrinin hazırlanması da başa çatdırılmışdır.

Y.H. Nağıyev 48 il insanlarla sıx təmasda işləyib, komsomol işində də, partiya işində də, həmçinin institutda da böyük kollektivlərlə işləyib, insanlarla sıx ünsiyyətdə olub. O, ömrü boyu çalışıb ki, imkan daxilində insanlara kömək etsin. Bu, onun həyat qayəsidir.

O, xalq üçün gərəkli bir ömür yaşayıb və həmişə öz üzərində işləyən adam olub. O, bu gün də öz üzərində çalışır. O, həm də çox böyük həyat və iş təcrübəsi olan, görüb-götürmüş, hər şeyin yerini bilən bir insandır.

Təsadüfi deyil ki, 33 il ərzində taleyini bağladığı "Azərinşaatlayihə" DBLKT İnstitutuna 19 ildir ki, bacarıq və səriştə ilə rəhbərlik edir. İnstitutun qazandığı bütün uğurlarda Yusif Nağıyevin müstəsna rolu vardır. Kollektivin hazırladığı əksər layihələr mükəmməlliyi ilə seçilir.

Y.H. Nağıyev yüksək insani keyfiyyətlərə malik, olduqca sadə, təmkinli və tələbkar rəhbər, yaxşı dost, mehriban ailə başçısı, dəyişməz əqidəli xeyirxah insan və mütərəqqi şəxsdir.

Y.H. Nağıyevin respublikamızda layihəçi kadrların yetişməsində əməyi böyükdür. Bu gün bir çox layihə təşkilatlarında vaxtı ilə Yusif Nağıyevin rəhbərliyi altında işləyib təcrübə toplayaraq layihəçi kimi formalaşmış mütəxəssislərə rast gəlmək olar.

O, geniş dünyagörüşünə malik, kompleks biliklər sahibi olan əsl ziyalı və alimdir. Elmin müxtəlif sahələri üzrə geniş biliyə malik olan Yusif Nağıyevin Azərbaycan tikinti kompleksində dəyərli və yaddaqalan əl izləri vardır. Ölkəmizdə son 30 ildə inşa edilib istismara buraxılmış çoxlu sayda unikal obyektlərin, sosial-mədəni tikililərin ərsəyə gəlməsində Yusif Nağıyevin başçılıq etdiyi layihə institutu kollektivinin zəhməti danılmazdır.

"Azərinşaatlayihə" DBLKT İnstitutunun da çətin vaxtları olub. Ancaq Yusif Nağıyevin rəhbərliyi altında kollektiv o ağır sınaq illərindən şərəflə çıxmış və hazırkı vaxtda respublikamızın aparıcı layihə institutlarından birinə çevrilmişdir.

Ölkəmizin ayrı-ayrı rayonlarında təbii fəlakətdən zərər dəymiş evlərdə bərpa işlərinin tez və keyfiyyətli həyata keçirilməsində də Yusif müəllim başda olmaqla onun həmkarları ön sırada dayanmışdır.

Yusif Nağıyevin başçılığı altında çalışan layihəçilər bu gün də respublikamızın layihələndirmə sahəsində yeni-yeni uğurlara imza atır, institutun öncül və aparıcı mövqeyini qoruyub saxlayırlar.



Namazov
Müsədin
Əhməd oğlu

04 avqust 1963-cü ildə Gürcüstan Respublikasının Saqareco rayonunun Düzəyrəm kəndində anadan olub. 1970-1980-ci illərdə Düzəyrəm kənd məktəbində orta təhsil alıb. O, 1981-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinin əyani şöbəsinə qəbul olunmuş və 1986-cı ildə həmin institutu fərqlənmə diplomu ilə memar ixtisası üzrə bitirmişdir.

M.Ə. Namazov ali təhsilini tamamladıqdan sonra "Azərdövlətlayihə" İnstitutunun 1 nömrəli Emalatxanasında memar kimi öz ixtisası üzrə ilk əmək fəaliyyətinə başlamışdır.

O, 1986-cı ildə ordu sıralarına çağrılmış və 1988-ci ilə kimi SSRİ Silahlı Qüvvələri sırasında əvvəlcə sıravi əsgər, sonra isə manqa komandiri olmuşdur.

M.Ə. Namazov ordudan tərxis olunduqdan sonra yenə doğma kollektivə - "Azərdövlətlayihə" İnstitutuna qayıtmış, əvvəlcə 1 nömrəli Emalatxanada memar (1988-1990-cı illər), aparıcı memar (1990-cı il), qrup rəhbəri (1990-1993-cü illər), layihənin baş memarı (1993-2007-ci illər), 2 nömrəli Emalatxananın rəisi (2007-2009-cu illər), sonra isə 2 nömrəli Memarlıq Planlaşdırma şöbəsinin müdiri (2009-2011-ci ilər) olmuşdur.

M.Ə. Namazov 2011-ci ilin dekabrından 2012-ci ilin sentyabrına kimi Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" DLİ İnstitutunun baş memarı vəzifəsində çalışmışdır.

O, 10 oktyabr 2012-ci ildən Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" DLİ-nin direktoru təyin olunmuş və hazırda bu vəzifədə çalışır.

Ailəlidir. Bir oğlu, bir qızı var. Qızı Səma Azərbaycan İqtisad Universitetinin tələbəsidir, atasının adını daşıyan oğlu Əhməd isə "Dünya" məktəbinin şagirdidir.

M.Ə. Namazov bir memar olaraq hər zaman öz üzərində çalışır, daim yeniliyə can atır və iştirakçısı olduğu bütün layihələrdə öz dəsti-xəttini qoyur.

Onun yaradıcılıq axtarışlarının bəhrəsi olan onlarla layihələr var ki, hər









1. Yüksək mərtəbəli yasayış kompleksi. **2.** İnzibati bina.
3. Otel binası. **4.** İnzibati bina.











1. Yüksək mərtəbəli yasayış kompleksi. **2.** Otel binası. **3.** Təhsil müəssisəsi.
4. Ofis binası. **5.** Yüksək mərtəbəli yasayış kompleksi.

biri özünəməxsusluğu ilə seçilir. Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasının yeni korpusunun və ətraf ərazilərin abadlıq işlərinin layihələri, eləcə də yeni korpusun daxili dizaynı M.Ə. Namazovun gərgin yaradıcı əməyi ilə hasilə gəlmişdir.

Həmçinin bir-birindən fərqli milli memarlıq dizaynına malik bir neçə yüksək mərtəbəli yaşayış binaları və kompleksləri, otel binaları, bir neçə ofis binası, təhsil müəssisəsi, restoran binası, bu sıradan – Naxçıvan MR-da Türkiyə ilə sərhəd keçid məntəqəsi, Belarus Respublikasının Azərbaycandakı Səfirliyinin inzibati binası, Milli Təhlükəsizlik Nazirliyinin Gəncə şəhərindəki inzibati binası, Bakı şəhərinin Nizami, Xətai və Səbail rayonları üzrə şöbələrinin inzibati binaları, Milli Təhlükəsizlik Nazirliyinin Bilgəh istirahət kompleksində 2 ədəd xidməti yaşayış evi, Ədliyyə Nazirliyinin Şirvan Regional Mərkəzinin inzibati binası, Ədliyyə Nazirliyinin Lənkəran şəhərində yerləşən Hərbi Məhkəmə binası, Dövlət Əmlak Komitəsinin Gəncə şəhər xidmətinin inzibati binası, Neft Şirkəti üçün 14 mərtəbəli yataqxana binası, 12-16 mərtəbəli yaşayış evləri kompleksi və sair maraqlı layihələr bir memar olaraq Müsədin Namazovun son illərdəki yaradıcı axtarışlarının bəhrələridir.

Ölkənin layihə-tikinti sektorunda 32 illik əmək stajı olan M.Ə. Namazovun əməyi rəhbərlik tərə-





1. Ofis binası.
2. Yüksək mərtəbəli yasayış kompleksi.

findən hər zaman yüksək qiymətləndirilmişdir. Belə ki, o, 22 aprel 2005-ci ildə Azərbaycan Respublikası Memarlar İttifaqı Rəyasət Heyəti Katibliyinin 04 nömrəli qərarı ilə Azərbaycan Memarlar İttifaqının yaradılmasının 70 illik yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Memarlar İttifaqı üzvünün "Fəxri Nişanı" ilə təltif olunmuş, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibətilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində dövlət qulluğunda fərqləndiyinə və əldə etdiyi nailiyyətlərə görə "Fəxri Fərman" almış (2008-ci il), Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinin 5 illiyi münasibəti ilə "Azərbaycan Respublikasının Yubiley medalı" ilə (2010-cu il) və Azərbaycan Respublikasında inşaat sahəsi işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2012-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Onun həm institut direktoru kimi, həm də bir yaradıcı memar kimi ən böyük uğurları hələ qabaqdadır.



Nəsirov
Qənbər
Məhəmməd oğlu

22 dekabr 1935-ci ildə Ağdam rayonunun Qalayçılar kəndində anadan olmuşdur. Əvvəlcə kənddəki ibtidai məktəbdə (1943-1947-ci illər), sonra isə Ağdam şəhərindəki 1 nömrəli orta məktəbdə (1947-1953-cü illər) təhsil almışdır. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsinə daxil olmuş və 1958-ci ildə oranı müvəfəqqiyyətlə bitirmişdir. Ali təhsilini başa vurub təyinatla Kür-Araz su tikintisi Baş İdarəsinin Xaçınçay üzərində bənd tikintisi ilə məşğul olan 2 nömrəli tikinti-quraşdırma idarəsinə göndərilmişdir. 1963-cü ildə 2 nömrəli tikinti-quraşdırma idarəsi Bərdədəki 1 nömrəli tikinti-quraşdırma idarəsi ilə birləşdirildiyindən Q.M. Nəsirov 1 nömrəli tikinti-quraşdırma idarəsinin sərəncamına köçürülmüşdür. 1963-1970-ci illərdə həmin idarədə şöbə müdiri, sahə rəisi, baş mühəndis vəzifələrində çalışmışdır.

Q.M. Nəsirov 1970-ci ilin 4 yanvarından həmin baş idarənin Horadizdə yenicə təşkil olunan 6 nömrəli MSD-yə rəis vəzifəsinə göndərilir. 1973-cü ildə Beyləqandakı 4 nömrəli MSD-yə rəis vəzifəsinə köçürülür. 1979-cu ildə bu idarədən Azərbaycan SSR Baş Qaz İdarəsinin tələbnaməsi ilə Ağdamdakı 2 nömrəli baş tikinti-quraşdırma idarəsinə rəis vəzifəsinə təyin edilir. Bu idarə ləğv olunduqdan sonra Q.M. Nəsirov "Azərbaşmeliosutikinti" rəhbərliyinin tələbi ilə Ağcəbədi Meliorasiya Su Tikintisi İdarəsinə rəis təyin olunur. O, 1992-1995-ci illərdə Bakıdakı Sənaye Müəssisələri İstehsalat Birliyində baş direktorun müavini, 1995-1998-ci illərdə "Milkanalsutikinti" trestində müdir vəzifələrində çalışmışdır. Məsul və rəhbər vəzifələrdə işlədiyi müddətdə Xaçınçay su bəndində, Tərtər kanalının sağ və sol sahillərində, Baş Mil kanalında dəyərli işlər görmüş, 2 klub, 4 mədəniyyət evinin və digər obyektlərin tez, ucuz və keyfiyyətlə tikilib istismara buraxılmasında fəal iştirak etmişdir.



Niftiyev
Ramazan
Ələkbər oğlu

1952-ci ildə Salyan rayonunun 1 nömrəli sovxozunda anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun yetirməsidir. Həmin institutu bitirdikdən sonra (1978-ci il) adi mühəndislikdən məsul və rəhbər vəzifələrə qədər çox keşməkeşli və mənalı ömür yolu keçmişdir. "Qafqazenerjiquraşdırma" və "Enerjitikinti" trestində məsul vəzifələrdə işləmişdir. Bu iki trest birləşdikdən sonra "Azəristilikenerjiquraşdırma" tresti adlanmağa başlamış və R.Ə. Niftiyev bu iri trestdə böyük işlər görmüşdür. 1998-ci ildə Azərbaycan Respublikasında özəlləşdirmə prosesi ilə əlaqədar olaraq "Azəristilikenerjiquraşdırma" tresti ləğv edilmiş və yeni adla sərbəst bir müəssisə - "İstilikenerjitikintiquraşdırma" Səhmdar Cəmiyyəti yaradılmışdır. R.Ə. Niftiyev həmin SC-nin sədridir.

R.Ə. Niftiyevin bilavasitə rəhbərliyi altında son bir neçə ildə çoxlu işlər icra olunmuşdur: Böyük Şor qəsəbəsində "Azneftyağ" zavodu üçün 20000 kub.m. həcmi olan neft çəninin əsaslı təmiri, Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsinin sifarişilə Bakı şəhərinin istilik mərkəzlərində istilik mexaniki avadanlıqların quraşdırılması, "Azəriqaz" İstehsalat Birliyinin sifarişilə Bakı 1 nömrəli SEM-ə verilmiş qazın absorbiya üsulu ilə təmizlənməsi qurğusu obyektində qaz kəmərləri və avadanlıqları, ABB İsveç Şirkətinin və "AzQUR" şirkətinin sifarişi ilə Bakının SEM ərazisində hündürlüyü 40 metr olan metal tüstü borusunun quraşdırılması, Yapon şirkətinin sifarişi ilə Sumqayıtda EP-300 qurğusunun təkmilləşdirilməsi üzrə quraşdırma işləri, Azərbaycan Dövlət Neft Şirkətinin sifarişilə Dərin Özüllər zavodu ərazisində yüksqaldırma qabiliyyəti 35 m və çəkisi 146 ton olan liman kranının quraşdırılması, Moldovada texnoloji boru kəmərlərinin, nasos stansiyasının quraşdırlması, Sabunçudakı 3 nömrəli şəhər klinik xəstəxanasında qazanxana və istilik şəbəkəsinin quraşdırılması kimi obyektlərdə əl izləri vardır.



Növbərov
Nəsib
Seyid oğlu

1948-ci ildə Şəki rayonu Baş Köynük kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Balakən Politexnik Texnikumunda təhsil alıb inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Texnikumu qurtaranda onu Şəkiyə göndərmişlər.

N.S. Növbərov bir qərinədən çox müddət həyatını Şəki kolxozlararası tikinti idarəsinə bağlamışdır. Əvvəlcə bu idarədə briqadir, usta, iş icraçısı, baş mühəndis işləmişdir. Sonra onu kolxozlararası tikinti idarəsinə rəis təyin etmişlər. Sonra o, Şəkidəki 7 nömrəli kolxozlararası tikinti trestinə müdir təyin edilir. N.S. Növbərov Şəki Sənaye Kombinatında, Şəki Neft Bazasında direktor işlədiyi illərdə də yaddaqalan işlər görmüş, uğurlar qazanmışdır. 12 ildən artıqdır ki, "Şəkitikinti" firmasına rəhbərlik edir.



Novruzov
Qəzənfər
Aslan oğlu

1939-cu ildə Xanlar rayonunda anadan olmuşdur. Əvvəlcə orta məktəbi, sonra texnikumu bitirmiş, ordu sıralarında xidmət etmiş, ordudan tərxis olunduqdan sonra Azərbaycan Neft Kimya İnstitutuna daxil olmuş, kimya texnologiyası fakültəsini bitirmişdir.

Q.A. Novruzov əmək fəaliyyətinə "Azərhidroenerjitikinti" trestində başlamış, Azərbaycan Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda və Azərbaycan SSR Tikinti Materialları Sənayesi Nazirliyində məsul vəzifələrdə çalışmış, uzun müddət Bakı Şüşə zavodunun direktoru olmuşdur. Bu müəssisəyə rəhbərlik etdiyi illərdə saysız-hesabsız buraxılış obyektlərində əl izləri qoymuş, qurub-tikən inşaatçıların yaxın köməkçisi olmuşdur. Hazırda sahibkarlıqla məşğuldur. İstehsalatda işlədiyi müddətdə irili-xırdalı 15-dək səmərəli təkliflər irəli sürmüş və onların hamısı istehsalatda tətbiq edilərək dövlətə milyon manatlarla xeyir gətirmişdir. Başçılıq etdiyi kollektiv həmişə qabaqcıllar sırasında olmuşdur. Bütün bunlara görə ittifaq və respublika nazirliklərindən, Tikinti və Tikinti Materialları Sənayesi Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindın fəxri fərmanlar almışdır. O, bir neçə dəfə rayon və şəhər sovetlərinə deputat seçilmişdir.

Ö



Ömərov
Nüsrət
Bayram oğlu

1954-cü ilin avqustun 6-da Dəvəçi rayonundakı Mimili kəndində anadan olmuşdur. Kənd 8 illik məktəbini bitirdikdən sonra (1969-cu il) Dəvəçi şəhərindəki Tofiq Abbasov adına orta məktəbdə təhsilini davam etdirmiş və 1971-ci ildə oranı bitirmişdir.

N.B. Ömərov 1971-ci ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş, az sonra inşaat fakültəsinin bazasında yaradılan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir (1976-cı il). Ali məktəbdən iqtisadçı-mühəndis kimi təyinatla Baş Kolxozlararası Tikinti İdarəsinə göndərilmişdir.

N.B. Ömərov 1976-1992-ci illərdə həmin baş idarədə (sonralar şirkət) plan şöbəsinin iqtisadçısı, şöbə rəisinin müavini, şöbə rəisi, istehsalat şöbəsinin rəisi, "Aqrartikinti" İstehsalat Birliyinin rəis müavini, "Aqrartikinti" Dövlət Şirkətinin vitse-prezidenti vəzifələrində işləmişdir.

Hal-hazırda "Aqrartikinti" ASC-nin vitse-prezidentidir.

Respublikanın əksər rayonlarında tikilmiş iri heyvandarlıq komplekslərində, süd-əmtəə fermalarında, quşçuluq-broyler fabriklərində dəyərli əl izləri qoymuşdur. Sərhəd bölgələrində inşa edilən iri istehkamların tikintisinə bilavasitə rəhbərlik etmişdir.

N.B. Ömərovun rəhbərliyi altında son 10 ildə aqrar sahədə xeyli tikinti abadlıq işləri aparılmış, regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar yüzlərlə müxtəlif təyinatlı obyektlər tikilmiş, yaxud yenidən qurulmuşdur. İlk növbədə Ərazilərin Bərpası üzrə Dövlət Agentliyinin və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə qaçqın və məcburi köçkün soydaşlarımız üçün salınan qəsəbələrdəki fərdi yaşayış evlərinin, çoxmərtəbəli yaşayış binalarının, sosial obyektlərin tikintisində, yolların və digər kommunikasiya xəttlərinin çəkilişində "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin ,inşaatçıları daha yaxından iştirak etmiş, öz layiqli töhfələrini vermişlər. Və Səhmdar Cəmiyyətin vitse-prezidenti kimi Nüsrət Ömərov üzərinə düşən bütün vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir.

P



Paşayev
Bəşarət
Mustafa oğlu


12 may 1938-ci ildə Şəki rayonundakı Baş Layısqı kəndində anadan olmuş, 1956-cı ildə kənddəki 1 nömrəli orta məktəbi, 1959-cu ildə isə Gəncədəki İnşaat Texnikumunu bitirmişdir. Təyinatla Balkən rayon Kommunal Təsərrüfatı İdarəsində inşaat texniki kimi ilk əmək fəaliyyətinə başlamışdır. 1959-1968-ci illərdə Balakən rayonundakı müxtəlif tikinti təşkilatlarında inşaat texniki, tikinti ustası, iş icraçısı və baş mühəndis kimi fəaliyyət göstərmişdir. İstehsalatdan ayrılmadan Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun qiyabi şöbəsində ali təhsil almış və bu institutun inşaat fakültəsini 1978-ci ildə bitirmişdir. O, 1982-ci ildə Bakı Ali Partiya Məktəbinə daxil olmuş və oranı 1985-ci ildə qurtarmışdır.

B.M. Paşayev 1968-ci ildən 2005-ci ilin mart ayına kimi Şəki kolxozlararası tikinti idarəsinin rəisi, 7 nömrəli Aqrotikinti trestinin müdiri, Şəki şəhər Partiya Komitəsinin 2-ci katibi, Şəki rayon XDS sədrinin müavini və sədri, Şəki Ərzaq və kənd təsərrüfatı idarəsinin rəisi, Taxılçılıq sovxosunun direktoru, Şəki Sənaye-Tikinti Birliyinin baş direktoru, Şəki şəhər İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini və s. məsul və rəhbər vəzifələrdə işləmişdir.

Əmək fəaliyyəti dövründə təkcə Şəkidə deyil, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ və digər rayonlarda tikilib istifadəyə verilmiş iri heyvandarlıq komplekslərində, sosial-mədəni obyektlərdə və istehsalat bazalarında sanballı və yaddaqalan əl izləri qoymuşdur.

O, tikintisinə rəhbərlik etdiyi bütün obyektlərdə işin keyfiyyətlə və məsuliyyətlə yerinə yetirilməsinə, vaxtdan səmərəli istifadə olunmasına və texniki təhlükəsizlik tədbirlərinə ciddi riayət olunmasına hər zaman xüsusi diqqət yetirmiş və nail olmuşdur.

B.M. Paşayevin dövlət və xalq qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilmişdir. O, bir çox fəxri fərmanlara, döş nişanlarına, medallara layiq görülmüş və iki dəfə - 1973 və 1982-ci illərdə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur. O, dəfələrlə Şəki rayon və şəhər sovetlərinə deputat seçilmişdir. 2005-ci ilin mart ayından təqaüdə çıxmış və 2008-ci ildə vəfat etmişdir.



Paşayev
Mərkəz
Çərkəz oğlu

15 fevral 1952-ci ildə Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olmuşdur. 1958-ci ildə Beyləqan rayonunda 1 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuş, 1968-ci ildə həmin məktəbin 10-cu sinfini bitirərək Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin sənaye və mülki tikinti şöbəsinə qəbul olunmuş, həmin institutu 1974-cü ildə bitirmişdir.1974-cü ildən 1977-ci ilə qədər Azərbaycan Kənd Tikintisi Nazirliyinin Beyləqan rayonundakı 42 nömrəli MSD-də iş ustası, iş icraçısı, mühəndis vəzifələrində işləmişdir. 1977-ci ilin noyabr ayından Azərbaycan Baş Meliorasiya və Su Qurğuları Tikintisi İdarəsinin Beyləqan rayonundakı "Milkanalsutikinti" trestində müxtəlif vəzifələrdə çalışmışdır. Trestin istehsalat-texniki şöbə rəisinin müavini, rəisi, trest müdirinin istehsalat işləri üzrə müavini, Füzuli rayonundakı 15 nömrəli MSD-də baş mühəndis, Cəbrayıl rayonundakı 16 nömrəli MSD-də baş mühəndis işləmişdir. 1985-ci ilin sentyabr ayından 1994-cü ilin oktyabr ayına kimi "Milkanalsutikinti" trestinin Cəbrayıl rayonundakı16 nömrəli MSD-də rəis işləmişdir.

İşlədiyi dövrlərdə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının dəmyə torpaqlarının suvarılması, obyektlərin tikintisində və istismarında bir neçə səmərəli təklifləri istehsalatda tətbiq olunub. Melioratorlar üçün salınan 3 qəsəbədə, məcburi köçkünlər və qaçqınlar üçün tikilən 8 qəsəbədə, məktəb və yaşayış evlərinin tikintisində əl izləri qoymuşdur.

1986-cı ildən 1995-ci ilə kimi, (iki çağırış) Cəbrayıl rayon Sovetinin deputatı olmuş, rayon XDS İcraiyyə Komitəsinin və Xalq Nəzarəti Komitəsinin üzvü olmuşdur.

1987-ci ildə Cəbrayıl rayon Partiya Komitəsinin Büro üzvü olmuşdur. 1994-cü ilin oktyabr ayından hal-hazıradək Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində işləyir.



Piriyev
Gülbala
Abdulla oğlu

1948-ci ilin aprel ayının 12-də Cəlilabad rayonunda anadan olub. Uşaqlıq çağlarında atasını itirmiş, anasının himayəsində böyüyüb boya-başa çatmışdır. Azərbaycan Politexnik İnstitutunun yetirməsidir. Ali məktəbi bitirən gündən taleyini tikintiyə bağlamışdır. Fəhləlikdən iri tikinti trestinin müdiri vəzifəsinədək yüksəlmişdir. Rusiyanın qaratorpaq zonasında çalışan azərbaycanlı inşaatçılar qrupuna rəhbərlik etmişdir. Azərbaycan Baş meliorasiya su qurğuları tikintisində trest müdiri işlədiyi dövrlərdə şoran torpaqların duzdan təmizlənməsi, yeni melioratorlar qəsəbələrinin salınmasına rəhbərlik etmişdir. Kənd tikintisi nazirliyində tikinti trestinin müdiri işləyəndə məktəb və uşaq bağçalarının tikintisində, Ceyranbatan sənaye kombinatında

baş direktor olanda tikinti meydançalarının inşaat materialları ilə təmin olunmasında fəal iştirak etmiş, uzun müddət "Azərbaycan Türkiyə anonim şirkətinə" başçılıq etmişdir (1997-2007-ci illər).

Poladov
Oqtay
Rza oğlu

1935-ci ildə Qazax rayonunun Qanallı kəndində anadan olmuşdur. 1953-cü ildə kənd orta məktəbini bitirmişdir. Orta təhsilini başa vurduqdan sonra Bakıya gəlmiş və 62 nömrəli rabitə şöbəsində işə düzəlmişdir. Az sonra Bakı Baş Tikinti İdarəsinin 1 nömrəli tikinti idarəsində fəhləlik etmişdir. Bir il ərzində 3-cü dərəcəli ağ daş ustası kimi baş idarə sistemində geniş tanınır. Respublika mətbuatı onun iş üsulu haqqında fasiləsiz yazılar çap edir. Dəfələrlə pul və qiymətli əşyalarla mükafatlandırılır, tərifnamə və fəxri fərmanlarla təltif olunur. Qabaqcıl bənna olduğu üçün ona inşa etdikləri evdən 2 otaqlı mənzil verilir. Baş idarə rəhbərinin əmri ilə 1961-ci ildə 9 nömrəli tikinti idarəsinə köçürülür. 1962-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olur və 1968-ci ildə institutun materialların texnologiyası fakültəsini bitirir (axşam şöbəsi). Bacarıq və qabiliyyətini nəzərə alıb onu "Tikintidə Yeni Texnikanın Tətbiqi" ("orqtesxtroy") trestinə təlimatçı-mühəndis vəzifəsinə irəli çəkirlər. Bu vəzifədə işlədiyi müddətdə təkliflər irəli sürür, qabaqcıl iş üsullarının yayılması və tətbiqi üzrə çox məhsuldar işlər görür. SSRİ adlı ölkənin tikinti kompleksində qabaqcıl iş üsullarının yayılması və tətbiqi üzrə çox məhsuldar işlər görür. Tikinti kompleksində qabaqcıl iş üsullarının yayılması üzrə keçirilən ümumittifaq seminarlarında iştirak edir. Leninqrad Baş Tikinti, Ryazan və Permdəki qabaqcıl tikinti təşkilatlarının iş üsulunu mənimsəmək məqsədilə bir neçə dəfə ezamiyyətə göndərilir. Ezamiyyətdən qayıtdıqdan sonra respublikanın Naxçıvan, Mingəçevir, Sumqayıt, Bakı, Gəncə şəhərlərində, Sənaye Tikintisi Nazirliyinin tikinti təşkilatlarında, tikinti meydançalarında yeniliklərin tətbiqi üzrə çox mühüm işlər görür, rəngarəng tədbirlər həyata keçirir. 1964-1970-ci illərdə irili-xırdalı 30-dan çox səmərəli təkliflər irəli sürür və onların çoxu həyata keçirilir, dövlətə xeyir verir.

O.R. Poladov 1972-ci ildə Sənaye Tikintisi Nazirliyinin 87 nömrəli tikinti idarəsinə rəis göndərilir. Həmin ilin sonunda nazirlik onu Mərkəzi Tədris Kurs kombinatına direktor müavini vəzifəsinə köçürür. Bir il sonra onu Bakıdakı 54 nömrəli orta texniki-peşə təhsili məktəbinə direktor təyin edirlər. 1980-ci ildə onu 51 nömrəli orta texniki-peşə təhsilli məktəbə direktor göndərirlər. 10 il burada çalışır və ixtisaslı inşaatçıların yetişdirilməsində fəal iştirak edir.

O.R. Poladov 1994-2004-cü illərdə Mərkəzi Tədris Kurs Kombinatının direktoru kimi çox məhsuldar fəaliyyət göstərmişdir. O, 2004-cü ilin fevralının 21-də qəflətən vəfat etsə də, saysız-hesabsız yetirmələri indi tikinti kompleksində fəal işləyirlər. O, hələ orta və ali məktəbdə, sonralar ali partiya məktəbində təhsil aldığı illərdə hər üç tədris ocağında ictimai işlərdə fəallığı ilə seçilmiş, hər üç məktəbdə sinif nümayəndəsi, komsomol və partiya fəalı olmuş, istehsalatdakı uğurlarına görə dəfələrlə qiymətli hədiyyələrlə, pulla və fəxri fərmanlarla mükafatlandırılmışdır.

R

"Rabitəinşaat"
Açıq Səhmdar Cəmiyyəti

Ölkənin müstəqillik illərində yaradılmış "Rabitəinşaat" ASC əsas etibarilə mülki və yaşayış binaları (inzibatı binalar, mehmanxana, ümumtəhsil məktəbləri, uşaq bağçaları, texniki peşə məktəbləri, ticarət, ictimai və mədəni maarif mərkəzi, səhiyyə obyektləri və s.) üzrə ixtisaslaşmış tikinti təşkilatıdır. Bu illər ərzində Səhmdar Cəmiyyət tikintinin müasir tələblərinə cavab verən maddi-texniki baza və kadr potensialı yaratmış, böyük təcrübəyə və güclü bazaya malik tikinti təşkilatı kimi bütün respublikada tanınmışdır. Səhmdar Cəmiyyət respublikamızın bütün regionlarında ATS və Poçt binalarının tikintisini, şəhər-daxili və magistral rabitə xətlərinin çəkilməsini həyata keçirmişdir.

Səhmdar Cəmiyyətin Türkiyənin "Hesfibel" şirkəti ilə birgə həyata keçirdiyi Çindən Almaniyayadək uzanan TAE (Trans-Asiya-Avropa) beynəlxalq fibro-optik magistral xəttinin Azərbaycan Respublikası ərazisindən keçən 600 km-lik hissəsinin çəkilməsi layihəsi hər il respublikamıza külli miqdarda gəlir gətirir.

Səhmdar Cəmiyyətin malik olduğu maşın-mexanizmlər bütün obyektlərdə işlərin yalnız bu kollektivin öz gücü ilə aparılmasını tam təmin edir. SC-nin Bakı şəhərinin mərkəzində yerləşən müasir ofisi vardır. Bu təşkilatın əsas iş prinsipi yeni, proqressiv inşaat materiallardan istifadə olunması və tikintinin keyfiyyətinin ən yüksək standartların tələblərinə uyğunlaşdırılmasıdır.

Səhmdar Cəmiyyətin malik olduğu iş təcrübəsi və potensialı onun ən iri həcmli obyektlərin tikintisini tez və yüksək keyfiyyələ icra edə bilməsinə zəmin yaradır.

2000-ci ildən üzü bu yana Səhmdar Cəmiyyətin həyata keçirdiyi inşaat-tikinti layihələrini ardıcıllıqla sıralasaq olduqca böyük bir siyahı alınardı.

Belə ki, SC respublikanın işğaldan azad olmuş yaşayış məntəqələrində məktəblərin, xəstəxanaların, kənd tibb məntəqəsi və ambulatoriya binalarının bərpa işlərini həyata keçirmişdir. Eyni zamanda işğaldan azad olmuş və müharibədən zərər çəkmiş aşağıda göstərilən ərazilərdə bərpa və yenidənqurma işləri aparılmışdır:

- Ağcakənd qəsəbəsində 40 çarpayılıq xəstəxana binasında;
- Ağstafa rayonunun kəndlərində 17 fərdi yaşayış evlərində;
- Goranboy, Ağdam, Biləsuvar, Beyləqan və Füzuli rayonlarında fərdi yaşayış evlərinin tikintisində;
- Bakıda Mirqasımov adına klinik xəstəxanasında;
- Şəmkir rayonunda 126 ailəlik qəsəbədə və s.

Yuxarıda qeyd edilən bərpa və yenidənqurma işlərinin maliyyələşdirməsi Dövlət Neft Fondunun, Dünya Bankının və Avropa Birliyi Fövqəladə Proqramları hesabına aparılmışdır.

Təhsil Nazirliyinin sifarişləri əsasında 30-dan çox məktəb binasının tikintisi və təmiri, o cümlədən, Xaçmaz şəhərində akademik Zərifə xanım Əliyeva adına 1176 şagird yerlik 8 saylı orta məktəb binasının, Dövlət Neft Şirkətinin sifarişləri əsasında Balakan şəhərində 235 çarpayılıq Mərkəzi Xəstəxana binasının, Ümummilli lider Heydər Əliyevin adını daşıyan Balakən mərkəzi parkının tikintisi, eləcə də, Balakən rayonunun İtitala kəndində 480 şagird yerlik orta məktəb binasının və kənd mədəniyyət evinin tikintisi, Binə qəsəbəsində 218 saylı 1296 şagird yerlik orta məktəb binasının tikintisi, Bakı şəhərinin Xəzər və Sabunçu rayonlarında bir çox məktəb binalarının tikintisi və təmirini "Rabitəinşaat" ASC-nin kollektivi aparmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri əsasında Xırdalan şəhərində 9 mərtəbəli 81 mənzilli yaşayış binası, Ağcabədi, Zaqatala və Balakən şəhərlərində 4 mərtəbəli 36 mənzilli yaşayış binaları, Qax və Goranboy rayonlarında 16 mənzilli 2 mərtəbəli yaşayış binaları, Ağstafa rayonunda 16 mənzilli yaşayış binası, eləcə də əhalinin məşğulluq mərkəzləri binalarının tikintisi, (açılışlarda cənab prezident iştirak edib), Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sifarişləri əsasında respublikanın rayon və şəhərlərində qaçqınlar və məcburi köçkünlər üçün salınan qəsəbələrin və yaşayış binalarının tikintisi və bir sıra digər infrastruktur obyektlərin tikintisi, Mərkəzi Neftçilər Xəstəxanasının 2 korpusunun təmiri, respublikamızın Goranboy, Zaqatala, Şəki, İsmayıllı, Balakən və digər rayonlarında Əhalinin Sosial Müdafiə Mərkəzləri üçün inzibati binaların tikintisi, Milli Arxiv İdarəsinin Ziya Bünyadov prospektindəki binalarının yenidən qurulması layihələri "Rabitəinşaat" Açıq Səhmdar Cəmiyyəti kollektivinin son illərdə həyata keçirdiyi tikinti-quraşdırma layihələrinin müəyyən bir qismidir.

Başqa cür desək, Səhmdar Cəmiyyət 2007-2010-cu illər arasında respublikamızın ərazisində 10,5 min şagird yerlik məktəb binaları, qaçqın və şəhid ailələri üçün 1432 fərdi yaşayış evi, qaçqın və şəhid ailələri üçün çoxmərtəbəli yaşayış binalarının tikintisi üzrə 18100 kv. metr yaşayış sahəsi istifadəyə vermişdir. Qeyd etmək lazımdır ki, kollektiv tikdiyi bütün obyektlərdə hər zaman keyfiyyəti başlıca amil hesab etmiş və hər bir tikiliyə milli arxitektura nümunəsi kimi yanaşmışdır.

Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin sifarişi əsasında, dövlət büdcəsi vəsaiti hesabına Bakı şəhərində Respublika Milli Arxiv İdarəsinin inzibati binasının tikintisi və yenidənqurulması layihəsi də "Rabitəinşaat" ASC tərəfindən həyata keçirilmişdir.

Bazar iqtisadiyyatı şəraitində çalışan "Rabitəinşaat" ASC bu gün də ölkənin sosial və iqtisadi inkişafında yaxından iştirak edir, bir- birinin ardınca yeni-yeni layihələri icra edərək istifadəyə verir. Bu həm də ölkəmizdə iqtisadi islahatların uğurla aprılmasının təzahürüdür.

Şübhəsiz ki,"Rabitəinşaat" Açıq Səhmdar Cəmiyyətinin son illər ərzində qazandığı bütün uğurlarda Səhmdar Cəmiyyətin sədri Yelmar İsgəndərovun xüsusi rolu vardır.



Revazov
Uruzmaq
Borisoviç

4 oktyabr 1929-cu ildə Acarıstan Muxtar Respublikasının Orconokidze şəhərində anadan olub.

Atası Revazov Boris Georgiyeviç ixtisasca memar olub. O, Azərbaycan Neft Kimya İnstitutunda və Politexnik İnstitutunda dekan və kafedra müdiri vəzifələrində çalışmışdır. O, respublikanın Əməkdar memarı və Azərbaycan SSR-in əməkdar elm xadimi idi. Dövrünün tanınmış ziyalılarından biri idi.

U.B. Revazov 1937-ci idə 7 nömrəli orta məktəbə qəbul olunub. O, 1945-1947-ci illərdə fəhlə gənclər orta məktəbində qiyabi təhsil alıb və Azərbaycan Neft Kimya İnstitutunda baş müəllim vəzifəsində işləmişdir.

U.B.Revazov 1947-ci ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun tikinti-memarlıq fakültəsinə qəbul olunub. Bakıda Politexnik İnstitutunun yaradılması ilə əlaqədar olaraq o, tikinti-memarlıq fakültəsi ilə birlikdə Politexnik İnstitutuna köçürülümüş və 1953-cü ildə bu təhsil ocağında ali təhsilini başa vuraraq mühəndis-memar ixtisasına yiyələnmişdir.

U.B. Revazov institutu bitirdikdən sonra təyinatla "Azneft" sisteminə işləməyə göndərilmiş və 1953-1955-ci illərdə "Abşeronneftkeşfiyyat" trestinin "Azneftlayihə" kontorunda memar və mühəndis-memar vəzifələrində işləmişdir.

U.B. Revazov 1955-1956-cı illərdə İxtisaslaşdırılmış Elmi-Bərpa İstehsalat Emalatxanasında baş mühəndis, 1956-1960-cı illərdə həmin idarədə elmi-axtarış tədqiqat şöbəsinin rəisi, 1960-1962-ci illərdə "Sentrsoyuzproyekt" İnstitutunda layihənin baş mühəndisi, 1962-1965-ci illərdə "Azərdvlətsənayelayihə" Baş Layihə İnstitutunda layihənin baş mühəndisi, 1965-1975-ci illərdə "Qiprospirtvino" Baş Layihə İnstitutunda, sonra isə "Yeyintisənaye-2" Dövlət Layihə İntitutunun Bakı kompleks şöbəsinin rəisi, 1975-ci ildən ömrünün sonuna kimi isə "Azəryeyintisənaye-2" Dövlət Layihə İnstitutunun Bakı filialının direktoru vəzifəsində çalışmışdır.

U.B. Revazov 1959-cu ildən SSRİ Memarlar İttifaqının üzvü idi. O, 1982-ci ildə Azərbaycan SSR Əməkdar Mühəndisi fəxri adını almışdır. O, 1971-ci ildə Nərimanov rayon XDS-nin deputatı olmuşdur. 1980-ci ildən Nərimanov rayon sovetinin və Azərbaycan KP Nərimanov rayon Partiya Komitəsinin üzvü olmuşdur. O, həmçinin Azərbaycan Kommunist Partiyasının XXX və XXXI qurultaylarının nümayəndəsi olub.

O, harda, hansı vəzifədə işləyibsə, orada hər zaman öz yüksək rəhbərlik və idarəçilik bacarığı ilə kollektivi vahid məqsəd naminə birləşdirmiş və uğurlar qazanmışdır.

Onun əməyi hər zaman yüksək qiymətləndirilmişdir.

U.B. Revazov "Əməkdə fərqlənməyə" görə yubiley medalı ilə və "Şərəf Nişanı" ordeni ilə təltif olunnmuşdur.

U.B. Revazov ailəli idi, iki övladı var.



Rəhimov
Sadıq
Hacıyarəli oğlu

Azərbaycanın görkəmli dövlət xadimlərindən biri olan Sadıq Hacıyarəli oğlu Rəhimov 1914-cü il sentyabrın 27-də Bakının ən qocaman və zəngin neft rayonu olmuş Balaxanı kəndində neftçi fəhlə ailəsində anadan olmuşdur.

Atası Yarəli Balaxanıda neft mədənlərində əvvəllər fəhləlik etmiş, sonralar qazmaçı və qazma ustası olmuşdur. Usta Hacıyarəli oğlunun savadlı və dövrünün ziyalı adamlarından olmasını istəyirdi. O, bu məqsədlə də oğlu Sadığı Balaxanıda yeni açılmış kənd 7 illik məktəbinə oxumağa qoyur. S.Rəhimov 1929-cu ildə Balaxanı kənd məktəbini bitirmiş və Bakı neft texnikumuna daxil olmuşdur.

1931-ci ildə texnikumu müvəffəqiyyətlə bitirən S. Rəhimov Bakı maşınqayırma zavodunda texnik vəzifəsində ilk əmək fəaliyyətinə başlamışdır.

S. Rəhimov 1932-1936-cı illərdə Azərbaycan Yüngül Sənaye Komissarlığının 2 nömrəli Bakı ayaqqabı fabrikində əvvəlcə texnik, sonra isə mexaniki emalatxananın müdiri olmuşdur. Elmə, təhsilə, savadını artırmağa daima can atan S.Rəhimov fabrikdə işləməklə yanaşı, 1932-ci ildə Azərbaycan Sənaye İnstitutunun maşınqayırma fakültəsinə daxil olmuşdur. O, 1936-cı ildə diplom işini yazmaq və buraxılış imtahanlarını müvəffəqiyyətlə başa çatdırmaq məqsədi ilə müvəqqəti olaraq işdən çıxır. 1937-ci ildə diplom işini əla qiymətlə müdafiə etmiş S. Rəhimov yenə də 2 nömrəli Bakı ayaqqabı fabrikinə diplomlu mühəndis kimi baş mexanikin müavini vəzifəsinə göndərilir.

S. Rəhimov 1937-1938-ci illərdə 2 nömrəli Bakı ayaqqabı fabrikində baş mexanikin müavini, 1938-1939-cu illərdə baş mexanik, 1939-cu ildə isə həmin fabrikin direktoru vəzifələrində çalışmışdır. Zavodda pillə-pillə yüksələn Sadıq Rəhimov məhsulların keyfiyyətini yüksəltmək üçün fabrikə yeni texnikanın gətirilməsi, məhsulun maya dəyərinin aşağı salınması, fəhlələrin əmək haqqının yüksəldilməsi, maddi rifahlarının yaxşılaşdırılması, fabrikin respublikanın qabaqcıl müəssisələrindən birinə çevrilməsi sahəsində xeyli iş görmüşdür.

Sadıq Rəhimovun perspektivli rəhbər kadr kimi yetişdiyini görən respublika hökuməti 1939-cu ildə onu Moskvaya Ali Partiya məktəbinə oxumağa göndərir. O, 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar təhsilini yarımçıq qoyub cəbhəyə gedir.


1941-1942-ci illərdə S. Rəhimov sovet ordusunun Qərb cəbhəsində vuruşan 160-cı atıcı diviziyasında siyasi şöbənin rəisi olmuş, Moskva, Smolenski ətrafında gedən döyüşlərdə fəal iştirak etmiş, Vyazma şəhəri yaxınlığındakı vuruşlarda yaralanmış və arxaya göndərilmişdir.

Ağır yaralanması ilə əlaqədar hərbi qulluqdan tərxis edilən S. Rəhimov Bakıya qayıtmış və Azərbaycan toxuculuq sənayesi nazirinin müavini təyin olunmuşdur. O, 1942-1946-cı illərdə bu vəzifədə, 1946-1949-cu illərdə isə Azərbaycan SSR toxuculuq sənayesi naziri vəzifəsində çalışmışdır. 1949-





1. Mərkəzi Klinik Xəstəxana Kompleksi. **2.** Yasamaldakı ATS binası.
Bunlar BBTİ-nin rəhbəri olduğu illərdə Sadıq Rəhimovun tikdiyi yüzlərlə obyektlərdən ikisidir.



Sadıq Rəhimovun əl izləri olan yüzlərlə möhtəşəm tikililər – infrastruktur obyektləri bu gün də Bakımızın bəzəyidir.

cu illərdə respublikada bir sıra nazirliklər ləğv edilmiş, bəziləri birləşdirilmişdir. Bu zaman Toxuculuq Sənayesi Nazirliyi ilə Yüngül Sənaye Nazirliyi birləşmiş və Sadıq Rəhimov Azərbaycan SSR yüngül sənaye naziri vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 1949-1952-ci illərdə işləmişdir.

S. Rəhimov respublikanın bu məsul vəzifələrində çalışdığı zaman köhnə toxuculuq dəzgahlarının təmiri, toxuculuq kombinatlarında işləyən köhnə dəzgahların yeniləri ilə əvəz olunması, Kirovabad mahud fabrikinin avadanlığının bərpa olunması və yeni məhsul istehsal etməsi sahəsində xeyli iş görmüşdür. Onun yorulmaz səyi nəticəsində nazirliyin müəssisələri dovlət tapşırıqlarını artıqlaması ilə yerinə yetirmişlər.

1952-ci ildə Azərbaycan iki vilayətə - Bakı və Gəncə vilayətlərinə bölündü. 1952-ci ilin aprelində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Gəncə Vilayət İcraiyyə Komitəsinin sədri vəzifəsinə S. Rəhimov təyin olunur. O, bu vəzifədə 1952-1953-cü illərdə işləmişdir. Lakin vilayət quruluşu Azərbaycanda çox fəaliyyət göstərməmiş və bir ildən sonra ləğv edilmişdir.

S. Rəhimov Gəncə vilayəti ləğv edildikdən sonra Bakıya qayıtmış, Azərbaycan SSR kommunal təsərrüfatı və mülki tikinti naziri, sonra isə çox işlənən sənaye malları naziri olmuş və 1953-1954-cü illərdə bu vəzifələrdə çalışmışdır.

Azərbaycanda özunu respublika yüngül sənayesinin bacarıqlı təşkilatcısı, ozunə və tabeliyində olan işcilərə tələbkar və həssas bir rəhbər işçi kimi gostərmiş S. Rəhimov 1954-1958-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinə sədrlik etmişdir.

O, respublikanın bu ali vəzifəsində Azərbaycan sənayesinin, kənd təsərrüfatının, mədəniyyətinin inkişafı, tərəqqisi yolunda var quvvəsi ilə calışmışdır. S. Rəhimov 1955-ci il dekabrın 26-29-da keçirilmiş SSRİ Ali Sovetinin dorduncü sessiyasının birinci iclasında çıxış edərək Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışaraq demişdir:

- "Azərbaycan xalqı bütün sovet adamları ilə birlikdə fədakarcasına çalışır. Azərbaycan zəhmətkeşləri elm və texnikanın yeni nailiyyətlərindən istifadə edilməsi, istehsalın təşkilinin yaxşılaşdırılması əsasında neft və qaz hasilatını daha da artırmaq, neft məhsulları istehsalını artırmaq və təkmilləşdirmək uğrunda sosializm yarışını daha da genişləndirmişlər. Respublikanın neftciləri 11 aylıq tapşırığın ohdəsindən muvəffəqiyyətlə gəlmiş, plandan əlavə neft cıxarmaq və emal etmək, məhsulun maya dəyərini aşağı salmaq haqqında ohdəliklərini vaxtından əvvəl yerinə yetirmişlər".

O, öz çıxışında xalq təsərrüfatının müxtəlif sahələrində əldə edilən müvəffəqiyyətlərlə yanaşı nöqsanlardan da söhbət açmış və bunun özunu əsasən sənaye, elm və təhsil müəssisələrinin tikintisində göstərdiyini qeyd edərək demişdir:

- "Mən ali məktəblərimizin binalarla nə dərəcədə təmin olunması məsələsi uzərində dayanmaq istəyirəm, respublikamızın ən boyuk ali məktəbləri olan Azərbaycan Dovlət Universiteti və Kənd Təsərrufatı İnstitutu son dərəcə ağır bir şərait içərisindədirlər. Bu iki ali məktəbdə 10 mindən artıq adam oxuyur, laboratoriyalar isə təchiz edilməmişdir, avadanlıq qoyulmamışdır, lazımi kabinetlər yoxdur".

1958-1961-ci illərdə S. Rəhimov respublika Nazirlər Sovetinin Sənayedə Təhlükəsiz İş Aparılması Üzərində Nəzarət və Dağ-Mədən Nəzarəti Dövlət Komitəsinə sədrlik etmişdir.

1961-ci ilin aprel ayının əvvəllərində Sadıq Hacıyarəli oğlu Rəhimov, vaxtilə Nazirlər Sovetinin sədri işləyərkən onun təşəbbüsü ilə yaranmış Bakı Baş Tikinti İdarəsinə rəis təyin olundu. Və 1965-ci ilə kimi o, BBTİ-nin başcısı kimi Bakı şəhərinin abadlaşdırılmasında, yeni-yeni mikrorayonların salınmasında, sənaye müəssisələrinin, kinoteatr və mədəniyyət saraylarının tikilib istifadəyə verilməsində yaxından iştirak etmişdir.

S. Rəhimov çox böyük təcrübəyə malik, hər cür şəraitdə vəziyyəti tez dərk edən, çətin məsələləri vaxtında həll etməyə qadir bir şəxiyyət idi. Özü də yorulmaq bilməzdi, əgər işlə tanışlıq nahar vaxtına düşsəydi, fəhlələrlə birlikdə nahar edərdi. Hər cür havada tikintiyə gələrdi, bunun üçün maşınının arxa hissəsində uzunboğaz rezin ayaqqabı saxlayardı.

Ötən əsrin əllinci illərinin axırlarında Sadıq Rəhimov Azərbaycan SSR Nazirlər Sovetinin sədri işlədiyi zaman ölkədə, eləcə də Azərbaycanda mənzilə və digər sosial tikililərə böyük tələbat vardı. Belə bir vaxtda Sadıq müəllim tikinti kompleksində rəhbər vəzifədə çalışan bir qrup mütəxəssisi öz yanına çağırmışdı. Ölkəmizdə yaxşı tanınan Məmmədəli Abbasov, Əliş Ləmbəranski, Kazım Sadıqzadə, Qaraxan Əlixanov, Adıgözəlzadə, Səlim Səlimzadə, Teymur Qasımov kimi istehsalat başçıları, Abuzər Əliyev, Qəni Məmmədov, Zahid Şabanbəyov kimi texniki sahənin alimlərinin iştirak etdiyi toplantıda söhbət tikinti kompleksinin istehsalat bazasının inkişaf etdirilməsindən, Bakı şəhərində sosial-mədəni obyektlərin, ilk növbədə mənzil tikintisinin sürətləndirilməsindən gedirdi.

Toplantıda mənzil tikintisində istehsalat bazalarının yaradılmasını və tikintinin sənaye üsulu ilə aparılmasının vacibliyini vurğulayan Sadıq Rəhimov qeyd etdi ki, Bakıda tikintinin sürətləndirilməsi, işin keyfiyyətli görülməsi üçün yeni istehsalat bazaları yaratmağa, işin sənaye üsulu ilə aparılmasına nail olmalıyıq.

Mütəxəssislərin hamısı öz rəy və təliflərini verdilər və Azərbaycan hökuməti müvafiq qərar qəbul etdi. Layihə işlərinin çoxunu əsas sifarişçi olan Moskvadakı "Hidrotikintisənayelayihə" İnstitutunun mütəxəssisləri apardılar. Kommunikasiyalar "Azərdövlətlayihə" İnstitutunun mütəxəssisləri tərəfindən hazırlandı. Nəticədə, Fransanın, "Kamyu" firması tələb edilən texnoloji avadanlığı Bakıya gətirdi. Tikinti-quraşdırma işlərinin dəyəri o zamanki pulla 4 milyon manatdan artıq hesablanmışdı. 1958-ci ilin dövrdüncü rübündə Bakıda 1 nömrəli Evtikmə Kombinatının bünövrəsi qoyuldu. Obyektin tikintisində Bakı inşaatçıları əzmlə çalışdılar. 1960-cı ilin avqust-noyabr aylarında ilk evtikmə kombinatında istehsal vasitələrinin quraşdırılmasına, avadanlıqların sazlanmasına, yoxlanmasına, sınaqdan keçirilməsinə başlandı. Tezliklə estafet fransiz mütəxəssislərinə verildi. Fransanın "Kamyu" firmasının mütəxəssisləri azərbaycanlı həmkarları ilə birlikdə nəzərdə tutulan avadanlıqları quraşdırdılar. 1961-ci ilin yanvarında evtikmə kombinatı ilk məhsulunu buraxdı. Bu kombinat Bakıda sənaye üsulu ilə evtikmənin pioneri olan müstəqil müəssisə kimi işə başladı.

Bununla da ilk dəfə Bakıda ümumi sahəsi 1236 kvadrat metr olan "1400AH" seriyalı, dördmərtəbəli, dörd bloklu, 49 mənzilli yaşayış evlərinin tikintisi reallaşdı. Belə bir ev ilk dəfə Bakının İnqilab küçəsində tikildi.

Sadıq müəllimin uzaqgörənliyi bəhrə verdi. Sonrakı vaxtlarda iş elə gətirdi ki, S. Rəhimov bilavasitə tikinti kompleksində işləməli oldu. Bir müddət Bakı Baş Tikinti İdarəsinə rəhbərlik etdi. Özünün təşəbbüsü, köməyi ilə ucaldılmış kombinatın sayəsində yeni-yeni mikrorayonların salınmasında, məktəb, uşaq bağçası və s. tikilməsində məhsuldar əmək sərf etdi.

Bakı Baş Tikinti İdarəsinin əldə etdiyi nailiyyətlərə görə 1962-ci ildə başda Sadıq Rəhimov olmaqla bir qrup inşaatçıyla Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanı, "Əməkdar inşaatçı" və "Əməkdar mühəndis" fəxri adları verildi.

1964-cü ildə artıq 500 min kvadratmetrə yaxın mənzil sahəsi, çoxlu məktəb, uşaq bağçası, kinoteatr və sair obyektlər tikilib təhvil verildi.

S. Rəhimov 1965-1975-ci illərdə Azərbaycan SSR Yüngül Sənaye Nazirliyinə başçılıq etmişdir. O, düz on il bu məsul vəzifədə çalışaraq respublika yüngül sənayesinin hərtərəfli inkişaf etməsində, sənaye müəssisələrinin yeni texniki avadanlıq və yenidən qurulmasında, xalq istehlakı mallarının istehsalının artırılması üçün xeyli əmək sərf etmişdir.

S. Rəhimov dəfələrlə Azərbaycan KP MK və onun bürosunun, Azərbaycan SSR Ali Soveti və onun rəyasət heyətinin üzvü olmuş, Azərbaycan, SSRİ Ali sovetlərinin deputatı, keçirilmiş plenum, konfrans, qurultay və sessiyalarda nümayəndə kimi iştirak etmişdir.

Onun xidmətləri Lenin ordeni, Qırmızı Bayraq, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və medallarla qeyd olunmuşdur.

S. Rəhimov 1975-ci il iyunun 11-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Sadıq Hacıyarəli oğlu Rəhimov çox səriştəli, bacarıqlı, vətənə və xalqa sadiq bir insan idi. Rəhbər işçi iqtisadiyyatdan, maliyyələşmədən yaxşı baş çıxara bilirsə, qurmağa, yaratmağa, abadlaşdırmağa daha çox meyl göstərirsə, işlədiyi sahəni, seçdiyi peşəni sevirsə, adamlarla ümumi dil tapmağı bacarırsa, mütləq uğur qazanmalıdır. Bu keyfiyyətlər Sadıq müəllimdə həddən ziyadə idi.

Sadıq müəllim yaxşı bir insan, ləyaqətli yoldaş, mehriban dost və vətənpərvər insan idi.

Sadıq Rəhimov iyirminci əsrdə Azərbaycanda yüksək vəzifə zirvəsinə çatmış o biçimli kadrlardan sayılır ki, zəhmətkeş ailədən çıxıb öz səyi, çalışqanlığı, fərasəti ilə fəhləlikdən böyük hökumət rəhbərliyi məqamına qalxmış, dünyanın altıda bir hissəsini təşkil edən, XX əsrin ortalarında qüdrətli, nüfuzlu Sovetlər dövlətinin və Azərbaycanın Ali Sovetlərinin deputatı – parlament üzvü etimadını qazanmışdı, Azərbaycan hökumətinə başçılıq etmişdi, bir vaxtlar onun əl izləri kağız üzərində deyil, paytaxtımızı – Bakını bəzəmişdir. Bakı Baş Tikinti İdarəsinə rəhbərlik edərkən onun yüksək təşkilatçılıq qabiliyyəti və vətəndaşlıq qeyrəti ilə şəhərimiz tikinti-quruculuq yürüşünə çıxmış, müharibənin yaralarının hələ tamamilə sağalmadığı, vəsaitin qıtlığı, tikinti mütəxəssislərinin kifayət etmədiyi dövrdə gələcək şanlı quruculuq işlərinin bünövrəsi qoyulmuşdur.

Azərbaycanda yüngül sənayenin yeni mərhələsi də onun adı ilə bağlıdır.



Rəhimov
Sahib
Səttar oğlu

1936-cı il iyun ayının 26-da Füzuli rayonunun Kərimbəyli kəndində qulluqçu ailəsində anadan olmuşdur. Atası ötən sərin 30-cu illərinin repressiya qurbanı olmuş, anası dünyasını tez dəyişmişdir. Uşaqlıq çağından valideynlərindən yetim qalmış və nənəsinin himayəsində böyümüş, ali təhsil almışdır. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirən kimi taleyini respublikanın təchizat sahəsinə bağlamış, dövlət idarələrində iqtisadçı, baş iqtisadçı, idarə müdiri, zavod direktoru işləmişdir.

S. S. Rəhimov həyatının 40 ildən çoxunu tikinti kompleksinə həsr etmişdir. Baş Kolxozlararası Tikinti İdarəsində Sənaye Materialları Trestinin müdiri, Kənd Tikintisi Nazirliyinin Ağac Emalı Zavodunun direktoru və Tikinti Materialları və Texniki Təchizat Trestinin müdiri, Baş Kolxozlararası Tikinti İdarəsində rəis müavini, Aqrosənaye Tikinti Birliyində sədr müavini, Baş Meliosutikintidə trest müdiri, Dövlət Tikiniti və Arxitektura Komitəsində sədrin müavini, Azərbaycan SSR Tikinti Materialları Sənayesi nazirinin müavini və s. məsul vəzifələrində çalışmış və həmişə də uğur qazanmışdır.

S. S. Rəhimov çalışdığı bütün rəhbər vəzifələrdə həmişə özünü doğrultmuş, ona həvalə olunan tapşırıqları öz səlahiyyətləri çərçivəsində yüksək peşəkarlıqla icra etmişdir.

Azərbaycan kəndinin inkişafında, abadlaşdırılmasında onun əməyi çoxdur. On ildən çox bir müddətdə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində işləyib. Dəfələrlə rayon və qəsəbə sovetlərinə deputat seçilmiş, dövlət mükafatlarına layiq görülmüşdür. Respublikanın Əməkdar İnşaatçısı adını daşıyır. Dövlət mükafatlarına, fəxri fərman və tərifnamələrə layiq görülmüşdür.

Hazırda təqaüddədir.



Rzayev
Baba
Hüseynağa oğlu

1955-ci ildə Bakıda anadan olmuşdur. Orta məktəbi bitirib Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və həmin institutu 1979-cu ildə ali təhsilli mühəndis kimi bitirərək təyinatla Azərbaycan SSR Xüsusi Tikinti-Quraşdırma İşləri Baş İdarəsinin sərəncamına göndərilmişdir. Baş İdarənin rəhbərliyi onu "Azərsənayeelektrikquraşdırma" trestində mühəndis vəzifəsinə təyin etmişdir.

B.H. Rzayev 20 ilə yaxın həmin trestdə, onun bölmələrində mühəndis, idarə rəisi, eləcə də digər məsul və rəhbər vəzifələrdə çalışmış, ən mühüm və vacib buraxılış obyektlərində sanballı əl izləri qoymuşdur. Respublikanın müxtəlif bölgələrində, o cümlədən Bakı və Sumqayıt şəhərlərində tikilib istismara buraxılmış neft-kimya müəssisələrinin, iri sənaye obyektlərinin ti-

kintisinə bilavasitə rəhbərlik etmiş, bir sıra səmərəli təkliflər irəli sürmüşdür. Bir neçə ildir ki, "Bakıelektrikşəbəkə" ASC-nin sədri kimi səmərəli fəaliyyət göstərir. Son illər Azərbaycanda inşa edilən bir sıra sosial-mədəni obyektlərdə, iri sənaye müəssisələrində B.H. Rzayevin də zəhmət payı vardır.

Rzayev
İmanverdi
Ağabala oğlu

1905-ci il yanvarın 9-da Bakıda məşhur tacir Ağabalanın ailəsində anadan olmuşdur. Ali təhsilli inşaatçı-mühəndis – körpütunel tikintisi mühəndisi olmuşdur. 1927-ci ildə ali təhsil diplomunu alandan həyatını tikinti kompleksinə bağlamışdır. İlk dəfə Sabunçu vağzalında işə başlamışdır. Aylar illərə çevrildikcə onun təcrübəsi də, vəzifəsi də artır. 1931-ci ildə Yol Xidməti rəisinin müavini vəzifəsinə irəli çəkilir. 1936-1938-ci illərdə Azərkimya sənayesi tikintisinə başçılıq etmişdir. Sonrakı illərdə Azərbaycan SSR Kommunal Təsərrüfatı Nazirliyində məsul vəzifələrdə çalışmışdır.

İ.A. Rzayev XX əsrin 60-cı illərində Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Kolxozlararası Tikinti İdarəsi yarananda bu kollektivə ilk rəis təyin edilmişdir. Onun rəhbərliyi altında Azərbaycanın kolxoz və sovxozlarında yeni qəsəbələr salınmış, kənd təsərrüfatı əhəmiyyətli vacib obyektlər tikilmiş, təsərrüfatlararası yollar çəkilmiş, abadlıq işləri görülmüşdür. 1967-1970-ci illərdə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində idarə rəisi kimi fəaliyyət göstərmişdir. Onun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir.

1970-ci ilin 27 noyabrında vəfat etmişdir.

S



Sadiqov
Fəxrəddin
Xəlil oğlu

01 iyun 1961-ci il tarixdə Naxçıvan MR Şərur rayonunun Dizə kəndində anadan olub. 1968-ci ildə Naxçıvan MR Şərur rayon Oğlanqala kənd orta məktəbini bitirib. 1980 -1982-ci illərdə ordu sıralarında hərbi xidmətdə olub.

O, 1982-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunub və 1988-ci ildə orada tam kursu bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnib.

F.X. Sadiqov 1988-1991-ci illərdə Şərur rayon 4 nömrəli tikinti quraşdırma idarəsində rəis, 1991-1993-cü illərdə isə Şərur rayon İcraiyyə Komitəsində şöbə müdiri və baş mühəndis vəzifələrində işləmişdir.

O, 1993-1997-ci illərdə Azərbaycan Beynəlxalq Universitetində ikinci ali təhsil almış – İdarəetmə, biznes və hüquq fakültəsində (qiyabi şöbə) hüquqşünas ixtisasına yiyələnmişdir.

1993-2006-cı illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur ("Səma" firması və "Tikinti Servis" MTK-nın direktoru vəzifəsində).

F.X. Sadiqov Şərur rayon 4 nömrəli tikinti quraşdırma idarəsində rəis və Şərur rayon İcraiyyə Komitəsində şöbə müdiri və baş mühəndis vəzifələrində işlədiyi illərdə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun ərazisində çoxlu sayda kənd təsərrüfatı və su meliorasiya obyektlərinin, eləcə də yaşayış evlərinin və yeni qəsəbələrin salınmasında yaxından iştirak etmişdir. Bu obyektlərdən – Şərur rayonunda balıqçılıq təsərrüfatının, Arpaçay sağ sahil kanalının L=23,7 km. tikintiləri, Püsyan kəndində camışçılıq kompleksi, Arpaçay gölü altında olan yeni suvarılan torpaq sahələri 1000 ha, su təchizatının yaxşılaşdırılması 19800 ha, Şərur rayonunun Püsyan kəndi ərazisində qrunt sularının aşağı salınması üçün şaquli drenaj şəbəkələrinin (75 quyu, dərinliyi 140 m) tikintisi, Şərur rayonunun S. Vurğun adına sovxozunda Ağbulaq sahəsinə su verilməsi üçün 2 ədəd nasos stansiyasının və 16 km yüksək təzyiqli boru xəttinin (800 ha üçün) tikintisi, Ağbulaq su anbarının tikintisi, Şərur rayonu ərazisində Üzümçülük sovxozu üçün yaşayış qəsəbəsinin (170 ədəd ev, məktəb, xəstəxana, çayxana, mağaza və s. infrastruktur obyektləri) tikintisi, Bənəniyar gölünün tikintisi, Bənəniyar gölünün sağ

və sol sahil kanallarının tikintisi (uzunluqları: sağ – 17 km, sol – 24,5 km), Şərur rayonunun kanalizasiya şəbəkəsinin yenidən qurulması, Şərur rayonunun mərkəzində 2 ədəd 64 mənzilli 5 mərtəbəli yaşayış evlərinin və digər çoxlu sayda sosial-mədəni obyektlərin inşaat layihələri F.X. Sadiqovun rəhbərliyi altında reallaşmışdır.

Fəxrəddin Sadiqov 1993-2006-cı illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu zaman "Səma" firmasının və "Tikinti Servis" MTK-nın direktoru kimi respublikamızın paytaxtında və müxtəlif yaşayış ünvanlarında hündür mərtəbəli yaşayış evlərinin və digər sosial təyinatlı infrastruktur obyektlərinin layihələrini həyata keçirmiş, tikinti-quruculuq fəaliyyətini davam etdirmişdir.

İşgüzarlığı, yüksək təşkilatçılığı, peşəkarlığı, daim yeniliyə can atması və geniş istehsalat təcrübəsi nəzərə alınmaqla F.X. Sadiqov 2007-ci ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini vəzifəsinə təyin olunmuş və hazırda bu vəzifədə çalışır. Dövlət qulluğu müşaviridir.

O, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini kimi öz səlahiyyətləri daxilində tikinti sahəsində dövlət nəzarətinin həyata keçirilməsi istiqamətində üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlir.

F.X. Sadiqov dövlət qulluğunda fərqləndiyinə və əldə etdiyi nailiyyətlərə görə 2007-ci ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur.

Ailəlidir, 4 övladı var.



Sadıxov
Rəşid
Əli oğlu

13 may 1932-ci ildə Bakıda anadan olmuşdur. 1957-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. 1950-1952-ci illərdə Azərbaycan SSR Maarif Nazirliyinin Bakıdakı M.C. Bağırov adına ixtisaslaşdırılmış 1 nömrəli internat məktəbdə komsomol komitə katibi (azad), 1955-1958-ci illərdə Bakı Baş Tikinti İdarəssində və Kür-Araz Su Tikintisi Baş İdarəsində iş ustası və iş icraçısı işləmişdir.

R.Ə. Sadıxov 1958-1960-cı illərdə Kür-Araz Su Tikintisi Baş İdarəsinin aparatında mühəndis və Baş İdarənin 13 nömrəli Tikinti idarəsində plan-istehsalat şöbəsinin rəisi kimi fəaliyyət göstərmişdir. 1960-1961-ci illərdə Azərbaycan SSR Su Təsərrüfatı Nazirliyinin Tikilməkdə Olan Müəssisələr Müdiriyyətində baş mühəndis vəzifəsində işləmişdir.

R.Ə. Sadıxovu 1961-ci ildə Azərbaycan KP MK-ya işə dəvət etmişlər. O, 1963-cü ilədək Mərkəzi Komitənin tikinti şöbəsində bölmə müdiri vəzifəsində çalışmışdır.

O, 1967-ci ildə Baş kolxozlararası tikinti idarəsinin rəisi təyin edilmişdir. 1970-1980-ci illərdə R.Ə. Sadıxovun rəhbərliyi altında Baş Kolxozlararası Tikinti İdarəsi qələbələr qazanmış, keçici Qırmızı Bayraqlarla təltif olunmuşdur. Həmin illərdə onun rəhbərliyi altında respublikada yüzlərlə mexanikləşdirilmiş heyvandarlıq binaları, süd-əmtəə fermaları, sosial-mədəni obyektlər tikilmiş, təzə qəsəbələr salınmışdır. Ötən əsrin 90-cı illərinin ortalarından müdafiə nazirliyində məsul işə başlamışdır. Uğurlu işinə görə general rütbəsi almışdır.



Sadıxov
Valeh
Sadıx oğlu

1950-ci ilin aprelin 26-da Gürcüstan SSR-nin Qardabani rayonunun Qara Təhlə kəndində anadan olmuş, kənd orta məktəbini bitirdikdən sonra (1966-cı il), ali təhsil almaq məqsədilə Bakı şəhərinə gəlmiş və o vaxtdan həyatını Bakı şəhərinə bağlamışdır.

V.S. Sadıxov 1972-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsini bitirmiş, təyinatla Türkmənistan SSR-ə göndərilmişdir. İlk əmək fəaliyyətinə Nebitdağda mühəndis kimi başlamışdır. Azərbaycana qayıtdıqdan sonra Azərbaycan Elmlər Akademiyasının Biologiya İnstitutunda elmi işçi kimi çalışmış, məsul və mötəbər işlərin uğurlu həllində böyük əmək sərf etmişdir.

V.S. Sadıxov 1978-ci ildə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinə işə dəvət edilir. Əvvəlcə nazirliyin çox mühüm vacib sahəsi olan tikinti materialları sənayesi trestində mühəndis vəzifəsinə təyin olunur. Az sonra trestdə şöbə müdiri vəzifəsinə köçürülür, çox keçməmiş Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsinə seçilir. Bir neçə ildən sonra trestin müdir müavini vəzifəsinə irəli çəkilir. 18 il-1996-cı ilə qədər həmin trestdə məsul və rəhbər vəzifələrdə işlədiyi illərdə trestin bütün bölmələrində, o cümlədən Lənkəran, Mingəçevir, Tovuz, Füzuli, Sabirabad, Xaçmaz, Xudat, Abşeron və digər rayonlarda nəhəng istehsalat bazalarının – dəmir-beton məmulatı zavodlarının, ağac emalı müəssisələrinin, iri emalatxanaların yaradılmasına bilavasitə rəhbərlik etmişdir.

V.S. Sadıxov 1996-2004-cü illərdə Azərbaycan Respublikası Metalurgiya Şirkətinin, Bakı Əlvan Metalın Emalı Şirkətinin müdir müavini vəzifəsində işləmiş və həmin dövrdə tikinti kompleksinə vacib olan inşaat materiallarının çatdırılmasında var qüvvəsi ilə çalışmışdır. İstehsalatdakı uğurlarına görə dəfələrlə Respublika Həmkarlar İttifaqı Komitəsindən, trest, nazirlik, birlik və şirkətlərdən fəxri fərmanlar almış, döş nişanları ilə təltif olunmuşdur.



Salahov
Şahin
Rasim oğlu

1952-ci ildə Bərdədə anadan olmuşdur. Bərdə şəhərindəki 1 nömrəli orta məktəbi bitirdikdən sonra (1969-cu il) Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsinə daxil olmuş (1969-cu il), oranı 1974-cü ildə bitirib "Azərbaşmeliorasutikinti" sistemində işləməyə başlamışdır. Baş İdarənin "Xüsusimülkisənayetikinti" trestində istehsalat şöbəsində mühəndis, şöbə müdiri, 34 nömrəli mexanikləşdirilmiş səyyar dəstənin rəisi, trestin müdir müavini və s. vəzifələrdə çalışmış, qabiliyyət və bacarığı ilə həmkarları arasında fərqlənmişdir.

Ş.R. Salahov 1992-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinə işə dəvət olunmuş və həmin ildən indiyə qədər bu mötəbər təşkilatda tikinti, inşaat materialları və tikinti sənayesi şöbəsinin müdiri vəzifəsində çalışır, müstəqil respublikamızın da-

ha da inkişaf etdirilməsində, kənd, qəsəbə və şəhərlərimizin yenidən qurulması, tikilməsi və abadlaşdırılmasında var qüvvəsini sərf edir.



Sarıyev
Kamil
Çərkəz oğlu

1948-ci ildə Ağdam rayonunun Seyidlər kəndində anadan olmuşdur. Orta məktəbi bitirib, Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur. Ali təhsilli inşaatçı-mühəndis adını alan kimi ilk dəfə əmək fəaliyyətinə Kənd Tikintisi Nazirliyinin Ağdamdakı 52 nömrəli tikinti-quraşdırma idarəsində başlamışdır.

Tikinti meydançalarında iş ustası, iş icraçısı, sahə rəisi, idarənin baş mühəndisi işləmişdir. Bacarıq və qabiliyyəti sayəsində Ağdamdakı Tikinti Trestinin müdiri vəzifəsinədək yüksəlmişdir.

K.Ç. Sarıyev sonra Ağdam rayon İcra Hakimiyyəti başçısının müavini olmuşdur. Ağdam rayon İcra Hakimiyyəti başçısının müavini işlədiyi illərdə də tikinti-quraşdırma və abadlaşdırma işləri ilə yaxından məşğul olmuşdur. 5 ilə yaxın "Ağdam-Pambıq" Açıq Səhmdar Cəmiyyətinə rəhbərlik etmişdir (1995-2000-ci illər). Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrdə bir azərbaycanlı və səriştəli rəhbər işçi kimi çox işlər görmüş və bu gün də görür.



Seyidəliyev
Sabir
Əbdül-Bağı oğlu

14 mart 1943-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1950-1958-ci illərdə 171 nömrəli orta məktəbdə təhsil almış və VIII sinfi qurtarması haqqında şəhadətnaməni alıb, Azərbaycan Politexnik Texnikumuna qəbul olmuşdur. 1962-ci ildə texnikumu bitirib təyinatla "Azərkəndtikintilayihə" İnstitutunun smeta şöbəsində texnik vəzifəsində işə başlamışdır.

S.Ə. Seyidəliyev 1963-1970-ci illərdə Bakı Baş Tikinti İdarəsinin 7 nömrəli tikinti idarəsində sahə ustası, iş icraçısı kimi fəaliyyət göstərmişdir. 1970-ci ildən həyatını "Azərbaşmeliosutikinti" İdarəsinə bağlamışdır. Əvvəlcə baş idarədə böyük mütəxəssis, sonra qrup rəhbəri, Beyləqandakı 6 nömrəli tikinti trestində baş mühəndis vəzifəsində işləmişdir. Samur-Abşeron su tikinti trestində baş mühəndis, xüsusi sənaye su tikinti trestində baş mühəndis, istehsalat şöbəsinin rəisi vəzifələrində çalışdığı illərdə böyük uğurlar qazanmışdır. 1989-1992-ci illərdə isə Azərsutikinti XTB rəisi vəzifəsində işləmişdir.

S.Ə. Seyidəliyev 1992-1995-ci illərdə "Azərsutikinti" Konserndə sədr müavini, 1995-1998-ci illərdə isə "Azərsutikinti" Dövlət Şirkətində sədr müavini kimi fəaliyyət göstərmiş, 1998-1999-cü illərdə Ləğvetmə Komissiyasının işçi qrupunda çalışmışdır. 1999-cu ildə onu "Azərsutikinti" Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsinə irəli çəkmişlər. Hazırda həmin vəzifədə çalışır.



Seyidzadə
Fuad Bağır oğlu,
memar, (1938-1972)

1938-ci il iyunun 16-da Bakı şəhərində anadan olmuşdur. 1955-ci ildə o, Bakı şəhərindəki 6 nömrəli orta məktəbi bitirmişdir. 1955-1956-cı illərdə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil almışdır. Rəssamlıq Məktəbinə gəlişi, bu məktəbdə təhsili onun daxilindən gələn yaradıcılıq missiyasının təzahürü idi və bütün sonrakı fəaliyyətində özünü bariz şəkildə göstərmişdi. 1956-cı ildə o, Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuş, 1962-ci ildə oranı bitirmişdir. 1958-1959-cu illərdə isə Moskva Memarlıq İnstitutunda təhsil almışdır. Fuad Seyidzadə çoxşaxəli fitri istedada malik idi və hansı bir yaradıcılıq sahəsi ilə məşğul olsaydı, orada böyük uğurlar qazanardı. Lakin, o, memarlığın vurğunu idi və ömrünün sonunadək öz sevimli peşəsinə sadiq qalmış, yaratdığı əsərləri, memarlıq layihələri ilə bu sənətin zirvələrini fəth etmişdi. Buna misal olaraq Havanada (Kuba) keçirilən beynəlxalq müsabiqəyə hələ tələbə ikən Fuad Seyidzadənin təqdim etdiyi "Peyk şəhəri - Sumqayıt" layihəsinə görə aldığı "Müsabiqə diplomantı" fəxri adını göstərmək olar. O zəmanə üçün qeyri-adi bir uğur kimi qiymətləndirilən bu hadisə respublikada geniş əks-səda doğurmuş və Fuad Seyidzadənin adı bir memar kimi məşhurlaşmağa başladı.

1962-ci ildə institutu bitirdikdən sonra Fuad Seyidzadə "Azdövlətlayihə" Baş Dövlət Layihə İnstitutunda memar kimi müvəffəqiyyətlə fəaliyyət göstərməyə başlayır. Çox keçmədən, 1968-ci ildə Bakı Şəhər İcraiyyə Komitəsi yanında yaradılan Xüsusi Layihə-Smeta Bürosunun işinin təşkili və ona rəhbərlik məhz ona tapşırılır. Gənc memar istedadlı, sərbəst düşüncəli, müasir baxışlı həmfikirlərini ətrafına yığaraq böyük həvəslə bu işə başlayır və bütövlüklə yaradıcılıq şövqü, tükənməz enerjisi, zəngin biliyi, qeyri-adi bacarığı hesabına qısa bir zamanda büronun işini səmərəli şəkildə qura bilir və büro tezliklə böyük uğurlar qazanır. Büronun fəaliyyəti respublikanın rəhbəri Heydər Əliyevin diqqətini cəlb edir, onun şəxsi dəstəyi və qayğısı ilə əhatə olunur.

Fuad Seyidzadənin professional mövqeyi Azərbaycanın min illər boyu formalaşmış milli mədəniyyət xüsusiyyətləri ilə universal memarlıq prinsiplərinin kəsişmə nöqtələrini tapıb yeni, sintetik bir istiqamət formalaşdırmaq, universal memarlıq üslubunu Azərbaycanda tətbiq etmək idi. Fuad Seyidzadə klassik memarlıq prinsiplərinə arxalanaraq ən mütərəqqi memarlıq baxışlarını, o dövr üçün son dərəcə qabaqcıl sayılan modern yanaşmanı bir araya gətirə bilir, zəngin və mürəkkəb kompozisiyalar vasitəsilə qeyri-ənənəvi tikinti materiallarından, polad və şüşə konstruksiyalardan istifadə edərək, orijinal, cəlbedici, kreativ və eyni zamanda milli nəfəs ilə dolu memarlıq obyektləri yaradırdı. Memar-rəssam kimi onun yaradıcılığının vacib xüsusiyyəti bundan ibarət idi ki, o, layihəsi verilən obyektin həm bütün

elementləri arasında tarazlığı, həm də obyektin yerləşəcəyi yerə, ətraf ərazi yə, mühitə uyğunluğunu, mütənasibliyini böyük həssaslıqla duyurdu. Gördüyü işlərdə forma, ölçülər və rənglər arasında nisbəti məharətlə müəyyən etməklə ən yüksək konstruktiv, funksional və bədii tələblərə cavab verən, insanlar üçün rahat və harmonik aləm yaratmaq qabiliyyəti bariz şəkildə nəzərə çarpırdı. Buna görə də o, əsl Memar, Ustad və Sənətkar idi. Yaradıcılığında məşhur üzvü(orqanik) memarlıq prinsiplərinə meyilli Fuad Seyidzadə şəxsi tikililərə xüsusi diqqət yetirirdi. Bunun parlaq nümunəsi xalq rəssamı Tahir Salahov üçün hazırladığı layihə və ona uyğun Nardaranda tikilmiş bağ evidir. Bu layihədə Abşeronun bütün xüsusiyyətlərinə yaxından bələd olan memar ətrafdakı tikililər üçün xarakterik olan yastı dam örtüyü formasından məharətlə istifadə etmiş, bu yaşayış evini Xəzərin şimal sahilinin məkan xüsusiyyətlərinə uyğunlaşdırmışdı. Müsəlman adət-ənənələrini nəzərə alaraq üzü gündoğana tikilmiş bağ evinin ağ rəngli divarları tikiliyə yüngüllük gətirir və işıqlandırmanı artırırdı.

Fuad Seyidzadənin böyük maraq doğuran işlərindən biri də Leninqradda (indiki Sankt-Peterburq) şəhərindəki "Bakı" restoranının binası və interyerinin layihə işinin gerçəkləşdirilməsi idi. Onun rəhbərliyi ilə həyata keçirilmiş bu iş haqqında sonralar Leninqrad Şəhər İcraiyyə Komitəsinin Baş Memarlıq-Planlaşdırma İdarəsinin verdiyi rəyə görə, "Bakı" restoranı şəhərin mərkəzində özünəməxsus gözəlliyi ilə seçilən ən yaraşıqlı və yaddaqalan binalardan biridir. Fuad Seyidzadənin layihələri əsasında inşa edilmiş Zaqatalada "Qonaq evi", Qızılgül Emalı Zavodu, Bakıda İran konsulunun bağ evi (Sarıqaya) öz orijinallığı ilə dərhal diqqəti cəlb edir və xalq arasında tanınırdı.

Memar bir sıra monumental abidələrin inşasına da öz töhfəsini vermişdi. Sevastopol şəhərində Sapun dağı üstündə 77-ci Azərbaycan diviziyasının qəhrəmanlığına həsr olunmuş abidə (heykəltəraş Ö.Eldarov), Bakıda Bəhram Gurun heykəli və fəvvarə (heykəltəraş Q.Sücəddinov) bu qəbildən ən diqqətəlayiq işlərdəndir. Demək olar ki, Fuad Seyidzadənin yaratdığı hər bir obyektdə onun insanpərvər, romantik, savadlı memarlıq tərzi müxtəlif formalarda və həmişə də ən yüksək professionallıqla öz təzahürünü tapırdı.

Ötən əsrin 60-70-ci illərində intensiv inkişaf edən şəhərsalma prosesləri ilə bağlı Fuad Seyidzadənin nəzəri baxışları və konkret praktiki təklifləri var idi. Geniş yayılmış eynitipli panel evlərin inşasına qarşı peşəkar memar kimi çıxış edərək bu cür tikililərin xalqın mentalitetini, milli adət-ənənələrini nəzərə almadığını israr edirdi. Şəhərsalmada isə o, hər biri qapalı həyətlərdən ibarət və bir-biri ilə əlaqəsi olan ayrı-ayrı məhəllələr yaratmağı -"məhəllə yaşayış tipi" ideyasını irəli sürmüşdü. Bu ideya çərçivəsində Fuad Seyidzadənin memar T.Şarinski ilə birlikdə hazırladığı Nəriman Nərimanov küçəsinin (keçmiş Sovet küçəsi) perspektiv layihəsini göstərmək olar. Bu layihədə Bakının təbii landşaftını, coğrafi mövqeyini, digər təkrarolunmaz xüsusiyyətlərini nəzərə alaraq, aydın memarlıq məntiqinə və estetik tələblərə uyğun müasir şəhər məkanının yaradılması təklif olunurdu. Digər bir layihədə - "Estakada üzərində yaşayış evləri" layihəsində isə Neft daşları sahəsində yaşayış massivinin genişləndirilməsi nəzərdə tutulmuşdu. Burada tamamilə ayrı cür, lakin yenə də ahəngdar şəkildə "təbiət - insan", "xarici aləm - daxili mühit" vəhdətləri öz əksini tapmışdı.

Fuad Seyidzadənin fəaliyyətində Sumqayıt şəhəri xüsusi yer tutur. Sumqayıt şəhərinin rəhbərliyi tərəfindən burada aparılan tikinti-abadlıq işlərinə rəhbərlik etməyə dəvət olunmuş Fuad Seyidzadənin layihələndirdiyi tikililər – Dənizkənarı park, məşhur "Göyərçin" heykəlinin qoyulduğu "Sülh" meydanı, bir neçə çoxmərtəbəli yaşayış binaları, uşaq meydançaları Sumqayıt şəhərinə xoş əhval-ruhiyyə gətirən müasirlik və misilsiz gözəllik bəxş etmişdir.

Fuad Seyidzadə Frank Lloyd Raytın, Oskar Nimeyerin, Antonio Qaudinin, Aleksey Şusevin, Sadıq Dadaşovun və digər tanınmış memarlıq ustalarının ideyalarında və işlərində təzahür etmiş XX əsr dünya memarlığının nailiyyətlərini dərindən öyrənmiş və öz yaradıcılığında inkişaf etdirmişdi. Fuad Seyidzadənin Azərbaycan memarlığında yüksək xidmətləri nəzərə alınaraq 1998-ci ildə Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən onun adına xüsusi mükafat təsis edilmişdir. Memarlar İttifaqlarının Beynəlxalq Assosiasiyası tərəfindən hər il keçirilən "İlin ən yaxşı layihəsi (tikilisi)" mövzusunda müsabiqənin qaliblərinə verilən "Memar Fuad Seyidzadə mükafatı" memarlıq sənətində mühüm uğurlar qazanmış gənc memarlara təqdim olunur.

Fuad Seyidzadənin bir tərəfdən nəhəng yaradıcılıq potensialı, çevik və məhsuldar təfəkkürü, hədsiz təxəyyülü, bənzərsiz əl qabiliyyəti, digər tərəfdən isə özünə qarşı son dərəcə tələbkarlığı, düzgünlüyü, əzmkarlığı kimi şəxsi keyfiyyətləri hələ neçə-neçə gözəl memarlıq əsərləri yaradacağına böyük inam yaratmışdı. Lakin Fuad Seyidzadənin ömrü çox qısa oldu və fəaliyyətinin ən çiçəklənən vaxtında – 1972-ci il avqustun 14-də Bakıda gözlənilməz faciə nəticəsində o, dünyasını dəyişdi. Oğlu Ülvi, nəvələri Mirfuad və Mirmusa Seyidzadələr bu gün bu memarın soyadını şərəflə daşıyır və istedadının qığılcımlarını özlərində yaşadırlar.



Seyidova
Dilarə
Hidayət qızı

istehsalata gəldiyi gündən həyatını qurmaq, abadlaşdırmaq, yaratmaq işlərinə həsr etmişdir. Yarım əsrədək əmək fəaliyyətinin 40 ildən çoxunu layihə təşkilatlarında məsul və rəhbər vəzifələrdə keçirən D.H. Seyidova uzun illər Bakı Dövlət Layihə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. O, layihə institutuna rəhbərlik etdiyi illərdə dəfələrlə partiya bürosuna üzv seçilmiş, respublikanın ictimai həyatında fəal iştirak etmişdir.

D.H. Seyidova qabiliyyətli işinə və ləyaqətli xidmətlərinə görə "Şərəf nişanı" ordeni, 3 müxtəlif medalla təltif olunmuşdur. Azərbaycan SSR Ali Sovetinin və Bakı Şəhər XDS İcraiyyə Komitəsinin fəxri fərmanları ilə mükafatlandırılmışdır. O, respublikanın Əməkdar İnşaatçısı fəxri adına layiq görülmüşdür.



Səfərov
Telman
Səfər oğlu

1949-cu ilin iyunun 29-da Tovuz rayonu Böyük Qışlaq Sovetliyinin Səfərli kəndində anadan olub. Tovuz şəhərindəki Puşkin adına orta məktəbi bitirib.

Orta məktəbi bitirdikdən sonra 1966-cı ildə Azərbaycan Neft Akademiyasına qəbul olunub. Axşam oxuyub, gündüz işləyib. 5 il yükləyici fəhlə işləyib, briqadir işləyib. 1967-ci ilə Bakı Azbest-Sement və Keramika Məmulatları Kombinatına işə qəbul olunub. Sex rəisinin müavini, sex rəisi, şöbə rəisinin müavini, şöbə rəisi vəzifələrində işləyib. Sonra Şifer sexində böyük texnoloq, baş direktorun müavini işləmiş və baş direktor vəzifəsinə yüksəlmişdir.

2001-ci ildən "Bakı Şifer-Keramika" Açıq Səhmdar Cəmiyyətinin sədri, 2003-cü ildən isə Direktorlar Şurasının sədridir.

Ailəlidir. Dörd övladı var.

Hər bir insan fərddir, təkdir, iki eyni xasiyyətli insan tapmaq qeyri-mümkündür. Və bir də, insanları bir-birindən fərqləndirən xasiyyət, xüsusiyyətlər var. Həmin o xasiyyətə görə də insanlar ya adi, ya da fərqlidirlər. Bir də ki, bu insanlar arasında şəxsiyyətlər var. Telman müəllim də belə şəxsiyyətlərdən biridir.

Telman müəllim əsl dostdur. Çətin gündə insana dayaq olan, insanı darda qoymayan, həyan olan bir insandır.

Telman müəllim insanın halına dilnən deyil, ürəknən yanan, yaxşılıq eləyib dilə gətirməyən bir insandır. Nəcibdir, qayğıkeşdir, xoş təbiətlidir. Əqidə və məslək sahibidir, həqiqəti sevən, qəlbi, daxili gözəl pak bir insandır. Özgələrin xoşbəxtliyi üçün çalışan bir insandır.

Səxavətlidir, ədalətlidir. Geniş ürəkli, həyatda tayı-bərabəri olmayan insanlardan biridir. Dostları arasında etibarlıdır. Mərddir, qəlbi tox və ürəyi geniş insandır. Dünya malına və puluna qarşı laqeyddir.

Telman Səfərov bu gün 63 yaşındadır. El gözü tərəzidir. Telman Səfərov yaşadığı ömür boyunca Azərbaycan cəmiyyətində özünü yaxşı tərəfdən təsdiqləmiş, Azərbaycan dövlətinə və dövlətçiliyimizə sadiq bir insan, şəxsiyyət olduğunu əməlləriylə təcdiqləmişdir.

O Azərbaycan müstəqillik qazanandan sonra "Xalq istehlak malları istehsal edən müəssisələrdə marketinqin təşkili və idarə olunması" mövzusunda dissertasiya işə götürüb işləmiş və 2008-ci ilin sonunda Azərbaycan Neft Akademiyasında namizədlik dissertasiyasını müdafiə edib elmlər namizədi, alimlik dərəcəsini almışdır.

O keçdiyi ömür yolundan, fəaliyyət illərindən, taleyindən çox razıdır.

O çox işgüzar adamdır, onun üçün heç vaxt vaxt azlığı problem kimi ortaya çıxmayıb. Baxmayaraq ki, vəzifədə də işləri yerinə yetirmək üçün böyük vaxt kəsiyinə həmişə ehtiyac olur. O, hər zaman bütün işlər üçün vaxtı bölə, çatdıra bilib.

2008-ci ildən başlayaraq Telman müəllim bütün diqqətini əsasən Qaradağ rayonunun Sahil qəsəbəsində yeni şifer zavodunun tikintisi üçün ayrılmış ərazidə zavodun tikintisinə yönəltdi. Bu gün artıq demək olar ki, zavodun tikintisi başa çatdırılmışdır. Ancaq bu çox çətinliklə başa gəlmişdir.

Köhnə – Heydər Əliyev 117 ünvanında keçmiş müəssisənin – "Bakı Şifer-Keramika" ASC-nin söküntüsü başa çatdıqdan sonra 2008-ci ilin yanvarın 1-dən etibarən bütün sökülmüş avadanlıqlar və tikintiyə yararlı olan inşaat materialları Qaradağ rayonunun Sahil qəsəbəsində yeni zavodun tikintisi üçün ayrılmış ərazyə daşındı və ərazinin hasarlanmasına və zəruri infrastruktur obyektlərinin yaradılmasına başlandı. İşığı, qazı, suyu, kanalizasiyası- bir sözlə heç bir infrastrukturu olmayan bu yeni ərazidə Telman Səfərov bütün işlərə sıfırdan başlamalı oldu, hər şeyi yenidən yaratmalı oldu. İlk əvvəl çox çətinliklərlə üzləşdi. Uzaq məsafədən yüksək gərginlikli hava elektrik xətti çəkdilər. Çox uzaq məsafədən qaz və su xətləri çəkildi. Bunların hamısını çox çətinliklə də olsa həyata keçirməyə müvəffəq oldular. Bütün bu işlərlə paralel olaraq yeni ünvanda zavod üçün 3 mərtəbəli ofis binasının tikintisini həyata keçirdilər. Şifer istehsalı üçün zəruri olan köməkçi sahələrin yaradılmasına başlanıldı və elektro-mexanika sahəsi, qazanxana sahəsi, təmir-tikinti sahəsi, dəmir yol xəttinin çəkilişi, kompressor sahəsi və digər yardımçı infrastruktur obyektləri tikilərək başa çatdırıldı.

2 şifer istehsalı xəttindən ibarət olacaq istehsal korpusunun tikintisi də başa çatdırıldı. Həmçinin yeni zavodun ərazisində yeməkxana korpusu, məişət otaqları, geyinib-soyunma otaqları, duşxana tikilmiş, zavoda yol çəkildikdən sonra ərazidə olan daxili yolların çıkilişi də başa çatdırılmışdır.

Bundan əlavə yeni ərazidə mərmər istehsalı üçün İtaliyadan avadanlıqlar alınıb quraşdırılmışdır. Yaxın zamanlarda zavod öz yeni istehsalı olan yüksək keyfiyyətli mərmərləri ilə yerli və xarici bazara çıxacaqdır.

Əminik ki, həyatda hər zaman bütün çətinliklərə mərdliklə sinə gərib hər zaman qalib çıxmağı bacaran Telman Səfərov öz əzmkarlığı sayəsində çox çətinlik və böyük zəhmət bahasına başa çatdırdığı zavodda yeni uğurlar qazanacaq və "Bakı Şifer-Keramika" ASC-nin keçmiş şöhrətini özünə qaytaracaqdır.



Səmədov
Rafiq
Salah oğlu

21 sentyabr 1941-ci ildə Bakı şəhərində anadan olub.

Əmək fəaliyyətinə 1959-cu ildə Bakı Baş Tikinti İdarəsində suvaqçı kimi başlamış və 3-cü dərəcəli suvaqçı kimi 1961-ci ilə kimi burada çalışmışdır.

R.S Səmədov 1959-1964-cü illərdə Azərbaycan Politexnik İnstitutunun sənaye və mülki tikinti fakültəsində ali təhsil alıb. 1965-1968-ci illərdə Azərbaycan SSR Sənaye Tikinti Nazirliyinin Sumqayıt şəhərində yerləşən zavodunda usta, iş icraçısı və baş iş icraçısı vəzifələrində işləmişdir.

R.S. Səmədov 1968-ci ildə S.Ə. Dadaşov adına Tikinti Materialları Elmi-Tədqiqat İnstitutunda dəmir-beton konstruksiyaları labaratoriyasına gənc

elmi əməkdaş kimi işə qəbul olunmuşdur.

O, 1975-ci ildə dissertasiyasını müdafiə edib dəmir-beton konstruksiyaları üzrə texniki elmlər namizədi alimlik dərəcəsi aldıqdan sonra böyük elmi işçi kimi Azərbaycan SSR Tikinti Materialları Sənayesi Nazirliyinin elmi-texniki informasiya şöbəsinə rəhbərlik etmişdir.

İnstitutda işlədiyi illərdə 27-yə qədər elmi məqaləsi dərc olunmuş, inşaat materialları, dəmir-beton konstruksiyaları sahəsini əhatə edən 8 müəllif şəhadətnaməsi vardır.

R.S. Səmədov 1980-ci ildə köçürmə yolu ilə Bakı Baş Tikinti İdarəsinin "Bakışəhərtikinti" trestinin baş mühəndisi vəzifəsinə təyin olunmuş və 1983-cü ilə kimi bu vəzifədə çalışaraq Heydər Əliyev sarayının, "Gülüstan" sarayının, Milli Məclisin inzibati binasının, "Moskva" mehmanxanasının, çoxlu sayda məktəb, uşaq bağçası, xəstəxana, polikilinika və digər sosial mədəni obyektlərin tikintisində çalışmış, üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirmişdir.

R.S. Səmədov 1983-2003-cü illərdə – hardasa 20 il ərzində Bakı Baş Tikinti İdarəsinin Layihə Konstruktor Texnoloji İnstitutunun direktoru olmuşdur. O, bu illərdə Bakı Baş Tikinti İdarəsinin yeni müəssisələrinin – 1 və 3 nömrəli Avtobazanın, 7 və 8 nömrəli tikinti mexanizasiya idarələrinin istehsalat bazalarının, Ağac Emalı zavodunun, Oksigen zavodunun layihələndirilməsində və tikintisində iştirak etmişdir. Həmçinin 1, 2, 3, 4 nömrəli evtikmə kombinatlarının, 2 və 8 nömrəli Dəmir-Beton Məmulatları zavodlarının texniki yenidənqurma layihələrini hazırlamış, tikintidə yeni texnologiyanın və yeni tikinti materiallarının BBTİ-nin Hündürmərtəbəli Yaşayış Binaları trestində, "Bakışəhərtikinti", "Özül tikinti", "Sosialmədənitikinti", "Baksantexquraşdırma" trestlərində və digər təşkilatlarında tətbiq olunmasına çalışmış və buna nail olmuşdur.

R.S. Səmədov 2003-cü ildən bu günə kimi həm Beynəlxalq Bakı Avtovağzalının, həm də M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında layihələndirmə və tikinti üzrə məsləhətçi vəzifəsində çalışır.



Sərdarov
Sərdar
Bünyat oğlu

1912-ci ildə Bakıda anadan olmuş, əvvəlcə Sənaye İnstitutunu bitirmiş, inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə neft sənayesində başlamışdır. Sonralar dövlət və partiya orqanlarında müxtəlif vəzifələrdə çalışmış, 1947-1953-cü illərdə Yüngül Sənaye nazirinin müavini olmuşdur. 1953-1993 illərdə-düz 40 il respublikanın aparıcı layihə təşkilatına – "Azərdövlətsənayelayihə" İnstitutuna rəhbərlik etmiş və tikinti istehsalının və layihə işinin təşkilatçısı kimi tanınmışdır.

S.B. Sərdarovun iştirakı ilə qısa vaxtda Məişət Kondisionerləri, Dəniz Özüllər və Radio, "Azərelktromaş" zavodlarının, Bakı Toxuculuq kombinatının, Naxçıvan Şüşə zavodunun, Bakıda Evtikmə kompleksinin, onlarla digər mühüm obyektlərin layihələri hazırlanmış və tikilmişdir. Gənc mühəndis və memarların yetişdirilib tərbiyə edilməsində zəhməti əvəzsizdir. Hər hansı şəraitdə öz ideya və baxışını müdafiə edib qorumaq onun şəxsi səciyyəvi cəhətlərindən idi.

Saysız qurğu, zavod, fabrik və mülki tikintilərdə əl izləri qoyub getmiş bu təvazökar və qayğıkeş mütəxəssisin əməyini dövlət və cəmiyyət yüksək qiymətləndirmişdir. O, Azərbaycanın Əməkdar Memarı fəxri adına layiq görülmüşdür.

1993-cü ilin martında vəfat etmişdir.



Soltanov
Akif
Babaşah oğlu

3 fevral 1954-cü ildə Ağsu rayonunun Ərəbuşağı kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1970-ci ildə Ağsu şəhər orta məktəbi bitirib Bakıya gəlmiş və Keşlə Maşınqayırma zavodunda freyzerçi-tokar işinə qəbul olunmuşdur. 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin axşam şöbəsinə qəbul olmuş və 1973-cü ildə 4 nömrəli tikinti trestinin 49 nömrəli tikinti idarəsində işə düzəlmişdir. 1973-1975-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

A.B. Soltanov ordudan tərxis olunduqdan sonra ali təhsilini və Sənaye Tikinti Nazirliyinin 4 nömrəli tikinti trestinin 49 nömrəli tikinti idarəsində öz işini davam etdirmişdir. 1980-ci ildə həmin trestin 47 nömrəli tikinti idarəsində tikinti ustası vəzifəsinə, daha sonra iş icraçısı, sahə rəisi və rəis vəzifəsinə yüksəlmişdir.

A.B. Soltanov 1989-cu ildən 47 nömrəli tikinti idarəsinə rəis təyin olunmuş, 1997-ci ilən qədər bu vəzifədə çalışmış və 1997-ci ildən "Rəşad-1" MKM-də İdarə Heyətinə sədr seçilmişdir. Sonralar onun bazasında "Antik" MMC yaradılmış və A.B. Soltanov bu müəssisəsinin İdarə Heyətinə sədr seçilmişdir. Tikintidə çalışdığı müddətdə komsomol komitə katibi, Həmkarlar İttifaqı Komitəsinin sədri kimi ictimai işlərdə də fəallıq göstərmişdir.

Bakıda iri maşınqayırma sənayesi müəssisəsinin yenidənqurulması və tikilməsində, Bakı Şin Zavodu, Dzerjinski adına zavod, Keşlə Maşınqayırma zavodu, mikrorayonlar, yaşayış evləri və s. obyektlərin inşasına bilavasitə rəhbərlik etmiş, çoxlu səmərəli təkliflərin müəllifi olmuşdur. Ölkə prezidentinin Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar imzaladığı sərəncamlara uyğun olaraq A.B. Soltanovun rəhbərlik etdiyi kollektiv Qəbələ, Goranboy, Xaçmaz, Şəki, İmişli və s. rayonlarda sosial-mədəni və sənaye obyektlərinin tikintisində fəal iştirak etmişdir.

A.B. Soltanov çalışdığı bütün rəhbər vəzifələrdə həmişə özünü doğrultmuş, ona həvalə olunan tapşırıqları öz səlahiyyətləri çərçivəsində yüksək peşəkarlıqla icra etmişdir.

O tapşırılan işi yüksək səviyyədə icra edən bir rəhbər olduğu üçün onun əməyi hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.

Onun ölkə tikintisində bundan sonra da böyük uğurlar qazanacağına əminik.



Sultanov
Qurban
Camal oğlu

22 mart 1919-cu ildə Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1941-ci ildə Tiflis şəhərində Zaqafqaziya yol muhəndisliyi institutunu bitirmişdir. 1941-1945-ci illərdə Böyük Vətən muharibəsində cəsarətlə döyüşlərdə iştirak etmiş və kapitan rütbəsinə qədər yüksəlmişdir.

Qurban Sultanov ön cəbhədə bir sıra vuruşmalarda, o cümlədən Rostov, Taqanroq, Nikolayev, Brno, Bratislava, Praqa və b. şəhərlərin azad edilməsində bilavasitə iştirak etmiş, 1945-ci ilin oktyabrında ordudan azad edilmişdir. O, "Qırmızı ulduz", I və II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə və bir sıra medallarla təltif olunmuşdur.

Qurban Camal oğlu Sultanov Vətən müharibəsi döyüşlərindən qayıtdıqdan sonra əmək fəaliyyətinə Azərbaycan Dəmiryolu İdarəsinin Həmkarlar İttifaqı Komitəsində başlamış, sonralar bu idarənin Mənzil tikintisi şöbəsində məsul vəzifələrdə çalışmışdır. 1947-1950-ci illərdə Qurban muəllim Azərbaycan KP Mərkəzi Komitəsinə təlimatcı vəzifəsinə təyin edilmişdir. Mərkəzi Komitədə boyuk təcrübə topladıqdan sonra o, yenə də istehsalata qayıtmış və "Azərdənizneftikinti" sistemində məsul vəzifələrdə çalışmışdır.

1960-cı illərdə respublikada umumittifaq tabeçiliyində olan santexnika, ventilyasiya, istilik-quraşdırma, xususi işləri aparmaq üçün kiçik tikinti-quraşdırma təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatların fəaliyyətlərini səmərəli koordinasiya etmək məqsədilə Azərbaycan Respublikasının Hökuməti Moskvada yerləşən mərkəzi orqanlarla razılaşdırılaraq 1965-ci ildə bu xırda təşkilatların bazasında xüsusi, iri və sanballı ixtisaslaşdırılmış tikinti-quraşdırma İdarəsi yaradılmış və bu İdarənin rəhbəri böyük təcrübəyə malik olan Q. C. Sultanov təyin edilmişdir. Q. Sultanov həmin dovrdə həmçinin Xalq Təsərrufatı Şurasında şöbə müdiri vəzifəsində çalışmışdır.

Onu da qeyd etmək lazımdır ki, bu vəzifəyə təyin olunmamışdan əvvəl 60-cı ilin əvvələrində Kirovabadda Aliminium Zavodunun tikilməsi nəzərdə tutulmuşdur. Onun inşasını müvəffəqiyyətlə aparmaq üçün keçmiş Tikinti naziri Məmmədəli Abbasovun təkidi ilə "Kirovabad Aliminium tresti" yaradılmışdır. Bu trestin əsas vəzifəsi umumittifaq mahiyyəti daşıyan Kirovabad Aliminium Zavodunun tikintisinin tezliklə başa çatdırılması və istifadəyə verilməsi idi. 1964-cu ildə Q. Sultanov nazir müavini olmasına baxmayaraq mövcud yaranmış vəziyyəti qiymətləndirərək bu trestə rəhbərlik ona tapşırılmış və bu vəzifənin öhdəsindən o, müvəffəqiyyətlə gəlmişdir.

Respublikada ixtisaslaşdırılmış Xüsusi Tikinti-quraşdırma İdarəsinə rəhbərlik edən zaman Q.C. Sultanov bu təşkilatların elmi-texniki tərəqqinin tələblərinə cavab verən maddi-texniki bazasını möhkəmləndirmiş və səmərəli struktur dəyişikliklər etmişdir. Belə ki, "Azneftkimyaquraşdırma", "Elektrik quraşdırma", "Ventilyasiya quraşdırma", "Santexquraşdırma" və "İstilik quraşdırma" üzrə müstəqil trestlər yaradılmışdır. Bu təşkilatlar Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə, demək olar ki, ölkənin bütün regionlarında iqtisadiyyatın bütün sahələri üzrə tikilən obyektlərdə öz işlərini müvəffəqiyyətlə aparırdılar. O vaxtlar Bakıda Kondisioner Zavodu, "Respublika" və "Gülüstan" Sarayları, Sirk binası, Maşınqayırma Zavodlarının yenidən qurulması, Kür Su Kəmərinin Bakıda çəkilişi, Gəncədə Aliminium və Çini qablar zavodu, Sumqayıtda kimya zavodları "Orqsintez", "Sintezkauçuk", "Boruprokat", Mingəçevirdə "Azərkabel" müəssisəsinin, Neftçalada Yod Zavodu, Salyanda Plastmas məmulatları istehsal edən müəssisə və bir çox mülkiyaşayış binalarının və digər xidmət obyektlərinin tikilib istifadəyə verilməsində bu təşkilatların böyük xidməti olmuşdur.

Q.C. Sultanov 1970-ci ilin axırlarında yeni yaradılmış Sənaye tikinti nazirliyinə Ulu öndər Heydər Əliyevin razılığı ilə nazir vəzifəsinə təyin edilmişdir. İşlədiyi dövr ərzində Qurban Camal oğlu Sultanov cavan, yerli kadrların yetişdirilməsini həmişə diqqət mərkəzində saxlayırdı. Azərbaycan Respublikasının Sənaye tikinti naziri vəzifəsində çalışan zaman bu nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi, onun elmi-texniki tərəqqinin və tikintinin gündəlik tələblərini nəzərə almaq məqsədilə yığma dəmir-beton məmulatlarının artırılması vəzifəsini Q.C. Sultanov nazirliyin təşkilatları qarşısında bir vəzifə kimi qoymuşdur.

Q.C. Sultanov keçən əsrin 50-ci illərindən başlayaraq 90-cı illərə qədər tikinti kompleksində oz fəaliyyəti ilə dərin iz buraxmışdır. O, 1974-cu ildən uzun muddət Respublikanın tikinti Sənaye materialları Nazirliyinin tabeçiliyində olan Bak Şifer Kombinatının müdiri vəzifəsində çalışmışdır.

Q.C. Sultanov ədəbiyyatımızı, musiqimizi (xüsusən muğamlarımızı), klassik operalarımızı çox sevirdi.

Qurban Sultanovun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1964-cu ildə Azərbaycanın əməkdar inşaatçısı fəxri adına layiq görülmüş, 1966-cı ildə xalq təsərrüfatının yeddiillik planının yerinə yetirilməsində əldə etdiyi nailiyyətlərə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş, 60-cı illərdə Gəncə şəhər sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Qurban Camal oğlu Sultanov 1998-ci il sentyabrın 30-da 80 yaşında dünyasını dəyişmişdir.



Süleymanov
Kamil
İsa oğlu

1940-cı ildə Tovuz rayonunun Qovlar kəndində (qəsəbəsində) anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinin sənaye və mülki tikinti şöbəsini bitirmişdir. Təyinatla Dövlət Peşə Təhsili Komitəsinə, ordan isə Bakıdakı 16 nömrəli Texniki Peşə Təhsili məktəbinə müəllim göndərilmişdir. 1969-cu ilin iyun ayına qədər gənc inşaatçılara öz ixtisasından dərs demiş və peşəkar inşaatçıların yetişdirilməsində əmək sərf etmişdir.

K.İ. Süleymanov 1969-cu ilin avqust ayında Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin Gəncədəki 3 nömrəli Tikinti Trestinin Tovuzdakı 36 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsində iş icraçısı vəzifəsinə təyin olunmuş, 1970-cı ildə həmin idarəyə baş mühəndis vəzifəsinə

irəli çəkilmişdir. 1971-ci ilədək bu kollektivdə işləmiş və həmin müddətdə Şəmkirdəki şərab məhsulları anbarının, Tovuz rayonundakı Qovlar qəsəbəsində və Aşağı Quşçu kəndində tikilən Şərab zavodlarında qabiliyyət və bacarığını göstərmişdir. Bunu nəzərə alaraq onu Sənaye Tikintisi Nazirliyi tərəfindən Tovuzda təzə təşkil olunan 10 nömrəli tikinti trestinə baş mühəndis göndərmişlər.

K.İ. Süleymanov 1975-ci ilədək bu vəzifədə çalışmış və Mingəçevirdəki bir sıra sənaye müəssisələrinin tikintisinə, habelə Tovuz, Qazax, Şəmkir və Gədəbəy rayonlarında ucaldılan şərab zavodlarının, məktəb və səhiyyə obyektlərinin vaxtlı-vaxtında, keyfiyyətlə istismara buraxılmasına bilavasitə rəhbərlik etmişdir. 1975-ci ildə 3 nömrəli tikinti trestinin sərəncamı ilə Qazaxda fəaliyyətə başlayan 37 nömrəli mexanikləşdirilmiş səyyar dəstəyə rəis vəzifəsinə təyin olunmuşdur.

1975-ci ilin sonunda "Azərkəndsutəchizattikintisi" İstehsalat Birliyinə köçürülmüş və Birliyin Qovlarda fəaliyyətə başlayan 4 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstəsinə baş mühəndis təyin olunmuşdur. 1976-cı ilin may ayından 1998-ci ilədək həmin idarədə rəis vəzifəsində çalışmışdır. 20 ildən çox bu kollektivə rəhbərlik etdiyi müddətdə Tovuz, Qazax, Gədəbəy, Şəmkir və digər rayonların kəndlərində və rayon mərkəzlərində su çəkilişi ilə məşğul olmuşdur. Bundan başqa Gəncə şəhərində iri istehsalat bazasının yaradılmasında, xüsusilə Gəncə Dəmir-Beton Məmulatları zavodunun tikintisində dəyərli əl izləri qoymuşdur. 1989-cu ildə erməni quldurları Qarabağ məsələsini ortaya atdığı vaxtlarda Dağlıq Qarabağın kənd və qəsəbələrinə içməli su çəkilişində fəal iştirak etmiş, çox qısa vaxtda Xocalı şəhərinə və ətraf kəndlərə su kəməri çəkilişində fərqlənmiş, Əmrallar, Yeni Qaralar kəndlərinə içməli su çəkilişini vaxtından tez başa çatdırmışdır. Qarabağda müvəfəqqiyyətli və uğurlu işinə görə 1991-ci ildə ölkə Prezidentinin fəxri fərmanı ilə təltif olunmuşdur.

K.İ. Süleymanov 1989-1992-ci illərdə Tovuz və Gədəbəy rayonlarının Ermənistanla həmsərhəd bölgələrində bir sıra hərbi strateji əhəmiyyətli obyektlərin tikintisinə bacarıqla rəhbərlik etmişdir. Başçılıq etdiyi idarə 1997-ci ildə özəlləşdirməyə qoyulduğu üçün o tutduğu vəzifədən istefa vermişdir. 1998-ci ildə Qovlar qəsəbə Ağsaqqallar Şurasına sədr seçilmişdir. 1999-2004-cü ilin sonuna kimi Qovlar qəsəbə Bələdiyyəsinin sədri vəzifəsində çalışmışdır. Hazırda təqaüdçüdür.



Süleymanov
Mübariz
Mehrac oğlu

1 oktyabr 1944-cü ildə Cəbrayıl rayonunun Quyğac kəndində andan olmuş, Azərbaycan Politexnik İnstitutunu bitirmiş, inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir. İlk əmək fəaliyyətinə "Azərenerjitikinti-quraşdırma" trestinin Horazdizdəki 2 nömrəli tikinti-quraşdırma idarəsində iş ustası kimi başlamışdır. Araz çayı üzərində tikilən çox vacib və nəhəng obyektdə - Horazdiz Su Qovşağında iş ustası, iş icraçısı, sahə rəisi işləməklə (bu dostluq tikintisində "Azərbaycan-İran") çox dəyərli təcrübə toplamışdır. Elə buna görədir ki, "Dostluq tikintisi" başa çatan kimi onu Cəbrayıl rayonuna dəvət edirlər. Burada əvvəlcə "Başmeliosutikinti"nin 35 nömrəli tikinti idarəsində sahə rəisi, sonra isə Cəbrayıl Kolxozlararası tikinti idarəsində rəis vəzifəsində çalışır.

M.M. Süleymanov Cəbrayıl rayonunda kompleks meliorasiya işlərinin aparılmasında, məktəb və uşaq bağçalarının tikintisində, mexanikləşdirilmiş heyvandarlıq binalarının inşasında və "Meliorator-lar" qəsəbəsinin salınmasında fəal iştirak etmişdir.

Cəbrayıl rayonu erməni daşnakları tərəfindən işğal olunduqdan sonra məcburi köçkün həyatı keçirir. 10 ildən artıqdır ki, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunda tikintiyə nəzarət üzrə mütəxəssis-mühəndis vəzifəsində işləyir.

Ölkə prezidentinin Fərmanı ilə Biləsuvar, Füzuli, Ağdam, Goranboy, Mingəçevir, Yevlax, Ağcabədi, İmişli və digər rayonlarda məcburi köçkünlər üçün salınan təzə qəsəbələrin tikintisində bir nəzarətçi mütəxəssis kimi üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirmişdir. Dəfələrlə kənd, qəsəbə və rayon sovetinə deputat seçilmişdir.

Ş



Şahmalıyev
Nəsimi
Hüseyn oğlu

1942-ci il fevralın 5-də Qazax rayonunun Əzizbəyli kəndində ziyalı ailəsində anadan olub. O, orta məktəbi bitirdikdən sonra – 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1963-cü ildə institutu sənaye-mülki tikinti ixtisası üzrə bitirərək inşaatçı-mühəndis ixtisasına yiyələnmişdir.

N.H. Şahmalıyev yüksək intizamlı, mədəni, sadə və təvazökar bir gənc olub. Orta boylu, enli kürəkli, mülayim danışıqlı Nəsimi əsl kənd pəhləvanı idi və institut illərində güləş müəllimi Məmməd Məmmədov Nəsimini böyük yarışlara hazırlamış və o, şöhrətli bir idmançı kimi tanınaraq artıq tələbəlik illərində "SSRİ İdman ustası" adını qazanmışdı. Onda Nəsiminin 19 yaşı var idi.

1963-cü ildə institutu sənaye-mülki tikinti ixtisası üzrə bitirib inşaat mühəndisi olan N.H. Şahmalıyev ölkə tikinti kompleksində öz sözünü deməyə başladı.

N.H. Şahmalıyev əsl vətənpərvər, peşəkar inşaatçı-mühəndis, xalqına qırılmaz tellərlə bağlı olan, zəhmətkeş və bacarıqlı bir insan idi. O, tələbəlik illərindən üzü bəri – fəhlə, iş ustası, mühəndis, idarə rəisi, trest müdiri, nazirin birinci müavini, şirkətin vitse-prezidenti, Qazax rayon İcra Hakimiyyətinin başçısı işlədiyi illərdə də özünü bu üstün insani keyfiyyətləri ilə tanıtmışdır.

Ölkə tikinti kompleksinin işçiləri, tikinti ictimaiyyəti Nəsimi Şahmalıyevi vicdanlı vətəndaş, səmimi dost, ağıllı məsləhətçi, kamil səmərələşdirici, yaradıcı inşaatçı-mühəndis, səriştəli rəhbər işçi, ləyaqətli ailə başçısı kimi yaxından tanımış və sevmişlər. O, bütün mənalı ömrünü bu Vətən, bu xalq üçün yaşamış, sözün əsl mənasında vətənin əsgəri olmuşdur.

O, öz zəhməti, bacarığı və qabiliyyəti ilə vəzifə pillələrində yüksələ bilmiş, elinə-obasına, bütün Azərbaycan xalqına namus və ləyaqətlə xidmət etmişdir. Onun qısa ömründəki fəaliyyət illəri və keçdiyi şərəfli ömür yolu çox insanlar üçün örnək ola bilər.

Hər şey nəsildən qaynaqlanır. Heç şübhəsiz Nəsimi Şahmalıyevin bu xalq üçün qənimət insan kimi yetişib formalaşmasında valideynlərinin çox böyük rolu və təsiri olub. Nəsiminin atası Hüseyn müəllimi Qazax bölgəsinin ahıl adamları çox yaxşı xatırlayır. Qazaxda və onun bir çox kəndlərində müəllim işləyən Hüseyn müəllim mədəniyyət və incəsənət vurğunu olub. O, 1936-cı ildə Qazax xalq teatrının yaradıcısı və ilk direktoru olmuşdur. 1942-ci ilin əvvəlinə kimi bu teatra rəhbərlik etmiş, 1942-ci ildə cəbhəyə getmiş, 1944-cü ildə ağır döyüşlərin birində mərdliklə həlak olmuşdur.

N.H. Şahmalıyev 1983-1989-cu illərdə müxtəlif nazirlik və komitələrdə nazir müavini işləmiş, daim tikinti və abadlıqla məşğul olmuş, sifarişçi və podratçı təşkilatlarla sıx əlaqə saxlamışdır.

O, 1989-cu ildən başlayaraq "Azərkəndtikinti" İstehsalat Birliyində rəis müavini vəzifəsində çalışmışdır. Bu vəzifədə çalışdığı illərdə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə əlaqədar üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirmişdir.

Bu gün cəsarətlə demək olar ki, son 40 ildə ölkəmizdə tikilib istifadəyə verilmiş ən mühüm obyektlərdə N.H. Şahmalıyevin əl izləri aydın görünür və bu inkarolunmaz bir reallıqdır. Təsadüfi deyildir ki, ölkə inşaatındakı xidmətlərinə görə ona sağlığındaca respublikanın Əməkdar inşaatçısı fəxri adı verilmişdir.

O, harda, hansı vəzifədə işləyibsə, orada hər zaman öz yüksək rəhbərlik və idarəçilik bacarığı ilə kollektivi vahid məqsəd naminə birləşdirmiş və uğurlar qazanmışdır.

N.H. Şahmalıyev rəhbərlik etdiyi hər obyektin tikintisini bütün inşa müddətində daim nəzarətdə saxlamış, keyfiyyət amilinə xüsusi diqqət yetirmişdir. Bu isə son nəticədə onun tikdiyi bütün obyektlərin sifarişçiləri razı salmasıyla nəticələnmişdir.

1993-cü ilin avqustunda Nəsimi Şahmalıyevə daha böyük etimad göstərildi. Respublika prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədri, möhtərəm Heydər Əliyevin fərmanı ilə N.H. Şahmalıyev Qazax rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olundu. Bu o zamanlar idi ki, Qazax torpağı od tutub yanırdı.

N.H. Şahmalıyevin Qazax rayon İcra Hakimiyyətinin başçısı təyin olunması rayonda ab-havanı dəyişdi. Erməni quldurlarının kəndlərə, qəsəbələrə vurduğu ziyanların aradan qaldırılmasına başlandı. Rayonda tikinti-quraşdırma və abadlıq işlərinin həcmi nəzərəçarpacaq dərəcədə yüksəldi.

N.H. Şahmalıyev dostların, tanışların yaddaşında həm də gözəl ailə başçısı kimi qalıb. Ömür-gün dostu Svetlana xanımla həmyerli olsalar da ancaq institut illərində tanış olublar. O, Nəsiminin təhsil aldığı institutun texnologiya fakultəsini bitirib. Onlar dünyaya bir övlad gətirdilər, adını Bahar qoydular. Bahar xanımın xoşbəxtliyi Nəsimi müəllimin bütün arzularının arzusu idi və ona bu gözəl günləri də yaşamaq qismət oldu.

N.H. Şahmalıyev yaşasaydı, ölkə inşaatında hələ çox işlər görəcəkdi. O, özündən sonra elə bir iz qoyub getdi ki, xatirəsi onu tanıyan bütün insanların qəlbində bu gün də yaşayır və həmişə yaşayacaqdır.



Şahmalıyev
Rasim
Rəşid oğlu

01 yanvar 1951-ci ildə Qazax rayonunun Əzizbəyli (indiki Hüseynbəyli) kəndində ziyalı ailəsində anadan olub. O, 1958-ci ildə orta məktəbin birinci sinfinə getmiş, 1968-ci ildə Qazax şəhər 1 nömrəli orta məktəbini gümüş medalla bitirmiş və elə həmin ildə də Azərbaycan Politexnik İnstitutunun "Sənaye və Mülki tikinti" fakültəsinə daxil olmuşdur.

R.R. Şahmalıyev institutda oxuyarkən ictimai işlərdə fəal iştirak etmiş, idmanın sərbəst güləş növü ilə məşğul olmuş, hər il dalbdadal institutlararası respublika çempionu olmuş, keçmiş Sovetlər İttifaqının Universiadasında iştirak etmiş və mükafata layiq yerlər tutaraq idman ustası normasını yerinə yetirmişdir.

R.R. Şahmalıyev institutu bitirdikdən sonra təyinatla Sənaye Tikinti Nazirliyinə göndərilmiş və burada ilk əmək fəaliyyətinə başlamışdır. O, 1974-76-cı illərdə 3 nömrəli Evtikmə Kombinatının 107 nömrəli tikinti idarəsində usta, iş icraçısı, sahə rəisi vəzifəsində işləmiş, Xırdalan və Sumqayıt şəhərlərində və eləcə də paytaxt Bakıda yaşayış evlərinin, uşaq bağçalarının və digər sosial-mədəni məişət obyektlərinin tikintisi ilə məşğul olmuşdur.

R.R. Şahmalıyev 1976-78-ci illərdə xüsusi göndərişlə ordu sıralarında tikinti işlərini yerinə yetirmiş, Baykonur Kosmodromunda ən vacib obyektlərin – "Vosxod" və başqa kosmik gəmilərin uçuşu üçün meydançaların və qurğuların tikintisində iştirak etmişdir.

R.R. Şahmalıyev ordu sıralarında xidməti zamanı tikintidə qazandığı əmək uğurlarına görə ordunun "60 illiyi" və hərbi tikintidə fərqlənmə medalları ilə təltif olunmuş və hərbi xidməti başa çatdırdığı ərəfədə "Hərbi-tikinti" əlaçısı adına layiq görülmüşdür.

R.R. Şahmalıyev orduдan tərxis olunduqdan sonra yenidən doğma kollektivə-Sənaye Tikinti Nazirliyinə qayıtmış və 1978-ci ildən nazirliyin 2 nömrəli trestinin 27 nömrəli tikinti idarəsində sahə rəisi və baş mühəndis vəzifələrində fəaliyyətimi davam etdirmişdir. O, bu illərdə Sumqayıtda Şüşə zavodunun, Kür Su Kəmərinin, Bakıda Böyük Kanalizasiya xəttinin və Hövsanda təmizləmə qurğularının tikintisində baş mühəndis kimi iştirak etmiş və gərgin əmək sərf etmişdir.

R.R. Şahmalıyev daha sonra Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 48 nömrəli tikinti idarəsində və 8 nömrəli trestin 7 nömrəli tiikinti idarəsində baş mühəndis və 1984-cü ildən həmin idarənin rəisi vəzifəsində işləmiş və çox böyük uğurlara imza atmışdır. Belə ki, o, bu dövrlərdə Bakı şəhərində böyük tikintilərin tikilib təhvil verilməsində fəal iştirak etmişdir. Zığ şossesində (indiki Fəhlə prospekti) 9 mərtəbəli yaşayış binası, "Azərbaycan Nəşriyyatı"nda Qəzet Korpusunun tikintisi, Tbilisi prospektində İdman Sarayı (indiki Heydər Əlyev adına İdman-Konsert Kompleksi), 2 nömrəli Ayaqqabı fabriki, Binədə "Bakıelektrik avtomartları zavodu, "Xüsusi Texniki Avadanlıqlar" zavodu, 1 nömrəli Quşçuluq fabriki, "Dendropark" və s. obyektlər həmin illərdə Rasim Şahmalıyevin rəhbərliyi altında tikilib təhvil verilmişdir.

1997-ci ildə Dövlət özəlləşdirmə proqramına uyğun olaraq 87 nömrəli tikinti idarəsinin (sonradan "Sənayemənziltikinti" İdarəsi) bazasında "Sosial-Tikinti" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

"Sosial-Tikinti" Açıq Səhmdar Cəmiyyəti yaradıldığı vaxtdan R.R. Şahmalıyevin rəhbərliyi altında bir çox mühüm obyektlər tikilib təhvil verilmiş və indi də bir çox vacib obyektlərdə tikinti işləri uğurla davam etdirilir.

H.Əliyev adına BNEZ-nin yenidənqurulması və yenidənqurulması və əsas-təmiri, "Azərbaycan Dövlət Neft Akademiyası" nın tədris korpusunun əsaslı təmiri, Qazax rayonu Müalicə-diaqnostika mərkəzi, Gəncə Müalicə-diqanostika mərkəzi, Şamaxı Müalicə-diaqnostika mərkəzinin tikintiləri, Bakı şəhərinin Nizami rayonunda bir neçə orta məktəb binalarının təmiri, H.Əliyev parkının tikintisi və abadlaşdırılması, Nizami rayonunda Dövlət bayrağının tikintisi, Nizami, Nərimanov, Səbail rayonlarında həyətlərin və binaların abadlaşdırılması, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının tədris binasının əsaslı təmiri, Dəliməmmədli şəhərində Mərkəzi Xəstəxana binasının əsaslı təmiri, Naftalan şəhərində yaşayış binalarının əsaslı təmiri, "Azneft" İstehsalat Birliyinin, yeraltı qaz anbarları üçün müxtəlif inzibati binalarının, istehsalat obyektlərinin və s. çoxlu sayda obyektlərin tikintisi son illərdə "Sosial-Tikinti" ASC kollektivinin həyata keçirdiyi irili-xırdalı inşaat layihələrinin müəyyən bir qismidir. Qazanılan bütün uğurlar bacarıqlı inşaat mühəndisi Rasim Şahmalıyevin bilavasitə rəhbərliyi və səriştəli təşkilatçılığı sayəsində mümkün olmuşdur.



1. Gəncə Müalicə-diaqnostika mərkəzi. **2.** Şamaxı Müalicə-diaqnostika mərkəzi.
3. Heydər Əliyev adına İdman Konsert Kompleksi



Şahpələngov
Vasif
Məhərrəməli oğlu

1 mart 1957-ci ildə ölkənin cənub bölgəsində - ucqar dağ rayonu Lerikdə ziyalı ailəsində dünyaya gəlib.

V.M. Şahpələngov Lerikin Vizəzəmin kəndində boya-başa çatıb. O, 1964-1974 cü illərdə Vizəzəmin kənd məktəbində orta təhsil alıb. Elə həmin il Ç. İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunub. Bakının qaynar həyatı yeniyetmə Vasifi qoynuna alıb.

Zəhmətkeş, ziyalı ailəsində böyüyən Vasif Məhərrəməli oğlu təhsil alaala işləmək qərarına gəlib. 19 sentyabr 1974-cü ildə Sənaye Tikinti Nazirliyinin 4 nömrəli trestinin 45 nömrəli tikinti idarəsində 2-ci dərəcəli fəhlə kimi işə qəbul olunub. O, həm işləyib, həm də oxuyub.

V.M. Şahpələngov 1975-ci ilin may ayında Sovet Ordusu sıralarına çağrılıb. İki il vətəni hava hücumlarından qoruyub. 1977-ci ilin may ayında ordudan tərxis olunub və yenidən Bakıya qayıdaraq təhsilini davam etdirməklə 45 nömrəli tikinti idarəsində işə düzəlib.

45 nömrəli tikinti idarəsində iş həcmi azaldığından o, 1977-ci ilin sentyabr ayında Nəsimi rayon İcraiyyə Komitəsinin nəzdində fəaliyyət göstərən təmir-tikinti idarəsinə köçürülüb.

V.M. Şahpələngov 1983-cü ilə kimi təmir-tikinti idarəsində fəhlə kimi çalışıb. 1983-cü ildə institutu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra təmir-tikinti idarəsində iş icraçısı vəzifəsinə keçirilib. 1987-ci ildə isə həmin idarənin baş mühəndisi vəzifəsinə irəli çəkilib.

O, tikintidə, fəhlə, iş icraçısı, baş mühəndis olnda da onun bir amalı olub. Tikilən nə varsa keyfiyyəti ilə seçilməli, bütün obyektlər vaxtında təhvil verilməli, kollektivin hər bir üzvü əməyinin bəhrəsini görməlidir.

Vasif Şahpələngovun işgüzarlığı, işə məsuliyyətlə yanaşması, verilən tapşırıqları vaxtlı vaxtında yerinə yetirməsi, fəhlə, mühəndis və texniki işçilər arasındakı hörmətini nəzərə alan rayonun partiya-sovet rəhbərləri onu az sonra - 2 fevral 1988-ci ildə təmir-tikint idarəsinin rəisi vəzifəsinə təyin edirlər.

V.M. Şahpələngov Nəsimi rayonunun ərazisində aparılan tikinti, abadlıq işlərində həmişə fərqlənib. Keçirilən sosializm yarışlarında adı həmişə qabaqcıllar sırasında çəkilib. Dəfələrlə medallarla və fəxri fərmanlarla təltif olunub, pul mükafatlarına layiq görülüb.

Sovet sistemi dağıldıqdan sonra təmir-tikinti idarəsi özəlləşdirilərək açıq tipli səhmdar cəmiyyətə çevrildi və Vasif Şahpələngov həmin cəmiyyətin sədri seçildi.

2003-cü ildə İnşaatçı-servis kooperativi yaradıldı. Həmin kooperativin sədri də V.M. Şahpələngov seçildi. İnşaatçı-servis kooperativi 2007-ci ildə "Binəqədi NBL" MMC-yə çevrildi. V.M. Şahpələngov bu müəssisədə də öz vəzifəsini davam etdirdi.

V. M. Şahpələngov Rusiya, Türkiyə, İran və İraqın iş adamlarıyla iş birliyi qurub. Müqavilələr imzalanıb. Bağlanmış müqavilələr yaxın zamanlarda həyatda öz əksini tapacaqdır.



Şərifov
Abid
Qoca oğlu

6 yanvar 1940-cı ildə Şəkidə anadan olmuşdur. 1962-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə 1962-ci ildə Bakı Baş Tikinti İdarəsində başlayaraq tikinti ustası, iş icraçısı, böyük iş icraçısı, texniki istehsalat şöbəsinin rəisi və baş mühəndis əvəzi, 1972-ci ildən 23 saylı tikinti idarəsinin rəisi işləmişdir.

Azərbaycan SSR Nazirlər Sovetinin əsaslı tikinti şöbəsində böyük referent, "Azərnəqliyyattikinti" trestinin rəisi, sonra 1988-ci ildən "Azərnəqliyyatyoltikinti" lahiyə-sənaye tikinti birliyinin rəisi, 1991-ci ildən Türkiyə Respublikasının Çerkesköy-Kapıkulu şəhərləri arasında dəmir yolunu elektrikləşdirən tikinti idarəsi rəisinin müavini, 1993-cü ildən "Azərnəqliyyatyoltikinti" lahiyə-sənaye tikinti Birliyinin bazasında yaradılan eyniadlı Dövlət Şirkətinin prezidenti vəzifələrində işləmişdir.

"Şərəf nişanı" (1976), "Oktyabr inqilabı" (1980) ordenləri ilə təltif edilmiş, "Azərbaycanın əməkdar inşaatçısı" və "Fəxri nəqliyyat inşaatçısı" fəxri adlarına layiq görülmüşdür.

1995-cü ilin noyabr ayından Azərbaycan Respublikası Baş nazirinin müavinidir.

Evlidir, 2 övladı var.



Şükürov
Fəyyaz
Ağa oğlu

1961-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. 1978-ci ildə Yuxarı Seyidəhmədli kənd orta məktəbini bitirmiş və həmin ildə də Qırmızı Əmək Bayrağı ordenli Məşədi Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) daxil olmuşdur. 1983-cü ildə həmin institutu bitirərək iqtisadçı-mühəndis adını qazanmış və təyinatla Bakıdakı məşhur "Neftqaz" neftayırma zavoduna göndərilmişdir. 1983-cü ildə bu zavodda mühasib, 1984-cü ildə isə böyük mühasib vəzifəsində çalışmışdır. O. 1984-cü ilin may ayından köçürmə yolu ilə "Azərbaycan Neft-Kimya Zavodları Təmiri" trestində iqtisadçı kimi fəaliyyətə başlamış, 1987-ci ildə həmin trestdə böyük iqtisadçı vəzifəsinə irəli çəkilmişdir. 1989-cu ildə isə köçürmə yolu ilə "Azəriqaztikinti" trestində plan şöbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. 1991-1993-cü illərdə həmin trestdə iqtisadi məsələlər üzrə müdir müavini kimi səmərəli fəaliyyət göstərmişdir.

F.A. Şükürov 1993-cü ildən həyatını Azərbaycan Respblikası Dövlət Tikinti və Arxitektura Komitəsinə bağlamışdır. Əvvəlcə Komitədə iqtisadi siyasət və islahatlar şöbəsinin rəisi, sonra isə İqtisadiyyat, Proqnozlaşdırma və İnvestisiya Baş İdarəsinin rəis müavini vəzifələrində işləmişdir. Son illərdə Komitədə struktur dəyişikliyi ilə əlaqədar olaraq iqtisadiyyat və investisiya şöbəsinin müdir müavini vəzifəsinə təyin olunmuşdur. Hazırda isə maliyyə və mühasibat uçotu şöbəsinin müdir müavini vəzifəsində işləyir.

"Şəms-95" firması

1995-ci ildə Ağdam rayonunda təsis edilib, firmanın təsisçisi və direktoru tanınmış inşaat mühəndisi Qasım Məmməd oğlu Qasımovdur. "Şəms-95" firması artıq 17 ildir ki, ölkə tikintisində mətin addımlar atmaqdadır.

"Şəms-95" firması yarandığı gündən keyfiyyətli iş onun başlıca devizi olmuş və bu gün də kollektivin gücü ilə təhvil verilən hər bir obyekt keyfiyyəti ilə sifarişçini razı salır.

Onların inşa etdikləri obyektlərin bir qisminə nəzər salmaq kifayətdir ki, kollektivin işi haqqında dolğun təəssürat yaransın.

Belə ki, 2006-2010-cu illərdə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Sabirabad rayonu ərazisində 161 ailəlik yeni yaşayış qəsəbəsində yaşayış evlərinin, sosial obyektlərin, elektrik və su təchizatı sisteminin tikintiləri, Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində salınan 450 ailəlik qəsəbədə 225 fərdi yaşayış evinin, 360 şagird yerlik məktəb binası və sosial – məişət (ambulatoriya, poçt şöbəsi, inzibati bina və musiqi məktəbi) xidmət obyektlərinin, Füzuli rayonunda 4 nömrəli yeni yaşayış qəsəbəsində 208 fərdi yaşayiş evinin tikintisi, Biləsuvar rayonunun ərazisində salınan 5 yeni yaşayış qəsəbəsində 5 ədəd 360 şagird yerlik məktəb binasının tikintisi, Beyləqan raronunun ərazisində məcburi köçkünlər üçün salınan 500 ailəlik yeni qəsəbədə 94 yaşayış evinin, sosial-məişət obyektlərinin (klub-icma, 50 yerlik uşaq bağçası və 360 şagird yerlik məktəb binasının) tikintiləri, Goranboy rayonunda yeni yaşayış qəsəbəsində 60 ədəd evin, Yevlax şəhərində 612 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli, 5 mərtəbəli yaşayış binasının tikintiləri və s. həyata keçirilmişdir.

Həmçinin bu illərdə Qasım Qasımovun kollektivi Təhsil Nazirliyinin sifarişi ilə Keşlə qəsəbəsində 1296 şagird yerlik məktəbin, Samux rayonunun Kolayır kəndində 340 şagird yerlik orta məktəb üçün idman zalının, Zərdab rayonunun Məlikmudlu kəndində 360 yerlik orta məktəb binasının, İmişli rayonunun Mirili kəndində 192 şagird yerlik orta məktəb binasının, Bakı şəhəri Nizami rayonu 272 nömrəli orta məktəb üçün 700 şagird yerlik 35 əlavə sinif otaqlarının, Binəqədi rayonu, Biləcəri qəsəbəsində 299 nömrəli orta məktəb üçün 840 şagird yerlik əlavə 42 sinif otağının, İmişli rayonunun Murquzalı kəndində 180 şagird yerlik, Sarıxanlı kəndində 220 şagird yerlik orta məktəblərin, Qobustan rayonunun Xilmilli kəndində 360 şagird yerlik orta məktəbin, Bakı şəhəri Yasamal rayonunda 167 nömrəli məktəb üçün 440 şagird yerlik 22 əlavə sinif otağının, İmişli rayonunun Nurulu kəndində 180 şagird yerlik məktəbin tikintilərini və s. həyata keçirmişdir.

Kollektiv 2011-ci ildə MKSİF və Təhsil Nazirliyinin sifarişi ilə bir sıra obyektlərin tikintisini həyata keçirmişdir. Belə ki, onlar MKSİF-in xətti ilə Ağcabədi rayonu ərazisində məcburi köçkünlər üçün salınan 552 ailəlik yeni qəsəbədə 58 yaşayış evinin və yenə də Ağcəbədi rayonunda 556 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 60 mənzilli 5 mərtəbəli yaşayış binasının tikintilərini yüksək keyfiyyətlə sifarişçiyə təhvil vermişlər. Həmçinin onlar Təhsil Nazirliyinin xətti ilə Ağdam rayonunun Səfərli kəndində ötən il tikintisinə başladıqları 180 şagird yerlik ümumi məktəb binasının, Bərdə rayonunun Soğanverdilər kəndində 360 şagird yerlik orta məktəb binasının və Tərtər rayonunda 1 nömrəli 960 şagird yerlik orta məktəb binasının tikintilərini 2012-ci il ərzində başa çatdırmışlar.

Bundan başqa MKSİF-in sifarişi ilə ötən ildən inşasına başlanmış Mingəçevir şəhəri ərazisində 502 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 9 mərtəbəli 54 mənzilli yaşayış binasını da "Şəms-95" firmasının inşaatçıları 2012-ci ildə istifadəyə verəcəklər.

Qasım Məmməd oğlu Qasımov "Şəms-95"-i yaratdığı vaxtdan bütün potensialını firmanın güclənməsinə, ölkənin tikinti yönümündə öz layiqli yerini tutmasına sərf edib. Və onun zəhməti hədər getməyib. "Şəms-95" bu gün ciddi və etibarlı tikinti qurumu kimi tanınır və qəbul olunur. Getdikcə kollektivə daha böyük layihələr etibar olunur.

Şirkətin uğurları ildənilə artmaqdadır.

T



Tağıyev
Oqtay
Əli oğlu

21 dekabr 1935-ci ildə Bakıda qulluqçu ailəsində anadan olmuşdur. 1949-cu ildə 7 illik məktəbi bitirib Bakı Dəmiryol Texnikumuna daxil olmuşdur. 1952-ci ildə texnikumu əla qiymətlərlə bitirib, "Dəmiryollayihə" İnstitutunda əmək fəaliyyətinə başlamışdır. Layihə İnstitutunda texnik, mühəndis, baş mühəndis işləmiş, Azərbaycan Politexnik İnstitutunda istehsalatdan ayrılmadan ali təhsil almış (1953-1959-cu illər) və dəmiryol tikintisi mühəndisi ixtisasına yiyələnmişdir. 1965-ci ildə Dövlət Plan Komitəsinə işə dəvət olunmuşdur.

O.Ə. Tağıyev baş iqtisadçı işləmiş, etimadı doğrultduğu üçün 1966-cı ildə Komitənin tikinti şöbəsində müdir müavini vəzifəsinə irəli çəkilmişdir. 1978-ci ildə Azərbaycan Baş Meliorasiya Su Qurğuları Tikintisi İdarəsində əsaslı tikinti idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. 1982-ci ildə Baş İdarənin tikilməkdə olan müəssisələr üzrə müdriyyətinin baş direktoru vəzifəsinə köçürülmüşdür. 1989-cu il iyun ayının 19-da SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin 246 nömrəli əmri ilə Azərbaycan Baş Meliorasiya və Su Qurğuları Tikintisi İdarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

O.Ə. Tağıyev 1991-ci ilin noyabrından "Azərsutikinti" Dövlət Konserninə rəhbərlik etmiş və bu vəzifədə 1995-ci ilin fevralına kimi işləmişdir. Respublikada kompleks meliorasiya işlərinin aparılmasında, iri dəryaçaların, kanalların, bəndlərin tikilməsində, təzə qəsəbələrin salınmasında çox böyük, prinsipial və faydalı işlərin görülməsinə rəhbərlik etmişdir.

O.Ə. Tağıyev 1990-1995-ci illərdə Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Qüsursuz işinə, səmərəli əməyinə görə dövlət mükafatlarına layiq görülmüş və ona 1991-ci ilin 7 iyul tarixində Ali Sovetin Fərmanı ilə respublikanın Əməkdar İnşaatçısı fəxri adı verilmişdir. 2005-ci ildə isə ona "Sülh və demokratiya sahəsindəki fəaliyyətinə görə Beynəlxalq Sülh Səfiri" adı təqdim olunmuşdur. Hazırda fərdi təqaüdçüdür.



Tarquliyev
Zeynal
Qulu oğlu

09 dekabr 1966-cı ildə Naxçıvan MR Naxçıvan rayonu Nehrəm kəndində anadan olub. 1973-1983-cü illərdə Nehrəm kənd məktəbində orta təhsil alıb.

1983-1984-cü illərdə Babək Kolxozlararası Tikinti Birliyində fəhlə kimi ilk əmək fəaliyyətinə başlamışdır.

Z.Q. Tarquliyev 1984-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun axşam şöbəsinə daxil olmuş və 1992-ci ildə həmin institutun əyani şöbəsini inşaatçı-mühəndis texnoloq ixtisası üzrə bitirmişdir.

O, 1985-1987-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olub.

Z.Q. Tarquliyev 1993-2004-cü illərdə Naxçıvan Beynəlxalq Hava Limanının Aviasiya Təhlükəsizlik İdarəsində mühafizə rəisi vəzifəsində işləyib.

O, 2005-2006-cı illərdə özəl sektorda kommersiya fəaliyyəti ilə məşğul olub.

Z.Q. Tarquliyev 2007-ci ilin fevral ayından 2011-ci ilin noyabr ayınadək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Əsaslı Tikinti İdarəsində rəis müavini işləyib.

Z.Q. Tarquliyev 2011-ci ilin noyabr ayından Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə olan Obyektlərin Birləşmiş Müdiriyyətinin rəisi vəzifəsində işləyir.

Belə ki, o, respublikamızın müxtəlif rayonlarında qəza vəziyyətində olan sosial və infrastruktur obyektlərinin bərpa-gücləndirilməsi, möhkəmləndirilməsi, tikintisi və təmirinin aparılması, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılması, əhaliyə dəymiş zərərin qiymətləndirilməsi və bununla bağlı kompensasiyaların, inşaat və tikinti materiallarının verilməsi işləri üzrə sifarişçi funksiyasının yerinə yetirilməsi, eyni zamanda, obyektlərin müasir tələblərə uyğun layihə-smeta sənədlərinin hazırlanması, onların tikintisinə texniki nəzarətin həyata keçirilməsi sahəsində TO-OBM-nin rəisi kimi üzərinə düşən vəzifələri öz səlahiyyətləri daxilində layiqincə yerinə yetirir.

Z.Q. Tarquliyev hələ cavandır. Onun respublika tikinti sektorunun inkişafına verəcəyi töfhələr hələ qabaqdadır.

Ailəlidir, iki övladı – bir oğlu, bir qızı var. Qızı Azərbaycan Tibb Universitetində təhsil alır, oğlu isə Bakı Özəl Türk Liseyinin şagirdidir. O, övladlarını əməyə məhəbbət ruhunda tərbiyələndirməyə, Azərbaycanımız üçün layiqli vətəndaş kimi formalaşdırmağa çalışır.



Təhməzov
Əli
Şahbaba oğlu

1943-cü ildə Ağsu rayonunun Keşdəmir kəndində kolxozçu ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakıya gəlmiş və həyatını tikintiyə bağlamışdır. 1961-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan Politexnik İnstitutunun axşam şöbəsi-

nə daxil olmuş və oranı 1966-cı ildə bitirmişdir. BBTİ-nin tikinti meydançalarında fəhlə, usta, mühəndis, iş icraçısı, baş mühəndis, tikinti idarəsinin rəisi (1961-1975-ci illər) işləmişdir.

Ə.Ş. Təhməzov 1975-1978-ci illərdə Bakıdakı 1 nömrəli ETK-da rəis müavini, 1978-1982-ci illərdə isə 2 nömrəli ETK-da direktor kimi fəaliyyət göstərmişdir. O, 1985-1989-cu illərdə BBTİ-nin rəisi vəzifəsində çalışmışdır.

Ə.Ş. Təhməzov 1989-1992-ci illərdə Azərbaycan Dəmiryolu İdarəsində rəis müavini olmuş, 1992-1993-cü illərdə yenidən BBTİ-yə rəhbərlik etmişdir. 1993-1994-cü illərdə Baş nazirin müavini vəzifəsində işləmişdir. Sonrakı illərdə Bakı şəhər İcra Hakimiyyətində qaçqınlar və məcburi köçkünlərlə iş üzrə şöbə müdiri olmuşdur (1996-2001-ci illər). Onu da qeyd edək ki, Ə.Ş. Təhməzov erməni təcavüzü başladığı vaxtdan etibarən (1988-ci il) Azərbaycanda qaçqın və məcburi köçkünlər məsələsi ilə ciddi məşğul olmuş, isti ocaqlarından didərgin düşmüş soydaşlarımızın işlə təmin olunması, onların müvəqqəti məskunlaşmasında yaxından və fəal iştirak etmişdir.

O, 2003-cü ilin oktyabr ayından "Azərrabitəlayihə" İnstitutunda baş mütəxəssis kimi fəaliyyətə başlamışdır.

Tikinti kompleksindəki uğurlarına görə Əli Təhməzov Respublikanın Əməkdar İnşaatçısı və Respubliknın Əməkdar Mühəndisi fəxri adlarına layiq görülmüşdür.



Tərlanov
Zöhrab
İsmayıl bəy oğlu

10 dekabr 1939-cu ildə Şamaxı rayonunun Bəylər kəndində dünyaya göz açıb. Bəy nəslindən olan Zöhrab Tərlanov elə uşaq yaşlarından fərqlənib, tərbiyəsilə hamının diqqətini cəlb edib. Şamaxıda 8 illik təhsilini bitirən kimi atası İsmayıl bəy balaca Zöhrabı Bakıya gətirib.

Z.Tərlanov 1953-cü ildə Bakı Neft Texnologiya Texnikumuna qəbul olunub. Dörd il sonra 1957-ci ildə "Sənaye və Mülki Tikinti üzrə" mühəndis ixtisası alıb. Zöhrab Tərlanovun istehsalat həyatı da elə bu vaxtdan başlayıb. Təyinatını Salyan rayonuna alan gənc mütəxəssis burada tikinti meydançalarında çalışıb. Əvvəl fəhlə, briqadir, iş icraçısı sonra sahə rəisi vəzifəsinə irəli çəkilib. Kənd tikintisində püxtələşən gənc mütəxəssis Z.Tərlanov baş mühəndis vəzifəsinə təyin edilib.

Zöhrab İsmayıl bəy oğlunun işgüzarlığı respublika Kənd Tikinti Nazirliyinin və Salyan rayon rəhbərliyinin diqqətini cəlb edib. Ən mürəkkəb layihələr "Zöhrab müəllimin espertizasından" keçəndən sonra çox asanlıqla həyata vəsiqə alıb. Bu layihələrin sayı bir deyil, beş deyil, onlarladır.

Zöhrab Tərlanov 1977-ci ilin iyun ayında respublika Kənd Tikinti Nazirliyinin Neftçaladakı 27 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsinə rəis göndərildi. Neftçala az vaxtda öz simasını dəyişdi. Yaşayış evləri, sosial mədəni obyektlər ucaldıldı, parklar, xiyabanlar salındı. Neftçala sanki Sankt-Peterburqu xatırladı. Axı, Sankt-Peterburq dünyanın ən gözəl şəhərləri sırasında idi. Neftçalanı kərpic-kərpic tikən Zöhrab müəllimlə, onun iradları, səmərələşdirici təklifləri ilə istər nazirlik, istərsə də rayon rəhbərliyi hesablaşırdı. O, bir el ağsaqqalı, mütəxəssis kimi həmişə haqq tərəfində idi.

Neftçalada quşçuluq fabrikinin vaxtından əvvəl tikilib başa çatdırılması Zöhrab Tərlanova başucalığı gətirdi. Ona pul mükafatları, fəxri fərmanlar verildi. Ən böyük mükafatı isə rayonun zəhmət adamlarının onun əməyinə verdiyi yüksək qiymət, təşəkkürlər oldu.

Salyanın Xalac kəndində inşa etdiyi orta məktəb binasının tikintisindən, onun keyfiyyətlə inşasından elə bu gün də fəxrlə söz açılır. Zöhrab Tərlanovun yadigarları saysız-hesabsızdır. Mədəni-məişət ocaqları, sosial təyinatlı obyektlərlə yanaşı, ictimai heyvandarlıq binalarından, süd-əmtəə fermalarından bu gün də istifadə edilir.

Zöhrab Tərlanov köməksizlərə dayaq durub. Neftçala-Salyan bölgəsində yaşayanların xeyir və şər məclislərində yaxından iştirak edib. Çoxları elə bilirdi ki, xeyriyyəçi Zöhrab Tərlanov bu bölgədə doğulub. Hər ailə, hər ev Zöhrabı özününkü sayırdı.


1980-ci ilin iyunun 8-dək Neftçaladakı 27 nömrəli MSD-də rəis işləyən Zöhrab Tərlanovun əmək fəaliyyətinin 1980-87-ci illəri Cəlilabadla bağlıdır. O, 1980-84-cü illərdə "Cənubmuğansutikinti" trestinin təsərrüfat hesablı tikinti idarəsinin rəisi, sonra trestin müdir müavini vəzifələrində çalışıb.

O, tapşırılan işi yüksək səriştə və peşəkarlıqla icra edən bir rəhbər olduğu üçün onun əməyi hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.

Respublika Üzümçülük və Şərabçılıq üzrə Dövlət Komitəsinin Cəlilabaddakı 5 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsinə müdir təyin olunan Zöhrab Tərlanov az vaxtda kollektivi qabaqcıllar cərgəsinə çıxara bildi. Dəstənin debitor və kreditor borclarını ləğv etdi.

Zöhrab Tərlanov Kənd Tikinti Nazirliyinin Cəlilabaddakı 35 nömrəli Mexanikləşdirilmiş Səyyar Dəstəsinə rəis təyin edildi. O, yeni idarədəki fəaliyyətinə uzun müddət tikintisi yarımçıq qalmış Kovuzbulaq kəndindəki orta məktəb binasından başladı. Həyəcan təbili çalan yeni rəis Zöhrab Tərlanov əlaqədar rəhbər təşkilatların diqqətini bu tikintiyə yönəltdi. Qərargah yaratdı. İş cədvəli tərtib etdi. İnşaat materialları ilə obyekt dəstləşdirildi. Nəticədə 506 yerlik Kovuzbulaq məktəbi yeni dərs ilində öz qapılarını şagirdlərin üzünə açdı. Daha sonra rayonun Sabirabad kəndində 624 yerlik orta məktəb binası, rayon mərkəzində 2 ədəd beşmərtəbəli yaşayış binaları və 90 yerlik uşaq bağçası tikib vaxtından əvvəl istifadəyə verildi.

Vaxtsız ölüm bu xeyirxah insanı 26 avqust 2004-cü ildə aramızdan apardı. Lakin əbədiyyatə qovuşan Zöhrab Tərlanovun ocağında respublika daxili işlər orqanlarında çalışan Elman və Mehman, ata yolunun davamçısı Rauf kimi oğullar, Elnur, Varis, Əlişad, Tərxan, Cavid, Uğur, Ülvi və Elmir kimi nəvələr böyüyür. 2012-ci ildə orta məktəbi qızıl medalla bitirib Bakı Ali Neft Məktəbinə daxil olan prezident təqaüdçüsü Ümüd Elman oğlu Tərlanlı da Zöhrab Tərlanovun ocağında böyüyür.



Topçubaşov
Fikrət
Nəriman oğlu

14 mart 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1968-ci ildə Bakıdakı 1 nömrəli orta məktəbi bitirib Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsinə daxil olmuş və oranı 1973-cü ildə bitirmişdir. Əmək fəaliyyətinə 1973-cü ildə başlamışdır: "Azərbaşmeliosutikinti" İdarəsində iş icraçısı, baş idarənin aparatında böyük mühəndis, iqtisadi təhlil şöbəsinin rəis müavini vəzifələrində çalışmışdır. Bu fəaliyyət illəri ərzində bir sıra mülki və irriqasiya obyektlərinin tikintisində işləmişdir.

F.N. Topçubaşov 1980-ci ilin sentyabr ayında Dövlət Plan Komitəsinə köçürülmüş və orada kənd və su təsərrüfatı tikintisi şöbəsində baş mütəxəssis vəzifəsində çalışmışdır. 1984-cü ildə yenidən "Azərbaşmeliosutikinti" sisteminə qayıtmış və baş idarə aparatında əmək və əmək haqqı idarəsinin rəis müavini, Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri və Hesablama İnformasiya Mərkəzinin kadrlar şöbəsinin rəisi vəzifələrində işləmişdir. 1989-1991-ci illərdə Su Problemlərinin Elmi-Tədqiqat İnstitutunda normativ tədqiqat labaratoriyasının müdiri olmuşdur. 1991-ci ildən 2000-ci ilədək "Azərxüsusisənayeinvest" (ASPİ) məsləhətçi-mühəndis şirkətində icraçı direktor kimi fəaliyyət göstərmişdir.

2000-ci ilin fevral ayından Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru vəzifəsində çalışmışdır.

F.N. Topçubaşov Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunu yaradan, təşkil edənlərdən biridir. Fonda rəhbərlik etdiyi illərdə ölkə prezidentinin məlum sərəncamlarından (2000, 2001, 2003, 2005-ci illərdə) irəli gələn mühüm vəzifələrin uğurla yerinə yetirilməsinə nail olmuş, Biləsuvarda, Füzuli rayonunun Harami düzü ərazisində, Ağdam, Goranboy, Mingəçevir, Ağcəbədi, Abşeron, Yevlax və digər rayonlarda məcburi köçkünlər və qaçqınlar üçün hər cür şəraitə malik təzə qəsəbələrin salınmasında var qüvvəsini sərf etmişdir.

V



Veyisov
Sahib
Oruc oğlu

1936-cı ildə qədim Azərbaycan torpağı Zəngibasar mahalının Hacılyas kəndində anadan olmuşdur. Yeniyetmə çağlarında, kənd orta məktəbinin birinci sinfində oxuduğu vaxtda valideynləri ilə birlikdə doğma yurdlarından erməni daşnakları tərəfindən qovulmuş və 1949-cu ildə indiki Beyləqan (Jdanov) rayonunun Xalac kəndində məskunlaşmışlar. Bu səbəbdən Xalac kənd məktəbində təhsilini davam etdirmiş və 7-ci sinfi bitirən kimi (1955-ci il) Bakıya gəlib Politexnik Texnikumuna daxil olmuş və 1956-cı ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirərək Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur.

S.O. Veyisov 1960-cı ildə institutu başa vurub təyinatla Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin Sumqayıtdakı bölməsinə gəlmiş, bir neçə il həmin nazirliyin Sumqayıt və Bakıdakı tikinti meydançalarında müxtəlif və məsul vəzifələrdə çalışmış, 1965-ci ildə Moskvada SSRİ Tikinti və Arxitektura Akademiyasının Elmi Tədqiqat İnstitutunda dəmir-beton məmulatlarının istehsalı və keyfiyyəti üzrə Ali Mühəndislər kursunu əla qiymətlərlə bitirmiş, Sənaye və Kənd Tikintisi Nazirliyinin, Baş Kolxozlararası Tikinti İdarəsi sistemlərində trestin baş mühəndisi, inşaat materialları istehsal edən zavodun direktoru və digər məsul və mötəbər işlərdə çalışmışdır (1970-1979-cu illər).

S.O. Veyisov 1979-cu ildən 2000-ci ilədək Kənd Tikintisi Nazirliyinin Xırdalandakı Yüngül Konstruktorlar zavodunda direktor vəzifəsində işlədiyi illərdə ən mühüm buraxılış obyektlərinin yüksək keyfiyyətli dəmir-beton, beton, metal və digər konstruksiyalarla təmin olunmasına bilavasitə başçılıq etmişdir.

1994-cü ildə ölkə prezidenti H.Ə.Əliyevin təşəbbüsü və göstərişi ilə ABŞ-dan alınmış və Azərbaycanda yeganə olan "MYS-120", "MYS-240", "MYS-500" səyyar zavodlar – maşınların köməyilə tikinti işləri aparmaq da bu zavoda həvalə olunmuşdur.

Hazırda təqaüdçüdür. 2008-ci ildən Azərbaycan Ağsaqqallar Şurasının üzvüdür.



Vəliyev
Ağalar
İsrəfil oğlu

1957-ci il iyulun 23 - də Yevlax şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, 1976-cı ildə Mingəçevir Politexnik Texnikumunu, 1989-cu ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. İxtisasca inşaat mühəndisidir.

A.İ. Vəliyev ilk əmək fəaliyyətinə 1976 - cı ildə Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinin Yevlax Dəmir beton məmulatları zavodunda fəhləlikdən başlamış, sonra həmin zavodda laboratoriya mühəndisi, şöbə rəisi, baş mühəndis və direktor vəzifələrində çalışmışdır. 1986-cı ildən Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyinin tabeçiliyindəki "Körpütikinti" kombinatının direktoru, 1993-cü ildən isə 2 nömrəli "Yoltəmirtikinti" trestinin rəisi vəzifələrində işləmişdir.

İşgüzarlığı və geniş istehsalat təcrübəsi nəzərə alınmaqla, 1996 - cı ilin 19 iyununda Respublika Prezidenti, Ümummilli Lider Heydər Əliyev cənabları tərəfindən yüksək etimad göstərilməklə Ağalar Vəliyev "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsinə irəli çəkilmişdir. 1998-ci ildən isə Ağalar Vəliyev həmin şirkətin bazasında yaradılmış respublika əhəmiyyətli "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışır.

Məhz "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində Ağalar Vəliyevin yüksək erudisiyaya və hərtərəfli biliyə malik səriştəli mühəndis olması özünü daha bariz şəkildə göstərmişdir.

Ağalar müəllimin rəhbərlik etdiyi kollektiv tərəfindən yüzlərlə müxtəlif təyinatlı obyektlər tikilmiş, yaxud yenidən qurulmuşdur. İlk növbədə Ərazilərin Bərpası üzrə Dövlət Agentliyinin və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə qaçqın və məcburi köçkün soydaşlarımız üçün salınan qəsəbələrdəki fərdi yaşayış evlərinin, çoxmərtəbəli yaşayış binalarının, sosial obyektlərin tikintisində, yolların və digər kommunikasiya xəttlərinin çəkilişində Ağalar Vəliyevin rəhbərlik etdiyi "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin inşaatçıları daha yaxından iştirak etmiş, öz layiqli töhfələrini vermişlər. Eyni zamanda digər sifarişçilərin – Respublika Nazirlər Kabinetinin, Milli Məclisin İşlər İdarəsinin, Mədəniyyət və Turizm Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Təhsil Nazirliyinin, Milli Elmlər Akademiyasının, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin, "Azərsu" Səhmdar Cəmiyyətinin və digər təşkilatların sifarişi ilə olan obyektlərdə işlər uğurla davam etdirilir.

A.İ. Vəliyevin yüksək təşkilatçılığı, peşəkarlığı və daim yeniliyə can atması nəzərə alınmaqla son illər məhz bilavsitə Ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi ilə "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinə Bakı şəhərində bir sıra mühüm tarixi əhəmiyyət kəsb edən binaların tikintisi, bərpası və yenidənqurulması işlərinin yerinə yetirilməsi həvalə edilmişdir. Belə obyektlərə misal olaraq Heydər Əliyev Sarayında aparılmış bərpa və yenidənqurma işlərini, Milli Məclisdə aparılmış bərpa və yenidənqurma işlərini, Milli Məclisin yeni korpusunun tikintisini, Hesablama Palatası üçün yeni inzibati binanın tikintisini, Rüstəm Mustafayev adına



1



2

1. Heydər Əliyev Sarayı. **2.** Hökumət Evi

Azərbaycan Dövlət İncəsənət Muzeyində aparılan tikinti və yenidənqurma işlərini, Milli Elmlər Akademiyasının əsas binasında aparılan bərpa və yenidənqurma işlərini, Bakı şəhərində Apellyasiya Məhkəməsi üçün inzibati binanın tikintisini və sair tikinti obyektlərini misal göstərmək olar. Bu obyektlərdə işlərin gedişatı ölkə rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Təkcə onu demək kifayətdir ki, 2008–2009-cu illərdə Ölkə Prezidenti cənab İlham Əliyev 17 dəfə "Azəraqrartikinti" Səhmdar Cəmiyyət tərəfindən tikintisi və bərpa işləri aparılan obyektlərdə olmuş və bir gündə 2 obyektin – Milli Məlisin yeni inzibati binasının və Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin təntənəli açılış mərasimlərində şəxsən iştirak etmişdir.

Göründüyü kimi, "Azəraqrartikinti" ASC-nin sədri Ağalar Vəliyevin rəhbərliyi altında ölkənin müstəqillik illərində böyük uğurlar əldə edilmişdir. Səhmdar Cəmiyyətin axırıncı 10 ildə inşa etdiyi və istifadəyə verdiyi keyfiyyətli mənzil-mülki və digər sosial obyektlər buna əyani sübutdur.

Respublikanın tikinti kompleksində uzun illər səmərəli fəaliyyətinə görə Ağalar Vəliyev Ölkə Başçısı cənab İlham Əliyevin 09 aprel 2010-cu il tarixli Sərəncamı ilə Respublikanın Əməkdar Mühəndisi fəxri adına layiq görülmüşdür.

A.İ. Vəliyev 2010-cu ildə 11 saylı Qaradağ seçki dairəsidən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir. O, bir millət vəkili kimi də seçicilərinin etimadını doğruldur, onların qayğı və problemlərinin həlli üçün hər zaman bütün imkanlarından maksimum istifadə etməyə çalışır.

A.İ. Vəliyev həmçinin Azərbaycan Respublikasında inşaat sahəsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 aprel 2012-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ağalar Vəliyev rəhbərlik etdiyi kollektivin üzvlərinin, ehtiyacı olan insanların xeyir, şər işlərində həmişə yaxından iştirak etmiş, vaxtının məhdudluğuna baxmayaraq öz maddi və mənəvi köməkliyini heç vaxt əsirgəməmişdir. Bir sözlə, Ağalar müəllim əsil xalq adamıdır, camaatın xeyirinə – şərinə yarayan barmaqla göstəriləcək sayda rəhbərlərdəndir.

A.İ. Vəliyevin bilavasitə köməkliyi ilə 10 nəfərdən çox soydaşımız müqəddəs Həcc ziyarətində olmuşdur və bu ənənə indi də böyük həvəslə davam etdirilir. Respublikamızın rayonlarında bir neçə müqəddəs ziyarətgah məhz Ağalar müəllim tərəfindən bərpa olunaraq yenidən soydaşlarımızın istifadəsinə verilmişdir.

Ağalar Vəliyev hər cür bürokratçılıqdan uzaq olan əvəzsiz bir rəhbərdir, belə ki, uzun illər müxtəlif təşkilatlarda rəhbər işlədiyi müddətdə, onun kabinetinin qapısında heç vaxt qəbul günlərini göstərən lövhə olmamışdır – aidiyyatı oldu, olmadı, heç vaxt qəbuluna gələnləri naümid qaytarmamış, əksinə səbrlə hər bir vətəndaşı dinləmiş, onların problemlərinin həllinə maksimum köməklik göstərməyə çalışmışdır.

A.İ. Vəliyev ailəlidir. Bir oğul atasıdır.



Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi



Vlasov Sergey Nikolayeviç

1926-cı ildə Voronej vilayətinin Borisoqlebeks şəhərində anadan olmuşdur. 1950-ci ildə Novosibirsk Nəqliyyat Mühəndisləri İnstitutunu bitirmiş və ilk əmək fəaliyyətinə Bakı metro tikintisində adı usta kimi başlamış və 22 il ardıcıl olaraq bu sahədə işləyərək pillə-pillə yuxarı qalxmış və uzun müddət "Bakımetrotuneltikinti" nin baş mühəndisi vəzifəsində çalışmışdır.

S.N. Vlasovun rəhbərliyi altında 12,5 kilometr uzunluğunda metro xətti istifadəyə verilmişdir. Onun səmərəli təklifləri, yeni texnikanın tətbiqi, qabaqcıl iş üsullarının yayılması sahəsində apardığı səmərəli işlər Bakı metro tikintisində iş həcminin artmasına, keyfiyyətli görülməsinə müsbət təsir etmişdir.

S.N. Vlasov 1972-ci ildə SSRİ Nəqliyyat Tikintisi Nazirliyinin sərəncamı ilə Nazirliyin Moskvadakı "Başmetrotuneltikinti" İdarəsində baş mühəndis vəzifəsinə təyin edilmiş və əmək fəaliyətini burada davam etdirmişdir. O, Baykal-Amur dəmiryolunun çəkilişində, Çernobıl qəzasının aradan qaldırılmasında fəal iştirak etmişdir. 1988-1990-cı illərdə "Braitskimetrotikinti" da baş mühəndis vəzifəsində işləmişdir.

S.N. Vlasov 1990-cı ildən Rusiya Tuneltikinti Birliyində sədrin birinci müavini vəzifəsində çalışır.

S.N. Vlasov Rusiya Federasiyasının Nəqliyyat Akademiyasının dağşünaslıq emləri üzrə akademikdir.

İstehsalatdakı və xüsusilə tikinti kompleksindəki uğurlarına görə Azərbaycan SSR-in "Əməkdar Mühəndis" i fəxri adına layiq görülmüşdür. O, SSRİ Dövlət Mükafatı Laureatı adını almış, SSRİ Nazirlər Sovetinin fəxri mükafatına layiq görülmüş, Rusiya Federasiyasının bir neçə orden və medalları ilə təltif edilmiş, fəxri nəqliyyat işçisi adını almışdır.

S.N. Vlasov tunel və metrotikinti üzrə bir neçə kitabın və sanballı məqalələrin müəllifidir.

Z

Zeynalov
Faiq
Səfərəli oğlu

1936-cı ildə Ağstafa şəhərində anadan olmuşdur. 1944-cü ildə 22 nömrəli Ağstafa dəmiryol orta məktəbinə daxil olmuş və 1954-cü ildə oranı müvəfəqiyyətlə bitirmişdir. 1954-cü ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş və 1959-cu ildə inşaatçı-mühəndis ixtisasını qazanmışdır.

F.S. Zeynalov 1960-1963-cü illərdə "Qaradağneft" mədənlər idarəsinin tikinti-quraşdırma sexində tikinti üzrə usta və iş icraçısı işləmiş, neftçilər üçün yaşayış evlərinin tikintisində fəal iştirak etmişdir. 1963-1964-cü illərdə Bakı Baş Tikinti İdarəsinin 15 nömrəli tikinti idarəsində iş icraçısı işlədiyi illərdə çox vacib obyektlərin keyfiyyətlə tikilib vaxtından əvvəl istismara buraxılmasında əməyi çox olmuşdur. Bakının ən görkəmli yerində – Hüsü Hacıyev küçəsində bəstəkarlar üçün tikilmiş yaşayış evinin iş icraçısı olub.

F.S. Zeynalov 1964-cü ildən 1982-ci ilədək həyatını meliorasiya və su tikintisi sisteminə həsr etmişdir. Əvvəlcə Kür-Araz Su Tikintisi Baş İdarəsinin (sonralar "Azərbaşmeliosutikinti" və indki "Azərsutikinti" SC) Ağstafadakı 15 nömrəli tikinti idarəsində iş icraçısı və həmin idarənin baş mühəndisi (1967-1968-ci illər) və rəisi (1968-1974-cü illər) vəzifələrində çalışmışdır. Onun bilavasitə rəhbərliyi altında Ağstafa su dəryaçası istismara buraxılmış (1971-ci il) və rəsmi açılışında o zamankı Azərbaycan KP MK-nın birinci katibi, Ümummilli lider H.Ə. Əliyev iştirak etmişdir.

15 nömrəli tikinti idarəsi Qazax bölgəsində öz işini tam başa çatdırdığına görə 1972-ci ilin yanvarından Tərtər rayonuna köçürülür. Bu idarə Tərtərçay dəryaçasının sağ sahil kanalında çox vacib işlər aparır. 1974-cü ildə "Qarabağmeliosutikinti" trestinə baş mühəndis vəzifəsinə irəli çəkilir. O, bu vəzifədə 1975-ci ilin sonuna kimi işləyir. 1975-ci ilin sonunda ona daha böyük etimad göstərilir və Kürdəmirdəki "Şirvanmeliosutikinti" trestinə rəhbərlik etməyə başlayır, 1982-ci ilədək bu vəzifədə işləyir. 1976, 1978 və 1979-cu illərin yekunlarına görə "Şirvanmeliosutikinti" trestinin kollektivi Sov. İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİLKGİ MK-nın və ÜİHİMŞ-nin Keçici Qırmızı bayraqları ilə təltif olunmuş və adı daimi olaraq SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin fəxri kitabına yazılmışdır.

F.S. Zeynalov 1982-1985-ci illərdə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin Qazaxdakı 7 nömrəli tikinti trestində müdir işləmişdir.

Diqqət!

Kitab keçmiş Azərbaycan Respublikası
Dövlət Tikinti və Arxitektura Komitəsində
2003-cü ilin yanvar ayında tərtib və təsdiq edilmiş siyahı,
hazırda ölkə tikinti kompleksində təmsil olunan
səhmdar cəmiyyətlərinin, MMC-lərin,
tikinti yönümlü firma və qurumların rəhbərlərinin
təqdim etdikləri siyahı, tanınmış alimlərin,
peşəkar inşaatçıların rəyi və
"İnşaatçı"- "Stroitel" qəzetlərinin arxiv materiallarından
istifadə edilməklə hazırlanmışdır.

Kitab fiziki şəxs
Allahverdiyev Zərbalı Mirzə oğlu
tərəfindən çapa hazırlanmış və nəşr olunmuşdur.
(VÖEN 1002057802)

Minnətdarlıq

"Azərbaycan Tikinti Kompleksinin Ensiklopediyası" kitabının 1-ci cildinin 2-ci nəşri müəyyn əlavə və dəyişikliklərərlə artıq hazırdır. Və biz kitabın materiallarının toplanmasında yaradıcı kollektivə hərtərəfli dəstək verən inşaatçılarımıza, kitabın çapında xüsusi rolu olan bir sıra inşaat kollektivlərinin rəhbərlərinə böyük və səmimi minnətdarlığımızı çatdırmaq istərdik. Hansı ki, bu kitab onların sırf vətəndaş təəssübkeşliyi sayəsində və təmənnasız maddi-mənəvi dəstəkləri ilə çap olunmuşdur.

Biz hər zaman sənətinin fövqündə dayanan, ən xeyirxah peşə sahibləri olan Siz inşaatçılarımıza güvənmişik və bu gün də güvənirik.

Hər zaman belə olacaq.

Kompüter səhifələyicisi, üz qabığının dizaynı: ***Niyazi Sadıqov***

Operator: ***Həmid Allahverdiyev***

Məsul korrektor: ***Niyazi Sadıqov***

Korrektorlar: ***Südabə Mehdiyeva***
Şəfiqə Babaşova

Çapa imzalanmışdır: 25.11.2012
Formatı 54x84 1/8. Fiziki çap vərəqi 21
Ofset çap üsulu. Tiraj 400. Sifariş 427

Kitab "Yeni Poliqrafist" mətbəəsində
çap olunmuşdur.